R.N. İVANOV

# BASQIN

## BOLŞEVİKLƏRİN SOVET TORPAĞI QƏDİM NAXÇIVANDA AZĞINLIQLARI HAQDA ACI HƏQİQƏTLƏR

**R.N. İVANOV**

**Bolşeviklərin sovet torpağı qədim Naxçıvanda azğınlıqları haqda acı həqiqətlər.**

Kitabda arxiv sənədləri və qəzet materialları əsasında Naxçıvan diyarının 1920 – 1926-cı illər üzrə tarixi təsvir olunur. 1920-ci ildə daşnak Ermənistanının qoşunları taxıl məhsulu və ərzaq ehtiyatlarını məhv edərək dinc Naxçıvan diyarını xarabalığa çevirdi, ancaq onu ələ keçirə bilmədi. 1920-ci ilin iyulunda Naxçıvan sovetləşdikdən sonra bolşeviklər başı çox bəlalar çəkmiş bu diyarı elə həmin il dekabrın 1-də Sovet Ermənistanına birləşdirmək qərarına gəldilər. Azərbaycan SSR-in elan etdiyi deklarasiya Kreml tərəfindən də bəyənildi. Ancaq bu faciə baş vermədi və 1924-cü ilin fevralında Naxçıvan diyarı Azərbaycanın protektoratlığı altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Naxçıvan MSSR) statusunu qazandı.

1925-ci ilin martında SSRİ Xalq Komissarları Şurasının sədri A.İ. Rıkov Zaqafqaziyaya səfəri zamanı Naxçıvan MSSR-də hökm sürən yoxsulluq və səfalətdən dəhşətə gəldi, onun düşdüyü bu acınacaqlı vəziyyəti "sovet nizamsızlığı" adlandırdı və Azərbaycan hökumətini Naxçıvan MSSR-in dünya inqilabi ideyalarına xidmət etməsi, nümunəvi sovet respublikasına çevrilməsi, Yaxın Şərq ölkələri üçün isə Sovet hakimiyyətinin əyani təşviqat vasitəsi olması naminə təcili tədbirlər görməyə çağırdı.

Azərbaycan rəhbərliyi yoxsulluq içərisində boğulan respublikaya köməklik göstərmək əvəzinə, məsuliyyətdən yayınaraq "sovet nizamsızlığının" səbəbini Naxçıvan MSSR-də dövlət hakimiyyətinin "xan-bəy ünsürləri" tərəfindən ələ keçirilməsi ilə izah etdi. 1925-ci il martın sonunda oraya Azərbaycan SSR Xalq Daxili İşlər komissarı M.Bağırovun sədrliyi altında qeyri-məhdud səlahiyyətlərə malik Xüsusi Komissiya göndərildi. Zaqafqaziya Diyar Komitəsinin katibi G.K.Orconikidze komissiyaya "tam qətiyyətlə hərəkət etmək" ixtiyarı vermişdi.

"Qara siyahı"ya düşən 50 məsul işçidən 48-i repressiya edildi. Komissiyanın qərarı ilə 13 rəhbər işçi partiya sıralarından xaric olundu, 40 nəfər həbs edilərək xüsusi vaqonlarda Bakıya gətirildi. Ailələrdə "Varfolomey gecəsi"ni xatırladan dəhşət və qorxu yaratmaq üçün həbslər gecə vaxtı – 1925-ci il aprelin 5-dən 6-na keçən gecə həyata keçirildi. Səfalət və yoxsulluğa düçar olmuş sovet Naxçıvanını zorakı yolla proletar həyat tərzinə uyğunlaşdırmaq siyasəti heç bir uğur qazanmadı. Xüsusi Komissiyanın dinc Naxçıvana basqını yalnız sovet quruluşunu rüsvay etdi. Azərbaycan SSR Xüsusi Komissiyasının "Son dərəcə məxfi" qrifli məruzəsi ilk dəfə bu kitabda nəşr olunur.

Məruzədən əlavə, kitabda qismən və yaxud tam şəkildə 160 arxiv və qəzet materialı verilir; qəzet materiallarına mətbuatda dərc olunmuş rəsmi məlumatlar, müsahibələr və oçerklər daxildir. Əlavələrdə Xüsusi Komissiyanın dörd üzvü haqqında bioqrafik məlumatlar, həmçinin inqilabdan əvvəlki və indiki ölçü vahidləri təqdim edilir.

Kitab Azərbaycan Respublikasının, xüsusilə də Naxçıvan Muxtar Respublikasının vətəndaşları, habelə tarixi həqiqətlərə dəyər verən bütün oxucular üçün böyük maraq doğuracaqdır.

© Müəllif mətni və illüstrasiyalar
**R.N. İvanov, 2009**

# MÜNDƏRİCAT

**Müqəddimə** (ön söz əvəzi)........................................................................ 4
**Fəsil I. UNUDULMUŞ UCQAR SOVET ƏYALƏTİ**............................ 19
1. Bolşeviklər Naxçıvanı ələ keçirdilər: dağıntı və aclıq davam edir.....21
2. Nəriman Nərimanov sovet Naxçıvanını sovet Ermənistanına bağışlayır.....................................................................42
3. Naxçıvanın mətinlik sınağı. Azərbaycanın əvəzinə köməyə Mustafa Kamal Atatürk gəlir..................................................................59
4. Naxçıvan diyarı sovet Azərbaycanının müdafiəsi altında muxtar respublikaya çevrilir....................................................................86
5. Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvanda "sovet nizamsızlığı"...........................................................111
6. Zaqafqaziyada uzunmüddətli mart matəmi.....................................128
7. 12 №-li mavi vaqonda şər əməl Orconikidzedən – Bağırova: "Tam qətiyyətlə hərəkət etmək lazımdır".............................................139
**Fəsil II. NAXÇIVAN DİYARININ TƏHQİQİ ÜZRƏ XÜSUSİ KOMİSSİYANIN MƏRUZƏSİ**..............................................145
1. Giriş.......................................................................................................151
2. Tarixi-coğrafi icmal............................................................................ 156
3. Partiya-siyasi vəziyyət........................................................................ 167
4. Həmkarlar işi....................................................................................... 182
5. Sovet aparatı......................................................................................... 184
6. İqtisadi vəziyyət.................................................................................... 206
8. Nəticələr və təkliflər............................................................................. 256
7. Əlavələr.................................................................................................. 277
**Fəsil III. ŞƏRİN AĞUŞUNDA QƏDDARLIĞIN VƏ XEYİRXAHLIĞIN BƏRAƏTİ**............................................................ 339
1. Sovet hakimiyyəti xüsusi komissiyanın hərəkətlərinə bəraət qazandırır.............................................................................................. 341
2. Sovet mətbuatı Naxçıvanın ənənə və məişətini pozmağa xidmət edir............................................................................................ 369
3. Naxçıvan uydurması və gələcəyə ayıq baxış.................................. 394
4. İki yubiley............................................................................................. 407
**SON SÖZ ƏVƏZİ**.................................................................................. 415
Naxçıvanın dirçəliş və çiçəklənmə epoxası Heydər Əliyevlə başlamışdır............................................................................................. 417
**ƏLAVƏ 1.** Xüsusi komissiyanın üzvləri haqda bioqrafik məlumatlar...... 445
**ƏLAVƏ 2.** İnqilabdan əvvəlki Rusiyada bəzi ölçü vahidləri və onların indiki ölçü vahidləri ilə uyğunluğu....................................... 463

# MÜQƏDDİMƏ

Sovet Azərbaycanının hökumət komissiyası tərəfindən Naxçıvan Respublikasının təhqiq edilməsi barədə sarsıdıcı xəbər 1925-ci ilin aprelində bütün Zaqafqaziyaya yayıldı və ildırım sürəti ilə SSRİ-nin paytaxtına gəlib çatdı. Məlum oldu ki, Sovet Azərbaycanının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında (Naxçıvan MSSR-də) bolşevik hökuməti yalnız kağız üzərində mövcuddur. 1920-ci ilin iyulunda Naxçıvanda silah gücünə sovet hakimiyyəti qurulduqdan sonra, demək olar ki, beş il ötsə də, Naxçıvan MSSR-ə hələ də əvvəlki xanlar, bəylər, mülkədarlar, müsavatçılar rəhbərlik edirlər; doğrudur, artıq indi onlar Azərbaycan Kommunist Partiyasının biletlərinə də sahibdirlər.

Bu sarsıdıcı xəbər hansısa bitərəf və korafəhm bir proletarın dilindən çıxmamış, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədr müavini, Xalq Daxili İşlər komissarı və Fövqəladə Komissiyanın sədri yoldaş **Mircəfər BAĞIROV** tərəfindən bütün Sovet İttifaqına bəyan edilmişdi. Və bu, həm də Respublikanın möhtəşəm bir təntənəyə – Azərbaycanda sovet hakimiyyətinin qurulmasının beş illik yubileyinə hazırlaşdığı bir dövrdə baş vermişdi.

Yəni, Azərbaycan SSR-in liderlərindən biri, bir partiyaçı və çekist kimi öz fəaliyyət istiqaməti ilə bütün Azərbaycan ərazisində Sovet hakimiyyətinin və proletar qayda-qanunlarının fəaliyyətini təmin edən, gecəbəgündüz maskalanmış əks-inqilabçıların izinə düşən və onları amansızcasına cəzalandıran yoldaş Bağırov birdən-birə diqqətsizliyə yol vermiş, hansısa bir balıqçılıq artelini və yaxud bolşevik partiyası özəyinin zəif olduğu ucqar bir kəndi deyil, Sovet Azərbaycanının böyük bir sərhəd ərazisini – Naxçıvan Muxtar Sovet Sosialist Respublikasını dünya inqilabının düşmənlərinin qucağına atmışdır. Bolşevik Kremlinin planlarına görə Naxçıvan MSSR Yaxın Şərq üçün sovet hakimiyyəti və çiçəklənməkdə olan zəhmətkeş həyatının əyani və bariz nümunəsinə çevrilməli idi.

Bu, hətta ağıldan kəm insanın belə düşünə bilməyəcəyi, sözün əsl mənasında, böyük siyasi sarsaqlığın baş generatoru M.Bağırovu Sovet Azərbaycanının partiya lideri, Azərbaycan Kommunist bolşeviklər Partiyasının katibi yoldaş Əliheydər Qarayev nəinki dayandırmadı, həm də hərtərəfli müdafiə etdi. Naxçıvanda hədsiz-hüdudsuz qanunsuzluqlar törətmək və başı çox bəlalar çəkmiş bu qədim diyarın tarixində özləri barədə xoşagəlməz xatirə qoyub getmək, sanki onların alnına yazılmışdı.

Azərbaycan hökuməti və Kommunist Partiyasını rüsvay edən bu absurd planı mümkün qədər tez dəfn etmək üçün 1925-ci ildə, yubiley ilində Sovet Azərbaycanının Olimpində güc və müdriklik tapılmadı, halbuki dünyada ilk proletar dövlətinin təşkilatçısı və rəhbəri V.İ.Lenin ölümündən bir qədər əvvəl bütün dünyaya bəyan etmişdi ki, artıq SSRİ-də əks-inqilabçıların ağalıq etdiyi heç bir ərazi qalmamışdır. SSRİ-nin bütün ərazisi bolşevik hakimiyyətinin nəzarəti altındadır.

Bəs, bütün əsrlərdə öz müstəqilliyi, azadlıq sevgisi, qəhrəmanlıq və mənəvi ənənələri ilə məşhur olan qədim Naxçıvan torpağında nə baş vermişdi? Vətəndaş müharibəsi illərində viran edilən, barbar daşnaklar tərəfindən xarabalığa çevrilən, sovetləşəndən sonra isə Sovet Azərbaycanının hakimiyyət orqanları tərəfindən, hətta aclıq dövründə belə tamamilə unudulan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında nələr olmuşdu?

Azərbaycan Sovet Sosialist Respublikası 1925-ci il aprelin 28-də həqiqətən də təntənəli və təmtəraqlı surətdə öz beş illik yubileyini qeyd etməyə hazırlaşırdı. Beş il əvvəl Müsavat partiyasının rəhbərlik etdiyi "mənfur" Azərbaycan Xalq Cümhuriyyəti hökuməti devrilmişdi. Yubiley ərəfəsində Sovet Azərbaycanı Moskvadan yüksək səviyyəli qonaqları qəbul etmişdi. Sovet quruluşunun nailiyyətlərini nümayiş etdirmək üçün Azərbaycanın partiya və hökumət rəhbərləri SSRİ rəhbərliyini inandırmağa çalışırdılar ki, Yaxın Şərqdə dünya inqilabını həyata keçirməkdə Sovet Azərbaycanı ən etibarlı əməliyyat meydanıdır. Ancaq, Azərbaycanın beş ildə qazanmış olduğu sovet və partiya nailiyyətlərinin bu təntənəsinə SSRİ Xalq Komissarları Sovetinin sədri yoldaş **A.İ.RIKOVUN**

qəfil və kəskin çıxışı ciddi kölgə saldı.

1925-ci il martın 10-da Naxçıvanda, bir qədər sonra isə Bakıda Sovetlərin IV qurultayının böyük tribunasından A.İ.Rıkov sovet ucqarı Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında mövcud olan acınacaqlı vəziyyət barədə danışdı. Naxçıvan Respublikasında xalq təsərrüfatının bərbad vəziyyətdə olmasını, əhalisinin isə dilənçi vəziyyətinə düşməsini **"sovet nizamsızlığı"** adlandıran A.İ.Rıkov AKP və Azərbaycan SSR Xalq Komissarları Soveti rəhbərlərinin diqqətini təkcə sovet quruluşunda böyük yanlışlığa deyil, həm də dünyada ilk proletar dövlətinin başlıca strateji xəttinin – Yaxın Şərqdə dünya inqilabının – həyata keçirilməsində təhriflərə yol verildiyinə yönəltdi. Sanki yoldaş Rıkovun gördüyü "sovet nizamsızlığı" Azərbaycanın başqa bir bölgəsində, hətta paytaxt Bakının özündə belə baş vermiş olsaydı, onda bu, o qədər acınacaqlı sayılmazdı. Sərhəd bölgəsi olan Naxçıvan MSSR-də yaranmış faciəvi vəziyyəti isə A.İ.Rıkov hamıya, bütün Sovet İttifaqına və dünyaya bəyan etmişdi.

Azərbaycan rəhbərləri bilirdilər ki, yoldaş Rıkovun çıxışında Azərbaycanda Yaxın Şərq, xüsusilə də Türkiyə və İran üçün sovet quruluşunun canlı, əyani təşviqat vasitəsinə çevrilə biləcək nümunəvi sovet respublikası yaratmağın zəruriliyi haqqında dünya proletariatının dahi rəhbəri V.İ.Leninin göstərişlərinə etinasız yanaşıldığı nəzərdə tutulur.

Kremlin fikrincə, Türkiyə və İran əhalisi, xüsusilə də kəndlilər Naxçıvan Muxtar Respublikası əhalisinin yaşayış səviyyəsi, kənd təsərrüfatının çiçəklənməsi və sənayesinin inkişafı, buradakı sovet qayda-qanunlarının ədalətliliyi əsasında proletar hakimiyyətinin danılmaz üstünlükləri barədə fikir yürüdə və bolşeviklər partiyasının SSRİ-də aparıcı rolunu layiqincə qiymətləndirə bilərdilər.

Naxçıvanda dəhşətli yoxsulluq hökm sürdüyünü görən, bu qədim diyarın xarabalıqlarını böyük narazılıq içərisində müşahidə edən SSRİ Xalq Komissarları Sovetinin sağlam düşüncəli sədri A.İ.Rıkovun ağlına heç cür belə bir cəfəngiyat gəlməzdi ki, bu yoxsul sovet respublikasına beş ilə yaxındır sovet hakimiyyəti orqanlarına soxulmuş köhnə dünya nümayəndələri – xanlar, bəylər,

mülkədarlar rəhbərlik edirlər. Çünki həmin o xanlar, bəylər belə bir dərin yoxsulluq içərisində, bu xarabalıqlar arasında yaşamağa qabil deyildilər, buna öyrəşməmişdilər. Bundan əlavə, Naxçıvan xanlar tərəfindən idarə olunduğu dövrlərdə heç vaxt bu qədər kasıb bir diyar olmamışdı.

Lakin sağlam düşüncə, öz günahını düzgün qiymətləndirmək kimi keyfiyyətlər Sovet Azərbaycanının rəhbərlərinə xas deyildi. Onlar SSRİ Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkovun Naxçıvan Respublikasının acınacaqlı vəziyyəti barədə göstərişlərinə düzgün və obyektiv reaksiya vermədilər. Vətəndaş müharibəsi dövründə fəlakətlə üzləşən, daşnakların viran və talan etdiyi bu ucqar sovet əyalətinin yenidən dirçəlişində yol verilən sabotaja görə SSRİ rəhbərliyi tərəfindən haqlı cəzaya məruz qalacağından qorxan Azərbaycan sovet hökuməti (M. Bağırov) və Azərbaycan Kommunist Partiyası (Ə. Qarayev) yalan və siyasi saxtakarlıq yolunu tutdu.

Yoldaş Rıkovun tapşırığını yerinə yetirmək məqsədilə Naxçıvan MSSR-də yaranmış vəziyyəti araşdırmaq üçün 1925-ci il mart ayının sonlarında oraya tərkibi Azərbaycan Xalq Komissarları Soveti sədrinin müavini yoldaş **M.C.BAĞIROV** (sədr), AK(b)P Mərkəzi Komitəsinin katibi yoldaş **Ə.QARAYEV**, AK(b)P Mərkəzi Nəzarət Komissiyasının məsul katibi yoldaş **S.İ.QOROBÇENKO,** Azərbaycan Fəhlə-Kəndli Müfəttişliyi Xalq komissarının müavini yoldaş **İ.İ.DÖVLƏTOV** və Zaqafqaziya Fövqəladə Komissiyasının sədr müavini yoldaş **E.A.KVANTALAİNİDƏN** ibarət olan fövqəladə səlahiyyətlərə malik Xüsusi hökumət komissiyası göndərildi.

Əlbəttə, Zaqafqaziya və Azərbaycan hakimiyyətləri Naxçıvanda dövlət hakimiyyətinin guya əksinqilabçı ünsürlər tərəfindən ələ keçirildiyi barədə Bağırovun qızdırmalı təsəvvürünü soyutmaq, onun qaynar enerjisini Naxçıvan MSSR-də kənd təsərrüfatının dirçəlişinə və sənayenin ilkin rüşeymlərinin inkişafına yönəltmək imkanına və hüququna malik idi. Xüsusilə də Xüsusi Komissiyanın Azərbaycan SSR hökumətinin yanlışlıqlarını qəbul etmək, Sovet hakimiyyətinin azadlıq, bərabərlik və qardaşlığa dair niyyətlərini Naxçıvanda nümayiş etdirmək, İliçin kəndlilərlə ünsiyyətini, onun proletariatla çoxsaylı görüşlərini xatırlamaq, Xalq Komissarları

Soveti üzrə V.İ.Leninin varisi A.İ.Rıkovun Azərbaycandakı çıxışlarını dəfələrlə saf-çürük etmək və yoxsullaşmış Naxçıvan MSSR-in yenidən dirçəlməsinə səy göstərmək üçün böyük şansı var idi.

Xüsusi Komissiyanın sədri **Mircəfər BAĞIROVUN** şəxsiyyətindən yan keçərsək, bolşeviklərin qədim Naxçıvan torpağına basqını haqda hekayətimiz tam olmayacaqdır.

1925-ci ildə xalq komissarı M.Bağırovun cəmi 29 yaşı vardı. Aşağı səviyyəli təhsilə malik olan, əmək fəaliyyətinə haradasa kənd müəllimi kimi başlayan Bağırov (öz avtobioqrafiyasında o, həyatının çox az bilinən bu qısa dövrü barədə çox da ətraflı məlumat verməmişdir) artıq 23 yaşında ikən, Azərbaycanda silahlı yolla Sovet hakimiyyətini qurmuş olan 11-ci Qırmızı Ordunun Xüsusi şöbəsinin tanınmış çekistinə çevrilmişdi.

Mircəfər Bağırov, heç şübhəsiz, anadangəlmə istedada malik idi, onda dövlət səviyyəli şəxsiyyət üçün yaxşı rüşeymlər mövcud idi. Sovet hakimiyyət orqanları bunu görmüş, onu Sovet Azərbaycanında yüksək rəhbər vəzifələrə çəkmişdi. Azərbaycan Fövqəladə Komissiyası və Dövlət Siyasi İdarəsinə, Xalq Daxili İşlər Komissarlığına başçılıq edən, Sovet Azərbaycanının Xalq Komissarları Sovetinin sədr müavini vəzifəsinədək yüksələn Bağırov çox tez bir vaxtda minlərlə insanın müqəddəratını həll edən bir şəxsə çevrilmişdi. Fərqli düşünməkdə, xüsusilə də çar və ya müsavat hökumətinə xidmətdə azacıq şübhəyə görə, o, həm yüksək vəzifəli partiya xadimlərini, həm də adi insanları repressiyaya məruz qoyurdu.

Sovet Azərbaycanının rəhbərləri Bağırova inanırdılar, Kreml də ona etibar edirdi. Hakimiyyət nəşəsindən bihuş olan Bağırov, hakimiyyətin başlıca təyinatının şər deyil, xeyirxahlıq içərisində xalqın rifahını təmin etmək olduğunu anlamırdı. Şərin özü belə xeyirxahlığın xidmətində dayanmalı idi.

Hansı hakimiyyət olursa olsun, əgər xalq onu qəbul edibsə, onun, əhalinin taleyin hökmü ilə əvvəlki hakimiyyətin xidmətində olmuş hissəsini – xüsusilə də əgər əhalinin bu hissəsi yeni hakimiyyəti qəbul edibsə və ondan faydalı şəkildə istifadə oluna bilərsə – təqib etmək hüququ yoxdur. Bağırovun bütün çoxillik

fəaliyyəti isə daim düşmən obrazı axtarmaqdan və guya yalnız proletar diktaturası və kommunizm ideyalarının təntənəsi naminə həmin düşməni məhv etməkdən ibarət olmuşdur.

Burada kiçik bir haşiyə çıxmaq yerinə düşərdi.

Bolşeviklər 1917-ci ilin oktyabrında hakimiyyəti ələ keçirdikləri və sonra onu əllərində saxladıqları zaman əvvəlki dünyanın (İmperator Rusiyasının, AXC-nin və s.) hərbi və digər kadrlarından geniş istifadə etməsəydilər, bolşevik hökuməti bir-iki həftənin içindəcə məhv olardı. Görkəmli sovet sərkərdələrinin, xalq komissarlarının və tanınmış sovet müəssisə işçilərinin bir çoxu əvvəlki hakimiyyətlərə qulluq etmiş, ancaq sonda Vətəni tərk etmək, qürbət ölkələrdə sərgərdan kimi dolaşmaq istəməyən və buna görə də sovet hakimiyyətini qəbul edən insanlar olmuşdur. Onların, hətta ürəkdən sevməsələr belə, sovetlərə sədaqətlə xidmət etmələrini müqəddəs "ŞƏRƏF" anlayışı diqtə etmişdi.

Mircəfər Bağırovun ümumi erudisiyasının aşağı səviyyədə olması, Sovet hakimiyyəti gerçəkliyini qeyri-sağlam qavraması öz proletar mənşəyinə görə yalançı qürur hissi ilə birlikdə ona, yüksək dövlət vəzifələri tutmasına baxmayaraq, müdrik, humanist və mənəvi cəhətdən təmiz olmaqda əngəl törədirdi. Tutduğu dövlət vəzifələrində o, xeyir toxumları səpmir, şər işlərin qanunauyğunluğunu axtarıb tapır və əsaslandırırdı.

Naxçıvana səfərindən və orada Xüsusi Komissiyaya rəhbərlik etməzdən xeyli əvvəl də, ondan sonra da – bütün ömrü boyu Bağırov keçmiş bəylərə, xanlara, qorodovoylara, polislərə və s. və ilaxır qarşı qatı nifrət bəsləmişdir. Öz nəzarətsiz səlahiyyətləri çərçivəsində Bağırov keçmiş dünyaya xidmət etmiş, olanları proletar hakimiyyətinin düşmənləri hesab etmiş və onları repressiya yolu ilə cəzalandırmışdır.

Adama elə gəlir ki, Xüsusi Komissiya Sovet hakimiyyətinin ən nəcib niyyətlərini təcəssüm etdirməli və əlbəttə ki, Naxçıvan MSSR-in təhqiqini qayda-qanuna, sosialist qanunvericiliyinə riayət etməklə, vətəndaş müharibəsi illərində günahsız yerə zillət çəkən, təxminən beş ildir sürən sovet hakimiyyəti dövründə də yoxsul vəziyyətdə qalan yerli xalqa və diyara hörmət göstərməklə həyata

keçirməliydi. Ancaq Xüsusi Komissiya bu cür nəcib niyyətlərdən çox uzaq idi.

İlk iş günündən başlayaraq yeddi gün ərzində (31 mart – 7 aprel 1925-ci il) Xüsusi Komissiya gənc sovet respublikasının fəlakətli vəziyyətini araşdırmadı, yerindəcə yaradıcı tədbirlər müəyyən etməyə, SSRİ Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkovun güman etdiyi kimi, Naxçıvan Muxtar Respublikasına Azərbaycan hökuməti, bəlkə SSRİ hökuməti tərəfindən təcili yardım göstərilməsi barədə tövsiyələr işləyib hazırlamağa cəhd göstərmədi.

Qanunsuz hərəkətlərə əl atmaq və Naxçıvan MSSR rəhbərliyini qorxuya salmaq üçün Xüsusi Komissiyanın sədri M.Bağırov Zaqafqaziya Diyar Komitəsinin katibi G.K.Orconikidzedən müvafiq səlahiyyət istədi, bununla bağlı cavab göstərişində deyilirdi: ***“Tam qətiyyətlə hərəkət etmək lazımdır. Orconikidze.”*** Yeri gəlmişkən, Orconikidzenin bu göstərişi Komissiyanın işə başladığı gündə – 31 martda deyil, onun işinin yekunlaşdığı, qanunsuz hərəkətlərin artıq baş vermiş olduğu gündə – 5 aprel tarixində imzalanmışdır. Beləliklə, G.K.Orconikidze Xüsusi Komissiyanın fəaliyyətinin ona məlum olmayan nəticələrini sonrakı tarixlə təsdiqləmişdir. Xüsusi Komissiya Serqo Orconikidzenin göstərişinədək də tam qətiyyətlə hərəkət etmişdi.

Komissiya leytmotiv kimi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında Sovet hakimiyyətinin bərpa edilməsinin zəruriliyi haqqında yalançı konsepsiyadan istifadə etmişdi və bu, Məruzənin **“Partiya-siyasi vəziyyət”** adlı II Bölməsində əks olunmuşdu. Həmin bölmədən bir neçə çıxarış gətirək:

*“...güclü partiya işinin yoxluğundan və partiya təşkilatının zəifliyindən istifadə edərək, onun sıralarına Sovet hakimiyyətinin nüfuzunu laxladan, bütün pozuculuq işlərini törədən qeyri-kommunist ünsürlər daxil olmuşlar, bu mirasın nəticələri isə yalnız indi aradan qaldırılır...*

*Buna görə də Sovet hakimiyyətinin gəlişindən sonra bütün bəy-xan, mülkədar ünsürləri, keçmiş srajniklər, kətxudalar, dünənki qubernatorlar, müsavat zabitləri, jandarmalar, qorodovoylar Naxçıvan fəhlə və kəndlilərinin geriliyindən istifadə edərək, partiya işini öz*

*əllərinə keçirmişdilər. Kommunist Partiyası ilə tamamilə heç bir ümumi cəhəti olmayan bu ünsürlər... partiya və sovet quruculuğuna rəhbərliyi öz əllərinə almışdılar. Məsələn, əksinqilabi fəaliyyətdə şübhələndiyinə görə yatdığı həbsxanadan Sovet hökuməti tərəfindən yenicə buraxılan Babayev 1921-ci ilin fevralında Partiyaya qəbul edilmiş və elə həmin ilin sonunda artıq Diyar Komitəsinin üzvü olmuşdur..."*

Naxçıvan MSSR-də işlərin vəziyyətinin bu cür təhrif olunmuş və kinli tərzdə şərhinə əsasən Xüsusi Komissiyanın fəaliyyətinin adekvat üslubunun necə olacağını qabaqcadan güman etmək mümkündür. Onun işi əvvəldən axıra kimi qüsurlu olmuş və Sovet hakimiyyətini rüsvay etmişdir.

Məsələn, öz fəaliyyət planı və metodlarını Naxçıvanda uydurulmuş cinayət faktları əsasında – onları törədənlərin adları və s. göstərilməklə – müəyyənləşdirən Komissiya bu materialları Naxçıvan MSSR rəhbərliyindən – Xalq Komissarları Sovetinin sədri Həmid Sultanovdan və AK(b)P-nın Naxçıvan Diyar Komitəsinin katibi Həşimovdan gizlətmək barədə qərar çıxarmışdı (Protokol № 1). (Yeri gəlmişkən, Xüsusi Komissiyanın çoxsəhifəli məruzəsinin heç bir yerində Həşimovun adı göstərilmir. Görünür, Komissiya Naxçıvan Diyar Komitəsi katibinin adını belə müəyyənləşdirməyə vaxt tapmayıb).

Aydındır ki, Xüsusi Komissiya Naxçıvan MSSR-ə bərbad vəziyyətdə olan respublikaya zəruri köməklik göstərmək məqsədilə deyil, onun rəhbərliyi və məsul işçiləri haqda mümkün qədər daha çox ifşaedici dəlillər toplamaq niyyəti ilə yollanmışdı.

Sübh obaşdan sakit Naxçıvana soxulan Xüsusi Komissiya, əvvəlcədən hazırlanmış "qara siyahı"ya uyğun olaraq, Naxçıvan MSSR-in bütün rəhbər və məsul işçilərini vəzifədən azad etdi. Bu məqsədlə toplanan rəhbər kadrlar Bakıdan Naxçıvana gələnə qədər, Komissiya həmin vəzifələrə tələm-tələsik və müvəqqəti olaraq öz xoşuna gələn partiya üzvlərini təyin etdi. Bu müvəqqəti təyin olunanlar işdən çıxarılanları əvəz edə biləcəkdilərmi, bu məqsədlə toplanan kadrlar haçan Naxçıvana gələcəkdi və onlar yeni iş yerlərini necə mənimsəyəcəkdilər, əvvəlkilərdən daha yaxşı işləməyi

bacaracaqdılarmı – bütün bunlar Komissiyanı maraqlandırmırdı. Xüsusi Komissiyanın qəfil "basqını" onsuz da bərbad vəziyyətdə və yarıac olan Naxçıvan MSSR-in ağır həyatını iflic etdi.

Sovet Naxçıvanının ilk illərində sovet hakimiyyət orqanlarının və partiya rəhbərliyinin fəaliyyəti çətin ki, qənaətbəxş ola bilərdi. Xüsusilə də dağıntı, yoxsulluq, işsizlik, yoluxucu xəstəliklər, Respublikanın Bakıdan uzaqlığı və onun bərpası üçün mərkəzləşdirilmiş maddi yardımın yoxluğu şəraitində burada sovet hakimiyyətinin arzu edilən təntənəsi, əlbəttə ki, yox idi. 1925-ci ildə Naxçıvanın sovet quruculuğundakı nöqsanları axtarıb tapmağa enerji sərf etmək lazım deyildi, bunlar onsuz da göz qabağında idi. Bu sovet respublikasını yoxsulluğun caynağından, əhalini qırılmaqdan və yaxud Naxçıvan MSSR-in hüdudlarını tərk edərək hara gəldi qaçmaqdan xilas etmək lazım idi. Naxçıvan sovetləşənə qədər əvvəlki üç il ərzində, Xüsusi Komissiyanın məruzəsində də qeyd edildiyi kimi, "Respublikanın əhalisi təxminən 60 000 nəfər azalmışdı", yəni əhali itkisi dəhşətli bir miqyasa – təxminən 30 faizə çatmışdı. *"Biz bunun izahını,* – Məruzə tərtibçiləri davam edirdi, – *Naxçıvan diyarının 1918 – 1921-ci illərdə yaşadığı qeyri-adi dərəcədə faciəvi və ağır anlarda görürük; o zaman əhali milli daxili ədavətə cəlb edilmiş və həm döyüşlərdə, həm də xəstəlik və aclıqdan fövqəladə itkilər vermişdir".*

Xüsusi Komissiya öz bədxah aksiyaları və kütləvi repressiyaları ilə başı çox bəlalar çəkmiş Naxçıvan xalqının həyatını daha da ağırlaşdırdı. Hökumət komissiyasının mənəviyyatsız əməllərini müşahidə edən Naxçıvan sakinlərində xalqa xoşbəxt həyat vəd edən Sovet hakimiyyətinə qarşı hörmət və rəğbət oyana bilərdimi?

Əhali arasında yayılan, yerinə yetirilməsi mümkün olmayan vədlərlə dolu təşviqat xarakterli müraciətlər məzlum naxçıvanlılar tərəfindən yüzlərlə ərizə göndərilməsinə səbəb olmuşdu (Məruzəyə əlavənin II bölməsi). Komissiya bu ərizələrdə tələb olunanları təmin etməyə çalışmırdı, təmin edə də bilməzdi. Bu ərizələr əsasən hesabat və gələcək Naxçıvan MSSR administrasiyası tərəfindən ərizə sahiblərinə cavab üçün sortlaşdırılırdı. Xüsusi Komissiya bu ərizələrdən Respublikadakı qarmaqarışıqlığı və vətəndaşların Sovet

hakimiyyətindən narazı olduqlarını əsaslandırmaq üçün istifadə edirdi.

Komissiyanın qabaqcadan hazırladığı "qara siyahı"ya adı salınan 50 rəhbər və məsul işçidən 48-i müxtəlif dərəcədə cəzalandırıldı. "Qara siyahı"ya erməni millətindən olan iki şəxsin də adı düşmüşdü, ancaq onların hər ikisinin taleyi "administrasiyanın mülahizəsinə" buraxılmışdı.

Xüsusi Komissiya Zaqafqaziya Federasiyası rəhbərliyinin, şəxsən RK(b)P-nın Zaqafqaziya Diyar Komitəsinin katibi Serqo Orconikidzenin fəal dəstəyi ilə partiya müfəttişliyi hüququnu, prokurorluq və məhkəmə səlahiyyətlərini qəsb edərək öz əlində cəmləşdirmişdi. Rüsvayçı dərəcədə qanunsuzluq və müdafiəsiz insanları təhqiramiz şəkildə ələ salmaq – Xüsusi Komissiyanın fəaliyyətinin xarakterik cəhətləri idi.

Komissiya özünün təkbaşına qərarı ilə 13 rəhbəri partiya sıralarından xaric etmişdi. "Q*ırx nəfərdən ibarət bütöv bir digər işçi qrupu isə*, – Məruzədə deyilirdi, – *həbs olunmuş, xüsusi vaqonda Bakıya göndərilmişdir* ".

Xüsusi Komissiya, həmçinin bütün həbsləri aprelin 5-dən 6-na keçən gecə həyata keçirmişdi. Naxçıvan ailələrinə yenidən dəhşət gətirmək, Respublikanın əldən düşmüş əhalisini daşnaklar kimi qorxuya salmaq üçün Komissiyanın heç bir əsası yox idi. Naxçıvanlıların "Varfolomey gecələri", bilindiyi kimi, Sovet hakimiyyəti gəlməmişdən əvvəl də kifayət qədər çox olmuşdu.

Naxçıvanda həbs olunanların sayı, əslində, Məruzədə göstərildiyindən xeyli artıqdır. 1925-ci il aprelin 9-da artıq Tiflisdə tərtib edilən 13 №-li protokolda Xüsusi Komissiyanın qərarı qeydə alınıb: *"Sonrakı həbsləri həyata keçirmək Azərbaycan Fövqəladə Komissiyasına həvalə edilsin"*.

Azərbaycan FK-nın sədri Bağırov Naxçıvanı dinc buraxmaq niyyətində deyildi, bu qərar əsasında həbslər hələ davam edəcəkdi və Naxçıvanda buna haçan son veriləcəyini heç kəs bilmirdi.

6 №-li protokolda bu cür təyinlərə rast gəlirik: *"heyvərə", "çox şübhəli bir şəxs", "antisovet bir tip"*; komissiyanın qətnamələrində isə qanunsuzluğun tüğyanına dəlalət edən ifadələr möv-

cuddur: *“işdən azad edilsin və sovet müəssisəsində hər hansı bir vəzifəni tutmaq hüququndan məhrum olunsun”* və yaxud *“işdən azad edilsin və Sovet Azərbaycanında hər hansı bir vəzifəni tutmaq hüququndan məhrum olunsun”.*

Yuxarıda xatırladılan “qara siyahı”ya adı düşən Naxçıvan vətəndaşlarından bir çoxu yalnız öz əvvəlki peşə fəaliyyətlərinə görə cəzalandırılmışdı. Məsələn, Naxçıvan sakini – kommunal-təsərrüfat idarəsinin torpaq şöbəsinin müdiri **Qasım ağa KƏNGƏRLİNSKİNİN** gördüyü işlə bağlı heç bir irad yox idi, ancaq çar hakimiyyəti dövründə uryadnik, Müsavat hökuməti dövründə isə pristav vəzifələrində xidmət etdiyi üçün Komissiya onun “həbs olunması və sürgün edilməsi” barədə qərar çıxarmışdı.

**Muradxan NAXÇIVANSKİ** barədə qəbul edilən qətnamə Sovet hakimiyyətinin özünün nə qədər mənəviyyatsız olduğunu bir daha sübut edir və bir sıra aşkar ləyaqətlərinə baxmayaraq, bu hakimiyyətin nə üçün bu qədər sürətlə yoxluğa yuvarlandığını anlamağa imkan verir. Və heç bir ziyalı, təhsilli insan buna təəssüf etmir, çünki bu hakimiyyət ləyaqətli və vicdanlı insanlara, proletar mənşəli olmadıqları üçün amansızcasına divan tutmuş, fəhlə və ya kəndli ailəsindən çıxan şəxslərə əsassız imtiyazlar vermişdir.

Doğma torpağı tərk etmək istəmədiyi üçün sovet hakimiyyətini qəbul edən, Naxçıvan şəhərində milis rəisi vəzifəsində çalışan Murad xan Naxçıvanski komissiya tərəfindən, 6 №-li protokolda qeyd edildiyi kimi, keçmişdə *“iri mülkədar”, “ikinci Nikolay vaxtında (komissiya çara öz hörmətsizliyini bu cür ifadə etmişdi) Nijqorod süvari polkunun tanınmış podpolkovniki olduğu, müsavat hökuməti dövründə isə süvari dəstəsində süvari kimi xidmət etdiyi”* üçün “*həbs olunmuş və sürgün edilmişdir*”.

Naxçıvan MSSR-i “təhqiq” etmək və yeni qurbanlar hesabına özünü əbədiləşdirmək üçün komissiyaya bir həftə vaxt kifayət etmişdi (9 №-li protokol). Komissiya səlahiyyətli Dövlət Siyasi İdarəsinin rəyinə əsaslanaraq, məhz onun təyin etdiyi bədnam “üçlük”dən istifadə edərək, Naxçıvan Pambıqçılıq İdarəsinin dörd işçisini **ƏN AĞIR CƏZAYA – GÜLLƏLƏNMƏYƏ**, on nəfərini isə müxtəlif müddətlərdə həbs cəzasına məhkum etmişdi. Bu azmış

kimi, həmin hökm məhkəmə və istintaqsız verilmişdi, 9 №-li protokolda bu barədə komissiyanın rəyi qeyd olunub: **"HÖKM QƏTİ HESAB EDİLSİN"**.

M. Bağırovun rəhbərlik etdiyi Xüsusi Komissiya bu ağılsız və qanunsuz hərəkətləri törədərkən təkcə Serqo Orconikidzenin onu müdafiə etdiyinə arxalanmırdı. Belə güman etməyə əsas var ki, bu faciəvi tamaşanın səhnə arxasında baş suflyor **İ.V. STALİN** dayanmışdır. 1924-cü il dekabrın 4-də "Pravda" qəzetində dərc olunan *"Yaşasın Sovet Ermənistanı"* adlı tarixi məqaləsində İ.V.Stalin yazmışdı: **"...Dekabrın 1-də Sovet Azərbaycanı könüllü surətdə mübahisəli əyalətlərdən imtina edir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın... Sovet Ermənistanına verildiyini bəyan edir..."** Ancaq İ.V.Stalinin iradəsinin əksinə olaraq, Naxçıvan o qədər də üzüyola olmadı. O, Ermənistanın tərkib hissəsi olmaq istəmədi və Sovet Azərbaycanının tərkibində qalmaq qərarına gəldi. RSFSR-in Milli Məsələlər üzrə xalq komissarı, bütün dövrlərin və xalqların gələcək rəhbəri İ.V.Stalin Naxçıvan Respublikasından bu cür görünməmiş özbaşınalıq gözləmirdi və o vaxt bütün dünyada biabır oldu. Lakin Sovet dövləti tarixində elə bir hal olmamışdır ki, rəhbərin sözü eşidilməyəndə, onun fikrinə məhəl qoyulmayanda, hətta təkbətək halda belə, bu, cəzalandırılmamış qalsın. Və müstəqil, azadlıqsevər Naxçıvan da İ.V.Stalinin cəzasına tuş gəldi. Serqo Orconikidze yoldaş Kobanın tövsiyələrini həmişə dərhal, o heç ağzını açmamış, göydə qapırdı, Mircəfər Bağırov isə Stalinə qarşı bütün zamanlarda, hətta öldüyü günə qədər, öz hədsiz mədhləri ilə "it" sədaqəti göstərmişdir. Buna bir misal gətirək.

Dəfələrlə, təkrar-təkrar nəşr olunmuş *"Bakı və Azərbaycanın bolşevik təşkilatlarının tarixindən"* adlı kitabında M.Bağırov İ.V.Stalinin adını 685 dəfə çəkmişdir. İndi isə M.Bağırovun Məruzəsinə qayıdaq.

Xüsusi Komissiyanın qüsurlu iş üsullarından və onun törətdiyi qanunsuzluqlardan danışarkən biz, eyni zamanda, oxucuların diqqətini Məruzənin Naxçıvana göndərilən alt komissiyaların mütəxəssisləri tərəfindən hazırlanan əsas bölmələrinin tarixi və praktik əhəmiyyətinə də yönəltmək istəyirik. Məruzənin bu bölmələrində

Naxçıvan MSSR-in tarixi, coğrafiyası, siyasəti, iqtisadiyyatı, demoqrafiyası və s. haqqında külli miqdarda qiymətli materiallar toplanmışdır.

Xüsusi Komissiyanın burada dərc etdiyimiz Məruzəsi, "sovet ədaləti və qayda-qanunlarının" bütün "parlaq" nailiyyətləri ilə birlikdə 1925-ci il aprelin 9-da **M.BAĞIROV** tərəfindən, bizə məlum olan həmin o faciəvi 12 №-li mavi vaqonda Tiflisə, şəxsən Zaqafqaziya Diyar Komitəsinin katibi **G.K.ORCONİKİDZEYƏ** çatdırıldı.

M.Bağırov, G.K.Orconikidzenin özünün tövsiyə etdiyi kimi "tam qətiyyətlə" yoldaş Serqoya, guya Naxçıvan MSSR-də yalançı sovet hakimiyyətinin mövcud olduğu beş il ərzində, nəhayət, ilk dəfə olaraq, maskalanmış Naxçıvan əksinqilabını ifşa etməyə necə müyəssər olduğu barədə məruzə etdi. Guya hakimiyyət orqanları və partiya sıralarına soxulan bu düşmən ünsürlər, Məruzədə yazıldığı kimi, **"Naxçıvan Respublikasında işlərin əsil vəziyyəti və onların təşkili barədə bizim mərkəzi orqanlara qəsdən yanlış məlumat verərək onları aldatmışlar". "Həm yerli, həm də Naxçıvan diyarına göndərilən işçilər,** – M.Bağırov öz saxta ittihamını daha da dərinləşdirir, öz günahını başqalarının üstünə atırdı, – **nəinki kommunist tərbiyəsi və hazırlığı mənasında zəif olmuş, bəzən hətta öz əməlləri ilə cinayətə yol vermiş, öz qabiliyyətsiz, fərsiz davranışları, işə səhlənkar və cinayətkar münasibətləri ilə Naxçıvan Respublikasından əsil sovet quruluşu nümunəsi yaratmaq üçün həyata keçirilməsi zəruri olan bütün işlərə əngəl olmuşlar... Azərbaycanın sovetləşdiyi gündən ötən beş il ərzində bir çox obyektiv şərait və səbəblər ucbatından Azərbaycan mərkəzi hakimiyyəti Naxçıvan Respublikasından zəhmətkeş kütlələr üçün bütün zəruri nailiyyətlərə və üstünlüklərə malik sovet quruluşu nümunəsi yarada bilməmişdir"**.

**"Bilməmişdir"** deyərkən, adətən ən azı nəyəsə kiçicik bir cəhd göstərmək, nəsə bir iş görmək nəzərdə tutulur, Azərbaycan hakimiyyəti isə, məlum olduğu kimi, xarabazara çevrilmiş Naxçıvan diyarını dirçəltməyə başlamaq üçün əlini ağdan qaraya belə vurmamışdır. **"Obyektiv şərait və səbəblər"ə** gəldikdə isə Azərbaycan

rəhbərliyi başlıca səbəb kimi *"Respublikanın uzaqda olmasını"* göstərmişdir. İndi, yoldaş Rıkov Naxçıvan Muxtar Respublikasına gəldikdən sonra isə, M. Bağırov deyir ki, *"əvvəlki Naxçıvan hakimiyyətinin bəzi başçıları tərəfindən bu kiçik sovet respublikasında törədilən cinayət və biabırçılıqların bundan sonra qarşısının alınması üçün ilk qəti tədbirlər görülmüşdür"*.

Naxçıvan MSSR-dəki fəlakətli vəziyyətin başlıca günahkarlarından biri olan xalq komissarı yoldaş Bağırov açıq-aşkar özünü qorumaq niyyəti ilə Məruzədə bəyan edir ki, **"yoldaş Rıkovun gəlişi... Naxçıvan Respublikasının həyatında yeni bir epoxanın başlanğıcını qoymuşdur"**. Bu növbəti yalanı da M.Bağırovun və Sovet Azərbaycanının digər rəhbərlərinin vicdanına buraxaq. M.Bağırovun həmin bəyanından sonra da Naxçıvan Respublikasının həyatında heç bir *"yeni epoxa"* mövcud olmamışdır. Oxucu bizim bu kitabımızdakılarla tanış olduğu zaman buna çətinlik çəkmədən əmin olacaqdır.

Başı çox bəlalar çəkmiş qədim Naxçıvan torpağında qurub-yaratmaq, dirçəliş və çiçəklənmə epoxası yalnız başında **Prezident Heydər ƏLİYEVİN** başında dayandığı müstəqil Azərbaycan Respublikası elan ediləndən sonra başlamışdır, ağ saçlı Naxçıvan isə (indiki və gələcək nəsillər bunu həmişə xatırlamalıdır) bu qədim və güzəştsiz müstəqilliyin baş qaldırdığı ilk mübarizə meydanı (bolşeviklərin təbiri ilə desək – plasdarmı) olmuşdur.

* * *

Təqdim edilən kitab üç əsas fəsildən və iki əlavədən ibarətdir.

**I fəsildə** hakimiyyətin silahlı yolla sovetlər tərəfindən ələ keçirildiyi 20 iyul 1920-ci il tarixindən 31 mart 1925-ci il tarixinə, Xüsusi hökumət komissiyasının gəlişinə qədər olan dövrdə Sovet Naxçıvanının mövcud vəziyyətini və problemlərini təsvir edən arxiv və mətbuat materialları toplanmışdır.

Sənədlər daşnak Ermənistanı qoşunlarının silah və blokada gücünə azadlıqsevər Naxçıvan diyarını xarabalığa çevirsələr də, diz çökdürə bilmədiklərindən, bu qədim torpağın taleyin hökmü

ilə sovetləşməsindən və bolşeviklərin başı çox bəlalar çəkmiş Naxçıvan xalqının xəbəri olmadan onu Sovet Ermənistanının tərkibinə qatmağa cəhd etmələrindən danışır.

Kitabın əsas məzmununu təşkil edən **II fəsildə** M. Bağırovun rəhbərlik etdiyi Xüsusi Komissiyanın Naxçıvan MSSR-in təhqiqinin yekunlarını əks etdirən və 1925-ci ilin aprelində "Tam məxfi" qrifi ilə Zaqafqaziya Diyar Komitəsinin katibi G.K.Orconikidzeyə göndərilən Məruzəsi verilir. Məruzənin mətnində heç bir düzəliş edilməmişdir. Habelə bütün ixtisarlar olduğu kimi saxlanılmışdır. Məruzənin oxunuşunu asanlaşdırmaq üçün biz onu Məruzənin özündəki bölmələrin adlarına uyğun başlıqlara ayırmaq məcburiyyətində qaldıq və bununla da tərtibçilər tərəfindən yol verilən səliqəsizliyi aradan qaldırmış olduq. Məruzənin mətnində yol verilmiş səhvlər də olduğu kimi saxlanılmışdır.

**III fəsildə** mətbuat materialları – Zaqafqaziya Federasiyası və Azərbaycan SSR-in partiya və dövlət rəhbərlərinin Naxçıvan MSSR-in vəziyyəti haqqında bolşevik dəyərləndirmələrini əks etdirən çıxışları, həmçinin 1925-ci ilin aprelindən 1926-cı ilin sentyabrınadək Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına həsr olunmuş qəzet materialları toplanmışdır.

**Əlavə 1-də** Xüsusi Komissiyanın dörd üzvünün bioqrafiyası haqda məlumatlar, **əlavə 2-də** isə inqilabdan əvvəlki və indi qüvvədə olan ölçü vahidləri verilmişdir.

Xüsusi Komissiyanın Məruzəsindən əlavə, kitabda 160 arxiv və qəzet materialı qismən və yaxud tam şəkildə öz əksini tapmışdır, onların arasında Naxçıvan MSSR haqda mətbuatda dərc edilən rəsmi məlumatlar, müsahibələr və qəzet oçerkləri vardır.

# UNUDULMUŞ UCQAR SOVET ƏYALƏTİ



# BOLŞEVİKLƏR NAXÇIVANI ƏLƏ KEÇİRDİLƏR: DAĞINTI VƏ ACLIQ DAVAM EDİR

Rusiya İmperiyasının süqutundan sonra ötən üç il ərzində Naxçıvan diyarı daşnak Ermənistanı və türk hərbi birləşmələri, ingilislər, Denikinin dəstələri və digər hərbi qüvvələr arasında çoxsaylı qanlı toqquşmalara səhnə olmuşdu.

Keçmiş Rusiya ərazisi olan Naxçıvan diyarında üç il hakimiyyət uğrunda silahlı və siyasi mübarizə getmişdi. Bu kiçik Cənubi Qafqaz bölgəsinə həmişə çox sayda siyasi qüvvələr və dövlətlər böyük diqqət göstərmişdilər. Hətta amerikalı general-qubernator da, pərvanə kimi qısa ömürlü olsa da, burada simvolik hakimiyyət nümayiş etdirməyə müvəffəq olmuşdu.

Ancaq başlıca olaraq bu diyara daşnaklar iddia edirdilər, onlar Naxçıvan diyarını çoxdan ələ keçirmək niyyətinə düşmüşdülər. Daşnaklar Uca Allahın buyruğu ilə təbii zənginlikdən məhrum olunmuş torpaqlarını münbit və çiçəklənən Naxçıvan torpağı hesabına çoxaltmaq qərarına gəlmişdilər. Onların ərazi iddialarını izah etmək çox asandır. Müxtəlif yerlərdən qovulan ermənilər bir çox onilliklər idi ki, bu qədim müsəlman ərazisində məskən salmışdılar. Onları adətən köçkünlər adlandırırdılar, əslində isə onların böyük hissəsini qaçqınlar təşkil edirdi. Ermənilərin təhlükədə olduqları ərazilərdən köçürülmələrinə, xüsusilə də öz dindaşlarına kömək edən çar hökuməti yardımçı olmuşdu. Beləliklə, qaçqın və yaxud köçkün ermənilər müsəlmanların doğma torpaqlarında tədricən və inamla özlərini yerli xalq hesab etməyə başlamışdılar.

Daşnaklar belə düşünürdülər: artıq köçkün ermənilərin bir neçə nəslinin yaşamış olduğu Naxçıvan ərazisi nə üçün erməni torpağı elan edilməsin? Özlərinin "*Dənizdən dənizə Böyük Ermənistan*" kimi çoxdankı və başlıca şüarları ilə birlikdə bu saxta

coğrafi postulatlara əsaslanan daşnaklar dəfələrlə Naxçıvan diyarına təcavüz etmiş, burada qırğın və qarət törətmiş, müsəlmanları öz doğma ana torpaqlarından qovub çıxarmağa çalışmışdılar. Ancaq mətin, əyilməz Naxçıvanlılar bu çoxsaylı müsibətlərə mətanətlə dözmüş, daşnakların bütün dəhşətli işgəncələrinə tab gətirmiş, yaşaya bilmiş və öz qədim ənənələrinə sadiq qalmışdılar.

Başı çox bəlalar çəkmiş Naxçıvan çox sayda sınaqlardan keçmiş, amma daşnaklara boyun əyməmiş, istiqlaliyyətini itirməmişdi. Lakin aclıqdan, dağıntıdan, daşnak gülləsindən üç il ərzində Naxçıvan diyarı sakinlərinin üçdə biri məhv olmuşdu.

Naxçıvanın müdafiəsi, onun müstəqilliyinin təmin olunması üçün müstəqil Araz (Araz-Türk) Respublikasının dövlət strukturunun tərkib hissəsi kimi Naxçıvan Milli Komitəsi təşkil edilmişdi. 1918-ci ilin noyabrından bu komitəyə daim Naxçıvan şəhərinin starostası **CƏFƏRQULU XAN Naxçıvanski** başçılıq etmişdi. Naxçıvan diyarının müdafiəsi üçün onun sakinlərindən ibarət könüllülər dəstəsi (partizan dəstəsi) təşkil edilmişdi, bu dəstəyə isə Cəfərqulu xanın böyük oğlu, Əlahəzrət İmperatorun Ulan polkunun keçmiş rotmistri **KALBALI XAN Naxçıvanski** komandirlik edirdi.

Daşnak qoşunları dəfələrlə Naxçıvan ətrafında tamamilə darmadağın edilmiş, döyüş meydanında yüzlərlə itki və əsir verərək geri qaçmışdılar. Naxçıvanın daşnak hücumlarından müdafiəsində göstərdiyi igidliyə və rəşadətə görə AXC hökuməti Kalbalı xan Naxçıvanskini general-mayor hərbi rütbəsi ilə təltif etmişdi.

*(Aydın Hacıyev. Cənubi-qərbi Qafqazın demokratik respublikaları, Bakı, 2004, 280 səh.)*

Bolşeviklər müsəlmanlarla ermənilər arasındakı toqquşmaların əsil səbəbini izah etməyi sevmirdilər, çünki çox vaxt ermənilərlə "eşqbazlıq" edirdilər. Bu toqquşmaları adi şovinizm kimi dəyərləndirərək, ermənilərin daimi və əsassız ərazi iddialarını pərdələyir və yaxud daha dumanlı, demaqogiya xarakterli "mü-

bahisəli ərazilər” terminini işlədirdilər.

İ.V.Stalin 1923-cü il aprelin 23-də Rusiya Kommunist Partiyasının XII qurultayına təqdim etdiyi “Partiya və dövlət quruculuğunda milli məqamlar haqqında” məruzəsində Zaqafqaziyadakı şovinizmi misal gətirmişdi; bununla o, 1920-ci ilin birinci yarısında, XI Qırmızı ordunun gəlişindən bir az əvvəl Naxçıvan ətrafında baş verən hadisələri nəzərdə tuturdu. İ.V.Stalin bu zaman daşnakların təxribatçı aksiyaları barədə qəsdən susur, əksinə diqqəti müsəlmanların, xüsusilə də erməniləri ərazi iddialarından birdəfəlik əl çəkməyə məcbur etməyə çalışan Kalbalı xan Naxçıvanskinin (onun şəxsən adını çəkməsə belə) hərəkətlərinə yönəldir. Ermənilərin müsəlman əhalisini qırmaları ilə bağlı çoxsaylı faktlara cavab olaraq, müsəlmanların da adekvat və məcburi hərəkətlərə əl atdıqları həqiqətən mövcud ola bilərdi. Hər halda İ.V. Stalin yuxarıda adı çəkilən məruzəsində aşağıdakıları dilə gətirmişdi:

“...Şovinizm... bəzən qəribə çox maraqlı evolyusiyaya məruz qalmağa başlayır. Mən Zaqafqaziyanı nəzərdə tuturam... Zaqafqaziya lap erkən vaxtlardan qırğın və çəkişmələr meydanı olmuş, sonralar, menşeviklərin və daşnakların dövründə isə müharibə meydanına çevrilmişdir. Mən bütöv bir sıra rayon adı çəkə bilərəm ki, oradakı erməni çoxluğu əhalinin tatarlardan ibarət qalan bütün hissəsini qılıncdan keçirmişdir – məsələn, Zəngəzur. Başqa bir əyaləti, **Naxçıvanı** göstərə bilərəm. Orada tatarlar üstünlük təşkil edirdilər və onlar bütün erməniləri qırıblar. Özü də bu, Ermənistan və Gürcüstanın imperialistlərin zülmündən azad edilməsi ərəfəsində baş vermişdir (Yerdən səs: “Milli məsələni öz bildikləri kimi həll etmişlər”). Əlbəttə, bu da milli məsələni həll etməyin bir formasıdır. Ancaq bu, milli məsələni həll etməyin sovet forması deyil”.

*(И.В.Сталин. Сочинения, 5-ci cild, səh. 236 – 263)*

1920-ci il aprelin 28-də Bakıda və Azərbaycanın digər qəzalarında AXC hakimiyyəti devriləndə bolşeviklərin baxışları Naxçıvan diyarına yönəldi. İran və Türkiyə xalqlarına sovet hakimiyyətində zəhmətkeşlərin necə gözəl həyat yaşadıqlarını nümayiş etdirmək üçün orada sovet bolşevik quruluşu nümunəsi yaratmaq planlaşdırılırdı. Bu, Kremlin Yaxın Şərqdə dünya inqi-

labını həyata keçirmək baxımından birinci dərəcəli niyyətləri sırasına daxil idi.

Tarixə inanmalı olsaq, Azərbaycanın sovetləşməsindən sonra Naxçıvanda, sanki yer altından çıxıblarmış kimi, bolşevik qüvvələri peyda oldu. Bakıda olduğu kimi, burada da onlar əsarətdə olan Naxçıvan xalqları adından üsyana qalxmış Naxçıvan xalqına silahlı yardım göstərilməsi barədə Azərbaycan SSR və RSFSR hökumətlərinə müraciət etdilər.

Əlbəttə, bu hökumətlərin buyruğu ilə 11-ci Qırmızı Ordu dərhal bu xahişə reaksiya verdi. Müharibənin törətdiyi müxtəlif səbəblər, xüsusilə də daşnakların qəddarlığı üzündən Naxçıvan diyarı qaçqınlarla dolmuşdu. 1920-ci ilin birinci yarısında onların sayı 500 min nəfərə çatmışdı. Qonaqpərvər naxçıvanlılar onsuz da qıt olan azuqələrini özləri aclıq həddinə çatana qədər onlarla bölüşdülər. Qaçqınların sayı Naxçıvan diyarının bütün əhalisinin sayından az qala iki dəfə çox idi.

11-ci Qırmızı Ordu Naxçıvana yaxınlaşmaq üzrə olanda, bu bölgəni ələ keçirə bilməyəcəklərini anlayan, ona görə də bu diyara qəddarcasına nifrət bəsləyən daşnaklar Naxçıvan şəhərinin lap yaxınına gəlib, toplardan, birbaşa nişan almaqla atəş açaraq, şəhəri başdan-ayağa xarabalığa çevirdilər. Tarlalardakı məhsulların bir qismini yandırdılar, bir qismini Ermənistana daşıdılar, möcüzə sayəsində saxlanıb qalan ərzaq ehtiyatını talan etdilər. Bolşeviklər Naxçıvana gəlib çıxanda artıq o, tamamilə xarabalığa dönmüşdü.

1920-ci il iyulun 28-də Naxçıvanda bolşevik hakimiyyəti quruldu və M. Bektaşev, A. Kazımov, F. Mahmudbəyov, H. Babayev və başqalarından ibarət İnqilab komitəsi yaradıldı və o, sovet hakimiyyətini elan etdi. Elə həmin gün bu hakimiyyət tərəfindən Naxçıvan Sovet Respublikası elan olundu. Lakin keçmiş Naxçıvan xanlığının, sonra isə Naxçıvan qəzasının bütün ərazisi bolşeviklər tərəfindən tam şəkildə yalnız 1920-ci ilin dekabrında zəbt edildi.

Sovet hakimiyyəti Naxçıvana, guya bu diyarın xalqını amansızcasına istismar edən xan-bəy əsarətini devirmək şüarı

ilə gəlmişdi, hərçənd Naxçıvan xanları heç bir dövrdə əhali arasında özlərinə nifrət oyandırmamışdılar, həmişə xalqın haqlı hörmətinə layiq olmuşdular. Kiçikdən böyüyə bütün naxçıvanlılar həmişə onlara ehtiramla yanaşmışdılar. Demək olar ki, xanlar, bugünkü Böyük Britaniya şahzadələri kimi, xalq üçün tarixi simvol – rəmz olmuşdular. Naxçıvanın müstəqilliyinin təmin edilməsi xanlarla bağlı idi. Xanlar daim Naxçıvan xalqının qayğısına qalmış, öz qədim diyarlarının ənənələrinə sədaqət nümunəsi olmuşdular. Öz növbəsində, Naxçıvan torpağının tarixi də, xanların bu əyalətin vətəndaşlarına qarşı qeyri-səmimi münasibətini təsdiqləyən bircə nümunə belə qeydə almamışdır.

* * *

Ədalət naminə Naxçıvan xanları haqda bir neçə xoş söz söyləyək.

Naxçıvan xanlığının Rusiya İmperiyasının tərkibinə daxil edilməsi yolu heç də sadə və asan olmamışdır. Bunda Rusiyanın özündən daha çox, Naxçıvan xanlığının Yaxın Şərqin çox güclü nüfuza malik hakimlərindən birinin – **KALBALI XANIN** böyük xidməti vardır.

İmperator Rusiyasını diqqətli və hər şeylə maraqlanan nəzərlərlə müşahidə edən Kalbalı xan sonda bu qənaətə gəlmişdi ki, azadlıqsevər Naxçıvan diyarını çoxsaylı Şərq hökmdarlarının müdaxiləsindən yalnız bu böyük dövlət müdafiə etməyə qadirdir. Rusiya ilə gizli əlaqə saxlamaqda şübhə doğuran Kalbalı xan Naxçıvanski 1797-ci ildə qəddar İran şahı Ağa Məhəmməd şah Qacar tərəfindən kor edilmişdi. Lakin öz mətinliyi, güclü iradəsi və müdrikliyi sayəsində kor Kalbalı xan üçqat enerji ilə Naxçıvan xanlığının taleyi ilə məşğul olmuş və bütün Yaxın Şərqdə görkəmli siyasətçi olaraq qalmaqda davam etmişdi.

Xasiyyətcə son dərəcə müvazinətsiz bir insan olan knyaz Sisianov (1754 – 1806) bu xanın sadəcə adını eşidəndə belə az qala dəli olur, saç-başını yolurdu. O, Rusiya Sarayını və Rusiyanın hüdudlarından kənarda olan müxtəlif xanları daim xəbərdar edirdi ki, Kalbalı xandan qorxmaq lazımdır. O bu kor xandan

bütün gözü görənlərin cəmindən daha artıq qorxurdu. Digər bəsirətsiz Rusiya hərbi rəislərinin də ona etibar etmədiyinə baxmayaraq, Kalbalı xan hər halda Rusiya dövlətinin himayədarlığına nail ola bilmişdi.

1817-ci ildə Əlahəzrət İmperatorun İrana səfir təyin etdiyi sərt və hökmlü general A.P.Yermolov özünə xas bir zərifliklə kor xana pərəstiş etmiş, onun uzaqgörənliyini və görüş dairəsini layiqincə qiymətləndirmişdi. Fransızlara qarşı Vətəndaş müharibəsinin məşhur qəhrəmanı bu nəhəng Şəxsiyyətin böyüklüyünü hamıdan yaxşı dərk etmişdi.

Kalbalı xan kor olsa da, gözləri salamat siyasətçilərin çoxundan daha uzağı görürdü. Səhv də etmirdi. Onun övladları, nəvə və nəticələri sonralar Rusiya İmperiyasına yalnız sədaqətlə xidmət etməmiş, həm də onun qüruruna çevrilmişlər.

Kalbalı xan Naxçıvanskinin oğlu – general-mayor **EHSAN XAN Naxçıvanskiyə** göstərdiyi hərbi rəşadətlərə görə feldmarşal A.F.Paskeviç dərin hörmət bəsləyirdi, İmperator ordusunun general-mayor rütbəsini isə "Naxçıvan əyalətinin hakimi EHSAN XAN" əla hərbi xidmətlərinə görə 1837-ci il noyabrın 6-da şəxsən İmperator Nikolay Pavloviçin özündən almışdır. O, böyük ehtiram içərisində 1847-ci ildə vəfat etmişdir. Onun övladları arasında Rusiyanın iki fədakar generalı vardır.

General-leytenant **KALBALI XAN** (2-ci) **Naxçıvanski** (1824–1883) əvvəlcə Krım, sonra Rus-türk müharibəsində (1877-1878) şöhrət tapmış, tam general **İSMAYIL XAN Naxçıvanski** (1819–1909) isə Bəyazit mühasirəsinin məşhur qəhrəmanına çevrilmişdir.

Müqəddəs Georgi ordeni kavalerləri olan bu iki qardaşın adı Kremlin Georgi zalında mərmər lövhə üzərində qızıl hərflərlə həkk edilmişdir; bu da şanlı Naxçıvan xanları sülaləsindən çıxmış həmin cəngavərlərin döyüşdə göstərdikləri şücaətlərə əbədi şahidlik edir.

Kalbalı xanın üçüncü oğlu, Rusiya ordusunun fədakar əsgəri, cəsur süvari Cəfərqulu xan (1859 – ?) XX əsrin əvvəlindən

Naxçıvan əyaləti sovetləşənə qədər Naxçıvan şəhərinin starostası seçilmişdir. Onun xidmət dəftərçəsindən də aydın görünür ki, o da general olmalı imiş, ancaq 1879-cu ilin məşhur Axal-Təkin ekspedisiyasında bu qəhrəmanın ağır yaralanması onun xəstəliyə görə qeyd-şərtsiz istefaya çıxmasına səbəb olmuşdur. Naxçıvana qayıdandan sonra o özünü istirahətə verməmiş, ictimai fəaliyyətlə məşğul olmuş, Naxçıvanı quberniya məhkəməsində təmsil etmiş və düz 15 il, Naxçıvan sovetləşənə qədər, dəyişmədən şəhər starostası vəzifəsində çalışmışdır, Rusiya İmperiyası məhv ediləndən sonra isə, yuxarıda artıq xatırlatdığımız kimi, Araz Respublikası strukturunda Naxçıvan Milli Komitəsinə başçılıq etmiş və Naxçıvanın müstəqilliyi baxımından heç bir itkiyə yol verilməsinə imkan verməmişdir.



Kalbalı xanın dördüncü oğlu – **HÜSEYN XAN** (1863 – 1919) Romanovlar Xanədanının iki İmperator ailəsinin sevimlisi olmuşdur. İki dəfə Georgi ordeninə layiq görülən Hüseyn xan Rusiyanın əsas Əlahəzrət Süvari polkuna komandirlik etmiş, İmperialist müharibəsini tam general rütbəsi ilə bitirmiş, Qvardiya Süvari polkuna komandirlik edərək, general-adyutant rütbəsi ilə mükafatlandırılmışdır.

Qalitsiyada düşmənin canına dəhşətli qorxu salan Qafqaz Yerli (Vəhşi) Süvari diviziyası Hüseyn xan Naxçıvanskinin əsəri, bu diviziyanın ilk komandanı – Böyük Knyaz Mixail Aleksandroviç isə onun yetirməsi olmuşdur; Hüseyn xan Birinci Dünya müharibəsində Böyük Knyazın mənəvi tərbiyəçisi idi.

Bolşeviklərin hakimiyyəti dövründə Naxçıvan xanlarının təqib olunması və gizlicə məhv edilməsi tarixi başlayır. 1918-ci ilin mayında xırda bir səbəb üzündən bolşeviklər tərəfindən

həbs edilən Hüseyn xan Naxçıvanski "qırmızı terror" dövründə Petroqradda yoxa çıxır. Apardığımız gərgin araşdırmalar nəticəsində onun 1919-cu ildə qətlə yetirildiyinə heç bir şübhə qalmamışdır, lakin Rusiya İmperator Ordusunun bu görkəmli generalının qətlə yetirildiyi yer və ölüm tarixi ətrafında araşdırmalar bu gün də davam edir.

2008-ci il avqustun 5-də Rusiya pravoslav kilsəsi Rusiya Prezidentinə müraciətində Hüseyn xan Naxçıvanskini Rusiya İmperator Ordusunun görkəmli sərkərdəsi adlandırmış, onun adının, Moskva və yaxud Sankt-Peterburqdakı küçələrdən birinə verməklə Rusiya xəritəsində əbədiləşdirilməsini təklif etmişdir.

Hüseyn xan Naxçıvanskinin qardaşı oğlanları – Cəfərqulu xanın övladları fərqli tale yaşamışlar. Cəfərqulu xanın böyük oğlu – Əlahəzrət Ulan polkunun rotmistri, Müqəddəs Georgi silahı kavaleri **KALBALI XAN** (3-cü) **Naxçıvanski** Rusiya İmperiyasının məhvindən sonra vətənə qayıtmış və Naxçıvan xanlığının ərazisində partizan dəstəsi yaratmış, onun komandiri olmuş və gücü çatdığı qədər əhalini daşnakların vəhşiliyindən qorumuş, bir neçə dəfə onları döyüş meydanından qaçmağa məcbur etmişdir. 1920-ci ilin iyulunda onun partizan dəstəsinə, onlardan qüvvə sarıdan qat-qat üstün 11-ci Qırmızı Ordunun müdaxiləsinin qarşısını almaq müyəssər olmamışdır. General Kalbalı xan öz dəstəsini buraxmış və doğma vətən torpağını tərk edərək İrana mühacirətə yollanmışdır. İran ordusunda tez bir zamanda diviziya komandiri vəzifəsinə yüksəlmişdir. 1931-ci ildə kürd qiyamını yatırarkən general Kalbalı xan Naxçıvanski qəhrəmancasına həlak olmuşdur.

Cəfərqulu xanın digər oğlu – **CƏMŞİD XAN Naxçıvanski** (1895 – 1938) Vəhşi diviziyanın cəsur əsgəri olmuş, Müqəddəs Georgi silahına layiq görülmüş, doğma qardaşı Kalbalı xandan fərqli olaraq, bolşeviklərin şirin vədlərinə inanmış Sovet hakimiyyətini könüllü surətdə qəbul etmişdir. C.C.Naxçıvanski çoxsaylı sınaqlardan keçmiş və iki dəfə həbs olunmuşdur. Casusluq və əksinqilabçılıqda, öz qardaşı İran generalı Kalbalı xanla əlaqə



saxlamaqda günahlandırılan Cəmşid xan Naxçıvanski öz şərəf və hərbi andına sadiq qalaraq, sərkərdəlik istedadını könüllü şəkildə Sovetlər ölkəsinin xidmətinə vermişdir. Bolşeviklərin hakimiyyəti dövründə Cəmşid xan Naxçıvanski hərbi xidmətdə Azərbaycan Atıcı Diviziyasının komandiri vəzifəsinədək yüksəlmiş, Zaqafqaziya və Azərbaycan Mərkəzi İcraiyyə Komitələrinin üzvü seçilmiş, Bakı qarnizonunun rəisi təyin edilmişdir. Həbs olunduqdan və azad edildikdən sonra 1931-ci ildə ÜK(b)P-nin Siyasi Bürosunun İ.V.Stalin tərəfindən imzalanmış qərarı ilə təhsil almaq üçün M.V.Frunze adına FKQO-nun Hərbi Akademiyasına göndərilmişdir. Onu bitirdikdən sonra isə müəllim kimi "Ümumi taktika" kafedrasında saxlanmışdır. Akademiya dinləyiciləri arasında böyük nüfuza malik idi, yay praktikalarına rəhbərlik edir, Akademiya kurslarına rəhbər təyin olunurdu.

Stalin repressiyaları dövründə bir xan və müsavatçı kimi, yəqin ki, Azərbaycan rəhbərliyinin, xüsusilə də, xan və bəylərə qatı nifrət bəsləyən, Cəmşid Naxçıvanskini şəxsən tanıyan Mircəfər Bağırovun da iştirakı ilə haqqında yazılan böhtanla dolu donoslara görə perspektivli sovet generalı üçüncü dəfə əksinqilabçılıq və casusluqda günahlandırılaraq, 1938-ci il avqustun 26-da Moskva şəhərində Lefortovo həbsxanasında güllələnmişdir. Bütün obyektiv göstəricilərə görə o, Böyük Vətən müharibəsində SSRİ-nin ilk döyüş marşalı ola bilərdi. Beləcə, bolşeviklər əfsanəvi Naxçıvan xanları sülaləsinin qəhrəmanlıq salnaməsinə son qoydular.

Naxçıvan xanları nəslinin görkəmli nümayəndələri haqqında qısa hekayətimizi burda bitirərkən, bir neçə danılmaz həqiqəti

də xatırlatmaq yerinə düşərdi.

Naxçıvan xanlığı Rusiya İmperiyasının hakimiyyəti altında olduğu dövrdə o, həmişə Romanovlar xanədanının himayəsindən istifadə etmişdir.

İstisnasız olaraq bütün Naxçıvan xanları çox sayda Yüksək mükafatlara layiq görülməklə yanaşı, irsi zadəgan ləyaqətinə də malik olmuşlar.

Naxçıvan xanları nəslindən olan nümayəndələr heç zaman nəinki satqın, heç ürəksiz, ağ ciyər də olmamışlar.

Naxçıvanda Sovet hakimiyyətini qəbul edən, müqəddəs "şərəf" anlayışını həmişə uca tutan Naxçıvan xanları heç də, hər şeyə xəstəhal dərəcədə şübhə ilə yanaşan M. Bağırovun uydurduğu kimi, "əksinqilab yuvası"nı təmsil etməmişlər. Lakin, ola bilsin ki, onlar bolşeviklərin əslində kim olduqlarını, onların şirin-şəkər sovet varlığı barədə saxta şüarlarının heç nəyə dəymədiyini anlamışdılar.

Sovet Rusiyasında, öz Əcdadlarının Torpağında qalan sonuncu Naxçıvan xanları (onların bu sədaqəti qarşısında baş əymək, Naxçıvan diyarının yoxsulluqdan əzab çəkən sakinlərini birləşdirmək üçün bu xanların ənənəvi nüfuzundan istifadə etmək əvəzinə) Mircəfər Bağırovun sədrlik etdiyi Xüsusi Komissiya tərəfindən 1925-ci ilin aprelində repressiya edilmişdir. Bu repressiyaya son nəfərinə kimi onların hamısı məruz qalmışdır.

* * *

İndi isə yenidən Sovet Naxçıvanına qayıdaq. Naxçıvanın sovetləşməsindən sonra elan edilən Naxçıvan Sovet Respublikası müvafiq hüquqi aktlarla təsbit olunmamışdı. Naxçıvan Respublikası nə Sovet Rusiyası, nə də Sovet Azərbaycanı tərəfindən tanınmamışdı. Naxçıvan Respublikası tanınmamış Respublika vəziyyətində qalmışdı.

Naxçıvan Respublikası mövcud olduğu ilk günlərdən Sovet Azərbaycanını özünün doğma böyük qardaşı hesab edir, hər vəchlə Azərbaycan SSR ilə hərbi-siyasi və iqtisadi ittifaq qurmağa can atırdı. Sovetləşdikdən sonra qədim Naxçıvan diyarı hər

zaman Sovet Azərbaycanının tərkib hissəsi olmağa çalışırdı.

Bolşeviklərin Naxçıvan diyarına gəlişindən sonra qana həris daşnaklar artıq naxçıvanlılara əzab verməkdən əl çəkmişdilər, ancaq indi də Naxçıvanı aclıq, yoxsulluq və fəlakət öz ağuşuna almışdı. Daşnaklar tərəfindən müvəqqəti işğal olunmuş ərazilərdə, məsələn, Şərurda, taxıl məhsulu qarət edilmişdi. Onun böyük bir hissəsi Ermənistana göndərilmişdi.

Aclıq, yoxsulluq və səfalət yeni yaranan Naxçıvan Sovet Respublikasının rəmzlərinə çevrilmişdi.

Bakıdan Naxçıvan bölgəsinə göndərilən xüsusi nümayəndə heyəti daşnak cinayətlərinin nəticələri haqqında hesabat hazırlamışdı. Bu hesabat Bakıda nəşr olunan "Kommunist" qəzetində dərc olunmuşdu. Nümayəndə heyəti öz qarşısına: *"Azərbaycan zəhmətkeşləri və Azərbaycan hökumətinin diqqətini daşnakların törətdikləri vəhşiliklərə yönəltmək, təcili və hərtərəfli kömək göstərilməsini xahiş etmək və hamının eşidə biləcəyi şəkildə ucadan bədbəxt, heç bir günahı olmayan xalqın parça-parça edilmiş qəlbinin etiraz və hayqırtısını dilə gətirmək"* vəzifəsini qoymuşdu.

Biz mətbuatda dərc olunmuş bu materialı – böyük bəlalara düçar olmuş qaçqınların taleyinə düşən bu qorxunc dəhşətlərin sübutunu olduğu kimi burada verməyi lazım bilirik. Acından ölərkən belə xeyirxah naxçıvanlılar öz sonuncu tikələrini qaçqınlarla bölüşmüşdülər.

# NAXÇIVAN – ZƏNGİBASAR RAYONUNDA İŞLƏRİN VƏZİYYƏTİ BARƏDƏ

"Azərbaycanda kommunist çevrilişindən sonra aydın oldu ki, orada, Şərqdə intiqam vaxtı gəlib çatmışdır və Avropa imperializminə sarsıdıcı zərbə endirilmişdir, Qırmızı Ordunun nəhəng dalğası şahə qalxaraq, əsrlər boyu Şərqi əsarətdə saxlayanların qapılarına çırpılanda, Qırmızı Ordunun İngiltərə və Fransanın başı üzərindən əlini Anadoluya uzatdığı aydın görünəndə erməni xalqının pulla satın alınmış parazitləri – **daşnaklar** – erməni xalqının fəhlə-kəndli kütləsinin arzusunun əksinə çıxaraq və öz avropalı dirijorlarının iradəsinə uyğun olaraq, bütün xalqların zəhmətkeşlərinə qardaşlıq və bərabərlik gətirən hərəkata əngəl törətmək üçün Antantanın plan və niyyətlərini yerinə yetirmək qərarına gələrək, sınaqdan çıxardıqları bir vasitəyə əl atdılar – Ermənistan kəndlilərini qızışdırıb Naxçıvan və ona bitişik rayonların zəhmətkeş müsəlmanlarının üstünə saldılar.

Zəngibasardan Culfaya qədər tamamilə müsəlmanların məskunlaşdığı bir zolağı ələ keçirmək qərarına gələn daşnaklar bu ilin iyulunda Zəngibasara hücum etmiş, qarşılarına çıxan hər şeyi məhv edərək, qanlı yürüşlərini Şahtaxtı stansiyasını tutmaqla başa çatdırmışlar. Ötən illərin acı təcrübəsindən dərs alan və **"müsəlman ərazilərinin daşnaklar tərəfindən tutulmasının"** nə demək olduğunu çox yaxşı bilən müsəlmanlar özlərinin bütün əmlaklarını ataraq, "mauzeristlər" tərəfindən atılan mərmi yağışı altında qaçmışlar. Bu görünməmiş yürüşün doğurduğu qorxu və dəhşətlər qəti surətdə heç bir təsvirə sığmır. Zəngibasar rayonunda 48 kənd yandırılaraq yerlə yeksan edilmiş, 160 minlik əhali bütün qaçqınların keçib sığındığı İranda açıq səma altında, evsiz-eşiksiz qalmışdır. Vedibasar rayonunda 118 kənd, Dərələyəzdə – 74 kənd, Şərur və Şahtaxtı rayonlarında 76 kənd yandırılmışdır. Bütün bu rayonlardan 50 000-dən çox iri və xırda buynuzlu mal aparılmışdır. Hər yerdə bütün sakinlərin əmlakı qarət edilmişdir. 500 minlik əhali sözün əsl mənasında dilənçi vəziyyətinə düşmüşdür. Daşnaklar tərəfindən nəhəng miqdarda buğda və düyü ehtiyatı mənimsənilmişdir.

Onlar öz kinlərini hər kəsin üstünə tökmüşlər. Zəngibasar rayonundan 18 qız və gənc qadın aparılmış, 400-dən çox uşaq öldürülmüş, qaçıb canını qurtara bilməyən 100 xəstə odda yandırılmışdır. 150 qarı və qoca erməni artilleriyası mərmisinin partlaması nəticəsində öldürülmüşdür, qaçarkən 816 adam Araz çayında batmışdır. Araz çayını üzüb keçə bilməyən 160-dan çox uşaq boğazlarına qədər suyun içinə girmiş, sahil kollarından yapışaraq, orada iki saatdan çox bu vəziyyətdə

qalmışlar, ancaq özlərini yetirən daşnaklar süngü zərbələri ilə onları əllərini tutduqları kollardan çəkməyə, suya gömülməyə məcbur etmişlər.

Vedibasar rayonunda artilleriya atəşindən 900 nəfər ölmüş, 6 qadın aparılmış, 300-dən çox uşaq və qoca məhv edilmişdir. Şərur rayonunda 820 nəfər xəstə yatağında məhv edilmiş, 150 nəfər qarı və qoca öldürülmüş, 718 uşaq məhv edilmiş, 144 qadın aparılmış, artilleriya atəşindən 72 nəfər ölmüşdür.

Şahtaxtı rayonunda 3 qadın aparılmış, 35 uşaq, 14 qoca, 5 qarı və 9 xəstə öldürülmüşdür.

Qaçqınların vəziyyəti İranda da yaxşı deyil. Tam şəkildə ərzaq, geyim əşyaları və pul yoxluğu yarım milyonluq əhalini İranın sərhəd rayonlarında dilənçiliyə məcbur edib. Aclıq, ehtiyac və evsizlik həyatı qaçqınlar arasında yoluxucu xəstəliklər törədib. Qırmızı Ordu Naxçıvana gələndə İranda olan bu zavallı insanların acınacaqlı vəziyyəti bu cür idi. Bu kütlənin qalıqları (daşnakların elə həmin cür vəhşiliklərindən keçən il baş götürüb qaçan əhali ilə birlikdə; ötən il də Sürməli qəzasında 204 kənd yandırılmışdır) öz kül olmuş yurdlarına dönmək ümidi ilə Naxçıvana qayıtmışlar, ancaq oradan yurdlarına getmələri mümkün deyil, çünki daşnakların tutduqları rayonlar hələ də onların əlindədir və qaçqınlar dəhşətli və qorxunc şəkildə qırılmaq üzrədirlər. Bizim nümayəndə heyəti Bakıya gələnəcən aclıq və xəstəlikdən 45 min qaçqın tələf olub. İndi, yağıntılı, soyuq günlərin yaxınlaşdığı bir vaxtda, paltar və çörəyin tam yoxluğu şəraitində bu insanların nə vəziyyətdə olduqlarını təsəvvür etmək çox asandır.

Bunlara onu da əlavə etmək lazımdır ki, daşnaklar bizim danışıqlar aparmaq üçün göndərilən üç kommunist nümayəndəmizi həbs etmişlər, onların taleyi indiyə kimi məlum deyil.

Biz bütün vicdanlı vətəndaşların, bütün Azərbaycan zəhmətkeşlərinin, xüsusilə də erməni xalqının diqqətini bu görünməmiş vəhşiliklərə yönəldirik. Biz daşnaklarla bir yerdə, onları bütün bunlara təhrik edən əli qanlı Antantanı da günahlandırırıq.

Hazırda İranda 70 000 qaçqın var, bu insanlar oradakı xanların və onların satraplarının bütün mümkün işgəncələrinə məruz qalırlar. Qalan dörd yüz min əhali Naxçıvan ətrafında, ac-yalavac, yarıçılpaq, açıq səma altında tarlalarda yerləşib. Bu nəhəng və ac kütlə, çəyirtkə kimi, acından ölməmək üçün əlinə keçən hər şeyi məhv edir, tarlalarda qalan sünbül, üzüm və cürbəcür tərəvəz qalıqları ilə qidalanırdı. Ancaq əzəl-axır bunlar da qurtardıqdan sonra, indi onlar cürbəcür otlarla dolanır, üzüm tənəyi, ağac qabığı gəmirir, hər cür dəri və sümük artıqlarını qaynadıb yeyirlər. Pis qidadan və kifayət qədər yeməməkdən hər gün yüzlərlə insan ölür. Nəzarətsiz qalan, küçə və tarlalarda ölən

yetim uşaqlar həddən çoxdur. Bir sözlə, Naxçıvan ətrafında yarım milyonluq zəhmətkeş əhali – İrəvan quberniyasının yarısı dəhşətli bir mənzərə içərisində tamamən qırılmaq üzrədir. Bu ölməkdə olan əhalini qırılmaqdan xilas etmək üçün ən rasional vasitə – onlara doğma yerlərinə qayıtmaq imkanı verməkdir, Şərurda olduğu kimi, o yerlərdə də böyük düyü tarlaları var və bu, bütün qaçqınlar üçün kifayət edər. Bu, nümayəndə heyətinin fəhlə-kəndli hökumətinə və qırmızı orduya təqdim etdiyi birinci və əsas tələbdir. Biz bu qaçqınların vəziyyətinin yoluna qoyulması və öz yerlərində yerləşdirilməsi üçün tədbir görülməsini xahiş edirik. Biz Antantanın şeytan əlinin bizim diyarlarımızdan çıxarılmasını tələb edirik. Biz daşnakların bizim diyarlarımızdan çıxarılmasını, bizə və qonşularımız olan ermənilərə azad nəfəs almaq imkanı verilməsini və vətəndaşlarımızın heç olmasa sağ qalan hissəsinin xilas edilməsini, Naxçıvanda və onun rayonlarında olan qaçqınlarımızın köməyinə gəlməyinizi xahiş edirik.

Bu kömək təcili surətdə göstərilməlidir, zira 500 minlik əhali çörək və paltar tapmamaq ucbatından qırılmağa məhkumdur. Buna görə qaçqınları kifayət qədər ərzaqla təmin etmək lazımdır. Naxçıvan rayonunda ərzaq tədarük etmək imkanı yoxdur, çünki ərzaq yoxdur, onu mal mübadiləsi yolu ilə İrandan gətirmək lazımdır. Bundan əlavə, Şərur və Zəngibasar rayonlarının vaxtında tutulması həm qaçqınlara, həm də orduya böyük miqdarda taxıl verə bilər. Çünki dağətəyi rayonlarda taxıl tarlalardan yalnız indi yığılır. Bununla yanaşı, qarət edilməmişdən əvvəl qaçqınlar tərəfindən nəhəng çəltik plantasiyaları əkilib, iki həftədən sonra onların məhsulu yığılacaq, bu, qaçqınları uzun müddətə təmin edə bilər.

Qaçqınlar öz yerlərinə yerləşdirilənə qədər isə təcili kömək lazımdır:

1. Azərbaycanın valyuta malları və İran pulu hesabına İrandan taxıl almaq və qaçqınları onunla təmin etmək.

2. Qaçqınları paltar və parça ilə təmin etmək; yerlərdə olmadığı üçün bunların Bakıdan göndərilməsi lazımdır.

3. Aclıq və yoluxucu xəstəliklərlə mübarizə aparmaq üçün qida məntəqələri və çayxanalar açmaq.

4. Uşaq yetimxanaları açmaq; buna çox böyük ehtiyac var, belə yetim uşaqların sayı minlərlədir və onların nə paltarı, nə də yeməyi var.

Bütün bunları Azərbaycan İnqilab Komitəsinin diqqətinə çatdıraraq, daşnaklar tərəfindən viran edilən vilayətlərin zəhmətkeş kəndliləri öz nəzərlərini Qırmızı Azərbaycana və Qırmızı Orduya yönəldərək, proletariatdan təcili və həqiqi kömək gözləyir.

Şərur – Zəngibasar rayonlarının aclıqdan və soyuqdan ölməkdə olan yarım milyonluq qaçqın əhalisi Rusiya və Azərbaycanın fəhlə və kəndlilərinə müraciət edərək, Naxçıvan ətrafında məskən salan minlərlə günahsız qadın və uşağın dözülməz hıçqırıq və əzabları barədə məlumatı onların nəzərinə çatdırır və onları bu zavallılara kömək etməyə, öz mənəvi dəstəkləri və maddi yardımları ilə kömək etməyə çağırır".

*("Kommunist" qəzeti, 15 oktyabr 1920-ci il, №138)*

**Bolşevik nümayəndə heyətinin faktları şişirdilmiş şəkildə təqdim etdiyini düşünsək belə, daşnakların törətdikləri cinayətlər haqda dərc olunan məlumatların yarısı doğru olsa belə, yenə də bu insanlıqdan kənar məxluqları heç bir zaman, heç bir yerdə və heç bir vəchlə bağışlamaq olmaz. Heç zaman!**

Nümayəndə heyətinin bu məruzəsinə Sovet Azərbaycanı hökuməti heç bir reaksiya vermədi. İndi isə, Naxçıvanda partiya həyatı ilə bağlı dərc edilən xəbərləri diqqətlə oxuyaq; bu xəbərlər mətbuata nədənsə Bakıda deyil, Tiflisdə verilib, rubrika da istər-istəməz diqqəti cəlb edir.

## ERMƏNİSTANDA

**Tiflis. 20 oktyabr.** İnqilab Komitəsi Təşkilatı.

İrəvan quberniyasında, Naxçıvanda İnqilab Komitəsi təşkil olunub. Naxçıvan rayon komitəsində bütün şöbələr və yarımşöbələr təşkil edilib. Kommunist Partiyasının beş nəfərdən ibarət təşkilat bürosu seçilib. Naxçıvanda banklar milliləşdirilib. İnqilab Komitəsi tərəfindən xüsusi qaçqın koloniyası açılıb, buraya hər iki cinsdən üç min qaçqın toplanıb. Onlar üçün yeməkxana açılıb, ayaqqabı emalatxanası təşkil edilib. Duz mədənləri milliləşdirilib. Ərzaq uçota götürülüb. Qırmızı Ordu Naxçıvana gəlməmişdən əvvəl daşnakların hücumlarından qaçan əhali indi öz yerlərinə qayıdır.

*("Kommunist" qəzeti, 28 oktyabr 1920-ci il, № 149)*

Nə olub? Nə baş verib? Naxçıvanın Ermənistanla nə əlaqəsi? Bu, yəqin təsadüfi anlaşılmazlıq, yaxud da ermənilərin növbəti fitnəsidir və onlar bununla, İmperator Rusiyasında Naxçıvanın həqiqətən İrəvan quberniyasına daxil olduğunu xatırladırdılar. Ermənilərin Naxçıvandan ötrü nə üçün göz yaşı axıt-

dıqlarını başa düşmək olar: daşnaklar Naxçıvanı heç cür ələ keçirə bilməmişdilər. Qoy axıtsınlar, bu onların problemidir. Naxçıvan artıq bir neçə ay idi ki, sovetləşmişdi və indi daşnaklar günəşli Naxçıvanı ancaq yuxularında görə bilərdilər.

Yeri gəlmişkən, belə saxtakarlıqlara diqqət yetirməyə dəyərmi? Axı ermənilər məşhur Rusiya publisisti **Məmmədağa ŞAHTAXTİNSKİNİ** də faktiki ölümündən 26 il əvvəl dəfn etmişdilər, özü də bu nekroloq haradasa ucqar bir yerdə deyil, "С.-Петербургские Ведомости" qəzetinin 6 sentyabr 1905-ci il tarixli nömrəsində dərc olunmuşdur; həm də sanki acı bir təəssüf hissinə malik mətnlə: **"Allah sənə rəhmət eləsin, qələm zəhmətkeşi! Müsəlmanlar səni layiqincə qiymətləndirmədilər, qoy torpaq yumşaq yastığın olsun, mehriban və humanist insan!"**

Hər halda, Bakıda çıxan "Kommunist" qəzetində dərc olunan yuxarıdakı xəbərdə nəsə bir bədxahlıq hiss olunur!

Od yanmasa tüstü çıxmaz.

Bu arada AKP MK Naxçıvan diyarının partiya həyatını daim müşahidə altında saxlayırdı. AKP rəhbərliyi Naxçıvanda partiya təşkilatı yaratdıqdan sonra, onun fəaliyyət dairəsini genişləndirməkdə davam edirdi. Təşkilatın rəhbərliyi daim dünya inqilabının böyük işləri naminə çaşqın vəziyyətə düşürdü. Aclıq və fəlakət, bu qədim diyarın dəfələrlə ağır sınaqlarla üzləşmiş xalqının çıxılmaz həyat şəraiti – bunlar heç də başlıca məsələ deyildi. Bunlar boş şeylər idi. Naxçıvan xalqı hətta acından ölsə belə, partiyaçılar bəyan edəcəkdilər ki, bu xalq öz partiyasına ürəkdən inanır. Doğrudur, AKP onsuz da Naxçıvana kömək etməyəcəkdi. Partiya təşkilatının rəhbərliyi altında Naxçıvan diyarı özü özünə kömək etməli idi.

Kapitalist əhatəsi şəraitində bundan sonra necə yaşamaq və daha yaxşı işləmək barədə tövsiyələr AKP qurultayında veriləcəkdi. Və Naxçıvanın cəsur nümayəndə heyəti ölüm təhlükələrinin içindən keçərək AKP-nin 2-ci qurultayına gəlib çıxır.

# AZƏRBAYCAN KOMMUNİST PARTİYASININ İKİNCİ QURULTAYI

Doqquzuncu axşam iclası.
20 oktyabr 1920-ci il.
Yoldaş Stasov sədrlik edir.
**Yerlərdən məruzələr**
**NAXÇIVAN NÜMAYƏNDƏ HEYƏTİ**

**Yoldaş Qarayev.** Yoldaşlar! Elə indicə Naxçıvandan qurultaya yoldaşlar gəlib. Qırmızı Azərbaycanın ikinci kommunist qurultayına can atan Naxçıvan nümayəndə heyəti üsyan qaldırmış Zəngəzur daşnaklarının – fəhlə və kəndlilərin bu qəddar düşmənlərinin sıx zənciri arasından keçərək buraya gəlmişlər. Bütün əngəlləri qəhrəmancasına dəf edərək şanlı kommuna ailəsinə qovuşan əziz yoldaşlarımızı salamlayırıq. (Alqışlar).

**NAXÇIVAN nümayəndəsi.** “Yoldaşlar, Naxçıvan rayonunun yoxsul kəndli və fəhlələri məndən sizi onların adından salamlamağımı xahiş ediblər. (Alqışlar).

Yoxsul kəndli və fəhlələr, həmçinin onları müsavatçıların, türk bandalarının zülmündən və daşnakların caynaqlarından azad edən Qırmızı Ordunu salamlayırlar. (Alqışlar).

Naxçıvanın çox yoxsul kəndli və fəhlələri ümid edirlər ki, Bakı proletariatı, Şərqdə inqilabın avanqardı kimi, Azərbaycan kəndliləri ilə birlikdə bütün Şərqi Avropa kapitalizmindən azad edəcəkdir. (Alqışlar).

Yoldaşlar, biz uzaq bir ölkədən, Naxçıvan rayonundan buraya, keçdiyimiz yolun bütün çətinliklərinə baxmayaraq, daşnak güllələrinin altından keçərək, soyuğu, qarı dəf edib, dağlarda yataraq sizinlə, Bakı şəhərinin proletarları ilə görüşmək üçün gəlmişik. (Alqışlar).

Yoldaşlar, yaşasın başda Nərimanov olmaqla Bakı fəhlələri! (Alqışlar).

Yaşasın bizim dahi rəhbərimiz yoldaş Lenin! (Alqışlar).

Yaşasın Qırmızı Ordu və sovet hakimiyyəti!” (Alqışlar).

Naxçıvan nümayəndəsi sürəkli və gurultulu alqışlar altında öz yerinə keçir.

**Yoldaş NƏRİMANOV**. (Gurultulu alqışlar).

Yoldaşlar, Naxçıvan rayonu daşnaksakanların və türk ordularının bütün iyrəncliyini öz üzərində yaşamış olan bir Qafqaz rayonudur. Bu rayon həqiqətən də özünü bir tərəfdən daşnaksakanların hücumundan, digər tərəfdən qorxunc ordulardan qorumuşdur. Bu rayon bizim diqqətimizə layiqdir, ona görə ki, bu kiçik cənnət bütün bu dövrdə hətta müsavat hökumətinə də müqavimət göstərmişdir. Bu rayon sübut etmişdir ki, həmişə Qırmızı Ordunun gəlişini gözləmişdir, öz xilasını Qırmızı Orduda gördüyü üçün onu təntənə ilə qarşılamışdır.

Naxçıvan rayonu Qızıl Ordunun gəlişindən sonra artıq bütün Azərbaycan zəhmətkeşləri ilə birləşməyə can atmaqdadır. Uzun müddət düşmən daşnak və türk hərbi dəstələrinin əhatəsində qalan Naxçıvan rayonu həmişə, Qırmızı Azərbaycan vasitəsilə necə tez azad olmaq barədə düşünmüşdür. İndi onlar bizimlə birləşərək, bizimlə birlikdə çığırırlar: Yaşasın bizim dahi rəhbərimiz yoldaş Lenin! (Alqışlar).

*("Kommunist" qəzeti, 29 oktyabr 1920-ci il, № 150)*

Azərbaycan rəhbəri yoldaş Nərimanovun alovlu çıxışından ruhlanan Naxçıvan partiya təşkilatı tərəfindən də nitq söyləndi və bu nitq aclıqdan əzab çəkən, əyaləti dolduran qaçqınları dəfn etməkdən yorulmuş bir xalqın necə heyrətamiz bir ruh yüksəkliyinə malik olduğunu nümayiş etdirdi. Əgər bu diyara "ziyalı qadınlar" da gəlmiş olsaydı, onda Naxçıvanın geridə qalmış müsəlman qadınları maariflənər, bununla da hər şey yoluna düşərdi.

Sovet bolşeviklərinin konfranslar və qurultaylar daxil olmaqla bütün yığıncaqlarında hər zaman eyni xəstəlik – əsil problemləri və cari işlərin gedişatını pərdələyən mənasız və məsuliyyətsiz boşboğazlıq xəstəliyi hökm sürürdü. Ən əsası yığıncaq keçirmək, mitinq eləmək, daşnakları və xanları söyüb batırmaq idi.

Sovet hökuməti və partiya tənqiddən kənar idi. Və belə bir boşboğazlıq hökmən alqışlarla müşayiət olunmalı idi.

Qurultayın iclasları davam edir.

# AZƏRBAYCAN KOMMUNİST PARTİYASININ İKİNCİ QURULTAYI

## Yerlərdən məruzələr
## NAXÇIVAN QƏZASI
## (Məruzəçi yoldaş Rəcəbov)

Çevrilişdə bizim təşkilat qızğın iştirak etdi. Təşkilatın əvvəlində bizim 12 özəyimiz yarandı. Bu özəklərin 2421 nəfərə yaxın üzvü vardı. Özəklərdə daim iclaslar keçirilirdi. Bizim diyar indi müharibənin ağuşunda olduğu üçün biz mitinq eləmək üçün tez-tez bir yerə yığışa bilmirdik, bu səbəbdən mitinqlərimiz böyük olmurdu, 10 nəfərə qədər adam iştirak edirdi.

Bizim diyarın iqtisadi vəziyyəti çox acınacaqlıdır. Bizim əlimizdə üç qəza vardı. Azərbaycanda üsyan başlayanda və Ermənistanla cəbhə açılanda, daşnaklar bu məqamdan istifadə edib öz qüvvələrini bizim üstümüzə göndərdilər və xalqımızı qırmağa başladılar. Talan edilmiş qəzaların sakinləri bütün qəzanın üçdə birini təşkil edən bizim rayonda yurd salıblar.

Taxıl yığılıb döyülməmişdi, çünki daşnakların hücumu zamanı əhali İrana qaçmışdı, onlar qayıdandan sonra bir çox tarlaların məhsulunu yığmağa göndərildilər. Qaçqınlardan əlavə, orada yaşayan türk bandaları da bizi var-yoxdan çıxardılar. Bütün bunların nəticəsində indi bizim diyar böyük ehtiyac içərisindədir, baxmayaraq ki, bütün ərzaq məhsulları ucuzdur: çörəyin qiyməti 50 rubl, ətinki 150 rubldur, ancaq bütün bunları tapmaq çox çətindir, hər şey dildədir, əslində 5 pud buğda tapmaq çətin, olduqca çətindir. Qaçqınların ölülərini dəfn etmək üçün 24 nəfərdən ibarət komissiya təşkil olunub. Bu dəstə öz işini səliqəli şəkildə yerinə yetirə bilmir. Bizdə qaçqınların sayı 500 mindən çox idi, indi isə çoxu qırılıb, təxminən 400 min nəfər qalıb.

Qırmızı Ordunun gəlişindən sonra hakimiyyət təşkil olunmağa başladı, rayonlarda bütün şöbə və yarım şöbələri ilə birlikdə inqilab komitələri təşkil olundu, ancaq hər işin başlanğıcında olduğu kimi, bizim də işimiz çox da sahmanlı getmirdi,

çünki biz daha çox cəbhə ilə məşğul idik. Yaxşı adamları cəlb edə bilmirdik, çünki hər yerdə onlar cəbhəyə işləyirdilər. İndiyə kimi gənclər ittifaqını təşkil edə bilməmişik, çünki yenə də bütün qüvvələr cəbhədədir. Özək komitələrindən təşkilatçılar ayırmışıq, indi onlar kəndlərdə işləyirlər, inqilab komitələri təşkil edir, bizə köməklik göstərir və partiya sıralarımızın artmasına yardımçı olurlar. Təkrar qeydiyyatdan sonra cəmi 1119 həqiqi üzvümüz qalıb, həqiqi olmayanlar tamam ixrac edilib. Hal-hazırda, demək olar ki, hər bir kəndə özəyimiz var, olmayan kəndlərdə isə təşkilatçılarımız tezliklə öz işlərini yekunlaşdıracaq və hər yerdə özəklərimiz olacaqdır. Partiya konfranslarımız olmayıb, çünki partiyaçı adamlarımız hər zaman cəbhəyə göndərilib. Bitərəf konfranslar isə ümumiyyətlə olmayıb. Baxmayaraq ki, bizim diyarımız viran edilib və burada işə çox böyük ehtiyac var, partiya iməcilikləri keçirilməyib. Bizim diyarın əhalisi Qırmızı Orduya çox yaxşı və dostcasına münasibət bəsləyir, onlar yaxşı başa düşürlər ki, xilası yolları bu ordudadır.

Üç il ərzində yalnız müdafiə ilə məşğul olmağımıza baxmayaraq, məktəblərdə məşğələlər, hər cəhətdən öz vəsaitləri hesabına qaydasında davam edir. İndi, sovet hakimiyyətinin təşkilindən sonra xalq maarifi şöbəsi yaradılmış və o öz işinə başlamışdır. Ancaq bizim ziyalı qadınlara böyük ehtiyacımız var, onlar bizim qadınları maarifləndirə bilərdilər. (Alqışlar).

*"Kommunist" qəzeti, 1 noyabr 1920-ci il, № 152*

Qurultay öz işini qurtardı və Naxçıvan nümayəndələri ruh yüksəkliyi içərisində yenidən böyük igidlik göstərərək, daşnak əngəllərini aşıb, doğma Naxçıvan torpağına qayıtdılar və Naxçıvan xalqına öz gələcəklərinin yalnız Sovet Azərbaycanı ilə bağlı olduğunu yüksək səslə bəyan etdilər. Sovet Naxçıvanının başqa yolu yox idi.

Sovet Naxçıvanı böyük inam və ümid içərisində əlini Sovet Azərbaycanına uzatdı, ona inandı, ancaq cavab nədənsə, anlaşılmaz şəkildə gecikirdi. Naxçıvan xalqı acından qırılmaq həddində, hər yan tam fəlakət içərisində idi, amma Azərbaycandan

heç bir kömək yox idi, hətta təsəlli sözləri belə eşidilmirdi. Görəsən nə baş verirdi?

Kreml rəhbərliyinin planına əsasən Sovet Azərbaycanının Naxçıvan Respublikası ilə bağlı **ümumdünya-tarixi əhəmiyyətli xüsusi niyyəti** vardı, bu barədə hətta ən yüksək dairələrdə belə heç kimin xəbəri yox idi.

Bu – Sovetlər ölkəsinin yeddi qıfıl arxasında saxlanılan gizli bir böyük beynəlmiləl planı idi.

## BU BÖYÜK BOLŞEVİK SENSASİYASINI TEZLİKLƏ SOVET RUSİYASINA VƏ BÜTÜN DÜNYAYA SOVET AZƏRBAYCANININ RƏHBƏRİ, İLİÇİN ÖZÜ TƏRƏFİNDƏN YAXIN ŞƏRQİN BAŞ İNQİLABÇISI KİMİ QƏBUL EDİLƏN NƏRİMAN NƏRİMANOV BƏYAN EDƏCƏKDİ

# NƏRİMAN NƏRİMANOV SOVET NAXÇIVANINI SOVET ERMƏNİSTANINA BAĞIŞLAYIR

Planlaşdırıldığı kimi, XI Qırmızı Ordu Sovet hökumətinin əmri ilə dekabrın 1-də Ermənistandakı burjua-millətçi və yaxud başqa deyimlə, nifrətdoğurucu daşnak hakimiyyətini devirdi. Ermənistanda süngü gücünə bolşevik hakimiyyəti quruldu.

"Rusiya Federasiyası adından S.M.Kirov Ermənistan Sovet Sosialist Respublikasının yarandığını elan etdi".

*("Kommunist" qəzeti, 6 noyabr 1920-ci il, № 181)*

Rusiya, xüsusilə də Azərbaycan mətbuatı şad xəbərlərlə doldu. Ermənistanda sovet hakimiyyətinin qurulması, Bakıda hətta 28 Aprel inqilabı hadisəsi ilə müqayisədə belə daha böyük sevinc oyatmışdı. Ermənilər, bunda onların haqqını vermək lazımdır, ta qədimdən (elə indi də) Ermənistanla bağlı istənilən, hətta ən xırda bir hadisəni belə geniş miqyasda, parlaq və təntənəli şəkildə, sanki məhz bu ölkədə baş verənlər dünyanın hər yerindəkindən daha vacib imiş kimi, təqdim etməyi yaxşı bacarırlar. Və bu hədsiz təntənə heç də ermənilərin öz əli ilə edilmir, onlar əllərini yanlarına salıb Ermənistanda baş verən hadisələrin digər millətlər tərəfindən şişirdilməsini gözləyirlər. Digər millətlər isə öz enerjilərini sərf edərək, bütün dünyaya elə bir hay-həşir salırlar ki, Ermənistanda baş verən və yaxud ona aidiyyəti olan hər hadisə möhtəşəm və əlbəttə ki, ümumdünya əhəmiyyətli bir şey kimi bütün dünyada hiss edilsin.

Sovet Ermənistanının yaradılmasının ümumdünya-tarixi əhəmiyyəti barədə ucadan qışqırmaq xoşbəxtliyi Sovet Rusiyasının respublikaları arasında ən birinci Sovet Azərbaycanının bəxtinə düşmüşdü. Qoy çürüməkdə olan, öz dəfnini səbirsizliklə gözləyən, hələ ki, könüllü surətdə tabuta uzanmağa macal tap-

mamış kapitalist aləmi bilsin ki, Sovet Ermənistanı yaradılıb və bunu bütün dünyaya heç kim yox, məhz Azərbaycan SSR bəyan edir.

Sovet Azərbaycanının mövcud olduğu ilk günlərdən başlayaraq, onun liderləri başqalarını elə təmtəraqla, elə yağlı dillə salamlamağa və təbrik etməyə öyrəşmişdilər ki, nəhəng ərazini əhatə edən bütün Yaxın və Uzaq Şərqdə ən istedadlı yaltaq belə bunu bacarmazdı. Ancaq ermənilər, nə qədər təmtəraqlı, nə qədər dəbdəbəli mədhiyyələrlə dolu olsa da, bu boş sözlərlə açıq-aşkar kifayətlənən deyildilər. Bu qədər təntənəli bir hadisəyə görə onlara üstəlik hədiyyə də vermək lazım idi. Gənc Sovet Azərbaycanı az qala yoxsulluq həddində olsa da, özü Rusiyadan ərzaq köməyi gözləsə də, onun liderləri, bütün bunlara baxmayaraq, hədiyyə verməyə hazırlaşırdılar. Dünyanın heç yerində heç kimsə güman etməzdi ki, Sovet Azərbaycanı özünün bütöv ərazilərini və neft ehtiyatlarını hədiyyə etməyə qadirdir. Əslində bunları Sovet Azərbaycanı hədiyyə etmirdi – axı heç kim xalqdan heç nə soruşmamışdı və soruşmağa da hazırlaşmırdı. Xalqın torpağını onun adından Azərbaycanın rəhbəri – Nəriman Nərimanov bağışlayırdı! Qoy oxucu müəllifin səhvini düzəltməyə çalışsın, tarixdə bu cür başqa nümunələrin də olduğunu söyləsin. Mənasız işdir, havayı yerə əziyyət çəkməyin, onsuz belə bir nümunə tapmayacaqsınız. Sovet Azərbaycanı elə siyasi rekordlar vurub ki, onları heç kim qıra bilməz.

Sovet Azərbaycanı sevincdən yalançı göz yaşları axıdır, öz doğma, sevimli Sovet Ermənistanını hərarətlə bağrına basır, gözləri yarıyumulu halda pıçıldayırdı: **“Əzabkeş, başı çox bəlalar çəkən, Antantanın və daşnakların lütfü ilə aclığa, fəlakətə və qaçqınlığa sürüklənən Ermənistan – bütün “dostları” tərəfindən aldadılan Ermənistan indi özünü sovet ölkəsi elan etməklə bütün bunlardan xilas olmuşdur...”**

## YAŞASIN ERMƏNİSTAN SOVET SOSİALİST RESPUBLİKASI!

### Yoldaş LENİNƏ TELEQRAM

### (Surəti yoldaş Orconikidzeyə və yoldaş Nərimanova)

Dünya inqilabının rəhbərinə məlum olsun ki, daşnak hökumətinin cinayətkar siyasəti və ölkədə dərinləşən anarxiyadan qəzəblənən Dilican və Karvansara rayonlarının kəndliləri üsyan bayrağını qaldırmışlar. Ermənistan Kommunist Partiyası indi bu kortəbii hərəkata rəhbərliyi öz əlinə almış, Ermənistan İnqilab Komitəsini yaratmış, Ermənistanı Sovet Sosialist Respublikası elan etmişdir.

Dilican şəhəri bizim əlimizdədir. Üsyançılar böyük ruh yüksəkliyi içərisində Antantanın nifrətəlayiq agentini qəti şəkildə devirmək üçün daha irəliyə can atırlar.

Onların iradəsini yerinə yetirərək, biz yerli inqilab komitəsi yaradıb, belə bir tam əminliklə irəliləyirik ki, böyük Sovet Sosialist Rusiyasının qəhrəman Qırmızı Ordusu – Şərqin məzlum xalqlarının xilaskarı bu çətin mübarizəmizdə bizə kömək edəcəkdir. Ermənistanın bütün fəhlə və kəndliləri adından biz Xalq Komissarları Sovetindən bizə bu köməyin göstərilməsini xahiş edirik.

Yaşasın Rusiya Sosialist Federativ Sovet Respublikası!

Yaşasın müzəffər Qırmızı Ordu!

Ermənistan İnqilab komitəsinin sədri: **S. KASYAN**

Ermənistan İnqilab komitəsinin üzvləri: **AVİS, BEKZADYAN, DÖVLƏTYAN, MRAVYAN, TER-QABRİELYAN .**

Karvansara, 30 noyabr.

*(“Kommunist” qəzeti, 1 dekabr 1920-ci il, № 177)*

## SOVET ERMƏNİSTANININ ELAN EDİLMƏSİ MÜNASİBƏTİLƏ BAKI SOVETİNİN TARİXİ İCLASI

### Yoldaş QARAYEV sədrlik edir

1 dekabr 1920-ci il. Dövlət teatrının zalı ağzınadək doludur.

Proletar ictimaiyyəti hazırda Ermənistanda baş verən böyük hadisələr barədə məlumatları dərin diqqətlə dinləyir.

Birinci olaraq, Azərbaycan SSR İnqilab Komitəsinin sədri yoldaş Nəriman Nərimanova söz verilir.

## YOLDAŞ NƏRİMANOVUN ÇIXIŞI

Ermənistanda baş verən hadisələr bir daha göstərir ki, biz, milli məsələləri Sovet Rusiyası qədər heç kim uğurla həll edə bilməz deyəndə haqlı idik. Hakimiyyəti ələ keçirəndən sonra elə ilk günlərdəcə deyəndə ki, əgər bir xalq öz müqəddəratını özü müəyyən etmək, öz həyatını yaşmaq istəyirsə, onda o öz taleyinin özü həll etməli, öz xoşbəxtliyini öz əlinə almalı, kimlərinsə əlində oyuncaq olmamalıdır – yenə biz haqlı idik.

Oktyabr inqilabının ilk günlərindəcə biz məhz bu məqsədlə elan etdik ki, avropalı yırtıcılarla indiyədək bağlanmış olan bütün müqavilələr, bütün şərtlər bu gündən bizim tərəfimizdən cırılıb ayaqlar altına atılır. Ancaq bizim müraciətimiz uzun müddət diqqətdən kənarda qaldı və Sovet Rusiyasının bu çıxışlarının mahiyyətini anlamayan xırda xalqlar getdikcə imperialist yırtıcıların daha çox təsiri altına düşdülər.

Mən burada bir şeyi qeyd etmək istəyirəm: Zaqafqaziyada heç bir xalq erməni xalqı qədər müstəqilliyə inadla can atmamış, ona öz həyatını yaşamaq imkanı verilməsi üçün bu qədər inadla qan tökməmişdir. Adama elə gəlirdi ki, Ermənistan rəhbərləri Sovet Rusiyasına yaxınlaşmalı, var qüvvələri ilə onu dəstəkləməli idilər, çünki bütün əzilən xalqların yeganə müdafiəçisi məhz odur, çünki yalnız o, həqiqətən öz müqəddəratını təyin etməni müdafiə edir – ancaq biz bunun tamam əksini görürük.

Lap əvvəldən Ermənistan həmişə Sovet Rusiyasının daxili və xarici düşmənləri ilə bir addımlayıb. O, var gücü ilə Denikini dəstəklədi, çarizmi bərpa etməyə çalışan, eyni zamanda ümumdünya quldur İngiltərənin bilavasitə təsiri altında olan bu quldurla sıx əlaqə saxladı. Bütün bunlar ona görə baş verdi ki, Ermənistan hökuməti Rusiyaya daxili və xarici cəbhə açan mülkədarlardan, qan içənlərdən ibarət idi, onlar üçün isə müqəddəs heç nə yoxdur, millətlərin azadlığı, öz müqəddəratlarını özlərinin təyin etməsi boş şeydir, onlar üçün müqəddəs olan hər şey ciblərindədir. Onlar olmasaydı, əməkçi erməni xalqı çoxdan Sovet Rusiyasına qoşulmuş olardı, çünki o bilir ki, ona azadlıq verə biləcək başqa bir güc yoxdur.

Bütün salonun gurultulu alqışları altında Nəriman Nərimanov Ermənistan İnqilab Komitəsinin RSFSR adına teleqramını və Sovet Azərbaycanı hökumətinin Bəyanatını oxuyur.

## SOVET AZƏRBAYCANI HÖKUMƏTİNİN BƏYANATI

"Sovet Azərbaycanı hökuməti, iki ildən artıqdır ki, Ermənistanı tamamilə müflisləşdirən və ümidsizliyə düçar edən daşnak hökumətinin nifrətdoğurucu zülmünə qarşı mübarizədə zəhmətkeş erməni xalqının hal-hazırda göstərdiyi qəhrəmanlıq səylərini dərin sevinc hissi ilə alqışlayır.

"Müsavat" və daşnak hökumətləri Antantaya satılaraq, xalqları sonuncunun əlində kor alətə çevirmişdilər və öz imperialist tamahları naminə bir xalqı digərinin üstünə salaraq, Qarabağ, Zəngəzur, Naxçıvan



və digər ərazi məsələlərini yaratmışdılar və bu məsələlər daşnak-müsavat reaksiyasının gücü ilə həll oluna bilməzdi.

Yüzlərlə dağıdılmış kənd və qəsəbə, çılpaq, ac-yalavac qalan, öz doğma yuvalarından məhrum edilmiş onlarla, yüzlərlə insan– bütün bunlar yaxın keçmişin canlı şahidləridir, onlar dünya burjuaziyasının nökərləri olan bir ovuc avantüristin, öz şəxsi mənafeləri naminə on, yüz minlərlə insanı soyuğa, aclığa və ölümə məruz qoyduğunu göstərir.

Sovet Azərbaycanı zəhmətkeş qardaş erməni xalqının, bizim ən yaxşı kommunist yoldaşlarımızın Ermənistan və Zəngəzur hüdudlarında qanını axıtmış və axıtmaqda olan daşnaklara qarşı mübarizəsində ona yardım göstərmək məqsədilə elan edir ki, bundan sonra heç bir ərazi məsələsi əsrlər boyu qonşu olmuş iki xalqın – ermənilərlə müsəlmanların qarşılıqlı qan tökməsinə səbəb ola bilməz; Zəngəzur və Naxçıvan qəzalarının əraziləri Sovet Ermənistanının ayrılmaz tərkib hissələridir, Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə tam öz müqəddəratını təyin etmək imkanı verilir, Zəngəzur hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır, Sovet Azərbaycanının qoşunları isə oradan çıxarılır.

Bundan əlavə, **Sovet Azərbaycanı malik olduğu tükənməz sərvətlərindən: neft, ağ neft və digər məhsullarından istifadə üçün öz qapılarını Sovet Ermənistanı önündə geniş açır...**

Yaşasın Sovet Ermənistanı və Sovet Azərbaycanı zəhmətkeşlərinin

qardaşlıq ittifaqı!

Yaşasın sülh, qardaşlıq və əsarətdə olanlara azadlıq gətirən dünya inqilabı!

Bəyanatın oxunuşu susmaq bilməyən coşqun çəpik səsləri və “ura” qışqırtıları ilə dəfələrlə kəsilir”.

*“Kommunist” qəzeti, 2 dekabr 1920-ci il, № 178*

Sovet Ermənistanı İnqilab Komitəsi adından təbrik sözü ilə yoldaş **BEKZADYAN** çıxış edir.

## YOLDAŞ BEKZADYANIN ÇIXIŞINDAN

... Gözlədiyimiz şey axır ki, oldu: zəhmətkeş Ermənistan özünü Sovet Sosialist Respublikası elan etdi, indi məhz onun adınadan Bakı proletariatını salamlayır. (Alqışlar).

Mən, yoldaşlar, gerçək bir heyrətlə qeyd edirəm ki, bugünkü təntənə yalnız azad Sovet Ermənistanının deyil, həm də 15 il ərzində ermənilərlə tatarlar arasında milli qırğına qarşı yorulmadan mübarizə aparan inqilabçı Bakı proletariatın təntənəsidir. Biz Bakı proletariatının timsalında ən möhkəm, ən dayanıqlı inqilabçı dostlara malikik.

Bax buna görə də, yoldaşlar, yoldaş Nərimanovun bu gün burada elan etdiyi bu bəyanat 1905-ci ilin, bu qırğın süni surətdə törədilərkən, Bakı proletariatının öz hakim səsini ilk dəfə ucaltdığı dövrün idealıdır – bu, həmin idealdır ki, biz ona indi nail olmuşuq və heç şübhəsiz, Bakı proletariatı sayəsində nail olmuşuq. Bir çox illər ərzində uğrunda qan tökülən, diplomatların saxta göz yaşları axıtdıqları, haqqında minlərlə səhifələr yazılan bir məsələ indi bir bəyanatla bu qədər sadə və asancasına, bu qədər səmimiyyətlə həll edilir, bu bəyanat müəyyən edir ki, zəhmətkeş Ermənistanla Azərbaycan arasında sərhəd mövcud deyil, Ermənistanın zəhmətkeş xalqı öz azad işgüzar həyatını sakit şəkildə yaşayacaqdır...

## YOLDAŞ ORCONİKİDZENİN ÇIXIŞI

Yoldaşlar, bundan xoşbəxt bir zal hardasa başqa bir yerdə çətin ki, tapılsın. Cəmi-cümlətanı yeddi ay ərzində bu salon Bakı fəhlələrini, təntənəli bayram üçün gör, neçə dəfə öz divarları arasına toplayıb. Bu gün isə Bakı proletariatı bu salonda doğulmaqda olan Ermənistan Sovet Respublikasını alqışlayır. (Alqışlar).

Başı çox bəlalar çəkmiş erməni xalqı, Ermənistanın zəhmətkeş kütlələri daşnak üsul-idarəsi tərəfindən imperialist müharibənin dəhşətli girdabına atılmışdı. Bu xalq hal-hazırda qırmızı üsyan bayrağını qaldıraraq, Sovet hakimiyyətinin qırmızı bayrağı altında bizimlə bir-

ləşir... Burada, Şərqdə təkcə Bakı proletariatı deyil, hətta yarı feodal Türkiyə də, öz paşa və generalları ilə birlikdə öz qardaş əlini qırmızı Sovet Rusiyasına uzadır.

Müsəlman Şərqi haçansa sitayiş üçün Məkkəyə, Məhəmməd peyğəmbərin qəbrinə gedirdi, indi isə öz əlini ağ daşlı Moskvaya uzadır və nəzərlərini ona dikir, çünki Sovet hakimiyyətinin beşiyi, dünya inqilabının yuvası oradadır...

Yoldaşlar, Sovet Azərbaycanı bu gün yoldaş Nərimanovun timsalında çıxış edərək, bütün dünyaya, hər şeydən əvvəl isə Ermənistan fəhlə və kəndlilərinə sübut etdi ki, yalnız Sovet hakimiyyəti millətlərarası ədavətlə bağlı, burada və dünyanın çox yerində mövcud olan bütün lənətə gəlmiş məsələləri həll etməyə qadirdir.

Yoldaş Nərimanovun çıxışı çox xarakterikdir. O bizə bəyanat oxudu. Zəngəzur, Naxçıvan, Qarabağ – bu sözlər onların məzmunundan xəbərsiz rus qulağı üçün heç bir anlam kəsb etmir.



Hansısa Zəngəzur, Qarabağ, Naxçıvan. Qısır dağlardan ibarət olan hansısa çörəksiz, susuz Zəngəzur. **Orada heç nə yoxdur. Bataqlıqdan, malyariyadan başqa heç nəyi olmayan hansısa Naxçıvan.** İnsanların qaramal kimi sığındığı hansısa Dağlıq Qarabağ. Axı nə var bu Qarabağda? Heç nə. Baxın yoldaş Nərimanov deyir**: "Onları özünüzə götürün. Bu qeyr-münbit, qısır torpaqları özünə götür, Ermənistan".** Sanki, bu çox yaxşı bir işdir, Sovet Azərbaycanı artıq yükdən azad olur. Ancaq elə deyil. Bur - da, bu qəzalarda, bu qısır torpaqlarda necə deyərlər, erməni-müsəlman məsələsi törəmişdir, burda – Zaqafqaziyada. Bu məsələ, yoldaşlar, buraya çoxlu dəhşətlər gətirmişdir, bu məsələ bir-birini qırmaq üçün zəhmətkeş müsəlmanı zəhmətkeş erməninin üstünə salmışdır. 1905-ci ildən başlayaraq bu zavallı xalqların qanı axıdılır. Minlərlə insan amansızcasına məhv edilir, mən özüm, heç kimə ziyanı dəyməyən zavallı körpə uşaqların böyüməmək üçün özlərini uçuruma atdıqlarının, müdafiəsiz qadınların dəhşətli əzab-əziyyət içində ölməmək üçün özlərini quyuya atdıqlarının şahidi olmuşam. Müsavatçıların başçılığı altında müsəlmanlar, daşnakların başçılığı altında isə ermənilər belə edirdilər.

Və budur, bu gün Azərbaycan Respublikasının başçısı irəli çıxıb deyir: "Bu dəhşətli məsələ artıq mövcud deyil. (Gurultulu alqışlar). Müsəlmanlarla ermənilər arasında artıq ədavət yoxdur. Müsəlmanlar və ermənilər, bu zəhmətkeşlər bu gündən sovet hakimiyyətinin qırmızı bayrağı altında doğma qardaşlara çevrilirlər. (Alqışlar).

Bu akt, burada oxunan bu akt böyük əhəmiyyətə malikdir, bu tarixdə bənzəri olmayan tarixi bir faktdır.

*("Kommunist" qəzeti, 6 dekabr 1920-ci il, № 181)*

Əqidəcə allahsız və əxlaqsız bir insan olan "mehriban Serqo" əllaməlik edərək, hər cür təhqirə əl atır, tarixi və gerçəkliyi təhrif edir. O bilir ki, yalan danışır, ancaq çürük bolşevik ideologiyası onu dəhşətli siyasi hiyləgərliyə sürükləyir. Bəlkə o, dərk etmək istəmir ki, bu torpaqların Ermənistana verilməsi ilə gələcəkdə millətlərarası ədavətin daha da qızışması, bu zəmində yeni qırğınların başlaması üçün əlverişli, amma bu dəfə yalnız və yalnız ermənilər üçün əlverişli şərait hazırlanmasını təsbit edir; çünki zorla Ermənistana birləşdirilmiş müsəlmanlar bu halda hər yerdə və hər şeydə günahkar sayılacaqlar.

Ermənilər əvvəllər də, heç zaman onlara məxsus olmayan torpaqlara əsassız iddiada olmuşlar. Məsələn, öz rəhbərləri tərəfindən təhrik edilən vəhşiləşmiş daşnaklar 1918 – 1920-ci illərdə bir neçə dəfə ta qədim dövrlərdən müsəlmanların məskunlaşmış olduğu Naxçıvan torpaqlarını ələ keçirməyə cəhd göstərmişlər, hərçənd onların bu cəhdləri heç də həmişə uğurlu olmamışdır. Ermənilər öz insanlarını itirmiş, özlərinin və öz vətəndaşlarının qanlarını axıtmışlar. Bir sözlə, özgə torpaqlarına göz dikmək ermənilərə heç də ucuz başa gəlməmişdir, ancaq onlar yenə də "Dənizdən dənizə Böyük Ermənistan" naminə sakitləşməmiş, bu əməllərindən əl çəkməmişlər.

İndi isə Serqo Orconikidze "zavallı" erməni xalqını müdafiə edərək, guya Azərbaycan SSR üçün onsuz da artıq yük olan Azərbaycan torpaqlarını ona hədiyyə edir. "**Bataqlıqdan, malyariyadan başqa heç nəyi olmayan hansısa Naxçıvan**", Orconikidze dəqiqləşdirir, ermənilərə də lazım deyil (Çox əziyyətlər çəkmiş və indi viran edilmiş, amma son dərəcə münbit

Naxçıvan torpağına bu cür savadsız bir qiymət verdiyinə görə bu peşəkar inqilabçını bağışlaya da bilərik). Lakin, Orconikidze, filosofluq edir, məsələnin məğzi bu çılpaq, "çörəksiz və susuz" torpaqların ermənilərə bağışlanmasından ibarət deyil. "**Burda, bu qəzalarda, bu qısır torpaqlarda necə deyərlər, erməni-müsəlman məsələsi törəmişdir. Bu məsələ, yoldaşlar, buraya çoxlu dəhşətlər gətirmişdir...**" Serqo Orconikidzeni başa düşmək çətin deyil. Yəni, bu torpaqlar yararsız bir şeydir, ancaq bir halda ki, onlar qədim erməni torpaqlarıdır, onda bu **"erməni-müsəlman məsələsinin"** gündəlikdən silinib atılması üçün hər şeyi eləmək lazımdır. Bütün bunlardan sonra bolşeviklərin bütöv bir qədim xalqın mənəvi dəyərlərini ələ salmadıqlarına necə inanasan? Bütün bunlardan sonra onların millətlərarası ədavəti aradan qaldırdıqlarına inanmaq olarmı?

Bakı sovetinin iclası sona yaxınlaşırdı. Elə həmin gün də ona tarixi qiymət verildi:

> "Bakı sovetinin, Azərbaycan İnqilab komitəsinin bütün fəhlələrin, Qırmızı Ordu əsgərlərinin... iştirakı ilə keçirilən təntənəli iclası Ermənistanda Sovet inqilabı faktını qeyd edərək, yoldaş Nərimanov tərəfindən elan edilən bəyanatını alqışlayır və tamamilə bəyənir; bu bəyanat əsrlərdir Ermənistan ilə müsəlman dünyası arasında davam edən millətlərarası ədavəti və qanlı müharibəni həmişəlik aradan qaldırır, Zaqafqaziya və bütün Şərq xalqlarının tarixində yeni xoşbəxt həyat səhifəsi açır.
>
> Yaşasın sülh və Zaqafqaziya xalqlarının qardaşlığı!
>
> Yaşasın Zaqafqaziya Sovet Sosialist Respublikalar İttifaqı!"
>
> *("Kommunist" qəzeti, 2 dekabr 1920-ci il, № 178)*

Nərimanov Sovet Azərbaycanının Bəyanatını elan etdikdən bir gün sonra Serqo Orconikidzenin tez bir zamanda onda təəssüf doğuran "qeyri-dəqiq" bir ifadə tapdığına ***(Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə tam öz müqəddəratını təyin etmək imkanı verilir)*** və öz partiya səlahiyyətindən istifadə edərək, ərazilərin Sovet Ermənistanına verilməsi ilə bağlı Nərimanovun redaktəsini dərhal necə "dəqiqləşdirdiyinə" diqqət yetirək.

Səlahiyyət bolluğundan az qala boğulan Serqo Orconikidze

Dağlıq Qarabağı seçim şansından məhrum edərək, onu özbaşına Sovet Ermənistanına bağışlanan hədiyyələrə qatmışdır.

## YOLDAŞ ORCONİKİDZE:

**"AŞAĞIDAKILARI YOLDAŞ LENİNƏ VƏ YOLDAŞ STALİNƏ ÇATDIRIN:**

İndicə İrəvandan məlumat alınmışdır ki, İrəvanda Sovet hakimiyyəti elan edilib, köhnə hökumət aradan qaldırılıb, bütün hakimiyyət İnqilab Komitəsi gələnədək **Dronun** başçılıq etdiyi hərbi komandanlığa verilir... Bu gün Aleksandropoldan gələn yoldaş məlumat verir ki, kamalist qoşunlar arasında bizə yüksək dərəcədə dost münasibət var, qoşunlar qırmızı nişan gəzdirir və özlərini Qırmızı Ordunun əsgərləri hesab edirlər. Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsi barədə bəyanat verib.

Bakı, 2 dekabr 1920-ci il. **Orconikidze**"

Qəribədir, hələ 1920-ci ilin əvvəlində daşnak Ermənistanı ordusunda yüksək rütbəli hərbi xadim olan Dro bu tezliklə necə qırmızı rəngə bürünüb?

Bu peşəkar terrorçu və qatil hələ 1905 – 1907-ci illər inqilabı dövründən Qafqazda məşhur idi. Yeri gəlmişkən, **Dro** – soyad deyil, gizli ləqəbdir. Onun haqqında danışmaq imkanını əldən buraxmayaq.

---

**Konanyants (Kanayan) Drostoman Martirosoviç (Dro)** 1881-ci ildə doğulub, Türkiyənin İqdır şəhərindəndir, 1905-ci ildən "Daşnaksütyun" partiyasının üzvüdür, o, çox sayda mülki və hərbi məmurların qətlini təşkil edən və həyata keçirən terrorçu kimi bu partiyada böyük populyarlığa malik idi; bu qətllər arasında Bakı qubernatoru Nakaşidzenin qətli xüsusilə böyük səs-küy oyatmışdı. O vaxtlar "Daşnaksütyun" partiyası Rusiyanın baş naziri P. A.Stolıpin haqda ölüm hökmü çıxarmış və bu qədər əlamətdar bir qətlə Dronu cəlb etməyi planlaşdırmışdı, lakin P.A.Stolıpini daşnaklar öldürə bilmədilər. Bu işdə Kiyev maksimalistləri birinciliyi daşnakların əlindən qapıb aldılar və baş nazir P.A.Stolıpin 1911-ci il sentyabrın 1-də onlar tərəfindən öldürüldü.

1907-ci ilin iyulunda Dro əvvəllər Tiflisin, sonra isə Kutaisi, Suxumi və Potinin qubernatoru olmuş general Maqsud Əlixanovun qatillərindən biri olmuşdur. Cəsur general Əlixanov Dronun terrorçuları tərəfindən ölüm-dirim savaşında deyil (onlar buna qabil deyildilər), general gündəlik qayğılardan yorğun halda öz ekipajında mürgüləyərkən vəhşicəsinə qətlə yetirilmişdi. Maqsud Əlixanovu qubernator fədakarlıqlarına görə öldürməmişdilər. Əlixanovun ağlına belə gəlməzdi ki, onun yanğına bürünən Zaqafqaziyada sülhsevər əməlləri Rusiya, Qafqaz və Türkiyə ermənilərinin çoxdan arzusunda olduqları vahid "böyük" erməni dövlətində birləşmələrinə əngəl törədir.

General Əlixanovun qətlindən sonra Dronu nə səbəbdənsə həbs etməyə tələsmədilər, o özü isə əvvəlcə heç gizlənməyə də hazırlaşmırdı. "Məşhur adam" kimi Dro Hərbi-Gürcüstan yolu ilə sakitcə, özü də hansısa bir arabada deyil, hətta Tiflis və Kutaisinin qubernatoru olmuş Maqsud Əlixanovun belə sağlığında minmədiyi yüngül minik maşınında o baş – bu başa gəzirdi.

Dro haqqında çox şey məlumdur: onun əvvəllər xırda, sonra isə iri silah anbarı olmuşdur, erməni-tatar qırğını zamanı hərbi drujinalara rəhbərlik etmişdi, general Əlixanovun qətli ilə yanaşı digər bir sıra terror aktlarında şübhəli bilinirdi.

1909-cu ildə Dro birdən-birə aradan çıxıb gizləndi. Tezliklə polis və gizli xəfiyyələrə məlum oldu ki, axtarışda olan Dro-Konanyants ədalət məhkəməsindən qaçaraq, sakitcə Bəyazit şəhərində gizlənir, ancaq təkcə gizlənməklə qalmır, həm də orada neft məhsulları və şəkər alveri ilə məşğul olur. Agenturanın vicdanla təsbit etdiyinə görə Dro yenidən bir neçə dəfə Qafqazda olmuşdu, düz iki il davam edən axtarışlar heç bir nəticə verməmişdi. Birinci Dünya müharibəsi

başlayanda Dro erməni hərbi drujinaları təşkil etmiş və onların birinə başçılıq edərək, İmperator Rusiyası qoşunlarının tərkibində Türkiyəyə qarşı vuruşmuşdu. 1914-cü ilin dekabrında yaralı olduğu üçün Tiflis şəhərində müalicə olunmuşdu. Hərbi hospitalları ziyarət edən Hökmdar İmperator II Nikolay onu Georgi xaçı ilə təltif etmişdi. Ermənistanın daşnak hökumətində Dro İrəvan qarnizonunun rəisi təyin olunmuşdu.

Sovet hakimiyyəti Dronun keçmiş xidmətlərini yüksək qiymətləndirir, o, Sovet Ermənistanı qoşunlarının komandanı vəzifəsinə kimi yüksəldilir və sənədlərə ordu komandanı ranqında hərbi xalq komissarı kimi imza atır. Doğrudur, Dro Sovetlərə xidmətdə bu yeni rolunda çox qalmır. Sovetlər dövründə onun himayədarı Seqo Orconikidze olmuşdur. Böyük Vətən müharibəsi zamanı o, III Reyxin xidmətinə keçəcək, antisovet erməni birləşməsinə başçılıq edəcək və SSRİ-yə qarşı döyüşəcəkdi.

---

Unutmayaq ki, **Dro** uzunömürlüdür, o, nacins terrorçu peşəsini və əsl Konanayants soyadını insanlardan gizləyərək, hələ uzun müddət fəaliyyət göstərəcəkdir.

## YOLDAŞ LENİNİN CAVAB TƏBRİKİ

**İrəvan.** Ermənistanın İnqilabi Hərbi Şurasının sədri yoldaş **KASYANA.**

Sizin şəxsinizdə imperializmin zülmündən azad olan zəhmətkeş Ermənistanı təbrik edirəm. Şübhə etmirəm ki, siz Ermənistan, Türkiyə və Azərbaycan zəhmətkeşləri arasında qardaşlıq həmrəyliyinin təşəkkül tapması üçün bütün səylərinizi sərf edəcəksiniz.

**LENİN**

*("Kommunist" qəzeti, 2 dekabr 1920-ci il, № 178)*

Qəzetlərə məqalə yazmağa o qədər də həvəsli olmayan milli məsələlər üzrə xalq komissarı İ.V. Stalin bu vacib məsələ ilə əlaqədar dərhal Sovet Rusiyasının mərkəzi orqanında Sovet

Ermənistanını təbrik məqaləsi ilə çıxış etdi. Çıxış "Pravda"nın baş məqaləsinin yerində verilmişdi.

İ. V. Stalinin həmin məqaləsindən yalnız onun məğzini təşkil edən bir cümləni təqdim edirik:



**YAŞASIN SOVET ERMƏNİSTANI**

**...Dekabrın 1-də Sovet Azərbaycanı könüllü surətdə mübahisəli əyalətlərdən imtina edərək, Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini bəyan etmişdir...**

**Yaşasın Sovet Ermə - nistanı.**

**İ. Stalin**

*("Правда" qəzeti, 4 dekabr 1920-ci il, № 273)*

Naxçıvanın Sovet Ermənistanına verilməsi barədə Azərbaycanın bəyanatı heç də hamı tərəfindən müdafiə olunmurdu. Bu qərar elan ediləndən sonra Naxçıvan İnqilab Komitəsinin sədri **Behbud ŞAHTAXTİNSKİ** açıq və kəskin şəkildə Naxçıvanın Azərbaycandan qoparılmasının əleyhinə çıxış etdi. Naxçıvan İnqilab Komitəsi binasının önünə toplaşan çoxsaylı kütləyə müraciət edərək bildirdi: **"Azərbaycan sizi satmışdır, əgər mən Bakıda olsaydım, buna imkan verməzdim... İndi nəzərlərinizi türklərə yönəldin. Onlar sizin yeganə xilasınızdır. Onlardan möhkəm yapışın".**

Sovet Ermənistanının hakimiyyət dairələri B.Şahtaxtinski - nin bu ağıllı və düzgün siyasi mövqeyini ədəbsiz davranış adlandırdı.

*(ЦГАОРСС Армян. ССР, f 114, s. 2, q. 25, v. 28)*

Bir sözlə, sovet rəhbərləri Sovet Rusiyasının milli siyasətinin dünya birliyini heyrətə gətirdiyini düşünərək, sevincindən

əllərini ovuclamağa çox tələsmişdilər. Naxçıvan torpağını kağız üzərində bağışlamaq, onu faktiki şəkildə Ermənistana birləşdirməkdən xeyli asan idi.

Naxçıvan hədiyyəsi Sovet Ermənistanı üçün təkcə ona görə əlçatmaz olmadı ki, naxçıvanlılar heç vaxt Ermənistanla bir dam altında yaşamazdı, həm də ona görə əlçatmaz oldu ki, bu torpaq hələ Sovetlərə məxsus deyildi, onu hələ daşnakların əlindən geri almaq lazım idi. Buna baxmayaraq, mətbuat Naxçıvanı artıq erməni ərazisi hesab edirdi. Yeri gəlmişkən, Ermənistanın tərkibinə verildiyi elan ediləndən sonra qəzetlər Naxçıvan haqqında yazılarını **"Sovet Ermənistanında"** rubrikası ilə verirdilər, yəni buna artıq baş tutmuş fakt kimi baxırdılar.

## SOVET ERMƏNİSTANINDA

### Qərargahın 26 dekabr məlumatı

**İrəvan. 27 dekabr.** Qaçqın tatarların soruşdurulması zamanı məlum oldu ki, Ararat stansiyasında buradakı Şərur tatarlarını dekabrın 24-də əvəz edən 10 türk əsgəri var.

Şahtaxtı və Noraşen stansiyalarının hər birində bir türk alayı dayanıb, Şərur qeyri-nizami hissələrinin komandanı Abbasqulu bəy isə Sədərək kəndindədir. (Azkavr)

*("Kommunist" qəzeti, 30 dekabr 1920-ci il, № 202)*

Bu arada Sovet Ermənistanı İnqilab Komitəsinin sədri **KASYAN** çox ehtiyatlı və hətta müdrik tərpəndi. O dərk edirdi ki, Naxçıvanla bu cür təhlükəli bolşevik oyunları hər iki xalqa baha otura bilər. Bayram şeypurları susub, ətrafa ölü sükutu çökəndə Kasyan hadisələri qabaqlamaq və eyni zamanda son dərəcə üzgün və əldən düşmüş Naxçıvan xalqının nəbzini yoxlamaq qərarına gəldi.

Kasyan Sovet Ermənistanı adından Sovet Naxçıvanına bəyanat göndərdi. Onun mətbuatda dərc olunmuş mətni aşağıdakı kimidir:

## ERMƏNİSTAN İNQİLAB KOMİTƏSİNİN NAXÇIVANDA BƏYANATI

Ermənistanda nifrətdoğurucu və cinayətkar daşnak hökuməti devrildikdən və fəhlə-kəndli sovet hakimiyyəti qurulduqdan sonra bizə qardaş olan Sovet Azərbaycanı təntənəli aktla Azərbaycanla Ermənistan arasındakı çoxlu müsəlman və erməni qanı tökülməsinə bais olan mübahisəni aradan qaldırdı və Naxçıvanı Sovet Ermənistanının ayrılmaz tərkib hissəsi elan etdi. Ancaq Ermənistanın Sovet hakimiyyəti, xalqın öz hakimiyyəti kimi, öz gücünü yalnız əhalinin, o cümlədən zəhmətkeş əhalinin özünün aydın ifadə olunmuş iradəsində görür.

Qəhrəman Qırmızı Ordunun köməyi ilə Antanta imperialistlərinin və Zaqafqaziya millətçilərinin nifrətdoğurucu boyunduruğunu qırıb atan Naxçıvan İnqilab Komitəsini Naxçıvan əhalisinin ifadəçisi kimi təbrik edərək, Ermənistan İnqilab Komitəsi əmindir ki, Naxçıvanın artıq zülmdən azad olmuş zəhmətkeş kütlələri bütün zəhmətkeş Sovet Ermənistanı ilə arzu etdikləri qarşılıqlı münasibətlər barədə özlərinin mütəşəkkil şəkildə ifadə olunmuş rəylərini bildirəcəklər.

İnqilab Komitəsinin sədri **KASYAN.**

İnqilab Komitəsinin üzvləri **AVİS, BEKZADYAN.”**

*(“Kommunist” qəzeti, 27 dekabr 1920-ci il, № 199)*

Sakit, hay-küysüz Naxçıvan xalqı Ermənistana birləşdirilmək əleyhinə nəhəng üsyanlar qaldırmağa başlamadı. Sadəcə Azərbaycanın və Ermənistanın bəyanatlarına, sanki heç olmayıbmış kimi, heç bir diqqət yetirmədi.

Bir halda ki, Naxçıvan xanlığını amansız və qəddar İran şahı **AĞA MƏHƏMMƏD XAN** məğlub edə bilməmişdi, sonrakı hakimlərin hərəkətləri Naxçıvan xalqına xırda şıltaqlıq kimi görünəcəkdi. Naxçıvan onda dik dayanmışdı, indi dik dayanacaqdı. Aclıq, soyuq və səfalət onları sındıra, diz çökdürə bilməyəcəkdi. Lazım gəlsə, naxçıvanlılar ayaq üstə öləcəkdilər.

Bununla belə, müstəqil Naxçıvan Sovet Ermənistanının hakimiyyətinə nümayişkaranə surətdə məhəl qoymadığı vaxtda onun ağır həyatı, mətbuatın yazdığına görə, yeni Sovet hakimiyyətinə hörmət məcrasında davam edirdi. Mətbuatın ağzını yuma bilməzsən!

## SOVET ERMƏNİSTANINDA

### Naxçıvanda vəziyyət

**İrəvan. 7 yanvar.** Naxçıvandan gələn şəxs bütün rayon həyatının mənzərəsini verir. Rayonda Sovet hakimiyyətinin mövcud olduğu dörd ay ərzində əhali Sovet hakimiyyətinə elə yaxından öyrəşib ki, zəhmətkeşləri başqa heç bir hakimiyyət forması məmnun edə bilməz.

Sovet hakimiyyətinin mövcud olduğu vaxt ərzində İnqilab Komitəsinin tərkibi üç dəfə dəyişib. İlk inqilab komitələri Qırmızı Ordu hissələri, üçüncüsü isə Azərbaycan SSR-in fövqəladə komissarları tərəfindən təşkil olunmuşdur. Bakıdan gələn yoldaş partiyaçılar kommunist partiyasının nüvəsini təşkil edirlər. Hümmət partiyası Kommunist Partiyası ilə birləşib, indi çoxminlik partiya təşkilatı mövcuddur. Ayrıca qadın özəkləri də var. Qadınlar mitinqlərdə kişilərlə bərabər çıxış edirlər. Sovet hakimiyyəti burada toplanmış 20 min nəfərə yaxın qaçqınları yerləşdirməklə məşğuldur. İranla mal mübadiləsinə başlanacağı gözlənilir.

*("Kommunist" qəzeti, 10 yanvar 1921-ci il, № 7)*

## SOVET ERMƏNİSTANINDA

### Naxçıvan hərbi əsirləri

**İrəvan. 9 yanvar.** Ermənistan İnqilab Komitəsi Naxçıvana yollanan yoldaş Vəlibəyova Naxçıvandakı erməni hərbi əsirlər məsələsi haqda tapşırıq verilməsi barədə qərar çıxarıb: Vəlibəyov oraya çatanda Naxçıvanda olan erməni hərbi əsirlərini bir neçə vaqona yığıb, öz qatarına qoşaraq onları İrəvana qaytaracaqdır. (Azkavr).

*("Kommunist" qəzeti, 11 yanvar 1921-ci il, № 8)*

Buna diqqət yetirək ki, Kalbalı xan Naxçıvanski əsir daşnakları məhv etməyib, hərçənd onun bunu etməyə əsası vardı. Daşnak əsirlər hərbi cinayətkarlar idi və onlar mühakimə olunmalı idi, lakin sovet erməniləri daşnak ermənilərin qayğısına qalırdılar, çünki Sovet Ermənistanında lövhə dəyişsə də, daşnaklara yalnız sözdə nifrət edilir, əslində isə onlara olan sevgi hələ də qalırdı.

Mətbuat Naxçıvanda baş verən hadisələri ermənilərin israrı ilə **"Sovet Ermənistanında"** rubrikası altında verməklə havayı yerə əziyyət çəkirdi. Naxçıvanın sovetləşdiyi ilk günlərdən Sovet



İ.V.Stalin.
Bor. Yefimovun rəsmi

Azərbaycanın tərkibində olmaq istəyi (həm xalqın, həm də hətta Naxçıvanın bolşevik hakimiyyətinin) aydın şəkildə formalaşmış tendensiyaya çevrilmişdi, ancaq Azərbaycan SSR-in partiya və sovet strukturlarında Naxçıvan SSR-ə qarşı belə bir münasibət müşahidə olunmurdu. Üstəlik, hər şeydən açıqca göründüyü kimi, hələ daşnakların hakimiyyəti devrilməmişdən qabaq xalqdan və Naxçıvan Respublikasından xəlvət Ermənistanın bolşevik rəhbərliyinə Naxçıvan torpaqlarının Sovet Ermənistanına birləşdiriləcəyi barədə zəmanət verilmişdi. Bu qədim diyarın və öz irsi müstəqilliyi ilə məşhur olan bütöv bir xalqın taleyini həll edərkən, bolşeviklər naxçıvanlıların özlərinin bunu istəyib-istəmədiklərini soruşmaq əziyyətinə qatlaşmaq istəməmişdilər. Ona görə bunu onlardan soruşmamışdılar ki, naxçıvanlıların ermənilərin hakimiyyəti altına girməyə heç zaman razı olmayacaqlarına əmin idilər. Bu bədnam avantüranın formalaşmasında əsas rolu Kremlin milli məsələlər üzrə baş ideoloqu, millətlərin müqəddəratının baş həll edicisi, bütün tayfa və xalqların gələcək qüdrətli rəhbəri, dahi yoldaş İ.V.Stalin oynamışdı. Kremlin əmrlərini, Sovet Azərbaycanının rəhbərliyinə elə həmin Kreml tərəfindən ixrac edilən Nəriman Nərimanov dinməzcə yerinə yetirmişdi.

**SOVET AZƏRBAYCANININ BU ÇİRKİN VƏ RÜSVAYÇI HƏRƏKƏTİ ÇOX SADƏ BİR SONLUQLA NƏTİCƏLƏNDİ. ONU HAÇANSA BİR KÖHNƏ ÇİRKİN PƏRDƏ ARXASINDA YARANMIŞ BƏNZƏR AFORİZMLƏ TƏSVİR ETMƏK OLAR: "SEHRBAZ SƏRXOŞ İDİ, FOKUS ALINMADI"**

# NAXÇIVANIN MƏTİNLİK SINAĞI. AZƏRBAYCANIN ƏVƏZİNƏ KÖMƏYƏ MUSTAFA KAMAL ATATÜRK GƏLİR

Bizim dünyanın təbii qanunu belədir, kimsə haqlı və ya haqsız, hansı vəziyyətdə olursa olsun, hansı bir ərazini ələ keçirirsə, o ərazidə öz hakimiyyətini qurursa, o da o torpağın və orda yaşayan əhalinin taleyinə məsuliyyət daşıyır. Əgər bu mənada Naxçıvanı götürsək, belə bir məsuliyyət Sovet Azərbaycanının üzərinə düşürdü.

Çox mürəkkəb iqtisadi vəziyyətdə olan Sovet Azərbaycanı səmimi və əsaslı şəkildə ona güvənən Naxçıvanı asanlıqla Ermənistana güzəştə getdi. Lakin ac Ermənistana Naxçıvanın əzəli müsəlman sakinləri deyil, münbit torpaqları lazım idi.

Sovet hakimiyyəti Naxçıvana gələndən sonra orada İnqilab Komitəsinin tərkibi üç dəfə dəyişmişdi. Bunun əsl səbəbləri bizə məlum deyil, ancaq bir şey açıq-aşkar aydındır: həmin partiya mənsubları belə daşnakların səfalətə məruz qoyduğu bu diyarın acınacaqlı vəziyyətini görərkən, onların törətdikləri vəhşiliklərə laqeyd qala bilməmişlər. Səfalət içərisində boğulan Naxçıvana gəlib çıxan inqilab komitəçiləri, ac Sovet Ermənistanının tərkibinə verildiyi halda bu diyarda daha hansı faciələr baş verəcəyini qabaqcadan hiss edə bilmişdilər.

Naxçıvanlı inqilab komitəçiləri Naxçıvanın Ermənistana birləşdirilməsinin nəticələrini əvvəlcədən gördükləri üçün Nərimanovun bu "hədiyyəsi" barədə heç nə eşitmək istəmirdilər. Onlar düzgün şəkildə belə hesab edirdilər ki, Naxçıvan Sovet Azərbaycanının olmalıdır və cüzi də olsa, onun köməyinə ümid etməkdə haqlıdır.

Bizim əlimizə məxfi arxiv sənədləri keçdi. Bu sənədlər Naxçıvanda Sovet hakimiyyətinin birinci ilinə aiddir.

Bu köhnə sənədlərə xələl gətirməmək üçün, Naxçıvanın

yeni bolşevik hökuməti adından artıq bizə tanış olan, Naxçıvan ərazisinin Sovet Ermənistanına verilməsinin fəal tərəfdarı Serqo Orconikidzeyə göndərilən iki teleqramı çox ehtiyatla əlimə alıram.

Deyəsən, möcüzə sayəsində qorunub saxlanan, bəlkə də uzun illər Serqo Orconikidzenin şəxsi arxivində yatıb qaldığı üçün salamat qalan bu iki köhnə teleqrama ilk dəfə olaraq biz toxunuruq. Zamanın sap-sarı saraltdığı blanklara teleqraf lenti parçaları yapışdırılıb. Bu lentin bomboz kağızı saralıb əldən düşüb, bozluqdan hansısa sözlər və yaxud bütöv bir hissə itib yox olub. Biz, demək olar ki, onların hamısını bərpa edə, eyni zamanda bu tarixi teleqramlardakı səhvləri düzəldə bildik. Hər halda, indi bu həyəcanlı teleqramların mətnini oxumaq və onları göndərənlərin çarəsizliklə dolu qəlb çırpıntılarını hiss etmək mümkündür.

**Naxçıvandan, 23 mart 1921-ci il.**
**Tiflis, komandan yoldaş Gekkerə**
**Hərbi İnqilab Komitəsinin üzvü yoldaş Orconikidzeyə**

**On minlərlə günahsız zəhmətkeşin qanının töküldüyü Naxçıvan diyarı daşnakların və müsavatçıların siyasi milli avantüraları nəticəsində hal-hazırda başdan-ayağa xarabalıqlardan ibarətdir.**

**Diyarın çörək zolağı olan Şərurda daşnaklar taxıl məhsulunu yığıb aparmışlar, Naxçıvan qəzası isə öz ehtiyatlarını buranı dolduran qaçqınlara və Qırmızı Ordu əsgərlərinə paylamışdır.**

**Mal-qara və hətta ev əşyaları 1920-ci ildə ordunun ehtiyacı üçün əhalinin əlindən alınmışdır. Beləliklə, Qırmızı Naxçıvan diyarı müstəqil iqtisadi vahid kimi tanınanadək son dərəcə çıxılmaz və böhranlı vəziyyətə düşmüşdür. Bu respublikada elə bir guşə yoxdur ki, acından ölən kəndlinin insanın qəlbini sızladan son ümidsizlik iniltiləri eşidilməsin. Ancaq bununla belə, bu zəhmətkeş ünsürün cəsədini tapda-**

**layıb, Naxçıvan diyarı ərazisindən keçərək, İrandan Ermənistana on minlərlə pud buğda daşıyırlar, ondan respublikanın ehtiyacı, onun normal hala salınması üçün heç bir şey ayırmırlar.**

**Nəhəng vəsait lazımdır, Naxçıvan Respublikasının sərəncamında isə bu yoxdur.**

**Respublikanın yeganə vəsaiti duz vəsaitidir, indiyə kimi və bu günün özündə kənar kömək olmadan, yerli güc tərəfindən istehsal olunur, respublika tərəfindən imkan daxilində bütün respublikalara və orduya müftə verilir. Naxçıvan Respublikasında fəhlə kifayət qədərdir, bu müəssisə üçün mütəxəssislər də var. Respublikaya yalnız pul və fəhlələr üçün azuqə, pal-paltar və alət lazımdır, bu barədə dəfələrlə və vaxtında Ermənistan, Gürcüstan respublikalarına, ordu nümayəndələrinə məlumat çatdırılmışdır.**

**İnqilab Şurasının əmri ilə Naxçıvan Respublikasının duz istehsal etmək hüququ bu rayonda yerləşən hərbi hissələrə verilmişdir.**

**Naxçıvan İnqilab Komitəsi bunu yanlış və əsassız hesab edir, belə ki, bu əmrlə zaman etibarı ilə gənc, ancaq ideyaca güclü və möhkəm, Böyük Oktyabr İnqilabının mənafelərini demək olar ki, düz bir il qəhrəmancasına müdafiə edən, kommunizm ideyası uğrunda bu qədər uzun mübarizə aparmış olan Naxçıvan Respublikasının öz sərvətlərindən müstəqil surətdə istifadə etmək hüququ inkar edilir və ayaqlar altına atılır... Hələ, bu əmrlə NAXÇIVAN RESPUBLİKASININ çoxillik mübarizə nəticəsində qazandığı öz nüfuzunun əlindən alındığını demirik... Naxçıvan Respublikası bu akta Hərbi İnqilab Şurasının respublikanın dağıdılmış təsərrüfatını bərpa etmək üçün ölkənin təbii sərvətlərindən özü istifadə etmək imkanından məhrum etmək cəhdi kimi baxır.**

**Yuxarıda göstərilənləri nəzərə alaraq, Naxçıvan İnqilab Komitəsi qeyd edilən əmrin ləğv olunması və duz mədənlərini**

**işlətmək hüququnun Naxçıvan Respublikasında qalması barədə sərəncam verilməsini təkidlə xahiş edir; respublika pul, fəhlələr üçün kifayət qədər azuqə, pal-paltar və lazımi alətlər buraxılması şərti ilə bütün Zaqafqaziya respublikalarını və Qırmızı Ordunu duzla tam şəkildə təmin edəcəyinə ümid edir; həmin əmr xüsusən də ona görə ləğv olunmalıdır ki, 16 mart 1921-ci il tarixli Moskva əmrinin 6-cı maddəsi ilə ziddiyyət təşkil edir.**

**NR 2865 Naxçıvan Respublikası İnqilab Komitəsinin sədri QƏDİMOV**

*(РГАСПИ, ф. 85, оп. 13, д. 77)*

Hər şeydən belə görünür ki, XI Qırmızı Ordu komandanlığı və Serqo Orconikidze tərəfindən bu teleqrama cavab verilməyib. Verilsəydi, hər halda, Serqo Orconikidze Fondunda Naxçıvan İnqilab Komitəsinə cavab hökmən saxlanmış olardı.

Naxçıvan İnqilab Komitəsinin rəhbərliyi cavab gözləmədən Bakıya və Tiflisə daha bir teleqram göndərir.

**Bakı, Azərbaycan İnqilab Komitəsi, AKP MK**

**Tiflis, 11-ci Qırmızı Ordunun Hərbi İnqilab Şurası, ORCONİKİDZE**

**Naxçıvandan, 5 may 1921-ci il**

**Bakı ilə teleqraf əlaqəsinin bərpa olunmasından istifadə edərək, Naxçıvan İnqilab Komitəsi Azərbaycan İnqilab Komitəsini əziyyətə salmaq və ona Naxçıvan diyarının vəziyyətini təsvir edən bəzi məlumatları vermək qərarına gəlmişdir.**

**Azərbaycan İnqilab Komitəsinə məlumdur ki, ötən ilin əvvəlində Zəngibasar və Şahtaxtının öz tarlalarında dinc və qayğısız çalışan zəhmətkeş xalqı qaniçən daşnakların hücumuna məruz qalaraq, onların güclü top atəşləri altında zəruri ev əşyalarını belə götürməyə macal tapmadan öz kəndlərini tərk etmişlər.**

**Daşnaklar, demək olar ki, Naxçıvan divarlarına və Şahtaxtıya gəlib çatmışdılar. Bu rayonların yüzlərlə, minlərlə**

**qaçqını, son üç ildə elə həmin daşnakların əlindən ciddi dağıntılara məruz qalan Naxçıvan qəzasında sığınacaq tapıblar.**

**Naxçıvan qəzası bir neçə ay ərzində çox şeylərdən imtina edərək, özünün cüzi həyati mallar ehtiyatını qaçqınlarla və Zəngəzur yolu ilə bizim köməyimizə yetişən və daşnak quldur dəstələrinin hücumunu Şahtaxtıda dayandıran şanlı Birinci Süvari polku ilə bölüşmüşdür. Sonra noyabrda qəlbləri insansevərlik hissi ilə coşub-daşan qırmızı qvardiyaçılar daşnakları tutduqları rayonun bütün ərazisindən geri ataraq qaçqınları orada yerləşdirdilər. Zavallı qaçqınlar böyük sərvətlər və abad təsərrüfat qoyub getdikləri doğma vətənlərində bunların əvəzinə nə tapdılar? Öz dağıdılmış evlərinin daşqalağından savayı heç nə.**

**Hazırda rayonda çörək böhranı apogey həddinə çatıb. İnsanlar əllərinə düşəni – at, pişik, it və s. yeyir, açıq səma altında yaşayırlar. Onların təbii təhlükələrdən, çox az sayda qalmış mal-qaralarını oğurlayıb aparan İran qaçaq-quldurlarının hücumlarından qorunmaq imkanları yoxdur. Elə bir guşə yoxdur ki, orada insanın qəlbini sızladan ümidsizlik çığırtısı eşidilməsin. Onların fikri öz xidməti vəzifələrini yerinə yetirməkdən daha çox, yaşaya bilmək üçün vəsait axtarmaqla məşğuldur. Smeta və ştatlar işlənib hazırlanmışdır və ilk fürsətdəcə təqdim ediləcəkdir. 5 may 1921-ci il.**

**NR 1613 Naxçıvan Diyarının Fövqəladə komissarı VƏLİBƏYOV**

**Naxçıvan Diyarı İnqilab Komitəsinin sədri QƏDİMOV**

*(РГАСПИ, ф. 85, оп. 13, д. 77)*

---

**VƏLİBƏYOV Bahadır Qasım oğlu** (1894–1940) – Azərbaycanın Şuşa qəzasının Çəmənli kəndində bəy ailəsində doğulub. 1912-ci ildə Bakıda gimnaziyanı, 1914-cü ildə Kiyev Universitetinin hüquq fakültəsini bitirib. Böyük Oktyabr inqilabından sonra Minsk qu-

berniyasında milis komissarı olub. Almanlar Minski işğal edəndən sonra həbs edilib, ancaq Smolenskdə həbsxanadan qaçıb və orada Qırmızı qvardiya qərargahına komissar təyin olunub. 1918-ci ilə qədər sol eser partiyasının, 1918-ci ilin sentyabrından isə RK(b)P-nın üzvü olub. 1919-cu ildə Denikin qoşunlarının ələ keçirdiyi Xarkovda gizli işə keçib, sonra isə RK(b)P-nın Qafqaz Diyar Komitəsinin sərəncamına verilib. 1919-cu ilin sonunda RK(b)P-nın gizli özəklərini təşkil etmək və möhkəmləndirmək məqsədilə Gəncədə və Dağlıq Qarabağda olub, AXC hakimiyyətinin devrilməsinin iştirakçısı, AK(b)P-nın Dağlıq Qarabağda inqilab komitəsi və vilayət komitəsinin sədri olmuşdur. 1920-ci ilin iyununda əksinqilabi qiyam yatırılan zaman Şuşada ələ keçirilmiş və ölümə məhkum edilmiş, ancaq xoşbəxt təsadüf nəticəsində Qırmızı Ordu qoşunları tərəfindən azad edilmişdir. 1920-ci ilin avqustundan AK(b)P MK-nın, Azərbaycan İnqilab Komitəsinin və XI Ordu İnqilab Komitəsinin tapşırığı ilə Naxçıvanda fövqəladə komissar və XI Ordunun Hərbi İnqilabi Şurasının müvəkkili işləmişdir. Naxçıvan Respublikası ərazisinin daşnaklardan və digər hərbi birləşmələrdən tamamilə və qəti şəkildə azad edilməsindən sonra 1920-ci ilin payızında Bakıya çağırılmışdır. 1920 – 1921-ci illərdə AK(b)P-nın Naxçıvan Diyar Komitəsinin katibi olmuşdur.

1920-ci il dekabrın 1-də Azərbaycan SSR-in Naxçıvan Respublikasının Ermənistan SSR-ə birləşdirilməsi haqqında Bəyanatı və qərarı elan olunandan sonra Naxçıvan Diyarı İnqilab Komitəsinin sədri Behbud Şahtaxtinskinin bu qərara etirazını müdafiə etmişdir, onun fikrincə Naxçıvan Respublikası hökmən Azərbaycan tərkibində və müdafiəsi altında olmalı idi.

Lakin onun mövqeyi heç də həmişə möhkəm və ardıcıl olmamışdır. Türklərin Naxçıvanın Ermənistana birləşdirilməsinin qarşısını alma cəhdlərini Türkiyənin təcavüzü kimi yozmuşdur. Azərbaycan və Zaqafqaziya hökumətlərini daşnaklar tərəfindən dağıdılmış Naxçıvan Respublikasının yenidən dirçəlməsinə kömək etməyə çağırmışdır. 1921 –1922-ci illərdə xalq maarif komissarının müavini, 1922 – 1929-cu illərdə (1926-cı ildəki fasilə ilə birlikdə) Azərbaycan SSR-in xalq ədliyyə komissarı, 1930 – 1933-cü illərdə Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin sədri, AK(b)P-nın Naxçıvan Vilayət Komitəsinin birinci katibi, 1933 – 1935-ci illərdə Gürcüstan K(b)P-nın Borçalı Qəza Komitəsinin katibi, 1936-cı ildə Azərbaycan SSR-in prokuroru, 1937-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı rəhbərinin müavini vəzifələrində çalışmışdır.

B. Q. Vəlibəyov Azərbaycanın iri partiya və dövlət xadimlərinə M. Bağırov tərəfindən təşkil edilən böhtançı ittihamların və kütləvi repressiyaların qurbanı olmuşdur. ÜRK(b)P Siyasi Bürosunda Stalin, Molotov, Kaqanoviç və Voroşilov tərəfindən bəyənilən güllələnmə siyahısına uyğun olaraq Vəlibəyov 1938-ci il sentyabrın 25-də həbs edilmiş və 1-ci kateqoriyalı cinayətkar hesab olunmuşdur, yəni ÜRK(b)P Siyasi Bürosunun yazılı göstərişi ilə "ÜRK(b)P-nin düşməni kimi, sui-qəsd və casusluqla məşğul olan əksinqilabçı, sağçı-trotskiçi təşkilatının fəal üzvü kimi" ən yüksək cəzaya məhkum edilmişdir.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 16 yanvar 1940-cı il tarixli hökmü ilə B. Q. Vəlibəyov elə həmin gün güllələnmişdir. Ona bəraət verilməsi barədə heç bir məlumat tapılmamışdır.

*(АП РФ ф. 3, оп 24, д. 419, л. 167; ф. 3, оп. 14, д. 377, л. 118 )*

Bu teleqramlarla tanış olanda Naxçıvan diyarı rəhbərlərinin ranqları ikinci plana keçir. Naxçıvanda hansı hakimiyyət olursa olsun, bu yeni yaradılan respublikaya kim rəhbərlik edirsə etsin – bolşeviklərmi, menşeviklərmi, müsavatçılarmı və yaxud başqa bir siyasi qüvvə olsun, – bu darmadağın və talan edilən, yetim qalmış diyarın sükanı arxasında nə qədər istedadlı, yaradıcı insanlar dayansa da, ərzaq, mal, tikinti materialları və s. sarıdan təcili kömək olmadan, haçansa çox abad və qonaqpərvər Naxçıvan diyarında həyatı yenidən dirçəltmək mümkün olmayacaqdı.

Bu tarixi teleqramları imzalayan partiyaçılar bəlkə də pis vəziyyətə düşəcəklərini güman etmirdilər və mətnlərdən də göründüyü kimi onlar belə bir xüsusi kömək də gözləmirdilər, ancaq öz vicdan borclarını layiqincə yerinə yetirmişdilər. Məlum olduğu kimi, Bakı özü də Rusiyadan çörək istəyirdi, ancaq Azərbaycanın digər qəzaları hələ "Naxçıvan dəhşətlərinin" nə olduğunu bilmirdilər. Aclıq Azərbaycana da gələcəkdi, ancaq bir az gec, bir il sonra öz sərt üzünü onlara da göstərəcəkdi.


B.Q. Vəlibəyov

Ailənin başını daldalamağa yeri varsa, onda bir təhər yaşamaq olar. Ancaq Naxçıvanda daldalanmağa da yer yox idi. Sovet Naxçıvanına təcili, nəyin bahasına olursa olsun, kömək etmək lazım idi, bu kömək həm də Sovet hakimiyyətinin nüfuzu naminə göstərilməli idi. **B.Q. Vəlibəyovun** heç də teleqraf mətnlərində işlənməyən sözlərinə diqqət yetirək: "Naxçıvan İnqilab Komitəsi Azərbaycan İnqilab Komitəsini **əziyyətə salmaq**... qərarına gəlmişdir". Artıq bu ifadədən anlamaq olar ki, naxçıvanlılar Azərbaycandan kömək istəsələr də, ona arxayın deyillər. "*Əziyyətə salmaq*" anlayışı bir daha xüsusi olaraq vur-

ğulayır ki, sanki zəhlətökən dilənçi xahişlərdən təngə gəlmiş şahzadəyə **əziyyət verirmiş**. Bu arada, Dağlıq Qarabağa vəd edilən öz müqəddəratını təyin etmə hüququ Serqo Orcenikidzenin bir sözü ilə ləğv edildi, Qarabağ sakinlərinin bir qismi – ermənilər Sovet Ermənistanının tərkibinə daxil olmağa etiraz etmədilər, digər qisminin – müsəlmanların isə rəyini soruşmadılar.

Ermənistanın Xalq Komissarları Sovetinin sədri vəzifəsində dəyişiklik baş verdi: yoldaş Kasyanı yoldaş Myasnikovla (Myasnikyanla) əvəz etdilər, o da Dağlıq Qarabağın Sovet Ermənistanının tərkibinə daxil olmasının rəsmiləşdirilməsini sürətləndirməyi bacardı.

## SOVET ERMƏNİSTANI
### Qarabağ – Ermənistan

**İRƏVAN. 17 iyun.** Azərbaycan Sovet Sosialist Respublikası İnqilab Komitəsinin bəyanatı və Ermənistan və Azərbaycan Sovet Sosialist Respublikaları arasındakı müqaviləyə əsasən Ermənistanın Dağlıq Qarabağı bu gündən etibarən Ermənistan Sovet Respublikasının ayrılmaz tərkib hissəsidir.

Ermənistanın Xalq Komissarları Sovetinin sədri
yoldaş **Myasnikov**

*("Kommunist" qəzeti, 21 iyun 1921-ci il, № 138)*

Ancaq Zəngəzura münasibətdə bu cür operativlik hiss olunmurdu. Sovet Ermənistanına hədiyyə edilən Zəngəzurda, onun Sovet Ermənistanına birləşdirilməsi barədə Nərimanovun dekabrın 1-də elan etdiyi bəyanatdan sonra daşnaklar silahlı üsyan qaldırdılar, bununla da onlar Zəngəzuru Sovet Ermənistanına bağışlamağa hazırlaşmadıqlarını bildirmiş oldular. Zəngəzurun qanlı bir hədiyyə olduğu üzə çıxdı, ancaq ermənilər bu əlçatmaz hədiyyəyə sahib çıxmağa səy göstərmirdilər. Axı niyə də göstərsinlər? Kim onu bağışlamışdı, qoy o da onu daşnakların əlindən alıb ona versin. Sovet Azərbaycanı və Sovet Gürcüstanının qoşunları Zəngəzura yeridildi. Sovet Ermənistanının silahlı birləşmələri isə onlara kömək etdi. Zəngəzurda sözün əsil mənasında qanlı müharibə başladı.

Ağır döyüş əməliyyatları prosesində həm də Zəngəzur daşnaklarına başa salırdılar ki, Zəngəzur artıq onların öz doğma fəhlə-kəndli vətəninin ayrılmaz tərkib hissəsidir, buna görə də hərbi əməliyyatları dayandırmağın vaxtı çatıb. Lakin silahlı müqavimət hələ də davam edirdi.

*(“Kommunist” qəzeti, 21 iyun 1921-ci il, № 138)*

## ZƏNGƏZURLULAR

Ermənistan Xalq Komissarları Sovetindən zəngəzurlularla sülh danışıqları aparmaq üçün oraya nümayəndələr getmişlər, ancaq Zəngəzurdan sovet hökumətinə rəsmi cavab verilməmişdir. “Zəngəzur hökumətinə. Ermənistanın fəhlə-kəndli hökuməti baş vermiş toqquşmanı sülh yolu ilə bitirmək təklifi ilə yenidən sizə müraciət edir. Bütün Zaqafqaziyada sovet hakimiyyəti bərqərar olmuşdur. Dağlıq Qarabağ Ermənistana birləşdirilmişdir. Yalnız təkcə Zəngəzur hüdudlarında sovet hakimiyyəti qurulmamışdır. Sovet hakimiyyəti bu, yaranmış qeyri-müəyyən vəziyyətlə barışa bilməz və bizim rəsmi bəyanatımıza cavab verməyinizi xahiş edirik. Ermənistan SSR-in səlahiyyətli nümayəndə heyəti sizin nümayəndənizi gözləyəcəkdir”.

*(“Kommunist” qəzeti, 22 iyun 1921-ci il, № 139)*

Nəhayət 1921-ci il iyulun 4-də “Kommunist” qəzeti çoxdan gözlənilən xəbəri dərc etdi: “**Zəngəzur avantürasının ləğvi**”. Bu barədə Bakıda Azərbaycan SSR Həmkarlar İttifaqlarının 2-ci qurultayında fövqəladə məlumat verilmişdi:

“7 ay bundan əvvəl Njdenin başçılıq etdiyi daşnaklar Zəngəzurda üsyan qaldırmışdılar. 7 aydır dağlarda gizlənən bu quldur dəstələri ilə silahlı mübarizə gedirdi. Nəhayət 3-4 həftə bundan əvvəl sovet respublikaları – Azərbaycan, Gürcüstan və Ermənistan Njde ilə məsələni bitirmək qərarına gəldilər. Və budur bu gün səhər saat 7-də bizim qırmızı qoşunlar daşnakların alınmaz yuvası – Gorusu ələ keçirmişlər”. Bu xəbər uzun müddət susmaq bilməyən alqış sədaları ilə qarşılanır. Gorusu ələ keçirən və bu cinayətkar avantüraya son qoyan qırmızı əsgərlərə təbrik teleqramı göndərilməsi təklifi hamının hay-küylü razılığı ilə qəbul edilir.

*(“Kommunist” qəzeti, 4 iyul 1921-ci il, № 149)*

Bu xəbəri uzun-uzadı – ta bolşeviklərin Zəngəzurun alın-

masına vaxtından qabaq sevindikləri məlum olana qədər alqışladılar. *"Zəngəzur avantürası"* ləğv edilməmişdi. Zəngəzur daşnakların əlində qalmışdı.

İyulun ortalarında "Kommunist" qəzeti daha ehtiyatlı, sanki ümidverici bir şüar dərc etdi: "**Zəngəzur sovetlərin olacaq**", ancaq Zəngəzur yalnız 1921-ci il iyulun sonunda sovetlərin oldu.

Yalnız Qırmızı Ordunun silahlı dəstələrinin növbəti yürüşündən sonra Zəngəzur ələ keçirildi.

Qafqaz korpusunun komandanı A.İ.Todorski və hərbi komissar yoldaş İ. Sviridov "Kommunist" qəzetinə bildirdilər ki, Zəngəzur indi dəqiq sovetlərindir və orada həqiqətən "*yeni həyat*" tətbiq olunmağa başlamışdır. Onlar əmin edirdilər:

> "Əmin ola bilərsiniz ki, indi qırmızı Zəngəzur, Qafqazın bu İsveçrəsi dinc maneəsiz surətdə sovet quruculuğu yolu ilə gedəcəkdir".
>
> *("Kommunist" qəzeti, 26 iyul 1921-ci il, № 167)*

1920-ci il dekabrın 1-də Nərimanovun elan etdiyi Bəyanatdan sonra nə qədər insan qanı axıdılmışdı!

1921-ci il sentyabr ayının sonunda Naxçıvanın Ermənistanın tərkibinə daxil olması naminə aparılan təşviqatın mənasız bir iş olduğu açıq-aşar üzə çıxanda, ermənilərin özləri də bu itaətsizlik ocağını Ermənistanın tərkibinə qatmağın gərəksizliyini başa düşdülər. Bu situasiyada Sovet Azərbaycanı yeni bir nümayəndəsini oraya göndərdi və o, narahatçılıq içərisində olan bu diyarda ümidverici Azərbaycan melodiyasını ifa etməyə başladı. Allaha çox şükür!

## XRONİKA

1921-ci il sentyabrın 28-də ləğv olunmuş Azərxariciticarət idarəsinin sabiq komissarı yoldaş **Teymur ƏLİYEV** Naxçıvana, özünün yeni xidmət yerinə getmişdir, o buraya fövqəladə komissar təyin olunmuşdur.

*("Bakinski raboçi" qəzeti, 30 sentyabr 1921-ci il, № 223)*

Həqiqətən də, Naxçıvanı Sovet Ermənistanına birləşdirmək kimi əcaib bir qərar nəticəsində maraqlı bir situasiya yaranmışdı. Sovet Rusiyası və Sovet Azərbaycanı ciddi beynəlxalq münaqişəyə cəlb olunmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Proletar hakimiyyətinin devrilməsi qorxusu altında yaşayan Sovetlərə isə bu dövrdə heç bir münaqişə lazım deyildi. Ərazidə yaşayan xalqın, naxçıvanlıların rəyini soruşmadan onu götürüb yeni yaranan Sovet Ermənistanına – dünənki daşnak Ermənistanına birləşdirmişdilər, daşnaklar isə, məlum olduğu kimi abad Naxçıvanı xarabalığa çevirmişdilər. Bu hələ hamısı deyildi.

Sovet Azərbaycanı bu düşünülməmiş geosiyasi addımı atarkən yeni Türkiyəyə Respublikasına qarşı da etinasızlıq göstərmişdi.

Türkiyə Azərbaycanla sərhəddən məhrum olmağa və hətta sovetləşmiş olsa belə, erməni dövləti ilə sərhədlərini uzatmağa razı idimi?



Aclıq və səfalətdən yorulub əldən düşmüş Naxçıvan xalqının hələ nə qədər müqavimət göstərə və Sovet Azərbaycanının hələ nə qədər inadkarlıq edə biləcəyini söyləmək çətindir, ancaq türklər çox nəcib qonşu və parlaq diplomat olduqlarını nümayiş etdirdilər. Onlar Sovet Azərbaycanının tələm-tələsik və düşünülməmiş yanlış qərarını düzəltməyi bacardılar.

Naxçıvanın taleyində Türkiyə Böyük Millət Məclisinin sədri **Mustafa Kamal ATATÜRK** paşa çox əhəmiyyətli bir tarixi rol oynadı. Türkiyə ilə bağlanan iki Müqavilədə Naxçıvanın statusu dəqiq şərtləşdirildi və həmin şərtlərə əsasən Naxçıvanın Sovet Ermənistanın tərkibinə daxil edilməsi kimi bədnam, mənəviyyatsız bir ideya həmişəlik dəfn edildi.

Bu müqavilələrdən birincisi **Rusiya ilə 1921-ci il martın 16-da bağlanan Moskva Müqaviləsidir**:

"Rusiya Sosialist Federativ Respublikası Hökuməti və Türkiyə Böyük Millət Məclisi Hökuməti millətlərin qardaşlığı və xalqların öz müqəddəratını təyin etmə hüququ prinsiplərini paylaşaraq, öz aralarında imperializmə qarşı mübarizədə həmrəyliyin mövcud olduğunu və iki xalqdan biri üçün yaradılan hər cür çətinliyin digərinin də vəziyyətini pisləşdirdiyi faktını da eynilə qeyd edərək və öz aralarında hər iki tərəfin qarşılıqlı maraqlarına əsaslanan səmimi qarşılıqlı münasibət və pozulmaz dostluğun qurulması arzusundan hamılıqla ruhlanaraq dostluq və qardaşlıq haqqında müqavilə bağlamaq qərarına gəldilər...

**Maddə III**

Müqavilə bağlayan hər iki tərəf razılaşırlar ki, Naxçıvan vilayəti hazırkı müqaviləyə əlavədə (C) göstərilən hüdudlar daxilində Azərbaycanın protektoratlığı altında muxtar ərazi təşkil edir, bu şərtlə ki, Azərbaycan həmin protektoratlığı heç bir üçüncü Dövlətə güzəştə gedə bilməz..."

Türkiyə ilə ikinci müqaviləni Zaqafqaziya respublikaları bağladılar və bu müqavilədə də Naxçıvanın statusu müəyyən edildi.

## ZAQAFQAZİYA RESPUBLİKALARININ TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİ HÖKUMƏTİ İLƏ MÜQAVİLƏSİ

Azərbaycan Sovet Sosialist Respublikası, Ermənistan Sovet Sosialist Respublikası və Gürcüstan Sovet Sosialist Respublikası Hökumətləri bir tərəfdən, Türkiyə Böyük Millət Məclisi Hökuməti digər tərəfdən, millətlərin qardaşlığı prinsiplərini paylaşaraq və bütün xalqların öz müqəddəratını təyin etmək hüququna malik olduğunu qəbul edərək, öz aralarında hər iki tərəfin qarşılıqlı maraqlarına əsaslanan daimi dostcasına qarşılıqlı münasibət və səmimi pozulmaz dostluq qurmaq

arzusu ilə hərəkət edərək, danışıqlara başlamağa qərar verdilər... aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 5**

Türkiyə Hökuməti və Azərbaycan və Ermənistanın sovet hökumətləri razılaşırlar ki, Naxçıvan vilayəti hazırkı müqaviləyə əlavədə göstərilən hüdudlar daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir...

## III
## Naxçıvanın ərazisi

Qədim Urmiya, oradan düz xətlə Arazdəyən stansiyasına qədər (o, Ermənistan SSR-ə qalır), sonra düz xətlə qərbi Daşburun dağını (3142), sonra suayırıcı ilə şərqi Daşburun dağını (4108) – Cəhənnəm Dərəsini kəsib keçərək, Bağırsaq dağının ( 6607) və ya 6587-ci yüksəkliyin su ayrıcı xətti ilə davam edərək, keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhəd xəttini izləyir, 6629-cu yüksəklikdən keçib Kömürlüdağa (6839 və ya 6930) və oradan 3080-ci yüksəkliyə gəlib çatır, Sayatdağ (7868) – Qurd Qulaq kəndi – Həməsur dağı (8160) – 8022-ci yüksəkli – Kükü dağı ( 10182) və keçmiş Naxçıvan diyarının inzibati şərq sərhəddi.

(İmzalar)

**Bu müqavilə 5 nüsxədə, Qarsda 13 oktyabr 1921-ci (1337-ci) ildə tərtib olunmuşdur.**

*("Kommunist" qəzeti, 30 – 31 oktyabr 1921-ci il, № 248 – 249.)*

Bağlanmış müqavilə hələ ratifikasiya olunmalı idi. İndi səbirlə bunu gözləmək lazım idi. Naxçıvan hələ Azərbaycanın ağuşuna qayıtmamışdı, ancaq artıq Ermənistanın da tərkibində olmayacaqdı. Nərimanov bütün dünyanın önündə pis vəziyyətə düşmüşdü, bu da öz mənfi təsirini daha çox Naxçıvana göstərirdi.

Mətbuata əsasən fikir yürütməli olsaq, Naxçıvan sadəcə yenə unudulmuşdu. Onun haqqında mətbuatda çox nadir hallarda nəsə dərc olunurdu.

Bu məşhur müqavilənin təsdiq olunmasını gözləyərkən Naxçıvan sakitcə, heç kimdən kömək istəmədən, öz qanlı yaralarını sağaltmağa, tanınmamış Sovet Respublikasını addım-addım dirçəltməyə davam edirdi.

Sovet Ermənistanı isə, əksinə, Naxçıvanın ona hədiyyə edildiyini tədricən unudaraq, çox ağır vəziyyətdə olduğu barədə həyəcan təbili çalmağa başlamışdı və qəlbində kin saxlamayan Naxçıvan onun bu vəziyyətini nəzərə alaraq, öz ehtiyaclarına və çox saylı problemlərinə baxmayaraq, Ermənistan üçün kömək şlüzlərini açmışdı.

Lap yaxınlarda daşnaklar Naxçıvanda nə mümkündür dağıtmışdılar, əllərinə düşəni talayıb aparmışdılar, Naxçıvan tarlalarından taxıl məhsulunu yığmış, mal-qaranı sürmüşdülər. Yenə də nəsə qalmışdı, nəsə məhv olmamışdı. İndi Naxçıvanın sərvətləri yardım qismində müqavilə əsasında Ermənistana göndərilirdi. Ermənistanın 1922-ci ilin fevralında keçirilən Sovetlər qurultayında məlum oldu ki, digər respublikalar, xüsusilə də Naxçıvan olmadan ermənilər heç cür yaşaya bilməzlər. Ermənistanın Sovetlər qurultayında səslənən faktlara nəzər salaq:

"...Mal-qara Şahtaxtıda tədarük olunur – 5 833 baş heyvan (diri çəkisi 47 770 pud). Onlardan 1913 baş sağmal və işlək heyvanı (diri çəkisi 38 143 pud) Torpaq Xalq Komissarlığının tapşırığına əsasən yoxsul əkinçilərə paylanmışdır.

Naxçıvan Respublikası ilə xüsusi müqavilə yolu ilə orada 42 000 pud duz tədarük edə və Ermənistana gətirə bilmişik. Bu çox vacib idi, çünki bütün duz mədənləri Ermənistanın hüdudlarından kənarda yerləşir".

*("Bakinski raboçi" qəzeti, 17 fevral 1922-ci il, № 38)*

Tarixin maraqlı gərdişləri varmış. Doğru deyilmi?

1922-ci ilin fevralında Azərbaycanda iri bir siyasi hadisə baş verdi. 1922-ci il fevralın 2-dən – 7-nə kimi AKP-nın IV qurultayı keçirildi. AKP MK-nin katibi **Ə.QARAYEV** burada ətraflı hesabat məruzəsi ilə çıxış etdi.

Qurultay dövründə on bir gündüz və axşam iclası keçirildi, xeyli məsələ müzakirə olundu, çoxlu çıxışlar edildi. Partiya sı-

ralarının, xüsusilə də Quba və Nuxa rayonlarında, təmizlənməsi məsələsinə xüsusi diqqət yetirildi, partiya həyatında mövcud olan nöqsanlar açıqlandı, partiya sıralarının və partiya-sovet quruculuğunun möhkəmləndirilməsi məsələləri nəzərdən keçirildi, Azərbaycanın kənd təsərrüfatında yaranmış vəziyyət təhlil olundu. Lakin qurultayda Naxçıvan Respublikası haqqında, sanki bu bölgə xəritədə yox imiş kimi, bir kəlmə də deyilmədi. Və heç kəs cəsarət edib yoldaş Ə. Qarayevdən Naxçıvanın nə vəziyyətdə olduğunu soruşmadı. O, səfalət və aclığın öhdəsində necə gəlir? Hər şeydən göründüyü kimi, həmçinin heç kəs Qarayevin diqqətinə çatdırmadı ki, üzünü həmişə doğma Azərbaycana çevirən bütöv bir sərhəd bölgəsinin partiya təşkilatının fəaliyyətini və həmin bölgənin həyatını Azərbaycan kommunistlərindən gizlətməklə o, böyük səhvə yol verir.

Ancaq mətbuatda verilən nadir yazılardan Naxçıvan Respublikasının həyatı haqqında bəzi şeyləri öyrənmək mümkündür. Aşağıda verilən məqalədə Naxçıvan Respublikasında həmkarlar ittifaqları quruculuğu və bəzi təsərrüfat işləri barədə söhbət açılır.

### YERLƏRDƏ
## NAXÇIVAN DİYARINDA

Noyabrın 13-dək Naxçıvan Respublikasında həmkarlar təşkilatları yox idi. AHİŞ-in sərəncamı ilə yoldaş Məclumbəyov həmkarlar təşkilatları yaratmaq üçün oraya ezam edildi. O, noyabr ayında: incəsənət işçiləri, tibbi sanitar əməkçiləri, sovet işçiləri, sosial mədəniyyət işçiləri, mədənçilər və yeyinti sənayesi işçilərinin həmkarlar təşkilatlarını və kommunal təsərrüfat, torpaq və meşə təsərrüfatı, dəri məmulatı işçilərinin həmkarlar seksiyalarını yaratdı. Dekabrın 4-də çağırılan bütün ittifaq seksiyalarının şəhər konfransında bu məsələlər qoyuldu: cari vəziyyət haqqında, həmkarlar ittifaqlarının rolu və vəzifələri haqqında, xalq komissarlarının məruzələri və həmkarlar təşkilatları bürosuna seçkilər. Bütün məsələlər üzrə müvafiq qətnamələr çıxarıldı. Konfrans özünü RSFSR, həmçinin diyarın xüsusi spesifik şəraiti nəzərə alınmaqla Azərbaycan SSR həmkarlar hərəkatının ayrılmaz tərkib hissəsi elan etdi.

Naxçıvan şəhəri İranla sərhəddə yerləşdiyi üçün inqilabın müvəffəqiyyət qazanması işində böyük siyasi əhəmiyyətə malikdir. Onun

bütün dövlət orqanları, xüsusilə də, fəhlə təşkilatları buna görə də təşkilati baxımdan möhkəm və yekdil olmalıdırlar. Buna texniki işçilər vasitəsilə nail olmaq mümkündür. Onlar isə yoxdur və bu da diyarın bütün təsərrüfatları və həmkarlar təşkilatlarının işində başlıca əngələ çevrilmişdir.

Vəziyyət təxminən bu cürdür: respublikanın başlıca gəlir mənbəyi Naxçıvan və Sust mədənlərinin sərvətləridir. Ancaq sonuncu fəaliyyət göstərmir.

Naxçıvanda isə duz ən primitiv üsulla çıxarılır və emal olunur. Orda günəmuzd haqla cəmi 50-yə yaxın fəhlə işləyir. Bu mədən xaotik vəziyyətdədir. Mağaranın duz parçaları qoparılan portalının uçmaq təhlükəsi var. Mağaranın özü isə acınacaqlı vəziyyətdədir. Bu müəssisədə təsərrüfat işləri normativlərə uyğun aparılmır, hasilat norması və s. müəyyən edilməmişdir. Fəhlələr gigiyena, həmçinin əməyin mühafizəsi baxımdan pis vəziyyətdədirlər.

Diyarın digər təsərrüfat orqanları da yaxşı vəziyyətdə deyillər. Xalq Maarif Komissarlığında məktəbdənkənar və məktəbəqədər, baş peşə təhsili və s. şöbələr yoxdur. Xalq Səhiyyə Komissarlığında da eyni vəziyyətdir. Sonuncu öz işi ilə məşğul olmur.

Fəhlə kooperativləri təşkil olunmuşdur. Ancaq onların Azərbaycan Fəhlə Kooperativləri MK ilə əlaqəsini yaratmaq və borcla təmin etməklə bu kooperativləri ayağa qaldırmaq lazımdır.

Hal-hazırda Naxçıvan həmkarlar təşkilatları bürosunun rəyasət heyəti tikişçilərin, metalçıların, xalq yeyinti və nəqliyyat işçilərinin həmkarlar təşkilatlarının yaradılması, bununla yanaşı tariflərin tətbiq olunması, həmçinin bütün sahələrdə mədəni işin düzgün qurulması üzərində çalışır.

*(“Bakinski raboçi” qəzeti, 10 fevral 1922-ci il, № 32)*

Xoşbəxtlikdən Naxçıvanda partiya və komsomol işləri barədə məlumatlar da mətbuata yol tapa bilmişdir. Partiya quruculuğu ilə bağlı işlər Naxçıvanda həmişə pis olmuşdur. Kommunist Partiyası Naxçıvana güclə uyuşa bilirdi və məsələ heç də savadlı partiyaçıların yoxluğunda deyildi. Naxçıvana yüzlərlə savadlı partiyaçı göndərilirdi, onlar dərhal işə həvəslə girişir, sonra isə “ruhdan düşürdülər”. Onları geri çağırıb, yenilərini göndərirdilər, amma onlar da heç bir şey edə bilmirdilər.

Qədim Naxçıvanın sanki xüsusi, partiyaya zidd bir abı-havası vardı.

AKP HƏYATI

## NAXÇIVAN DİYARI

Naxçıvan Diyar Komitəsi noyabra qədər tamamilə fəaliyyətsiz olub. Noyabrda iş bir qədər canlanıb, sahə partiya konfransları keçirilib. İki qəzada sahə komitəsi yaradılıb.

Təşkilati-təlimat və təşviqat şöbələri yalnız yanvarda təşkil olunub.

Vilayətdə kütlələrin siyasi tərbiyələndirilməsi və partiya üzvləri arasında partiya intizamının yüksəldilməsi sahəsində hələlik heç bir iş görülməyib.

Komsomol pis işləyir. Ümumi məcburi ibtidai təhsil işi zəif aparılır.

Diyar Komitəsinin işindəki durğunluq əsasən təcrübəli və zirək işçilərin yoxluğu ilə izah olunur.

AKP MK-nin təşkilat bürosunun qərarı ilə ötən ilin dekabrında Diyar Komitəsinin məsul katibi vəzifəsinə yeni yoldaş ezam edilmişdir. MK-dən göndərilən yeni katibin təşəbbüsü ilə diyar partiya konfransı yaradılmış, orada yeni Diyar Komitəsi seçilmişdir. Qurultaya seçilən nümayəndələr sırasına rəyasət heyətinin üzvləri daxil olduğuna görə yeni Diyar Komitəsinin işi hələ görünmür. (AKP MK-nin İnformasiya şöbəsi).

*"Bakinski raboçi" qəzeti, 21 fevral 1922-ci il, № 41*

Azərbaycan SSR-in partiya mətbuatında – "Bakinski raboçi" qəzeti də onlardan biri idi – Naxçıvan Respublikasının partiya təşkilatlarını bəlkə də nahaq yerə pisləyirdilər. Lakin ədalət naminə qeyd etmək yerinə düşərdi ki, Naxçıvan partiyaçıları, istənilən partiya təşkilatında – istər kənd, istərsə də respublika olsun – fəal surətdə yerinə yetirilməli olan işləri çox ləng və həvəssiz görürdülər. Keçmiş partiya üzvü kimi, açıq deyim ki, Naxçıvanda əkilən partiya toxumu çox zəif cücərirdi.

Naxçıvanda qaynar partiya fəaliyyəti üçün münbit zəmin yox idi. Naxçıvanlılar öz qiymətli vaxtlarını nə üçün hansısa faydasız mitinq və konfranslara sərf etməli olduqlarını heç cür anlaya bilmirdilər. Bundan əlavə, bolşeviklər Naxçıvana gəldikdən sonra çox sayda anlaşılmaz sözlər meydana çıxmışdı: sahə komitəsi, partiya intizamı, partiya uçotu, sahə partiya konfransı, təşviqat işi və s. Bir sözlə, Naxçıvanda partiya işinin təşkili sahəsində həmişə çatışmazlıqlar vardı, bəlkə də tam fəaliyyətsizlik

hökm sürürdü demək, daha düzgün olardı.

Oh, kaş bu partiya tədbirlərində iştirak xalqın məişətini yaxşılaşdıra, naxçıvanlıların rifah səviyyəsini yüksəldə biləydi! Onda o tədbirlərdə nə qədər çox iştirak etsən, həyat da o qədər ləzzətli olardı və sən də İranın məzlum xalqları eşitsin deyə var gücünlə çığırmaq istəyərdin: "Günü-gündən daha xoşbəxt yaşayırıq!".

Əslində, dünya inqilabını naxçıvanlılara təşviq naminə söylənən şüarlardan və keçirilən mənasız, diyar əhalisini bərpa işlərindən yayındıran tədbirlərdən əlavə partiya təşkilatının, zəhmətkeş kütlələrin rəhbəri kimi, irili-xırdalı bir yığın faydalı işi vardı.

İnsanda kədərli düşüncələr oyadan bir məqaləni oxuculara təqdim edirik:

## NAXÇIVAN DİYARI

Naxçıvan diyarının bütün həyatı Naxçıvan şəhərində, Ordubadda və Noraşendə cəmləşib. İki illik erməni-tatar ədavəti diyarın əhalisini tamamilə var-yoxdan çıxarmışdır. Xilas olanların əksəriyyəti Ermənistana və İrana köçüb.

1920-ci ilin səpini yerinə tamamilə yetirilməmişdir. 1921-ci ilin yaz səpini o qədər cüzi olmuşdur ki, indi Naxçıvan diyarının öz taxılı yoxdur. Hal-hazırda toxum qıtlığından bütün əkin sahələrinin yalnız 0,6 faizində səpin aparılmışdır.

Qəzalar da bu cür ağır vəziyyətdədir. Düyü və pambıq yetişdirmək üçün münbit torpağa malik olan Şərur qəzası toxum yoxluğu ucbatından istifadəsiz qalmışdır.

Ordubad qəzası İran çörəyi ilə dolanır. Çörəyi İran puluna almaq və satmaq lazım gəlir.

Naxçıvan şəhərinin 46 verstliyində xeyli geniş bir meşə var, nəqliyyat olmadığı üçün ondan istifadə olunmur. Bundan əlavə meşə nəzarətsiz qalmışdır və o, insafsızcasına oğurlanıb daşınır.

Ordubadda 6 texniki cəhətdən təchiz edilmiş ipək sarıyan maşın var, onlar işə salınsa, orda 1000 nəfər fəhlə çalışa bilər. Fabriklər əvvəlki sahiblərinə qaytarılıb və tamamilə fəaliyyətsizdirlər. Bununla əlaqədar qərar qəbul edilib, həmin qərara əsasən sahibləri bundan sonra da onları işlətmək istəməsələr, hökumət tərəfindən işə salınacaqlar.

Fabriklərin işə salınmasına barama toxumunun yoxluğu əngəl

olur. Ona olan tələbat 5 min **kor.-a** (məqalədə belədir – Qeyd – R.İ.) bərabərdir.

Diyarın daha iri sənaye sahəsi duz mədənləridir, hazırda onlar işlək vəziyyətdədir.

Diyarda: Hofman sobası ilə təchiz edilmiş kərpic zavodu, Naxçıvanda və Ordubadda dəri zavodları, Şərur sahəsində pambıq və düyü təmizləmə dəyirmanları var.

Naxçıvanda iki milyon puda yaxın sement var və o, yağış və qar altında məhv olmaqdadır.

Ordubad şəhəri yaxınlığındakı, 1914-cü ildə almanlar tərəfindən istismara götürülən mis yataqları indi tamamilə atılmış vəziyyətdədir.

*"Bakinski raboçi" qəzeti, 8 mart 1922-ci il, № 54*

"Bakinski raboçi" qəzetinin, taleyin bəlkə də təsadüfən Naxçıvan bölgəsinə atdığı müxbiri, əslində partiya təşkilatının gündəlik fəaliyyət planına daxil edilməli olan şeyləri görür. Və bunun üçün mərkəzin göstərişlərini gözləmək lazım deyil. Kütləri inandırmaq lazımdır ki, doğma diyarın qayğısına qalmaq – Azərbaycandan göndərilən mütəxəssislərin işi deyil. Əlbəttə, söz yox ki, Naxçıvana kredit lazım idi, onsuz sənayeni bərpa etmək mümkün ola bilməzdi. Ancaq Azərbaycan hökumətində məmurlar hələ yerindən tərpənib hərəkətə gələnəcən diqqəti daxili işsiz əhali ehtiyatlarına yönəltmək lazım idi. Onları yaddan çıxarmaq olmazdı

AKP-nin Naxçıvan Diyar Komitəsi və ona tabe olan partiyaçılar isə bu, fəlakətli vəziyyətə salınmış diyarın sakinlərinin çoxşaxəli fəaliyyətinə rəhbərlik etməli və qədim Naxçıvanın əməksevər xalqının qadir olduğu şeyləri yaratmağa başlamalı idi.

Naxçıvanlılar hələ də mərkəzin köməyinə ümid bəsləyirdilər, orada, sovet Azərbaycanın partiya və sovet rəhbərləri mühitində isə tam qarışıqlıq, təşviş və əndişə hökm sürürdü. Rusiyadakı aclıq inamla Azərbaycana doğru irəliləyirdi. Doğrudur, Rusiyada artıq aclıq çoxdan heç kimi təəccübləndirmir və ac insanların diriləri və ölüləri yedikləri barədə faktlara artıq heç kim fikir vermirdi.

Azərbaycanda isə, əlbəttə ki, Naxçıvandan başqa, aclıq

barədə çox dumanlı təsəvvür vardı. Bu təsəvvür, əsasən qəzet yazılarına görə formalaşmışdı. Ancaq, birdən-birə məlum oldu ki, bu, heç də zarafat ediləcək bir iş deyil.

Əsl aclıq artıq Azərbaycanın da qapısını kəsdirmiş, hətta bəzi yerlərdə artıq evlərə soxulmuşdu. Hələ ki, kiçik bir qəzet xəbəri ilə tanış olaq:

**"Saratov, 5 fevral. Samara quberniyası, Puqaçov qəzasının Slavkina kəndində bir ananın özünün 8 övladını 13 yaşlı ölmüş qızının cəsədi ilə yedizdirməsi faktı rəsmən təsdiq olunmuşdur".**

*"Bakinski raboçi" qəzeti, 9 fevral 1922-ci il, № 31*

Azərbaycan hakimiyyəti artıq yaxınlaşmaqda olan aclıq təhlükəsi barədə inandırıcı danışırdı. "Bakinski raboçi" qəzetinin baş məqaləsi aclığa həsr olunmuşdu. Azərbaycanın hamıdan daha çox məlumatlı olan baş çekisti **Mircəfər BAĞIROV** öz çekist praktikasında bəlkə də ilk dəfə idi ki, xalqı qəsdən qorxutmurdu. O, yaxınlaşmaqda olan aclığa təkcə quraqlıq deyil, həm də "savadlı təsərrüfatçılığın" səbəb olduğunu sonadək açıq deməsə də, xalqa həqiqəti söyləmək üçün özündə cəsarət tapa bilmişdi. Bağırovun həmin məqaləsini tam şəkildə təqdim edirik:

## ACLIQ

Azərbaycanın aclıq çəkən qəzalarının vəziyyəti bizim təsəvvür etdiyimizdən də ağırdır.

Yüksək siyasətlə məşğul olarkən, biz bölgələri nəzərdən qaçırmışıq, biz onlara kifayət qədər diqqət ayırmamışıq, biz qəzalardakı işçilərimizin xəbərdarlıqlarına həddən artıq süst, hətta cinayətkarcasına səhlənkar reaksiya vermişik.

Aclığa qarşı xüsusi mübarizə orqanı olan, necə deyərlər, Aclara Yardım Komitəsinin MK isə, görünür, öz təsirini Abşeron yarımadasının hüdudlarından kənara yaymağı vacib saymayıb, az məlumatlı olduğu üçün o, görünür, gerçək "aclıq" mənzərəsindən xəbərsizdir, bu mənzərə isə aşağıdakı kimidir.

Gəncə qəzası İcraiyyə Komitəsinin sədri məlumat verir ki, təşkilati xarakterli bütün işləri bir kənara qoymalı olublar; yüzlərlə ac insan İcraiyyə Komitəsini mühasirəyə alaraq, kömək tələb edirlər,

kömək isə yoxdur.

Qazax eyni şeyi deyir və əlavə edir ki, ac kəndli geniş yola çıxıb, qarətlə məşğul olur.

Köhnə ənənələrin işıq saldığı Şərq adətləri şəraitində ac kəndli özünün Volqa sahili boyundakı həmkar qardaşına heç cür bənzəmir, o, sakitcə oturub haçan öləcəyini gözləməyəcək – indiyə kimi nisbətən sakit həyat sürən qəzalardakı xırda oğurluq və qarətlər də bu səbəbdən başlayıb.

Quba xəbərdarlıq edir ki, əgər aclara təcili kömək gəlməsə, o, quldur dəstələrinin meydana çıxacağını gözləyir, bunun ilkin əlamətləri artıq özünü büruzə verməkdədir.

İndi biz mərkəzi müəssisələrin bütün cari işlərini dayandırmalı, onun hesabına yeni böyük bir işə – aclıqla mübarizəyə başlamalıyıq.

Aclara Yardım Komitəsi MK-nin mövcud olduğu müddət ərzində nə iş gördüyünü nəzərdən keçirmək lazımdır; onun işinə əngəl olan səbəblər, əgər varsa, hökmən aradan qaldırılmalıdır.

Aclıq Azərbaycanın başının üstünü alıb. Aclığın doğurduğu anarxiyanın gənc sovet respublikasını boğmaq təhlükəsi vardır.

Aydındır ki, bütün əksinqilabçı ünsür bir daha çətin rast gələcəyi bu əlverişli fürsətdən istifadə etməyi əldən buraxmayacaqdır.

Kollektiv qələbə iradəsi yeni təhlükə və təhdidlərin öhdəsindən gəlməkdə Azərbaycanın fəhlə-kəndli kütlələrinə burada da kömək edəcəkdir.

**BAĞIROV**

*("Bakinski raboçi" qəzeti, 27 fevral 1922-ci il, № 46)*

Aclığın hələ təşrif buyurmadığı Azərbaycan qəzaları onun gəlməsini gözləyərək möhkəm qorxuya düşmüşdülər.

Azərbaycanda məhsul qıtlığı bütün hakimiyyətlərin və hökmdarların dövründə də mövcud olmuşdur. Lakin bu günəşli ölkə heç zaman aclığın nə olduğunu bilməmişdir.

Aclıq təhlükəsi və aclığın özü Azərbaycana bolşevik hakimiyyəti ilə birlikdə gəlmişdir.

Azərbaycanda aclıq mövzusu Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK) 1922-ci il martın 3-də keçirilən III sessiyasında da müzakirə edilmişdi:

"Aclıqla mübarizə məsələsi də maliyyə məsələsi ilə bağlıdır. Azərbaycanda aclıq elə miqyas alır ki, Aclara Yardım Komitəsinin funksiyaları Azərbaycanda aclıq çəkənlərə yardım göstərilməsinə yö-

nəldilməlidir. Azərbaycan MİK artıq aclıq çəkənlərə ağ neft və s. şəklində valyuta fondu ayırmışdır.

Əgər biz aclıq çəkən qəzalara indiyə kimi kifayət dərəcədə yardım göstərməmişiksə, bunda təkcə bizim maliyyə deyil, həm də nəqliyyatımızın pis vəziyyəti günahkardır. Yolların pis vəziyyətdə olması səbəbindən biz ərzağı göndərə bilmirik"

*("Bakinski raboçi" qəzeti, 5 mart 1922-ci il, № 51)*

Bir sözlə, "Qazan təmir edilərsə, hamam da olacaq". Min bir qəribə səbəb göstərilsə də, hər halda Azərbaycanın aclıqdan xilas olacağına heç bir təminat verilmir.

Azərbaycan mətbuatı heç də yalan yerə Azərbaycan hakimiyyəti və xalqını aclığın nə demək olması barədə maarifləndirməyə can atmırdı. Samara quberniyasının Puqaçov qəzası – insanların həyatına qənim kəsilən bu qorxunc təzahürün populyarlaşdırılması üçün yaxşı nümunə idi. Müasirlərimiz qorxunc yuxular görüb sarsıntı keçirməsinlər deyə, aşağıdakı məqaləni tam şəkildə verməyə ürək eləmədik.

## ÖLMƏKDƏ OLAN QƏZA

Puqaçov qəzası Samara quberniyasının məhsul qıtlığından ən çox əziyyət çəkən rayonudur. Dəhşətli quraqlıqdan sonra tarlalarda salamat qalan nə varsa hamısı çəyirtkə və şalalar tərəfindən məhv edilib...

Təkcə Puqaçov rayonundan 40 000-dən çox insan köçüb. Burada yalnız o "xoşbəxtlər" qalıb ki, onların bir az ərzaq ehtiyatları var və yaza kimi "dözə" biləcəklərinə ümid edirlər.

Əsas kəndli kütləsi "dəhşətli dərəcədə acdır, gücdən düşmüşdür, saman, püfə, çakan[1], leş yeməkdən şişkinləşir; pişik və it əti ən dadlı yemək hesab olunur...

Kuzyabayev nahiyəsinin Maksutovo kəndindən kəndli Q. Akirov biçin maşınını, xışını, gavahınlı kotanını və tarla köşkünü bir itə dəyişmişdir.

Kuzyabayev nahiyəsinin Kunakbayevo kəndində kəndli X. Valiyev 3 funt ət üçün təzə yaylı tarantasını[2] vermişdir; kəndli K. Kuvantsıkov təzə yaxşı kirşəsini 2 funt ətə satmışdır...

1. *Çakan – bataqlıq bitkisi (typha)*
2. *Tarantas – üstüörtülü minik arabası*

Starıy Porubejka kəndində ictimai anbarlara 300-də çox, Kleven kəndində 400-ə yaxın, Tolstovka kəndində 200-ə yaxın cəsəd yığılmışdır.

Anbarlardakı cəsədlər gecələr aclar tərəfindən oğurlanıb yeyilir.

Cəsəd yemək kütləvi xarakter almışdır.

Son vaxtlar insan əti yeyilməsi, insanın insan tərəfindən bu məqsədlə öldürülməsi halları tez-tez baş verir...

Yanvarın 1-dək Puqaçov qəzası rayonu üzrə aclıqdan 9000 nəfərdən çox insan ölmüşdür. Aclıq günü-gündən güclənməkdədir...

Əgər dövlət yardımı gecikərsə, cəsarətlə demək olar ki, 2-3 il bundan əvvəl çiçəklənməkdə olan Puqçov qəzası qış və yaz ərzində tamamən məhv olub səhraya çevriləcəkdir!

**S. K.**

*(“Bakinski raboçi” qəzeti, 9 mart 1922-ci il, № 55)*

Bəs bu vaxt Naxçıvan Respublikasında nələr baş verirdi? Respublika öz ağır həyatının bütün məşəqqətlərinə sakitcə dözür, ağlayıb-sızlamırdı.

Çox ağır şəraitdə naxçıvanlılar tədricən, yavaş-yavaş öz həyatlarını normal qaydaya salırdılar. Hələ dünən ac-yalavac, dilənçi halında olan naxçıvanlılar artıq bol məhsul arzusuna düşə bilərdilər və bu gün onlar Azərbaycana taxıl zəmilərində qazanılan qələbə barədə məlumat verirdilər.

## NAXÇIVAN

Naxçıvan diyarında gözəl məhsul yetişib. Arpa yığımına başlanılıb. On gündən sonra buğda yığımına başlanacaq. Hətta əhalinin əvvəllər heç vaxt kənd təsərrüfatı ilə məşğul olmamış sinifləri də (ticarətçilər, peşə ustaları) əkinçiliyə baş vurmuşlar.

Səpin materialları Bakıdan bir az gec gətirilmişdir. Hər halda onun bir hissəsi səpin üçün istifadə olunmuş, bir hissəsi isə ac insanları yedirmək üçün Aclara Yardım Komitəsinə verilmişdir.

Naxçıvan diyarının 500 000 çərək taxıl, 200 000 çərəkdən çox düyü verəcəyi güman edilir. Naxçıvan diyarında əkilən torpaqların ümumi sahəsi 385 desyatinə bərabərdir.

Hal-hazırda suvarma kanallarının və kəhrizlərin əksəriyyəti baxımsız vəziyyətdədir. Yalnız onların bərpa edilməsi halında Naxçıvanın kənd təsərrüfatı həyatının canlanması mümkün ola bilər.

Kəskin şəkildə taxta və tikinti materiallarının çatışmazlığı hiss olunur. Diyarın yeganə resursu duz mədənləridir. Hələ ki, onlar kustar

üsulla istismar edilir.

Duz məhsulunun daşınmasını artırmaq üçün mədənlərə yol çəkilişinə başlanılmışdır, indiyə kimi duz oradan eşşəklər vasitəsi ilə daşınırdı. Naxçıvanda bütün şose yolları xeyli təmir tələb edir. Hazırda bu yollarda bütün yüklər əsasən heyvan belində daşınır. Diyarın əhalisi əksəriyyət etibarı ilə müsəlmanlardan ibarətdir, ancaq qaçqın ermənilər də Zəngəzurdan və Ermənistandan buraya qayıdır. Naxçıvan Xalq Komissarları Soveti timsalında diyar hökuməti dağıntılara məruz qalmış diyarın yenidən dirçəldilməsi üçün var gücü ilə səy göstərir. Bu işi lazımi miqyasda genişləndirməyə yalnız pul vəsaitinin yoxluğu mane olur. Tikintilər, su boruları təmir edilir, şəhər bağları, örtülü bazarlar və s. qaydaya salınır.

Kitabxanaların, teatrların və s. yoxluğu səbəbindən diyarın mədəni həyatı ölü vəziyyətdədir. Qəzetlər heç də vaxtlı-vaxtında alınmır.

Hökumətin ixtiyarında mətbəə var, ancaq kağız olmadığı üçün indiyə qədər mətbuat orqanı yaratmaq mümkün olmamışdır.

**KB**

*(“Bakinski raboçi” qəzeti, 14 iyun 1922-ci il, № 129)*

Gözəl məhsul – diyarın dirçəlməkdə olduğuna yaxşı sübutdur, qurub-yaratmağın çapıb-talamaq, dağıtmaq üzərində qələbəsini əyani nümayiş etdirən bariz bir nümunədir. Naxçıvan artıq təsərrüfat işində diqqətəlayiq uğurlar göstərir. İki ildə ilk dəfə olaraq! Əslində bu faktı mətbuatda xüsusi qeyd etmək, Naxçıvanın yeni keyfiyyətini xüsusi vurğulamaq lazım idi. Amma bu materiala qəzetin üçüncü səhifəsinin aşağı küncündə yer ayrılmış və o, çox xırda şriftlə çap olunmuşdu. Material bu qədər xırda şriftlə sanki qəsdən və belə bir eyhamla dərc edilmişdi: kimin hövsələsi varsa, gözünü zora salıb bu materialı oxuya bilər, amma nəzərə alın ki, itirilən göz nuru heç cür bərpa olunmur.

Həmin günlərdə Azərbaycanın paytaxtında “Azərittifaq”ın səlahiyyətli nümayəndələrinin 3-cü qurultayı keçirilirdi. Azərbaycanın bütün qəzaları bu qurultayda hesabat verirdilər.

Məsələn, Naxçıvanlılar aclıqdan, səfalətdən şikayətlənmirlər, onlar öz bölgələrinin zənginliklərini nümayiş etdirirlər, ticarət, mal mübadiləsi etməyə hazırdırlar. Naxçıvanın təbiət məhsullarını

artıq amerikalılar və ingilislər satın alır. Ən qorxunc günlər artıq arxada qalıb. Günəşli Naxçıvanda həyat davam edir.

Azərbaycanın digər qəzalarının, vaxtı ilə zəngin Naxçıvan diyarının indi fəlakətli vəziyyətdə olduğuna dair xəbərlərə vərdiş etmiş nümayəndələrinin təəccübünə rəğmən Naxçıvan Sovet hakimiyyəti dövründə ilk dəfə olaraq qurultay iştirakçılarını özünün çox şeylər vəd edən hesabatı ilə heyrətə gətirdi.

**"Yoldaş Bağırov (Naxçıvan diyarı):**

Naxçıvan diyarında 10 kooperativdə 12 000 nəfərlik əhali cəmləşmişdir. Onun Ordubadda, Şərurda və Naxçıvanda üç şöbəsi var. "Naxittifaq"ın aylıq dövriyyəsi 10 000 İran tüməninə qədərdir. "Naxittifaq" hal-hazırda 10 000 pud frizon[1], qeyri-məhdud miqdarda yuyulmuş və yuyulmamış yun, istənilən qədər duz və çox qiymətli məhsul olan biyan kökü təklif edə bilər; amerikan və ingilis firmaları tərəfindən artıq 6 vaqon biyan kökü alınmışdır.

Kooperativlər "Azəriitifaq"ın direktivlərinə əsasən təşkil olunur. Bu işin başında "Azəriitifaq"ın yüksək səviyyəli təlimatçıları – Fərəcov və Zamanov dayanır.

İşlək kooperativlərin sayı 10-dur. Pay haqqı 1 rubldan 3 rubla qədərdir. Üzv olma haqqı 10 qəpikdir.

Naxçıvan diyarında görünməmiş məhsul bolluğu ondan xəbər verir ki, yaxın aylar ərzində bu haqlar ödənəcək və Naxçıvan diyarında əsil kooperativ işi başlayacaqdır.

"Azəriitifaq"ın idarə heyətindən 10 milyard verilməsinə köməklik göstərməsini xahiş edirəm. (Alqışlar).

*"Bakinski raboçi" qəzeti, 21 iyun 1922-ci il, № 135*

Naxçıvanlılar öz zəhmətləri ilə, heç kimin köməyi olmadan öz müqəddəs diyarlarını, başı çox bəlalar çəkmiş doğma torpaqlarını dirçəltməyə davam edəcək və gələcəyə böyük inam içərisində Türkiyə ilə müqavilənin qanun qüvvəsinə minəcəyi saatı və bir də 1 dekabr 1920-ci il tarixinin – Naxçıvanın Sovet Ermənistanına verilməsinin təntənəli bayram gününün, bu ***sərxoşluq içində əcaib kef məclisinin*** qorxunc bir yuxu kimi, əbədiyyən yoxa çıxmasını gözləyəcəkdilər.

Yoxsulluğa düçar olan və cismən əldən düşsə də, öz təmiz

1. *Frizon – ipək tullantısı*

ruhunu qoruyub saxlayan naxçıvanlılar gözləyə-gözləyə axır ki, istədiklərinə çatdılar.

## ANKARA İLƏ MÜQAVİLƏNİN TƏSDİQ OLUNMASI

Xalq Komissarları Soveti sədrinin müavini yoldaş Musabəyov Sovet Respublikaları ilə Ankara arasında bağlanan müqaviləni elan edir. Müqavilə yekdilliklə, gurultulu alqışlar altında təsdiq edilir.

*"Bakinski raboçi" qəzeti, 5 mart 1922-ci il, № 51*

## TÜRKİYƏ İLƏ MÜQAVİLƏLƏR TƏSDİQ OLUNDU

Türkiyə Böyük Millət Məclisi Hökumətinin Azərbaycandakı diplomatik nümayəndəsi öz hökumətindən aşağıdakı teleqramı almışdır:

"Türkiyə Böyük Millət Məclisi öz üzvlərinin alqışları altında Zaqafqaziya Sovet Sosialist Respublikaları ilə Qars müqaviləsini qəbul və təsdiq etmişdir".

*"Bakinski raboçi" qəzeti, 28 mart 1922-ci il, № 69*

**MÜQƏDDƏS QƏDİM NAXÇIVAN
TORPAĞININ RİFAHI NAMİNƏ
GÖSTƏRDİYİ VƏTƏNDAŞLIQ
FƏDAKARLIĞINA GÖRƏ
BÖYÜK MUSTAFA KAMAL
ATATÜRKÜN RUHU
QARŞISINDA BAŞ ƏYİRİK!
NAXÇIVANIN AZƏRBAYCANIN
HİMAYƏSİ ALTINDA
ÇOXDAN GÖZLƏNİLƏN
MUXTARİYYƏTİNƏ EŞQ OLSUN!
RƏHMAN VƏ RƏHİM OLAN ALLAHA
ŞÜKÜRLƏR OLSUN!**

## NAXÇIVAN DİYARI SOVET AZƏRBAYCANININ MÜDAFİƏSİ ALTINDA MUXTAR RESPUBLİKAYA ÇEVRİLİR

Beləliklə, Naxçıvan qəzası ərazisinin Sovet Ermənistanının ayrılmaz tərkib hissəsi olduğu barədə MİK Bəyanatının tələm-tələsik və mənəviyyatsız müddəaları ləğv edildi və Türkiyə ilə Azərbaycan və Ermənistan sovet hökumətləri arasında bağlanan, Naxçıvan vilayətinin Azərbaycanın himayədarlığı altında muxtar respublika təşkil etdiyinə hər iki sovet respublikasının razılaşdığını bildirən müqavilə nəhayət ki, ratifikasiya olundu.

Azərbaycan tərəfindən himayədarlıq həqiqətən də mövcud idi. Bu himayədarlıq özünü Naxçıvan Respublikasında partiya və həmkarlar təşkilatlarının yaradılmasında, onların işinə nəzarət edilməsində, müsəlman qadınlarının sovet ideyaları əsasında maariflənməsinə qayğı göstərilməsində və s.-də büruzə verirdi. Əlbəttə, Türkiyə ilə bağlanan Qars müqaviləsinin təftişinə artıq heç bir cəhd göstərilə bilməzdi. Lakin iqtisadi cəhətdən Naxçıvan öz ümidinə buraxılmışdı. Azərbaycan SSR-lə heç bir saziş və ya müqavilə bağlanmamışdı. Naxçıvanda Azərbaycan SSR-in heç bir bankı yox idi, buna görə də kənd təsərrüfatı və sənayenin bərpasına kredit ayrıla bilməzdi. Naxçıvana münasibətdə "Naxçıvan Respublikası" və ya "Naxçıvan diyarı" kimi tamamilə sərbəst anlayışlar işlədilirdi, özü də bölgənin statusunun şərhindəki bu qarışıqlıq həm Azərbaycan hökuməti, həm də AKP MK-dən gəlirdi.

Ermənistan, Türkiyə və İranın əhatəsində olan kiçik bir sovet adası kimi Naxçıvan öz zəhmətkeş xalqına böyük inam bəsləyərək, proletar dövlətinin qanunlarına uyğun yaşasa da, öz qədim ənənələrini və əcdadlarının nəsihətlərini bir saniyə belə unutmurdu.

1922-ci ilin sonunda Naxçıvanda Bağırovun göndərdiyi bir "çapar" peyda oldu. Bu mühüm zata Azərbaycan SSR Xalq Daxili İşlər Komissarılığının Naxçıvan Respublikasında səlahiyyətli müvəkkili titulunu vermişdilər. Onun adı – **İsgəndər ƏLİYEV** idi. O, müstəqil bir şəxs idi, Naxçıvanda heç kimə tabe deyildi, elə bir xüsusi vəzifəsi də yox idi, ancaq Naxçıvanda baş verən hər şeyə və hər kəsə münasibətdə qeyri-məhdud səlahiyyət sahibi idi. O, Sovet Azərbaycanın buraya göndərdiyi baş çekist idi. Vəzifəsinə uyğun olaraq, İsgəndər Əliyev gizli əksinqilabçıları, maskalanmış xan və bəyləri axtarır, qolçomaqların hesabını aparırdı. Adətən bu cür insanlar özlərini bütün sahələrdə peşəkar hesab edir, onlara xas lovğalıqla iştirakları olmadan yaradılan hər şeyi pisləməklə məşğul olurlar. Adi, xırda qüsurlar proletar dövlətinin dayaqlarını yıxmağa yönəldilmiş düşmən fitnəkarlığı kimi qələmə verilə bilərdi. İsgəndər Əliyev tipli adamlardan hətta, öz vəzifələrinə görə onlardan xeyli yuxarıda dayanan yüksək ranqlı partiya rəhbərləri də qorxurdular. Naxçıvanlılar İsgəndər Əliyev kimi insanlardan uzaq qaçır, mümkün qədər onunla heç bir iş münasibətinə girməməyə çalışırdılar.

## NAXÇIVAN RESPUBLİKASINDA

### Azərbaycan SSR XDİK-nın Naxçıvan Respublikasındakı səlahiyyətli müvəkkili İsgəndər Əliyevlə söhbət

İnzibati bölgü mənasında Naxçıvan Respublikası o qədər mürəkkəb deyil. Burada cəmi üç: Ordubad, Şərur və Naxçıvan qəzalarında yerləşən inqilab komitəsi var. Sonrakı bölgü sahələr üzrə gedir. Hər bir kəndin öz xüsusi inqilab komitəsi mövcuddur. Bu komitələrin təşkilinə gəldikdə isə bir ştrixi xüsusi qeyd etmək lazımdır. Bu inqilab komitələrinin başında qolçomaqlar dayanır. Bu ünsür sovet müəssisələri ilə xeyli sıx ittifaq yaradıb və hətta partiya sıralarına soxula bilib. Bu, lazımi işçilərin tam yoxluğu və işin, ümumiyyətlə, pis qurulması ilə izah olunur. Partiya həyatı baxımından çox iş görülsə də, qurultayların çağırılması, partiya üzlərinin yenidən qeydiyyatdan keçirilməsi mənasında sovet işi axsayır.

## Torpaq məsələsi

Torpaq məsələsi heç də rasional əsasda qoyulmayıb. Torpaqların əkilib-becərilməsi təsadüfi xarakter daşıyır. Hər kəs öz ağlına gəldiyi qədər əkib becərir, ancaq bu məsələnin qaydaya salınması üçün tədbirlər görülür. Bunun üçün diyar komitəsindən yoldaşlar səfərbər edilib. Sosialist torpaq bölgüsünə zəmin hazırlamaq məsuliyyəti onların boynundadır.

## Məktəb işləri lap pis vəziyyətdədir

Məktəb işinin qoyuluşu çox pisdir. İndi təxminən 60 məktəb var. Kəndlilər qarşısında vəzifə qoyulub ki, onlar öz vəsaitləri hesabına məktəblərin sayını 100-ə çatdırsınlar. Müəllimlər yoxdur. Respublika məktəblərini, heç olmasa, müəyyən dərəcədə təmin edə biləcək az sayda müəllimlər isə hal-hazırda yüksək inzibati vəzifələr tuturlar. Lakin, bütün bu ciddi əngəllərə baxmayaraq, məktəblər fəaliyyət göstərməyə başlayıblar. Bununla belə, yenə də bu işdə müəyyən bir plan yoxdur.

## Respublikada həkim yoxdur

Respublikada heç bir həkim köməyi yoxdur. Respublikada yalnız bircə həkimin, onun da 2-ci kurs tələbəsi olması buna bariz sübutdur. Yeganə xəstəxana Naxçıvan şəhərindədir. Bir lazaret də var, ancaq onu hərbi komissarlıq öz sərəncamına götürüb. Dərman da yoxdur. Doğrudur, Ermənistandan hədiyyə kimi müəyyən bir miqdarda dərman alınacağına ümid var. Burada yoluxucu xəstəliklərin tamamilə yoxluğuna isə yalnız təəccüb etmək olar.

## Qaçqınların qaytarılmasında vəziyyət

İndiki əhalinin 90 faizi geri qayıtmış qaçqınlardan ibarətdir. Onların evləri dağıdılıb. Demək olar ki, açıq səma altında yaşayırlar. Onların arasında uşaqlar çoxdur. İndiyə qədər cəmi bir dənə yetimxana vardı. Uşaqlar ayaqyalın, başıaçıqdırlar. Buranı idarə edənlər oğurluqla məşğul olurdular. Köhnə ştat heyəti işdən azad edilərək, yenisi ilə əvəz olundu. Hal-hazırda yenidən açılan həmin yetimxanada 900-ə qədər uşaq var. Onların vəziyyətini yaxşılaşdırmaq üçün mitinqlər keçirmək və "uşaq həftəsi"ndə ianə toplanmasını təşkil etmək lazım gəlmişdir. Povoljiyada və Qırmızı Kürdüstandakı aclara yardım məqsədilə də geniş ianə toplanması işi təşkil olunmuşdur. Bundan əlavə, Xalq Komissarları Soveti qırmızı Kürdüstana bir vaqon duz bağışlamışdır. Sərhəd zolağında casusların olduğu barədə məlumat var. Orada daşnaklar və ingilis casusları yuva salmışlar (M.Ələmdar). Casus ünsürü

bu vilayətdə olan iranlılar arasında da var. Son vaxtlara qədər Naxçıvan Respublikası ərazisindən keçməklə İrana çoxlu silah aparılmışdır. Mütəşəkkil sərhəd keşikçiləri öz vəzifələrini canla-başla yerinə yetirirlər. Artıq indi sərhəddən silah keçirmək qeyri-mümkündür. Qolçomaq ünsürü milisin başında durur. Tabelikdəkilərə münasibət heç bir tənqidə sığmır. Onların davranışı müdhiş çar mütləqiyyəti dövrünü xatırladır.

**Milli ədavətin sonu**

Şovinizm qızdırması çəkilmişdir. Qanlı qırğınlara səbəb olan milli ədavət yoxdur. Ümumiyyətlə, respublikaya təcrübəli mədəni qüvvələr lazımdır. Ümid, qonşu qardaş respublikaların bu cür qüvvələr göndərməsinədir.

*(“Bakinski raboçi” qəzeti, 8 dekabr 1922-ci il, № 281)*

Hər şeydən belə görünür ki, **İsgəndər Əliyevin** Naxçıvan Respublikasında fəaliyyətə başladığı ilk günlərdən Bakıda **Mircəfər Bağırov** gizlin şəkildə xüsusi məxfi dosye formalaşdırmağa başlamışdı; həmin dosyedə Naxçıvan Respublikasının guya düşmən ünsürlərin, keçmiş nifrətdoğurucu xan və bəylərin əlinə keçdiyi barədə fakt və dəlillər toplanırdı. Buna görə də bu sərhəd bölgəsində bütün bədbəxtliklər respublikaya əksinqilabçı ünsürlərin rəhbərlik etməsi səbəbindən törəyir.

Naxçıvanda isə əslində Sovet hakimiyyəti fəaliyyət göstərirdi və kommunizm məktəbi olan həmkarlar ittifaqları onun möhkəmləndirilməsi üçün qızğın fəaliyyətə başlamışdı.

## NAXÇIVAN KONFRANSININ SALAMI

“Naxçıvan həmkarlar ittifaqlarının birinci konfransı bizim qırmızı Azərbaycan və qırmızı Bakının fəhlə sinfinə öz hərarətli salamını göndərir. Konfrans öz qızğın səmimi salamlarının Bakı şəhərinin inqilab və əmək cəbhəsinin böyük qəhrəmanlarına çatdırılmasını xahiş edir və söz verir ki, Naxçıvan diyarında həmkarlar hərəkatının möhkəmlənməsi və inkişaf etməsi üçün öz gərgin əməyi ilə var qüvvəsini sərf edəcək və təsərrüfatdakı bərbad vəziyyətə qarşı mübarizəni qələbəyədək davam etdirəcəkdir.

Yaşasın Azərbaycan əmək cəbhəsinin mübariz qərargahı olan AHİŞ!”

*(“Azerbaydjanskiye izvestiya”, 18 dekabr 1922-ci il, № 289)*

Naxçıvanlılar Sovet Azərbaycanı ilə rəsmi dövlət səviyyəsində siyasi münasibətlər olmadan yaşamaqdan yorulmuşdular. İstənilən muxtar qurumun hüquq və vəzifələri dəqiq bilinməlidir.

Naxçıvan Sovet Respublikasının 1923-cü ilin fevralında keçirilən III Sovetlər Qurultayına toplaşanlar Naxçıvan Respublikasının muxtar respublika hüququnda Sovet Azərbaycanının tərkibinə qəbul edilməsi xahişi ilə Azərbaycana Bəyanat göndərdilər. Qurultay, eyni zamanda Naxçıvan Respublikasının **NAXÇIVAN DİYARI** adlandırılması üçün hakimiyyət orqanlarında struktur dəyişiklikləri etdi.

## III SOVETLƏR QURULTAYI

Naxçıvan diyarının bütün zəhmətkeş təbəqələrini təmsil edən 74 nümayəndənin iştirakı ilə keçirilən III Sovetlər Qurultayı 1923-cü il fevralın 23-də açıldı. Nümayəndələr yekdilliklə Naxçıvan Sovet Respublikasının Sovet Azərbaycanının tərkibində olması barədə qətnamə qəbul etdilər. Bu qurultayda elan edilən Bəyanatda Naxçıvan zəhmətkeşləri Azərbaycan MİK-dən Naxçıvan Sovet Respublikasının muxtar respublika hüququnda Azərbaycanın tərkibinə qəbul olunmasını xahiş edirdilər.

Gurultulu alqışlar altında qurultay qərara aldı:

"Azərbaycan MİK-dən, hücuma keçmiş kapitala qarşı iki qardaş sovet respublikasının fəhlə və kəndlilərinin güclü mütəşəkkil qüvvəsi ilə müqavimət göstərmək üçün Naxçıvan Diyarının Sovet Azərbaycanı ilə birləşdirilməsi xahiş edilsin."

Qurultay xalq komissarlıqlarının ləğv olunması və onların əvəzinə fəhlə, kəndli və qırmızı əsgər deputatlarının Diyar İcraiyyə Komitəsi nəzdində müvafiq şöbələrin yaradılması barədə qərar çıxardı.

Qurultay Naxçıvan fəhlə-kəndli hökumətinin hesabatını dinlədi. Məruzədən aydın oldu ki, il yarım bundan qabaq Naxçıvan xalq komissarlıqlarının yenidən təşkili faydalı nəticələr vermişdir. Hökumətin işi bütövlükdə bəyənildi.

Qurultay kənd təsərrüfatı məsələlərinə xüsusi diqqət yetirərək yeni Diyar İcraiyyə Komitəsinə, ümumiyyətlə dağılmış və son nəticədə pozulmuş kənd təsərrüfatının, xüsusilə də ipəkçiliyin və bağçılığın bərpasına başlamağı tapşırdı.

Xalq maarifi məsələləri də qurultayın xüsusi diqqət yetirdiyi mövzulardan biri oldu. O, diyarda məktəb şəbəkəsinin genişləndirilməsi,

savadsızlığın ləğv edilməsi, 1-ci pillə məktəbləri üçün müəllimlər hazırlayan pedaqoji kursların təşkil olunması və s. barədə yekdilliklə qərar çıxardı.

## Naxçıvan Sovetlər Qurultayının BƏYANATI

(1923-cü il fevralın 27-də qəbul olunmuşdur)

1917-ci ildə köhnə Rusiya imperiyasının fəhlə və kəndliləri mülkədarların və burjuaziyanın hakimiyyətini devirdilər və Sovet hakimiyyətini qurdular.

Daşnak Ermənistanın, müsavat Azərbaycanının və menşevik Gürcüstanın rəhbər dairələrində sovet təsirinə tam və qəti şəkildə qarşı çıxmaq və yaxud hakimiyyəti öz əllərində möhkəmləndirmək məqsədilə ittifaq yaratmaq üçün bəzi səylər göstərildi. Ancaq məlum oldu ki, belə bir ittifaq yaratmaq praktik cəhətdən mümkün deyil.

Dar millətçi cəhdlərində hər üç yeni Zaqafqaziya qurumunun hakim burjuaziyası qonşu hesabına öz ərazi təsirini genişləndirməyə can atır, bu məqsədlə, milli şovinizmi dirçəltmək məqsədilə düşmənçiliyi və milli ədavəti qızışdırırdı.

Zaqafqaziya qanlı əməliyyatlar meydanına çevrilirdi. Bol-bol axan fəhlə-kəndli qanı Zaqafqaziyanın sıldırım qayalarını yuyurdu. 1918-ci ilin qanlı hadisələri, Şuşa, Zəngəzur, Şamaxı və Şamxor qırğınları – yuxarıda qeyd olunan siyasətin bilavasitə nəticələridir.

Antantanın əlaltıları, Avropa kapitalının əlaltıları, onların həyata gətirdiyi daşnak Ermənistanı və müsavat Azərbaycanı öz vəziyyətlərini və amerikan-ingilis nüfuzunun vəziyyətini möhkəmləndirərək, bütöv rayonları qırğına və aclığa sürükləmək üçün heç bir vasitədən utanıb çəkinmirdilər.

Zaqafqaziyanın fəhlə-kəndli kütləsi qarşısında bütün miqyası ilə tam qarşılıqlı fəaliyyət göstərmək məsələsi dayanmışdı.

Böyük Oktyabrın təsiri və dünyada ilk sovet respublikasının bu dövrdə daxili və xarici əksinqilaba qarşı apardığı mübarizə Zaqafqaziyanın bu yeni qurumlarının fəhlə-kəndli kütləsinə belə bir siyasi şəraitdə düzgün yol tutmaq, on illərlə bəslənən və həmin anda alovlandırılan milli şovinist əhval-ruhiyyədən, bütövlükdə olmasa da, qismən uzaqlaşmaq imkanı verdi.

Azərbaycanın və Ermənistanın fəhlə və kəndliləri öz burjuaziyalarının əlində alətə çevrilməkdən imtina edərək, cəbhələrini dəyişdirməyə çalışdılar, elə bu vaxtdan da daxili zülmkarlara, öz burjuaziyasına qarşı üsyan başladı. Hər yerdə və hər zaman burjuaziyanın mənafeləri

eynidir və onun təbiəti ən xırdalığına qədər bir-birinə doğmadır. Müsavat, daşnaksütyun on illərlə bəslənilən nifrət hissini unudaraq, sinfi maraqları naminə bir cəbhədə, fəhlə-kəndli üsyanı, fəhlə-kəndli inqilabı xəyalatına qarşı mübarizə cəbhəsində birləşdilər.

Müsavat Azərbaycanı daşnaksütyun bandaları, "mauzeristlər" və bəy-xan başkəsənləri sovet bayrağı qaldıran Naxçıvan diyarının kəndlilərini doğrayıb yandıranda bunu sakitcə müşahidə edirdi. Yüyəni buraxılmış ağqvardiyaçı zabitlər bizim əmlakımızı qarət edir, qadınları zorlayır, uşaqları əsir aparırdılar.

Zəngin Şərur vadisi, Araz, Şahtaxtı rayonu, Naxçıvanın özü və Ordubad ölüm və çürüyən cəsəd vadisinə çevrildi. Ekspedisiya-cəza dəstələri ağır artilleriya ilə onlarla kəndi yer üzündən sildi.

Naxçıvan diyarının fəhlə və kəndlilərinin hakimiyyətdə olmaq arzusu onlara çox baha başa gəldi.

Sovet bayrağı qan qardaşımız Azərbaycanın başı üzərində 1920-ci ildə dalğalandı, o, həmin vaxtdan sovet ölkəsinə çevrildi, bu da təcili qardaş köməyi almağa qızğın ümid bəsləməkdə Naxçıvan diyarının fəhlə və kəndlilərinə böyük enerji və müqavimət gücü verdi. Və bu kömək özünü çox gözlətmədi.

Sovet Azərbaycanı daxili əksinqilabı dəf edəndən sonra öz qardaş əlini kömək üçün Naxçıvana uzatdı.

Naxçıvan diyarı tarixinin, onun fəhlə-kəndli kütləsinin həyatının ən ağır anında Sovet Azərbaycanı təkcə öz yüksək nüfuzunun gücü ilə deyil, həmdə güclü maddi qüdrəti ilə bizə dəstək oldu.

Sovet Azərbaycanı öz qüvvələrinin bir hissəsini bizə verdi, həm fiziki, həm də mənəvi dəstək aldıqdan sonra biz daşnak-müsavat əksinqilabına sarsıdıcı zərbələr endirdik. Bundan əlavə, hərbi qüvvələrin dəstəyi ilə daşnak bandalarını darmadağın edərək, biz Türkiyə Böyük Millət Məclisinin ordusuna köməklik göstərdik.

Sovet Azərbaycanı tərəfindən dəstəklənərək, biz həm daxili əksinqilaba, həm də İranda gizlənən və İngiltərənin pulu ilə bəslənən əksinqilaba qarşı uğurla mübarizə apardıq.

Bu andan etibarən bizim diyarın mədəni-iqtisadi quruculuğu başlayır. Bu andan etibarən, qan qohumluğu və sinfi mənsubiyyəti ilə bizə doğma olan qardaş Sovet Azərbaycanının dəstəyinə arxalanaraq, biz öz idarəçilik aparatımızı möhkəmləndiririk.

1921-ci ilin Moskva müqaviləsi bizi Sovet Azərbaycanının protektoratlığına verərək, bizim İranla, inqilabçı Türkiyə və Sovet Ermənistanı ilə münasibətlərimizi müəyyən edir. Aydın şəkildə başa düşürük ki, bizim respublikanın mədəni-iqtisadi dirçəlişi təkcə ideya dəstəyi ilə mümkün deyil, bunun üçün güclü maddi dəstək lazımdır, son illərin

mübarizə təcrübəsini, iqtisadi və coğrafi asılılığımızı nəzərə alaraq, yeganə bir qənaətə gəlirik ki, Şərqdə zəhmətkeşlərin mənafelərinin tam müdafiəçisi Sovet Azərbaycanıdır, biz də öz fəhlə-kəndli mənafelərimizin tam müdafiəsini, mədəni-iqtisadi dirçəlişimizi və uğurlarımızı yalnız onunla sıx birlikdə görürük.

Hesab edirik ki, bizim möhkəmlənməyimiz, fəhlə və kəndli hakimiyyətinin möhkəmlənməsi yalnız Sovet Azərbaycanı ilə çiyin-çiyinə, ümumi birgə iş əsasında mümkündür. Biz Sovet Azərbaycanının tərkibinə, onun ayrılmaz tərkib hissəsi kimi daxil olmağımızı vacib bilirik.

Bizim ağır mübarizəmiz dövründə qardaş Sovet Azərbaycanı bizə kömək etdi, indi biz də sıx vahid ailəmizə, Sovet Azərbaycanı ailəsinə gedirik, azərbaycanlı qardaşlarımızdan bizi qəbul etmələrini xahiş edirik.

Biz sizin bütöv orqanizminizin ayrılmaz hissəsi olmaq istəyirik, sizin tərkib hissəniz olmaq istəyirik.

Məhz bu xahişimizi Azərbaycan İcraiyyə Komitəsinə təqdim edirik.

*("Bakinski raboçi" qəzeti, 11 mart 1923-cü il, № 55)*

Təsadüfmü idi, yoxsa təsadüf deyildi, ancaq III Sovetlər Qurultayı Naxçıvan Respublikasının iqtisadi vəziyyətinin kəskin şəkildə pisləşdiyi bir vaxtda keçirilirdi. 1920-ci ildə hücuma keçən aclıq təhlükəsi ötüşdükdən sonra o, yenidən Naxçıvan Respublikasının ayrı-ayrı qəzalarında baş qaldırmışdı.

Naxçıvan Respublikasının ağır iqtisadi vəziyyəti Zaqafqaziya Federasiyasının Xalq Komissarları Sovetinin sədr müavini **A.F.MYASNİKOVUN** məruzəsində də qeyd olunmuşdu.

## ZAQAFQAZİYA KOMMUNİST TƏŞKİLATLARININ 2-Cİ QURULTAYI

(Myasnikovun Zaqafqaziyada təsərrüfat quruculuğu haqda məruzəsindən)

### NAXÇIVAN DİYARI

Aclıq çəkənlərə yardım məsələsi yenidən günün növbəti və qaynar məsələsinə çevrilməkdədir.

Ordubad qəzasında 18 kənddə kəndlilərin çörəyi çatışmır. Buna baxmayaraq bazarda ərzaq məhsulları tamamilə kifayət qədərdir: bir

pud buğdanın qiyməti 15-20 milyon rubldur. Hazırlıqlı təlimatçıların yoxluğu hiss olunur. Bu da tədbirlərin vaxtlı-vaxtında keçirilməsini ləngidir.

Kommunal şöbəsinin işi 2 evin təmirindən və vergilərin yığılmasından ibarət olmuşdur. 1922-ci ildə icarə haqqı yığılarkən meydana çıxan münaqişələrin aradan qaldırılması üçün xüsusi komissiya yaradılmışdır. Kommunal şöbəsinin ümumi gəliri 1300 qızıl rubla çatdırılmışdır.

Səhiyyə şöbəsi Baş Noraşendə xəstəxana, Ordubadda aptek, Naxçıvan və Şərur qəzalarının hər birində isə bir feldşer məntəqəsi açır.

Səhiyyə şöbəsində qulluqçu ştatları ixtisar ediləndən sonra 33 işçi qalmışdır.

*(“Bakinski raboçi” qəzeti, 27 mart 1923-cü il, № 67)*

Bununla belə, naxçıvanlıların özləri aclıq barəsində, Naxçıvan hüdudlarından kənarda bu barədə qaldırılan hay-küydən daha az danışırdılar. Yaxınlaşmaqda olan aclıq haqqındakı söz-söhbətlər onların daimi bəlalara qarşı mübarizəsinə əngəl `törətmirdi.

Belə bəlalardan bir də çəyirtkə idi.

Naxçıvanlıların acından ölməsi barədə şayiələr artıb yayılarkən, onların özləri çəyirtkələri qırıb-qurtarmaq uğrunda uğurla mübarizə aparırdılar. Kənar köməyə ümid etmədən, Naxçıvan çəyirtkəyə qarşı mübarizədə Azərbaycanda birinci yerə çıxmışdı. Ayrı-ayrı məlumatlara nəzər salaq:

## NAXÇIVAN DİYARINDA ÇƏYİRTKƏ İLƏ MÜBARİZƏ CƏBHƏSİNDƏ

(1923-cü il mayın 10-dan 13-nə olan məlumat)

Naxçıvan diyarında çəyirtkəyə qarşı fəal mübarizə çox uğurla aparılır və bir neçə gündən sonra başa çatdırılacaqdır.

Yataqların işlənməsi arsenli-turşulu natrium məhlulunu bitkilər üzərinə çiləməklə aparılmışdır. Bitki olmayan yerlərdə isə, Ordubadda və digər sahələrdə aldadıcı düşərgələr açılıb, özü də bu iş yaxşı nəticə verib.

**Səpinlər tamamilə salamat qalıb...**

Naxçıvan diyarı ərazisində iş 30 düşərgədə aparılır, qalan

mövcud vəsaitlər İran ərazisində mübarizə aparmaq üçün hazırlanır.

İrandakı zəmilər artıq dörd yaşında olan çəyirtkələr tərəfindən yeyilir. İran əhalisi Naxçıvan ərazisində çəyirtkəyə qarşı mübarizə sahəsində alınan gözəl nəticələri görüb, səbirsizliklə bizdən kömək gözləyir.

*("Bakinski raboçi" qəzeti, 18 may 1923-cü il, № 107)*

**NAXÇIVAN DİYARINDA**

(1923-cü il mayın 14-dən 20-nə olan məlumat)

"Pamona" sistemli 30 kürəkdə və 34 arabada gəzdirilən aparatla 938 desyatin ərazi işlənmişdir. 65 pud zəhər, 130 pud əhəng sərf edilmişdir. 203 fəhlə və 56 araba çalışmışdır.

Görülən işin nəticəsi beşballı sistemlə 4-ə bərabər olmuşdur. Çəyirtkə beşinci yaşındadır.

Bu işlər başlayandan bəri çiləmə üsulu ilə 3. 781 desyatin ərazi işlənmişdir. 123 pud 24 funt zəhər, 363 pud kəpək və 228 pud əhəng sərf olunmuşdur.

*("Bakinski raboçi" qəzeti, 29 may 1923-cü il, № 116)*

Azərbaycan qəzetləri bütün may-iyun ayları, necə deyərlər, "çəyirtkə cəbhəsində" gedən "döyüşlər" barədə xəbərlərlə dolu olmuşdur. Qarabağda, Muğanda, Gəncədə və Azərbaycanın digər rayonlarında da çəyirtkəyə qarşı, həmişə uğurlu olmasa da, fəal mübarizə aparılırdı. Və məhsul uğrunda bu saysız-hesabsız "döyüşlərdə" Naxçıvan diyarı Azərbaycanda öndə gedirdi. Azərbaycanın çəyirtkə hücumuna məruz qalan rayonları arasında Naxçıvan çəyirtkə cəbhəsində müharibəni hamıdan tez və qələbə ilə başa vurdu.

İyunun 5-də İrandan yeni bir kütləvi çəyirtkə hücumu başladı. Ancaq yenə həmin qəzetlər xəbər verirdilər ki, **"Naxçıvan diyarında iş başa çatmışdır. Sahələr ləğv edilir."**

*("Bakinski raboçi" qəzeti, 10 iyun 1923-cü il, № 126)*

Məhsul uğrunda mübarizə davam edir. Qarabağ-Qubadlı rayon qrupunda əkinləri qorumaq üçün hər cür səy göstərilir. Köməklik göstərmək üçün oraya təlimatçılar göndərilir. "Naxçıvan diyarında İran tərəfdən çəyirtkə ara-sıra hücumlar edir, ancaq onların, demək olar ki, hamısı sığırçın qatarları tərəfindən məhv edilir. Uçan çəyirtkələr

tərəfindən sıradan çıxarılan əkin sahəsi iki desyatindən də azdır. Onların uçuşunun müşahidəsi davam etdirilir.

1923-cü il iyunun sonunadək çəyirtkə ilə döyüşlər davam edəcəkdir, ancaq Naxçıvan artıq çəyirtkə ilə mübarizə aparan rayonlar sırasında deyil.

*("Bakinski raboçi" qəzeti, 21 iyun 1923-cü il, № 136)*

Məhsul uğrunda mübarizə kaş ki, təkcə çəyirtkələrin qırılmasından ibarət olaydı! Mərkəzdən uzaq diyar təbii fəlakətlərin ağırlığını da öz çiynində daşıyırdı. Təbiətin şıltaqlığı təkcə çəyirtkə deyildi. Təbiət bəxş etdiyi kimi, bəzən də nəyisə geri alır.

## NAXÇIVAN DİYARINDA SUYUN SƏVİYYƏSİNİN QALXMASI

Naxçıvandan mayın 14-də teleqram alınmışdır: "Arazda suyun səviyyəsi hər gün inanılmaz dərəcədə qalxır və kəndlilərə böyük ziyan vurur. Dəyən ziyanın həcmini müəyyənləşdirmək üçün icraiyyə komitəsinin sədri və torpaq şöbəsinin müdiri yerlərə yollanmışlar".

*("Bakinski raboçi" qəzeti, 20 may 1923-cü il, № 109)*

O illərdə Naxçıvan haqqında ümumiyyətlə az yazırdılar. Diyara laqeyd münasibət onun haqqında tez-tez yazmağa imkan vermirdi. Yazanda da bu sifarişlə olurdu və Azərbaycan əhalisi diyar haqqında əsil həqiqəti bilmirdi.

Naxçıvan barəsində müfəssəl oçerkləri barmaqla saymaq olardı. Çox az sayda olan belə oçerklərdən birini – 1923-cü ilə aid olan və Naxçıvanın problemlərindən danışan bir oçerki oxucuya təqdim edirik. Şəxsən mən özüm onu bir nəfəsə oxumuşam.

Bu qısa oçerk Naxçıvana və onun zəhmətkeş xalqına dərin məhəbbətlə yazılmışdır.

## NAXÇIVAN

**Duz mədənləri**

Naxçıvandan bir az aralıda – biri şəhərin 12 verstliyində, digəri isə 18 verstliyində olan iki duz mədəni var. Onlardan yalnız birincisi is-

tismar edilir. İstismar dinamitin köməyi ilə aparılır. Partlayışdan 300 puda yaxın duz alınır.

– Daşımaq üçün vasitə lazımdır, – fəhlələr deyirlər.

Çünki duz kəndlilər tərəfindən araba ilə daşınır, mədən idarəsi hər puda görə onlara 7 qəpik qızıl pul ödəyir.

– Eh, ensiz dəmir yolu olsaydı, nə yaxşı olardı, – fəhlələr bunu arzulayırlar.

– Elektrikləşmə də pis olmazdı, amma biz indi ən zəif çıraq işığında işləyirik.

– Bütün duz sənayesi birləşərsə, bunların hamısı olacaq, bu cür ayrı-ayrı işləsək, elektrikləşməni, daşıma vasitələrinin yaxşılaşmasını çox gözləməli olacağıq.

“26-lar” adına ikinci mədən fəal surətdə işlənməyə hazırlaşır, ancaq hələ işləmir.

**Məhsul uğrunda mübarizə**

Naxçıvan ətrafında məhsul göz oxşayır. Çəyirtkə yataqları Culfa-Ordubad rayonundadır.

Məhsul uğrunda ölüm-dirim mübarizəsi aparılır.

Hamı bir nəfər kimi çəyirtkəyə qarşı mübarizədə birləşib. Çiləyici aparatlar yaxşı təsir göstərir. Bircə bəla var: “Heyvan yoxdur!”– kəndlilər deyir.

Heyvansız iş getmir. 150 evlik kəndlər var ki, onlardakı işlək heyvanların sayı cəmi ... 16 başdır.

– Heyvansız vəziyyət pisdir...

– İşlək heyvanımız yoxsa, biz necə əkinçi ola bilərik? – kəndlilər deyirlər və məcbur qalıb öz torpaqlarını qaniçən qolçomaqlara icarəyə verirlər.

Heyvan yoxluğu həmçinin pambıqçılıqda da özünü büruzə verir. İnsafla desək pambıqçılıqda gecikiblər: indi toxumlar pis cücərir.

Yerli hakimiyyət işlək heyvanı olmayan yoxsullara kömək etmək iqtidarında deyil.

Kəndlilər bu köməyi mərkəzdən, daha doğrusu, mazutlu Bakıdan gözləyirlər.

Kömək hökmən göstərilməlidir və həm də təkcə işlək heyvanla deyil, yeni bir fəlakət meydana çıxıb – mal-qara taun xəstəliyinə tutulub; onlar qırılmağa başlayıb.

Naxçıvanlılar tamam mal-qarasız qalmaqdan qorxurlar. Baytar, dava-dərman yoxdur.

***– Biz mərkəzə yazmışdıq, amma o, nədənsə susur...***

**Okeanın o tayındakı havadarlar**

Okeanın o tayındakı dayıcıqlar, öz vətənlərində hindulara köməklik göstərməyə vərdiş etdikləri kimi, yoxsul naxçıvanlılara da özünəməxsus tərzdə şablon üzrə kömək edirlər.

Bütün bu işlər çox sadəcə və yalnız ... təşəbbüskarların xeyrinə görülür.

"Uduzmayan" lotereya elan edilir. 6 pudluq (çəkiyə bax!) bağlamalar hazırlayırlar. Sonrası isə çox sadədir: 90 rubl qızıl pul ver, o bağlamanı al!

Oxucu deyəcək ki, bu ən adi ticarətə bənzəyir. Məsələ də elə ondadır ki, belə deyil. Ticarətdə alıcı bilir ki, nə alır, burada isə "bəxtinə nə çıxsa" onu alacaq.

Xoşbəxt alıcı 6 pudluq bağlamanı açır, onun içində altı pud korset və ya kepka, – özü də zay məhsul – olduğunu görür.

"Sem dayı" özünün Nyu Yorkdakı anbarlarını təmizləyir, Afrikada sadəlövh qaradərililərə ala-bəzək muncuq verib onlardan qızıl alır, burada isə "lotereya" ilə balıq ovlayır.

Ancaq bolşeviklərlə bu cür "iş görmək" olarmı? Dərhal başa düşüb, bu "lotereya" oyununa son qoydular; çox heyf, yoxsa gözəl bir iş qurmuşdular!

**Məktəbəqədər tərbiyə**

Naxçıvanın uşaq evlərində 450 uşaq saxlanılır. Bütün bu evlər yerli vəsait hesabına fəaliyyət göstərir və uşaqlar heç də pis saxlanılmır. Uşaqları kifayət qədər yedizdirir, üst-başlarını təmiz saxlamağa çalışırlar.

Bircə bəla var. Münasib tərbiyəçilər yoxdur. Bu uşaq güllüyünə yaxşı bağbanlar lazımdır. Ancaq, bu, deyəsən, bütün Ümumrusiyanın bəlasıdır. Bizdə qadın və kişi proletar tərbiyəçiləri hələ çox azdır.

**Malyariya**

İstilər düşməyə başlayır, bu, malyariya üçün ən təhlükəli vaxtdır, diyarda isə dava-dərman yoxdur, həkimlər çatışmır. Malyariya stansiyaları mövcud deyil, əhalinin kimyalaşdırılması aparılmır. Yenə də mərkəzə – Bakıya ümid bağlayırlar.

– Bizdən yazın, yazın ki, xəstəyik, kömək isə yoxdur, – kəndlilər xahiş edirlər.

Həqiqətən də ən təcili tədbirlər görmək lazımdır, çünki malyariya artıq, demək olar ki, epidemik xarakter almağa başlayıb.

**A. FEDYAKOV**

*("Bakinski raboçi" qəzeti, 22 may 1923-cü il, № 111)*

Başlıca məqsədləri sovet hakimiyyətini möhkəmləndirmək olan Naxçıvan bolşeviklərinin başqa mühüm işləri vardı.

Məsələn, malyariya epidemiyası fonunda onlar, demək olar ki, ümidsiz bir işlə – Naxçıvan qadınlarını sovetləşdirmə işi ilə məşğul idilər.

## QƏZALARDA
## NAXÇIVAN DİYARI

AKP-nin Naxçıvan Diyar Komitəsi nəzdindəki qadın şöbəsi tərəfindən Naxçıvanda müsəlman qadınları üçün siyasi savad məktəbinin açılması qərara alınmışdır. Cəmi bir neçə gün əvvəl açılan bu məktəb indi müntəzəm fəaliyyət göstərir, onun divarları arasında hələlik 35 qadın təhsil alır. Müsəlman qadınları məşğələlərə həvəslə gəlirlər.

Təhsil almaq istəyən qadınların sayı günbəgün artır. Hələlik məktəbə 57 nəfər yazılıb.

Məktəbə yazılma işi bundan sonra da davam etdiriləcəkdir. Təcili qaydada ikinci bir qrupun təşkil edilməsi qərara alınıb.

Müsəlman qadınları oyanmışdır. Bunu müsəlman qadınlarının öz yığıncaqlarında qadın şöbəsi müdirinin məruzəsinə əsasən çıxardıqları qətnamə də təsdiq edir. Qətnamədə deyilir:

“Bizi yalançı vaizlərin zülmündən azad edən sovet hakimiyyətini alqışlayır və köləliyə lənətlər yağdırırıq. Yaşasın beynəlxalq proletariatın rəhbəri yoldaş Lenin, biz qadınlar ona ürəkdən tezliklə sağalmağı arzulayırıq”.

Qadın şöbəsinin işi, gördüyümüz kimi, Naxçıvan şəhərinin özündə yaxşı gedir, kəndlərə gəldikdə isə, orada işlər tamamilə kafi deyil. Qadın şöbəsi kəndə xüsusi diqqət yetirməlidir: oraya tez-tez təlimatçılar göndərməli və ümumiyyətlə orada qadınlar arasında iş aparmalıdır.

**M. Şirəlizadə**

*(“Bakinski raboçi” qəzeti, 22 may 1923-cü il, № 111)*

V. İ. Leninin 1924-cü il yanvarın 21-də vaxtsız ölümündən sonra matəm kampaniyası başa çatanda və Sovet Azərbaycanında həyat öz əvvəlki axarına qayıdanda Azərbaycan SSR MİK Naxçıvan Diyarının III Sovetlər Qurultayının xahişinə müsbət reaksiya verdi.

Azərbaycan SSR MİK-nin aşağıdakı redaksiyada qərarı dərc olundu.

## AZƏRBAYCAN MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİNİN 7 №-Lİ QƏRARI

**9 fevral 1924-cü il**
**Naxçıvan Diyarının Naxçıvan Sovet Sosialist Respublikasına çevrilməsi haqqında**

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti qərara alır:

1) Naxçıvan diyarı Azərbaycan SSR-in protektoratlığı altında Naxçıvan Sovet Sosialist Respublikasına çevrilsin.

2) NSSR haqqında əsasnamə layihəsinin işlənib hazırlanması üçün **VƏLİBƏYOV, BAĞIROV, T. ŞAHBAZİ** və **A. AXUNDOV** yoldaşlardan ibarət komissiya yaradılsın, onlara bu qərarın dərc edildiyi gündən bir həftə müddətinə layihəni işləyib hazırlamaq və Azərbaycan MİK-nə təqdim etmək vəzifəsi tapşırılsın.

Azərbaycan MİK-nin sədr müavini **M. B. QASIMOV**
Azərbaycan MİK-nin katibi **T. ŞAHBAZİ**

*(“Bakinski raboçi” qəzeti, 16 fevral 1924-cü il, № 36)*

**Protektorat** və yaxud himayədarlıq münasibəti (ingl. – *protectorate,* fran. – *protectorat,* latınca – *protector*; hərfi mənada – *qoruyan, müdafiə edən kəs*) – ilkin mənasında müqaviləyə əsaslanan elə bir münasibətdir ki, həmin müqavilə çərçivəsində güclü və zəif dövlət arasında xüsusi qarşılıqlı vəzifə və hüquqlar müəyyən edilir; bu vəzifə və hüquqlara əsasən birinci ikincini müdafiə etməli, ikinci isə öz növbəsində birinciyə məlum xidmətləri göstərməlidir, hərçənd bu zaman o, köhnə *protectio non involvit subiectionem* prinsipinə uyğun şəkildə suveren olaraq qalır; beləliklə xidmət qarşılıqlı olur və əgər bu dövlətlərdən biri üzərinə düşən öhdəlikləri yerinə yetirmirsə, onda digəri özünü həmin müqavilə öhdəliklərindən azad olunmuş hesab edə bilər[1].

*(ЭС Брокгауз и Ефрон, том XXV, СП, 1898, с. 509 )*

Qeyd edək ki, Azərbaycan MİK qərarının verilən redaksiyadakı mətnində Naxçıvan Respublikasının muxtariyyətinə dair heç bir işarə yoxdur. Əslində, söhbət 7 №-li qərarın tərtibi zamanı müəyyən mənada yol verilən terminoloji səhlənkarlıqdan gedir.

Naxçıvan Respublikası haqqında Əsasnamədə, sonra isə

onun 18 aprel 1926-cı il tarixli Konstitusiyasında müəyyən edilmişdir ki, keçmiş Naxçıvan Diyarı **Naxçıvan Muxtar Sovet Sosialist Respublikasıdır (NMSSR).**

Sovet Naxçıvanının Sovet Azərbaycanın tərkibində və onun himayəsi altında olması Sovet Rusiyasının və Zaqafqaziya respublikalarının 1921-ci ildə Türkiyə ilə bağladıqları iki müqavilə ilə qabaqcadan müəyyən edilmiş və Naxçıvanın 1923-cü il fevralın 27-də keçirilən III Sovetlər Qurultayı tərəfindən təsdiqlənmişdir.

Qurultayın qəbul etdiyi Bəyanatda bu, belə ifadə olunmuşdur: ***"Biz Sovet Azərbaycanının tərkibinə, onun ayrılmaz tərkib hissəsi kimi daxil olmağımızı vacib bilirik".***

Naxçıvan Sovet Sosialist Respublikası bu gündən artıq saxta respublika deyildir. Onun statusu Azərbaycan MİK tərəfindən müəyyən və təsdiq edilmişdir və artıq Naxçıvan Respublikası Sovet Azərbaycanının müdafiəsi altındadır.

Naxçıvan diyarının Naxçıvan Sovet Sosialist Respublikasına çevrilməsindən sonra Naxçıvan MSSR-də sovet quruculuğu daha intensiv inkişaf edirdi, ancaq bunu Respublikaya iqtisadi kömək göstərilməsi barədə demək olmazdı. Bu sahədə hələ çox şey arzu olaraq qalırdı.

Bölgənin mərkəzdən uzaq olması müəyyən dərəcədə Naxçıvan Muxtar Respublikasının Azərbaycanla operativ əlaqə qurmasına əngəl törədirdi, ancaq bu uzaqlıq Naxçıvan MSSR-də sovet hakimiyyətinin dayaqlarını heç cür zəiflətmirdi.

Biz mətbuat materialları əsasında Sovet Naxçıvanın məqsədyönlü həyat və fəaliyyətini xarakterizə edən hadisələrin dolğunluğunu və çoxplanlılığını nümayiş etdirmək üçün cəmi ikicə günlük vaxt kəsimi təhlil etdik.

Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi və respublikada rabitənin inkişafı üçün vəsait yoxluğu ilə bağlı situasiyadan istifadə edərək, Naxçıvan Muxtar Respublikasının MİK Sovet Azərbaycanına telefonlaşdırma işinəköməklik göstərilməsi barədə müraciət göndərir.

## TELEFONLAŞDIRMA

NAXÇIVAN, 11 fevral. Diyarın telefonlaşdırma komissiyası MİK-ə 28 150 çervon rubl məbləğində əlavə smeta təqdim etmişdir. Bu pulun buraxılması işlərin həyata keçirilməsi üçün lazımdır. Vəsait yoxluğundan MİK komissiyanın xahişini təmin etməkdə çətinlik çəkir. Mərkəzin köməyi lazımdır.

*(“Bakinski raboçi” qəzeti, 12 fevral 1924-cü il, № 33)*

Təəssüf ki, biz mərkəz tərəfindən bu köməyin göstərildiyini təsdiqləyən heç bir sənəd tapa bilmədik. Bundan əlavə, bu kömək 1925-ci ildə də göstərilməyib, bunu Azərbaycanın həmin il martın 11-də keçirilən IV Sovetlər Qurultayında Xalq Komissarları Sovetinin sədri yoldaş Musabəyovun hesabat məruzəsi də təsdiq edir: **“Bizim, Naxçıvan diyarı istisna olmaqla, bir çox qəza mərkəzləri, onların sahə məntəqələri ilə 2000 verstdən uzun bir məsafədə rabitə əlaqəmiz var...”** Hər halda, çoxsaylı obyektiv problemlərə və Azərbaycan SSR-in hakimiyyət orqanları tərəfindən köməyin yoxluğuna baxmayaq, Naxçıvan Respublikasının rəhbərliyi diyarda sovet hakimiyyətinin möhkəmlənməsini təmin edirdi. Və heç bir müsavat mirasından söhbət gedə bilməzdi. Mərkəz tərəfindən atılıb unudulan, yoxsul və dağıdılmış Naxçıvan sovetləşmişdi. SSRİ Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkovun dəqiq ifadəsi ilə, Naxçıvan MSSR əslində **“sovet nizamsızlığının”** bir nümunəsi idi.

A. İ. Rıkovun bu dəyərləndirməsinə, biz hələ qayıdacağıq, hələlik isə Naxçıvanda, xüsusilə də kooperasiyanın inkişafında yeni sovet qaydalarının tətbiqinə başlanmışdı. Onun fəaliyyətinə yenicə açılan qurultay yekun vururdu.

## NAXİTTİFAQIN MÜVƏKKİLLƏR QURULTAYI

### NAXÇIVAN, 10 FEVRAL

#### Müvəkkillər qurultayı öz işinə başladı

Naxittifaqın müvəkkillər qurultayı 40 nümayəndənin iştirakı ilə öz işinə başladı. Qurultayın gündəliyi və reqlamenti qəbul edildi. Qurultayın Rəyasət heyəti və mandat komissiyası seçildi. SSRİ-nin təsərrüfat cəbhəsindəki siyasətini bəyənən qətnamələr qəbul olundu.

*(“Bakinski raboçi” qəzeti, 12 fevral 1924-cü il, № 33)*

Elə həmin gün Naxçıvanda həmkarlar konfransının çağırılması barədə elan dərc edildi.

## İTTİFAQLARARASI HƏMKARLAR KONFRANSI

**Naxçıvan, 10 fevral.** Fevralın 15-də NSSR-in ittifaqlararası partiya konfransı çağırılır.

*(“Bakinski raboçi” qəzeti, 12 fevral 1924-cü il, № 33)*

SSRİ-nin hər yerində olduğu kimi, həyat şəraitinin ağır olmasına baxmayaraq, Naxçıvanda da proletar cəmiyyətinin inkişafında qadının rolunu unutmurdular.

## ZƏHMƏTKEŞLƏR GÜNÜ

**Naxçıvan, 12 fevral.** Zəhmətkeş qadınların 8 mart Beynəlxalq Gününün keçirilməsi üzrə Mərkəzi komissiya özünün ilk iclasında bu günün qeyd olunması üçün bir sıra tədbirlər qəbul etmişdir. Qadınların 2 qəza və 3 sahə konfransı çağırılır.

*(“Bakinski raboçi” qəzeti, 14 fevral 1924-cü il, № 35)*

Naxçıvan diyarına respublika statusunun qaytarılması onun iqtisadiyyatını heç cür yaxşılaşdırmadı. Təntənəli fevral günlərində aclıq Respublikanın başının üstünü kəsdirmişdi.

## ACLIQ ÇƏKƏNLƏR

**Naxçıvan, 10 fevral.** Naxçıvan Respublikasında aclıq çəkənlərin sayı hər gün artır. Naxçıvan MİK aclara buğda paylanması işini davam etdirməyi qərara almışdır. Kömək kifayət qədər deyil. Mərkəzin köməyi lazımdır.

## ACLIQ ÇƏKƏNLƏR

**Naxçıvan, 12 fevral.** Aclıq çəkənlərin sayı hər gün artır və hazırda 26 000 nəfərə çatır.

*(“Bakinski raboçi” qəzeti, 12 fevral 1924-cü il, № 33)*

Mərkəz bu acı xəbərə heç bir reaksiya vermədi, ancaq bədnam Xüsusi Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikası 1925-ci ilin aprelində M. Bağırovun rəhbərliyi altında

təhqiq edilərkən, aclıq çəkənlərə yardım dövlət əmlakının oğurlanması kimi təqdim ediləcəkdi.

Bəla, məlum olduğu kimi, heç vaxt tək gəlmir. Aclıqla qucaq-qucağa malyariya da Naxçıvana təşrif buyurmuşdu.

## NAXÇIVAN DİYARINDA MALYARİYA

Naxçıvan diyarında müharibədən qabaqkı illərdə də əhalinin böyük faizin xəstələnməsinə səbəb olan malyariyanın səviyyəsi, bütün diyarın səhraya və xarabalıq yığınına çevrildiyi 1918-ci ildən başlayaraq xüsusilə güclənmişdir.

Çəltik plantasiyalarının əkilməsi üçün ayrılan sahələrin artması, əhalinin ümumi zəifliyi, bərbad sanitariya və gigiyena şəraiti, mənzilsizlik malyariyanın son illərdə özünə möhkəm yuva salmasına səbəb, bax, bunlardır.

Naxçıvan diyarında əhalinin xəstələnmə faizi 90-a çatmışdır. Hər yerdə dəftərxanalarda qızdırmadan tir-tir əsən qulluqçuları iş başında görmək olar, onlar titrətmələrinə fikir vermədən sakitcə öz işlərini görməyə davam edirlər. Payızda və yazda malyariyanın tüğyan etdiyi günlərdə nadir halda elə bir ailə tapmaq olar ki, onda bənizi ağappaq ağarmamış, dalağının ağırlığından qarını şişib aşağı sallanmamış bir nəfər olsun. Əhalinin böyük əksəriyyəti uşaqlıqdan malyariya xəstəsidir, özü də onlarda malyariya hər il yazda və payızda havanın hərarəti azca dəyişən kimi geri qayıdır. Hətta ən şüurlu və ziyalı xəstələr belə haçan xəstələnməyə başladıqlarını deməyə çətinlik çəkirlər, çünki əksər hallarda bütün keçmiş onlar üçün fasiləsiz malyariya ağrıları ilə doludur, bu ağrıların sayı-hesabı itib. Uşaqlar arasında malyariya xəstəliyi daha dəhşətli şəkil alıb.

Naxçıvan malyariya ambulatoriyasında beş ay ərzində yoxlamadan keçən 1500 insan üçün, dalaq böyüməsi əmsalı 4,2-yə bərabərdir, yəni ambulatoriyaya gələn hər bir xəstənin dalağı normadan 4,2 əmsal böyük olmuşdur.

Lakin, epidemiyanın bu qədər geniş yayılmasına baxmayaraq, əhali malyariyanın meydana gəlməsi səbəbindən və onun klinik mənzərəsindən tamamilə xəbərsizdir, o, hərarətin yüksəlməsi ilə müşayiət olunan hər cür xəstəliyi sadəcə “qızdırma” adlandırır. Buraya Naxçıvan diyarında səhiyyə işinin zəif təşkilini və malyariyanı lazım olmayan şeylərlə müalicə edən İran həkimləri və “ara həkimləri”nin geniş fəaliyyətini də əlavə etmək lazımdır. Sanitariya-maarifləndirici ədəbiyyat və önləyici tədbirlər haqqında isə danışmağa dəyməz.

Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı tərəfindən Naxçıvanda və Noraşendə açılan malyariya komitələri yerli hakimiyyət orqanlarının onlara kifayət qədər diqqət yetirməməsi və mərkəzlə zəif əlaqə səbəbindən bütün diyarın sağaldılması kimi nəhəng bir vəzifənin öhdəsindən gəlmək iqtidarında deyil. Malyariya isə heç nəyi gözləmir. Yaz yaxınlaşır, özü ilə birlikdə yeni malyariya partlayışını gətirir; bu isə qarşıya bir sıra təxirəsalınmaz vəzifələr qoyur. Onların ən əhəmiyyətli olanlarını göstərək:

1. Mühazirələr oxumaq və sanitariya-maarifləndirici ədəbiyyatları yaymaq yolu ilə malyariyanın yoluxucu xəstəlik olması, onun yayılması üsulları, önləyici tədbirlər haqqında əhalini məlumatlandırmaq.

2. Hökmən bir sıra quruducu və "sulayıcı" xarakterli tədbirlər görmək (xüsusi bitkilər – günəbaxan, evkalipt və s. əkmək), tədricən çəltik əkinindən digər mədəni bitkilərin əkininə keçmək.

3. Sahələrdə malyariyaya qarşı kömək təşkil etmək (feldşer məntəqələri şəbəkəsini genişləndirmək, onları kinə ilə təmin etmək, xüsusi səyyar dəstələr təşkil etmək) və onların Naxçıvan və Noraşendəki mərkəzi malyariya stansiyaları ilə əlaqəsini qurmaq.

4. Əhalinin kütləvi şəkildə kinələşdirmək (profilaktik), bu işi xüsusilə də yazın əvvəlində görmək.

5. Sahə tibb personalını malyariyanın formaları və onların müalicə üsulları ilə tanış etmək.

Utopik planlara qapılmadan biz burada ən sadə və praktikada həyata keçirilməsi mümkün olan tədbirləri sadaladıq. Bunun üçün malyariyaya qarşı mübarizə işinə böyük diqqət yetirilməsi tələb olunur, çünki yerli şəraitdə bu iş birinci dərəcəli əhəmiyyətə malik bir vəzifədir.

**MARS**

*"Bakinski raboçi" qəzeti, 21 fevral 1924-cü il, № 41*

Müəllifin gətirdiyi misala diqqət yetirək: *"Hər yerdə dəftərxanalarda qızdırmadan tir-tir əsən qulluqçuları iş başında görmək olar, onlar titrətmələrinə fikir vermədən sakitcə öz işlərini görməyə davam edirlər.*" Əldən düşmüş Naxçıvanlıların heyrətamiz əməksevərliyinə və demək olar ki, qəhrəmancasına dözümlü olduqlarına bundan gözəl sübut ola bilərmi? Belə bir xalqı öz doğma diyarının dirçəlməsində iştirak etmək istəməməkdə günahlandırmaq olarmı?

Ancaq biz tezliklə, başı çox bəlalar çəkmiş Naxçıvan Respublikasının zəhmətkeş fəhlə və kəndlilərinə məhz bu cür saxta,

böhtançı damğalar vurulacağının şahidi olacağıq. Bir çox obyektiv və subyektiv səbəblər üzündən Naxçıvanda sovet hakimiyyəti mükəmməllikdən hələ çox uzaq idi, ancaq o, burada mövcud idi və ac xalqı marksizm-leninizm bayrağı altında Sovet Azərbaycanının rəhbərliyi ilə kommunizmin yüksək zirvələrinə doğru inamla irəlilədiyinə inandırmağa çalışırdı.

Azərbaycanın əsas qəzetində dərc olunan "Naxçıvan diyarında malyariya" məqaləsi Naxçıvan MSSR-in hakimiyyət orqanlarının diqqətindən yayınmadı. Naxçıvan MSSR-də sovet məişətinin tədricən bərqərar olması barədə ictimaiyyəti məlumatlandırarkən, ona "Bakinski raboçi"nin çıxışından sonra görülən tədbirlər haqqında da məlumat verildi.

## HAQLI CƏZA

**Naxçıvan, 7 iyun (AzərTAC).** Seminariya bağında maarif ittifaqı tərəfindən partiya-həmkarlar klubunun xeyrinə gecə təşkil edildi. Naxçıvanda ilk dəfə olaraq, bu gecədə türk qadınları da, xüsusilə də müəllimələr iştirak etdi. Min rubl pul yığıldı.

Dairə məhkəməsində malyariya ambulatoriyasının həkimi Marqulisin və başqalarının vəzifə cinayətləri barədə işə baxıldı. Proses iki gün davam etdi. Nəticədə Marqulis ən yüksək cəzaya məhkum edildi və bu, həbsxanada yatmaqla əvəz olundu. Qalan müttəhimlər 4 illik həbs cəzasına məhkum edildilər.

*("Bakinski raboçi" qəzeti, 13 iyun 1924-cü il, № 132)*

Buna diqqət yetirək ki, yerli qadın əhalisini, özü də onun kiçik bir hissəsini partiya-həmkarlar klubuna gətirə bilmək üçün Naxçıvanın partiya və həmkarlar təşkilatlarına sovet hakimiyyətinin düz dörd ili tələb olunub.

1924-cü ilin mayında yeni bir faciə baş verdi – məhsulun böyük bir hissəsi məhv oldu.

## MƏHSULUN 70%-İ MƏHV OLUB

**Naxçıvan, 31 may (AzərTAC).** Diyarın hər yerində taxıl zəmilərində "sarılıq" xəstəliyi əmələ gəlib. Məhsulun 70%-i ziyan görüb. Sahələri gəzməkdə olan komissiya itkinin miqdarını araşdırır.

*("Bakinski raboçi" qəzeti, 2 iyun 1924-cü il, № 123*

Respublikada minlərlə qaçqının da olduğunu nəzərə alsaq, deyə bilərik ki, əhali acından ölmək təhlükəsi ilə üz-üzə qalmışdı. Dünya praktikasında elə bir hal olmayıb ki, belə bir situasiyada kənar yardımsız keçinmək mümkün olsun. Belə bir yardım hökmən lazım idi və ilk növbədə Azərbaycan hökumətindən və yaxud onun xahişi ilə başqa bir dövlətdən gəlməli idi.

Naxçıvan Muxtar Respublikasındakı aclıq xəbəri Moskvaya da gedib çatmışdı və paytaxtın bolşevik "Pravda" qəzeti bu qorxunc fəlakət barədə məlumat verirdi.

## NAXÇIVAN DİYARINDA ACLIQ

Bakı, 3 iyun. Azərbaycanın ən uzaq hissəsində – Naxçıvan diyarında quraqlıq və buynuzlu mal-qaraya düşən taun xəstəliyi ilə əlaqədar aclıq başlamışdır.

*"Pravda" qəzeti, 5 iyun 1924-cü il, № 126*

Yeri gəlmişkən, Bakı mətbuatı Naxçıvanlıların bu faciəsi barədə susurdu.

Naxçıvan MSSR öz daxili ehtiyatları hesabına vəziyyətdən çıxmaq ümidinə buraxılmışdı, halbuki Naxçıvan torpağı artıq dörd il idi səfalət içindəydi və heç bir daxili ehtiyatdan söhbət gedə bilməzdi. Lakin özünü könüllü surətdə dəfn etmək də naxçıvanlıların ruhuna xas olan şey deyildi.

Taleyin amansızlığına baxmayaraq, Respublika yenə də gələcək ümidi ilə yaşayırdı, çünki müqəddəs Naxçıvan torpağının şərəfli keçmişi vardı. O keçmişi ilə duyduğu qürur ona dirçəlmək, çoxalmaq üçün qüvvət verirdi. Bu düşüncələrlə biz Naxçıvan Respublikasının ikinci böyük şəhəri qədim Ordubada gəlib çatırıq.

## NAXÇIVAN DİYARINDA İPƏKÇİLİK

Naxçıvan diyarında ipəkçiliyə ciddi diqqət yetirilməlidir. O, təsərrüfat boşluqlarını doldurmaq işində kəndlilər üçün pambıqçılıqdan sonra ən vacib sahədir.

Bir qədər geriyə boylanaq. Cəmi 3 000 əhalisi olan Ordubad şə-

hərini götürək. Orada tamamilə qüsursuz işləyən 10 baramaaçan zavod vardı və onların hər birində 90-95 fəhlə çalışırdı. Beləliklə, qəzanın özünü bir yana qoysaq, Ordubad şəhəri əhalisinin, demək olar ki, üçdə biri ilin 9 ayını həmin baramaaçan zavodlarda işləyərək, öz ailələrini sərbəst şəkildə dolandırmaq imkanına malik idilər. Əhalinin qalan hissəsi bağçılıq, arıçılıq və əkinçiliklə məşğul olurdu. 1917-ci ildən başlayaraq, vəziyyət dəyişdi. İpəkçilik tədricən zəifləməyə başladı və 1920-ci ilin sonunda tamamilə sıradan çıxdı.

Vətəndaş müharibəsindən sonra Ordubaddakı bütün zavodlar dağıdıldı. Onlar elə bir xaotik vəziyyətə düşdülər ki, Naxçıvan diyarının sovetləşməsindən sonrakı ilk üç il ərzində bərpa edilmələri mümkün görünmədi. Buna görə də, aclıq təhlükəsi ilə üz-üzə qalan əhali tut plantasiyalarını məhv etməyə, onları taxıl əkini sahələrinə çevirməyə başladı.

1923-cü ilin yanvarında on baramaaçan zavoddan yalnız ikisi təmir olundu (o da tələm-tələsik, əsaslı şəkildə deyil): biri “Naxiitifaq”ın Ordubad şöbəsinin, digəri isə icarədarın – özünün keçmiş sahibinin vəsaiti hesabına.

Qeyd olunan zavodlardan əlavə Ordubad qəzasında yüzlərlə əl dəzgahı da vardı. Onlar indi də durur.

Zavodlardan ipək, necə deyərlər, “arqac” son işlənmə məqsədilə “xam ipəyin” açılması və tədarükü üçün xüsusi avadanlıqla təchiz olunmuş zavodlara göndərilirdi. “Xam ipəyin” tədarükü işini istisnasız olaraq ixtisaslaşmış fəhlələr yerinə yetirirdilər, Ordubadda onların sayı 50-dən çox deyildi. Onlardan 32 fəhlə hal-hazırda ayda 7 rubl almaqla Naxçıvandakı sosial sığorta kassasından istifadə edir. Qalanları dolanmağa vəsait tapmaq üçün Nuxaya getmişdir.

Naxçıvan diyarının ipəkçilik sənayesinin mərkəzi kimi Ordubad xammalı əsasən Zəngəzur və Qubadlı qəzalarından, həmçinin sərhəd zonasındakı İran Qaradağından alırdı.

Ordubadın baramaaçan zavodlarının ehtiyacları üçün alınan xammalın miqdarı 20 min puda çatırdı. Rusiyanın mərkəzinə, Moskvaya aparılan təmiz “xam ipək” ildə 15, bəzən isə 20 puda bərabər olurdu.

İpəkçilik sənayesinin öz işini dayandırmasından sonra Ordubad qəzasının zəhmətkeşləri son dərəcə böyük ehtiyac içərisinə düşmüşlər. İpəkçiliyin bərpa edilməsinin və onun lazımi səviyyəyə yüksəldilməsinin zəruriliyini anlayan Ordubad qəzasının kəndliləri öz kənd sovetləri şəxsində salamat qalmış tut ağaclarına, yeni sahələrə tut toxumu səpilməsinə və bütün bənzər sahələrdə tut qələmələrinin əkilməsinə dair qərar çıxarmışlar. Ancaq kəndlilər tərəfindən həyata keçirilən bu tədbirlər Ordubad zavodlarında işləyən fəhlələrin vəziyyətini hələ heç

cür yaxşılaşdırmır.

İpək istehsalının vacibliyini nəzərə alaraq, Naxçıvan diyarının yoxsul əhalisinin yaşayışını dəstəkləmək üçün Azərbaycan İpəkçilik İdarəsinin və digər əlaqədar dövlət orqanlarını diqqətini buna yönəldirik. Onlar əhalinin səsini eşitməli, Ordubaddakı qalan 9 dağıdılmış zavodun bərpa edilməsi üçün lazımi vəsait ayırmalıdırlar.

Cari ildə yalnız 2 000 barama toxumu buraxılmışdır, ancaq bu, azdır.

*(“Bakinski raboçi” qəzeti, 27 iyun 1924-cü il, № 143)*

Zəhmətsevər və həyat qabiliyyətli Naxçıvan Respublikasının xalq təsərrüfatının dağıdılmış sahələri öz doğma Azərbaycan hökumətinin təcili və təxirəsalınmaz yardımına ehtiyac duyur. Naxçıvan xalqının Sovet Azərbaycanı ilə bir ailədə yaşamaq istədiyini növbəti dəfə elan etdiyi bəyanatı burada necə xatırlamayasan!

Bu diyarın fəhlə-kəndli kütləsi Naxçıvanın III Sovetlər Qurultayında qəbul edilən 27 fevral 1923-cü il tarixli bəyanatında millətçi meyl və cəhdlərin ona nə qədər yad olduğunu göstərmişdi. Onlar bəyan etmişdilər ki, öz doğma diyarlarının bundan sonrakı yüksəlişini yalnız Sovet Azərbaycanı ilə vahid iradə altında birləşməkdə və yalnız onunla vahid iqtisadi və siyasi ittifaqda görürlər.

Yarıac və yoxsullaşmış Naxçıvanda, hansısa başqa bir hakimiyyətin deyil, məhz sovet hakimiyyətinin hökmranlıq etdiyinə bundan da yaxşı sübut ola bilərmi?! İstənilən başqa bir hakimiyyət halında Naxçıvanın vəziyyəti ən azı bundan heç də pis olmazdı. Belə güman edək ki, bolşevik hakimiyyətinin nümayəndələri (tutaq ki, qədim Naxçıvan torpağını ürəkdən sevən insanlar kimi) dörd il ərzində Respublikanın keçmiş, məsələn, xan dövründəki rifah səviyyəsini bərpa etməyə, Vətəndaş müharibəsinin yaralarını sağaltmağa çalışmışdılar, ancaq Sovet hakimiyyətinin məğzi, onun prinsiplərinin özü Naxçıvan Respublikasının yenidən dirçəlməsinə əngəl olurdu. Sovet Azərbaycanının və Sovet Naxçıvanının rəhbərləri sərhəd zonasında yerləşən Naxçıvana münasibətdə partiyanın siyasətini – onun İran və Türkiyənin əsarətdə

olan xalqlarına sovet quruluşunu təşviq etmək üçün layiqli nümunə olması siyasətini yerinə yetirmək üçün nə qədər parlaq şüarlar ortaya atsalar da, Naxçıvan MSSR-in rəhbərliyi neçə dəfə dəyişdirilsə də Naxçıvan Respublikası belə bir nümunəyə çevrilmədi. Yeri gəlmişkən, Azərbaycanın digər qəzaları da həmçinin. Bu vəziyyətin sadə və asan bir izahı vardı: Naxçıvan MSSR-də gündəlik ictimai fəaliyyət, xan və bəylərin nəzarəti altında olan müsavatın deyil, istisnasız olaraq proletar diktaturasının qaydalarına əsaslanırdı. Məsələn, əgər Naxçıvan Respublikasının idarəsi xan və bəylərə tapşırılsaydı, onda Naxçıvanın Yaxın Şərq ölkələri üçün etalon olmaq şansı daha böyük olardı. Bu cür açıq mülahizələrə görə, qoy, oxucu məni bağışlasın.

XDİK-nın rəhbəri M. Bağırovun tezliklə ciddi-səylə axtarıb tapmağa və məhv etməyə – bu məqsəd üçün yaxşı silahlanmış sərhəd mühafizəsi dəstələrindən istifadə edəcəkdi, – başlayacağı xan və bəy ünsürləri tərəfindən Naxçıvan MSSR rəhbərliyinin ələ keçirilməsi məsələsinə gəlincə isə, deməliyik ki, xan və bəylərin həqiqi hakimiyyəti artıq tarixə gömülmüşdü və indi Sovet Naxçıvanında bolşeviklər hökmranlıq edirdilər.

## NAXÇIVANDA HÖKM SÜRƏN DÖRD İLLİK SƏFALƏT VƏ YOXSULLUQ XAN HAKİMİYYƏTİNİN DEYİL, BİLAVASİTƏ BOLŞEVİK ÜSUL-İDARƏSİNİN NƏTİCƏSİ İDİ.

## AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QƏLƏBƏSİ VƏ NAXÇIVANDA "SOVET NİZAMSIZLIĞI"

1925-ci il martın 1-də səhər tezdən Sovet Azərbaycanın paytaxtı Bakı şəhəri, o vaxtadək görünməmiş tərzdə, bayram libasına bürünmüşdü. Qırmızı Bakıya SSRİ zəhmətkeşlərinin rəhbərləri təşrif buyuracaqlardı. "Bakinski raboçi" qəzetinin birinci səhifəsində Bakı və bütün Azərbaycan zəhmətkeşlərinə iri, dərhal nəzərə çarpan başlıqla ittifaq respublikaları MİK nümayəndələrinin və SSRİ hökuməti rəhbərlərinin Bakıya gəlişi barədə məlumat verilirdi. Onlar Tiflisə SSRİ MİK-nin Sessiyasına gedirdilər.

İri transparantlarda saysız-hesabsız təbriklər əks olunmuşdu. Onlardan birini misal gətirək:

**"Qırmızı Bakı" proletariatı tərəfindən**
**Sovet İttifaqının zəhmətkeş kütlələrinin**
**rəhbərlərinə alovlu salamlar!**

Bakıya gələn yüksək səviyyəli qonaqların soyadlarının siyahısını diqqətlə nəzərdən keçiririk. Ümumittifaq MİK-nin dörd sədrindən biri, Zaqafqaziya Federasiyasının birinci sədri və Azərbaycan SSR Hərbi İnqilab Şurasının birinci sədri **Nəriman NƏRİMANOVUN** adı nədənsə yüksək səviyyəli qonaqların arasında yoxdur. Mətbuat bu faktı heç cür şərh etmək istəməmişdi.

*("Bakinski raboçi" qəzeti, 1 mart 1925-ci il, № 47)*

SSRİ və ittifaq respublikaları rəhbərlərinin Bakıya gəlməsi, sonra da Tiflisə yola düşməsi münasibətilə Sovet Azərbaycanın paytaxtında fəxri qarovul düzülmüş və hərbi parad təyin edilmişdi.

Bakı qarnizonunun rəisi, diviziya komandiri **Cəmşid NAXÇIVANSKİNİN** – sabiq Dünya müharibəsi qəhrəmanı, Vəhşi diviziyanın Tatar alayının eskadron komandiri Cəmşid xan Naxçıvanskinin imzaladığı tarixi əmrə nəzər salaq:

## ƏMR № 50A
## BAKI ŞƏHƏRİ VƏ ONUN RAYONLARI QARNİZONUNUN QOŞUNLARINA

**28 fevral 1925-ci il**

§1. SSRİ MİK üzvlərinin gəlişi münasibətilə qarnizon hissələri ilə görüş üçün bu il martın 1-ə parad təyin edilir.

§2. Paradda Bakı Qarnizonunun bütün qoşun hissələri iştirak edir.

§3. Paradın keçiriləcəyi yer 28 aprel küçəsidir (keçmiş Telefon küçəsi)

§4. Parad düz saat 14.30-da başlayır.

§5. Hər bir hissə sıra zabitini saat 12-də parad yerinə göndərsin.

§6. Hərbi hissələr saat 13.30-da parad yerində olsunlar.

§7. Paradda qoşunlar şəhərin komendantı yoldaş Vasilkin-Bekdemirovun göstərişinə əsasən düzülsünlər.

§8. Geyim forması qış, qarovul (qollu şinel) formasıdır, Xəzər Dəniz Donanması üçün isə 4 №-li formadır.

§9. Süvarilər atlı sırasına, artilleriyaçılar piyada sırasına gəlsinlər.

§10. Parada Stepin adına 2-ci Qafqaz Atıcı Diviziyasının komandiri yoldaş Baranoviç komandanlıq etsin.

§11. Paradı SSRİ MİK-nin sədri yoldaş Kalinin qəbul edir.

§12. 1-ci Bakı stansiyasında görüş üçün Azərbaycan Komandirlər Məktəbinin bir bölük tərkibində orkestrlə birlikdə fəxri qarovulu düzülür.

§13. Fəxri qarovula Azərbaycan Komandirlər Məktəbinin batalyon komandiri yoldaş İzmayılov komandirlik etsin.

§14. Yola salma zamanı Xəzər Dəniz Donanmasından bir bölük tərkibində orkestrlə birlikdə fəxri qarovul təyin edilir.

§15. Bakı şəhər milisinin rəisi 28 aprel küçəsində və paradda asayişə riayət edilməsi üçün təyinedilən bütün rütbələrdən olan milislərin parad komandanı yoldaş Baranoviçə və şəhərin komendantı yoldaş Vasilkinə tabe olmalarını təmin etsin.

Bakı Qarnizonun rəisi **NAXÇIVANSKİ**
Qarnizonun komissarı **NEMERZELİ**
Şəhər komendantı **VASİLKİN-BEKDEMİROV**

Sabahı gün 1925-ci il martın 2-də Bakıda İttifaq Hökuməti və İttifaq Mərkəzi İcraiyyə Komitəsi üzvlərinin iştirakı ilə Azərbaycan MİK, Bakı Soveti və AHİŞ-nın təntənəli iclası keçirildi.

Azərbaycan MİK-nin bu iclasında Sovet İttifaqı Xalq Komissarları Sovetinin sədri **Aleksey İvanoviç RIKOV** geniş məruzə ilə çıxış etdi.

*(“Bakinski raboçi” qəzeti, 2 mart 1925-ci il, № 48)*

Bakı mətbuatı bu sessiyanın böyük tarixi əhəmiyyətə malik olduğunu qeyd etdi. Qeyd olundu ki, SSRİ-nin ən ali orqanı – SSR İttifaqının Mərkəzi İcraiyyə Komitəsi sovet hakimiyyəti tarixində ilk dəfə olaraq Zaqafqaziyaya səfər edir və bu səfər Azərbaycanla başlayır. Redaksiya məqaləsində xüsusi təmtəraqla vurğulanır ki, “bizim ittifaqımız həqiqətən də **bərabərlərin ittifaqıdır**, bizdə hökmran və məzlum xalqlar olmadığı kimi **artıq “əyalət” də yoxdur**...”

*(“Bakinski raboçi” qəzeti, 3 mart 1925-ci il, № 49)*

Bu cür tarixi əhəmiyyətli bəyanatlardan sonra belə bir düzəliş etmək kimin ağlına gələrdi ki, **“bərabərlər ittifaqında” “əyalət”** elə burda, Azərbaycanda da var, özü də həmin əyalət acdır, səfalət içindədir və Azərbaycan hökuməti tərəfindən baxımsız qalmışdır. Doğrudur, SSRİ-nin ali hakimiyyət nümayəndələri hələ bu əyaləti tanımırlar, V. İ. Leninin Xalq Komissarları Soveti üzrə xələfi yoldaş A.İ.Rıkov da ondan xəbərsizdir. Cəmisi bir həftə keçəcək və sovet torpağında belə bir əyalətin mövcud olduğunu ilk dəfə kəşf edən, buradakı vəziyyəti **“sovet nizamsızlığı”** adlandıran Rıkovun, SSR İttifaqı Xalq Komissarları Soveti sədrinin həyəcan və qəzəblə dolu səsi ucalaraq bütün “bərabərlər ittifaqı”na yayılacaq və hətta dünyanın başqa ölkələrində də eşidiləcəkdi.

Hələlik isə təmtəraqlı qonaqların əhatəsində olan, Azərbaycan SSR Xalq Komissarları Sovetinin və AK(b)P-nın rəhbərləri tərəfindən müşayiət edilən Rıkov sovet hakimiyyətinin Azərbaycanda təntənəsindən sonra ötən beş ildən də az bir vaxt ərzində baş verən dəyişiklikləri heyranlıqla seyr edir və gördüklərindən

riqqətə gəlirdi.

Həqiqətən də, axı Kreml öz rəhbəri V.İ.Leninin mürgüsüz rəhbərliyi və Azərbaycanın gələcək lideri N.Nərimanovun iştirakı ilə, Azərbaycanı Şərqdə dünya inqilabının qələbəsi üçün əsas əməliyyat meydanı kimi planlaşdıraraq, müsavatçıların nifrətəlayiq xan-bəy hakimiyyətini nahaq yerə devirməmişdi. İran və Türkiyənin məzlum xalqlarının çiçəklənən Azərbaycana dikilən baxışları hökmən onun bolşevik əyalətini – Naxçıvan MSSR-i də görəcəkdi.

Qonaqpərvər Bakını tərk edən qonaqlar Tiflisə – Qırmızı Zaqafqaziyanın mərkəzinə yola düşdülər, 1925-ci il matın 3-də orada Dövlət Operasının binasında SSRİ MİK-nin III sessiyası açılacaqdı.

Zaqafqaziya respublikalarının fəhlə, həmkarlar və Qırmızı Ordu təşkilatlarının çoxsaylı nümayəndələrinin və Gürcüstan qəzalarının kəndlilərinin iştirak etdiyi sessiyanı Ümumittifaq MİK-nin sədri M.İ.Kalinin açdı. Xalq Komissarları Sovetinin sədri yoldaş A.İ.Rıkov isə dünyada ilk proletar respublikası hökumətinin gördüyü işlər barədə üç saatlıq hesabat məruzəsi ilə çıxış etdi.

***“Bizim Şərqə təsirimiz,*** – yoldaş Rıkov bəyan etdi, – ***aydan-aya artır, burjuaziyanın Şərqdə nüfuzu isə buna müvafiq surətdə aşağı düşür...”***

Məruzəçi, həmçinin SSRİ-nin təsərrüfat vəziyyəti və onun möhkəmləndirilməsi yolları barədə ətraflı söhbət açdı.

Sovet hakimiyyətinin Azərbaycanda qazandığı nailiyyətləri hələ dünən nümayiş etdirən Azərbaycan nümayəndələri burada **“mülkədarlar və bəylər yenə də zəhmətkeş xalqın boynuna minə biləcəklərini düşünməsinlər deyə sovet hakimiyyətini daha möhkəm qurmaq”** əzmində olduqlarını sessiya iştirakçılarına bir daha bəyan etməyə tələsdilər.

*(“Bakinski raboçi” qəzeti, 5 mart 1925-ci il, № 51)*

Sessiya uğurla başa çatdırıldıqdan sonra İttifaq MİK-nin və SSR İttifaqı Xalq Komissarları Sovetinin üzvləri hər iki respublikanın mühüm məntəqələrində həyat şəraiti ilə yerində tanış

olmaq üçün Ermənistana və Azərbaycana yollandılar.

Məlum oldu ki, SSRİ MİK-nin həmsədri **Nəriman NƏRİMANOV** da həmin günlərdə Qafqazda imiş.

Martın 9-da İttifaq MİK-nin nümayəndələri Ermənistanda olanda Nəriman Nərimanov Gürcüstanın Qızılhacılı kəndinə gəlmişdi; o, 30 il bundan əvvəl bu kənddə müəllimlər seminariyasını bitirmiş və burada müəllim kimi əmək fəaliyyətinə başlamışdı. Kəndlilərlə çoxsaylı görüşlər səmimi xarakter daşıyırdı. Kəndlilər Nərimanova bildirdilər ki, Qızılhacılı kəndinin məktəbinə onun adını veriblər.

*(“Bakinski raboçi” qəzeti, 12 mart 1925-ci il, № 57)*

Ermənistanda səfərdə olduqdan sonra moskvalı yüksək qonaqlar Azərbaycana qayıtdılar və 1925-ci il martın 10-da qədim Naxçıvan torpağını ziyarət etdilər. Naxçıvan Sovet Sosialist Respublikasının paytaxtı SSR İttifaqı Xalq Komissarları Sovetinin sədri A. İ. Rıkovun başçılıq etdiyi hörmətli qonaqları hərarətlə qarşıladı. Bu uzaq əyalətin sovetləşməsindən sonra SSRİ Hökumətinin üzvləri onu ilk dəfə idi ki, ziyarət edirdilər. Yüksək səviyyəli qonaqları Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri **Həmid SULTANOV** qəbul etdi.

“Bakinski raboçi” qəzeti də bu görüş haqqında məlumat vermişdi.

**NAXÇIVAN, 10 mart** (Xüs. müxb.)

Xalq Komissarları Soveti sarayına toplaşan nəhəng insan kütləsi düzbucaqlı kvadrat formasında düzülüb. Yerli ittifaq təşkilatları, qonşu kəndlərin kəndliləri buradadırlar. Çadralı qadınların çoxluğu dərhal diqqəti cəlb edir. Yoldaş Sultanovun giriş sözündən sonra yoldaş Rıkov çıxış edərək bildirdi ki, o buradakı qədər səfaləti heç vaxt görməyib. Heç yerdə ona Naxçıvandakı qədər şikayət ərizəsi verməyiblər.

– İndi mənim özümün bu ərizələrə baxmağa vaxtım yoxdur, ancaq icraiyyə komitəsinin komissiyasına əmr edəcəm ki, ən qısa müddətdə sizinlə birlikdə onları araşdırsın və bu barədə hö-

kumətə məruzə etsin. Qaçqınlar öz yerlərinə qayıtmalı, dinc əməklə məşğul olmadırlar. Sizin diyarın iqtisadi inkişafının rəhni bütün millətlərin bir yerdə dinc yanaşı yaşaması olacaqdır. **Hələlik, mənim sərəncamımda olan 30 000 rublu ehtiyac içərisində olanlara verirəm.**

Bu bəyanat insanlarda güclü təəssürat oyatdı. Hökumət üzvləri bu gün Bakıya yola düşürlər.

**A.YAKOVLEV**

*("Bakinski raboçi" qəzeti, 12 mart 1925-ci il, № 57)*

Moskvada çıxan bolşevik "Pravda" qəzeti də SSRİ rəhbərlərinin Zaqafqaziya səfərini şərh etmiş və onların Naxçıvan Respublikasına ziyarətinə geniş yer vermişdilər.

## HÖKUMƏT ÜZVLƏRİNİN ZAQAFQAZİYA SƏFƏRİ

(Tiflis müxbirimizdən teleqrafla)

...Naxçıvan Respublikasının keçmişdə çar qubernatorunun hətta üzünü belə görməyən kəndliləri indi böyük Sovet İttifaqının hökuməti ilə üz-üzə görüşürlər. Buna görə də əhalinin sevincini başa düşmək asandır.

Uluxanlı stansiyasına yaxınlaşan qatarı yaxınlıqdakı təpələrə yığışmış xalq kütlələri qarşılayır. Buradakı mitinqdə çıxış edən yoldaş Rıkov göstərdi ki, o, Naxçıvan diyarında olduğu qədər heç bir yerdə belə bir səfalət, belə bir ehtiyac görməmişdir, heç yerdə ona bu qədər çox şikayət və xahiş ərizəsi verilməmişdir. Yoldaş Rıkov Naxçıvan Respublikasının MİK-nin sərəncamına yerli ehtiyaclar üçün 30 000 rubl verdi.

– **Respublikanın ehtiyacları, xüsusilə də qaçqınların vəziyyəti çox diqqətlə öyrənilməlidir,** – yoldaş Rıkov deyir. – **Geriyə qayıdanlara dinc əməklə məşğul olmaq imkanı verilməlidir. Hökumət torpağın becərilməsinə köməklik göstərəcəkdir.**

Daha sonra yoldaş Rıkov dedi ki, **əhali bu səfalətə və qırğına gətirib çıxaran keçmiş fəlakətlərin səbəblərini unutmamalıdır**. Biz yalnız digər xalqlara hörmət hissini qoruyub saxlayacağımıza and içdiyimiz təqdirdə təsərrüfatı dirçəldə və keçmişdən xilas ola bilərik.

**NAXÇIVANDA**

Sessiya üzvləri Naxçıvanı gəzdilər. Mitinq zamanı ətraf kəndlərin sakinləri yoldaş Rıkova təsərrüfatın yaxşılaşdırılması ilə bağlı yüzdən çox ərizə verdilər. Onlarla tanış olandan sonra yoldaş Rıkov sessiya üzvlərinə – yerli məsul işçilərə dedi:

– **Bura parlament deyil, burda söyüş söymək də olar. Mənim burda gördüklərim başdan ayağa sovet biabırçılığıdır. Beş dəqiqə ərzində yüz şikayət ərizəsi aldım. Mənə bel ayrılması xahişi ilə müraciət edirlər. Çox şey istəmirlər, təkcə bel istəyirlər. Yerli hakimiyyət kəndlilərə həssas yanaşmır. Bizim indi Zaqafqaziyanın rayonlarını bir-bir gəzib yerli yoxsulların minlərlə şikayət ərizəsini alıb yoxlamağımız mənasız bir şey olardı – bu yerli hakimiyyətin işidir. Əgər o öz təyinat vəzifəsini yerinə yetirmirsə, onda biz çalışacağıq ki, Naxçıvan diyarının başında ölkəyə kömək etmək arzusunda olan, əhalinin inandığı yoldaşlar dayansın.**

**Burada vəsait çatışmazlığına istinad edirlər. Doğrudur, bütün sovet xəzinəsində də vəsait azdır, ancaq bununla belə, Bakı tramvay xəttini ixtisar etmək, pionerlər üçün bayraq və kostyum alınmasına pul sərf etməklə məşğul olmamaq və bu vəsaitləri kəndlilərin büdcəsini artırmaq üçün istifadə etmək, yəqin ki, daha düzgün olardı.**

Naxçıvandan qayıdan hökumət qatarını Şahtaxtıda çoxlu kəndli qarşıladı. Noraşendə demək olar ki, rayonun bütün əhalisi – pambıq zavodunun fəhlə və qulluqçuları və türk kəndliləri toplaşmışdı, onlar hökumətə yazılı şikayət və xahiş ərizələri atırdılar, yoldaş Rıkov onları diqqətlə nəzərdən keçirəcəyinə söz verdi.

Kəndlilər hökumət qatarının geri – Moskvaya qayıtdığını öyrənib dəmiryol stansiyalarına tələsirlər; bəzən bunun üçün əlli verstdən də çox yolu piyada gəlirlər. Stansiyaların ətrafına toplaşan kəndlilər qatarı uzun müddət saxlayır və hökuməti alqışlayırlar. Yolüstü mitinqlərdə yoldaş Çiçerin, Rıkov və Podvoyski çıxış edirlər.

Dağılandan sonra yarısı bərpa olunmuş Davalı kəndinin sakinləri qatarı yolun ortasında saxlayıb, yoldaş Rıkovdan onların qarşısına çıxmasını xahiş etdilər. Yoldaş Rıkov kəndlilərin vəziyyətini yüngülləşdirilməsi sahəsində sessiyanın qərarını onlara izah etdi və kənddə qolçomaqların artdığını, onların kənd sovetlərinə və digər kəndli təşkilatlarına soxulduğunu qeyd edərək, kəndliləri öz təsərrüfatlarını yaxşılaşdırmaqla onlara qarşı mübarizə aparmağa çağırdı.

**TİFLİSSKİ**

*(“Pravda” qəzeti, 12 mart, 1925-ci il, № 59)*

Xalq Komissarları Sovetinin sədri yoldaş Rıkov Bakıya gəlməmişdən bir gün əvvəl, 1925-ci il martın 11-də Azərbaycanın IV Sovetlər qurultayı öz işinə başladı. Qurultayda Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri **Qəzənfər MUSABƏYOV** Azərbaycan SSR hökuməti adından üç saatlıq məruzə ilə öz fəaliyyəti barədə hesabat verdi. Məruzədə müasir beynəlxalq vəziyyət ətraflı işıqlandırıldı, həm də Müsavat partiyasının Türkiyədə yaşayan lideri Məmməd Əmin Rəsulzadəyə xüsusi diqqət yetirildi: **"Qoy iflasa uğramış müsavat partiyasının lideri, bu siyasi xain Azərbaycanın zəhmətkeş ünsürü üzərində yenidən ağalıq etmək ümidi ilə yalandan özünə nə qədər istəyir, təsəlli versin. Biz bu tribunadan müsavatçılara, ittihadçılara və onların bandasına qəti şəkildə bəyan edirik ki, Azərbaycanın fəhlə və kəndliləri öz köləlik zəncirlərini birdəfəlik qırıb atmışlar və heç kimə azad Azərbaycan torpağını murdarlamağa imkan verməyəcəklər**".

Məruzədə sovet və təsərrüfat quruculuğu, dövlət sənayesi, ticarət, maliyyə, xalq səhiyyəsi və hətta rabitə məsələlərinə kifayət qədər geniş yer ayrılmışdı. Lakin bu hərtərəfli məruzədə Naxçıvan Sovet Sosialist Respublikasının adı üç dəfə çəkilsə də, onun iqtisadiyyat və təsərrüfat quruculuğunun vəziyyətinin kiçicik bir dəyərləndirilməsinə belə yer verilməmişdi.

A. İ. Rıkovun Naxçıvan Respublikasının fəlakətli vəziyyəti barədə emosional çıxışı, onun **"heç bir yerdə buradakı qədər səfalət görmədim"** sözləri, bəlkə də, yoldaş Musabəyova hələ çatmamışdı. A. İ. Rıkovu sarsıdan, öz gözləri ilə gördüyü bu acınacaqlı mənzərə Q. Musabəyova çatmış olsa belə, Azərbaycanın, indiki dillə desək, baş naziri Xalq Komissarları Soveti və AKP tərəfindən artıq təsdiq edilmiş bu qədər məsuliyyətli məruzəyə düzəliş etməyə, yəqin ki, cürət etməmişdi. Çünki, yoldaş Musabəyov, heç olmasa, nüfuz naminə, hesabat məruzəsini oxumağa ara verib, öz şəxsi fikrini söyləyə bilərdi. Ancaq o bunu da etməmişdi.



Qəzənfər Musabəyov

Nə qədər əhəmiyyətli də olsa, bu detalların üzərində çox dayanmadan, Qəzənfər Musabəyovun məruzəsinin mətnini, Naxçıvan MSSR haqda hər hansı məlumat axtarıb tapmaq məqsədilə “ələkdən keçirməyə” davam edirik; axı məruzə həm də müəyyən mənada yubiley məruzəsi idi. Azərbaycan sovetləşməsinin beş illiyini qeyd etməyə hazırlaşırdı. Hər halda Qəzənfər Musabəyov qədim Naxçıvanı diqqətdən kənarda qoymamışdı, hərçənd gətirilən ötəri nümunələr bu diyara heç cür layiq ola bilməzdi və Azərbaycanın yeganə muxtar respublikasındakı vəziyyətdən Musabəyovun tamamilə xəbərsiz olduğunu göstərirdi: **“...Məlum oldu ki, 1921-ci ildə, Naxçıvan diyarını hesaba almasaq, 30 min xış varmış.”** Elə bu? Yox, Naxçıvan MSSR-in adı məruzədə bundan başqa hələ iki dəfə də çəkilmişdir. Naxçıvanın adı ikinci dəfə “Nəqliyyat” bölməsində, 1927-ci ildə başa çatdırılması planlaşdırılan Culfa-Bakı dəmir yolunun tikintisi ilə əlaqədar çəkilir: **“Zaqafqaziyanın iqtisadi siması,** – məruzəçi deyir, – **tamamilə başqa görkəm alacaq. Xüsusilə də, ayrı düşmüş Naxçıvan diyarının Azərbaycan SSR-lə birbaşa əlaqəsi yaranacaq və biz onda onunla təkcə siyasi deyil, həm də iqtisadi birliyimizin şahidi olacağıq”**. Yəni, Azərbaycan MİK Naxçıvan SSR-in hüquqi və siyasi statusu ilə bağlı növbəti dəfə təsdiq edir ki, Azərbaycanın bu respublika ilə nə siyasi, nə də iqtisadi birliyi olmamışdır. Bu nə cəfəngiyatdır! Azərbaycanın protektoratlığı altında olan bir respublikanın mərkəzlə heç bir “siyasi və iqtisadi birliyə” malik olmamasına necə yol verilə bilər? Ancaq məruzənin başqa bir yerində Azərbaycan liderinin dili yanılıb, nəinki kədərli, həm də çox faciəvi bir həqiqəti söyləyirdi. Azərbaycan qəzalarının tele-

fonlaşdırılması proqramından, – onun həyata keçirilməsi Xalq Daxili İşlər Komissarlığına tapşırılmışdı, – danışarkən məruzəçi deyirdi: **“Proqramın birinci hissəsi, demək olar ki, tamamən yerinə yetirilmişdir və indi biz Naxçıvan diyarı istisna edilməklə, bir çox Azərbaycan qəzaları və onların sahə məntəqələri ilə uzunluğu 2000 verstdən çox olan rabitə əlaqəsinə malikik...”** Əcaib texniki siyasətdir. Yaxın qəzalar telefonlaşdırılır, daha uzaqda olanlar ilə əlaqə yoxdur.

Bu əcaib, cəfəng şeylərə baxmayaraq, qurultayın səhər iclasında Azərbaycan fəhlə-kəndli hökumətinin işi “bütünlüklə və tam şəkildə” bəyənildi.

Qurultayın bağlanışı ərəfəsində elan edildi ki, Bakıdan keçib gedən hökumət sədri yoldaş **RIKOV** səhər iclasında çıxış edəcək.

*(“Bakinski raboçi” qəzeti, 12 mart 1925-ci il, № 57)*

1925-ci il martın 12-si Zaqafqaziyada bayram günü idi. Qəzetlərin birinci səhifələrində iri cəlbedici şriftlərlə yazılmışdı: **“Üç ildir Zaqafqaziya Sovet Respublikaları vahid bir ailədə dostcasına yaşayırlar”**.

1925-ci il martın 12-si günü Zaqafqaziyadakı sovet respublikalarının tarixində yeni bir səhifə açmışdı. Üç ildir Zaqafqaziya Respublikaları –Azərbaycan, Gürcüstan və Ermənistan sıx qardaşlıq ittifaqına girərək, Zaqafqaziya Federasiyasını təşkil etmişdilər. Zaqafqaziya xalqları Sovet hakimiyyətinə qədər uzun müddət çarizm əsarətindən zülm çəkmiş, onun yeritdiyi milli ədavət siyasəti nəticəsində qanlı və amansız qırğınlara məruz qalmışdılar. Müsavatçıların, daşnakların və menşeviklərin müvəqqəti hökmranlığı öz aralarında daim düşmənçilik edən xalqları bir-birindən ayırmış, bütün Zaqafqaziyanı millətçilik və şovinizm zəhərinə bürümüşdü. Yalnız Sovet hakimiyyətinin gəlişindən sonra Zaqafqaziya xalqları azad nəfəs ala bilmişlər...

Yaşasın Zaqafqaziyada millətlərarası sülhün dayağı, Şərq xalqları üçün qardaşlıq ittifaqı nümunəsi olan Zaqafqaziya Federasiyası!

*(“Bakinski raboçi” qəzeti, 12 mart 1925-ci il, № 57)*

Azərbaycan IV Sovetlər Qurultayının Bakıda, martın 12-də açılan səhər iclasında İttifaq hökuməti Xalq Komissarları Sovetinin sədri A.İ. Rıkov və xalq xarici işlər komissarı yoldaş Çiçerin iştirak edirdi. Azərbaycan ictimaiyyətinin nümayəndələri, xüsusilə də Azərbaycan SSR-in partiya və dövlət xadimləri səbirsizliklə Xalq Komissarları Soveti sədrindən Azərbaycanda sovet hakimiyyətinin qazandığı nailiyyətlərdən heyranlıqla bəhs edən bir nitq gözləyirdilər.

Zaqafqaziya öz üç respublikasının üç ildir vahid və dostcasına səmimi bir ailədə yaşamasını təntənəli şəkildə qeyd edirdi, Azərbaycanda sovet hakimiyyətinin beş illik yubileyi yaxınlaşırdı.

Yoldaş Rıkov Qırmızı Azərbaycanda sovet hakimiyyətinin möhtəşəm qələbəsini qeyd etməli idi. Yaxın Şərq xalqları, xüsusilə də İran xalqı Azərbaycanın sosialist xalq təsərrüfatının inkişafında əldə edilən nailiyyətlərini, gizlin də olsa, qibtə ilə müşahidə edirdilər, onlar Sovet Azərbaycanında xalqların bir ailə içərisində rifahının günbəgün necə yüksəldiyi və çiçəkləndiyini izləyirdilər.

**Bolşevik Azərbaycanında həyat da gözəl idi, yaşamaq da!**

A.İ.Rıkov tribunada görünəndə qurultay Sovet Sosialist Respublikaları İttifaqının hökumət başçısını ayaq üstə alqışladı. Gurultulu, susmaq bilməyən alqışlar uzun müddət Xalq Komissarları Sovetinin sədrinə öz çıxışına başlamağa imkan vermədi.

## YOLDAŞ RIKOVUN ÇIXIŞI

Azərbaycanın sənaye və kənd təsərrüfatı, xüsusilə də fabrik və qurutma kanallarının tikintisi sahəsində qazanılan nailiyyətlər haqqında çox xoş sözlər deyildi və bütün bunlar partiyanın nailiyyətləri kimi qeyd olundu.

**“Sizin rayonda aşağı səviyyəli özəklər Mərkəzi Rusiyadakından daha yaxşıdır. Mənim burda gördüyüm müsbət şey budur...**

**Ancaq mən Naxçıvanda oldum və bu səfər zamanı gördüyüm**

ən pis şey Naxçıvandakı vəziyyətdir. Fikirləşirəm ki, sizin bu qurultayın əvvəlində bura gəlmiş olsaydım və onun gündəliyinə təsir etmək imkanına malik olsaydım, Naxçıvan haqqında xüsusi məruzənin dinlənilməsini təklif edərdim.



Mənim Naxçıvan haqqındakı təəssüratım qısa şəkildə bundan ibarətdir ki, bir sıra digər rayonları gəzdikdən sonra Naxçıvan rayonuna gələndə sanki başqa bir dövlətə düşürsən. Bu həm bir çox obyektiv səbəblərlə, həm də əhali kütləsinin geriliyi ilə izah olunur. Bizim başlıca vəzifəmiz sovetlərdə işləmək üçün türk dilini bilən lazımi təşkilati ünsür yaratmaqdan ibarətdir. Sizin işiniz artıq xeyli nəticələr verir, ancaq bu, bütün türk xalqlarına türk dilini bilən və heç şübhəsiz ki, mətin və bilikli yoldaşların xidmət göstərməsi üçün kifayət deyildir. Bizim Naxçıvandakı partiyamız da və oradakı iş şəraiti də Naxçıvan diyarının lazımi şəkildə təşkili üçün yerlərdə bu cür sovet və partiya qüvvələrinin yetişməsinə kifayət qədər münbit zəmin yaratmır. Məndə belə təsəvvür yaranıb ki, əgər Azərbaycan var qüvvəsi ilə və bütün Zaqafqaziya, lazım gəlsə bütün İttifaq bu diyarın və onun təşkilinin bərpasına kömək etməsə, onlar öz gücləri ilə bu vəziyyətdən çıxa bilməyəcəklər.

Bu diyarın əhalisi 120 000-ə yaxındır. O, türk rayonuna daxildir və buna görə də göstərici kimi bizim üçün böyük əhəmiyyət kəsb edir. Buna görə də bütün İttifaqın marağı Naxçıvanı dirçəltməkdən ibarətdir. Bunun üçün böyük məsrəf tələb olunmur, çünki rayon özü də buna çalışır. Orada cəmi 120 000 əhali var, kəndlilərin torpaqla təmin edilməsi üçün ərazi kifayət qədərdir və mən istərdim ki, yaxın bir-iki il ərzində Azərbaycan Naxçıvan diyarını tamamilə tanınmaz hala gətirsin. Oradakı vəziyyəti dəyişdirmək lazımdır, həm də qısa müddətə, nəyin bahasına olursa olsun, kökündən dəyişdirmək lazımdır. Burada müşahidə etdiyim, gördüyüm nə varsa, hamısı bizim əksər quberniyalar üzrə işimizin və mütəşəkkilliyimizin orta səviyyəsindən yüksəkdir. Burada orta səviyyədən aşağı, zəif təşkil edilən, təsərrüfatın çox pis vəziyyətdə olduğu, əhalinin bizə lazım olan başlıca şeyə – öz gücünə, sabahkı günə inamının, sabah və o biri günün daha yaxşı olacağına

**inamının olmadığı yeganə rayon Naxçıvan rayonudur. Oradakı işin ən böyük qüsuru məhz bundan ibarətdir...”**

*(“Bakinski raboçi” qəzeti, 15 mart 1925-ci il, № 58)*

Əlbəttə, yaltaq qəzetçilər Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkovun sovet əyalətinin faciəsi haqqındakı onsuzda aydın olan çıxışını dərhal siyasiləşdirmək qərarına gəldilər.

“O dedi ki, Türkiyə Respublikası ilə sərhəd olan Naxçıvan diyarında iş zəif, səhlənkar aparılır, heç yerdə Sovet torpağının bu kiçik, ancaq bizim üçün fövqəladə əhəmiyyət kəsb edən parçasında olduğu dərəcədə yoxsulluq, viranəlik, baxımsızlıq görməyib və Azərbaycan Naxçıvan diyarında mövcud olan bu “sovet biabırçılığı”nı köklü şəkildə aradan qaldırmağa borcludur.

Qurultay böyük yoldaşın tərif və tənqidlərini diqqətlə, ciddi şəkildə dinlədi, zira çox gözəl anlayırdı ki, amansızcasına sözün açığını demək – cəhalətlə mübarizədə bizim silahımız, qələbəyə aparan düzgün yolumuzdur”.

*(“Bakinski raboçi” qəzeti, 15 mart 1925-ci il, № 58)*

Martın 12-də Böyük Dövlət Teatrında AHİŞ plenumu, ordu və hərbi donanma nümayəndələri və s. ilə birgə, Zaqafqaziya Federasiyasının yaradılmasının 3-cü il dönümünə həsr olunmuş IV Azərbaycan Sovetlər Qurultayının birləşmiş təntənəli iclası keçirildi. Zaqafqaziyada yaradılan bütün zəhmətkeşlərin vahid ailəsinə mədhiyyələrin oxunduğu bu bayram şəraitində yenə də, birdən-birə, sanki söz gəlişi, yeri gəlmişkən Naxçıvan diyarı barədə tezis səsləndi və həm də bu tezis Bakıda ilk dəfə olaraq Zaqafqaziya Diyar Partiya komitəsinin katibi və Zaqafqaziya Federasiyası Xalq Komissarları Sovetinin sədr müavini yoldaş **A.F.MYASNİKOVUN (MYASNİKYANIN)** A.İ.Rıkovun bəyanatına cavabı kimi səsləndi.

“Əgər biz Zaqafqaziya Federasiyasını möhkəmləndirməyə davam etsək, onda bir neçə ildən sonra cəsarətlə deyə bilərik ki, öz diyarımızı özümüz tanımayacağıq... zira biz yoxsulluq və səfalət içərisindən artıq çıxmışıq, biz indi böyük təsərrüfat yolu ilə irəliləyirik... Əgər biz çox az insanın nəzər yetirdiyi Naxçıvan diyarını götürsək, onda biz orada baxımsız qalmış bir guşəyə malik olduğumuzu görərik, orada

təsəvvürə gəlməz bir qaranlıq qalıb və biz elə yaxın gələcəkdə də orada öz işimizi qurmalıyıq, çünki ayrı-ayrı respublikalar artıq öz arxalarında digər respublikaların gücünü, Gürcüstanın, Ermənistanın gücünü, bütün Federasiyanın gücünü hiss edirlər.

*(“Bakinski raboçi” qəzeti, 15 mart 1925-ci il, № 58)*

---

**MYASNİKOV Aleksandr Fyodroviç** (1886 – 1925). Əsl soy adı Myasnikyan, təxəllüsü Martunidir. Don üzərindəki Naxçıvanda anadan olub. Sovet partiya və dövlət xadimi, ədəbiyyatçıdır.

1921-ci ildə – Ermənistan SSR Xalq Komissarları Sovetinin sədri və xalq daxili işlər komissarı, eyni zamanda Zaqafqaziya Federasiyası Xalq Komissarları Sovetinin sədr müavini, RK(b)P MK-nin Qafqaz Bürosunun üzvü, 1922-ci ildən Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasının İttifaq Şurasının sədri, sonra RK(b)P-nin Zaqafqaziya Diyar Komitəsinin Birinci katibi, eyni zamanda “Zarya Vostoka” qəzetinin redaktoru, SSRİ Hərbi İnqilab Şurasının, SSRİ MİK Rəyasət Heyətinin üzvü olmuşdur.

---

A. F. Myasnikov bu çıxışında elə bir yenilik eləməmişdi, çünki “baxımsız qalmış bir guşə” – Naxçıvan MSSR – haqqında hələ ondan əvvəl, martın 10-da A. İ. Rıkov öz fikrini hamıya bəyan etmişdi. Ancaq Myasnikov, Zaqafqaziya Federasiyasının iri bir siyasətçisi və Ermənistan patriotu kimi, Azərbaycan SSR rəhbərlərindən daha tez və fəndgir tərpənmişdi. O artıq SSRİ Xalq Komissarları Sovetinin sədrinin bəyanatını özü anladığı kimi, sovetləşməmişdən əvvəl və sonra Naxçıvan Respublikasını özünə birləşdirmək arzusunda olan doğma Ermənistanın xeyrinə istifadə etməyə başlamışdı.

Martın 13-də Qurultayın axşam iclasında Azərbaycanın yerli təsərrüfatı haqqında məruzə ilə çıxış edən, onun bir çox – Ağdam, Nuxa, Salyan, Göyçay və digər rayonlarına toxunan daxili işlər komissarı yoldaş Bağırov öz məruzəsinin nə əsas mətnində, nə də son sözündə Naxçıvan MSSR haqqında, sanki bu respublika Azərbaycan SSR-in xəritəsində yox imiş kimi, bir kəlmə də danışmadı. Mircəfər Bağırov, həmçinin heç A.İ.Rıkovun Naxçıvanla bağlı parlaq çıxışına da şərh vermədi.

Bağırovun sözlərinə görə sovetləşməmişdən qabaq Şamaxıda min beş yüz bina mövcud olmuş, hərbi hadisələrdən sonra sovetlərə onlardan yalnız biri salamat qalmışdı. “**Buna baxmayaraq**, – Bağırov sözünə davam edirdi, – **300-ü Şamaxıda olmaqla bütün qəzalar üzrə 350 ev tikilmişdir**”.

*(“Bakinski raboçi” qəzeti, 16 mart 1925-ci il, № 59)*

Budur, Naxçıvan MSSR-ə qayğı göz qabağındadır, lakin yarım aydan sonra Bağırov bu respublikadakı səfaləti görməmək üçün gözlərini qapadacaq, ağzından köpük tökülə-tökülə sübut etməyə çalışacaqdı ki, Naxçıvan sovet quruluşu üçün nümunəvi respublika deyil.

Martın 16-da Qurultay öz işini başa çatdırdı və “Bakinski raboçi” qəzetinin baş məqaləsində yenidən Naxçıvan diyarını yada saldılar, ancaq bu dəfə də o, RK(b)P-nın ən yaralı və aktual mövzusu – Şərqdə dünya inqilabı məsələsi baxımından diqqət mərkəzinə çevrilmişdi.

“Bizim Sovetlər Qurultayı burada çıxış edən ümumittifaq hökuməti nümayəndələrinin ağzından Azərbaycanın sovet işinin Şərqdə forpostu kimi müstəsna əhəmiyyətə malik olduğunun etiraf edildiyini eşitdi. Belə bir vəziyyət Azərbaycanın boynuna səciyyəvi və yaxud vaxtilə İliçin yazdığı kimi, Şərq üçün nümunəvi respublika olmaq vəzifəsini qoyur. Belə bir tələbə isə Azərbaycanın heç də bütün guşələri cavab vermir. Bu mənada, IV Sovetlər Qurultayından sonra Azərbaycanın əsas hissəsindən bir qədər uzaqda yerləşən Naxçıvan diyarına birinci dərəcəli diqqət yetirmək lazımdır...”

*(“Bakinski raboçi” qəzeti, 17 mart 1925-ci il, № 60)*

Faktiki olaraq artıq fəaliyyətə çağırış səslənmişdi.

Bağırov hamıdan tez dərk etdi ki, artıq siqnal verilib, fəaliyyətə başlamaq vaxtı çatıb.

Bağırov məsuliyyətsiz dövlət xadimi deyildi. O, bəziləri kimi, Kreml rəhbərlərinin tövsiyələrini tezliklə unudulub yaddan çıxacaq boş söz kimi qəbul etmədi. O, Rıkovun özünün Naxçıvan MSSR haqqında dediyi hər bir sözü göydə qapmış, yadında saxlamış, hətta onların deyildiyi ahəngi belə yaxından hiss etmişdi.

Dövlət işində uzunömürlü Bağırov nəyi düz hesablamadığını görmüş və böyük dövlət siyasəti naminə onun öz taleyinin təhlükə altında atıldığını dərk etmişdi. Kremlin tapşırığı ilə o, siyasi baxımdan mühüm strateji əhəmiyyət kəsb edən ucqar sovet əyalətini nəzərdən qaçıran günahkarların sırasına daxil edilə bilərdi.

Azərbaycanın digər yarıyuxulu liderlərindən fərqli olaraq, Bağırov son dərəcə ayıq və sayıqdır. O, çox güman ki, Naxçıvana göndəriləcək XÜSUSİ SƏLAHİYYƏTLİ hökumət komissiyasına başçılıq etmək üçün artıq böyük rəhbər İ.V. Stalinin özündən dəstək alıb.

Naxçıvan bəlalarının carçısı və onun vəziyyətinin baş ittihamçısı olmaq vəzifəsi Azərbaycanın partiya rəhbəri, AKP-nın katibi Ə. Qarayevə deyil, məhz ona, Bağırova – Xalq Komissarları Sovetinin sədr müavini və Azərbaycanın baş çekistinə etibar ediləcəkdi.

Öz ömrünü son gününədək Mircəfər Bağırov, məlum olduğu kimi, hər gün xan, bəy və müsavatçıların düşmən fitnəkarlığı barədə düşünməkdən yorulub usanmamışdır. O, hər bir səhvə, hətta sovet hakimiyyəti orqanlarının məsuliyyətsizliyi ucbatından baş verən səhvlərə belə siyasi don geyindirir, onlarda düşmən obrazı axtarırdı. Və indi Bağırovun əlinə, dərindən nifrət etdiyi köhnə dünya nümayəndələri ilə haqq-hesabını növbəti dəfə çürütmək üçün yeni bir fürsət düşmüşdü. Təcrübəli, hər şeyi ölçüb-biçən, özünü qorumağı və sudan quru çıxmağı çox gözəl bacaran Bağırov artıq Naxçıvan Respublikası üzərinə hücuma keçməyin səbəblərini formalaşdırırdı.

Naxçıvan MSSR-in təhqiqi üzrə dövlət komissiyasının gələcək sədri Bağırov artıq öz qüdrətini, öz inqilabçı çekist məharətini göstərməyə, dünya inqilabi işinə öz proletar sədaqətini sübut etməyə hazır idi. O, artıq şir kimi pusquda dayanaraq, bolşeviklər tərəfindən atılmış, sakit, ac, səfalət içərisində boğulan, başı çox bəlalar çəkmiş Naxçıvan diyarının – Naxçıvan Sovet Sosialist Respublikasının üstünə atılmağa hazır idi.

Möhkəm əqidəli, ali təhsilli ziyalı **Aleksey İvanoviç RIKOVDAN** fərqli olaraq, az təhsilli və mədəniyyətdən uzaq peşəkar çekist **Mircəfər BAĞIROVUN** təhqiq üsulu və bolşevik qayda-qanunu yaratmaq metodları quldur xarakteri daşıyırdı.

Lakin birdən-birə, gözlənilmədən dünyada kədərli hadisələr baş verdi. Təhqiq məsələsi bir müddət arxa plana keçdi. Bu kədərli hadisələr səkərək Azərbaycana da sıçradı.

## SOVET AZƏRBAYCANI QƏFLƏTƏN BÖYÜK VƏ UZUNMÜDDƏTLİ MART MATƏMİNƏ BÜRÜNDÜ

## ZAQAFQAZİYADA UZUNMÜDDƏTLİ MART MATƏMİ

Dünya proletariatının rəhbərləri bu dünyadan köçəndə Sovet İttifaqı Kommunist Partiyası bu, yeri doldurulmayacaq itkilər üçün həmişə uzun-uzadı göz yaşı töküb.

Kremldə hələ də dünya inqilabı barədə düşündükləri bir vaxtda Uzaq Şərqdən gələn kədərli xəbər bütün SSRİ mətbuatını gəzdi. Hələ də dünya inqilabının əməliyyat meydanı olaraq qalan Azərbaycanda da qəzet səhifələrində yer əsirgəmədən, dəfələrlə, təkrar-təkrar partiya üzvlərinə, bitərəf fəhlə və kəndlilərə, hərbiçilərə, Azərbaycanın kiçik ziyalı təbəqəsinə, hətta yeniyetmə və uşaqlara dünya proletariatının necə böyük itkiyə məruz qaldığından danışırdılar.

Martın 12-də səhər saat 5.30-da Pekində Cənubi Çin Respublikasının Prezidenti, Çin Xalq İnqilab Partiyası Qomindanın rəhbəri doktor **SUN - YAT-SEN** 59 yaşında vəfat etmişdi. Ölərkən şüuru tam şəkildə özündə olan Sun-Yat-Sen müasirlərinə və gələcək nəsillərə öz vəsiyyətini qoyub getmişdi: **“Mən, Çində bərabərlik və azadlığın təmin olunması naminə öz həyatımın 40 ilini milli inqilaba həsr etmişəm...**



**Bu məqsədə nail olmaq üçün biz kütlələri oyandırmalı və ümumi mübarizədə bizə bərabər münasibət bəsləyən bütün xalqlarla birləşməliyik.”**

Ölümündən qabaq o, son bəyanatını bildirmək üçün öz ailə üzvlərini yanına çağırmışdır: **“Mən sizə şəxsən mənə məxsus olan heç bir şey qoyub getmirəm. Əgər məndən sonra bircə sentim belə qalsaydı, özümü yalnız inqilaba əyləncə kimi baxan əclaf hesab edərdim.**

**Özümdən sonra sizə inqilabın ümumi mülkiyyəti olan bir işi miras qoyub gedirəm”**.

*(“Bakinski raboçi” qəzeti, 15 mart 1925-ci il, № 58)*

Bunun üstündən heç bir həftə keçməmiş, bundan sonra Uzaq Şərqdə dünya inqilabının həyata keçirilməsi işinin nə qədər uğurla davam etdiriləcəyi barədə bizim partiya liderlərimizin narahat düşüncələri hələ səngiməmiş, 1925-ci il martın 19-da Moskvada Sovet İttifaqının dörd rəhbərindən biri, yaxın keçmişdə Azərbaycan xalqının lideri olmuş **Nəriman NƏRİMANOV** qəflətən dünyasını dəyişdi.

Nəriman Nərimanovun ölümü dünya inqilabi hərəkatına, ancaq bu dəfə Yaxın Şərqdə ikinci bir zərbə vurdu.

Bu faciə barədə bolşevik “Pravda”sı dərhal nekroloq dərc etdi. Ən birinci nekroloq belə idi:

## N.NƏRİMANOVUN XATİRƏSİNƏ

Dünən axşamdan xeyli keçmiş redaksiya belə bir xəbər aldı ki, SSRİ MİK sədrlərindən biri, zəhmətkeşlərin dostu və yoldaşı, Azərbaycan fəhlə və kəndlilərinin sevimlisi yoldaş **N.NƏRİMANOV** qəflətən vəfat etmişdir. Bu yaxınlarda biz onu yubileyi münasibəti ilə təbrik etmişdik. Bir neçə gündən sonra isə ağır xəstəlik Azərbaycan zəhmətkeşlərinin rəhbərinin həyatına son qoymuşdur...

Biz dərin hüznlə yoldaş **NƏRİMANOVUN** vəfat etdiyini bildiririk. Şərq fəhlələri onun itkisi üçün göz yaşlarını axıdacaqlar. Ancaq bu, bizim üçün də ağır itkidir, çünki bizim böyük İttifaqımız belə insanlar sayəsində möhkəm dayanır.

Sənə son salamımızı göndəririk, köhnə inqilab keşikçisi!

*(“Pravda” qəzeti, 20 mart 1925-ci il № 64)*

O vaxt Bakı ilə Moskva arasında teleqraf xətti artıq saz işləyirdi, ancaq Nəriman Nərimanovun ölümü barədə faciəvi xəbəri Zaqafqaziya qəzetləri yalnız martın 22-də dərc etmişdilər. Çox qəribə və anlaşılmaz bir işdir. Bu kədərli xəbəri, ya Nərimanova bəslənilən ümumxalq sevgisi səbəbindən əhaliyə çatdırmağa tələsməmişdilər, ya da bu məsələdə mərhumun RK(b)P və Fəhlə-Kəndli Müfəttişliyi ilə faktiki olaraq bitməmiş qalan münaqişəsi öz rolunu oynamışdı.

Nəriman Nərimanovun Moskvaya gətirilməsi, daha böyük vəzifəyə təyin edilməsi ilə bağlı rəsmi şərhlər obyektiv deyil. Əslində Nərimanovu Azərbaycandan sıxışdırıb çıxarmışdılar.

Rusiya Dövlət Sosial Siyasi Tarix Arxivində (RDSSTA) Nərimanovun tam məxfi fondu saxlanılır, oradakı sənədlərdən məlum olur ki, Nərimanov 1922-ci ilin sonunda RK(b)P MK-nə "Bizim ucqarlardakı inqilabımızın tarixinə dair" adlı məruzə yazmışdır. Həmin məruzədə deyilir ki, Azərbaycanın fəaliyyətdə olan partiya rəhbərliyi Respublikanın sovetləşməsində Lenin xəttini (eləcə də onun, Nərimanovun qoyduğu xətti) təhrif etmişdir, Azərbaycanda partiya işi yoxdur, partiya daxilində çürümə gedir, Azərbaycan müsəlmanlarının rolu azaldılıb. Azərbaycanda erməni-rus-yəhudi təzyiqi mövcuddur, fəhlə müsəlmanların sıxışdırılması müşahidə olunur, onlar partiyadan çıxırlar, heç bir üzrlü səbəb olmadan xaric edilirlər. AKP BK-də katiblərin seçiminin varislik əsasında aparıldığı müşahidə olunur: "Mikoyan olmuşdu, Mikoyanı Sərkis əvəz elədi, Sərkisi – Mirzəyan, Mirzəyanı isə başqa biri əvəz edəcək və bütün bunlar müəyyən bir plan üzrə edilir". Məruzədə Orconikidze, Kirov və Mikoyana qarşı xüsusi iradlar var. Oconikidze "inqilabın xilasını ağız əzməkdə görür", "onun dövlətçilik ağlını həddən ziyadə qiymətləndirirlər", "Orconikidzenin nəzəriyyəsinə görə, əlbəttə, kiçik Azərbaycanın əhalisini sistematik şəkildə məhv etmək olar; bəs onda respublika kimlərdən ibarət olacaq?" "Mən bildirirəm ki, – Nərimanov yazır, – bir il əvvəl Azərbaycanda hakimiyyət (*Nərimanovun özü orada olanda* – qeyd R.İ.) Azərbaycan kütlələrinin Sovet hakimiyyətinə ümumi rəğbəti ilə dəstəklənirdi, ancaq hal-hazırkı dövrdə hakimiyyət yalnız süngü ilə dəstəklənir".

Məruzə ali partiya dairələrində bomba kimi partladı və İ. V. Stalinin göstərişi ilə Mərkəzi Komitənin və Mərkəzi Nəzarət Komissiyasının Y.E.Yaroslavski, Q.İ. Petrovski və M. F. Şkiryatovdan ibarət komissiyası 1923-cü ilin əksər hissəsini məruzənin müddəalarını yoxlamaqla məşğul oldu. Bu komissiyanın çoxsaylı iclaslarında, Orconikidze, Kirov və Mikoyan da daxil olmaqla Nərimanovun ittiham etdiyi partiya xadimləri iştirak edirdilər.



Nərimanov isə tək qalmışdı.

Komissiya 1923-cü il noyabrın 13-də keçirilən sonuncu iclasında qəti qərar qəbul etdi, bu qərarın məğzi bundan ibarət oldu ki, Nərimanov Azərbaycanda işlərin gedişatı barədə MK-yə qəsdən yalan məlumat verib, RKP MK-nin üzvləri, hazırda AKP MK-nə və AKP BK-nə rəhbərlik edən yoldaşlara – Orconikidze, Kirov və Mikoyana qarşı böhtan xarakterli ittihamlar irəli sürüb. Nərimanovun məruzəsi bütünlüklə tamamilə qeyri-kommunist millətçilik, ermənifobiya, yəhudifobiya və s. ruhunda yazılıb.

Komissiya yalnız öz hakimiyyətini bəyənən, vicdanlı partiya işçilərini təqib edən Nərimanovu Respublikaya rəhbərlik etmək üçün yararlı saymadı və qəti şəkildə Nərimanovun Azərbaycana qaytarılmamasını tövsiyə etdi. Eyni zamanda Mərkəzi Nəzarət Komissiyası öz partiya yoldaşlarına düzgün münasibət bəsləmədiyi və Respublikada işlərin gerçək vəziyyətini təhrif etdiyi üçün Nərimanova ciddi partiya töhməti verdi.

*(РГАСПИ, ф. 688, on. 2, д.д. 176 –178 )*

Hər şeydən belə görünür ki, Nərimanov MK və MNK-nın bu qədər sərt və haqsız qərarına tab gətirə bilməmişdi. Komissiyanın bu qərarından sonra Nərimanov ruhən möhkəm sarsılmış, bir il dörd aydan sonra qəflətən cismən ölmüşdü.

“Bakinski raboçi” qəzetinin bütün birinci səhifəsi qara matəm çərçivəsinə alınmışdı.

### “SSRİ MİK-NİN SƏDRİ YOLDAŞ NƏRİMAN NƏRİMANOV QƏFLƏTƏN VƏFAT ETMİŞDİR

Müraciət: **“Bütün SSRİ zəhmətkeşlərinə”, “Bütün fəhlə kişi və qadınlara, bütün həmkarlar ittifaqları üzvlərinə”.**

Hökumətin məlumatı: **"Moskva, 20 mart. SSR İttifaqı MİK-nin sədri Nəriman Nərimanov martın 19-da axşam saat 8.30-da ürək partlamasından qəflətən vəfat etmişdir.**

**Digər hökumət məlumatında bildirilir ki, Azərbaycan MİK-nin yoldaş Nərimanovun cənazəsinin dəfn edilmək üçün Bakıya gətirilməsi barədə xahişinə baxmayaraq, "SSRİ MİK-nin Rəyasət Heyəti yoldaş Nərimanovun son vaxtlar Moskvada fəaliyyət göstərdiyini və ümumittifaq əhəmiyyəti daşıdığını nəzərə alaraq, yoldaş Nərimanovun Moskvada, Qırmızı meydanda, fəhlə-kəndli işi uğrunda mübarizlərin qəbirləri yanında dəf edilməsinə qərar vermişdir"**.

*("Bakinski raboçi" qəzeti, 22 mart 1925-ci il, № 63)*

Nərimanovun tabutu İttifaqlar Evinin Sütunlu salonundan hökumət üzvləri və Şərq xalqları nümayəndələrinin çiynində dəfn yerinə, Noginin qəbrinin yanına gətirilərək, 1925-ci il martın 22-də saat 13.00-da qəbirə qoyulur.

Dərc olunmuş çoxsaylı başsağlıqları arasında Naxçıvandan göndərilənlər də vardır.

Başsağlıqları çoxdur, ancaq Naxçıvan Respublikasının fərdi xüsusiyyətlərə malik olduğunu bir daha sübut edən bu başsağlığı heç də başqalarına bənzəmir.

### Naxçıvan Respublikası zəhmətkeşlərinin 2-ci bitərəflər konfransı adından:

"**Naxçıvan Respublikası zəhmətkeşlərinin 2-ci bitərəflər konfransı SSRİ MİK-nin sədri və Şərqin rəhbəri, Şərqin cismani dünyasını tərk edərək, gələcək Şərq inqilabına vaxtından əvvəl sağalmaz yara vuran Nəriman Nərimanovun itkisi ilə əlaqədar dərin hüznlə başsağlığı verir. Mərhum rəhbərin böyük xidmətlərini qeyd edərək, konfrans söz verir ki, unudulmaz Nərimanın düz 30 il getdiyi sarsılmaz yolla addımlayacaqdır".**

*("Bakinski raboçi" qəzeti, 23 mart 1925-ci il, № 64)*

Nərimanovu Azərbaycan kəndlilərinin bayraqdarı hesab edirdilər. Türk dramaturqları və ədəbiyyatçılar arasında birincilər sırasında olan Nərimanov öz əsərlərində türk əhalisinin və bütün Şərqin oyanması üçün türk həyatının yeni təmayüllərini əks et-

dirərək, yoxsul kəndlilərə xüsusi diqqət yetirir, Azərbaycanda heç də sadə olmayan siyasi şəraiti və ağır iqtisadi durumu sağlamlaşdırmağa çalışırdı və dinc Azərbaycan əhalisinə qarşı güc tətbiq edilməsi qərarlarına qarşı çıxırdı.

Nərimanov martın 22-də Moskvada dəfn edildiyi gün Bakıda və Azərbaycanda heç bir matəm tədbiri nəzərdə tutulmamışdı. Sabahı gün yalnız "Bakinski raboçi" qəzetində onun dəfni barədə xırda bir xəbər, həmçinin "Nərimanovun xatirəsinə" kiçik oçerk dərc olunmuş və matəm çərçivəsində 5 başsağlığı verilmişdi, üç gündən sonra isə "Nərimanovun xatirəsinə" kiçik bir yazı ilə onun ölümü haqqında yazılanlara son qoyulmuşdu. Nərimanovun ölümündən sonra onun ölüm səbəbi barədə akt dərc olunmamışdır.

Bütün dünyada hamılıqla qəbul olunmuş bir ənənə var – ölümlə əlaqədar müəyyən kədər, hüzn ifadə edilir. Burada siyasətə, sanki heç bir ehtiyac yoxdur. Ancaq allahsız bolşeviklər bu ənənəni qəbul etmirdilər və bəzən ölüm faktı onları dəlicəsinə sevindirə, nəşələndirə bilərdi.

"London, 20 mart. Martın 20-də səhər tezdən ingilis hökumətinin üzvü, gizli şuranın sədri, Böyük Britaniyanın keçmiş xarici işlər naziri lord **KERZON** vəfat etmişdir".

Bütün bolşevik mətbuatı kimi, Bakı qəzetləri də açıq-aşkar sevinc içərisində yazırdı:

> "...Sovet Sosialist Respublikaları İttifaqının qatı düşməni – lord Corc Nataniel Kerzon, markiz Of-Kedlston öldü. O, sovetlərin yadında daha çox 1923-cü ildə məşhur ultimatumu ilə imperialistləri Sovet İttifaqının üzərinə hücuma keçməyə təhrik etməsi ilə qalmışdır."
>
> *("Bakinski raboçi" qəzeti, 22 mart 1925-ci il, № 63)*

Lakin bolşeviklərin lord Kerzonun ölümü ilə əlaqədar yaşadıqları sevinc çox da uzun sürmədi.

Nəriman Nərimanovun ölümündən düz üç gün sonra Zaqafqaziyada böyük faciə baş verdi və "Bakinski raboçi" qəzetinin bütöv səhifəsi qara çərçivəli matəm xəbəri ilə çıxdı:

**"ZAQAFQAZİYA MATƏM İÇİNDƏDİR".**

Nəriman Nərimanov Moskvada dəfn edildiyi gün saat 12.10 dəqiqədə Didubi aerodromu (Tiflis ətrafında) yaxınlığında "Yunkers" aeroplanı qəzaya uğramışdı. Qəza nəticəsində ekipaj üzvlərindən əlavə, ZSFSR Xalq Komissarları Sovetinin sədr müavini, SSRİ MİK Rəyasət Heyətinin, SSRİ və Qırmızı Qafqaz Ordusu Hərbi İnqilab Şurasının üzvü **Aleksandr Fyodroviç MYASNİKOV,** Zaqafqaziya Fövqəladə Komissiyasının sədri **Solomon Qriqoryeviç MOGİLYEVSKİ**, ZSFSR Fəhlə-Kəndli Müfəttişliyi xalq komissarının müavini, SSRİ və ZSFSR Poçt-Teleqraf Xalq Komissarlığının müvəkkili **Georgi Aleksandroviç ATARBEKOV** faciəvi surətdə həlak olmuşdular.

Onların ölümü ilə bağlı mətbuatda verilən təfsilatlara nəzər salaq. Saat 11.20 dəqiqədə Tiflis ətrafında təxminən 300 metr hündürlükdə uçan "Yunkers" təyyarəsinin sol qanad tərəfdən birdən tüstüyə büründüyünü, sonra sərt şəkildə istiqamətini dəyişdiyini, 7-8 metr qalanda isə üfüqi vəziyyətdə yerə çırpıldığını görmüşdülər. Həmin anda, həmçinin təyyarədən iki nəfərin yerə atıldığı da görünmüşdü. Yerə atılanlar yoldaş Mogilyevski və yoldaş Atarbekov olmuşdu.

Təyyarə zərblə yerə dəyəndən sonra onun iki benzin bakı partlamış, hər yan alova bürünmüşdü. A.F.Myasnikov təyyarədə diri-diri yanmışdı.

*("Bakinski raboçi" qəzeti, 24 mart 1925-ci il, № 65)*

Bu üç rəhbərin ölümü ilə bağlı ekspert komissiyasının müfəssəl aktı mətbuatda dərc olunmuş, onların ölümünə təyyarə mühərrikinin nasazlığının səbəb olduğu göstərilmişdi.

O biri dünyaya köçənlər haqda nəsə pis bir şey danışmaq doğru deyil, biz də Nəriman Nərimanovla Zaqafqaziyanın bu üç rəhbərinin ölümünə müqayisəedilməz dərəcədə fərqli matəm ehtiramı göstərildiyinin detallarına girmək istəməzdik.

Ancaq Myasnikov, Atarbekov və Mogilyevskinin ölümü, onların xidmətləri və əvəzedilməz itki olduqları barədə məlumatlar martın 31-dək qəzet səhifələrindən əksik olmadı. Ehtiram tədbirləri təkcə bununla bitmirdi.

Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin və ZSFSR Xalq Komissarları Sovetinin 2 №-li, 22 mart 1925-ci il tarixli qərarına əsasən Bakı Soveti xüsusi qərar çıxarmışdı.

## BAKI SOVETİNİN RƏYASƏT HEYƏTİ QƏRARA ALIR:

1. Bakı şəhərinin, onun rayonlarının və qəzanın bütün ərazisində Myasnikov, Atarbekov və Mogilyevski yoldaşların faciəvi ölümü münasibəti ilə bütün dövlət və ictimai müəssisə və təşkilatların binala - rında martın 22-dən 25-nə qədər matəm bayraqları qaldırılsın.

2. Martın 25-də gündüz saat 1-də Bakı şəhərinin, onun rayonlarının və qəzanın bütün ərazisində yerləşən bütün dövlət və ictimai müəssisə və təşkilatlarında, fabriklərdə, zavodlarda iş dayandırılsın, həmçinin bütün mağazalar, köşklər, bazarlar və restoranlar bağlansın.

3. 22, 23, 24 və 25 mart günləri Bakı şəhəri və Bakı qəzasının bütün ərazisində matəm günləri elan olunsun.

4. Göstərilən günlərdə Bakı şəhərinin, onun rayonlarının və qəzanın bütün ərazisində konsert, tamaşa və hər cür digər bu tip tədbirlərin keçirilməsi ləğv edilsin.

*("Bakinski raboçi" qəzeti, 23 mart 1925-ci il, № 64)*

Zaqafqaziya qəzetləri başsağlıqları ilə dolu idi, bu barədə çox sayda materiallar dərc edilirdi. "Bakinski raboçi" qəzetinin təkcə iki nömrəsində (23 və 24 mart) bu münasibətlə, xüsusilə də Myasnikovun ölümü ilə əlaqədar 31 başsağlığı verilmişdi.

Myasnikov, Atarbekov və Mogilyevski yoldaşlar rəhbər adlandırıldılar və onlar xüsusi təmtəraqla dəfn edildilər.

Bu görünməmiş matəm ehtiramları fonunda AKP orqanında hər halda növbəti başqa bir nekroloq və matəm çərçivəsi üçün də yer tapıldı.

Martın 22-də İtaliyada, Genuya yaxınlığında müalicədə olan SSRİ Ali Xalq Təsərrüfatı Şurasının sədr müavini yoldaş **Miron Konstantinoviç VLADİMİROV** 55 yaşında vəfat etdi.

İçərisində onun külü olan urna Moskvaya göndəriləcək və Vladimirov Kreml divarında dəfn ediləcəkdi.

*("Bakinski raboçi" qəzeti, 25 mart 1925-ci il, № 66)*

Əhalini M.K.Vladimirovun keçmiş xidmətləri barədə məlumatlandırmaq baxımından vaxt açıq-aşkar münasib deyildi. Zaqafqaziya rəhbərlərinin ölümü ilə əlaqədar nəzərdə tutulan matəm tədbirlərinə nəsə bir düzəliş etmək olmazdı və bu mümkün də deyildi. Bu tədbirlərin isə sonu görünmürdü.

“Bakinski raboçi” qəzeti martın 25-də Bakıda matəm nümayişi və matəm yürüşü keçiriləcəyini elan etdi:

Çərşənbə günü, cari ilin mart ayının 25-də, Zaqafqaziya proletariatı və zəhmətkeşlərinin faciəvi surətdə həlak olmuş rəhbərlərinin dəfn edildiyi gün Bakı rayonlarından, ali və orta məktəblərdən, ordu və donanmadan altı qrupun nümayişi təyin edilir.

Ordu və donanmadan olan qrupa Azərbaycan diviziyasının komandiri və Bakı qarnizonunun rəisi **CƏMŞİD NAXÇIVANSKİ** başçılıq edirdi.

Bu matəm təbiri ilə əlaqədar Azərbaycan hakimiyyəti Bakı qarnizonunun rəisinə Bakı qarnizonu üzrə müvafiq əmr verməyi tapşırmışdı.

## BAKI ŞƏHƏRİ VƏ ONUN RAYONLARI ÜZRƏ ƏMR

### 25 mart 1925-ci il

1. Şənbə gününə, SSRİ və Qırmızı Qafqaz Ordusu Hərbi İnqilab Şurasının faciəvi surətdə həlak olmuş üzvü yoldaş Myasnikovun, Zaqafqaziyanın Poçt-Teleqraf Xalq Komissarı yoldaş Atarbekovun və Zaqafqaziya Fövqəladə Komissiyasının sədri Mogilyevskinin dəfn ediləcəkləri günə matəm nümayişi təyin edilir.
2. Bakı qarnizonunun bütün qoşun hissələri nümayişdə iştirak etsin.
3. 3-cü ərazi alayının komandiri yoldaş Petrov nümayişin rəhbəri təyin olunur.
4. Toplanış məntəqəsi Petrov meydanıdır.
5. Qoşun hissələri bütün bayraqları, süngüyə keçirilmiş matəm bayraqcıqları və orkestrlə birlikdə Petrov meydanına gəlsinlər və orada komendant yoldaş Vasilkinin göstərişinə əsasən düzülsünlər.
6. Düzülüş saat 12.40-da başa çatdırılsın.
7. Nümayiş saat 13.15-də başlanacaq.
8. Geyim forması qarovul (şineldə) formasıdır, Xəzər Dəniz Donanması üçün isə 4 №-li formadır.
9. Süvarilər və artilleriyaçılar atlı sırada olsunlar.
10. Hərbi hissələr Azadlıq meydanının yanından keçərək, Malakan, Kolubyakin, Əyri, Kommunist küçələri üzrə hərəkət edir, İranlı küçəsinə çıxdıqdan sonra kazarmalara dağılışırlar.
11. Dəfn anında saat 2-də 2-ci diviziyanın artilleriya alayı hər

batareya üzrə, 3-4 dəqiqəlik fasilələrlə altı yaylım açsın.

12. Xəzər Gəmiçiliyi İdarəsi ilk yaylım atəşi anında bütün gəmilərdə fit çalınmasını təmin etsin.

Bakı Qarnizonunun rəisi **NAXÇIVANSKİ**
Hərbi komissar **NEMERZELİ**
Şəhərin komendantı **VASİLKİN-BEKDEMİROV**
*(“Bakinski raboçi” qəzeti, 25 mart 1925-ci il, № 66)*

Belə təsəvvür yaranır ki, kimsə Nərimanovun şəxsiyyəti haqqında məlumatları mətbuatdan sıxışdırıb çıxarmaq üçün Myasnikov, Mogilyevski və Atarbekovun ölümünə həsr olunan matəm materiallarının bolluğunu qəsdən planlaşdırıb. Bu situasiyada “Bakinski raboçi” qəzetinin SSRİ-nin dörd rəhbərindən birinin, Yaxın Şərqdə dünya inqilabının nəzəriyyəçisi, V.İ.Leninin yaxın silahdaşı, SSRİ dövlətinin Olimp zirvəsinə, hətta Zaqafqaziya Federasiyanın görkəmli xadimlərinin xeyrinə olmasa belə, Azərbaycandan yüksələn Nəriman Nərimanovun vəfatı ilə bağlı materialların dərcini süni şəkildə ixtisar etməsi bizə mənəviyyatsızlıq kimi görünür. Axı Nəriman Nərimanov Azərbaycanın böyük rəhbəri idi.

Nə isə, Naxçıvan Muxtar Respublikasının üzərinə qayıdaq. Matəm günlərində AKP və Azərbaycan Xalq Komissarları Soveti Naxçıvan MSSR-ə qarşı öz bədxah niyyətlərini açıqlamadan, təcili və məxfi qaydada respublikanın təhqiq olunması üzrə dövlət komissiyası hazırladı. Komissiyanın, matəm tədbirləri başa çatmamış Naxçıvana qəfil basqını nəzərdə tutulurdu.

Nəriman Nərimanov sağ olsaydı, bəlkə də elə həmin A.İ.Rıkov vasitəsi ilə Naxçıvan MSSR ilə bağlı ağıllı və faydalı bir qərar çıxarılmasına nail ola bilərdi. Hərçənd, Nəriman Nərimanovun çox asanlıqla, Naxçıvan xalqının rəyini soruşmadan, daşnak hücumlarından min cür zülm görmüş bu diyarı Sovet Ermənistanına hədiyyə etdiyini də xatırlayırıq. Ancaq bu hadisə 1920-ci ildə olmuşdu.

RK(b)P MK və Mərkəzi Nəzarət Komissiyası ilə çəkişmədən sonra Nəriman Nərimanov ermənilərin Sovet Azərbaycanında sovet hakimiyyəti quruculuğuna zərərli təsirini dərk etmiş, erməni

bolşeviklərinin Azərbaycan SSR-dəki siyasətini və niyyətlərini anlamışdı. 1925-ci ildə Moskvada olarkən onun Naxçıvan MSSR-ə münasibəti M.Bağırovun Naxçıvan ssenarisini dəyişdirə bilərdi.

A.F.Myasnikovun da faciəli ölümü baş verməsəydi, M.Bağırov: *eşələmək, axtarmaq, tapmaq, həbs eləmək, güllələmək və yaxud həbsxanaya soxmaq* kimi öz adi çekist üsullarını qədim Naxçıvan üzərində bir daha nümayiş etdirmək xoşbəxtliyindən məhrum olardı. Bununla bağlı oxuculara, A.F.Myasnikovun martın 12-də Azərbaycan Sovetlərinin Zaqafqaziya Federasiyanın 3-cü ildönümünə həsr olunan IV Qurultayının birləşmiş iclasında Naxçıvan MSSR barədə söylədiyi geosiyasi düşüncələri (bəlkə də planları) xatırlatmaq yerinə düşər. Həmin ifadənin yalnız bir hissəsinə diqqət yetirək: Naxçıvan diyarı **"...digər respublikaların gücünü, Gürcüstanın və Ermənistanın gücünü..."** hiss etməlidir. Zaqafqaziyanın partiya liderinin, Moskvada SSRİ MİK-nin nüfuzlu üzvünün həmin çıxışında Azərbaycanın adı qəsdən çəkilməyib. Myasnikovun bununla nə demək istədiyini yalnız güman etmək olar: yəni**, "Əgər Azərbaycan bu "bir kənara atılmış bucağa" – Naxçıvan diyarına diqqət yetirməyə və resurs sərf etməyə qadir deyilsə və yaxud bunları eləmək istəmirsə, onda o öz arxasında Zaqafqaziyanın digər respublikalarının, xüsusilə də Ermənistanın gücünü hiss edəcəkdir"**.

Ermənistanın mənafelərinin müdafiəçisi olan Myasnikova, müstəsna dərəcədə faydalı olan bu situasiyanı Ermənistanın xeyrinə istifadə etmək üçün bəlkə də iki-üç gün çatışmadı. Yeri gəlmişkən, tarixi hadisələrin şərhində "bəlkə"lərə istinadən nəticə çıxarmaq da çox riskli işdir.

İndi isə artıq M. Bağırovun, xalq arasında deyildiyi kimi, əl-qolu açılmışdı.

Bu komissiyanın fövqəladəliyini vurğulamaq və yüksək səlahiyyətlərə malik olduğunu qeyd etmək (əslində isə, onun qanunsuz əməllərinə haqq qazandırmaq) üçün Naxçıvan Muxtar Respublikasının təhqiqi üzrə Komissiyanın adına əlavə bir **XÜSUSİ** sözü də artırılmışdı.

## 12 №-Lİ MAVİ VAQONDA ŞƏR ƏMƏL ORCONİKİDZEDƏN – BAĞIROVA: "TAM QƏTİYYƏTLƏ HƏRƏKƏT ETMƏK LAZIMDIR"

Martın 29-da nəhayət Zaqafaziya və Bakı mətbuatında həlak olanları tanıyan bütün insanlara başsağlığı vermək imkanı yaradan nəhəng qara matəm çərçivələri qəzet səhifələrindən yığışdırıldı. Matəm kampaniyası başa çatdı.

Uzunmüddətli matəm kampaniyası, sanki, Xalq Komissarları Sovetinin sədri A.İ. Rıkovun bu yaxınlarda Naxçıvan MSSR-dəki "sovet nizamsızlığı" barədə emosional çıxışının unudulmasına səbəb olmuşdu, lakin martın 30-da "Bakinski raboçi" qəzeti "Xronika" adlı çox da iri olmayan bir rubrika altında qısa bir xəbər dərc etdi.

### NAXÇIVAN DİYARININ TƏHQİQİ

**Martın 28-də Bağırov, Qarayev, Qorobçenko və Dövlətovdan ibarət olan və Bağırovun rəhbərlik etdiyi xüsusi komissiya Naxçıvan diyarını təhqiq etmək üçün Bakıdan Naxçıvana yola düşmüşdür. Tiflisdə komissiyaya Zaqafqaziya hökumətinin daha iki üzvü qoşulacaqdır.**

*("Bakinski raboçi" qəzeti, 30 mart 1925-ci il, № 70)*

Xırda olsa da, bu rəsmi məlumat, onda Bağırov soy adının da göstərildiyinə görə, açıq-aşkar təhdid və qorxu püskürürdü, bəlkə də bu bizim subyektiv təsəvvürümüzdür. Buna görə də gəlin, qabaqcadan seçilən bir "komanda"nın ac Naxçıvana qeyri-xeyirxah məqsədlə yollanması fikrini inkar edək.

Bir anlığa təsəvvür edək ki, Komissiya Naxçıvan MSSR Xalq Komissarları Soveti və AKP-nın Diyar Komitəsi ilə xeyirxah bir şəraitdə Respublikanın fəlakətli vəziyyətdən çıxarılması yollarını müzakirə etmək niyyətindədir. Gözü yaşlı bolşevik

yoldaş Bağırov isə buradakı xarabalıqları və viranəliyi, ac naxçıvanlıları görəndə beş ildir Naxçıvanda sovet hakimiyyəti mövcud olduğu halda Azərbaycan hökumətinin kömək üçün öz qardaş kommunist əlini indiyədək nə səbəbə bu diyara uzatmadığı barədə böyük hay-küy qaldıracaqdır. Komissiya Naxçıvan MSSR rəhbərliyi ilə birlikdə Azərbaycan SSR Xalq Komissarları tərəfindən təsdiq edilmək və dərhal həyata keçirilmək üçün görüləcək təcili tədbirlərin siyahısını hazırlayacaqdır. Mətbuat isə Komissiyanın bir həftəlik məhsuldar işindən sonra xalq daxili işlər komissarı M. Bağırovun başçılıq etdiyi Komissiyanın Naxçıvan MSSR və Azərbaycan SSR arasında qarşılıqlı anlaşma və mehriban dostluq şəraitində işlədiyini qeyd edəcəkdir.

Onu da qeyd edək ki, Komissiyanın Naxçıvan istiqamətində hərəkəti barədə ictimaiyyətə, İngiltərədə sevimli kraliçanın və yaxud Admirallığın birinci lordunun səfərləri barədə əhaliyə məlumat verildiyi kimi, addımbaaddım xəbər verilirdi. Bu nə üçündü?

İngiltərənin, tam anlaşılmayan bu böyük ada dövlətinin öz qayda-qanunları var, britaniyalılar Krallığın birinci dərəcəli möhtərəm şəxsiyyətlərinin bir yerdən başqasına hərəkət etmələri barədə xəbər verməyi çox xoşlayırlar. Bu şəxsiyyətlər, çox güman ki, harasa ona görə gedirlər ki, sonra mətbuat hansısa əlamətdar bir fakt barədə məlumat yaysın.

Biz – İngiltərə deyilik. Biz proletar dövlətiyik. Bağırov kimi şəxsiyyətlər isə oraya gizli niyyətlə – qırmızı rəngə bürünərək Sovet Naxçıvanında yuva salmış antisovet naxçıvanlıları qəfil iş başında yaxalamaq üçün gedirlər. Kimisə dərhal həbs edib güllələmək, digərlərini həbsxanaya atmaq və yaxud Naxçıvandan sürgün etmək planlaşdırılıb. Gəlin Bağırov komissiyasının basqınını P.İ. Çaykovskinin *"Qu gölü"* baletindəki qu quşlarının rəqsi ilə eyniləşdirməyə çalışaq. Bu zaman qu quşları qismində naxçıvanlılar çıxış edəcək, Bağırovun komissiyası isə həmin səhnədə iblis rolunu oynayacaqdır.

Real situasiyanı isə təhlil etsək, görərik ki, Azərbaycan xronikası ictimaiyyəti qəsdən bu cür məlumatlandırırdı: yəni, *"Qoy*

*Azərbaycan xalqı bilsin ki, proletar hakimiyyətinin təntənəsi uğrunda xanlara, bəylərə və digər istismarçılara qarşı mübarizənin tanınmış qəhrəmanı, xalq komissarı yoldaş Bağırovun başçılığı altında qorxunc bolşevik ədaləti "itaətsiz, xan" Naxçıvanına yollanır."*

## NAXÇIVAN DİYARININ TƏHQİQİ KOMİSSİYASI

Naxçıvan diyarının təhqiqi üzrə Bakıdan çıxan komissiya dünən Tiflisdən Naxçıvana yola düşmüşdür. Komissiyanın "Bakinski raboçi" qəzetinin dünənki nömrəsində dərc edilən tərkibinə Tiflisdə Zaqafqaziya hökumətindən Yaqubov və Kvantaliani yoldaşlar qatılmışlar.

*("Bakinski raboçi" qəzeti, 31 mart 1925-ci il, № 71)*

Məlum olmayan səbəblərə görə yoldaş Yaqubov Naxçıvana gedərkən yolda onlardan geri qalmış və komissiyanın işində iştirak etməmişdir.

İndi isə Naxçıvan SSR-in əksinqilabçıların əlindən alınması və orada sovet sosialist respublikası statusuna uyğun sovet hakimiyyəti üsul-idarəsinin tətbiq olunması işinin etibar edildiyi hökumət komissiyası üzvlərinin vəzifəcə kimlərdən ibarət olduğunu oxucuya bir daha izah edək.

Öz çoxdankı məqsədinə çatmaq üçün itaətsiz və müstəqil, "xan-bəy, müsavat" Naxçıvanına gedərkən, Mircəfər Bağırov hələ yolda ikən Azərbaycan MİK, Azərbaycan Xalq Komissarları Soveti və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Naxçıvanda sovet hakimiyyətini bərpa etmək üçün oraya kimləri göndərdiyini Naxçıvan SSR rəhbərliyinə, ən yoxsul, ev-eşikdən və gündəlik azuqədən məhrum olunmuş kəndli də daxil bütün Naxçıvan xalqına elan etməyə hazırlaşırdı.

Naxçıvan SSR-dəki vəziyyəti öyrənmək və təhqiq etmək üçün Azərbaycan Xalq Komissarları Sovetinin sədr müavini yoldaş **BAĞIROVUN** başçılığı altında aşağıdakı tərkibdə komissiya göndərilmişdi: AKP Mərkəzi Komitəsinin katibi yoldaş **QARAYEV**, Zaqafqaziya Fövqəladə Komissiyasının sədr müavini yoldaş **KVANTALİANİ,** AKP Mərkəzi Nəzarət Komissiyasının məsul katibi yoldaş **QOROBÇENKO,** Azərbaycan Fəhlə-Kəndli

Müfəttişliyi xalq komissarının müavini yoldaş **DÖVLƏTOV.**

Bu qədər nüfuzlu komissiya vaxtını boş yerə keçirməmişdi. Xalq Komissarları Sovetinin sədr müavini, eyni zamanda xalq daxili işlər komissarı və Azərbaycan Fövqəladə Komissiyasının sədri olan M. Bağırova çox böyük səlahiyyətlər verilmişdi. Onun özündən aşağı vəzifədə olan istənilən vətəndaşı həbs etmək ixtiyarı var idi və bu zaman o öz əməlini əsaslandırmağı çox yaxşı bacarırdı. Lakin, sanki, bu qədər səlahiyyət onun üçün az idi. O, acizanə surətdə Zaqafqaziya MİK-nin katibi **G.K.ORCONİKİDZEYƏ** müraciət edirdi:


ТИФЛИС ЗАККРАЙКОМ т.ОРДЖОНИКИДЗЕ

ИЗ НАХИЧЕВАНИ

Коммиссия решила и просит снять и заменить Гашемова секретарем Геокчайского укома Аскером Шахбазовым,Наркомзема Махмуд Бекова тире Завземотделом Агдамского Хасаевым,Наркомюста Курбанова тире Завогитотделом Сальянского укома Дадашевым,Предокрсуда Шеради-Заде тире Юсуповым ,НКВД Бабаева тире Самед-Заде,Наркомпроса Гасан-Заде тире Гусейном Мусаевым,Предпрофбюро Махмудова тире просьбой АСПС оставить Керимова,Уполнаркомфина Дадаева просьбой Заккрайкома прислать Абасова Саламана,Замнаркомпроса Мушеева снять заменить Петросьяном назначением последнего одновремменно Заворготделом Нахкрайкома /искажено несколько слов/Агерлинского заменить Азизовым из Баксоюза, Завкомунхозом Аюева тире Аман-Улла-Заде тчк 3 апреля 25 года нр 8/ш
БАГИРОВ

ВЕРНО:АСМУС

**TİFLİS, ZAQAFQAZİYA DİYAR KOMİTƏSİ,**
**yoldaş ORCONİKİDZEYƏ NAXÇIVANDAN**

Komissiya qərara almışdır və Həşimovun işdən çıxarılaraq və Göyçay qəza komitəsinin katibi Əsgər Şahbazovla, xalq torpaq komissarı Mahmudbəyovun – Ağdam torpaq şöbəsinin müdiri Xasayevlə, xalq ədliyyə komissarı Qurbanovun – Salyan qəza komitəsi təşviqat şöbəsinin müdiri Dadaşovla, dairə məhkəməsinin sədri Şaradizadənin – Yusifovla, xalq daxili işlər komissarı Babayevin – Səmədzadə ilə, xalq maarif komissarı Həsənzadənin – Hüseyn Musayevlə əvəz olunmasını, Həmkarlar bürosunun sədri Mahmudovun yerinin – AHİŞ-in xahişi ilə Kərimova saxlanmasını, xalq maliyyə komissarlığının müvəkkili Dadayevin yerinə – Zaqafqaziya Diyar Komitəsinin xahişi ilə Salman Abbasovun göndərilməsini, xalq maarif komissarının müavini Munşiyevin

işdən çıxarılaraq Petrosyanla əvəz edilməsini, sonuncunun eyni zamanda Naxçıvan Diyar Komitəsi təşkilat şöbəsinin müdiri təyin olunmasını (bir neçə söz təhrif olunub), Anerlinskinin Bakı Sovetindən Əzizovla, kommunal təsərrüfat şöbəsinin müdiri Ayuyevin – Əmənullazadə ilə əvəz olunmasını xahiş edir.

3 aprel 25-ci il, nömrə 8ş
**BAĞIROV**
DÜZDÜR: İmza **ASMUS**

Sabahı gün həmin ünvana daha bir teleqram göndərilir:


2

ТИФЛИС ЗАКЧЕКА

ТИФЛИС НАХИЧЕВАНИ

Передать Орджоникидзе . Комиссия постановила снять с советучреждении из пределов НахКрая крупных Беков Ханов полицеиских пока три пять человек. Необходима присылка для замены их работниками в качестве:Предсельско хоз банка,Замнаркомзема,Завкоммунхозом ,Нарследователя,Предуправбюро уезда, Предсоюза батраков,Завуправакциза,Начгормилиции,Начмилиции Республики. Просим срочно отправить работников. № 10/ш 4 Апреля 1925г Б А Г И Р О В

Вх. 304
5 Апреля 25г

**TİFLİS ZAQAFQAZİYA FÖVQƏLADƏ KOMİSSİYASINA,**
**TİFLİS NAXÇIVANDAN**
**ORCONİKİDZEYƏ ÇATDIRMALI**

Komissiya iri bəyləri, xanları, polisləri, hələlik 35 nəfəri sovet müəssisələrində işdən çıxarıb, Naxçıvan diyarının hüdudlarından uzaqlaşdırmaq barədə qərar çıxarmışdır.

Onları: kənd təsərrüfatı bankının sədri, xalq torpaq komissarının müavini, kommunal təsərrüfat şöbəsinin müdiri, xalq müstəntiqi, qəza idarəsi bürosunun sədri, muzdurlar ittifaqının sədri, aksiz idarəsinin müdiri, şəhər milisinin rəisi, Respublika milisinin rəisi vəzifələrində əvəz etmək üçün işçilər göndərmək lazımdır. İşçilərin təcili göndərilməsini xahiş edirik.

№ 10/ş 4 aprel 1925-ci il. **BAĞIROV**
İmza **ASMUS**

Bu xahişlərin Serqo Orconikidzeyə, komissiya işə başlamazdan əvvəl, yəni 1925-ci il martın 31-dək göndərilmədiyinə diqqət yetirək. Onlar Xüsusi Komissiyanın fəaliyyətinin sonlarında, qanunsuz törədilən əməlləri təsdiq etmək tələb olunanda göndərilib. Orconikidze üçün Komissiyanın onun səlahiyyəti arxasında gizlənmək istədiyini başa düşmək çətin deyildi. Bu halda yüksək səviyyəli rəhbər bu qədər məsuliyyətli bir qərar vermək üçün ən azı Xüsusi Komissiyanın gördüyü işin nəticələrini tələb etməli idi. Ancaq belə olmamışdır.

Serqo Orconikidze Mircəfər Bağırova hər cəhətdən inanırdı. Orconikidze bilirdi ki, Bağırovun arxasında yoldaş Koba dayanıb. Zaqafqaziya Federasiyası partiya rəhbərinin cavab teleqramı çox qısa idi:


Согласен. Необходимо действовать со всей решительностью. №614/с

***RAZIYAM. TAM QƏTİYYƏTLƏ HƏRƏKƏT ETMƏK LAZIMDIR. ORCONİKİDZE***

**№ 614 5 aprel 1925-ci il**

*(РГАСПИ, ф. 85, Орджокинидзе, оп. 25, д. 522.)*

# NAXÇIVAN DİYARININ TƏHQİQİ ÜZRƏ XÜSUSİ KOMİSSİYANIN MƏRUZƏSİ

**ZAQAFQAZİYA DİYAR KOMİTƏSİNİN KATİBİ SERQO ORCONİKİDZEYƏ GÖNDƏRİLMİŞDİR**

**NAXÇIVAN – APREL 1925-ci il.**



В. Секр. Зак. Кр. РКП.
т. Серго Орджоникидзе

Комиссия по обследованию
Наккрая

9/II 26 г. [illegible] [illegible]

[illegible]

Квиринг

**“Tamamilə məxfidir”**

# NAXÇIVAN DİYARININ TƏHQİQİ ÜZRƏ XÜSUSİ KOMİSSİYANIN MƏRUZƏSİ

**NAXÇIVAN – 1925**

*РГАСПИ,*
*ф. 85, (Г. К. Орджоникидзе), оп. 25, д. 522, лл. 1-174*

## MÜNDƏRİCAT


GİRİŞ........................................................................................145
I. TARİXİ-COĞRAFİ İCMAL..............................................151
II. PARTİYA-SİYASİ VƏZİYYƏT.......................................156
III. HƏMKARLAR İŞİ...........................................................182
IV. SOVET APARATI
Sovetləşmə tarixi..............................................................184
İnzibati bölgü.....................................................................184
Aparatın strukturu.............................................................185
Aparatın dəyəri..................................................................187
Aşağı aparat.......................................................................187
Xalq Ədliyyə Komissarlığı................................................192
Siyasi Büro və sərhəd dəstəsi............................................194
Nəzarət...............................................................................195
Xalq maarifi........................................................................195
Səhiyyə...............................................................................199
Xalq Əmək Komissarlığı Müvəkkilliyi............................201
İctimai təminat ..................................................................202
Kəndli komitələri...............................................................203
Qaçqın məsələsi.................................................................204
V. İQTİSADİ VƏZİYYƏT......................................................206
1. Ümumi icmal..................................................................206
2. Əkinçilik.........................................................................211
Su məsələsi.........................................................................211
Yer quruluşu.......................................................................215
Pambıqçılıq.........................................................................218
İpəkçilik..............................................................................224
Çəltik əkini.........................................................................225
Bağçılıq...............................................................................227

Üzümçülük və şərabçılıq....................................................228
Heyvandarlıq....................................................................229
Baytarlıq .........................................................................230
Aqronomik yardımın vəziyyəti...........................................231
Əkinçilik üzrə ümumi nəticələr...........................................232
3. Maliyyə.........................................................................233
Büdcə...............................................................................233
Naxçıvan XKS-nin material-təsərrüfat hissəsi......................237
4. Vergi işi.........................................................................238
Vahid kənd təsərrüfatı vergisi............................................240
Yerli vergilər.....................................................................241
5. Kooperasiya...................................................................242
Kənd təsərrüfatı kooperasiyası............................................242
Naxittifaq..........................................................................243
6. Kənd təsərrüfatı krediti...................................................244
7. Sənaye...........................................................................248
Naxçıvan duz idarəsi..........................................................248
Pambıqtəmizləmə zavodları................................................252
8. Yerli təsərrüfat...............................................................252
VI. NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR.......................................256
VII. ƏLAVƏLƏR.................................................................277
Vərəqə – 2.........................................................................278
Protokol – 1–13.................................................................283
Bakıdan və s. yerlərdən gələn işçilərin siyahısı.................... 333

## GİRİŞ

Həm ərazisi, həm də əhalisinin sayı baxımından nisbətən kiçik ölçülərinə baxmayaraq, Naxçıvan Respublikası bizim böyük Sovet İttifaqı, xüsusilə də Zaqafqaziya və Azərbaycan üçün mühüm siyasi əhəmiyyətə malikdir.

Coğrafi, tarixi və milli soy əlamətlərinə görə Yaxın Şərqin iki iri qonşu müsəlman ölkəsi ilə, yəni Türkiyə və İranla sıx bağlı olan Naxçıvan Respublikası müəyyən mənada Sovet İttifaqı ilə Şərqin təmas xəttində yerləşir və Türkiyə və İran xalqlarının gözündə sovet quruluşunun göstəricisi rolunu oynayır.

Naxçıvan Respublikasına, onun vəziyyətinə, Naxçıvandakı sovet quruluşuna əsasən Türkiyə və İran kəndliləri Fəhlə-Kəndli hakimiyyətinin və Kommunist Partiyasının əhəmiyyətini, onların bütün təzahürləri və həyata praktik tətbiqi baxımından dəyərləndirə və qiymətləndirə bilərlər.

Bizim Böyük rəhbərimiz V.İ.Lenin Azərbaycanda ən nümunəvi sovet respublikası yaratmağın zəruriliyindən heç də havayı yerə danışmamışdır, Şərqin qapısı ağzında olan bu respublika sovet hakimiyyətinin təşviqi üçün canlı, praktik göstərici ola bilər. Aydındır ki, Sovet Azərbaycanının ən nümunəvi və örnək hissəsi, Şərq ölkələrinə daha yaxın olan Naxçıvan diyarı olmalıdır. Ancaq çox təəssüf ki, bütöv bir sıra obyektiv şərtlər və səbəblər ucbatından, Azərbaycanın sovetləşdiyi gündən bəri ötən beş il ərzində Azərbaycan mərkəzi bu vəzifəni həyata keçirə, yəni Naxçıvan Respublikasında zəhmətkeş kütlələr üçün bütün nailiyyətlərə və üstünlüklərə malik olan sovet quruluşu nümunəsi yarada bilməmişdir.

İş elə gətirmişdir ki, həm yerli, həm də Naxçıvan diyarına göndərilən işçilər təkcə kommunist tərbiyəsi və hazırlığı mənasında zəif olmamış, hətta bəzən öz əməlləri ilə cinayətlərə yol vermiş, öz qabiliyyətsiz, fərsiz davranışları, işə səhlənkar və cinayətkar

münasibətləri ilə Naxçıvan Respublikasında əsil sovet quruluşu nümunəsi yaratmaq üçün həyata keçirilməsi zəruri olan bütün işlərə əngəl törətmişlər.

Dağıdılmış təsərrüfatın bərpası üçün heç bir iş görmədən, onlar eyni zamanda Naxçıvan Respublikasında işlərin əsil vəziyyəti və onların təşkili haqqında bizim mərkəzi orqanlara sanki qəsdən yanlış məlumat verərək onları aldatmışlar.

Naxçıvan Respublikasının mövcud olduğu bu beş il ərzində Azərbaycan MİK-nin üzvləri, Zaqafqaziya Diyar Komitəsinin üzvləri, Azərbaycan SSR hökumətinin üzvləri timsalında orada olan məsul işçilər, buraya gələn kimi Naxçıvanın yerli başçılarının müxtəlif hörmət və diqqət yayındırıcı üsulları ilə elə məharətlə əhatə olunmuşlar ki, zəhmətkeş kəndlilərin vəziyyətinə bilavasitə, lazımi şəkildə nəzər yetirə, hətta Naxçıvan Diyarının əslində bütöv bir məzarlıq təşkil etdiyini görə bilməmişlər.

Etiraf etmək lazımdır ki, əgər yoldaş Rıkov Naxçıvan Respublikasına gəlməsəydi, Azərbaycan SSR-in mütəşəkkil mərkəzçiləri arasından oraya daimi işə göndəriləcək yeni məsul işçilər də, çox güman ki, orada törədilən bütün biabırçılıqları yenə görə bilməyəcəkdilər, lakin yoldaş Rıkovun gəlişi bunun qarşısını aldı və Naxçıvan diyarının həyatında yeni epoxanın təməlini qoydu.

Hələ 1924-cü ilin iyun ayında Azərbaycanın mərkəzi partiya və sovet orqanları tərəfindən Azərbaycanın bütün qəzalarında maliyyə və təsərrüfat vəziyyətinin, həmçinin aşağı səviyyəli sovet aparatının vəziyyətinin təhqiqi üçün çox tərkibli texniki alt komissiyalardan ibarət xüsusi troyka ayrılmışdı.

Bu iş, Naxçıvan Respublikası istisna olmaqla, bütün qəzalarda yerinə yetirilmişdir; orada da ona görə aparılmamışdır ki, Naxçıvan Respublikasının keçmiş məsul işçiləri bakılı yoldaşları özlərinin belə bir analoji təhqiqat aparacaqlarına – aparatın və Naxçıvan Respublikasının ehtiyaclarının öyrənilməsi işini həyata keçirəcəklərinə və meydana çıxan bütün nöqsanları aradan qaldıracaqlarına inandırmışdılar.

Yoldaş Rıkovun Naxçıvan diyarının sağlamlaşdırılması və

ayağa qaldırılması ilə bağlı təklifləri ilə yanaşı, həm də bütün nöqsanların müfəssəl təhqiqi və öyrənilməsi, həmçinin Naxçıvan Respublikasının acınacaqlı vəziyyətə düşməsində günahı olan bir sıra işçilərin vəzifələrindən azad edilməsi və məhkəməyə verilməsi üçün Naxçıvan diyarına nüfuzlu komissiya göndərilməsinin zəruriliyi barədə əsas göstəriş verilmişdir.

**Azərbaycan MİK tərəfindən bu məsələnin müzakirəsi nəticəsində 4 yoldaşdan: BAĞIROV (komissiyanın sədri), QARAYEV, QOROBÇENKO və DÖVLƏTOVDAN ibarət Xüsusi Komissiya yaradılmış və bu komissiyanın tərkibinə Zaqafqaziya Xalq Komissarları Sovetinin nümayəndəsinin daxil edilməsi xahiş olunmuş, Zaqafqaziya bu məqsəd üçün yoldaş KVANTALİANİ ayırmışdır.**

Bu komissiyanın sərəncamına xüsusi texniki altkomissiya verilmişdir; partiya, sovet, həmkarlar, kooperativ və təsərrüfat işinin müxtəlif sahələri üzrə mütəxəssislərdən ibarət olan altkomissiya aşağıdakı tərkibdə olmuşdur: Azərbaycan SSR Fəhlə-Kəndli Müfəttişliyinin nümayəndəsi, o həm də altkomissiyanın sədridir, sonra AKP MK, Azərbaycan Fövqəladə Komissiyası, AHİŞ, AXDİK-nın nümayədələri və Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin 2 üzvü, cəmi 8 nəfər ən təcrübəli işçi.

Bu texniki komissiya Naxçıvan Respublikasının hər bir xalq komissarlığı ilə ayrı-ayrılıqda ilkin qaydada ətraflı tanış olmaq və onları təhqiq etmək üçün Naxçıvan diyarına 10 gün əvvəl göndərilmişdir.

Komissiyanın özü isə Rıkovun adına verilən 500 şikayət ərizəsini, həmçinin Naxçıvan Respublikası və onun işçiləri ilə bağlı ixtiyarında olan müxtəlif materialları özü ilə götürərək, gedəcəyi günü bildirmədən oraya yollanmışdır.

Komissiya öz işində təkcə yerli işçilərin, məsələn, Naxçıvan XKS-nin sədri yoldaş Sultanovun, Naxçıvan Diyar Komitəsinin katibi yoldaş Həşimovun məruzələrini, texniki altkomissiyanın bütün iş sahələri üzrə məruzələrini dinləməklə, Komissiyaya verilən minlərlə və nəhayət görünməmiş miqdara – altı minə

çatan ərizəni nəzərdən keçirməklə kifayətlənməmişdir.

Komissiya işin bütün sahələrini, bütün sənaye müəssisələrini və onların vəziyyətini, mümkün qədər Diyarın bütün rayonlarını təhqiq etmək və şəxsən nəzərdən keçirmək qərarına gəldi, bu məqsədlə təkcə müəssisələrə, rayon mərkəzlərinə deyil, hətta demək olar ki, bütün ucqar kəndlərə qrup halında və tək-tək səfərlər etdi.

Elə buradaca qeyd etmək lazımdır ki, bilavasitə təhqiq və ən neytral, sərbəst şəraitdə ayrı-ayrı kəndlilər, fəhlələr və sıravi partiyaçılarla həm fərdi, həm də bütöv yığıncaq və toplantılar şəklində şəxsi söhbətlər Naxçıvan Respublikasının həm siyasi, həm də iqtisadi durumunun gerçək vəziyyətini aydınlaşdırmaqda çox yüksək nəticə vermişdir.

Bundan əlavə, komissiya üzvləri həmçinin həbsxanaları, məktəbləri xəstəxanaları, uşaq evlərini məxsusi ziyarət etmiş, partiya özəklərində olmuş və müxtəlif sovet, partiya və s. müəssisələrinin dəftərxana kağızlarını və sənədlərini şəxsən yoxlamışlar.

Yalnız bütün bunlardan sonra işin bütün sahələrindəki vəziyyət, kənd təsərrüfatının durumu, kəndlilərin və ümumiyyətlə, dağıdılmış, yoxsullaşmış, baxımsız qalmış diyarın iqtisadi vəziyyəti barədə kifayət qədər doğru təsəvvür əldə etmək mümkün olmuşdur.

Yerli işçilərin, məsələn, Xalq Komissarları Soveti sədrinin və Naxçıvan Diyar Komitəsi katibinin komissiya gələn kimi hazırlanmış və stenoqraflaşdırılmış məruzələrində isə, yoldaş Rıkovun Naxçıvan Diyarında törədilən bir sıra biabırçılıqları göstərməsinə rəğmən, hər şeyin xeyli yaxşı olduğu təsvir edilir və onlarda yalnız vəsait, material və pul çatışmazlığı göstərilir.

Naxçıvan Respublikasındakı müasir vəziyyətin tam və aydın mənzərəsinə nail olmaq, onun indiki vəziyyəti ilə keçmişi arasındakı tarixi əlaqəsinin səbəblərini aydınlaşdırmaq üçün komissiya, həmçinin diyarın təkcə 1917-ci ildən bəri deyil, həm də uzaq keçmişinə aid olan arxiv materialları ilə maraqlanmışdır. Xüsusilə maraqlı materiallar kəndlilərin ərizələrindən və onlara şəxsi söhbətlərdən əldə edilmişdir.

Zaqafqaziya Federasiyasının ali orqanlarının bilavasitə razılığı ilə Komissiya tərəfindən görülən bütün bu işlərin nəticəsində əvvəlki Naxçıvan hakimiyyətinin bəzi başçıları tərəfindən bu kiçik sovet respublikasında törədilən cinayət və biabırçılıqların bundan sonra qarşısının alınması üçün ilk qəti tədbirlər görülmüşdür.

Çox sayda işçilər həm partiya, həm də sovet inzibati-təsərrüfat həyatından kənar edilmişlər.

Qırx nəfər digər bütöv bir işçi qrupu həbs edilmiş və xüsusi vaqonla Bakıya göndərilmişdir.

Çıxarılan, kənarlaşdırılan və həbs edilən işçiləri komissiya dərhal müvəqqəti olaraq başqaları ilə – əsasən texniki altkomissiyanın üzvləri arasından seçilən və teleqraf sorğusu əsasında Bakıdan yenicə gələn işçilərlə əvəz etmişdir.

Həm Rıkovun adına, həm də komissiyaya verilən ərizələr nəzərdən keçirilmiş, qruplaşdırılmış və cinayət, zorakılıq əməlləri barədə birbaşa və dəqiq məlumat verən ən aktual ərizələrdən dərhal istifadə olunmuş və onlara əsasən müvafiq tədbirlər görülmüşdür. Qalan ərizələr və yardım göstərilməsi və ya vaxtından əvvəl azad edilmə və yaxud əmlakın qaytarılması və s. barədəki xahişlərə isə komissiya tərəfindən cavab verilmiş, bu xahişlərin yerinə yetirilməsi ilə bağlı qəbul edilən tədbirlər və ərizəçilərin müraciət etməli olduqları müəssisələr onlara bildirilmişdir.

Bu cavablar türk, erməni və rus dillərində çap edilən xüsusi vərəqələr yolu ilə verilmiş, bu vərəqələr ən ucqar kəndlərdə belə yayılmış və yerli qəzetlərdə dərc edilmişdir.

Komissiyanın öz işi və Naxçıvanda üzə çıxardıqları barədə birinci məruzəsi Tiflisdə, Zaqafqaziya Diyar Komitəsinin Plenumunda oxunmuşdur.

Komissiyanın aşağıda verilən məruzəsi Naxçıvan gerçəkliyi ilə bilavasitə yaxından tanışlıq əsasında tərtib edilmişdir və onda yalnız bəzi rəqəmlər qeyri-dəqiq və səhv ola bilər, qalan hər şeydə o, Naxçıvan Respublikasında həyatın bütün sahələri üzrə vəziyyətin bütöv və tam gerçək mənzərəsini əks etdirir.

# I. TARİXİ-COĞRAFİ İCMAL

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Zaqafqaziyanın cənub hissəsində yerləşir, İran və Ermənistanla və çox qısa bir məsafədə Türkiyə ilə həmsərhəddir. Naxçıvan Respublikasını İran və Türkiyədən Araz çayı, Ermənistandan isə yüksək dağ massivi ayırır. İran əyalətlərindən İran Azərbaycanı, Türkiyədən indi Bəyazit sancaqlığına daxil olan keçmiş Sürməli qəzası, Ermənistandan İrəvan, Dərələyəz və Zəngəzur qəzaları Naxçıvan Respublikası ilə bitişikdir. Beləliklə Naxçıvan diyarının Azərbaycan SSR ilə bilavasitə sərhəd teması yoxdur.

1917-ci ilə qədər indiki Naxçıvanın ərazisi İrəvan qəzasının hüdudları daxilində idi və demək olar ki, bütün Naxçıvan qəzasını, Şərur-Dərələyəz qəzasının qərb yarısını – onun Şərur adlanan və əvvəllər, demək olar ki, keçmiş birinci polis sahəsinin sərhədi ilə üst-üstə düşən hissəsini və Sədərək kəndini əhatə edirdi; başqa sözlə müasir Naxçıvan Respublikası İrəvan quberniyasının iki qəzasının təxminən bir tam üçdə birini ($1^1/_3$) əhatə edir və onun sahəsi təxminən 4686 kv. verstə və yaxud Azərbaycan SSR ərazisinin 6%-nə bərabərdir.

Respublikanın qərb və cənub-qərb hissəsini öz münbitliyi ilə məşhur olan, Şərur hüdudlarında xüsusilə genişlənən Araz vadisi təşkil edir. Şimal və şərq hissəsi bəzi yerlərdə dəniz səviyyəsindən 1000 fut yüksəklikdə olan dağlıq ərazidən ibarətdir. Qeyd etmək lazımdır ki, Naxçıvan Respublikası, ümumiyyətlə, nisbətən yüksək ərazidə yerləşir və onun ən aşağı nöqtəsi dəniz səviyyəsindən $2^1/_2$ min fut yüksəkdədir.

Dəniz və okeanla əlaqəsinin yoxluğu, onların səviyyəsindən nisbətən yüksəkdə və şimal və şimal-şərq tərəfdən gələn soyuq təsirdən qorunmuş olması Naxçıvan Respublikası iqliminə kəskin və özünəməxsus möhür vurur: yayda burada çox isti, qışda isə həddən artıq soyuq olur. Yayda Araz çayının məcrası və qolları bərk qızır və havanın hərarəti fövqəladə yüksək həddə çatır. Qışda isə əksinə, orta hərarət hətta Şimali Qafqaz çöllərindəkindən də aşağı olur. İsti yayın dörd ayı ərzində hərarət iyirmi dərəcədən

yüksəyə qalxır, elə aylar da olur ki, ümumi hərarət orta hesabla iyirmi beş dərəcəni keçir.

İl üzrə gündəlik hərarət göstəricilərinin kəskin surətdə dəyişməsi, yeri gəlmişkən, havanın qeyri-adi dərəcədə quruluğu və səmanın açıq olması ilə şərtlənir: Qafqazın bütün rayonları arasında həm illik, həm də aylıq orta buludluluq göstəricisi yalnız burada ən aşağı dərəcədədir.

Dənizdən uzaq olduğu və nəmişli küləklərdən qorunduğu üçün Araz vadisinə minimum miqdarda yağıntı düşür, onun miqdarı ildə bəzən 150 mm-ə və maksimum 300 mm-ə çatır. Ancaq bu yağıntı da qeyri-bərabər paylanır, onların əsas kütləsi yaz mövsümünün payına düşür, ilin qalan fəsillərində isə yağıntının miqdarı cüzi dərəcədə az olur.

Havanın qeyri-adi quruluğu, bir neçə ay ərzində yağış yağmaması, ətraf dağların meşəsiz və susuz yamaclarının yayın istisindən möhkəm qızması, sərt qış, gündəlik hərarətin kəskin dəyişməsi – bütün bunlar bitkilərin inkişafı üçün son dərəcə əlverişsizdir və buna görə də, əgər süni suvarma olmasa, Naxçıvan Respublikası öz təbii halında daimi xarakter daşıyar və səhra görkəminə malik olardı.

Biz Araz çayının özünün və onun çoxsaylı qollarının yatağına düşən kimi, səhra mənzərəsi sürətlə dəyişərək çiçəklənən təbiətə çevrilir, burada bütün canlılara həyat bəxş edən suvarma kanalları səhnəyə çıxır.

Buradan aydın olur ki, Naxçıvan Respublikası üçün ən başlıca, ən əhəmiyyətli şey suvarmadır, sudur, onsuz burada heç nə bitməz və əhalinin rifahı bütünlüklə suvarma qurğularının vəziyyətindən asılıdır.

Xəritəyə nəzər salsaq, dərhal görərik ki, Naxçıvan Respublikasında insan məskənləri məhz çayların yataqları boyunca salınıb, qalan məkanlar isə bomboşdur.

Daha güclü çay arteriyalarında – tarlaları suvarmaq üçün su götürmək imkanı olan yerlərdə insanlar da sıx məskunlaşmışdır. Belə ki, məsələn, Arpaçayın aşağı hissəsində və Araz sahilində,

sonra Naxçıvançay və onun qolu olan Cəhriçayın, Əlincəçayın və digərlərinin sahillərində insan məskənləri daha sıxdır.

Aran yerində və dağ ətəklərindəki bütün kəndlər yalnız öz sahələrini suvara bildiklərinə görə mövcuddurlar. Dağ kəndləri və dağətəyi kəndlərin kiçik bir qismi təbii yağıntı ilə ötüşür, taxıl əkini və bağçılıqla məşğul olurlar.

Naxçıvan Respublikasının su ehtiyatları təxminən aşağıdakı kimidir: burada, çox sayda xırda qolları olan nisbətən 14 iri çay mövcuddur. Naxçıvan Respublikasının bütün çayları tipik dağ çaylarıdır, sənaye əhəmiyyətinə malik deyillər və yalnız tarlaların suvarılmasına xidmət edirlər.

Ən bol sulu çay Şərqi Arpaçay çayıdır, o, hər il 12. 943 desyatin torpağı su ilə təmin edir.

Gücünə görə Naxçıvançayı növbəti çay hesab etmək lazımdır, o hər il 8. 200 desyatin torpağı suvarır. Əlincəçay 3. 088 desyatin, Naxçıvançayın qolu olan Cəhriçay isə 1. 214 desyatin torpağa su verir.

Xok dairəsində köhnə məlumatlara görə 162 kəhriz və 88 bulaq var, onlar 3. 600 desyatin suvarılan torpağa xidmət edir. Dəstə su dairəsində (Ordubad sahəsi) suvarılan torpaq 5.850 desyatindir. Bütün Naxçıvan Respublikası aşağıdakı su dairələrinə bölünür: Şərur, Naxçıvan, Xok, Əlincə və Dəstə dairələri.

Ümumi sahəsi 4 658 kv. verst və yaxud 488 154 desyatin olan Naxçıvan Respublikasında yüksək dağ silsilələri, çıxılmaz qayalıqlar çox olduğuna görə, həmçinin bəzi yerlərin bataqlaşması üzündən əkin sahələri və ümumiyyətlə istifadəyə yararlı torpaqlar çox azdır; məsələn Şərurda bataqlıq üzündən geniş torpaq sahələri istifadəsiz qalmışdır.

Naxçıvan Respublikasının səthi son dərəcə rəngarəngdir və üç hissəyə bölünə bilər: düzənlik, dağlıq və dağətəyi hissələr.

Düzənlik hissəyə Şərur qəzası və Naxçıvan qəzasının bir hissəsi aiddir.

Dağətəyi hissə Naxçıvan və Ordubad rayonlarının bir hissəsini əhatə edir.

Dağlıq zolağını isə Ordubad qəzasının 2/3 hissəsi, həmçinin Naxçıvan qəzasının Əbrəqunus və Cəhri rayonlarının bir hissəsi təşkil edir.

Hər üç hissə öz təbiətinə və əkilən dənli bitkilərə görə bir-birindən kəskin surətdə fərqlənir. Düzənlik hissə bütövlükdə qiymətli mədəni bitkilər üçün yararlıdır; dağətəyi hissə adi dənli bitkilərin becərilməsi və heyvandarlıqla məşğul olur, dağlıq hissə isə bağçılıq və heyvandarlıq hissəsidir.

Əgər Respublikanın ümumi ərazisi daxilində münasib torpaq sahəsini ayırmış olsaq, onda o, müharibəyə qədərki dövrdə maksimum yalnız 200.000 desyatin olmuş, onun da 80.000 desyatini otlaqların payına düşmüşdür.

Şərurda şum altında 18.000 desyatin torpaq olmuşdur, onun da 13.000 desyatini suvarılan torpaqlardır. Naxçıvan qəzasında şumlanan torpaq sahəsi 70.000 desyatinə qədər olmuşdur, onların da 39.000 desyatinini suvarılan, 31.000 desyatinini isə suvarılmayan torpaqlar təşkil etmişdir.

Naxçıvan Respublikasında meşə torpaqları, demək olar ki, yox dərəcəsindədir, əhali evləri gərmə ilə, meyvə ağaclarının cavan pöhrələrini və kiçik kolluqları qıraraq əldə etdiyi odunla qızdırır.

Ümumən 88.000 desyatin şumlanan torpaqdan yalnız 52.000 desyatini suvarılandır, qalan 36.000 desyatin isə suvarılmayan torpaqlardır.

Suvarılmayan torpaqlar, başlıca olaraq, keçmiş Naxçıvan qəzasında yerləşir və onlarla bağlı bunu qeyd etmək vacibdir ki, yerli iqlimin quruluğu və torpağın xüsusi yumşaqlığı üzündən bu torpaqlarda məhsul güclü şəkildə təbəddülata məruz qalır və əkinlər quraqlıqdan məhv olur.

Əslinə qalsa, Naxçıvanın suvarılmayan torpaqlarının xeyli hissəsi ona görə suvarılmayandır ki, suvarma suyu çatışmır. Bu səbəbdən həmin torpaqlarda yalnız taxıl yetişdirilir və onlar pambıq, çəltik və s. kimi daha yüksək mədəni bitkilərin becərilməsi üçün istifadə edilə bilmir.

Ümumiyyətlə, suvarma suyunun çatışmazlığı pambıq,

çəltik, küncüt və digər sənaye bitkilərinin əkilməsini güclü şəkildə məhdudlaşdırır, halbuki onların becərilməsi Naxçıvan Respublikasının bütün iqtisadiyyatının inkişafı işində son dərəcə mühüm faktora çevrilə bilərdi.

Naxçıvan Respublikasının tarixi daha qədim keçmişi ilə birlikdə təxminən belə təsəvvür edilir:

1828-ci ilə qədər, yəni yüz il bundan əvvəl Naxçıvan diyarının müasir ərazisi İrana məxsus idi və onun daha böyük hissəsi Naxçıvan xanlığını təşkil edirdi, daha kiçik – Şərur hissəsi isə İrəvan vilayətinə aid idi.

Sonuncu sərdar Hüseyn xan tərəfindən idarə olunurdu, birinci hissəni isə, Ordubad dairəsi və Mehrinin (indi Zəngəzura daxil olan) bir hissəsi ilə birlikdə, Kərbəlayi xan Kəngərlinski ailəsinin üzvləri idarə edirdilər. Buradaca qeyd etmək lazımdır ki, Mehri dairəsi çox qədim dövrlərdən Qarabağ xanlığının ayrılmaz tərkib hissəsi olmuşdur, lakin Rusiya ilə İran arasında bağlanan Gülüstan müqaviləsinə əsasən, Mehri dairəsinin Qapançay çayının sağ tərəfində qalan hissəsi İranın tərkibində saxlanılmışdı.

Rusiya ilə İran arasında, Türkmənçay müqaviləsi (10 fevral 1828-ci il) ilə nəticələnən yeni müharibə bütün İrəvan vilayətinin və Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsinə gətirib çıxardı və həmin andan sonuncunun taleyi Qafqazın Rusiyaya birləşdirilmiş digər Türkiyə və İran əyalətləri ilə sıx bağlı oldu.

Yuxarıda adı çəkilən Mehri dairəsindən başqa, – Türkmənçay müqaviləsindən sonra o, yenidən Qarabağın tərkibinə daxil edilmişdi, – istila olunan ərazilərdə 1840-cı ilə qədər xüsusi qayda ilə idarə edilən Erməni vilayəti yaradıldı.

Naxçıvan əyaləti naib Ehsan xan Kəngərlinskinin sədrliyi altında olan polis idarəsi tərəfindən idarə olunurdu; həmin polis idarəsi isə Erməni Vilayəti İdarəsindən birbaşa asılı idi.

Ordubad dairəsinin də öz polis idarəsi vardı, ona naib Əlixan sədrlik edirdi, lakin bu dairə məhkəmə işində Naxçıvan şəhər məhkəməsinə tabe idi.

Naxçıvan əyalətində 6 mahal (qəza) vardı: Xok, Naxçıvan, Əlincəçay, Yaycı, Dərələyəz və Müvaze-Xatun mahalları. Sonuncu üç mahal sonradan Dərələyəz sahəsinə daxil edildi, indi isə Ermənistana verilmişdir. Ordubad dairəsi beş çox da böyük olmayan hissəyə bölünür: Ordubad, Əylis, Dəstə, Çənnəb və Biləv hissələri.

Nəhayət, Mehri dairəsi Mehrigüney və Qapan mahallarına bölünmüşdü.

1840-cı ildə Erməni Vilayət İdarəsi bağlandı və bütün vilayət Naxçıvanla birlikdə Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil oldu və iki qəza – İrəvan və Naxçıvan qəzalarını təşkil etdi. Ordubada gəlincə isə o zaman o qəza mərkəzliyindən çıxmış şəhər olmamışdır.

Naxçıvan diyarı hər beş ildən bir inzibati və ərazi bölgüsündə bu cür dəyişikliklərə – gah bu, gah da o vilayətə birləşdirilmələrə məruz qalmış və qəza sərhədlərində sonuncu dəfə 1874-cü ildə, Dövlət Şurasının təsdiq olunmuş rəyinə əsasən dəyişiklik edilmiş, o zaman Şərur-Dərələyəz və Sürməli qəzaları yaradılmışdır. Birinci qəza Naxçıvanın iki sahəsindən – Dərələyəz və Şərurdan ibarət olmuşdur. İrəvan vilayətinin və Naxçıvan xanlığının Rusiyaya birləşdirilməsindən dərhal sonra əvvəlcə İrandan, sonra Türkiyədən bu vilayətlərə çoxlu sayda erməni köçürülmüşdür. Beləliklə, 1834-cü ilin məlumatlarına görə İrəvan vilayətində 65. 300 nəfər kişi cinsi olan 22. 336 ailə olub. Həmin əhali bu qruplar üzrə bölünürdü: müsəlmanlar (Türkiyə türkləri, türklər, kürdlər) – 29. 690, çoxdan yaşayan ermənilər – 10.350, İran və Türkiyədən köçən ermənilər – 24. 255, Bəyazit paşalığından sürgün edilən yezidilər –1000 nəfər kişi cinsi.

Şərti olaraq, o dövrdə qadınların kişilərlə eyni sayda olduğunu qəbul etsək, onda əyalətin əhalisinin ümumi sayı 130.000 nəfər olacaqdır.

Burada ermənilərin payına – gəlmələrin 37%, çoxdan yaşayanların 16 % əhali düşür, onun qalan 47 %-ni isə müsəlmanlarla yezidilər təşkil etmişdir. Nəzərə alsaq ki, rusların gəlişi ilə müsəlmanların xeyli hissəsi əyaləti tərk edərək, Türkiyə və İrana

köçmüşlər, onda aydın olar ki, əvvəllər burada müsəlmanların faizi müqayisəedilməz dərəcədə yüksək olmuşdur.

Lakin mühacir ermənilərin başlıca kütləsi həmin vaxt İrəvan əyalətinin, demək olar ki, yalnız şimal rayonlarında yerləşmişdilər. 1829 – 1830-cu illərin 10 ayı ərzində Bəyazit və Qars paşalıqlarından əyalətə 50. 000-ə yaxın erməni mühacir gəlmişdir.

Naxçıvan əyaləti əhalisinin taleyi bizim üçün daha böyük maraq doğurur. 1832-ci ilin kameral təsvirinə görə Naxçıvan dairəsində 16 095 nəfər kişi cinsi olan 6 538 ailə və yaxud 32 000 nəfər əhali olmuşdur. Bu saya daxil idi: 3 859 türk ailəsi və yaxud 59, 2%, çoxdan yaşayan 533 erməni ailəsi və yaxud 8%, köçmüş erməni ailəsi 2145 və yaxud 32,8 %. Ermənilər buraya İrandan köçmüşdülər.

Göründüyü kimi, yalnız Türkmənçay müqaviləsindən əvvəl deyil, ondan sonra da Naxçıvan dairəsində əhalinin əksəriyyətini türklər təşkil etmişlər.

Həm ermənilər, həm də türklər dairənin çoxdankı sakinləridir, özü də ikincilər burada VI və VII əsrlərdən yurd salmışlar.

Əhalinin, xüsusilə də buraya köçürülmüş ermənilərin Naxçıvan dairəsinin mahalları üzrə 30-cu illərdə bölgüsü belə idi:

Bu statistik arayışdan görürük ki, mühacir ermənilər daha çox Dərələyəz və Naxçıvan mahallarında və Naxçıvan şəhərində məskunlaşmışlar.

Ordubad dairəsində 30-cu illərdə 3 160 kişi cinsi olan

| Mahallar | Kəndlərin sayı | Təsərrüfatlar | | |
|---|---|---|---|---|
| | | Türklər | Çoxdan yaşayan ermənilər | Köçüb gəlmiş ermənilər |
| Əlincə | 24 | 400 | 120 | 120 |
| Dərələyəz | – | 1283 | 58 | 731 |
| Naxçıvan | 59 | 1884 | 309 | 1207 |
| Xok | 9 | 292 | – | 43 |
| Naxçıvan şəhəri | – | 905 | 156 | 269 |

1320 ailə və yaxud bizim şərti hesablamalarımıza görə hər iki cinsdən 6 320 nəfər əhali qeydə alınmışdır. Türklərin payına 2 157 kişi cinsi və yaxud 68%, yerli ermənilərin payına 787 kişi cinsi və yaxud 25%, gəlmə ermənilərin payına 216 kişi cinsi və yaxud 7% əhali düşürdü. Bu saya, həmçinin Mehri sahəsinin əhalisi də daxildir.

Təəssüf ki, bizim ixtiyarımızda olan materiallar bütün İrəvan əyalətinin hər iki cinsdən olan 130. 000-lik əhalisi arasında Şərur əhalisinin miqdarını müəyyən etməyə imkan vermir, hər halda onların sayı, çox güman ki, 1000 ailədən və yaxud hər iki cinsdən 5. 500 nəfərdən çox olmamışdır.

İndi, Naxçıvan Respublikasının müasir ərazisini ayıraraq, bütün bu rəqəmləri qruplaşdırsaq, onda ötən yüzilliyin 1830-cu ili üçün aşağıdakı əhali sayını alarıq.

Hər bir təsərrüfatın hər iki cinsdən $5^1/_2$ nəfərdən ibarət olduğunu düşünsək, onda əhalin sayı 44 000, Mehri sahəsini hesaba almasaq isə 42 000 nəfərə yaxın olacaqdır.

Başlıca əhali kütləsi türk xalqına məxsus olmuşdur.

Sonrakı onilliklər ərzində əhalinin sayı təxminən bu cür dəyişmişdir:

| Dairələrin adı | Təsərrüfatların sayı |
|---|---|
| Naxçıvan d. (Dərələyəzsiz) | 4375 |
| Naxçıvan şəhəri | 1330 |
| Ordubad d. | 1320 |
| Şərur d. (təxminən) | 1000 |
| Cəmi: | 8025 |

1917-ci il inqilabı baş verdiyi anda Naxçıvan və Şərur qəzalarındakı kəndlərin sayı belə idi:

Naxçıvan qəzası.................................................... 174 kənd
Şərur qəzası.............................................................. 65 kənd

239 kənd

| Sahələrin və qəzaların adları | 1850-ci il | 1886-cı il |
|---|---|---|
| Şərur sahəsi | 22. 153 | 31. 760 |
| Naxçıvan qəzası | 11. 433 | – |
| Ordubad qəzası (Mehri sahəsi ilə birlikdə) | 14. 008 | 72. 882 |
| Naxçıvan şəhəri | 4. 410 | 6. 939 |
| Ordubad şəhəri | 3. 973 | 4. 199 |
| Cəmi: | 56. 000 | 115. 780 |

İnzibati məlumatlara görə göstərilən kəndlərdə əhalinin sayı aşağıdakı kimi idi:

Naxçıvan qəzasında – hər iki cinsdən 122. 208 nəfər, o cümlədən 69. 716 türk, 52. 365 erməni var idi. Şərurda hər iki cinsdən 40. 000 nəfər və Naxçıvan şəhərində hər iki cinsdən 8.934 nəfər (6026 türk və 2665 erməni) vardı. Cəmisi – 170. 142 nəfər.

Bu rəqəm, çox güman ki, bir qədər şişirdilmişdir və əslində inqilaba qədər Naxçıvan Respublikasının müasir sərhədləri daxilində hər iki cinsdən maksimum 162. 000 nəfər insan yaşamışdır və bunda ermənilərin payı 37% olmuş, qalan 67% əhali isə, demək olar ki, yalnız türklərdən ibarət olmuşdur (bu göstəricidə rus və digər xalqların payı həddən artıq az idi).

Ermənilərin çoxu Naxçıvan qəzasında idi, Şərur qəzasında onlar 14%-dən çox deyildilər.

Müasir Naxçıvan Respublikasının əhalisinin sayı haqqında 1924-cü ilin, görünür, heç də tam olmayan kənd təsərrüfatı vergisi məlumatlarına və ərzaq siyahılarına əsasən, yalnız təxmini mülahizə yürütmək olar. Həmin məlumatlara görə Naxçıvan Respublikası hal-hazırda, şəhərlərlə bir yerdə 19 220 təsərrüfata malikdir; onların da payına hər iki cinsdən 91 000

nəfər düşür; hesab etsək ki, hesablamada çatışmazlıq 25 %- ə çatır, onda hər iki cinsdən ən azı 110 min nəfər əldə edəcəyik ki, görünür, bu da gerçək rəqəmi əks etdirməyəcəkdir.

Maksimum hədd kimi əhalinin sayının hər iki cinsdən 120 000 nəfər olduğunu qəbul etmək mümkündür. Bu 120 min nəfəri inqilaba qədərki dövrün göstəricisi ilə müqayisə edəndə, görürük ki, bizim dövrümüzdə Respublikanın əhalisi təxminən 60 000 nəfər azalıb.

Bunun izahını Naxçıvan diyarının 1918 – 1921-ci illərdə yaşadığı qeyri-adi dərəcədə faciəvi və ağır anlarda tapırıq, həmin illərdə əhali milli ədavətə cəlb olunmuş və həm döyüşlərdə, həm də xəstəlik və aclıqdan böyük itkilər vermişdir.

Bu illərin hadisələri təxminən belə davam etmişdir.

Çarizmin devrilməsi xəbəri hər yerdə olduğu kimi Naxçıvanda da sevinclə qarşılanmışdır, hərçənd yerli hakimiyyət o xəbərin dərcini 13 gün gecikdirmiş və çar hakimiyyəti bütün Rusiyada arxivə verildiyi halda burda qorodovoylar şəhərdə hələ xeyli müddət özlərinin tam geyim formalarında gəzmişlər.

Çarizmin əvəzinə dərhal iki hakimiyyət gəlmişdi: Əsgər Deputatları Şurası və Milli Şura.

Milli Şura əvvəlcə ümumi, birləşmiş Şura idi, ancaq tezliklə müsavatçılarla daşnaklar arasında düşmənçilik özünü büruzə verməyə başladı və o, iki hissəyə bölündü. Daşnak və müsavat rəhbərləri müsəlman və erməni əhalisini öz ümumi mənafelərini anlamayan, rəhbərləri tərəfindən düşmənçiliyə və məhvə sürüklənən iki zidd düşərgəyə bölə bildilər.

Daşnakların belə bir üstünlüyü var idi ki, onlar cəbhədən qayıdan və hərbi işi gözəl bilən cəbhəçi erməniləri öz sıralarına cəlb edə bilmişdilər.

Müsavatçılar, bu işdə onlardan geridə qalmamaq üçün müsəlmanlardan təlim komandası təşkil etmişdilər. Hər iki tərəfin başçıları Naxçıvan diyarının kimə tabe olması məsələsini

kəskin şəkildə qoymuşdu.

Ermənilərin bir qismi İrəvan daşnakları ilə sıx əlaqə saxlayaraq, Naxçıvan diyarını Daşnak Ermənistanına birləşdirməyi arzulayırdılar. Müsavatçılar isə Naxçıvan diyarının ermənilərdən tam müstəqil, Türkiyənin protektoratlığı altında olmasını, ermənilərin qovulmasını arzu edirdilər və özlərinin bütün ümidlərini Türkiyə türklərinə bağlamışdılar, Türkiyə əsgərlərinin bəxti gətirmiş, onların agenti polkovnik Xəlil bəy özünü təcili Naxçıvana çatdırmışdı. O, şəhərin bir hissəni tutmuş, kazarmaları və erməni yaşayan hissəni bombardman etməyə başlamış, evləri dağıtmış, tikililəri yandırmışdı və s.

Bu işdə ermənilər tərəfdən "məşhur" Andronik onunla rəqabətə girmişdi.

Hələ bu hadisələrdən əvvəl, 1918-ci ilin martında müsəlmanlarla ermənilər arasında ilk ağır döyüş baş vermiş və o, 43 gün davam etmişdi, məhz bu döyüş faktiki olaraq milli nifrətin, milli ədavətin izləri bu günə qədər qalan o dəhşətli dağıntıların başlanğıcını qoymuşdu.

Naxçıvandan keçib İrana gedən Andronik ilk vaxtlar xeyli neytral davranmışdı, lakin Türkiyə qoşunları tərəfindən darmadağın ediləndən sonra geri qayıdarkən müsəlman kəndlərini qırmağa başlamışdı.

Həmin vaxt nizami Türkiyə hissələri gəlib çıxmışdı, daşnaklar isə ingilislərlə sıx əlaqə saxlayırdılar və beləliklə Naxçıvan bu iki düşmən qüvvənin mübarizə meydanına çevrilmişdi.

1919-cu ilin mayında daşnakların "görkəmli" rəhbəri Xatisov və ingilis generalı Devi Naxçıvana gəldilər və Naxçıvan diyarının könüllü surətdə Ermənistana birləşməsi barədə müsəlmanlar arasında təbliğat apardılar, lakin müsəlmanlar onlara qəti şəkildə rədd cavabı verdilər.

Bir çox hadisələr nəticəsində 1919-cu ilin sonunda Naxçıvan diyarında müsavatçılar möhkəmləndilər və onlar yalnız

1920-ci ildə sovet qoşunlarının Naxçıvana yaxınlaşdığı barədə xəbər yayılanda öz hökmranlıqlarını xalqa verdilər.

Sovet hakimiyyətinin gəldiyi məqamda daşnaklar bir daha Naxçıvan diyarını ələ keçirməyə cəhd göstərdilər, lakin onlar sovet bayrağı altında öz ümumi düşmənlərinə – daşnaklara qarşı çiyin-çiyinə vuruşan həm sovet, həm də Türkiyə qoşun hissələri və bütün xalq tərəfindən dəf edildilər.

Bu, Naxçıvan diyarı ərazisində sonuncu döyüş oldu.

Həmin andan etibarən Naxçıvan diyarının başı çox bəlalar çəkmiş əhalisinin böyük Sovet Sosialist Respublikaları İttifaqı sıralarında dinc yaşayış dövrü başlayır.

## II. PARTİYA – SİYASİ VƏZİYYƏT

Ancaq Naxçıvan Respublikasının bütün bədbəxtliyi bunda idi ki, sovetləşmədən öncə diyarda heç bir gizli partiya təşkilatı yox idi və sovetləşmə üzrə bütün işlərə, diyarda partiyanın yaradılmasına 1920-ci ildən süni yolla başlanılmışdı, Azərbaycan Kommunist (bolşevik) Partiyasının özü həmin dövrdə silahlı düşmənlərə və iqtisadi cəbhədə səfalətə qarşı ağır mübarizə illərini yaşadığına görə buraya lazımi hazırlığa malik kifayət qədər qüvvə göndərmək imkanına malik olmamışdır.

Nəticədə, Naxçıvan diyarının təhqiqinin də göstərdiyi kimi, elə alınmışdır ki, güclü partiya işinin yoxluğundan və partiya təşkilatının zəifliyindən istifadə edərək onun sıralarına Sovet hakimiyyətinin nüfuzunu laxladan və bütün pozuculuq işlərini törədən qeyri-kommunist ünsürlər daxil olmuşlar; bu mirasın nəticələri isə yalnız indi aradan qaldırılır...

Naxçıvan diyarının yoxsul kəndliləri kommunist partiyası haqda çox dumanlı təsəvvürə malik idilər və hətta onun nə olduğunu tamamilə bilmirdilər. Buna görə də sovet hakimiyyətinin gəlişindən sonra bütün bəy-xan, mülkədar ünsürləri, keçmiş strajniklər, kətxudalar, dünənki qubernatorlar, müsavat zabitləri, jandarmlar, qorodovoylar Naxçıvan fəhlə və kəndlilərinin geriliyindən istifadə edərək, partiya işini öz əllərinə keçirmişdilər.

Kommunist partiyası ilə tamamilə heç bir ümumi cəhəti olmayan bu ünsürlər az qala elə partiyaya daxil olduqları gündən artıq Naxçıvan Diyar Partiya Komitəsinə başçılıq etmiş, partiya və sovet quruculuğuna rəhbərliyi öz əllərinə almışdılar. Məsələn, əksinqilabi fəaliyyətdə şübhələndiyinə görə yatdığı həbsxanadan sovet hökuməti tərəfindən yenicə buraxılan Babayev 1921-ci ilin fevralında partiyaya qəbul edilmiş və elə həmin ilin sonunda artıq Diyar Komitəsinin üzvü olmuşdur. Tamamilə təbiidir ki, işlərin belə bir durumda olması partiya-siyasi vəziyyətə mənfi təsir göstərməyə bilməzdi.

AKP-nın Naxçıvan təşkilatı buraxılana qədər necə bir təşkilat olmuşdur?

Naxçıvan təşkilatının 59 özəyi vardı; onlardan 5 özək sənaye müəssisələrində, 4-ü nəqliyyatda – onlardan biri depo və emalatxanada, 3-ü isə xətlərdə, 39-u kəndlərdə, 4-ü hərbi hissələrdə, 6-sı sovet, partiya, həmkarlar və kooperativ müəssisələrində, 1-i isə mülki təhsil müəssisəsində – sovet partiya məktəbində olmuşdur.

Özəklərin tərkibi aşağıdakı kimi idi:

Dövlət və sənaye müəssisələrində 21 üzv, 131 namizəd vardı

Nəqliyyat özəklərində .......................4 üzv, 49 namizəd.
Kənd "—- " .................................168 üzv, 165 namizəd.
Hərbi hissə "—- " ...........................35 üzv, 13 namizəd.
Sovet, partiya, həmkarlar və
kooperativlərdə ...............................58 üzv, 70 namizəd.
Sovet partiya məktəbi özəyində...........7 üzv, 7 namizəd.

Cəmi:..............................293 üzv, 455 namizəd.

O cümlədən – 2 qadın partiya üzvü və 6 qadın namizəd.

Partiya təşkilatının sosial tərkibi:

Naxçıvan, Ordubad və Şərur şəhərlərindəki partiya üzvləri:

Fəhlə................................................. 13
Kəndli................................................ 35
Qulluqçu............................................ 18

Kəndlərdə və zavodlarda:
Fəhlə........................................................ 25
Kəndli...................................................... 190
Qulluqçu................................................... 12

Cəmi:..................... 277, onlardan –

Fəhlə – 38, kəndli – 225 və qulluqçu – 30.
Namizədlər:
Fəhlə...................................................... 184
Kəndli...................................................... 225
Qulluqçu................................................... 11
Digərləri.................................................... 5

Cəmi:........................................ 455

Buraxılana qədər təşkilatın yaş tərkibi:
1903–1900-cü illərdə doğulanlar... 21 üzv, 51 namizəd.
1900–1895-ci “————————”......74 üzv, 133 namizəd.
1895–1892-ci “————————”......36 üzv, 65 namizəd.
1892–1885-ci “————————”...105 üzv, 137 namizəd.
1885–1884-cü “————————”..... 57 üzv, 79 namizəd.

Cəmi:............................. 293 üzv, 455 namizəd.

Partiyaya daxil olma ilinə görə keçmiş təşkilatın tərkibi:
1905-ci ildən – 1916-cı il üzrə ................................ 2 üzv.
1917-ci ildən .........................................................10 üzv.
1918-ci ildən .........................................................12 üzv.
1919-cu ildən.........................................14 üzv, 1 namizəd.
1920-ci ildən .......................................42 üzv, 60 namizəd.
1921-ci ildən ....................................18 üzv, 147 namizəd.
1922-ci ildən ......................................... 4 üzv, 9 namizəd.
1923-cü ildən ....................................... 6 üzv, 20 namizəd.
1924-ci ildən ...................................185 üzv, 215 namizəd.

1925-ci ildən ............................................ 9 namizəd.

Cəmi:................ 293 üzv, 455 namizəd.

Digər partiyalardan çıxanlar:
Menşevik ................................................ 4 üzv.
Müsavat .................................................. 2 üzv.
Sol eser.................................................... 1 üzv.

Partiya üzvləri və üzvlüyə namizədlərin savadlılığı barədə məlumatlar xüsusilə diqqəti cəlb edir:

Azsavadlılar:
Üzvlər....................................................... 68
Namizədlər................................................ 91

Savadsızlar:
Üzvlər....................................................... 118
Namizədlər................................................ 181

Burada 68 üzvün və 91 namizədin azsavadlı olduğu göstərilsə də, əslində onlar əksər hallarda yalnız öz soy adlarını yazmaqla imza atmağı bacarırlar.

Bu 59 özək özün daxili məzmununa görə necədir?

10 özək yalnız namizədlərdən ibarətdir, onlarda bir nəfər də olsun partiya üzvü yoxdur, hətta özək katibləri də namizəddir. Məsələn:

Ordubaddakı baramaaçma zavodu nəzdindəki 41 №-li özəkdə 40 namizəd var, katib – namizəddir.

Kərimqulu Dizə kəndindəki 32 №-li "—"
......5 namizəd var, "————————"

Çənnəb kəndindəki 42 №-li "—"
........9 namizəd var, "————————"

Rumıs kəndindəki 44 №-li "—"
...... 4 namizəd var, "————————"

Şahtaxtı stansiyasındakı 7 №-li "—"
.........9 namizəd var, "————————"

Noraşen stansiyasındakı 52 №-li "—"

.......8 namizəd var, "——————————"

Ərəzin kəndindəki 21 №-li "—"

......8 namizəd var, "——————————"

Xanağa kəndindəki 25 №-li "—"

........6 namizəd var, "——————————"

Milax kəndindəki 26 №-li "—"

........ 6 namizəd var, "——————————"

Teyvaz kəndindəki 28 №-li "—"

......4 namizəd var, bu özəyin katibi bitərəfdir.

Beləliklə, 96 namizəddən ibarət olan 10 özəkdə <u>bir nəfər də olsun partiya üzvü yoxdur.</u>

Elə özəklər var ki, onlar yalnız bir partiya üzvündən və bir neçə namizəddən ibarətdir. Belə özəklərin sayı 4-dür:

"26-lar" adına duz mədənindəki 55 №-li özəkdə 1 üzv,

10 namizəd var, katib bitərəfdir.

Bənəniyar kəndindəki 23 №-li "—"

........1 üzv, 11 namizəd var, "——-" namizəddir.

Ərəfsə kəndindəki 27 №-li "—"

...........1 üzv, 4 namizəd var, "———" "———"

Camaldın kəndindəki 20 №-li "—"

........ 1 üzv, 5 namizəd var, "———" "———"

Bu dörd özəkdən "26-lar" adına duz mədənindəki 55 №-li özəyə bitərəf katiblik edir, o iclasların protokollarını aparır.

Elə özəklər də var ki, onlar iki partiya üzvündən və bir neçə namizəddən ibarətdir. Belə özəklərin sayı 5-dir:

Dırnıs kəndindəki 39 №-li "—"

........2 üzv, 3 namizəd var, katib komsomolçudur.

Üstüpü kəndindəki 43 №-li "—"

........2 üzv, 7 namizəd var, katib namizəddir.

Parağa kəndindəki 45 №-li "—"

........2 üzv, 17 namizəd var, katib partiya üzvüdür.

Bist kəndindəki 47 №-li "—"

.......... 2 üzv, 2 namizəd var, katib namizəddir.

Culfa stansiyasındakı 6 №-li "—"
........3 üzv, 10 namizəd var, katib partiya üzvüdür.

Üç partiya üzvü və çox sayda namizədi ola özəklərin sayı 6-dır:

Əylis kəndindəki 40 №-li özəkdə .............3 üzv,
3 namizəd var, katib partiya üzvüdür.
Nəsirvaz kəndindəki 46 №-li "—" ................3 üzv, namizəd var,
katib partiya üzvüdür.
Naxçıvan stansiyasındakı 6 №-li "—" .........3 üzv,
19 namizəd var, katib partiya üzvüdür.
Uzunoba kəndindəki 13 №-li "—"...... 3 üzv, 3 namizəd var,
katib partiya üzvüdür.
Külüs kəndindəki 19 №-li "—" ......3 üzv, 1 namizəd var,
katib bitərəfdir.
Keçili kəndindəki 30 №-li "—" ...... 3 üzv, 5 namizəd var,
katib bitərəfdir.

Bütün təşkilat üzrə aşağıdakı ümumi nəticəni alırıq:
Özək katibləri olan partiya üzvlərinin sayı.......... 32
Namizədlərin sayı................................................ 21
Komsomolçuların sayı.......................................... 2
İclasların protokollarını aparan, özəklərə
rəhbərlik edən bitərəflərin sayı ............................ 4

Siyasi tərbiyə mənasında təşkilatın keyfiyyəti barədə danışmağa dəyməz, çünki özək rəhbərləri və onların katiblərinin bəzi hallarda bitərəf olmalarının özü artıq hər şeyi açıq-aydın göstərir.

Üzvlər arasında 38, namizədlər arasında isə 184 fəhlənin olması barədə yuxarıda göstərilən faktlar anketlərdən götürülsə də, onlar həqiqətə uyğun deyil, çünki çoxları özünü fəhlə adlandırsa da, əslində onları fəhlə adlandırmaq olmaz. Məsələn, Bayıl-Bibiheybət rayonunun sabiq qorodovoyu və məhəllə nəzarətçisi Məmmədqulu Axundov öz anketində fəhlə olduğunu yazır; məşhur qolçomaq və iri mülkədar Fərəməz Axundov anketdə özünü kəndli adlandırır; məşhur bəyin və iri torpaq sa-

hibinin oğlu Kəngərlinski də özünü kəndli oğlu kimi təqdim edir. Belə tiplər, – onların haqqında biz hələ aşağıda yenə danışacağıq, – partiyada kifayət qədər çox olmuşdur və bunlar cəlb zamanı üzə çıxarılmışlar. Bu ünsürlər partiyaya necə düşüblər? Bu sual aşağıdakı kimi işıqlandırılır:

Təşkilatın partiyaya daxil olma xarakterinə görə tərkibi haqda məlumatda 1920-ci ilə qədər partiyaya daxil olanların sayı 38 nəfər göstərilsə də, nəzərə almaq lazımdır ki, bu üzvlər yerli partiyaçılar deyil, digər təşkilatlardan, məsələn, Bakı özəyi, Ermənistan hərbi özəyi və digər özəklərdən buraya gələnlərdir. Partiya isə bir təşkilat kimi, Naxçıvan diyarında 1920-ci ildə, yəni diyar sovetləşəndən sonra təşkil olunmuşdur.

Partiya-siyasi işi lazımi məcraya yönəltmək üçün Naxçıvan diyarına göndərilən işçilər buraya çatan kimi özlərinin tamamilə xırda burjuaziyaçı, qeyri-kommunist ideologiyalarını büruzə vermişlər. Onlar partiya və sovet orqanlarına rəhbərlik edən işçilərin cinayətkar və antikommunist əməllərindən xəbərdar olduqları halda özlərinin bütün məruzə və məlumatlarında əsil vəziyyəti hər cür ört-basdır etməyə çalışmış, bununla da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsini aldatmışlar.

Bu azmış kimi, bu və ya digər cinayətin üstünün açılması zamanı onlar canfəşanlıqla rüsvayçı əməlləri törədənlərin müdafiəsinə qalxırdılar. Buna bariz misal olaraq, Mirtağıyevin işini göstərmək olar. Qatı xəzinə oğrusu, bütün mümkün sui-istifadələr yolu ilə saysız-hesabsız ehtiyaclar içərisində boğulan Naxçıvan diyarının yoxsul əhalisinin kasıb cibindən 80. 000 rubl oğurlamışdır, bəs sonra nə oldu? Naxçıvan diyarının sabiq məsul işçisi Şamil Mahmudbəyov, Tahirov digərləri ilə birlikdə Zaqafqaziya Fövqəladə Komissiyasına kollektiv şəkildə bildirmişlər ki, onlar Mirtağıyevi təmiz, qüsursuz bir yoldaş kimi tanıyırlar və onun həbsini təəssüf doğuran yanlışlıq hesab edirlər. Xalq Komissarları Sovetinin sədri Əsəd Axundovun son vida əmrinə və buna cavab kimi Naxçıvan diyarına rəhbərlik edən yoldaşların ona təqdim etdikləri təbriknaməyə nəzər salsaq, onların bütün antikommunist simalarını

və cinayətkar ört-basdır siyasətlərini aydın görə bilərik.

1921-ci ildə həyata keçirilən təmizləmə lazımi nəticəni verməmiş və hətta elə alınmışdır ki, məsul işçilərin himayədarlığı sayəsində təmizlənənlər az-çox etibarlı ünsürlər olmuş, cinayətkarlar isə qalmışdır.

Həm təşviqat, həm də təşkilatçılıq sahələrində partiya işinin yoxluğu aşağı sovet və partiya işinə də olduqca mənfi təsir göstərmişdir.

Partiya üzvləri siyasi cəhətdən tamamilə savadsızdırlar, onların böyük əksəriyyəti kəndə öz partiya vəzifələrini tamamilə anlamırlar. Hər yerdə kəndlərdə müşahidə olunan bu idi ki, oradakı kommunistlər bizim onlara qarşı mübarizə aparmalı olduğumuz kommunist qolçomaqlardır. Sui-istifadə, sıxışdırma, rüşvətxorluq və s. və ilaxır yerlərdə partiyanın nüfuzuna hər cür ziyan vurmuşdur.

Məsələn, bu da Külüs kəndindəki, 3 üzvdən və 1 namizəddən ibarət olan 19 №-li özəyin iclas protokolu:

**14/11 №-li PROTOKOL**

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Hökumətə bilavasitə yaxın olmaq (Məmmədəli Məmmədəliyevin məruzəsi) | 1. Nəzərə alınsın və hökumətə bilavasitə yaxın olaraq, əhalinin nümunə götürməsi üçün düzgün işləmək. |
| 2. Bizim hakimiyyətimizin irəli getməsinə çalışmaq. | 2. Özək yekdilliklə bəyan etdi: “Canımızda nə qədər qanımız varsa, bu hakimiyyəti irəliyə aparmağa və çar qolçomaqları ilə hər cür mübarizəyə çalışacağıq. |
| 3. Cari işlər | 3. Cari iş yoxdur. |

**29/1 tarixli 3 №-li PROTOKOL**

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Sovet hakimiyyətinin əsas qanunları (Minavərin məruzəsi) | 1. Nəzərə alınsın və “hökumət üçün işləməyə söz veririk”. |
| 2. (aydın oxunmur). | 2. (aydın oxunmur). |

**3 /IV-5-ci il tarixli 8 №-li PROTOKOL**

1. Partiyanın nizamnaməsi haqqında (məruz. Quliyev).

“Biz kommunistlər, təntənəli surətdə vəd edirik ki, son qaşıq qanımıza qədər öz gücümüzlə bizim hökumətimizi qoruyacağıq”.

2. Hökumətə kömək haqqında (məruz. Balakişi Hüseyn).

“Ən etibarlı ünsürləri partiyaya qəbul edəcəyimizə təntənəli surətdə söz verir və partiyanın bütün qərarlarını həyata keçirəcəyimizə and içirik”.

3. Cari işlər. Yoldaş Rəfiyevin təklifi.

Naxçıvan Diyar Komitəsindən yoldaş Rıkovun verdiyi vəsaitdən kasıblar üçün 7 milyon rubl ayrılmasını xahiş etmək.

İndi isə Bulqan kəndindəki özəyin bir neçə protokolunu nəzərdən keçirək:

**PROTOKOL**

1. Yoldaş Leninin vəfatına dair (məruz. Mustafayev)

“Yoldaş Leninin vəfatının ildönümü münasibətilə təşviqat və təbliğat işini layiqli şəkildə aparacağımıza” söz veririk.

2. Bir nümayəndənin komsomola seçilməsi.

Komsomolçular arasında iş aparmaq üçün yekdilliklə yoldaş Məmmədovu seçmək.

3. Kənd sovetinə seçkilər.

Kənd sovetinə ən yaxşı kəndli yoldaşları seçmək.

4. Cari işlər.
Cari iş yoxdur.

Bu da bizim buraxılmamışdan əvvəl Naxçıvan təşkilatındakı özəklərimizin iş nümunəsi. Burada misal gətirilən özəklərdən başqa, bundan daha da pis vəziyyətdə olan, gündəliyə Bonar Lou, Llyod Corc və sair ilə bağlı beynəlxalq vəziyyət haqqında məsələlər daxil edən özəklər də var. Bu özəklərin bütün protokollarını alan kimi, Təşkilat Şöbəsinin müdiri və Naxçıvan Diyar Komitəsinin katibi onların üzərinə "İşə tikilsin" dərkənarı qoymuş və bununla da kifayətlənmişlər. Bütün sorğu və təhqiq zamanı elə bir özəyə rast gəlmədik ki, orada iş əvvəlcədən nəzərdə tutulmuş iş planı üzrə aparılmış olsun – bu barədə heç kim, nə təlimatçı, nə də Naxçıvan Diyar Komitəsinin özü heç bir təlimat, heç bir göstəriş verməmişdir.

Gündəlik məsələlərin seçimində özəklər öz başına buraxılmış, onlar öz axarlarına uyğun hərəkət etmiş, əksər hallarda ağıllarına gələn – vergidən azad olmaq, güllə, tüfəng, revolver, hansı şəkildəsə fantaziyalarında peyda olan 7 000 000 rubl əldə etmək kimi qənimətçilik xarakterli məsələləri qaldırmış, ancaq, məsələn, kənd təsərrüfatı kooperasiyasının yaradılması, yer quruluşu işləri, Qarşılıqlı Yardım Komitəsinin təşkili kimi kəndlilərin zəruri maraqlarını əks etdirən məsələlər heç cür müzakirə edilməmişdir, çünki onların bu məsələlər barədə heç bir təsəvvürü olmamışdır.

Bitərəf kəndli kütləsinin kommunist özəklərinə münasibəti necədir?

Yerlərdə işin gedişi ilə bağlı aparılan müfəssəl tanışlıq göstərdi ki, bizim kəndlərdəki kommunist özəklərimiz heç bir nüfuza malik deyillər və belə bir faktı qəti şəkildə etiraf etmək lazımdır ki, partiya özəkləri öz əndazəsiz hərəkətləri və əməlləri ilə yoxsulları özlərindən uzaqlaşdırmışdır, çünki bu özəklər əksər hallarda antisovet ideologiya və taktikaya malik qolçomaq ünsürdən ibarət olmuşdu və bu səbəbdən də kəndlərdəki həmin özəklər yalnız onlara doğma olan qolçomaq təbəqəsi tərəfindən dəstəklənmişlər.

Tərkibində həm qolçomaq, həm də yoxsullar olan özəklərdə müəyyən təbəqələşmə, daxili mübarizə və çəkişmələr yaranmışdır.

Naxçıvan fəhləsinin xarakteristikasına keçərkən, qeyd etmək lazımdır ki, proletar fəhlə anlamında Naxçıvanda fəhlə olmamışdır və indi də yoxdur.

Burada yalnız öz kənd təsərrüfatı işlərini aparmaq üçün ucuz muzdur tutmaq imkanından istifadə edən kənd qolçomağı var; bu qolçomaq duz mədənləri, dəmir yolu və s. kimi sənaye müəssisələrinə gedib, duz mədənlərində olduğu kimi, 79 rubl 35 qəpik maaş almaq üçün orada fəhləyə çevrilir, fəhlə sayılır, ancaq eyni zamanda da öz qolçomaq təsərrüfatını genişləndirir.

Bütün bunlara baxmayaraq, üstəlik partiyanın da üzvü olan belə fəhlə öz kənd təsərrüfatı üçün lazım olan bütün mümkün imtiyazlardan istifadə edir, yəni kənd təsərrüfatı vergisini ödəmir, torpaq və su payını birinci növbədə alır və s.

Naxçıvan duz mədənlərinin fəhlələri məhz belə fəhlələrdir.

Səciyyəvidir ki, “26-lar” adına mədəndə olan 37 fəhlənin 11 nəfəri kommunistdir, yoldaş Lenin adına mədəndə isə 75 fəhləyə 46 partiyaçı düşür.

Beləliklə, ümumən duz mədənlərində işləyən – 112 fəhlədən 57-si partiya üzvdür, bundan əlavə, 30 nəfər partiyaya qəbul olunmaq üçün ərizə vermişdir, deməli, fəhlələrin partiya tərkibi 70 – 80%-dir, ancaq bu partiyaçı fəhlələrin mahiyyət etibarı ilə necə kommunist olduqların aşağıdakı fakt açıq göstərir:

Yoldaş Lenin adına mədəndəki özək 6 partiya üzvündən və 40 namizəddən ibarətdir, katib isə bitərəfdir. “26-lar” adına mədəndə də vəziyyət bu cürdür, orada özək katibi komsomolçudur.

Nəticədə, əlbəttə ki, bu cür partiyaçı işçilər yalnız partiyaçı və fəhlə adını daşıyırlar, partiya işi üçün onların tamamilə heç bir faydası yoxdur.

Daha sonra qeyd etmək lazımdır ki, duz mədənlərindəki fəhlələrdən başqa dəmir yolunda və pambıq təmizləmə zavodlarında da fəhlələr vardır.

Dəmiryolçu fəhlələr əsil proletardırlar, onlara güvənmək

olar, lakin təəssüf ki, onların sayı çox azdır. Doğrudur, dəmir yolu fəhlələri arasında da təsadüfi ünsürlər var, ancaq bu, onlara proletar ideologiyasına daha yaxın olaraq qalmaqda əngəl törətmir.

Pambıqtəmizləmə zavodlarında da fəhlələr vardır, ancaq onların böyük əksəriyyəti az şüurludurlar və dini fanatizmə yoluxmuşlar.

Ancaq demək olmaz ki, Naxçıvan diyarında təmiz proletar ünsürünə xas keyfiyyətlərə malik fəhlə yoxdur, zira hal-hazırda müxtəlif həmkarlar ittifaqı sahələrinin 400 işsiz üzvü var, onlar səfil-sərgərdan dolaşır və öz işçi əllərindən savayı heç nələri yoxdur.

Bütün bədbəxtlik ondadır ki, onların hətta iş tapacaqlarına belə ümidləri qalmayıb, çünki Naxçıvan diyarında mövcud olan yeganə iri sənaye sahəsi – məhz duz mədənləri sözün əsil mənasında fəhlə kommunistlər, yəni kommunist qolçomaqlar tərəfindən inhisara alınıb; onlar duz mədənlərində boşalan yerlərə Naxçıvan Diyar Komitəsinin putyovkası ilə göndərilirlər, özü də oraya göndərilən bu kommunist-qolçomaq fəhlələr əksər hallarda heç həmkarlar ittifaqlarının üzvləri də olmurlar, halbuki, əmək birjasında həmkarların üzvü olan, öz növbələrini illərlə gözləyən çox sayda əsil proletar var.

Sıravi partiyaçılar arasında siyasi dərk və inkişafdan söhbət gedə bilməz, çünki onların 90 %-i savadsızdır, bir də ki, Naxçıvan Diyar Komitəsinin katibindən tutmuş Təşkilat şöbəsinin müdirinə qədər aparatın özü hətta partiya nizamnaməsini bilmədiyi halda onlar harada və nə öyrənə bilərdilər, buna görə də siyasi, marksist təhsil barədə danışmağa dəyməz.

Milli məsələyə keçərkən, qeyd etmək lazımdır ki, Naxçıvan Diyar Komitəsi Naxçıvan diyarı üçün çox böyük əhəmiyyət kəsb edən bu məsələyə nəinki heç bir diqqət yetirməmiş, əksinə, yenə də öz lüzumsuz əməlləri və hərəkətləri ilə milli məsələnin mürəkkəbləşməsinə rəvac vermişdir.

Məsələn, müəyyən edilmişdir ki, partiyaya qəbul zamanı milli prinsipə riayət olunmuş, hər ikisi muzdur olan türk və er-

məni ərizə verəndə nədənsə türkü qəbul etmiş, ermənini isə qəbul etməmişlər.

Digər kəndlərlə birlikdə komissiya tərəfindən təhqiq edilən Ülya-Noraşen kəndi 1927-ci ilin[1] sonlarında türklərlə ermənilərin bir-birinə düşmən kəsilən iki cəbhəyə bölünərək, bir-birinə qarşı çıxdığı, bir-birini əzişdirməyə hazır olduğu vaxtda necə vardısa, indi də o cürdür.

Bu kəndin erməniləri bildirirlər ki, onlar türklərlə yaxın qonşuluqda yaşamaq istəmirlər, türklər də eyni şeyi ermənilər haqda deyirlər.

Bu məsələ ehtiyatlı diqqət tələb edir, çünki o bir çox səbəblər üzündən və təcili tədbirlər görülmədiyi təqdirdə acınacaqlı nəticələrə gətirib çıxara, Naxçıvan diyarında bizim sovet milli siyasətinə zərbə vura bilər. Ancaq, xoşbəxtlikdən komissiya tərəfindən müvafiq tədbirlər görülmüş və məsələ yoluna qoyulmuşdur, gələcəkdə isə tədricən qəti şəkildə ləğv ediləcəkdir.

Daha sonra, qadınların köləlikdən azad edilməsi barədə danışarkən, etiraf etmək lazımdır ki, vilayətdə bu sahədə tamamilə iş aparılmamışdır. İrana yaxınlıq və onun təsiri, əhalinin geriliyi və fanatizm bu baxımdan Naxçıvanın müsəlman və hətta müsəlmanlara ərə gedən rus qadınları üçün elə bir şərait yaratmışdır ki, onu heç Türkiyədə də görə bilmərik: burada tamam qapalılıq, ciddi surətdə çadraya bürünmə və ictimai yerlərdə görünməyə cəsarət edən hər bir qadının təqib edilməsi və s. müşahidə olunur.

Bu sahədə hələlik heç bir iş görülməmişdir. Belə bir rüsvayçı təzahürün səbəbi yenə həmin partiya təşkilatları rəhbərlərinin, Naxçıvan diyarının sabiq başçılarının əməllərində gizlənir; onların özləri , çox güman ki, qadına o cür – kişi ilə birlikdə hardasa görünməyi qadağan edən münasibət bəsləmiş, partiya təşkilatlarının kommunist rəhbərləri olduqları halda, hər bir müsəlman kimi öz arvadlarını öz evlərinin qadın hissəsində gizlətmiş, çadraya büründürmüş, hətta onların özləri ilə birlikdə

1. *Orijinalda bu cür yalnış verilmişdir. Çox güman ki, söhbət 1921-ci ildən gedir. (Redaktorun qeydi.)*

yemək yemələrinə belə imkan verməmişlər.

Qadınlar arasında iş aparmaq məsələsini isə onlar orijinal şəkildə başa düşmüşlər: təşviqat aparmaq əvəzinə qadınların arxasına düşməkdən, müəllimələrə sataşmaqdan utanmamış, müəllimlər seminariyasını isə yalnız bir məqsədlə – özlərinə nişanlı seçmək üçün ziyarət etmişlər, həm də bu zaman yaşı 13 keçməyən qızları seçmişlər. Yalnız bitərəf müəllimələrin mətnliyi sayəsində onlar bu iyrənc niyyətlərini axıradək həyata keçirə bilməmişlər. Bütün bunlar, Naxçıvan əhalisinin geriliyi ilə birlikdə buna gətirib çıxarmışdır ki, heç bir bitərəf, ciddi əsaslara malik olduğu üçün öz qızını və ya arvadını qadın klubuna, yığıncaqlara və s. buraxmağa, əlbəttə ki, razı olmamışdır.

İndi isə komsomolçular arasında iş haqqında. Bu təşkilat əhali kütləsi arasında öz aktivliyi ilə seçilən, daha canlı bir təşkilatdır, ancaq, təəssüf ki, siyasi cəhətdən inkişaf etməmiş və savadsızdır. Kənd komsomolçuları, əgər onların arasında intensiv siyasi iş aparılarsa, gələcək üçün böyük ümidlər verir.

Ancaq şəhər komsomol təşkilatı heç bir şeyə yaramır: bu insanlar artıq mənəvi cəhətdən pozulmuşlar və öz zərərli təsirlərini kənd komsomol təşkilatlarına da yaymamaları üçün onların buraxılması lazımdır.

Şəhər gənclərinin pozğunluğu haqda danışarkən göstərmək lazımdır ki, o öz pozğunluğuna görə yenə də bizim Naxçıvan diyarında malik olduğumuz həmin məsul işçilərə borcludurlar.

Qazıyevin hamamda kisəçini, Həmkarlar İdarəsi Bürosunun sədri Mahmudovun öz kabinetində oğlan uşağını zorlaması, Ordubadda Mahmudbəyovun oğlan uşağını zorlaması və digər bu cür hadisələr aydındır ki, böyüməkdə olan gənc nəslin psixologiyasına mənfi təsir göstərməyə bilməzdi.

Bütün bu bədnam əməllər Diyar Komitəsinə və Naxçıvan Xalq Komissarları Sovetinə məlum idi, ancaq Diyar Komitəsi belə materialları sandıqda gizlədirdi. Hamının bütün bu biabırçılıqları, vəhşilikləri eşitdiyi və haqqında danışdığı halda, partiya və sovet müəssisələrinə rəhbərlik edən şəxslər inadla susmuş, öz

silahdaşları və yoldaşlarının bu rüsvayçılıqlarını hər vəchlə gizlətməyə çalışmışlar.

Ən xoş təəssüratı pioner təşkilatları oyatmışdır. Belə əvəzedicilər, belə pioner təşkilatı Azərbaycan Respublikasının heç bir yerində yoxdur. Onların başdan-ayağa hamısında təhsilə həvəs, qeyri-adi aktivlik, inkişaf və inadkarlıq müşahidə olunur. Onlar bütöv qruplar halında 30-40, bəzən isə daha çox verst yolu piyada qət edib gəlir, yalvararaq, məktəb, dərs vəsaiti istəyir, mitinqlərdə, iclaslarda iştirak edir, ağıllı nitqlər və təkliflər söyləyirdilər.

Ancaq, təəssüf ki, onların, bu pioner təşkilatlarına tələb olunan kommunist tərbiyəsi ruhunda müəyyən istiqamət verə biləcək rəhbərləri yoxdur.

İndi isə mədəni-maarif işi haqqında.

Əslində Naxçıvan Diyarında belə bir iş olmamış və indi də yoxdur, halbuki əhali arasında, xüsusən də böyüməkdə olan gənc nəsil arasında fövqəladə dərəcədə mədəni aclıq müşahidə olunur.

7000 kollektiv ərizənin ən azı 10%-i qiraət komalarının, axşam kurslarının, siyasi savad kurslarının və s. açılması barədə xahişlərdən ibarət olmuşdur. Kağız üzərində Naxçıvan Diyarında 12 qiraət koması olsa da, onlar tamamən anlaşılmaz bir şeydən başqa heç nə deyil və olmasalar ondan yaxşıdır, çünki indiki halında onlar kəndliləri yalnız qıcıqlandırır.

Naxçıvan kəndliləri nə siyasi xətt, nə həmkarlar işi, nə kooperativ, nə də aqronomiya barədə heç bir söhbət eşitməmiş, heç bir yığıncaq görməmişlər. Qadınlar arasında da heç bir mədəni-maarif işi aparılmamışdır.

Naxçıvan Respublikasında siyasi vəziyyətin xarakteristikasının ümumi cizgiləri belədir, yuxarıda göstərilən faktlar onun çox ümidsiz və qeyri-kafi olduğunu göstərir. Sovet ideyalarını kütlələr arasında geniş yaymaq, partiyanın nüfuzunu yüksəltmək, geniş zəhmətkeş kütlələrini partiya-sovet quruculuğuna cəlb etmək üçün heç bir iş görülməmişdir; bütün bunlara rəğmən Naxçıvan kəndlilərinin sovet hakimiyyətinə qarşı loyallığını, hətta bundan da əfzəl riqqət doğurucu sədaqətini və gec-tez əsil

kommunistlərin, əsil sovet hakimiyyətinin gəlib çıxacağına və onlara kömək edəcəyinə, yaxşı tanıdıqları bəylərin, müsavatçıların, qorodovoyların, qolçomaqların və s. onlara qarşı törətdiyi bütün bu "sovet" biabırçılığına son qoyulacağına olan möhkəm inamlarını necə itirmədiklərinə yalnız təəccüblənmək qalır.

Beləliklə, milli sürtüşmələrə gətirib çıxaran iqtisadi səbəbləri aradan qaldıraraq, partiya və sovet aparatını yeniləşdirərək, bununla da kəndlilərin sovet hakimiyyətindən umduqları bütün arzu və istəklərini yerinə yetirərək, Naxçıvan diyarında siyasi vəziyyəti tamamilə möhkəm, sabit duruma gətirmək, savadsızlığın və siyasi geriliyin ləğv edilməsi sahəsində bundan sonra intensiv iş aparmaqla Naxçıvanın zəhmətkeş kütlələrinin sovet hakimiyyəti və kommunist partiyasına cəlb edilməsi istiqamətində başlanmış işi başa çatdırmaq olar.

## III. HƏMKARLAR İŞİ

Həmkarlar xətti üzrə ilk növbədə aşağı həmkarlar ittifaqları özəkləri təhqiq edilmiş, orda çoxlu nöqsanlar üzə çıxarılmışdır. Belə ki, məsələn, 253 nəfərə xidmət edən toxucular ittifaqı özünün aşağı özəklərindən aralı düşmüş, indiyə kimi onlarla əlaqəni qaydaya sala bilməmişdir. Yerli komitənin işi axsayır, yerli komitə rəhbərləri həddən artıq tez-tez dəyişdirilir, yerlərə təlimatlar göndərilmir. Yerli komitələrin bütün işi üzvlük haqlarının ödənilməsi barədə bir neçə sənədi saxlamaqdan ibarətdir. Orada nə təlimat, nə də digər göstərişlər yoxdur.

Yerlərdə təşkilati işdən danışmağa dəyməz.

Fəhlələr bağlanmış kollektiv müqavilələrin məzmunundan tamamilə xəbərsizdirlər, belə ki, həmin müqavilələrin hətta surətləri belə mövcud deyil. Mədəni iş tamamilə aparılmır, ittifaq öz işsiz üzvlərinə heç bir kömək göstərmir, bu isə çox vacibdir, çünki Naxçıvan diyarında toxucuların işi mövsümi xarakter daşıyır. Fəhlələr üzvlük kitabçası ilə vaxtında təmin olunmurlar. Azərbaycan şöbəsinin nümayəndələri bir dəfə olsun Naxçıvanı ziyarət etməmişlər.

137 üzvü birləşdirən mədənçilər ittifaqı son dərəcə zəifdir. İttifaqın fəhlə üzləri arasında nizam-intizam yoxdur, onlar çox vaxt işə səhər saat 7-də gəlmək əvəzinə 10-da gəlirlər.

Təsərrüfat orqanları ilə əlaqə yaradılmayıb, mədənçi fəhlələrin heç də hamısı ittifaq üzlüyünə cəlb edilməyib. İttifaq mədənçilər arasında yaranmış fövqəladə mənzil böhranının aradan qaldırılması üçün heç bir tədbir görmür.

Torpaq və meşə işçiləri həmkarlar ittifaqı 1129 nəfəri birləşdirir, onlardan 1114-ü muzdurdur. Digər ittifaqlarla müqayisədə buradakı iş az-çox etibarlıdır. Ancaq ittifaq işəgötürənlərlə muzdurlar arasında könüllü müqavilələrin bərpa edilməsi işində düzgün xətt götürə bilməyib, nəticədə sahibkarlar muzdurlarla məcburi müqavilə bağlamaqdan yayınmaq üçün onları işə qəbul etmirlər. Üzvlük haqları indiyədək yığılmayıb. Muzdurlar arasında savadsızlıq 100%-dir.

Tikinti işçiləri ittifaqı 550 nəfəri birləşdirir – ancaq yalnız kağız üzərində; belə ki, praktikada ittifaq hətta öz üzvlərinin harada olduqlarını belə bilmir. İttifaq üzvlərinin işi çox vaxt ittifaqdan xəbərsiz, şəxsi qarşılıqlı müqavilələr əsasında aparılır. Azərbaycan şöbəsinin nümayəndəsi Naxçıvan diyarına yalnız bu ilin aprelində gəlmişdir.

Qalan bütün ittifaqlar təxminən bu vəziyyətdədirlər. Naxçıvan diyarında savadsız ittifaq üzlərinin sayı 1913 nəfərdir. Savadsızlığın ləğvi üçün 9 qrup açılmışdır, onlardan biri erməni dilindədir.

İstirahət guşələri yoxdur və onların təşkilinə hələ başlanılmayıb.

Ümumi ittifaq qiraətxanası və kitabxanası var, onun nəzdində yeganə Lenin guşəsi təşkil olunub. Bütün dərnək işi dram dərnəklərinin təşkilindən ibarətdir.

Qəza Həmkarlar Bürosunda tarif-iqtisadi işi aparılmamışdır, zira kollektiv müqavilələrin böyük hissəsi Azərbaycan şöbələri ilə, xırda müəssisələrlə isə müstəqil şəkildə ittifaqın Naxçıvan şöbələri tərəfindən bağlanır.

Azərbaycan şöbələri ilə bağlanan müqavilələrin surətləri təkcə Qəza Həmkarlar Bürosunda deyil, hətta ittifaqın Naxçıvan şöbələrinin çoxunda yoxdur, bu da əmək haqqının yüksək həddini və onun müharibədən əvvəlki dövrün əmək haqqı həcminə görə faiz nisbətini müəyyən etməkdə çox böyük çətinlik törədir. Buna görə də belə hallarda PSU-nun məlumatlarını əldə rəhbər tutmaq lazım gəlir. İşsizlərin uçotu aparılmamışdır və onlara heç bir kömək göstərilməmişdir.

Bir sözlə, Naxçıvan Respublikasında həmkarlar işi lazımi dərəcədə yüksək səviyyədə deyil. Bu sahədə konkret olaraq heç bir iş görülməyib, heç bir uğur, heç bir nailiyyət qazanılmayıb.

Mədəni-maarif işi, həmkarlar intizamının tətbiqi, ittifaqlarda birləşən zəhmətkeşlərə fəal həmkarlar köməyi – bütün bunlar Naxçıvan Respublikası üçün yalnız şirin arzulardır.

## IV. SOVET APARATI

**Sovetləşmə tarixi.** Naxçıvan Sovet Sosialist Respublikası 1920-ci il iyulun 27-də sovetləşmişdir. Hakimiyyət orqanları 1920-ci ilin axırınadək təşkil edilmiş və möhkəmləndirilmiş və ərazi Muxtar Diyar adlandırılmışdır.

1921-ci ildə bir çox siyasi səbəblərə və obyektiv şəraitə əsasən Naxçıvan Diyarının adı dəyişdirilərək Respublika olmuş, bununla yanaşı həm də Konstitusiyaya əsasən hər bir Sovet Sosialist Respublikası üçün nəzərdə tutulan bütün xalq komissarlıqları və müəssisələr təşkil edilmişdir.

1923-cü ildə Respublika yenidən Naxçıvan Diyarı adlandırılmış və Naxçıvan Respublikasının sovet aparatı yalnız 1924-cü ildə qəti şəkildə təşkil olunmuşdur və o, indiyə kimi dəyişməz olaraq qalır.

**İnzibati bölgü.** Hal-hazırda Naxçıvan respublikası üç qəzaya bölünür: Naxçıvan qəzası, beş dairə icraiyyə komitəsi ilə birlikdə: Tumbul, Əbrəqunus, Cəhri, Şahbuz və Culfa.

Şərur qəzası, dörd dairə icraiyyə komitəsi ilə birlikdə: Qıvraq, Yengicə, Noraşen və Sədərək.

Ordubad qəzası, üç dairə icraiyyə komitəsi ilə birlikdə: Yuxarı Axın, Yuxarı Əylis və Parağa.

Bundan əlavə hər bir dairə 4-dən 10-a qədər kənd sovetini birləşdirir. Cəmi 86 kənd soveti var, onlar da öz növbəsində 216 yaşayış məntəqisini birləşdirir və onlara xidmət edir.

**Aparatın strukturu.** Naxçıvan Respublikasının bütün sovet aparatına Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Naxçıvan Xalq Komissarları Soveti rəhbərlik edir.

Əslində Naxçıvan MİK yalnız kağız üzərində mövcuddur, belə ki, onun nə ayrıca öz sədri, nə də öz aparatı var. Bütün bunlar Naxçıvan Xalq Komissarları Soveti tərəfindən əvəz edilir.

Naxçıvan Xalq Komissarları Soveti, ümumi dəftərxanadan savayı, Statistika şöbəsinə (Naxçıvan MSİ), Siyasi Büroya və Diyar Plan İdarəsinə malikdir.

Xalq Daxili İşlər Komissarlığının bu şöbələri var: Ümumi, Təşkilat, Yerli Təsərrüfat və İnzibati-Milis İdarəsi və Mühasibat.

Xalq Maarif Komissarlığı Təlimat və Diyarşünaslıq şöbələrindən, üstəgəl Siyasi Maarif İdarəsi və Mühasibatdan ibarətdir.

Xalq Torpaq Komissarlığı ümumi şöbədən başqa Yer Quruluşu, Baytarlıq və Kənd Təsərrüfatı şöbələrinə malikdir.

Xalq Ədliyyə Komissarlığının ümumi şöbədən başqa yalnız prokurorluq şöbəsi var.

Xalq Səhiyyə Komissarlığının kiçik ümumi şöbədən başqa heç bir digər şöbəsi yoxdur.

Xalq Əmək Komissarlığı Müvəkkilliyi də yalnız dəftərxanadan ibarətdir və Sosial Təminat Şöbəsi ona birləşdirilib.

Fəhlə-Kəndli Müfəttişliyi xətti üzrə yalnız bir müvəkkil mövcud idi.

Xalq Maliyyə Komissarlığı Müvəkkilliyi nisbətən düzgün qurulmuş və öz işini düzgün aparmışdır.

Qəza İcraiyyə Komitələri heç bir müvafiq şöbəyə malik deyildir və onların əvəzinə yalnız müxtəlif xalq komissarlıqlarının müvəkkilləri vardır.

Sovet aparatı strukturunun təmiz texniki-təşkilati qüsurla-

rından savayı komissiya tərəfindən həm ayrı-ayrılıqda hər xalq komissarlığı, həm də ümumən Naxçıvan Respublikasının bütün sovet aparatı üzrə çox sayda digər nöqsanlar aşkar edilmişdir.

Belə ki, məsələn, tələbnamələrin yoxlanması zamanı, demək olar ki, bütün xalq komissarlıqlarında onların tərtibi, saxlanması və həmçinin onlar üzrə hesabatlarda ən yolverilməz qüsurlar üzə çıxarılmışdır.

İki Qəza İcraiyyə Komitəsinin sədrinə eyni ay üzrə iki dəfə maaş verilmiş, həm də bu pul geri qaytarılmamışdır.

Ştatlar çox vaxt özbaşına tərtib edilmişdir, həm də ştatların nəyin bahasına olursa olsun və yüksək müəssisələrin sanksiyası olmadan şişirdilməsinə müəyyən meyl göstərildiyi qeydə alınmışdır.

Belə ki, məsələn, Xalq Komissarları Sovetində nə üçünsə praktikant qadın vəzifəsi təsis edilmiş, həmin qadın iki ay işlədikdən sonra hamiləliyə görə dörd aylıq məzuniyyət almışdır. Həm xalq komissarlıqlarının, həm də icraiyyə komitələrinin əməkdaşlarına əmək haqları uzun gecikdirmələrlə və bəzən də natamam verilmişdir.

Hətta bəzi məsul işçilər tərəfindən əvəzləməyə görə dərhal iri məbləğdə maaşlar alınmışdır ki, bu da düzgün deyil.

Maaşın alınmaması motivləri üzrə təhtəlhesab məbləğlərinin tutulması hallarına yol verilmişdir.

Bu zaman bəzilərinə maaş fərqi verilsə də, digərlərinə bu verilməmişdir.

Belə bir hal da olmuşdur ki, xalq daxili işlər komissarı şəxsi motivlər əsasında makinaçıya 3 aylıq əmək haqqını vermək istəməmişdir.

Maaşların verilməsinə dair cədvəllər heç də həmişə tam təmizlənməmiş, onlar üzrə qalan pullar qaytarılmamışdır.

Qəza icraiyyə komitələri idarələrində mədaxil və məxaric üzrə hesabatların yoxluğu müşahidə olunmuşdur.

Bir sıra digər nöqsanlar və bilavasitə cinayətkarlıq, səhlənkarlıq və s. faktları qeydə alınmışdır, ancaq bunlar barədə aşağıda, hər bir xalq komissarlığında işlərin təsviri zamanı danışılacaqdır.

**Aparatın dəyəri.** Naxçıvan Respublikasının sovet aparatı, ərazi üzrə Azərbaycan SSR-in istənilən qəzasından çox böyük olmasa da, kifayət qədər böyük məbləğə başa gəlir. Sovet aparatının aylıq saxlanma xərcləri təxminən bu cürdür: aşağı aparatın və Xalq Daxili İşlər Komissarlığının saxlanmasına 14. 352 rubl 53 qəpik sərf olunur.

Xalq Maarif Komissarlığı 10. 951 rubl 66 qəpiyə başa gəlir.

Xalq Torpaq komissarlığı – 1772 rubl 24 qəpik.

Xalq Ədliyyə Komissarlığı – 2858 rubl 288 qəpik.

Xalq Səhiyyə Komissarlığı – 25 555 rubl 10 qəpik.

Xalq Maliyyə Komissarlığı Müfəttişliyi – 2333 rubl 24 qəpik.

Xalq Əmək Komissarlığı Müfəttişliyi – 404 rubl 09 qəpik.

Naxçıvan Respublikasının bütün sovet aparatı hər ay cəmi 36 789 rubl 99 qəpiyə başa gəlir, bu ildə 441 000 rubl 88 qəpik edir, halbuki istənilən qəza icraiyyə komitəsinə maksimum 200 000 rubl sərf olunur.

**Aşağı aparat.** Partiya işinin son dərəcə zəif olması və bir çox digər obyektiv səbəblər, yəni yerlərdə yaxşı hazırlıqlı, savadlı, siyasi cəhətdən inkişaf etmiş kadrların yoxluğu, Naxçıvan Respublikası Xalq Daxili İşlər Komissarlığı tərəfindən rəhbərlik edilməməsi üzündən aşağı aparat elə bir vəziyyətdədir ki, ondan danışmağa dəyməz.

Sovetləşmə günündən indiyə kimi nə bir dairə, nə də qəza icraiyyə komitəsi, xüsusən də kənd soveti nə təhqiq olunmuş, nə təlimatlandırılmışdır.

Məsul işçilərin qəzalara, qəza işçilərinin rayonlara, onlarınkının isə kənd sovetlərinə təhkim olunması işi həyata keçirilməmişdir.

Nəticədə bütün yerli işçilər sovet quruculuğu haqda dumanlı təsəvvürə malik olmuş, tam məsuliyyətsiz və qanunsuz bir anlayışla necə gəldi, öz bildikləri kimi işləmişlər.

Nəticədə aşağı inzibatçılar tərəfindən yerlərdə son dərəcə çox sayda cürbəcür biabırçılıqlar və qanunsuzluqlar törədilmişdir. Xüsusilə də, bu inzibatçıların özləri böyük əksəriyyət etibarı ilə

keçmiş bəy, xan, zəngin, jandarma və s. kimi inqilab tərəfindən süpürülüb atılmış ünsürlərdən ibarət olmuş və öz hakimiyyətlərindən yalnız kəndlilərin və sovet hakimiyyətinin ziyanına istifadə etmişlər.

Aşağı işçilərin həm təşkilati, inzibati, statistik iş üzrə, həm də xüsusilə təsərrüfat sahəsində heç bir anlayışı və qavrayışı olmamışdır. Onların çoxu sovetlərin canlandırılması barədə heç vaxt heç nə eşitməmişdir. Onlar heç bir seksiya tanımırlar və sovet quruculuğuna dair bir çox suallara cavab verərkən bu başa bəla işçilər təəccüb içərisində gözlərini döyür və etiraf edirdilər ki, belə şeylər haqqında ömürlərində ilk dəfədir eşidirlər.

Ümumən aşağı aparat, ayrı-ayrılıqda hər bir aşağı işçi üzərində nəzarət olmamışdır, hətta aşağı aparat işçilərinin ümumi iclasları belə keçirilməmiş və heç kim heç vaxt heç kimin qarşısında hesabat verməmişdir.

Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı tərəfindən göndərilən sovet quruculuğuna dair çoxsaylı broşür, bülleten və təlimatlara, təhqiq edilən heç bir dairə icraiyyə komitəsində və kənd sovetində rast gəlinməmişdir.

Hətta Bakıda nəşr olunan "Sovet quruculuğu" jurnalı da yerlərə yol tapmamışdır.

Bütün bunlar vaxtlı-vaxtında alınmış və Babayevin kabinetindən o yana getməmişdir, beləliklə, Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının sovetlərin canlandırılmasına dair heç bir təşəbbüsü həyata keçirilməmiş, Naxçıvan diyarının aşağı işçiləri onlar barədə heç nə eşitməmişlər.

Dairə icraiyyə komitələrində və kənd sovetlərində kargüzarlıq işinə gəldikdə isə, o, aşağıdakı vəziyyətdə olmuşdur: qəza icraiyyə komitələrində yalnız gələn və gedən sənədlərin qeydiyyat jurnalı, bir də əmr və protokol kitabı vardır – başqa heç nə.

Dairə icraiyyə komitələrində bundan da az kitab, əksər hallarda yalnız gələn və gedən sənədlərin qeydiyyat jurnalı mövcud olmuşdur.

Kənd sovetlərinin kargüzarlıq işi ilə bağlı bunu demək

olar ki, onların əksəriyyətində belə bir iş yoxdur, əgər haradasa var isə, o da baş-ayaq tikilmiş, son dərəcə əzik-üzük halda olan dəftərlərdən ibarətdir.

İşdə heç bir plan, nə seksiyalar üzrə bölgü, nə də qəza icraiyyə komitələrinin ayrı-ayrı üzvləri arasında iş bölgüsü olmamışdır və buna görə də çox vaxt elə olmuşdur ki, icraiyyə komitəsinin bir üzvünün verdiyi tapşırıq, dərhal digəri tərəfindən ləğv edilmişdir.

Kənd sovetləri haqda həqiqəti söyləməli olsaq, kəndlərin əksəriyyətində belə bir şey tamamilə olmamışdır, çünki bina (dağıdılmış kəndlərdə) və zəruri mebel, dəftərxana kitabları və ləvazimatları, lövhə, fənər və bayraq çatışmır, bunlarsız isə kənd soveti faktiki olaraq hətta zahirən mövcud ola və tərtib edilə bilməzdi.

Hələ indinin özündə də sovetlərin çoxu keçmiş at tövlələrində, zirzəmilərdə, pəncərəsiz qazmalarda yerləşir, stol əvəzinə hansısa ağac kötüyündən istifadə edilir, daş üstündə əyləşirlər.

Kəndlilərin şikayət və ərizələrinə aşağı sovet aparatı orqanlarında, həmçinin yuxarı orqanlarda heç vaxt baxılmamış, eləcə orada sandığa atılaraq qalmış, ərizəçi heç vaxt onlara cavab almamışdır.

Sovet hakimiyyətinə soxulan və sovet aparatı orqanlarında əyləşən qeyri-proletar mənşəli hər cür mümkün tiplər tərəfindən kəndlilərə qarşı, ümumiyyətlə, ən iyrənc, ən biabırçı münasibət bəslənilmişdir.

Sovet işçiləri tərəfindən kəndlilərin bir neçə dəfə döyülməsi halı müəyyən edilmişdir, tapança ilə hədələmə, repressiya ilə qorxutma adi hal almışdır.

Kəndli ehtiyacına, onu şəxsiyyətinə laqeyd, xor münasibət bu inzibatçılar tərəfindən kəndlilərə münasibətdə xarakterik cəhət olmuşdur.

Zorakılıq, qanunsuzluq, özgəsinin əmlakını, hətta arvadı və qızlarını qəsb etmə üsulları adi məişət hadisələrinə çevrilmişdir.

Kəndlilərə qarşı öz mənfəəti, öz şəxsi haqq-hesabını çürütmək üçün öz xidməti vəziyyəti və inzibati hakimiyyətindən dəfələrlə istifadə olunmuşdur.

Qolçomaqlarla sıx əlaqədə olmaq, onların güclənməsinə hər cür yardım göstərmək, muzdurları isə əsarətə məhkum etmək – yerli hakimiyyətin yeritdiyi siyasət məhz bundan ibarət olmuş, sovet hakimiyyətinin kəndlilərlə birliyi bu cür həyat keçirmişdir.

Beləliklə, Naxçıvan kəndliləri belə bir aparat və işçilərin mövcud olduğu şəraitdə faktiki olaraq aşağı sovet aparatından məhrum qalmış və onların ən zəruri ehtiyaclarına belə heç bir xidmət göstərilməmişdir, sovet hakimiyyəti yerlərdə dəhşətli dərəcədə təhrif edilmiş, inqilabi qanunçuluq yerinə özbaşınalıq hökm sürmüş, kəndlilərə təsərrüfatlarını dirçəltməkdə kömək etmək əvəzinə onlardan yalnız vergi, çox vaxtda əsassız vergi yığılmış və əvəzində onlara heç nə verilməmişdir.

Kənd evlərinin, kəndli təsərrüfatının, suvarma şəbəkəsinin, son dərəcə baxımsız vəziyyətdə olması inzibatçılardan heç kimi narahat etməmişdir və kəndlilər öz həyatlarının düşmüş olduğu bu xaos və səfalətdən haçansa çıxacağına ümid bəsləməyə belə cürət etməmişdir.

Yerli sovet işçilərindən heç biri, sanki, düşünməmişdir ki, sovet işinin vəziyyəti, kəndli iqtisadiyyatının vəziyyəti nəinki yaxşılaşmır, hətta əksinə, getdikcə günbəgün pisləşir.

Dağılmış su sistemləri dağılmaqda davam etmiş, kəhrizlər uçmuş, yollar sıradan çıxmış, körpülər yox olmuş və bütün kənd yerlərində həyat getdikcə daha çox tənəzzülə uğramışdır.

Kəndlilər getdikcə daha çox canlı işçi qüvvəsi və bütün kənd təsərrüfatı inventarını itirməyə başlamışdı, təmir emalatxanaları yox idi, buna görə də kənd təsərrüfatı alətləri sınanda təmir imkanı olmadığı üçün, onlar tamam yarasız hala düşürdülər.

Ancaq kəndlilərin bütün bu bəlaları, ehtiyacları və həll edilməmiş problemləri Naxçıvan başçılarını hər şeydən az düşündürürdü.

Qəza icraiyyə komitəsi sədrlərindən biri yerli işçilərin çox böyük populyarlığından istifadə edərək, bütün sovet aparatının işini lazımi məcraya yönəltmək əvəzinə, orada törədilən cinayətləri üzə çıxarmaq və onların kökünü kəsmək əvəzinə, kəndlilərin köməyinə yetişmək əvəzinə, rayon mərkəzlərinə təntənəli səfərlər etmiş, bu zaman kəndlərə baş çəkməmiş, yalnız bəzən yolda qarşısına çıxan kəndlilərə cüzi miqdarda pul sədəqələri paylamışdır.

Kəndli təsərrüfatının yaxşılaşdırılması üçün mərkəzdən alınan pullar hər şeydən əvvəl şəhərin, bəzi hallarda isə şəxsi ehtiyacların ödənilməsinə sərf olunmuşdur.

Onun bu əlamətlərini görən digər müftəxorlar da mürgüləməmiş, xalq pulunu, materiallarını və digər vəsaitlərini kim nə qədər və harada bacardı, qarmalamışdır.

Rəhbərsiz, ideya dəstəyindən məhrum olan, lütləşmiş, canlı və ölü inventardan məhrum edilmiş, qolçomaqların ümidinə buraxılan yoxsul kəndlilər tədricən müntəzəm əməkdən soyumuş, yarıac yaşamış və dilənçi kökünə düşmüş, gələcək haqqında düşünmədən bu günlə yaşayaraq, sədəqə dilənməyə öyrəşmişdir.

Naxçıvanın mərkəzi işçiləri kənd təsərrüfatının düşdüyü bu fəlakətli vəziyyət, yoxsulluğun zəhmətkeş kütlələrə pozucu təsiri, Naxçıvan Respublikasının iqtisadi və siyasi həyatının əzəl-axır düşəcəyi çıxılmaz dalan barədə ciddi düşünmək əvəzinə, kəndləri gəzərkən özlərinə ucuz şöhrət qazanmaq məqsədilə əhaliyə pul və natura şəkildə sədəqə paylamağı lazım bilməklə özləri bu mənfi təzahürlərə yardımçı olmuş, bu sistemin doğurduğu həmin zərərli nəticələr haqqında tamamilə düşünməmişlər.

Bundan əlavə, əhaliyə həqiqi sabit istehsalat yardımı göstərmək üçün istifadə oluna biləcək vəsaitləri bu şəkildə dağıtmaqla onlar hər cür iqtisadi dirçəlişin yolunu kəsmişlər.

Öz əməlləri, üsulları və bütün davranışları ilə sovet hakimiyyətini təhrif etdiklərini və nüfuzdan saldıqlarını hesaba almasaq, onların başlıca günahı bundadır.

Xalq Daxili İşlər Komissarlığının rəhbərləri, xalq daxili işlər komissarı Babayev başda olmaqla, Naxçıvan partiya

təşkilatına soxulan o it sürüsünün ən bariz tipləri olmuşlar və tezliklə Naxçıvan Diyarı zəhmətkeşlərinin məhkəməsi önündə dayanacaqlar.

Aydındır ki, bu cinayətkar antiproletar ünsürlər, elə o cür tiplərdən seçilən aşağı aparata heç bir rəhbər göstərişlər verməmiş, heç bir iş aparmamışlar, bunun da nəticəsi olaraq aşağı aparatda belə bir vəziyyət aşkar edilmişdir. Ancaq, onlar özünütəchiz, oğurluq və ümumiyyətlə, hər cür mümkün qaranlıq əməllər mənasında çox əla "işləmişlər".

Bu baxımdan, on min rubldan çox pul oğurlayan xalq daxili işlər komissarı Babayevin özündən başqa, Kommunal Təsərrüfat İdarəsinin müdiri sabiq jandarm Əliyev xüsusilə fərqlənmişdir. Başqaları da onlardan geri qalmamışlar. Xalq Daxili İşlər Komissarlığının, demək olar ki, bütün ştatları bu cür cinayətkar tiplərdən ibarət olmuşdur. Daha ətraflı faktları və sənədləri hazırkı məruzədə vermək mümkün deyildir, çünki onlar hal-hazırda istintaq materialı hesab olunur və aşkarlana bilməz.

**Xalq Ədliyyə Komissarlığı**. Naxçıvan Respublikasının Xalq Ədliyyə Komissarlığı yalnız 1924-cü ilin yanvarında təşkil olunub. Respublikanın bütün ərazisi üzrə aşağıdakı məhkəmə müəssisələri vardır: dairə məhkəməsi, ali məhkəmə və üç xalq istintaq sahəsi.

Xalq Ədliyyə Komissarlığı öz strukturuna əsasən Prokurorluq Şöbəsinə və Ümumi Şöbəyə malikdir.

Dustaqxanalara baxan Xüsusi Şöbə yoxdur.

Xalq Ədliyyə Komissarlığının bütün ştatı yalnız 8 nəfərdən ibarətdir. Naxçıvan Respublikasının Ali Məhkəməsi 1924-cü ilin oktyabrında təşkil olunmuşdur, ancaq onun ştatları Azərbaycan Xalq Ədliyyə Komissarlığı tərəfindən indiyə kimi təsdiq edilməmişdir, buna görə də faktiki olaraq, hal-hazırda ali məhkəmə yoxdur və ali məhkəmə tərəfindən baxılası işlər getdikcə daha çox yığılaraq qalır.

Prokurorluq bir prokuror köməkçisi ilə təmsil olunur və o, başlıca olaraq, xalq dairə məhkəməsində baxılan işlərdə çıxış edir.

Qəzalarda prokuror nəzarəti yoxdur.

İki xalq müstəntiqi vakansiyası münasib işçi olmadığı üçün indiyə kimi boş qalmışdır. Məhkəmə aparatı ilə inzibati orqanlar arasında heç bir əlaqə yoxdur, məhkəmə sərəncamları yerinə yetirilmir, məhkəmə çağırış vərəqələri ünvanlarına çatdırılmır, bu səbəbdən bir çox işlərə baxmaq mümkün deyil. Ümumiyyətlə, Naxçıvan Respublikasının məhkəmələrinin yükü həddən artıq çoxdur, ona görə yox ki, iş çoxdur; yalnız ona görə ki, işçi yoxdur və bütün iş zəif qurulmuşdur.

Xalq Ədliyyə Komissarlığının, eləcə də bütün məhkəmə aparatının işi son dərəcə zəif olmuşdur, xüsusilə də buna görə ki, ona qatı fırıldaqçı keçmiş qorodovoy Qurbanov başçılıq etmişdir, hazırda o, həbs olunmuşdur və Naxçıvan Respublikasının Xalq Ədliyyə Komissarı kimi "məhsuldar" işinə görə istintaq edilir.

Əksər hallarda yüksək məhkəmə orqanlarının nümayəndələri vətəndaşlarla öz şəxsi haqq-hesablarını çürütmüş, sovet qanunlarına tamamilə riayət etməmişlər. Təhqiqat zamanı müəyyən edilmişdir ki, əvvəllər məhkum edilmiş şəxslərin bütün məhkəmə işləri cinayət xarakteri daşımamış və yuxarıda deyildiyi kimi yalnız şəxsi çəkişmələr əsasında qurulmuşdur, əsil cinayətkarlar isə bu zaman azad şəkildə gəzmişlər. Bunu da göstərmək artıqlıq etməz ki, prokuror özü prosesin gedişində məhkəmənin tərkibinə təzyiq göstərmiş və hakimlər məşvərətə gedəndə o da onlarla birlikdə məşvərət otağına girmiş və hökm onun diqtəsi ilə yazılmışdır.

Prokurorun öz şəxsi intiqamını almaq üçün qaldırdığı işlərə baxılarkən, müttəhim tərəfindən ciddi motivlərə malik olmaqla məhkəmənin tərkibindəki bu ya digər şəxsə və hətta prokurorun özünə etiraz edildiyi təqdirdə, belə bəyanatlar diqqətə alınmamışdır.

Başında tamamilə səriştəsiz, ancaq bir-biri ilə sıx bağlı olan şəxslərin dayandığı ali məhkəmə kassasiya şikayətlərinə baxarkən məhkəmə işi prosesinin necə aparıldığını nəzərdən keçirməmiş, yalnız həmin maddə üzrə çıxarılan hökmün düzgün olub-olmadığını araşdırmış, məhkəmə işində hər hansı bir ittiham

materialının yoxluğuna tamamilə diqqət yetirməmişdir. Bunlar ədliyyədə törədilən xaos, biabırçılıq və digər qanunsuzluqların yalnız kiçik bir hissəsidir.

Həmçinin belə bir faktı da göstərmək artıqlıq etməz ki, məhkəmə işində mövcud olan maddi sübutlar, məsələn qiymətli əşya, pul və digər əşyalar müsadirə olunduqları halda xəzinədarlığa və yaxud Xalq Maliyyə Komissarlığına təhvil verilməmiş, əksər hallarda isə məhkəməyə aidiyyəti olan şəxslər tərəfindən mənimsənilmişdir.

İstintaq nəticəsində müəyyən edilmişdir ki, Xalq Ədliyyə Komissarı, həmçinin respublika prokuroru olan Qurbanov Nikolay qızıl sikkələrini maddi sübut kimi özündə saxlamış, onları sərf etmiş və yalnız həbs olunandan iki gün əvvəl, fırıldaqlarının üstünün açıldığını hiss edərək, israf etdiyi qızılları kənar şəxslərin köməyi ilə ödənilməsinə əl atmışdır; bu şəxslər həmin qızılları onun üçün bazardan almışlar.

Beləliklə, yekun olaraq, qeyd-şərtsiz qanunçuluğun keşiyində durmalı, bütün biabırçılıqların kökünü kəsməli olan Xalq Ədliyyə Nazirliyi özü, partiyaya soxulan şəxslərin rəhbərliyi altında əsarət və cinayət vasitəsi, sovet hakimiyyətini, sovet ədliyyəsini nüfuzdan salmaq vasitəsi olmuşdur.

Sovet hakimiyyətinə soxulanların əməllərinə bu və ya başqa şəkildə etiraz edənlərin hamısını onlar məhkəmə ilə, istintaq ilə qorxutmuşlar, çünki ədliyyəyə öz adamlarının başçılıq etdiyini, kiçicik bir ehtiram məktubu ilə öz silahdaşlarının ona göstərdikləri şəxsi mühakimə edəcəyini, heç bir günahı olmasa belə, onun həmin şəxsi utanıb çəkinmədən məhkum edəcəyini yaxşı bilirdilər.

Beləliklə, xalq məhkəməsi əhaliyə yaxın olmamış, onun ehtiyaclarına xidmət göstərməmişdir və əhali də çox əsaslı və çox aydın səbəblər üzündən ona etibar etməmişdir.

**Siyasi Büro və sərhəd dəstəsi.** Naxçıvan Respublikasında cəza orqanı kimi Siyasi Büro mövcud olmuşdur, orada işin təşkili Diyarın bütün xalq komissarlıqlarında müvafiq işin təşki-

lindən heç də uzağa getməmişdir.

Orada da işdə xaos, nizamsızlıq, qarmaqarışıqlıq hökm sürmüşdür. Sənədlər səliqə-sahmansız saxlanmış və ümumilikdə bütün işin təşkili Naxçıvan Diyarının vəziyyəti barədə məruzədə təsvir olunan tələblərə uyğun səviyyədə olmamışdır.

İşçilərin seçilməsi də uğurlu və kafi sayıla bilməz. Əksər hallarda bunlar zəif hazırlığa malik və Fövqəladə Komissiya xətti üzrə yalnız bu yaxınlarda işləməyə başlamış şəxslər olmuşdur, onların çoxu türk dilini bilmirdilər.

Hal-hazırda onun tərkibi tamamilə yeniləşdirilmişdir və Naxçıvan Siyasi Bürosu kifayət qədər işçi kadrlarla təmin edilmişdir.

Sərhəd dəstəsində də hər şey uğurlu deyildir. Komissiya həbs yerlərini təhqiq edərkən məhkumlardan sərhəd dəstəsinə rəislik edən şəxslər tərəfindən döyülmələri barədə xeyli sayda şikayət almışdır. Şahidlərin dindirilməsi, aparılan təhqiqatlar bu şikayətləri tamamilə təsdiq etmişdir və komissiya komanda heyətindən 8 sərhədçini həbs etməli olmuşdur.

Sərhəd dəstəsinin maddi-təsərrüfat hissəsinin də qeyri-məqbul vəziyyətdə olduğu aşkar edilmişdir.

**Nəzarət.** Sözün əsil mənasında Naxçıvan diyarında nəzarət tamamilə olmamışdır.

Nəzarəti həyata keçirən orqan, yəni Fəhlə-Kəndli Müfəttişliyi yalnız bircə şəxslə, Azərbaycan SSR FKM-nin səlahiyyətli nümayəndəsi yoldaş Axundovla təmsil olunmuşdur, o da eyni zamanda Naxçıvan Siyasi Bürosunun rəisi vəzifəsini əvəz etməklə, kooperasiya və onlarla digər işlərdə işləmişdir... Başqa heç bir təşkilat tərəfindən nəzarət işi həyata keçirilməmişdir. Bütün müəssisələr, bütün komissiyalar, maliyyə sahəsi, torpaq bölgüsü, suvarma üzrə bütün işlər, həm maddi, həm də siyasi mənada nəzarətsiz həyata keçirilmişdir. Bu səbəbdən nəzarətsizlik və məsuliyyətsizlik zəminində qatı cinayət ağacının bu cür vüsətlə çiçəklənməyinə heç də təəccüblənmək lazım gəlmir.

**Xalq maarifi.** Naxçıvan Respublikasında xalq maarifinin indiki vəziyyəti haqqında danışmazdan əvvəl, bu işin müharibədən

əvvəlki durumu haqqında bəzi məlumat vermək heç də artıq görünməzdi.

1913-cü ildə Naxçıvan Respublikasının indiki ərazisində, yəni keçmiş Naxçıvan qəzası və Şərur qəzasının bir hissəsində aşağıdakı məktəblər olmuşdur:

Naxçıvan şəhərində bir üç sinifli şəhər məktəbi vardı. Ordubad şəhərində dörd sinifli bir şəhər məktəbi olmuşdur.

Bundan əlavə, Naxçıvan şəhərində daha bir iki sinifli oğlan rus-tatar məktəbi, sonra müsəlman məktəbi nəzdində bir oğlan məktəbi və bir dəmiryol məktəbi olmuşdur.

Naxçıvan qəzası üzrə aşağıdakı kəndlərdə həmin kəndlərin adını daşıyan ibtidai məktəblər mövcud olmuşdur:

| | |
|---|---|
| Qulubəydizə | Nehrəm |
| Mahmudlu | Şahtaxtı |
| Biləv | Düylün |
| Qazançı-Milax | Əznəbürd |
| Yaycı | Gümrük |
| Vənənd | Gərməli |
| Quzuluq | Bist |
| Qaraçuxa | Alagöz-Məzrə |
| Nəzərabad | Əliabad |
| Qahab | Gecəzur |
| Yamxana | Kültəpə |
| Əbrəqunus | Nursu |
| Cəhri | Aza |
| Yarımca | Cəhri |

Şərur qəzasında aşağıdakı məktəblər vardı:

Baş Noraşen
Ələkli
Yaycı
Dərvişlər
Ülya-Noraşen
Tumaslı
Saraçlı

Naxçıvan Respublikasında xalq maarifinin müasir vəziyyəti isə, texniki alt komissiyaların təhqiqi və sonra da xüsusi komissiyanın yerində şəxsən tanışlığı sayəsində üzə çıxarıldığı kimi aşağıdakı cürdür:

Maarif Komissarlığının özü artıq bu iş üçün çox xarakterik olan öz qeyri-adi strukturu ilə heyrət doğurur. Onun təlimat, mühasibat və nə üçünsə diyarşünaslıq şöbələri olsa da, daha zəruri: məktəb, sosial tərbiyə və digər heç də az əhəmiyyətli olmayan şöbələri yoxdur.

Beləliklə, Xalq Maarif Komissarlığının bütün işi naməlum işləri təlimatlandırmaq xətti ilə getmişdir, çünki yerlərdə sözün tam mənasında müəllim yoxdur, yalnız özünü müəllim adlandıran şəxslər vardır.

İkinci vəzifəsi maaşların paylanması olmuşdur, özü də bu iş səliqəsiz görülmüşdür ki, 12 maaş cədvəli üzrə ümumilikdə 8 000 rubl məbləğ üçün hesabat təqdim edilməmişdir. Sonra Xalq Maarif Komissarlığı diyarın təhqiqini özünün ən vacib vəzifəsi hesab etmiş, bu məqsəd üçün xüsusi bir şöbəyə də malik olmuşdur. Ancaq bu, necə deyərlər, diyarşünaslıq şöbəsinin işi, çox təəssüf ki, heç bir – heç olmasa statistik məlumatlar baxımından – heç bir nəticə verməmişdir.

Yerlərdə isə məktəb işi kağız üzərində 30 məktəbin mövcudluğu ilə ifadə olunmuşdur, əslində isə əksər hallarda onlar ya tamamilə mövcud deyil, ya da sınıq-salxaq məktəb mebelinə malik olan, bəzən hətta belə mebelləri də olmayan keçmiş at tövləsi xarabalığından ibarətdir.

Şagirdlərin sayı 5 000 nəfərə çatır, məktəb yaşlı uşaqların sayı isə 19 000 nəfərə yaxındır. Beləliklə, məktəblər məktəb yaşlı uşaqların yalnız 1/4-nə xidmət edir, əksər hallarda bu xidmət də saxtadır, çünki at tövləsində və yaxud pəncərəsiz otaqlarda yerləşən, heç bir mebeli və dərs vəsaiti: kitabı, dəftəri və s. olmayan bir yer necə məktəb ola bilər?

Hətta çox tərifli, "Qadın Müəllimlər Seminariyası" kimi gurultulu ada malik üç məktəb barədə də bu baxımdan danışmağa

dəyməz. Məsələn, Naxçıvan Qadın Seminariyasının bir nəfər də olsun qadın müəlliməsi yoxdur və dərslər nahardan sonrakı saatlarda Kişi Seminariyasının müəllimləri tərəfindən keçilir.

Bu qadın seminariyalarında pedaqoji baxımdan heç bir rahatlıq yoxdur. Ordubad seminariyasının tikilib başa çatdırılmasına ehtiyacı vardır. Digər seminariyaların binaları təmir olunmalıdır. Ordubad seminariyasından başqa, digər iki seminariyada avadanlıqla təchiz olunmuş fizika kabinetləri, hətta kifayət miqdarda əyani vəsaitlər belə yoxdur.

Birinci pillə məktəbləri də heç bir fizika kabinetinə və əyani vəsaitə malik deyillər. Məktəblərin nəzdində tamamilə kitabxana yoxdur. Xalq Maarif Komissarlığının özünün sərəncamında isə iki kiçik kitabxana-qiraətxana vardır.

Uşaqların tərbiyəsi üçün istifadə edilən kitablar tamamilə mücərrəd və bizim inqilabın ruhuna uyğun olmayan xarakter daşıyır. Bu kitablarda Allah mədh edilir, öz vətəninə məhəbbət mədh edilir. Nəticədə dini fanatizm, milli antaqonizm tərbiyə olunur. Buna heç şübhəsiz ki, ciddi diqqət yetirilməlidir, nəzərə almaq lazımdır ki, gələcəyin əvəzediciləri adlandırdığımız yeni nəsil kommunist ideyaları ilə heç bir ümumiliyi olmayan belə bir ideologiya ilə tərbiyə olunmaq mənasında böyük təhlükəyə məruz qalır. Məsələn, Hüseyn Cavidin şeirləri ("İkinci il" və s. kitablarında nəşr olunanlar). Ancaq Naxçıvan diyarının Xalq Maarif Komissarı qəbul olunmuş kitab sistemini yaxşılaşdırmaq və bu sahədə tədbirlər görmək barədə düşünməyi lazım bilməmişdir, çünki keçmiş molla olduğu üçün o özü bu məsələdə səriştəsiz olmuşdur, Azərbaycan Xalq Maarif Komissarı isə Naxçıvan diyarında xalq təhsili işinə barmaq arası baxmışdır.

1923-cü ilə qədər məktəblər tədris vəsaitləri ilə pulsuz təmin olunmuşdur, 1924-cü ildən başlayaraq isə, uşaq evləri və müəllim seminariyaları istisna edilməklə, kitablar şagirdlərə pulla verilir.

Naxçıvan Respublikasında iki uşaq evi var, onlarda hər iki cinsdən 200 yetim uşaq saxlanılır. Bütün kitabların dəyəri Azər-

baycan MİK-nin nəzdindəki Uşaq Komissiyasının hesabına ödənilir, xidmət personalı isə yerli vəsaitlər hesabına saxlanılır.

Uşaq evlərində tərbiyə işi həm qadın, həm də kişi tərbiyəçilərinin yoxluğu üzündən son dərəcə pis təşkil olunub.

Ümumiyyətlə, Naxçıvan Diyarında pedaqoji personal yoxdur.

Bütün Naxçıvan Respublikasında birinci pillə məktəblərində 140 nəfər müəllim var. Onların yalnız 20 %-i üçaylıq pedaqoji kursları bitirmişdir, qalanını heç bir pedaqoji hazırlığı olmayan insanlar təşkil edir. Təlimatçılara gəldikdə isə, onlar cəmi üç nəfərdir, yalnız birinin pedaqoji stajı var, digər ikisinin pedaqoji hazırlığı yoxdur.

Siyasi maarif işi də bu işi idarə etmək üçün yığılan şəxslərin uğurlu seçilməməsi və tez-tez dəyişdirilməsi səbəbindən axsayır, nəticədə, demək olar ki, siyasi maarif işi tamamilə yox dərəcəsindədir. Savadsızlığın ləğvi üzrə məntəqələrin sayı 85-ə çatsa da, onların işi məktəblərinkindən pis vəziyyətdədir. Bütün Naxçıvan Diyarı üzrə 10 qiraət koması vardır.

Onların maddi vəziyyəti təmir və avadanlıq mənasında, yumşaq desək, çox acınacaqlı haldadır, çünki təhqiqat göstərdi ki, onlar ədəbiyyatla təchiz edilmirlər, onlarla heç bir iş aparılmır, dərnəkləri yoxdur, təhqiqlər təşkil olunmur.

Siyasi maarif işi idarəsinin sərəncamında olan 5 teatr özünü güclə sürüyür, daha doğrusu tamamilə işləmir, çünki xərci borcunu ödəmir.

Naxçıvan Diyarında xalq təhsili üzrə gətirilən bu fakt və rəqəmlərin özləri hər şeyi açıq göstərir, heç bir şərhə və əlavə izaha ehtiyac yoxdur, çünki onlardan çıxan nəticə aydındır: diyarda indiyədək məktəb və siyasi maarif işi mövcud olmamışdır.

**Səhiyyə.** Səhiyyə məsələsinə keçərkən həmçinin bunu qeyd etmək əngəl törətmir ki, müharibəyə qədərki dövrdə bu iş xeyli zəif, amma indikindən daha yaxşı təşkil olunmuşdu. Beləliklə, məsələn, Naxçıvan qəzasında qəza həkimi, qəza mamaçası, iki sahə həkimi və onların hər birinin yanında bir

mamaça vardı. Şərurda da həmçinin, qəza həkimi, bir kənd həkimi və bir mamaça olmuşdur.

Üç xəstəxana vardı, lakin onlar avadanlıqla yaxşı təchiz edilmişdi və münasib binalarda yerləşirdi.

Diyarın dağıntıya məruz qalması, aclıq və yoxsulluq, heç şübhəsiz ki, xəstəliklərin artmasına və cürbəcür epidemiyaların yayılmasına şərait yaradır. Naxçıvan Respublikasının bütün düzənlik zolağının əhalisi üçün başlıca bəlaya çevrilən malyariyadan əlavə, qotur, vərəm və digər müxtəlif epidemik xəstəliklər də yayılmışdır.

Diyarda çox az sayda mövcud olan xəstəxanalar, həkim və feldşer məntəqələri əhalinin tibbi yardıma olan böyük ehtiyac və tələblərini ödəmir. Malyariya ilə mübarizə xəstələnmə faizi ilə müqayisədə son dərəcə aşağı səviyyədədir: malyariya ilə xəstələnmə Şərurda 100, Naxçıvanda 50 və Ordubadda 30 faizə bərabərdir.

Xüsusi məişət şəraiti, dini fanatizm, köhnə ənənələr müsəlman qadınlarının tibbi yardımdan istifadə etmələrinə çoxlu əngəllər törədir, özü də bu çətinliklər onları əhatə edən ailələri tərəfindən yaradılır. Bu səbəbdən onlar tez-tez ara həkimlərinə müraciət etmək məcburiyyətində qalırlar və bunun da nəticəsi olaraq qadınlar arasında ölüm halları kişilərinkindən çoxdur. Güman ki, Naxçıvan diyarında qadınların kişilərdən bir qədər az olması da bununla izah olunur. Tibbi yardım almaq mənasında uşaqların da vəziyyəti elə bu cürdür.

Hal-hazırda diyarda 4 feldşer və üç həkim məntəqəsi, biri Naxçıvan şəhərində 50 çarpayılıq, digəri Ordubadda 15 çarpayılıq olmaqla iki xəstəxana var. Bundan əlavə, Naxçıvanda üç ambulatoriya və bir aptek vardır. Ordubadda da aptek var. Naxçıvan diyarının bütün ərazisində Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığına tabe olan iki malyariya stansiyası mövcuddur, onlardan biri Şərur qəzasında, digəri Naxçıvandadır.

Bu stansiyaların bilavasitə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının tabeliyində olması çoxsaylı anlaşılmazlıqlar

doğurmuş və planlı şəkildə işləməyə əngəl törətmişdir, buna görə də bu vəziyyət indi ləğv edilmiş, yəni hər iki malyariya stansiyası Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığına tabe edilmişdir.

Beləliklə, Naxçıvan diyarının yoxsullaşmış və ac əhalisi pis təhsil gördüyü kimi, ona bundan da pis tibbi yardım göstərilir.

Bu yardım tamamən kifayət deyil.

Xəstəliklərin qabaqcadan xəbərdar edilməsi və sanitariya və gigiyena üzrə ən zəruri biliklərin əhali arasında yayılması mənasında daha az iş görülmüşdür. Naxçıvan Diyarının əhalisi, demək olar ki, heç vaxt isti sudan istifadə etmir. O, sabun tapa bilmir, yaşayış yeri üfunətli daxma və komalardan ibarətdir. Onların ətrafında daim peyin və zibil qalaqları vardır. Qəbiristanlıqlar içməli suya yaxın yerdə yerləşir.

Əhali heç bir sanitariya və gigiyena biliyi ilə tanış deyil, buna görə də öz sağlamlığını ara həkimlərinə, qoca qarılara və s. şarlatanlara etibar edərək ən primitiv üsullarla müalicə olunur.

**Xalq Əmək Komissarlığı Müvəkkilliyi.** Naxçıvan diyarında əməyin mühafizəsini həyata keçirən orqan Azərbaycan SSR Xalq Əmək Komissarlığı Müvəkkilliyidir. 1924-cü il oktyabrın 15-dək onun yalnız bir müvəkkil ştatı vardı, yalnız ötən il oktyabrın 15-dən onun ştatı üç nəfərə çatdırılmışdır. Halhazırda Xalq Əmək Komissarlığı Müvəkkilliyi idarəsi heç bir şöbəyə, altşöbəyə və hətta qəzalarda öz nümayəndələrinə malik deyil.

İşsizlərin uçotu tamamilə aparılmır, çünki Xalq Əmək Komissarlığı Müvəkkilliyi belə hesab edir ki, bu uçotu həmkarlar ittifaqları aparmalıdır, ittifaqlar isə öz növbəsində bunu XƏKM-nin işi sayır. Əmək birjası və vasitəçi büro yoxdur. İctimai işlərin görülməsi məsələsində XƏKM-in əlində yalnız Azərbaycan SSR Xalq Əmək Komissarlığının 16.4.25-ci il tarixli sərəncamı ilə nəzərdə tutulan ictimai işlər planının layihəsi var, ancaq bu işləri kim görməlidir, bu işlər üçün kimə pul ayrılıb – müvəkkilə bu

barədə heç nə məlum deyil və ictimai işləri həyata keçirmək üçün onun bir qəpiyi də yoxdur.

Beləliklə, tamamilə təbii surətdə belə bir sual meydana çıxır: Azərbaycan Xalq Əmək Komissarlığı Müvəkkilliyi nə üçün mövcuddur və o nə ilə məşğuldur?

Heç demə onun işi var imiş. O, fəhlə və qulluqçularının ümumi sayı iki min iki yüz nəfər olan dövlət, ictimai və şəxsi müəssisləri, onların üzərində əməyin mühafizəsini həyata keçirmək üçün uçota götürmüşdür. Ancaq təəssüf ki, bu işinin həyata keçirilməsi XƏKM-nin mövcud olduğu bütün dövr ərzində əmək müvəkkilinin bir neçə ezamiyyəsindən ibarət olmuşdur və əmək cəbhəsində iki zədələnmə hadisəsi qeydə alınmışdır.

Əmək haqlarının vaxtında verilməməsi, məzuniyyətə buraxılma, işə qəbul və işdən azad etmə zəminində yaranan münaqişələrin nizama salınmasını onun yeganə faydalı fəaliyyət sahəsi hesab etmək olar. Bu münaqişələrin 75 %-i fəhlə və qulluqçuların xeyrinə həll edilmiş, qalanları Qiymətləndirmə-Münaqişə Komissiyasından razılıq alınmadığı üçün barışdırma otaqlarına və münsiflər məhkəməsinə verilmiş və orada da fəhlə və qulluqçuların xeyrinə qərar çıxarılmışdır.

Əməklə bağlı işlərin xalq məhkəməsində araşdırılması, belə işlərə birinci növbədə baxılması barədə rəsmi xəbərdarlığa baxmayaraq, yenə də gecikdirilir.

Beləliklə, Naxçıvan Respublikasında işsizlərin uçota alınması, işsizlərə yardım göstərilməsi, ictimai işlərin təşkili, əməyin mühafizəsi ilə bağlı işlər son dərəcə zəif qurulmuş, bu da öz növbəsində Naxçıvan Diyarı zəhmətkeşlərinin onsuz da ağır vəziyyətini daha da ağırlaşdırmışdır.

**Sosial təminat.** Sosial təminat şöbəsi tamamilə zəminsiz və özünün müəyyən vəsaiti olmayan bir qurum kimi daim köç etmiş, gah XDİK-na birləşdirilmiş, gah XƏKM-ə verilmiş və sonra yenidən geri qaytarılmışdır. 1924-cü ilə qədər ştatı bir nəfərdən, anbar müdirindən ibarət olmuşdur. Xalq Sosial Təminat Komissarlığı və Xalq Əmək Komissarlığı ştatı artırmaq istəmirlər.

Sosial təminat şöbəsi XƏKM-nin Müvəkkili vasitəsilə birbaş Naxçıvan Xalq Komissarları Sovetinə tabe idi və sonuncu tərəfindən ona həm natura, həm də pul şəklində maddi yardım göstərilirdi. Yerli büdcənin tərtibi zamanı smetaya bütün Naxçıvan diyarı üçün 10 çarpayılıq əllilər evinin təşkili daxil edilmişdi. 1924-cü ilin dekabrında bu təsisat üçün 1408 rubl 50 qəpik məbləğində kredit açılmasına, Sosial təminat şöbəsinin müvafiq müəssisələrinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, indiyə kimi əllilər evi üçün bina ayrılmamışdır. Müvafiq aparatı olmadığı üçün Sosial təminat şöbəsi əllilərin dəqiq uçotuna malik deyil, ancaq hər halda, onda bütün Naxçıvan diyarı üzrə 895 əlil qeydə alınmışdır.

İndiyə kimi onlara natural formada yardım göstərilmişdir, son vaxtlar isə çəltik satışından əldən edilən pul formasında yardım edilir. Sosial təminat şöbəsi zəif təlimatlandırılmışdır və ümumiyyətlə, öz işində o, Azərbaycan SSR Xalq Sosial Təminat Komissarlığı tərəfindən dəstəklənmir. Kəndli komitələrinin təşkili üçün bron edilən 100 rubldan bir az artıq olan vəsaitdən başqa, Sosial təminat şöbəsinin heç bir fondu, pul və natural ehtiyatları yoxdur.

**Kəndli komitələri.** Naxçıvan Diyarında qarşılıqlı yardım üzrə kəndli komitələrinin təşkili ilə bağlı materiallar ötən ilin sentyabrında alınmışdır, Sosial təminat şöbəsinə isə yalnız dekabrda, həm də natamam şəkildə gəlib çatmışdır. Ancaq kəndli komitələrinin təşkilinə dərhal başlanılmışdır, özü də heç bir vəsait və təlimatçı olmadığından onların təşkili sovetlərə seçki komissiyasına həvalə olunmuş, kəndli komitələrinin təşkilinə dair təlimatlar və tezislər ona təqdim edilmişdir. Sonradan məlum olmuşdur ki, sovetlərə seçki komissiyası seçkilərin keçirilməsi və kəndli komitələrinin təşkili işlərini eyni vaxtda görmək iqtidarında deyil. Buna görə də kəndli komitələrinin təşkili üçün qəzaya Sosial təminat şöbəsinin müdiri ezam olunmuşdur. Hal-hazırda, demək olar ki, bütün iri kəndlərdə kəndli komitələri təşkil olunmuşdur, ancaq vəsait olmadığı üçün onların işi son

dərəcə zəif gedir.

Bunlar Xalq Əmək Komissarlığı Müvəkkilliyinin sosial təminat üzrə məlumatlarıdır, praktikada isə məlum oldu ki, heç bir kəndli komitəsi mövcud deyil və bu sahədə heç bir iş görülmür.

**Qaçqın məsələsi.** Naxçıvan Respublikasının həyatında ən böyük mənfi hadisə qaçqın məsələsinin nizama salınmamasıdır. Qaçqınlar uçota alınmayıb və onların dəqiq sayı məlum deyil. Ancaq onlar xeyli çoxdur – ən azı 15 000 nəfərdir və vəziyyətləri son dərəcə ağırdır.

Qanlı hadisələr və milli zəmində silahlı toqquşmalar zamanı çoxdan yaşadıqları yerlərdən qaçmağa məcbur olan həm ermənilər, həm də müsəlmanlar bir müddət başqa yerlərdə qaldıqdan sonra geri qayıdırkən öz zəngin təsərrüfatlarının və abad ev-eşiklərinin yerində yanmış xarabalıqlarla rastlaşmışlar.

Başqa yerlərdə daha uzun müddət qalmağa məcbur olan qaçqınlar isə, xüsusən də ermənilər, geri qayıdarkən öz evlərinin xarabalıqlarının həm də digər qaçqınlar tərəfindən tutulduğu ilə üzləşmişlər. Ciddi anlaşılmazlıqlar və düşmənçilik çox vaxt məhz bu zəmində meydana çıxmışdır.

Hər cür – həm canlı, həm də cansız inventardan məhrum olmuş qaçqınlar öz təsərrüfatlarını bərpa etməklə məşğul ola bilmir və son dərəcə ağır iqtisadi şəraitdə yaşayırlar. Qaçqınlar arasında dəfələrlə aclıqdan ölmə halları müşahidə edilmişdir. Beləliklə, əhalinin ən çox ehtiyac içərisində olan qismi qaçqınlardır və qaçqın məsələsi özünün müfəssəl həllini və nizamlanmasını tələb edir.

Qaçqın məsələsinin kəskinliyi yalnız dövlətin köməyi, yalnız uçot, yerlərə paylanma və planlı şəkildə torpaqla təmin edilmə vasitəsi ilə aradan qaldırıla bilər. Əks təqdirdə qaçqınlar ölümə tərk edilmək riski ilə qarşılaşa bilərlər. Bununla əlaqədar olaraq, xüsusi komissiya qaçqın məsələsinin nizama salınması üçün bütöv bir tədbirlər siyahısı irəli sürmüşdür. Komissiya bilavasitə, yaxın günlərdə, yəni ilk imkan düşən kimi 5 000 bel

satın almaq və onları qaçqınlara paylamaq qərarına gəlmişdir ki, onların heç olmasa bu bellərin köməyi ilə öz tarlalarında işə başlamaq imkanı olsun. Bundan əlavə, qaçqınlar üçün bəzi imtiyazlar və güzəştlər müəyyən etmək barədə Naxçıvan Xalq Komissarları Sovetinə göstəriş verilmişdir. Məsələn, onların övladlarının uşaq evlərinə növbəsiz qəbul edilməsi, kənd təsərrüfatı kreditlərinin onlara birinci növbədə verilməsi və s. və il.

Qaçqın məsələsi dayanmaq bilməyən qaçqın axını səbəbindən kəskinləşməkdə davam edirdi. Bununla əlaqədar Xüsusi komissiya tərəfindən bu il aprelin 1-dən Naxçıvan diyarı hüdudlarına qaçqın axınının dayandırılması və aprelin 1-dək buraya köçən qaçqınlara torpaq sahəsi ayrılması barədə dekret verilməsi barədə təklif irəli sürülmüşdür.

Xüsusilə də Bazarçay və Borisovka kəndlərindən olan qaçqınların bu kəndlərə köçürülməsi barədə xahişi Xüsusi komissiya tərəfindən baxılmaq üçün Zaqafqaziya MİK-ə təqdim olunmuş, sonuncu qaçqınların həmin kəndlərə göndərilməsinin qeyri-mümkün olduğunu bildirmiş və Ermənistan Xalq Torpaq Komissarlığına onları qruplar halında Ermənistanın dağətəyi rayonlarındakı rus kəndlərində yerləşdirməyi, Zaqafqaziya Xalq Maliyyə Komissarlığına isə bu məqsəd üçün zəruri vəsait buraxmağı təklif etmişdir.

Bundan əlavə, qaçqınların Naxçıvan diyarından Muğana köçürülməsi barədə məsələ qaldırılmışdır. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı Köçkünlər Komitəsinin sərəncamında pul vəsaiti olmadığı üçün bu tədbiri həyata keçirmək mümkün sayılmamışdır. Bununla əlaqədar Naxçıvan Xalq Komissarları Sovetinə qaçqınları indi tutduqları yerlərdə məskunlaşdırmaq və Azərbaycan MİK-nin qaçqın məsələsi və onların torpaqla təmin edilməsi barədə 2.5-25-ci il tarixli qərarını onlara tətbiq etmək, Kənd Təsərrüfatı Bankı təşkilatı və kənd təsərrüfatı kooperasiyaları vasitəsilə canlı və cansız kənd təsərrüfatı inventarları almaq işində onlara köməklik göstərilməsinə ciddi diqqət yetirmək tapşırılmışdır.

# V. İQTİSADİ VƏZİYYƏT

## 1. ÜMUMİ İCMAL

Naxçıvan Respublikasının iqtisadi vəziyyətinin, Xüsusi Komissiyanın təhqiq zamanı aşkar etdiyi şəkildə təsvirinə keçərkən, hər bir ölkənin təsərrüfat gücünün ümumi iqtisadi inkişafının vəziyyətinin ilk növbədə asılı olduğu təbii şərtlər üzərində dayanmağı zəruri hesab edirik.

Naxçıvan Respublikası, artıq qeyd etdiyimiz kimi, 4686 kv. verstlik bir ərazidən ibarətdir və onun qərb və cənub-qərb hissəsi öz məhsuldarlığı ilə məşhur olan, Şərur hüdudlarında xüsusilə genişlənən Araz vadisini əhatə edir. Şimal və Şərq hissəsi isə, bəzi yerlərdə dəniz səviyyəsindən 10 000 fut yüksəklikdə yerləşən dağ yaylasından ibarətdir.

Naxçıvan Respublikasının bütün zənginliyi əkinçilikdədir, o isə sıx şəkildə suvarma sisteminin vəziyyətindən asılıdır. Buna görə də suvarma sistemini Naxçıvan diyarının iqtisadi inkişafının əsası hesab etmək lazımdır. Süni yolla suvarılan torpaqlar iqlim şəraiti sayəsində pambıq, çəltik, küncüt, dərman bitkiləri və s. kimi yüksək intensiv kənd təsərrüfatı bitkilərinin əkilib becərilməsi üçün yararlıdır; rasional əkildiyi təqdirdə bu bitkilər yerli torpaqda gözəl məhsul verir.

Qalan digər tarlada əkilən kənd təsərrüfatı bitkiləri arasında başlıca yeri buğda, arpa, darı, pərinc və yonca tutur.

Şərur qəzasındakı qalan suvarılmayan torpaq sahələri isə uğurlu şəkildə qoyunçuluq üçün istifadə edilə bilər, özü də iqlim şəraiti burada ən yaxşı merinos cinslərinin yetişdirilməsinə imkan verir.

Təkcə pambıqçılığı yaxşı inkişaf etdirmək imkanı Naxçıvan Diyarını bizim Zaqafqaziyanın kənd təsərrüfatı sənayesi baxımından inkişaf etmiş guşələrindən birinə çevrilmək ümidi verir, belə ki, bütün SSR İttifaqı üzrə pambığa son dərəcə böyük tələbat var və bizim toxuculuq sənayemizin qarşısında öz ucuz pambığını əldə etmək kimi mühüm vəzifə durur.

Naxçıvan Respublikasının isə Sovet pambığının xeyli iri bir tədarükçüsünə çevrilmək üçün hər cür imkanı var; bu da onu, heç şübhəsiz ki, sənaye cəhətdən inkişaf etmiş ölkəyə çevirəcək.

Əgər buraya Ordubadın yüz min tonlarla meyvə və tərəvəz verən bağ və bostanlarını, onların əsasında konserv işinin inkişaf edə biləciyini, həmçinin əvvəlki dövrlərdə ipəkçiliyin, üzümçülüyün, şərabçılığın inkişaf etdiyini əlavə etsək, Naxçıvan diyarında bütün kənd təsərrüfatı sahələrinin gur çiçəklənmək imkanı tamamilə aydın görünər.

Emal sənayesinə gəldikdə isə, ayrı-ayrı kənd təsərrüfatı sahələrinin icmalına əsasən bu sənaye sahəsinin istiqamətləri və xarakteri haqqında əvvəlcədən təsəvvür əldə etmək olar. Sonuncu, heç şübhəsiz ki, kənd təsərrüfatı ilə sıx əlaqədardır və onun ayrı-ayrı sənaye sahələrinə xidmət edir.

Pambıqçılığın pambıqtəmizləmə zavodlarına ehtiyacı var, bundan əlavə, o, pambıq çiyidindən yağ almaq imkanı verir, bunun üçün pambıq zavodları lazımdır.

Gələcəkdə isə, ola bilsin ki, elə Naxçıvan Respublikasının özündə pambıqdan parça toxumaq lazım gəlsin.

İpəkçiliyin baramaaçan və ipəktoxuyan fabriklərə ehtiyacı var.

Üzümçülük konyak və araq istehsalını inkişaf etdirməyə imkan verir.

Bağçılıq və bostançılıq öz gələcək inkişafı və öz məhsullarından istifadə üçün, heç şübhəsiz, konserv zavodlarına ehtiyac duyur, bu zavodların iqtisadi cəhətdən məqsədəuyğun olması tamamilə açıq-aşkardır.

Hasilat sənayesinə gəldikdə isə, burada da hədsiz-hüdudsuz perspektivlər açılır, belə ki, Naxçıvan diyarında yerin təki bütün mümkün faydalı qazıntılarla son dərəcə zəngindir.

**Qızıl.** Belə ki, Naxçıvan qəzasında Araz çayının sol qolu olan Əlincəçayın hövzəsində qızıl yatağı əlamətləri tapılmışdır. Bu əlamətlər 1868-ci ilin kəşfiyyat qrupu tərəfindən Əlincəçayın

vadiləri və axınlarında: Ləkətağ və Milax kəndlərində Kəla, Bəy çayı, Xəzəndar çaylarında, həmçinin Qazançı kəndi yaxınlığında Əlincəçayın öz vadisində aşkar edilmişdir.

Mədən mühəndisi Lebedevin "Qafqazda qızıl" adlı məqaləsində deyilir ki, praktik baxımdan ən maraqlı yataqlara Araz çayına sol tərəfdən tökülən və Naxçıvan qəzasının filizli hissəsi boyu axan çayların vadilərinin aid etmək lazımdır.

Yeri gəlmişkən, tapılan külçələrə əsasən, yerli qızıl yataqları Naxçıvan qəzasının filiz yataqları hüdudlarında çox yerdə vardır.

**Duz.** Naxçıvan diyarında artıq yüz ildən çoxdur ki, duz çıxarılır, geoloji kəşfiyyat və qazıntı nümunələrinin tamamilə yoxluğu səbəbindən biz duz yataqlarının dəqiq ölçülərini bilmirik, ancaq əlamətlər onların çox böyük olduğunu və həm çox dərində deyil, az qala yerin səthində yerləşdiyini göstərir; bu da bütün Zaqafqaziya üçün çox zəruri olan bir məhsulun asan və ucuz hasil edilməsinə imkan verir.

**Gümüş-qurğuşun filizi.** Gümüş-qurğuşun filizi mədənləri Dərələyəz dağ silsiləsinin cənub hissəsində, Yaycı kəndi yaxınlığında, iki verst qərbdə Gəvən dərəsində və əhəngli dağ formasiyalarında, habelə Gümüşxanadan üç verst şərqdə Qala dərəsində yerləşir.

Ən iri gümüş-qurğuşun yataqları Noraşen stansiyasından Arpaçaya gedən şose yolu üzrə 15 verst aralıda Gümüşlü deyilən yerdədir. Bu yataqlar çoxdan işlənmişdir, bunu oradakı köhnə mədən yerləri göstərir. Bu cür köhnə şaxtalardan biri təmizlənmiş və onda qədim alətlər: dəmir pazlar, gil lampalar, yağ bardağı, bir neçə insan kəlləsi və sümükləri tapılmışdır.

Bu yataqda qismən kəşfiyyat işləri aparılmışdır və müharibədən əvvəlki dövrdə burada kifayət qədər avadanlığı və hətta zavodları olan bütöv bir mədən mövcud olmuşdur.

Mədəndə zənginləşdirmə stansiyası, bir qaytarıcı soba, bir şaxta sobası və qurğuşun saflaşdırmaq üçün çalovdan ibarət olan əritmə zavodu vardı.

Mədən mühəndisi Ustimoviçin məlumatlarına görə, burada

metal ehtiyatı təxminən 2. 750. 000 puddur. Tiflisdə Otten laboratoriyasında aparılan analizə əsasən buradakı filizin tərkibində 67 faizdən 73 faizə qədər qurğuşun və az miqdarda gümüş vardır.

Beləliklə, bu yataq hətta hal-hazırda mövcud olan natamam kəşfiyyat məlumatlarına əsasən son dərəcə böyük maraq doğurur.

**Mis filizi.** Ordubad qəzasında Qarçıvan adlanan yerin yaxınlığında zəngin mis filizi yataqları var. Bu filizlər kükürdlümisli filizlərdir, hərçənd malaxit şəklində oksidləşmiş filizlərə də rast gəlinir. Bu yerdə geniş araşdırmalar, hətta xırda kəşfiyyat işləri belə aparılmamışdır, ancaq Ərçivana yaxın Ermənistan sərhədində kifayət qədər kəşfiyyat işləri aparılması və onların son dərəcə müsbət nəticələr verməsi, həmçinin Ermənistanın bu hissəsinin həmin yerlə eyni geoloji dövrə aidliyi burada da mis yataqlarının böyük olduğunu düşünməyə əsas verir.

**Kükürd.** Naxçıvan şəhərindən 45 verst aralıda, Gömür kəndi yaxınlığında xalis kükürd yataqları mövcuddur.

Üçüncü sistem layları, qalınlığı bəzən 2-3 futa çatan xalis kükürd damarcıqları və qatları ilə zəngindir. 80-ci illərin əvvəllərində, burada ən yaxşı sovxoza malik olan həmin Şangirey bu yataqları işlədir, adi gil çanaqlarda kükürd kəsəklərini əridərək, onu barıt alınmaq üçün İrana göndərirdi.

Bu yataqda müharibə zamanı ingilis geoloqu Atterton da kəşfiyyat aparmışdır. Onun kəşfiyyat işlərinin nəticələri, nə qədər məxfi xarakter daşısa da, o qədər uğurlu olmuşdu ki, hökumət Qafqaz Ordusu üçün kükürd hasilatına vəsait buraxmağa hazırlaşırdı.

Ordubad şəhərindən bir qədər aralıda tərkibində arsen olan böyük filiz yataqları vardır. Bu mədən hələ İran hökmranlığı dövründə işlənirdi, indi isə detallı kəşfiyyat işləri tələb olunur, onlar çox parlaq nəticələr verə bilər.

**Mərmər.** Şərur və Naxçıvan qəzalarında mərmər yataqları mövcuddur. Belə ki, məsələn, Şərur qəzasının Ülya-Noraşen kəndi yaxınlığında qara mərmər yataqları vardır, həm də burada

çox vaxt uzunluğu  fut, eni 4 fut olan lövhələr çıxarılır. Yerli sakinlər bu mərmərdən müxtəlif formalarda xırda əşyalar düzəldirlər. Bu növ yataqlar Əznəbürt kəndində və Naxçıvan şəhərində də vardır.

**Torf.** Biçənəkçay vadisində və Naxçıvan qəzasında molokanlar tərəfindən müharibədən əvvəlki dövrdə Karmalinovka kəndi yaxınlığında qırmızı torf çıxarılırdı. Bu torf yatağının 14 desyatinə yaxın sahəsi var; ortalama 1 sajın dərinlikdə torf kütləsi ehtiyatı 33 kub sajına bərabərdir, həm də işlənmək üçün ən əlverişli şəraitə malikdir.

**Boz kömür.** Naxçıvan qəzasında Nəhəcir kəndi ilə Sürməli kəndi arasında çox sanballı miqdarda boz kömür yatağı vardır. Kömür layı bir verst boyu üzdə olub, şimal-qərbdə yerin altına girir, onun qalınlığı 3-4 arşındır. Qara və yaxud tutqun-boz rəngli, nazik qatlardan ibarət kömür layı uzun alov kimi yanır və ətrafa yanıq iyi yayır.

**Neft.** Naxçıvan qəzasında Gömür kəndi ətrafında, habelə Ordubad qəzasının Urmus kəndi yaxınlığında neft aşkar edilmişdir, o, mergel layına hopmuşdur.

**Zəy.** Zəy və zəy daşları, həmçinin şist yatağı Ordubad qəzasında Yuxarı Əylis, habelə Cuğra kəndi yaxınlığında aşkar edilmişdir.

**Qara kolçedan.** Yatağı Naxçıvan qəzasında Kotam kəndi yaxınlığındadır. Bu yataq həm əvvəllərdə, həm də müharibə dövründə işlənməmişdir.

**Gips.** Gips (alebastr və gəc) yatağı Naxçıvan qəzasında, Naxçıvan şəhərinin və Naxçıvan duz mədənlərinin ətrafında aşkar edilmişdir.

**Mineral bulaqlar.** Naxçıvan qəzasında Gömür (soyuq, karbonatlı, kənddən  verst aralıda) və Sirab (karbonatlı, kənddən 3 verst yuxarıda, mərmər yatağının yanında) kəndləri yaxınlığında mineral bulaqlar məlumdur. Ordubad qəzasında da mineral bulaqlar var. Biləv kəndində Badanlı və Qancaracur bulaqları, Gilyançayın sol qolunda (dəmirli və karbonatlı bulaqlar), Əlin-

cəçayın (Əlincəçay) yuxarı hissələrində, Araz kəndindən şimalda karbonatlı bulaq mövcuddur.

Şərur qəzasında dəmirli-qələvili və karbonatlı-qələvili bir neçə bulaq var; onlardan biri Yuxarı Danzik kəndində (şərq istiqamətində bir verst aralıda), bir neçəsi şərqi Arpaçayın hər iki sahilindədir (Aşağı Danzik) ($1^1/_2$ verst cənub tərəfə şərqi Arpaçayın sol sahilində).

Beləliklə, Naxçıvan Respublikasının təbii şəraiti və zənginliklərinin səthi icmalından belə tamamilə aydın olur ki, bu kiçik respublika məlum xərclər və gərgin qüvvə sərf etməklə, öz böyük qardaşı – Azərbaycan Sovet Sosialist Respublikasının lazımi diqqəti sayəsində kənd təsərrüfatı və sənaye cəhətdən, bu təsərrüfatların məhsullarının hazırlanması baxımından yüksək inkişafa malik və hətta hasilat sənayesi sahəsində zəngin respublikaya çevrilə bilər.

İqtisadi təbii şərtlərin ümumi icmalını başa çatdıraraq, Naxçıvan Respublikasının iqtisadi-təsərrüfat həyatının hər bir sahəsini ayrı-ayrılıqda nəzərdən keçirək.

## 2. ƏKİNÇİLİK

Naxçıvan Respublikasının iqtisadi həyatının ən başlıca sahəsi, yəni onun əkinçilik sahəsi üzrə aparılan bütün təhqiqlər iki zəruri hissəyə bölünmüşdür.

Komissiyanı hər şeydən əvvəl, suvarma şəbəkəsinin vəziyyəti, yer quruluşu və torpaq bölgüsü sahəsində görülən işlər, daha sonra isə əkinçiliyin, aqronomik yardımın, baytar yardımının və kəndli büdcəsinin ümumi vəziyyəti maraqlandırmışdır. Bütün bu məsələlərlə detallı tanışlıq nəticəsində xeyli xoşagəlməz bir mənzərə üzə çıxmışdır.

**Su məsələsi.** Naxçıvan diyarının təxminən 500. 000 desyatinə bərabər olan ərazisində işlənməyə yararlı 200. 000 desyatin torpaq sahəsi var, onların da 80. 000 desyatini otlaqların payına düşür.

Müharibədən əvvəlki dövrdə şumluq torpaqlar 88. 000

desyatinə yaxın olub, onların da 52. 000 desyatini suvarılan, 30. 000 desyatini isə suvarılmayan torpaqlar idi.

Demək lazımdır ki, bu 36. 000 desyatin suvarılmayan torpaqların da böyük bir hissəsi yağış yağmadığı üçün susuzluqdan yanır.

Əvvəllər bütün Naxçıvan diyarında mövcud olan 240 kəhrizdən təhqiq anında yalnız 14-ü fəaliyyət göstərirdi, qalanları isə baxımsız və atılmış vəziyyətdə qalmışdı.

Müharibədən əvvəlki dövrdə kəhrizlərdən başqa, 8-10 su nohuru, yəni dərə yerlərində süni surətdə düzəldilən göllər vardı, payız və qış aylarında yağış və sel suları burada toplanırdı, yayda isə bu göllərdən suvarma sistemi üçün ehtiyat su mənbəyi kimi istifadə olunurdu.

Həmçinin Araz çayı üzərində 2-3 su vuran nasos stansiyası və nəhayət, Naxçıvançay, Mehriçay və digər çaylardan götürülən kiçik primitiv su kanalları şəbəkəsi vardı.

Bu qurğuların mövcudluğu halında müharibədən əvvəlki dövrdə əhalinin suvarma suyuna olan tələbatı 67% həcmində ödənmiş olurdu.

İndi, bütün bu su sisteminin, demək olar ki, 100% sıradan çıxdığı bir dövrdə isə, diyarda tamamən suvarma suyundan asılı olan kənd təsərrüfatının nə vəziyyətdə olduğunu təsəvvür etmək olar. Son vaxtlarda suvarılan torpaqlar 52. 000 desyatin olduğu halda, indi onlar 19. 000 desyatindən çox deyil. Yeri gəlmişkən, artıq dediyimiz kimi, Naxçıvan diyarının bütövlükdə, hər bir kəndlinin isə ayrı-ayrılıqda rifahı suvarma sistemindən sıx şəkildə asılı vəziyyətdədir: o, nə qədər saz olarsa, o qədər çox torpaq suvarılar, suvarılan sahələr nə qədər çox olarsa, əkinçilik o qədər güclü inkişaf edər, kənd təsərrüfatı bitkiləri o qədər intensiv əkilib becərilər.

Buradan da suvarma sisteminin ən sürətli şəkildə, heç olmasa müharibədən əvvəlki normada, bərpa edilməsi ən mühüm zərurət kimi meydana çıxır.

Təəssüf ki, indiyə, yəni təhqiqin başladığı ana qədər bu

sahədə heç bir iş görülməmişdir.

Kəhrizlər dağılmış, kanallar zibillənmiş, su nohurlarından yalnız uçuq bəndlər qalmış, su nasos stansiyaları sıradan çıxmışdır və nəticədə Naxçıvan diyarının hər yerində əkinlər quraqlıqdan yanır; məsələn, ötən il susuzluqdan 2970 desyatin sahədə təkcə pambıq yanmışdır, quraqlıq və su çatışmazlığı üzündən cəm halda isə 6900 desyatin əkin sahəsi məhv olmuşdur. Bu, çox böyük olmayan bir respublika üçün çox böyük, az qala faciəvi bir rəqəmdir.

Suvarılan torpaqların kifayət miqdarda olmaması torpaq aclığı yaradır, əkinçiliyin bütün sahələrini sıxır, torpaq mübahisələri doğurur və ümumiyyətlə, bütün əkinçiliyi təhlükə qarşısında qoyur.

Suvarma sisteminin bərpası sahəsində başladılan işlərdən yalnız onu qeyd etmək lazımdır ki, Fərhad arxı kanalının çəkilməsi ilə bağlı nəzərdə tutulan işlər yerindən tərpənməmişdir və bu iş üçün buraxılan 15. 000 rubl hələ də xərclənməmiş qalır; həm də bu işə qarşı diqqətsizlik, tamamilə laqeyd münasibət o həddə çatmışdır ki, bu kanal ətrafında qaldırılan bütün hay-küyə baxmayaraq, indiyə kimi heç kəs gedib ona baxmağı, orada nələr olduğunu və işlərin necə getdiyini görməyi özünə rəva bilməmişdir.

Yoldaş Bünyadzadə adına (keçmiş Şangirey) sovxozda ümumi uzunluğu 50 verstdən və 18 tuneldən ibarət, tamamən dağılmış vəziyyətdə olan iki Şangirey arxının təmizlənməsinə başlanılmışdır və təmirsiz o arxlardan istifadə etmək olmaz.

Bu arxlar bərpa edildikdən sonra, onlar sovxoz torpaqlarından savayı yeddi kəndə də suvarma suyu ilə xidmət göstərə bilər, həmçinin bu arxları 5 verst də uzadaraq, daha beş kəndi su ilə təmin etmək imkanı var və bu, son dərəcə vacib bir işdir.

Naxçıvan qəzası üzrə aşağıdakı işlərin görülməsinin zəruri olduğu aşkar edilmişdir: Qanlı göl, Salvartı və Köksü-gözəl su hövzələrinin təmir olunması və Naxçıvançayın məcrasının möhkəmləndirilməsi; bu işləri elə bir xüsusi xərc olmadan və

araşdırma aparmadan yerinə yetirmək mümkündür.

Kanalların təmizlənməsi meliorasiya birlikləri tərəfindən həyata keçirilir, amma bütövlükdə bu iş son dərəcə zəif, səliqəsiz təşkil edilmişdir; bu birliklərə buraxılan məbləğlər də o qədər az olmuşdur ki, faktiki olaraq onlar heç bir iş görə bilməmişlər.

İri suvarma tədbirləri sırasında Bazarçay suyunun Naxçıvançaya axıdılması imkanı nəzərdə tutulur; bu xəttin ümumi uzunluğu 36 verstə bərabər olacaqdır, bir çayın suyunun digərlərinə axıdılmasından əldə edilə biləcək fayda isə son dərəcə böyük olacaqdır. Bu istiqamətdə axtarışlar bir vaxtlar hidravlika mühəndisi Zuyev tərəfindən aparılmışdır və onun nəticələri, görünür, Su İdarəsinin qovluqları arasında saxlanılır.

Ordubad qəzasındakı uzunluğu cəmi 8 verst olan, ancaq uzun tunellərdən keçən Ordubad adlı kanalda təhqiqat işləri aparılmalıdır.

Araz çayının sol sahilində Böyükdüzdən başlayaraq uzanıb gedən torpaq zolağı su olmadığı üçün indiyədək istifadəsiz qalmışdır, halbuki burada on-on beş su nasosunun quraşdırılması pambıq əkini sahələrini xeyli genişləndirməyə imkan verərdi.

Ancaq, təəssüf ki, bu sadalanan tədbirlərin heç biri həyata keçirilməmişdir.

Naxçıvan diyarının başçılarını, xüsusilə də xalq torpaq komissarı Fərəməz Mahmudbəyovu suvarma sisteminin bərpası hər şeydən daha az maraqlandırmışdır. O, bunlara tamamilə lazım olmamışdır, çünki mövcud suvarılan torpaqlar onların həm özlərinə, həm də qohumlarına bəs etmişdir, suvarma suyu da ilk növbədə onlara buraxılmış, ən yaxşı bağlar onların əlində olmuşdur.

Əlbəttə, təkcə onların bu arzuda olmaları kifayət etməzdi, bunun üçün vəsait, mütəxəssislər, avadanlıqlar da lazım idi, əgər xahiş etsəydilər, bu barədə müvafiq orqanlar qarşısında məsələ qaldırsaydılar, onların zəruriliyini əsaslandırsaydılar, bütün bunlar onlara verilərdi. Bütün bunların əvəzinə, Mahmudbəyov və komandası öz məruzələrində kəndlilərin dəhşətli

vəziyyəti barədə bir dəfə də olsun söz açmamışdılar; halbuki kəndlilər yanlarından baxımsız suvarma kanalları, arxlar, kəhrizlər keçən susuz tarlalarda olmazın əziyyət çəkir, qırılırdılar.

Bir sözlə, belə bir təsəvvür yaranır ki, əgər komissiya gəlməsəydi, Naxçıvan diyarının vəziyyəti ətrafında hay-küy qaldırılmasaydı, buradakı suvarma sistemi, onunla birlikdə Naxçıvan Respublikasının bütün kəndlilərinin rifahı uzun müddət ölü nöqtədən tərpənməyəcəkdi.

**Yer quruluşu.** Naxçıvan diyarında ikinci ən yaralı və ən kəskin, habelə kənd təsərrüfatının inkişafını fövqəladə dərəcədə əngəlləyən məsələ yer quruluşu və torpaqların bölgüsü məsələsidir.

Naxçıvan diyarında torpaq bölgüsü adı altında Naxçıvan işbazlarının bilavasitə rəhbərliyi və iştirakı ilə həyata keçirilmiş işləri heç bir vəchlə torpaq bölgüsü adlandırmaq olmaz, çünki bu işlər onların ən yaxşı torpaqları planlı və mütəşəkkil şəkildə öz əllərinə keçirməklərinə xidmət etmişdir.

Bu əcaib torpaq bölgüsündə ən orijinal cəhət bu olmuşdur ki, ən yaxşı torpaqların zəbt edilməsində bitərəf qolçomaqlarla yanaşı, kənd özəklərinin öz mahiyyətləri ilə qatı qolçomaqlar olan kommunistləri də iştirak etmişlər.

Əvvəlcə yoldaş Rıkova, sonra isə Xüsusi Komissiyaya verilən on minlərlə şikayətin tam üçdə biri qeyri-düzgün torpaq bölgüsü və sudan qeyri-düzgün istifadə ilə bağlı məlumat və şikayətlərin payına düşür. Bu şikayətlərdə kəndlilər fərdi və kollektiv surətdə ən yaxşı bağların, torpaqların, bostanların, sahələrin, tikililərin bu və ya digər üsulla – birbaşa kobud zorakılıq və yaxud hakimiyyətin qanuni sərəncamı şəklində inzibati aparata yaxın və ya kənd partiya özəklərinə daxil olan şəxslər tərəfindən zəbt edildiyini göstərirlər.

Əhalidə belə bir müəyyən anlayış yaranmışdır ki, Naxçıvan Diyarında olmaq bütün mümkün imtiyazlardan və müstəsna hüquqlardan, ən yaxşı torpaqlardan və bağlardan istifadə etmək deməkdir. Elə həmin xalq torpaq komissarı Mahmudbəyovdan və digərlərindən Naxçıvan Respublikasının keçmiş hakimiyyət

orqanlarına da minlərlə şikayət ərizələri verilmişdir. Ancaq bu şikayətlərin bəxti gətirməmişdir: onları ya sandığa basıb gizlətmiş, ya da araşdırılmaq üçün haqqında şikayət edilən kənd hakimiyyət nümayəndələrinin özlərinə göndərmişlər. Aydındır ki, bu səbəbdən əhali axırda şikayət etməkdən vaz keçmiş və yalnız yoldaş Rıkov, sonra isə Xüsusi Komissiya gələndə onlarla, yüzlərlə verst yol qət edib inam və ümidlə öz şikayətlərini onlara təqdim etmişlər.

Qaçqınlara torpaq verilməsi məsələsi ən kəskin məsələ olmuşdur. Onlar qaçqınlıqdan qayıdanda öz sahələrinin başqaları tərəfindən tutulduğu ilə üzləşmişlər və heç kim onların köməyinə gəlməmişdir.

Torpaqların düzgün bölünməməsi bütün kənd təsərrüfatına, hətta bütün əkinçilərin psixikasına ziyanlı təsir göstərmişdir, çünki onların hər biri bilirdi ki, gec-tez başqa cür torpaq bölgüsü olacaqdır, həmin torpaq sahəsinin həmişəlik onunku olduğuna qəti əmin deyildi. Bu da öz növbəsində ona gətirib çıxarmışdı ki, əkinçinin öz torpaq sahəsinin bərpası işinə həvəslə girişmək üçün heç bir əsası qalmamışdı.

Beləliklə, Naxçıvan başçılarının cinayətkarlığı üzündən əhali torpaq haqqında sovet qanununun zəhmətkeşlərə təqdim etdiyi bütün hüquq, üstünlük və imtiyazlardan məhrum olmuşdu.

Naxçıvan diyarında əkinçilik adi dənli bitkilərin və pambıq, çəltik kimi yüksək bitkilərin yetişdirilməsinə görə iki sahəyə bölünür; burada həmçinin ipəkçilik, bağçılıq, üzümçülük, habelə maldarlıq inkişaf etmişdir.

Taxıl üzrə məhsuldarlıq hər desyatin üçün orta hesabla 30 – 50 pud arasında dəyişir ki, bu da, heç şübhəsiz, adi normadan aşağıdır.

Bütün yerlərdə dənli taxıl adi qaydada yem və ərzaq taxılına bölünsə də, Naxçıvan diyarında bu bölgü şərtidir, çünki burada insanlar, bəzən arpa yeyirlər; halbuki o, adətən ərzaq deyil, yem taxılına aid edilən bir dənli bitki növüdür.

Naxçıvan Respublikasının kənd təsərrüfatı barədə bütövlükdə

aydın təsəvvür əldə etmək üçün, heç olmasa bir illik məhsulun vəziyyəti, əhalinin yem və ərzaq taxılına tələbatı və bu tələbatla istehsal edilən məhsul arasındakı nisbəti izləmək lazımdır.

Nümunə kimi ötən ili, yəni 24-cü ili götürək. Həmin il 16. 636 desyatin buğda əkilmiş və 603. 801 pud məhsul yığılmışdır. 3. 908 desyatin darı əkilmiş, 603. 801 pud darı yığılmışdır. 3. 908 desyatin darı əkilmiş, 463. 235 pud darı yığılmışdır. 1. 985 desyatin çəltik əkilmiş, 275. 035 pud düyü yığılmışdır. Cəmi 23 529 desyatin dənli taxıl bitkisi əkilmişdir.

Dənli taxıl bitkiləri üzrə ümumi yığım həmin il 1. 748. 089 puda bərabər olmuşdur. Bunun da 1. 342. 471 pudunu ərzaq taxılı təşkil etmişdir.

Əhalinin ərzaq taxılına tələbatı isə təxminən 1. 365. 952 pud olmuşdur.

Beləliklə, bütün əhalini yedizdirmək üçün 23 181 pud çatışmamışdır. Yem taxılında da çatışmazlıq yaranmışdır, Naxçıvan Respublikası üzrə heyvanları və insanları yedizdirmək üçün cəmi 145. 494 pud yem taxılı çatışmamışdır. Buradan aydındır ki, Naxçıvan diyarının kəndli büdcəsi və bütün kənd təsərrüfatı ərzaq və yem məhsulları baxımından kəsirli olmuşdur. Müharibədən əvvəlki dövrdə də vəziyyət elə bu cür idi, o vaxt Naxçıvana gətirilən taxıl məhsulu 980. 500 puda bərabər idi.

Pula çevirəndə bütün respublika üzrə kəsir təxminən aşağıdakı rəqəmlərlə ifadə olunur:

1924-cü il üzrə bütün respublikanın gəliri 6. 962. 400 rubl məbləğində olduğu halda, xərc 7.282. 040 rubla bərabər olmuşdur. Deməli, Respublikanın kəsiri ildə 3. 199. 640 rubl təşkil etmişdir. Deməli, Respublikanın kəsiri ildə 319. 640 rubl təşkil etmişdir.

Bu kəsirliliyin səbəbləri olduqca çoxdur, Naxçıvan diyarının yoxsul vəziyyətinin kökündə isə elə bu kəsirliliyin özü durur.

Kəsirliliyin səbəbləri barədə acınacaqlı təsəvvür üçün aşağıdakı rəqəmlərlə tanış olmaq kifayətdir: Naxçıvan Respublikasında adambaşına onda bir desyatindən az torpaq düşür.

Adambaşına bir başdan az xırda buynuzlu heyvan və

yalnız onda üç iri buynuzlu heyvan düşür.

Daha müfəssəl rəqəmlər isə belədir: işlək heyvanın sayı – 6643 baş, sağmal heyvanın sayı – 12 513 baş, cavan heyvanın sayı – 3142 baş; atların sayı isə cəmi 1639-dur. Bütün respublikada 434 dəvə, 3700 eşşək, 52 668 qoyun, 22 862 keçi var.

İri buynuzlu heyvanların sayı 22 321 başdır. İri buynuzsuz heyvan – 5827 baş, xırda buynuzlu – keçi və qoyunların sayı 76 530 başdır. Cəmi – 106 641 baş; əhalinin sayı isə 120 000 nəfərə çatır. Kəsirliliyin başqa bir səbəbi isə məhv olan taxılın böyük həcmdə olmasıdır: buğda – 3696 desyatin, arpa – 1702 desyatin, pambıq 2692 desyatin; beləliklə 24-cü ildə bütün məhv olan taxıl 7260 desyatin olmuşdur ki, bu da ümumi əkin sahəsinin, demək olar ki, dörddə birini təşkil edir.

1924-cü ildə faktiki məhsuldarlıq çox aşağı rəqəmlərlə ifadə olunur: hər desyatindən 31 pud buğda, 33 pud arpa, 28 pud pambıq alınmışdır; yalnız darı hər desyatində 105 pud məhsul vermişdir.

Təsərrüfatın kəsirlə işləməsi, yuxarıda verilən məlumatlardan da aydınlaşdığı kimi, ən əvvəl münasib torpaqların son dərəcə azlığı, işlək heyvanların yoxluğu, suvarmanın azlığı, hər desyatin üzrə məhsuldarlığın həddən artıq aşağı olması ilə izah edilə bilər.

Bütün respublikanın iqtisadi tənəzzülünün və əhalinin yoxsul vəziyyətinin əsas səbəbləri bunlardır.

**Pambıqçılıq.** Naxçıvan Respublikası bütün Zaqafqaziyada ən köhnə pambıqçılıq rayonlarından biridir, xüsusilə də Naxçıvan qəzasında pambıq lap çoxdan əkilir, belə ki, burada hələ xanların dövründə pambıq plantasiyalarına rast gəlinirdi. Şərurda bundan bir qədər gec pambıq becərilməyə başlanmışdır, ancaq daha əlverişli şərait sayəsində orada pambıqçılıq daha sürətlə inkişaf etmişdir.

Məsələ ondadır ki, Şəruru qidalandıran Şərqi Arpaçay müntəzəm surətdə bol sulu olur. Bununla yanaşı, yerli torpaq da daha bərəkətli görünür, Naxçıvan torpağından daha məhsuldardır.

Əlverişli təbii şərtlərin bu cür uyğunluğunun nəticəsi olaraq, Şərur plantasiyalarında hər desyatindən yığılan pambıq məhsulunun həcmi yüksəkdir.

Müharibədən əvvəlki dövrdə Şərur pambığı həmişə seçilmiş, yığımda az qala Zaqafqaziyanın bütün digər rayonlarından irəlidə olmuşdur. İrəvan quberniyası üzrə ümumi pambıq yığımında Şərur və Naxçıvan quberniyalarının xüsusi çəkisi artıq 1894-cü ildə seçilməyə başlamışdı; bu, aşağıdakı cədvəldən də görünür:

Sürməli qəzası həmin il 172. 000 pud pambıq vermişdir.
Şərur-Dərələyəz qəzası 156. 000 “_________________”
Eçmiədzin “_________” 90. 000 “_________________”
İrəvan “_____________” 44. 310 “_________________”
Naxçıvan “__________” 42. 000 “_________________”

1914-cü il müharibəsinin başlanğıcında Naxçıvan Respublikasında artıq pambıq plantasiyalarının ümumi sahəsi 12. 500 desyatinə çatmışdı, bunun 10. 000 desyatini Şərurun, 2. 500 desyatini Naxçıvanın payına düşürdü.

1914-cü ildə Şərur rayonunda pambıqçılıq başlıca yeri tuturdu və aran yerinin, demək olar ki, bütün kəndlərinin iqtisadiyyatı pambıq maraqları ətrafında cərəyan edirdi. Bu baxımdan Baş Noraşen, Ülya-Noraşen, Yengicə və Xanlıqlarda kənd təsərrüfatları xüsusilə seçilirdi. Yeri gəlmişkən, pambıq bir sıra kredit və borc-əmanət birliklərinin yaranmasına səbəb olmuşdu. Xüsusilə, Xanlıqlar kənd birliyi bütün fəaliyyətini pambıq üzərində qurmuş, geniş əməliyyatlar həyata keçirmişdi: 1913-cü ildə birlik öz üzvlərinə 5394 pud boz rəngli, 1504 pud əla növ pambıq çiyidi, 172 çiləmə cihazı və 12 000 rubl məbləğində müxtəlif kənd təsərrüfatı avadanlığı satmışdı. Bundan əlavə, birlik öz üzvlərinin tapşırığına əsasən, 1500 pud girov qoyulan və təmizlənməmiş pambığın hər pudunu yerli qiymətlərdən 50 qəpik baha satmışdır.

Qonşu Ülya-Noraşen birliyi də həmin il öz üzvlərinə 3270 pud boz rəngli pambıq çiyidi və 40 ədəd çiləmə cihazı və öz üzvlərinin tapşırığı ilə 10 000 puda yaxın təmizlənmiş pambıq satmışdır.

İmperialist müharibə ərəfəsində Şərurda 11 kənd birliyini özündə birləşdirən 4 kredit borc-əmanət birliyi fəaliyyət göstərirdi.

Pambıq əkini ilə yanaşı, Naxçıvanda və Şərurda pambıqtəmizləmə işi də inkişaf edirdi və o, Azərbaycanın digər rayonlarından fərqli olaraq, müharibədən əvvəlki dövrdə burada yarıkustar xarakter daşıyırdı.

Pambıq istehsal yerində təmizlənir, iri zavodlara daşınmırdı, əslində belə zavodlar, demək olar ki, yox idi.

1912-ci ilin inzibati statistikasına görə Şərurda və Naxçıvanda 85 kustar pambıqtəmizləmə zavodu fəaliyyət göstərirdi, onlardan 53-ü su ilə hərəkətə gətirilirdi. Bu rayonların pambıq iqtisadiyyatının daha əyani xarakteristikası üçün pambıqtəmizləmə zavodlarının yerləşdiyi yerlər və onların gücü barədə aşağıdakı məlumatları vermək artıq olmazdı:

| Kəndlərin adı | Zavodların sayı | 1912-ci ildə təmizlənmiş pambıq |
|---|---|---|
| Şərur üzrə: | | |
| Yengicə kəndi | 5 | 110.000 pud |
| Baş Noraşen | 1 | 6.000 |
| Düdəngə | 2 | 18.000 |
| Zeyvə | 2 | 400 |
| Qarxun | 1 | 300 |
| Mahmudkənd | 2 | 500 |
| Siyaqud | 2 | 2.500 |
| Ülya-Noraşen | 4 | 4.000 |
| İbadulla | 1 | 500 |
| Qaraxanlı | 1 | 600 |
| Tumaslı | 1 | 200 |
| Xanlıqlar | 3 | 2.500 |
| Larmazinr | 3 | 3.000 |

| | | |
|---|---|---|
| Aralıq bəy | 1 | 300 |
| Kesəncə | 1 | 500 |
| Quşçu-Dəmirçi | 1 | 1000 |
| Yaycı | 4 | 800 |
| Axura | 4 | 500 |
| Yuxarı Danzik | 2 | 1.200 |

Dərələyəz üzrə:

| | | |
|---|---|---|
| Arpaçay kəndi | 4 | 2.400 |
| Ərtic | 2 | 400 |
| Koygül | 2 | 2000 |
| | 49 | 168. 400 pud |

Keçmiş Naxçıvan qəzası üzrə:

| | | |
|---|---|---|
| Naxçıvan şəhəri | 4 | 2. 440 pud |
| Tumbul kəndi | 2 | 1. 763 |
| Yamxana kəndi | 1 | 925 |
| Təzəkənd | 3 | 1 850 |
| Şəkərabad | 1 | 275 |
| Qoşadizə | 1 | 300 |
| Şıxmahmud | 2 | 1.100 |
| Badaşqan | 1 | 500 |
| Kərim bəy Dizə | 1 | 2.000 |
| Xəlilli | 1 | 200 |
| Yarımca | 1 | 200 |
| Qıvraq | 2 | 2.000 |
| Qarabağlar | 1 | 700 |
| Xok | 2 | 1.200 |
| Cəhri | 3 | 4.460 |
| Vayxır | 1 | 340 |
| Əznəbürd | 1 | 140 pud |

| | | |
|---|---|---|
| Əbrəqunus | 1 | 500 |
| Camaldın | 1 | 300 |
| Güznüt | 2 | 500 |
| Nehrəm | 1 | 1.500 |
| Düylün | 2 | 1.000 |
| Yuxarı Aza | 2 | 1. 000 |
| Culfa yeri | 1 | 210 |
| Ordubad şəhəri | 3 | 6.000 |
| | 44 | 34.703 |

Daha güclü zavodlar Şərurda idi və 1912-ci ildə orada Dərələyəzlə birlikdə 168. 400 pud, Naxçıvanda isə həmin ildə 37. 703 pud pambıq təmizlənmişdi.

Əgər 1912-ci ili normal hesab edərsək, onda Şərur pambıqçıları xammalın hər pudu 4 rubl olmaqla, pambıqdan 2. 200. 000 rubl Naxçıvan pambıqçıları isə 416 rubl əldə etmişlər.

İlk iki qəzanın iqlim və torpaq şəraiti bu bitkinin becərilməsi üçün son dərəcə əlverişlidir və əgər əhali cüzi aqronomik biliklərə malik olsaydı və pambıq əkini kənd təsərrüfatı maşınları və avadanlıqları ilə aparsaydı, habelə toxumların yenilənməsinə və dəyişdirilməsinə diqqət yetirsəydi, onda pambıq bitkisi tamamilə az intensiv olan bitkiləri sıxışdırıb aradan çıxarardı.

Kəndlilər pambıq əkməyə çox meyllidirlər. Yalnız suvarma suyunun, daha doğrusu, kanal və kəhrizlərdən ibarət suvarma sisteminin çatışmazlığı Azərbaycan Pambıq İdarəsinin təşkilatlarını öz pambıq sahələrini genişləndirmək arzusunda olan kəndlilərə kredit ayırmaqdan boyun qaçırmağa məcbur edir.

Suvarılan torpaq sahəsi böyüməyə başlayan kimi, pambıq əkilən desyatinlərin də miqdarı fasiləsiz olaraq artacaqdır, Naxçıvan Respublikasının isə zəngin pambıq sənayesi rayonuna, bizim toxuculuq sənayesi üçün pambıq təchizatçısına, pambıqtəmizləmə və yağ zavodları, gələcəkdə isə ola bilsin ki, toxuculuq fabrikləri məkanına çevrilməsi üçün, başqa sözlə desək, Zaqaf-

qaziyanın çiçəklənən sənaye guşəsinə çevrilməsi üçün hər cür təbii imkanlara malik olduğu göz qabağındadır.

Ancaq bunlar, yalnız xoş istək və arzulardır, Naxçıvan gerçəkliyi isə pambıqçılıq sahəsində də öz fövqəladə səhlənkarlığı və bu sahədə cinayətlərin qeyri-adi miqdarda çox olması ilə adamı heyrətə gətirir.

Dövlət təşkilatları pambıqçılıq zəminində kəndlilərlə çox yaxından təmas qurmalı olurlar, çünki kəndlilərə əkin üçün borc verirlər, özü də bu borc həm pul, həm də ən ucuz qiymətə ən zəruri ərzaq məhsulları şəklində verilir.

Beləliklə, bu sahə, istənilən digər sahə kimi, dövlət aparatını kəndlilərə yaxınlaşdırır və sovet hakimiyyətinin təbliği, kəndlilərlə əlaqə üçün ən yaxşı vasitədir, ümumdövlət iqtisadiyyatının bərpası ilə bağlı dövlət quruculuğuna kəndliləri cəlb etməyin ən yaxşı üsuludur.

Bütün bunlar işin lazımi qaydada təşkil edildiyi və düzgün sovet işçilərinin mövcud olduğu təqdirdə mümkündür.

Naxçıvanda belə işçilər olmadığı, pambıq işinə isə hazırda güllələnmiş olan qatı cinayətkar, xəzinə oğrusu Tağıyev rəhbərlik etdiyi üçün tamamilə başqa bir şey alınmışdır: külli miqdarda oğurluqdan, suvarma suyunun çatıb çatmadığını hesablamadan pambıq toxumunu mənimsəyən bu müdir, pambıqçılara paylanmaq üçün mərkəzdən aldığı manufakturanı möhtəkirlərə öz xeyrinə çox faydalı qiymətə satmışdır.

Pambıqçılıq üzrə qalan bütün əməkdaşlar keçmiş möhtəkirlərdən, qolçomaqlardan, bəylərdən, xanlardan, uryadniklərdən və bu kimi tiplərdən ibarət olmuş, öz başçıları ilə birlikdə onlar da mürgüləməmiş, kəndliləri sıxışdırmış, onlara qarşı təkcə kobud davranmamış, hətta döydükləri hallar da olmuşdur.

Bu cür ağalıq nəticəsində 80. 000 rubl xalq pulu oğurlanmış, su çatışmazlığından 3000-ə yaxın pambıq sahəsi yanmış, qeyri-rasional pambıq əkini nəticəsində Azərbaycan Pambıq İdarəsinə borclu qalan kəndlilər çıxılmaz vəziyyətə düşmüşlər. Ümumiyyətlə, pambıqçılıq təsərrüfatı tənəzzülə uğramışdır.

**İpəkçilik.** Bütün İrəvan quberniyasında ipəkçilik yalnız Naxçıvan qəzasında, başlıca olaraq Ordubad rayonunda yayılmışdır: qonşu Şərur qəzasında müharibədən əvvəlki dövrdə yalnız ayrı-ayrı sahibkarlar ipəkçiliklə məşğul olmuşlar.

Tut arağına qoyulan aksiz yüksəldiləndən sonra ipəkçilik xüsusilə güclü inkişaf etməyə başlamışdır. İpəkçiliyin ciddi rol oynadığı kəndlərdən aşağıdakıların adlarını çəkmək olar: Cəhri, Kültəpə, Tumbul, Təzəkənd, Yarımca, və Naxçıvan şəhəri.

Ordubad rayonundakı 46 kənddən 41-i əvvəllər ipəkçiliklə məşğul olurdu. İpəkçilərin əsas kütləsi Ordubadda, Yuxarı Əylis, Yuxarı Aza, Anabad, Çənnəb və s. iri kəndlərdə cəmləşmişdi.

İpəkçiliyin genişlənməsinə torpağın azlığı (suvarma suyunun çatışmazlığı), əlverişli iqlim şəraiti və tut ağaclarının torpaq və qulluq baxımından çox tələbkar olmaması rəvac vermişdir.

İnqilaba qədər Naxçıvan Respublikasında 10. 000 qutuya yaxın barama toxumu dirildilir (sərf olunur), yığılan xam barama isə 15. 000 puda çatırdı.

Bundan əlavə, Naxçıvan rayonunun ipəkçiliyi üçün barama toxumu tədarükü, barama açma və baramadan eşilmiş ipək alma işlərinin uğurlu inkişafı da xarakterik idi.

Ordubad rayonu Zaqafqaziyada ən iri barama toxumu istehsalçısı idi. Burada ildə 60 000 qutu barama toxumu hazırlanırdı, həm də bu toxum başlıca olaraq İrana və Türküstana göndərilirdi.

Baramaaçma və baramadan eşilmiş ipək alma işləri əsasən Ordubadda görülürdü; 1914-cü ildə burada 325 fəhləsi olan 12 zavod fəaliyyət göstərirdi. Naxçıvan şəhərində və sonra Aşağı Əylis və Çənnəb kəndlərinin də hər birində bir zavod vardı. Naxçıvan zavodlarının məhsuldarlığı 450 pud ipliyə çatırdı.

İpəkçilik və ipək sənayesi Ordubad və qonşu Yuxarı Əylis, habelə keçmiş Ordubad sahəsinin digər kəndlərinin başlıca məşğuliyyəti idi.

Ancaq bütün ipəkçilik və baramaaçma işi elmi cəhətdən düzgün təşkil edilməmiş, texniki avadanlıqlarla düzgün təchiz

olunmamışdı, buna görə də o, geniş vüsət ala bilməmişdi.

Milli ədavətin qızışdığı illərdə isə bu kustar sənaye və kənd təsərrüfatı sahələri tamamilə tənəzzülə uğramış və yalnız 1921-ci ildən etibarən tədricən canlanmağa başlamışdır.

1923-cü ildə Naxçıvan Respublikası üzrə ipəkçilik aşağıdakı rəqəmlərlə ifadə olunurdu: 804 pud quru barama toplanmış, yerli zavodlarda 295 pud barama açılmış, 85 pud ipək və 30 pud frizon alınmışdır. Bir pud ipəyin maya dəyəri 470 rubla bərabər olmuşdur. Cəmi bir ipək açan zavod 7 ay 15 gün ərzində işləmişdir.

1924-cü ildə isə artıq kiçik bir tərəqqi baş vermişdir, belə ki, məsələn, 818 pud quru barama toplanmış, 133 pud ipək və 40 pud frizon əldə edilmişdir. Bir pud ipəyin maya dəyəri 430 rubla bərabər olmuş, 2 baramaaçan zavod fəaliyyət göstərmişdir.

Hal-hazırda ipəkçilik və ipək emalı işinin texniki avadanlığa, elmi təşkilə, barama toxumu stansiyalarının açılmasına ehtiyacı var; bu da, heç şübhəsiz, əhaliyə böyük qazanc gətirər və bütün Ordubad qəzasının iqtisadi inkişafının başlıca şərtinə çevrilər.

Bütün bu işin kooperativləşdirilməsinə, onun kənd təsərrüfatı bankı tərəfindən maliyyələşdirilməsinə dövlət tərəfindən kömək edilməsi lazımdır.

**Çəltik əkini.** Çəltiyi Naxçıvan diyarında digər çox yayılan və spesifik bir bitki hesab etmək lazımdır.

Pambıq kimi, o da daha çox Şərurda yayılmışdır, burada onun inkişafına su bolluğu ilə yanaşı, yerli torpaqların xüsusi bataqlığı şərait yaradır. Çəltik günəş və su əsəridir, onun uzunmüddətli quraqlığa dözümü yoxdur.

Son beş ay ərzində çəltik fasiləsiz suvarma və suvarılan suyun daim dəyişdirilməsini tələb edir. Onun suvarılmasına yalnız yetişmə ərəfəsində son verilir. Çəltik plantasiyalarının məhz Şərurda özünə yer tapması da bu baxımdan təbiidir. Çəltik plantasiyalarının sahəsinə görə Şərur müharibədən əvvəlki dövrdə İrəvan quberniyasında ikinci yeri tutur və yalnız sulu Zəngibasar

zonasına malik İrəvan qəzasından geri qalırdı.

Hidravlika mühəndislərinin məlumatlarına görə 1890-cı ilin sonunda Şərurda 3000 desyatinə qədər, Naxçıvanda isə yalnız 50 desyatin sahədə çəltik əkilmişdir. 1916 və 1917-ci illərin siyahısına görə bütün Şərur-Dərələyəz rayonunda çəltik tarlası olan 65 kənd qeydə alınmışdır. Xanlıqlar, müsəlman Daş - arxı, erməni Daşarxı, Acıban və digər bir neçə kənddən savayı düzən ərazidə çəltik plantasiyası olmamışdır.

Zaqafqaziyanın ən az sulu və quraq rayonu olan keçmiş Naxçıvan qəzasında da hər halda Giləyançay, Ordubadçay çayları boyunca və Hüseyn Bəy Dizə, Mirzə Həsən Dizə, Kələntər Dizə, Xudaverdi Bəy Dizə, Sumbat Dizə və Yarımca kəndlərində çəltik tarlaları olmuşdur.

Müharibədən əvvəlki dövrdə çəltik yavaş-yavaş pambıq bitkisi tərəfindən sıxışdırılıb çıxarılmışdır, lakin Şərurun suvarılan sahələrinin spesifik xarakteri, bataqlığı, hədsiz nəmişliyi sayəsində pambıq tarlaları çəltiyi yerli mədəni bitkilər sırasından sıxışdırıb çıxara bilməmişdir və o indi də əkin sahələri arasında mötəbər yer tutur.

Müharibə, milli ədavət illərində pambıq tarlaları baxımsız qaldığı dövrdə, çəltik əkinlərinin sahəsi xeyli artmışdır.

Normal dövr üçün 3 000 desyatin (yuvarlaq olaraq) çəltik tarlası əkildiyini və hər desyatindən 200 pud məhsul götürüldüyünü (Şərurda məhsuldarlıq həmişə yüksək olmuşdur) nəzərə alsaq, onda 600 000 pud həcmində ümumi çəltik məhsulu və 320 000 pud həcmində düyü istehsal edilmiş olduğunu görərik.

Bu məhsulun böyük bir hissəsi Şərur hüdudları daxilində istehlak olunur və yaxud kiçik bir hissəsi qonşu qəzalara və hətta İran və Türkiyəyə ixrac edilirdi. Dəmiryolu məlumatlarına görə 1912-ci ildə aşağıdakı miqdarda düyü göndərilmişdi:

Noraşen stansiyasından .................... 24 383 pud
Şahtaxtı stansiyasından.......................... 209 pud
Naxçıvan stansiyasından........................ 933 pud
Culfa stansiyasından.............................. 110 pud

Eyni zamanda aşağıdakı miqdarda düyü gətirilmişdi:
Noraşen stansiyasına ...........................5 169 pud
Şahtaxtı stansiyasına............................1 959 pud
Naxçıvan stansiyasına..........................3 199 pud
Nehrəm stansiyasına .... ...........................20 pud
Culfa stansiyasına...............................40 285 pud

Düyünün bir hissəsi qonşu qəzalara at-araba ilə, İran və Türkiyəyə isə həm də qaçaqmalçılıq yolu ilə (Araz çayından keçməklə) daşınırdı.

Naxçıvan Respublikasında yığılan 600 000 pud çəltiyin bazar qiyməti normal vaxtlarda təxminən 600 000 rubla çatırdı.

Hal-hazırda çəltik tarlaları pambıq əkinləri hesabına tədricən sıxışdırılıb aradan çıxarılır və bunu, şübhəsiz, zəruri hesab etmək lazımdır, çünki çəltik tarlaları malyariyanın yayılması üçün ən münbit, ən güclü vasitə, Naxçıvan diyarının bu bəlasının, necə deyərlər mənbəyidir.

Çəltiyin Naxçıvan kəndlisinin məişətindən tamamilə çıxarılması, daimi bataqlıqlardan ibarət olan çəltik plantasiyalarının tədricən qurudulması və onların malyariya yuvası olmasına son qoyulması üçün gərəkli bütün tədbirləri görmək lazımdır.

**Bağçılıq.** Meyvə bağları da Naxçıvan Respublikasında geniş inkişaf edib, ancaq bu inkişaf heç də hər yerdə mövcud və eyni dərəcədə deyil.

Şərurda meyvə bağları çox azdır, lakin keçmiş Naxçıvan qəzasının ərazisində, xüsusilə də Ordubad rayonunda və Naxçıvan şəhərinin özündə ciddi əhəmiyyətə malikdir. Sonuncuda, demək olar ki, əhalinin yarısında üzümlüklərlə yanaşı meyvə bağlarına rast gəlinir.

Bağlar qarışıq xarakter daşıyır və şaftalı, qaysı, ərik, alma və gavalı, həmçinin iydə, tut, gilas, gilənar, heyva və s. ağaclarından ibarətdir.

Naxçıvan diyarı hüdudlarından çox-çox uzaqlarda da məşhur olan Ordubad şaftalısı öz keyfiyyətinə görə xüsusilə seçilir. İnzibati statistikaya görə, keçmiş Naxçıvan qəzasında

meyvə bağlarının ümumi sahəsi 800 desyatinə yaxın, Şərur-Dərələyəz rayonunda isə 200 desyatin olmuşdur.

Meyvə bağlarının çoxu isə əvvəllər Ordubad sahəsində olmuşdur.

Yerli meyvələrin çox hissəsi elə yerlərdəcə tər halda işlənir və qurudulurdu. Onların bir hissəsi konservləşdirilir, çox az bir qismi Naxçıvan diyarı hüdudlarından kənara ixrac edilirdi. Meyvə bağlarının bazardan uzaq olması və nəqliyyat şəraiti ixraca əngəl törədirdi.

Hər halda meyvə bağlarından alınan məhsul Naxçıvan kəndlisinin istehlak ehtiyaclarını ödəməklə və bazara mal çıxarmaq imkanı verməklə, onun iqtisadiyyatına böyük yardım göstərirdi.

Hal-hazırda bağçılıq son dərəcə tənəzzülə uğramış vəziyyətdədir, çünki inqilab zamanı meyvə məhsullarının satışı son dərəcə az olmuş, milli zəmində toqquşmalar dövründə isə bağlar amansızcasına qırılmışdır, indi isə bir çox iri gözəl bağların yerində yalnız meyvə ağaclarının kötükləri qalmışdır.

**Üzümçülük və şərabçılıq.** Naxçıvan Respublikasında üzümçülük başlıca olaraq keçmiş Naxçıvan qəzasında inkişaf etmişdir, Şərurda isə o çox zəif rol oynayır.

Keçmiş Aksiz İdarəsinin məlumatlarına görə keçmiş Naxçıvan qəzasında 1000 desyatinə qədər, Şərurda isə 450 desyatinə yaxın üzüm bağları olmuşdur.

Bərəkətli iqlim və üzüm dövrü üçün əlverişli torpaq burada ən qiymətli üzüm növlərini yetişdirməyə imkan verir, lakin üzümçülük yalnız keçmiş Naxçıvan qəzasında daha çox yayılmış, keçən əsrin ikinci yarısında, özü də əsasən Naxçıvan şəhərində inkişaf etmişdir.

Bu inkişaf təxminən aşağıdakı tempdə getmişdir: 1840-cı ildə Naxçıvan şəhərində üzüm bağlarının sahəsi 50 desyatin, 1850-ci ildə – 84 desyatin, 1866-cı ildə artıq – 400 desyatin olmuşdur. İnqilabın başladığı anda isə bu rəqəm 1000 desyatindən çox olmuşdur.

Naxçıvanda əldə edilən üzüm məhsulu başlıca olaraq təzə-

tər şəkildə istehlak edilir, emal olunanda da ondan əsasən bəkməz hazırlanır. Üzümdən yalnız ayrı-ayrı erməni kəndlərində şərab çəkilmişdir, özü də yerli şərablar həmişə öz gözəl keyfiyyəti ilə məşhur olmuşdur.

Naxçıvan qəzasında şərab istehsalının həcmi ildə 60 000 vedrəyə bərabər idi.

Araq istehsalı da üzümçülük və şərabçılıqla bilavasitə bağlıdır. Lakin İrəvan quberniyasının digər rayonları ilə müqayisədə Naxçıvan diyarı bu sahədə yalnız üçüncü yeri tutur. Burada çəkilən arağın həcmi ildə 300 və 500. 000 qradus arasında dəyişmişdir.

1914-cü ildə Naxçıvan Diyarında 130 araq zavodu olmuş, onlarda 290 fəhlə işləmişdir. Hal-hazırda bu sahələr, yəni, üzümçülük, şərabçılıq və araq istehsalı tənəzzülə uğramışdır.

**Heyvandarlıq.** Müharibədən əvvəlki dövrdə Naxçıvan Respublikasında heyvandarlıq həm oturaq, həm də köçəri xarakter daşımışdır. Geniş otlaqların mövcudluğu nisbətən böyük qoyun sürüləri saxlamağa imkan verirdi.

Baytarlıq nəzarətinin məlumatlarına görə 1914-cü ildə keçmiş Naxçıvan qəzasında aşağıdakı miqdarda heyvan olmuşdur:

Öküz ....................15.190
İnək ..................... 11.334
Kəl ........................ 2.264
Camış .................... 2.251
Qoç ......................13.739
Qoyun ................. 77.867
Keçi .................... 18.876
Donuz ..........................44
Təkə .....................13.487
İşlək at ...................2.187
Az yaşlı at..................757
Qatır...........................293
Dəvə..........................218
Eşşək .....................6.675

Şərura gəldikdə isə, bütün Şərur-Dərələyəz qəzası üzrə ümumi məlumatlardan onun heyvan sayını ayırmaq qeyri-mümkündür.

Hal-hazırda heyvandarlıqla əsasən dağ ətəyi ərazilərin əhalisi məşğul olur.

Ancaq suvarılmayan sahələr, xüsusilə də dağ ətəkləri qısır səhraya çevrildiyi, azacıq da olsun ot örtüyünə malik olmadığı üçün heyvandarlıq respublikanın ümumi ərazisi ilə müqayisədə son dərəcə zəif inkişaf etmişdir. Naxçıvan Respublikasında heyvandarlığın hər cür inkişafı başlıca olaraq mədəni heyvandarlıq xətti ilə – heyvanların yonca və digər əkilən ot bitkiləri ilə bəslənməsi yolu ilə mümkün ola bilər, həmin bitkilər isə suvarılan sahələrdə bol yetişir.

İndi isə heyvanlarla bağlı vəziyyət çox bərbaddır, demək olar ki, fəlakət həddindədir. Bu, xüsusilə də kəndli təsərrüfatları üçün zəruri olan işlək heyvanlara aiddir, çünki, belə heyvanlar demək olar ki, yoxdur və bütöv kəndlər mövcuddur ki, onlarda dördayaqlılardan yalnız pişik və it var, bir kənddə isə, məsələn, yalnız bircə öküz var, o da dövlət tərəfindən verilib, bunun da nəticəsində kəndlilər öz tarlalarını ən primitiv, ən ibtidai üsulla, yəni kərki və kətmənlə becərməli olurlar.

Heyvanların sayının artırılmasında ən böyük əngəl bundan ibarətdir ki, başqa yerlərdən gətirilən heyvanlar Naxçıvanın iqlim şəraitinə (yayın istisinə) tab gətirmir və elə birinci ildəcə qırılırlar.

Heyvanları Naxçıvan diyarının iqliminə uyğunlaşa bilən yeganə yer ona bitişik İran ərazisidir və əgər İran hökuməti tərəfindən əngəl törədilməsə, imkan daxilində oradan heyvan satın alınacaqdır.

**Baytarlıq.** 1913-cü ildə Naxçıvan qəzası ərazisində sərhədyanı sahələrdə aşağıdakı baytar həkimlər var idi: Ordubad şəhərindəki 15-ci Ordubad sahəsində; Culfadakı 16-cı Culfa sahəsində; Naxçıvan şəhərindəki 17-ci Bulqan sahəsində; Şahtaxtı kəndindəki 18-ci Şahtaxtı sahəsində; Baş Noraşen kəndindəki

19-cu Baş Noraşen sahəsində; həmçinin keçmiş Naxçıvan qəzasındakı 1-ci sahədə, həmin qəzadakı 2-ci sahədə və Şərurdakı 1-ci sahədə.

Hal-hazırda cəmi 3 baytar məntəqəsi fəaliyyət göstərir, onlar da son dərəcə zəif işləyir, buna görə də Naxçıvan diyarında heyvan xəstəlikləri son dərəcə geniş yayılmışdır və bu da onsuz çox az sayda olan heyvanların son dərəcə azalmasına səbəb olur.

Ən əsas və ən geniş yayılmış xəstəlik buynuzlu heyvan taunudur.

Ona qarşı ən radikal mübarizə tədbiri aşılamadır.

Naxçıvan diyarında buynuzlu heyvanlarda taun xəstəliyi bir neçə ay ərzində davam etmişdir. 438 xəstələnmə halı qeydə alınmışdır.

Görülən karantin tədbirləri və aşılamalar gözəl nəticə vermişdir və hal-hazırda taun aradan qaldırılmışdır.

Ancaq bəla bundadır ki, bu xəstəlik buraya daim qonşu ərazilərdən, xüsusilə də İrandan yol tapır, buna görə də heyvan xəstəliklərinin birdəfəlik kökünü kəsmək və qarşısını almaq üçün kifayət miqdarda təsviyyə məntəqələri açmaqdan əlavə karantin sərhədlərinin də ciddi şəkildə müəyyənləşdirilməsi lazımdır.

Hal-hazırda karantin sərhədləri kifayət qədər ştat və baytar-karantin məntəqələri olmadığı üçün çox zəif qorunur.

**Aqronomik yardım.** Naxçıvan Diyarında yüksək kənd təsərrüfatı bitkilərinin becərilməsi, habelə kənd təsərrüfatının ipəkçilik, bağçılıq, bostançılıq kimi sahələrinin mövcud olması ilə əlaqədar aqronomik yardıma xüsusilə kəskin ehtiyac duyulur və onun çatışmazlığı kənd təsərrüfatında geriliyin, əldə edilən faydanın və pambıqçılıq, ipəkçilik, bağçılıq və s. kimi intensiv kənd təsərrüfatı sahələrinin kifayət həcmdə olmamasının köklü səbəblərindən biridir.

Avam Naxçıvan kəndlisi hələ də ən primitiv üsulla işləyir.

Əksər hallarda biz onun kotan əvəzinə cut və ya xışla, mala əvəzinə tapanla, toxa əvəzinə kərki ilə, adi toxumsəpən əvəzinə səbət və öz əli ilə işlədiyinin görürük.

Mövcud olan iki aqronom məntəqəsinə gəldikdə isə, onlar hələ təşkilati cəhətdən çox zəifdirlər və o qədər yaxın vaxtda fəaliyyətə başlamışlar ki, aqronomik yardım səviyyəsinin yüksəldilməsində hələlik olduqca cüzi rol oynayırlar.

Bütün bunlar ona görə baş verir ki, onların təşkilinə indiyə qədər heç bir diqqət yetirilməmiş və onlara heç bir vəsait ayrılmamışdır.

Naxçıvan qəzasında aqronom məntəqəsinin təşkilinə, tikinti işinə, canlı və cansız inventarların alınmasına, tarlaçılıq və bağçılığın təşkilinə cəmi 1200 rubl ayrılmışdır.

**Bünyadzadə adına sovxoz.** Aqrokultura və aqronomik yardım sahəsində elmi metodla çalışan təsərrüfat məntəqəsinə misal kimi yoldaş Bünyadzadə adına sovxoz göstərilə bilər. Şangireyin bu keçmiş mülkü müharibədən əvvəlki dövrdə nümunəvi əkinçilik təsərrüfatı idi.

Böyük meyvə bağı, üzümlük, tut tingliyi, gözəl əkinlər – bütün bunlar öz xidmət dəstələri, öz zavodunda yetişdirilən atların saxlandığı tövlələrə malik ağa malikanəsinin ətrafında yerləşirdi.

Onlardan sonra gözəl buğda, arpa və pambıq tarlaları gəlirdi.

Bu mülkün bütün torpaqları Şangireyin özünün çəkdiyi iki arxın suyu ilə suvarılırdı.

Elə həmin vəziyyətdə də onu aldılar, yəni bu sovxozun sərəncamına verildi, Xalq Torpaq Komissarlığının keçmiş başçıları onun üzərində elə "işlədilər" ki, indi o, tamamilə xarabazara çevrilmişdir.

Onu bu şəklə salmaq üçün sovxoz üçün məlum tip Şaxtaxtinskinin "istismarına" verilmiş, o da mövcud ehtiyatları dağıtmış və nə üçünsə tut tingliyini, bağları qırmış və ümumiyyətlə, "sovxozu" elə bərpa etmişdir ki, o, bir neçə il tamamilə baxımsız qalmış, keçmişdəki gözəlliyini yalnız ağac kötükləri ilə xatırladan boş bir əraziyə çevrilmişdir.

**Əkinçilik üzrə ümumi nəticələr.** Beləliklə, yuxarıda təsvir edilən mənzərədən kənd təsərrüfatı əkinçiliyinin, kəndli büdcəsinin

perspektivləri və resursları tədricən aydın olur. Xalq Torpaq Komissarlığına başçılıq edən və kəndli əleyhinə öz dağıdıcı siyasətlərini həyata keçirən şəxslərin rolu da aydındır.

Ən yaxşı torpaqları öz əllərinə keçirməkdən, bilavasitə və dolayısı ilə qolçomaqları dəstəkləməkdən, torpaq bölgüsü işində Sovet hakimiyyətinin prinsiplərini tamamilə təhrif etməkdən savayı, Xalq Torpaq Komissarlığında əyləşən bu qatı əclaflar, bəy və xanlar, qolçomaq və keçmiş kətxudalar dəstəsi həm də bilavasitə cinayətlər törətmişlər. Qolçomaqlarla əlaqə saxlamaqla, onlara öz fərdi təsərrüfatlarını inkişaf etdirməyə kömək etməklə onlar, muzdurların qeyri-adi dərəcədə ağır istismara məruz və uzun illər boyu əsarət altında qalmalarına yardımçı olmuşlar. Bu muzdurların sayı getdikcə artmışdır, çünki torpaq sahəsindən məhrum olduqları və yaxud yararsız, sistematik şəkildə suvarma suyuna həsrət qalan torpaq sahələri ilə təmin edildiklərinə görə onlar muzdla işləmək üçün yenə də, komissiyanın gəlişinə qədər Naxçıvan Diyarında mövcud olan saxta sovet hakimiyyətinə uyğunlaşmış həmin keçmiş bəylərin, xanların, mülkədarların yanlarına gedirdilər.

Bir sözlə, Naxçıvan Diyarında kəndlilərin təbəqələşməsi yoxsulların təşkilatlanması və gücləndirilməsi xətti ilə deyil, qolçomaqların möhkəmlənməsi və onlar üçün bütöv bir muzdur təbəqəsinin yaradılması xətti ilə getmiş, həmin muzdurlar bu qolçomaqların tam və ümidsiz istismarına verilmişlər.

## 3. MALİYYƏ

**Büdcə.** Naxçıvan Respublikasında büdcənin icrası heç də düzgün aparılmır, belə ki, Xalq Komissarları Soveti büdcənin yerinə yetirilməsində heç cür iştirak etmir. Buraxılan kreditlərlə bağlı sərəncamlarda tam müstəqillik verilməsi tendensiyası mövcud olmuş, bununla da Mahmudbəyov, Babayev, Dadaşov və onlara bənzər ünsürlərə pulları öz bildikləri kimi xərcləməkdə tam sərbəstlik verilmişdir.

Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin

səlahiyyətli nümayəndəsi də bu təkliflə razılaşmış və müəssisələr pulları müəyyən kredit olmadan xərcləmişlər.

Yerli maliyyə alt şöbələrində hesabdarlığın aparılması üzrə qüsurlarla bağlı bunu qeyd etmək olar ki, ümumi jurnal və baş kitab, təlimatda tələb olunduğu kimi gündəlik deyil, aylıq aparılır.

Bütün qəza icraiyyə komitələrində natural fondların uçotu aparılmır. Cari büdcə ili ərzində gəlir və xərclər barədə hər hansı bir sistematik məlumat toplamaq qeyri-mümkündür. Ehtiyat fondunun çox sərbəst şəkildə xərclənməsi diqqət çəkir. Bu fond hər büdcə üzrə ümumi xərclərin 5%-dən artıq olmayan həcmdə büdcənin məxaric hissəsinə daxil edilir və subsidiya verilməsi, defisitin ödənməsi və nəhayət nəzərdə tutulmayan xərclər üçün nəzərdə tutulur. Bu fonda sərəncam Xalq Komissarları Sovetinin əlində cəmlənməlidir. Naxçıvan Xalq Komissarları Soveti isə fondun xərclənməsinə düşünülmədən və etinasız yanaşmışdır. Ehtiyat fondundan hədsiz dərəcədə geniş, eyni zamanda tamamilə onun birbaşa təyinatına uyğun olmadan istifadə edilib. Pulların verildiyi siyahıya baxan kimi aydın olur ki, onlar defisiti, hətta nəzərdə tutulmayan xərcləri ödəmək üçün deyil, sadəcə özbaşına təyinat üzrə, yəni məsələn: dövlət teatrının saxlanmasına, Mərkəzi Statistika İdarəsinin və digər müəssisələrin ştatdan əlavə əməkdaşlarının saxlanmasına xərclənmişdir. Ali məhkəmə sədrinə, tapşırıq yerinə yetirən əməkdaşlara, aşbaz Başimova və dalandar Həşimova verilən məvaciblər, belə xərclər, şübhəsiz ki, düzgün deyil. Xalq Komissarları Sovetinin sədri Axundov yenə bu fonddan ianə paylamaq və s. üçün pul götürmüşdür. Ehtiyat fondundan bu cür istifadəni təkcə qeyri-rasional, öz təyinatından kənar deyil, həm də, heç şübhəsiz ki, qeyri-qanuni hesab etmək lazımdır.

Daha sonra təhqiqat aşkar etdi ki, Xalq Komissarları Sovetinin sərəncamında Xalq Maliyyə Komissarlığının kassasına daxil edilməyən, onun hesabatlarında qeydə alınmayan xeyli məbləğdə pul mövcuddur, bununla da vahid kassa prinsipi po-

zulmuşdur.

Haqq-hesab kitabı və sənədlər mövcud olmadığı üçün bu məbləğlər haqqında hər hansı bir hesabat almaq qeyri-mümkündür. Onların xərclənməsinə yenə də Xalq Komissarları Soveti və yenə də özbaşına sərəncam vermişdir.

Belə bir hal xüsusilə diqqəti cəlb edir ki, Azərbaycan Dövlət Kənd Bankından alınan və heyvan satın alınması üçün nəzərdə tutulan 15 000 rubl indiyə kimi təyinatı üzrə xərclənməmiş, eyni zamanda onun 5.000 rublu borc şəklində Naxçıvan Mərkəzi Statistika İdarəsinə verilmişdir.

Telefonlaşdırma üçün nəzərdə tutulan puldan 1.000 rubl borc olaraq Kommunal Təsərrüfat İdarəsinə və 1000 rubl isə avans şəklində o vaxt Bakıda olan bir neçə xalq komissarının məvacib hesabına verilmişdir.

Pulların mərkəzi kassaya təhvil verilməməsi, vahid kassa prinsipinin pozulması ona gətirib çıxarmışdır ki, hal-hazırda mərkəzi kassanın cari hesablarında 54. 919 rubl və Rusiya Dövlət Bankının Culfa şöbəsində 10 089 rubl 15 qəpik qalıq vardır.

Yerli vəsaitlər baxımından Naxçıvan Respublikasının maliyyə durumu aşağıdakı şəkildədir: diyar büdcəsi üzrə gəlir 3111 rubl 19 qəpik; Naxçıvan şəhərinin büdcəsi üzrə 47. 206 rubl 89 qəpik; sahə büdcələri üzrə 62 277 rubl 06 qəpik; gəlir üzrə cəmi: 192 592 rubl 14 qəpik. Diyar büdcəsi üzrə xərc 81. 015 rubl 77 qəpik; Naxçıvan şəhərinin büdcəsi üzrə 44. 929 rubl 10 qəpik; sahə büdcələri üzrə 27 247 rubl 67 qəpik; xərclər üzrə cəmi: 153 192 rubl 54 qəpik. Bütün büdcə üzrə qalıq 39. 402 rubl 50 qəpik.

Qəribə vəziyyət ortaya çıxır: bizim respublikamızda həyatın bütün sahələrində hədsiz sayda ən vacib ehtiyacların mövcud olduğu dövrdə yararsız inzibatçılar, Naxçıvan Respublikasının başçıları "qənaət etmək" fikrinə düşmüş, onlara buraxılan pulları axıradək xərcləməmişlər. Belə bir qənaət xüsusilə də heyvan alınması üçün ayrılan 15. 000 rublun xərclənməməsi baxımından

yolverilməzdir, çünki Naxçıvan kəndlilərinin buna çox ehtiyacı vardı, onlar isə heyvan almaq əvəzinə bu pulu tanışlıq yolu ilə təsərrüfat hesabında olan müəssisələrə borc olaraq paylamışlar.

Xərclərin müxtəlif sahələr üzrə bölünməsinin faiz nisbəti də çox maraqlıdır. Belə ki, məsələn, ictimai asayişin mühafizəsi onların 60 %-ni udmuş, kənd təsərrüfatına smeta təyinatının 21%-i ayrılmışdır. Ümuminzibati müəssisələrin saxlanması 24%-ə başa gəlmişdir.

Xalq təhsilinə (27%), səhiyyəyə (29 %) sərf olunan xərclərin azlığı da diqqəti cəlb edir.

Bütün bunlar yerli büdcəyə aiddir.

Diyar büdcəsi üzrə də xərclərin başlıca hissəsi ictimai asayişin mühafizəsinin payına düşür: 24%; onların 12%-i nəqliyyat yollarının təmirinə, 13% xalq təhsilinə, 11%-i səhiyyəyə, 6%-i müəssisələrin saxlanmasına, 5%-i kənd təsərrüfatına, 6%-i rayonlaşdırmaya sərf olunmuşdur.

Yenicə həyata keçirilən sahə büdcələri hələlik çox zəif inkişaf edib və onların gəlir hissəsi başlıca olaraq kənd təsərrüfatı vergisindən ayrılan məbləğlərdən ibarətdir. Ordubad və Şərur qəzalarında onlar kommunal gəlirlər hesabına bir qədər möhkəmləndirilir. Əmlakdan və müəssisələrdən heç bir gəlirə malik deyillər, çünki belə obyektlər mövcud deyil.

Onların xərc hissəsi də yeknəsəqdir və inzibati aparatın saxlanması, təsərrüfat və dəftərxana ehtiyaclarının ödənilməsi, məktəb və çoxsaylı səhiyyə müəssisələrinə xidmət göstərilməsi ilə ifadə olunur.

Abadlıq işlərinə və digər sosial tədbirlərə heç bir xərc sərf olunmur.

Təhqiq qaydasında müəyyən edilmişdir ki, 1922-ci ildən başlayaraq Diyar İcraiyyə Komitəsinin sərəncamında qızıl və gümüş əşyaları, Rusiyada və xaricdə kəsilmiş qızıl sikkələr qismində qiymətli şeylər olmuşdur. Bu sikkələrin bir qismi maddi yardım şəklində Azərbaycandan alınmış, böyük qismi isə müsadirələrdən daxil olmuşdu.

Hesabat məlumatlarına əsasən bu qiymətli əşyaların nəyə xərcləndiyini izləmək mümkün deyil, belə ki, 1922-ci ilə aid haqq-hesab kitabı mövcud deyil, digər illərdə isə yalnız kassa kitabları aparılmışdır.

Onlardan görünür ki, məsul işçilərə məvacib bəzən qızılla ödənilmişdir. 1923-cü ildə Dadaşova 3000 rubl qızılı realizə etmək və bəzi satınalmaları həyata keçirmək tapşırılmışdır. Belə bir realizə 1924-cü ildə Babayev tərəfindən həyata keçirilmişdir. Bu realizələr üzrə sənədlərin surətləri, faydasız bir hesabat kimi, məruzəyə əlavə olunur.

Xalq vəsaitləri, kəndlilərin ən zəruri ehtiyaclarına məhəl qoyulmadan, Naxçıvan Respublikasının keçmiş başçıları tərəfindən bu cür məsuliyyətsizcəsinə və səhlənkarlıqla xərclənmişdir.

**Naxçıvan SSR Xalq Komissarları Sovetinin maddi-təsərrüfat hissəsi.** Naxçıvan Xalq Komissarları Sovetinin maddi hissəsinin təhqiqi zamanı müəyyən edilmişdir ki, Naxçıvan Diyarının sovetləşdiyi andan Xalq Komissarları Sovetinin nəzdində kifayət qədər geniş bir anbar mövcud olmuş və o, bütün dövrlərdə Xalq Komissarları Soveti sədrinin bilavasitə sərəncamında qalmışdır. Yerli Xalq Komissarları Soveti tərəfindən əldə edilən, həmçinin Azərbaycan SSR Xalq Komissarları Soveti tərəfindən bağışlanan mallar maddi-təsərrüfat kitablarına yalnız 1923-cü ilin avqustundan daxil edilməyə başlamışdır. Göstərilən tarixə qədər həm daxil olan, həm də sərf edilən mallar barədə heç bir məlumat yoxdur. Bununla belə, salamat qalmış siyahıya görə, mərkəzi anbarda bütün mallar üzrə 1923-cü ildə qalıq 4585 arşın müxtəlif növ parça və 500 puda yaxın buğdadan ibarət olmuşdur.

Yoxlanılan sənədlərdən görünür ki, Azərbaycan SSR Xalq Komissarları Soveti və MİK tərəfindən hədiyyə olunan bütün mallar Xalq Komissarları Soveti sədrinin bilavasitə və şəxsən verdiyi sərəncamlar əsasında sərf olunub.

Beləliklə, maddi vəsaitlərin sərfi qaydası barədə göstəriş olmadığı üçün onlar indiyə qədər sistemsiz sərf edilmişdir, bunu

bir sıra sənədlər də təsdiq edir. 1923-cü ildən başlayaraq, həm parça, həm də taxıl məhsullarının sərf edilməsinin faiz hesabı ilə böyük hissəsi Mahmudbəyov və Axundov yoldaşların Naxçıvan Diyarını idarə etdikləri dövrə düşür, şübhəsiz, malların, başlıca olaraq da taxıl məhsullarının böyük miqdarını onlar paylamışlar. Taxıl məhsulları, parça və digər mallar raport və yaxud ərizə yaza bilən hər kəsə verilirdi və minlərlə belə ərizə aydın göstərir ki, bütün müəssisələr, bütün əməkdaşlar, həm kollektiv, həm də fərdi şəkildə, dövlətin onlara ödədiyindən əlavə, müxtəlif bəhanələrlə düyü, buğda, arpa, parça və s. almışlar.

1923-cü ildən başlayaraq bütün dövr ərzində dövlət müəssisələrinin əməkdaşları və məsul işçilərinə əlavə iş vaxtına, işdə həddən artıq yorğunluğa, müxtəlif komissiyalarda, məhkəmə iclaslarında iştiraka və s. görə bu cür mal, başlıca olaraq taxıl məhsulu buraxılışı sistemli şəkildə müşahidə olunur.

Beləliklə, Naxçıvan Xalq Komissarları Sovetinin mərkəzi anbarı Naxçıvan Diyarının əməkdaşları və məsul işçiləri üçün, necə deyərlər, kiçik bir dükana çevrilmişdir.

Qeyd etmək lazımdır ki, göstərilən dövrdə, yəni 1923-cü ildən 1925-ci ilə qədər anbar müdiri dəfələrlə dəyişdirilmiş, onlar heç kim tərəfindən yoxlanmamış, təftiş edilməmişdir, nəticədə Xalq Komissarları Soveti anbarının müdirlərindən Ələsgərov soyadlı birisi o dərəcədə həddini aşmışdır ki, xalq malını oğurlamaqda ifşa olunmuş və Naxçıvan Respublikasının Ali Məhkəməsi tərəfindən üç il həbsə məhkum edilmişdir. Lakin, beş ay yatdıqdan sonra həbsdən azad olunmuş və indi... həbsxana rəisi vəzifəsində çalışır.

## 4. VERGİ İŞİ

1925-ci ilin əvvəlində vergi icmalı az-çox qaydaya salınmışdır. İqtisadi inkişafın zəif olması səbəbindən vergi ödəyicilərinin sayı çox azdır, belə ki, məsələn, sinfi vergi qoyulan şəxslər 139, zəhmətkeş olmayan maaşlı ünsürlər 1923, gəlir qazanan şəxslər 171 nəfər, cəmi vergi qoyulan 1623 vergiödəyicisi olmuşdur.

tərəqqi vergisi qoyulan vergiödəyicilərinin sayı 345-dir, 1912 müəssisəyə mədən vergisi qoyulmuş, kooperasiya tərəfindən 37 patent seçilmişdir. Birinci yarım ildə Naxçıvan şəhərində ticarət müəssisələrinin sayı artmış, qəzalarda isə 63 müəssisə azalmışdır, özü də bu azalma həqiqətən də yerli ticarət hesabına baş vermişdir, Naxçıvan şəhərində şəxsi ticarət 20, kooperativ ticarət isə 5 müəssisə artmışdır.

Ordubad şəhərinin patent rüsumunun Naxçıvana bərabər tutularaq 4-cü zolağa aid edilməsi, onun yoxsulluğuna, ticarət və sənayenin az inkişaf etməsinə, dəmiryolundan uzaqlığına və digər obyektiv səbəblərə nəzərən, heç şübhəsiz, düzgün deyil.

Bərabərləşdirici rüsum zəif yığılır, dövriyyələr haqqında yalnız 28 vergiödəyicisi tərəfindən ərizə verilmişdir. Cəmi 564 ticarət müəssisəsi 10 471 rubl 92 qəpik, 614 sənaye müəssisəsi 4241 rubl 17 qəpik həcmində müxtəlif rüsum vergisinə cəlb edilmişdir. Gəlir vergisi materiallarına görə ac qalanların xeyrinə ümumvətəndaş vergisi yığılmışdır, cəmi 1140 vergiödəyicisinə 10. 964 rubl məbləğində vergi qoyulmuşdur.

Bütün vergi işində aşağıdakı qüsurları qeyd etmək lazımdır:

Sənaye patentləri lazımi dərəcədən həmişəlik verilmişdir; bəzi müəssisələr tamamilə patent seçməmişlər. Mədən patenti ilə təchiz edilənlərə yanlış olaraq bərabərləşdirici rüsum vergisi də qoyulmuşdur. Vergi işçilərinin özünə gəldikdə isə, demək lazımdır ki, onların əksəriyyəti bu işdən heç nə anlamır: zəif hazırlanmışlar, vergi işinə dair qanunları və təlimatları çox pis bilir, bəzi hallarda isə heç bilmirlər. 27 vergi işçisindən cəmi biri – vasitəli vergilər üzrə nəzarətçi partiyaçıdır.

24 – 25-ci ilin birinci yarısı ərzində aşağıdakı həcmdə vergi daxil olmuşdur: mədən vergisi – 14. 229 rubl 46 qəpik; gəlir vergisi – 9903 rubl 85 qəpik; vahid kənd təsərrüfatı vergisi – 319 713 rubl 27 qəpik; gerb rüsumu – 7 344 rubl 65 qəpik; aksiz – 38456 rubl 27 qəpik; bu yarım il ərzində cəmi 389. 647 rubl 92 qəpik vergi daxil olmuşdur.

Vahid kənd təsərrüfatı vergisi istisna edilməklə, 1923-cü ildən başlayaraq bütün vergilər üzrə qalıq 36. 676 rubl məbləğindədir. Qalıqların yığılması davam etdirilir.

**Vahid kənd təsərrüfatı vergisi.** Bütün Naxçıvan diyarı üzrə vahid kənd təsərrüfatı vergisinə 18 682 təsərrüfat cəlb edilmişdir, onların hesablanmış ümumi torpaq sahəsi 57. 709 desyatindir; onun 37 682 desyatinini əkin sahəsi təşkil edir, əkin sahəsinə çevirəndə isə 93 434 desyatinə vergi qoyulmuşdur.

Bundan əlavə 11 952 baş iri və xırda buynuzlu heyvana vergi qoyulmuşdur ki, bunu da əkin sahəsinə çevirəndə 17 955 desyatin təşkil edir.

Əkin sahəsinin gizlədilməsinə nadir hallarda yol verilmişdir. Məhsuldarlığa görə Naxçıvan Diyarı 8 dərəcəyə bölünmüşdür. Cəmi 561. 552 rubl 09 qəpik vergi hesablanmışdır, buraya yol tikintisinə qoyulan 10 % -lik əlavə də daxildir. Naxçıvan Diyarı üzrə vergi kontingenti mərkəz tərəfindən 486. 541 rubl məbləğində müəyyən edilmişdir. Bu ümumi vergi məbləğindən 315. 684 rubl daxil olmuşdur, 245. 868 rubl vergi qalığı vardır. Bunun 14 000 rublu təbii fəlakət və məhsul qıtlığına məruz qalmış təsərrüfatların payına düşür.

Pambıq əkinlərinin hesablanmasında buraxılan səhvlərə görə 55 000 rubl silinmişdir. Yekun olaraq, yığılmamış vahid kənd təsərrüfatı vergisi 171. 000 rubl olmuşdur. Düzgün qoyulmayan vergiyə (kənd təsərrüfatı) görə 235 kollektiv və fərdi etiraz ərizəsi verilmişdir. Bütün bu şikayətlər Diyar Vergi Komissiyası tərəfində yoxlanılmaq üçün İcraiyyə Komitələrinə göndərilmişdir, lakin onların heç birinə baxılmamışdır.

Vergilərin uğurla yığılmamasına təbii fəlakətlərdən əlavə Azərbaycan Dövlət... tərəfindən xam pambıq qəbulunun yaxşı təşkil olunmaması də təsir göstərmişdir, bunun da nəticəsində kəndlilər pambığı təhvil verərkən bir neçə gün növbə, bundan sonra isə bir neçə gün haqq-hesab çəkilməsini gözləmiş və bu müddət ərzində ödəniş müddəti bitdiyinə görə kəndliyə penya da hesablanmışdır, özü də bu cərimə kəndlilərdə hədsiz dərəcədə

narazılıq oyatmış və hətta onları kənd təsərrüfatı vergisindən tamamilə imtinaya sövq etmişdir.

**Yerli vergilər.** Yerli vergilər yerli maliyyə, şəhər yaşayış məntəqələri, yəni Naxçıvan və Ordubad şəhərləri haqqında müvəqqəti nizamnamələrə əsasən Naxçıvan Xalq Komissarları Sovetinin qərarları ilə müəyyən edilmişdir.

Bu vergilərə aşağıdakılar daxildir: tikili, qoşqu atları və ekipajlar, araba istehsalı, bazara çıxarılan xırda və iri buynuzlu heyvan, hərracda satılan əmlak, özü hərəkət edən ekipajlar üçün tutulan vergilər və qeydiyyat vergisi.

Şəhər yaşayış məntəqələrindən kənar yerlər üçün bu vergilər tətbiq olunmuşdur: fabrik və digər ticarət-sənaye binaları, araba istehsalı, həmçinin bazara çıxarılan heyvan və özü hərəkət edən ekipajlar üçün tutulan vergilər.

Hər yerdə aşağıdakı vergilər yığılmışdır: tikililərin təsdiq haqqında aktlardan, yeməkxana və buna bənzər digər müəssisələrdən yığılan vergilər, dəftərxana rüsumu, dəmiryolu stansiyalarında hər puda görə alınan rüsum.

Yuxarıda sadalanan vergi və rüsumlardan əlavə yerli vəsaitləri artırmaq üçün üstəlik faiz əlavəsi müəyyən edilmişdir: dövlət mədən vergisi üzrə – 100%, içki və tütün patentləri üzrə – 100%, məhkəmə rüsumları – 100%, notarial rüsum – 100% .

Bütün bu rüsum və vergilərin tutulmasının təhqiqi zamanı, xüsusilə də kəndlilərə münasibətdə bir sıra anormallıqlar aşkar edilmişdir, belə ki, məsələn, bazara çıxarılan heyvana görə iki dəfə – bazarda və kommunal təsərrüfat idarəsinin heyvan saxlanılan həyətində rüsum tutulmuşdur. Qeydiyyat vergisi təkcə pasport alarkən şəhər əhalisindən deyil, həm də kənd əhalisindən alınmışdır.

Bundan əlavə, yerlərdə gah poçtun, gah da yanğın arabasının saxlanılması üçün özbaşına müəyyən edilən yerli vergi, rüsum və bütün mümkün əlavələr mövcud olmuşdur.

Şərur qəzasında İcraiyyə Komitəsi sədrinin sərəncamı ilə məktəb pulu yığılmışdır.

Beləliklə, kəndlilərin onsuz da ağır vəziyyəti düzgün olmayan vergi siyasəti sayəsində yüngülləşmək əvəzinə daha da ağırlaşmışdır.

## 5. KOOPERASİYA

**Kənd təsərrüfatı kooperasiyası – meliorasiya birlikləri.** Kənd təsərrüfatı kooperasiyası sahəsində Naxçıvan Diyarında yalnız meliorasiya cəmiyyətləri təşkil olunmuşdur.

Belə 8 meliorasiya cəmiyyəti və 2 kənd təsərrüfatı arteli mövcuddur. Cəmiyyətlərin təşkili 1924-cü ilin noyabr-dekabr aylarında baş vermişdir. Bu birliklərə aşağıdakılar daxildir: Ordubad, Yaycı, Qazaxkənd, Əbrəqunus, Zeynəddin, Cəhri, Qıvraq və Sədərək cəmiyyətləri. Hər cəmiyyətin orta hesabla 35 üzvü var, üzvlərin ümumi sayı isə 520-dir. Hər pay 10 rubla bərabərdir. Yekun olaraq meliorasiya cəmiyyətlərinin orta pay kapitalı 5. 200 rubldur. Cəmiyyətlərin ali orqanı Şuradır, buraya həmin cəmiyyətin fəaliyyət zonasına daxil olan hər kənddən bir üzv seçilir.

Cəmiyyətin işlərini üç nəfərdən – bir sədr, iki üzvdən ibarət olan idarə heyəti aparır; üzlərdən biri hesabdarlıq, digəri kargüzarlıq işlərini görür. Nizamnaməni Köy Birliyi təsdiq edir. Bu cəmiyyətlərin başlıca vəzifəsi kəhrizlərin təmiri və təmizlənməsindən ibarət olmuşdur. Naxçıvan Diyarında mövcud olan ümumən 161 kəhrizdən cari mövsümdə cəmi 32 kəhrizin təmiri nəzərdə tutulmuşdu, bu iş üçün smeta üzrə 22. 800 rubl ayırmaq planlaşdırılmışdı. Köy Birliyindən isə kəhrizlərə xərcləmək üçün cəmi 30. 770 rubl alınmışdır.

Hər iki kənd təsərrüfatı arteli yaxşı işləyir. Onların ən güclüsü Cəhri artelidir, 1924-cü ilin sonunda onun balansı 10. 912 rubla bərabər olmuşdur. Kənd təsərrüfatı işləri ilə məşğul olmaqla yanaşı bu artelin icarəsində daş karxanası, çəkmə emalatxanası, özünün çörəkxanası, yüngül ayaqqabı emalatxanası, dəmirçixanası, ət dükanı, 10 baş iri və 100 baş xırda heyvanı var. Qalan artel və cəmiyyətlər yalnız kağız üzərində mövcuddur.

**<u>Naxittifaq.</u>** Naxçıvan Diyarının Kooperativ Cəmiyyətlər İttifaqı, necə deyərlər, NAXİTTİFAQ yalnız 1921-ci ilin sonunda yaranmışdır. Naxittifaqın birinci ilində Naxçıvan qəzasında 12, Şərurda və Ordubad qəzalarının isə hər birində 4 kooperativ təşkil olunmuşdur. Kooperativlər ən iri məntəqələrdə yaradıldığından, bir sıra səbəblər: kooperatorların, vəsaitin yoxluğu və Naxçıvan kəndlisinin alıcılıq qabiliyyətinin çox aşağı olması səbəbindən onu o qədər də genişləndirmək mümkün olmamışdır.

Sabit valyutanın yoxluğu da buna az əngəl törətməmişdir. Kooperasiya yalnız öz fəaliyyət sferasının sonuncu ilində, xüsusilə də Culfada Dövlət Bankının şöbəsinin açılmasından və yaxın kredit vermə imkanı yarandıqdan sonra tərəqqi və bu cür genişlənmə yoluna qədəm qoymuşdur.

Ancaq Naxçıvan Diyarında kooperasiya şəxsi ticarətlə müqayisədə hər halda son dərəcə zəifdir, halbuki burada kooperasiyanın inkişafı üçün hər cür əlverişli şərait mövcuddur.

Birincisi, köhnə rejim dövründə pambıqçılıq sayəsində kooperasiya ilə və onun kəndliyə verdiyi bir çox faydalarla yaxından tanış olan yerli əhali ona ən xoş münasibət bəsləyir. İkincisi, yüksək mədəni bitkilərin və kustar sənayenin mövcud olması təkcə istehlak işində deyil, həm də kənd təsərrüfatı məhsullarının istehsalı və satışında da kooperativləşməyə geniş imkan verir.

Bütün bu əlverişli şəraitlər Naxçıvan Diyarının kooperativ işçiləri tərəfindən tamamilə istifadə olunmamış və hətta, bu bir yana, bütün kooperasiya işi lüzumsuz və hətta cinayətkar şəkildə təşkil olunmuşdur. Malların çeşidi heç bir işə yaramır, pudra, aşırma, çini qablar kimi mallar kəndlilərin tələbatına uyğun deyil. Qulluqçular əksər hallarda keçmiş ticarətçilərdən, qolçomaqlardan ibarətdir, hal-hazırda onların arasında oğurluq, israfçılıq, mənimsəmə və s. kimi cinayətlər az deyil.

Nəticədə kooperasiya şəxsi ticarətçilərdən pis satır, kəndlilərə tamamilə xidmət göstərmir.

Kooperativ təşkilatlarında çox vaxt bir-birinə qohum olan

adamlar əyləşir və kooperativlərdən ən yaxşı münasibət, ucuz mallar təchiz etməklə kəndli əməyini yüngülləşdirməyi gözləyən yoxsul kənd əhalisinə min cür əziyyət verirlər.

Bütün bunların əvəzinə kəndlini kooperativdə aldadır, çəkidə ona kələk gəlirlər. Şəxsi ticarətçi kredit verdiyi halda, kooperativ bu barədə eşitmək belə istəmir.

Mərkəzi İdarədə də iş ən rüsvayçı və cinayətkar şəkildə təşkil olunub. Yalnız bu yaxınlarda aydın olmuşdur ki, təkcə müxtəlif məsul və yarıməsul sovet işçilərinə 4765 rubl 31 qəpik kredit verilmişdir, bunu isə, şübhəsiz, itmiş hesab etmək lazımdır, çünki indi o debitorların əksəriyyəti Naxçıvan Diyarından köçüb getmişdir.

## 6. KƏND TƏSƏRRÜFATI KREDİTİ

Kənd təsərrüfatını canlandırmaq, gücləndirmək və təşkil etməyin ən başlıca şərti kənd təsərrüfatı kreditidir. Naxçıvan Diyarında isə məhz bu, demək olar ki, yoxdur.

Cəmi 3 kənd təsərrüfatı krediti cəmiyyəti var, onlar da 1924-cü ilin martından etibarən mövcuddur. Bu cəmiyyətlər aşağıdakılardır: fəaliyyət dairəsi bütün Ordubadı əhatə edən Ordubad cəmiyyəti; fəaliyyət dairəsi bütün Naxçıvan qəzasını əhatə edən Nehrəm cəmiyyəti və fəaliyyət dairəsi bütün Şərur qəzasını əhatə edən Yengicə cəmiyyəti.

Bu üç cəmiyyət birlikdə 5330 rubl ümumi pay kapitalına malik olub. İttifaqın İdarə Heyəti onlara 27550 rubl buraxıb. Həmçinin yoxsul kəndlilər ssuda verilmək üçün 10. 000 rubl, özünü ssuda üçün 15 000 rubl həcmində, əkinçilik alətləri üçün 5 000 rubl xüsusi kapital mövcud olub.

Azərbaycan Kənd Təsərrüfatı Bankından nağd şəkildə götürülən kapital 42 000 rubl, əkinçilik alətləri üçünsə 14. 641 rubla bərabər olub.

Yerli müəssisələrdən cari hesablara daxil olan əmanətlər 34. 694 rubl təşkil edib. Özünü ssuda məqsədilə həm pul, həm də natura şəkilində payalanmaq üçün 18. 270 rubl olub.

Orta hesabla hər bir üzvə 115 rubl kredit verilib, beləliklə, 1059 nəfər kənd təsərrüfatı krediti alıb ki, bu da əhalinin ümumi sayı ilə müqayisədə az faiz təşkil edir.

İttifaqın öz debitor-ssuda alıcılarından tutduğu faiz illik 21%-ə bərabər olmuşdur.

Bu cür nisbətən yüksək faiz dövriyyənin maya dəyərinin yüksək olması və digər bir sıra səbəblərlə izah olunur.

Borcların ödənilməsi kredit alan kəndlilərin son dərəcə kasıblığı səbəbindən çox səliqəsiz olmuşdur. Ssudaya diyarın kənd təsərrüfatı inventarından məhrum olan kəndlilərin də ehtiyacı hiss olunur, bunsuz onlar öz təsərrüfatlarını dirçəldə bilməyəcəklər.

Mövcud olan 21.600 təsərrüfatın yalnız beşdə biri təsərrüfatla məşğul ola bilir, qalan beşdə dörd hissəsinin isə, şübhəsiz, hökumətin köməyinə ehtiyacı vardır.

Beləliklə, aydın olur ki, müvafiq banklar tərəfindən kəndlilərə güclü kredit verilmədən, kənd təsərrüfatı kooperasiyası lazımi səviyyədə inkişaf etdirilmədən kənd təsərrüfatının dirçəldilməsi və diyarın iqtisadi gücü barədə düşünməyə belə dəyməz.

Kənd təsərrüfatı krediti işinin təşkilində göstərilən zəifliklərdən başqa, Naxçıvan kənd təsərrüfatı kreditinin detallı təftişi aşağıdakı sui-istifadə hallarını və nöqsanları müəyyən etmişdir, məsələn, pay haqları, nizamnamənin əksinə olaraq, üzvlərə əməliyyat ilinin ortasında qaytarılmışdır.

Pay haqları kitablarının yoxlanması zamanı məlum olmuşdur ki, pay haqlarının qaytarılması heç də həmişə kitabda qeyd olunmamışdır. Kitablar səliqəsiz aparılmış, qırmızı karandaşla üstdən xətt çəkmələrə yol verilmişdir. 1924-cü ilə aid mühasibat jurnalında 30 vərəq cırılıb atılmışdır.

1923 – 24-cü illərə aid əsas kitab təsdiq edilməmişdir. Ödənilməmiş köçürmələr üzrə qeydlər aparılmamışdır. Buraxılmış kənd təsərrüfatı inventarlarına dair əsaslandırıcı sənədlər tam şəkildə mövcuddur. İnventar kitabı qaytanlanmamış və təsdiq olunmamışdır. Veksel uçotu jurnalındakı şəxsi hesab kitablarında, onların sənədlərinin yoxlanması zamanı bir neçə maddənin bu-

raxıldığı, bəzilərinin isə düzgün daxil edilmədiyi üzə çıxmışdır. Belə ki, 9 № -li hesabda 700 rubl buraxılmışdır. 4.049 rubl 70 qəpik məbləğinə veksel yazılmamışdır.

Bütün bunlar 1923 – 1924-cü illərə aiddir.

1924 –1925-ci illərə aid kitablar da bundan aparılmamışdır. Belə ki, məsələn, 1925-ci ilin mühasibat jurnalı hətta nömrələnməmişdir. Əsas kitabda qeydlər nömrələnsə də, təsdiq edilməmiş və yalnız 8 marta qədər aparılmış, mayın 1-dək qalan bütün qeydlər isə təftiş zamanı yazılmışdır.

Daha çox sui-istifadə 1924 –1925-ci illərə aid mal kitabında aşkar edilmişdir. Belə ki, məsələn, 4 dən sovuran maşın heç bir qeyd olmadan buraxılmış, müxtəlif nömrəli taxtalar eyni nömrə ilə qeydə alınmışdır. Bu kitaba görə mal buraxılışını yoxlamaq çox çətindir, çünki qeydlər səliqəsiz, malların müxtəlif növlər üzrə detallı bölgüsü olmadan aparılmışdır. Anbarın açarı İdarə Heyətinin üzvü Bənənyarskidə olmuşdur. Mal buraxılışı faktiki olaraq kassir, bəzi hallarda isə bu məqsədlə açar verilən kuryer tərəfindən həyata keçirilmişdir. Məxaric orderləri tamamilə yoxdur. Kənd təsərrüfatı inventarlarında böyük əksik aşkar edilmişdir. Cəmi 466 rubl məbləğində mal çatışmır. Verilən məbləğlərə görə faizlər, əlbəttə ki, ayrı-ayrı şəxslərdən və yaxud daha "yaxın" təşkilatlardan tutulmamışdır.

250 rubl məbləğində veksel hesaba alınmış, amma onda 400 rubl olmuş və yalnız üstdən karandaşla "iyirmi beş" çervon yazılmışdır.

Duz verildiyinə görə ayrı-ayrı şəxslərdən alınan pullarla bağlı bir sıra yararlı sənədlər vardır, halbuki fərdi şəxslərə duz buraxılması qadağan olunmuşdur.

Naxçıvan məhkəməsinin keçmiş sədri Şirəlizadəyə "Bakinski raboçi" qəzetinə yazılmaq üçün 12 rubl 50 qəpik verilmişdir, ancaq Naxçıvan Kənd Təsərrüfatı Krediti Bankında belə bir qəzet alınmır.

Müqavilələr düzgün bağlanmamışdır, onların yerinə yetirilməsinə texniki nəzarət olmamışdır.

Zaqafqaziya Util İdarəsi Naxçıvan kənd kreditinin bağırsaqlarını şişirdə bilmişdir. Hansısa 300 rubl fəaliyyət göstərir, həmin pulu fərdi vətəndaş Mədətov sədr Bənənyarskiyə vermişdir. Mövcud olan 45 dəyirman daşı hələ də realizə edilməmişdir, halbuki onların cütünü 175 rubla satmaq, bu istehsal sahəsini inkişaf etdirmək və onlarla təkcə Naxçıvan Diyarını deyil, hətta İranı təchiz etmək imkanı var. Dəyirman daşları satılırmış, ancaq nə miqdarda və hansı qiymətə – tamamilə məlum deyil.

Dəyirman daşı satışından bir min yetmiş beş rubl əldə edildiyi göstərilir, ancaq dəyirman daşı artelinin arayışına görə, bir min səkkiz yüz iyirmi beş rubl məbləğində dəyirman daşı satılmışdır. Beləliklə, yenə də səkkiz yüz rubla yaxın pul çatışmır.

Kənd təsərrüfatına və kəndlilərə kredit ayrılması üçün nəzərdə tutulan pullar çox vaxt, başlıca olaraq, möhtəkirlik məqsədilə ssuda verilməsində istifadə olunmuşdur.

Ssudalar üzrə faizlər on yeddi fərddən və on dörd təşkilatdan tutulmuşdur.

Meliorasiya məqsədləri üçün buraxılan vəsaitdən 7 500 rubl çatışmır, bu məbləğ heç bir kitabda qeyd olunmamışdır və onların hər hansı bir hesaba daxil edildiyi barədə heç bir izə rast gəlmək mümkün deyil.

Yuxarıda göstərilənlərə əsasən Naxçıvan kənd təsərrüfatı kreditinin fəaliyyəti barədə aşağıdakı nəticələrə gəlmək olar.

Öz vəzifəsinə etinasız, səhlənkar münasibət, şübhəsiz, bu və ya digər şəkildə qəsdən törədilən cinayətkar etinasızlıqla üst-üstə düşmüş, fayda qazanmaq, mənimsəmək məqsədilə qarışdırılmışdır. Mal-təsərrüfat hissəsi cinayətkarcasına zərərlə aparılmışdır.

Naxçıvan kənd təsərrüfatı krediti Naxçıvan diyarında kənd istehlakçısının öz təsərrüfatını dirçəltmək üçün duyduğu böyük ehtiyacı nəzərə almamış, ona etibar edilən məbləğləri iri həcmlərdə yerli ticarətçilərin kreditləşməsinə sərf etmişdir ki, bu da Naxçıvan Diyarında yaranmış ağır şəraitdə, şübhəsiz, cinayətdir.

Təftiş aktının da təsdiq etdiyi kimi Naxçıvan kənd təsərrüfatı

kreditinin keçmiş İdarə Heyətinin üzvü Bənənyarski tərəfindən üç yüz rubl mənimsənilmişdir.

Naxçıvan kənd təsərrüfatı kreditinin bütün fəaliyyəti dövründə təftiş komissiyası bir dəfə də olsun təftiş aparmamış, bunun da nəticəsi olaraq, Naxçıvan kənd təsərrüfatı krediti öz üzərində heç bir nəzarət orqanının olmadığını hiss edərək, o dərəcədə əl-qol açmışdır ki, ona rəhbərlik edən mənfi mənəvi keyfiyyətlərə malik işçilər sayəsində cinayətkarlığın və tam təsərrüfatsızlığın hökm sürdüyü müəssisələrdən birinə çevrilmişdir.

## 7. SƏNAYE

Naxçıvan Diyarının bütün sənayesi, başlıca olaraq, məsələn, pambıqtəmizləmə, düyü arıtlama, dən üyütmə və ipək toxuma kimi kənd təsərrüfatı məhsullarının emal olunması ilə sıx bağlı olan emal sənayesi kimi müəyyən edilir.

Hasilat sənayesi sahələrindən isə burada yalnız duz sənayesi mövcuddur.

**Naxçıvan Duz İdarəsi.** Əvvəlki dövrlərin geoloji tədqiqatları bunu göstərir ki, Naxçıvan Diyarında yerin təkində olan duz ehtiyatları son dərəcə böyük həcmdədir və duz sənayesi, Naxçıvan Diyarının duzu əlverişli şərait, nəqliyyat yollarının yaradıldığı təqdirdə SSRİ-dəki bütün duz yataqları ilə nəinki Zaqafqaziya, hətta Şimali Qafqaz hüdudları daxilində rəqabət apara bilər.

Hal-hazırda iki mədəndə duz çıxarılır: Naxçıvan şəhərindən şimal-şərq istiqamətində 12 verst aralıda yerləşən yoldaş Lenin adına mədəndə və yenə həmin istiqamətdə 22 verst aralıda yerləşən “26-lar” adına mədəndə.

Hal-hazırda hər iki mədən Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasının tabeliyindədir.

Yoldaş Lenin adına mədəndə elektrik stansiyası var. İş qısa sütunlar sistemi, dayaq kütlə saxlamaqla aparılır.

Bahalılıq və yerli ağac materiallarının yoxluğu şəraitində bu sistem ən əlverişli sistem kimi qəbul olunmalıdır. Lenin mədənində duz ehtiyatları son dərəcə böyükdür və o, qeyri-müəyyən

müddətə qədər kifayət edə bilər.

Təəssüf ki, heç bir markşreyder və geoloji plan mövcud deyil.

Duzun çıxarılması çox asandır, mergel təbəqəsi səthinin təxminən ortasında oyuq açmaq, qazdıqca üst hissəni üzə çıxaran qaytanları alt hissəyə salmaq, heç bir enerji sərf etmədən üst qatdakı duzu götürməyə imkan vermək kifayətdir.

Oyuqlar indiyə kimi yalnız əllə qazılır, özü də bir növbədə (6 saat ərzində) cəmi üç oyuq açan qazmaçı fəhlənin məhsuldarlığının çox az olduğunu qeyd etmək lazımdır, halbuki müharibəyə qədərki dövrdə bu norma 6 oyuğa bərabər idi. Son vaxtlara qədər oyuqlar dinamitlə partladılırdı. Bu üsul, hər oyuqdan 125 puda yaxın duz çıxarmağa imkan versə də, o, faydasız hesab olunmalıdır və həm də təhlükəlidir. "26-lar" adına mədəndə də bütün iş sistemi və istehsal üsulu Lenin mədənində olduğu kimidir, ancaq burada duz ehtiyatı ilə bağlı məsələ o qədər də uğurlu deyil: 13 quyudan 8-ini yeraltı sular batırmışdır.

Lenin adına mədəndə çıxarılan bütün duz Naxçıvan stansiyasındakı anbarlara, "26-lar" adına mədəndən çıxarılanlar isə Şahtaxtı stansiyasındakı anbarlara daşınır. Bütün məhsul kooperativlər vasitəsilə realizə edilir, bu il satılan məhsul 180. 000 puda bərabərdir, duzun daşınması işinin yerli kəndlilərə böyük yardımı dəyir, belə ki, gündə bir araba duz daşımağa görə 5, 5 rubl qazanmaq olar.

Duz yalnız iri parçalar şəklində Zaqafqaziya kəndlilərinin ehtiyaclarının ödənilməsi üçün göndərilir. Bütün hasilatın 25 %-i, necə deyərlər, qarışdırma və qumlama məqsədilə xırda parçalar şəklində quyularda qalır ki, duz laylarını qırmaq üçün onlardan istifadə olunması zəruridir.

Duz idarəsində və iki duz mədənində ştat üzrə qulluqçuların sayı 35 nəfərdir. İki mədəndə çalışan fəhlələrin sayı isə yüz nəfərdən çoxdur. Beləliklə, qulluqçuların fəhlələrə görə faiz nisbəti 35% təşkil edir. Bu nisbət, şübhəsiz, həddən artıq və yolverilməzdir, çünki müharibədən əvvəlki dövrdə elə həmin bu

duz sənayesi bir sahibkar və bir mühasib tərəfindən idarə olunurdu.

Direktorun məruzəsinə əsasən qeyd etmək lazımdır ki, duz çıxarılmasının texniki cəhətinə indiyədək lazımi diqqət yetirilməmişdir. Fəhlələr öz bildikləri kimi, texniki nəzarət olmadan işləməyə gəlirlər və buna görə də həmişə vaxtından əvvəl partlayış, duz uçqunu və s. kimi cürbəcür təhlükə altında olurlar.

Şübhə var ki, suyun quyuları basması da kifayət qədər texniki nəzarətin olmaması və vaxtında tədbir görülməməsi ucbatından baş vermişdir. Habelə, tamamilə duzu olmayan və yaxud çox az miqdarda olan yerlərdə qazılan yeni quyuların işlənməsinə böyük məbləğlərin sərf edildiyi hallar da olmuşdur.

Nöqsanlar sırasına, həmçinin texniki heyətin əksər hallarda mədənlərdə deyil, Naxçıvan şəhərində yaşamasını da daxil etmək lazımdır, çünki bu hal, heç şübhəsiz, duz hasilatı işinə ziyan vurur.

Habelə fəhlələr arasında nizam-intizam yoxdur və çox vaxt onlar mədənə, tələb olunduğu kimi, saat 8-də deyil, 10-da gəlirlər.

Fəhlələrin vəziyyəti, xüsusilə də mənzil məsələsi baxımından son dərəcə qənaətbəxş deyildir, belə ki, mədənlərdə heç bir bina yoxdur və fəhlələr harda gəldi, dəhşətli basırıq içərisində və ən biabırçı antisanitariya şəraitində yaşayırlar.

Fəhlələrə xüsusi geyim verilməmişdir, ancaq onun dəyəri bu geyimin həqiqi qiymətinə tam uyğun gələn məbləğdə pulla ödənilmişdir.

Maaşlar heç də həmişə vaxtlı-vaxtında verilmir.

Naxçıvan Duz İdarəsinin maliyyə vəziyyəti. Naxçıvan Duz İdarəsini daim borc içində olan müəssisə kimi xarakterizə etmək olar, bu borc 1925-ci il martın 1-ə 64 rubl 712 qəpik olmuşdur, ancaq eyni zamanda Naxçıvan Duz İdarəsinin ona borclu olanlardan 73. 065 rubl 85 qəpik alacağı vardır, beləliklə, Naxçıvan Diyarının duz sənayesinin heç də ziyanla işlədiyi deyil, nağd vəsaitin yoxluğu üzə çıxır.

Təsərrüfatın idarə olunması. Duz hasilatının təsərrüfat hissəsinin təhqiqi zamanı tam təsərrüfatsızlıq aşkar edilmişdir, belə ki, pul və materiallar sistemsiz, bəzən isə cinayətkarcasına sərf olunmuşdur. Məsələn, Dadaşovun Naxçıvan Duz İdarəsinin direktoru olduğu dövrdə idarə binasının əsaslı təmirinə dair müqavilə bağlanmışdır. Bu müqavilənin ümumi məbləği 3381 rubl 55 qəpik olmuşdur, lakin plan tərtib edilmədiyi, ilkin smeta hesablanmadığı və bütün tikinti işləri texniki nəzarət olmadan aparıldığı üçün təmir 3381 rubl 55 qəpiyə deyil, 13. 119 rubl 67 qəpiyə başa gəlmişdir; bu məbləğ isə, heç şübhəsiz, bu həcmdə və planda tamamilə yeni bir binanın tikilməsinə kifayət edərdi.

Bu qədər baha qiymətə görülən təmir işləri tikinti texnikasının qaydalarına cavab vermir, bunu xüsusi texniki komissiyanın aktı da təsdiq edir.

Buna bənzər ikinci hadisə 1924-cü ildə baş vermişdir, o vaxt Naxçıvan Duz İdarəsinin şöbə müdiri Məmmədbəyovun şəxsində 400 pud kustar barıt hazırlanması barədə podratçı Kakauridze ilə hər pudun dəyəri 24 rubl olmaqla ümumi məbləği 9. 600 rubla bərabər olan müqavilə bağlamışdır.

Hazırlanmış barıt gətirilmiş və komissiya tərəfində yararlı olaraq qəbul edilmişdir. İşdə isə bu barıtın heç nəyə yaramadığı məlum olmuşdur. Pirotexnik Gekkerin şəxsində ikinci dəfə çağırılan komissiya sübut etmişdir ki, bu barıt partlayış üçün yaramır.

Sonda çıxarılan duzun miqdarı və fəhlələrin məvacibi ilə bağlı bəzi maraqlı müqayisəli rəqəmlərə nəzər salmaq heç də artıq görünməzdi.

1909-cu ildə 206. 598 pud, 1911-ci ildə isə yalnız – 210. 490 pud duz çıxarılmışdır, 1932-ci ildə aylıq duz hasilatı 25. 946 pud təşkil etmişdir. Ancaq 1923-cü ildə duz hasilatı artmış, 1. 470. 382 puda çatmış, 1924-cü ildə hasilat 1. 271. 000 puda bərabər olmuşdur. 1925-ci ildə fəhlələrin ümumi sayı 79 nəfər olmaqla aylıq hasilat, məsələn, fevral ayında 96. 770 pud təşkil

etmişdir.

1909 – 1910-cu illərdə əmək haqqı 36 rubl 50 qəpiyə (qazmaçılar üçün) bərabər olmuşdur, qara fəhləyə isə ayda yalnız 15 rubl ödənilmişdir.

Hal-hazırda qazmaçıların aylıq əmək haqqı ayda orta hesabla 79 rubl təşkil edir, qara fəhlə isə 38 rubl alır.

Yuxarıda qeyd olunanlara əsasən tam əminliklə demək olar ki, Naxçıvan Respublikasında duz hasilatının böyük gələcəyi vardır və müvafiq avadanlıqlarla təchiz edildiyi təqdirdə Naxçıvan duzunun istənilən yerdə çıxarılan duzla rəqabət aparmaq imkanı olacaqdır və bütün Zaqafqaziya hüdudları daxilində istifadə ediləcəkdir.

**Pambıqtəmizləmə zavodları.** Hal-hazırda diyarda yalnız üç pambıqtəmizləmə zavodu işləyir, əvvəllər isə onların sayı onlarla idi, indi mövcud olan zavodların istehsal gücü də son dərəcə aşağıdır.

Onların texniki avadanlıqları da təkmilləşdirilmiş maşınlardan ibarət deyil, onların əvəzinə köhnə model cinlər işləyir.

Ancaq hər halda hər bir zavodun istehsal gücü gündə 3. 000 pud xammal ilə ölçülür.

## 8. YERLİ TƏSƏRRÜFAT

Naxçıvan Diyarının yerli təsərrüfatı tamamilə dağılmış və baxımsız vəziyyətdədir. Milli zəmində toqquşmalar nəticəsində evlər yandırılmış, şəhərlər bombalanmış, bütöv kəndlər yer üzündən silinmiş və bütün bunlar yaşayış, təsərrüfat və sənaye tikililərinə fövqəladə məhvedici təsir göstərmişdir. Bu dağıntılarsız da Naxçıvan Diyarı şəhərlər, bu şəhərlərin abadlığı və ümumiyyətlə sənaye mədəniyyəti sarıdan həmişə çox kasıb olmuşdur.

Naxçıvan SSR-in iki şəhərində – Naxçıvan və Ordubadda ümumi mülklərin sayına görə cəmi 2300 tikili vardır, kənd məntəqələrinə gəldikdə isə 216 kəndin payına 20 917 ev düşür.

Əvvəllər, yəni 1917-ci ilə qədər Naxçıvan şəhərində 2250-yə

yaxın ev olub, indi isə onların sayı yalnız 1296-dır, yəni müharibədən əvvəlki dövrün 55%-i qədərdir; onların da 60%-i yarı dağılmış vəziyyətdədir.

Hal-hazırda tamamilə dağılmış tikililərin sayı 30, yarı dağılanların sayı 38-dir, qalan bütün kəndlərdə isə tikililərin yarıdan çoxunun dağıldığı müşahidə olunur.

Dəmiryolu xətti boyu stansiya tikililəri tamamilə dağıdılmışdır. Yerli təsərrüfat müəssisələri də həmçinin.

Bütün bunların nəticəsində bütün yaşayış məntəqələri və şəhərlər mənzil məsələsi və abadlıq baxımından ən böhranlı vəziyyətdədir. Kənd əhalisi mənzil sarıdan daha çox əziyyət çəkir, zirzəmilərdə, at tövlələrində və adi çuxurlarda yaşayırlar.

Bütün bunlarla yanaşı yeni, xüsusilə də şəxsi mənzil tikintisinin son dərəcə zəif olduğunu, habelə təşkil baxımından mənzil məsələsinin tənzimlənmədiyini də qeyd etmək lazımdır.

Naxçıvan Respublikasında elə bir möhkəm norma və qanun yoxdur ki, yerli hakimiyyət orqanları mənzil məsələsi ilə bağlı hər hansı bir qərar çıxararkən və yaxud tədbir görərkən onu əldə rəhbər tuta bilsinlər.

Ümumiyyətlə isə, kommunal təsərrüfat idarəsinin bütün işi necə gəldi, heç nəyə əsaslanmadan və hər hansı bir qanuna əməl edilmədən aparılmışdır. Milliləşdirmə ən nizamsız, kortəbii şəkildə həyata keçirilmiş, bələdiyyələşdirilmiş evlərin, mülklərin, torpaq sahələrinin və bu tip digər əmlakların qismən əvvəlki sahiblərinə qaytarılması da eyni şəkildə aparılmışdır.

İşin bütün bu sahəsi hər cür sui-istifadə, oğurluq, haqsızlıq doğuran zəiflik, qohumbazlıq və s. kimi eybəcər əməllər üçün əlverişli meydana çevrilmişdir.

Nə şəhərlərdə, nə də kəndlərdə heç bir abadlıq işi görülməmiş və bu barədə düşünən belə olmamışdır. Şəhərlərin xarabazara çevrilməsi bəs deyilmiş kimi, onlar həm də səkisiz, daş döşənmiş küçələrdən məhrum qalmış, su kəmərinin çəkilməsi barədə söz belə açılmamışdır və s. və il.

Yerli təsərrüfatın qalan sahələrində də vəziyyət bu cür acı-

nacaqlıdır; məsələn yol tikintisi sahəsində heç bir iş görülməmişdir, halbuki bütün Naxçıvan Respublikası tamamilə yolsuz qalmışdır, çünki müharibədən əvvəlki dövrdə mövcud olanlar son vaxtlarda tamamilə sıradan çıxmış və elə yararsız hala düşmüşdür ki, kəndlilər yolla getməmək üçün yolsuz yerlə kəsə getməyi üstün tuturlar. Körpülər də sıradan çıxmışdır, onların yerində hansısa tələlər qalmışdır, onlardan keçəndə atların ayaqları, arabaların təkərləri qırılır.

Yerli təsərrüfatla bağlı material qıtlığı ilə yanaşı, kommunal təsərrüfat şöbəsi müdirlərinin tez-tez dəyişdirilməsi və şübhəsiz ki, onların cinayətkarlığı da çox acınacaqlı rol oynamışdır.

Bu cinayətkarlıq Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin nəzarətçisindən, Naxçıvan Siyasi Bürosunun və Xalq Daxili İşlər Komissarlığının nümayəndələrindən ibarət komissiyanın apardığı təftiş əsasında aydın şəkildə üzə çıxır.

Təhqiq edilən sənədlərdən kommunal təsərrüfat işlərinin Naxçıvan başçılarının biri tərəfindən, qalanlarının dostcasına yardımı ilə, necə aparıldığı aydın görünür.

Əsas kassa kitabı son dərəcə səliqəsiz aparılmış, şəxsi hesab kitabı isə yalnız 1924-cü ilin yanvarından tutulmağa başlamış və sonra, mühasib Sidorovun bildirdiyinə görə, onun bu kitabı aparmağa vaxtı olmadığı üçün dayandırılmışdır. Material kitabı ümumiyyətlə tutulmamışdır və bu səbəbdən Kommunal təsərrüfat şöbəsi tərəfindən nə qədər material alındığını, eləcə də onun nə qədər material verdiyini müəyyən etmək mümkün deyildir.

Kommunal təsərrüfat şöbəsinin keçmiş müdiri müxtəlif şəxslərdən və müəssisələrdən şöbəyə çatacaq pulları, habelə bağların, evlərin və s.-nin icarəsi üçün qoyulan girovları şəxsən alaraq, xəzinədarlığa təhvil verməmiş, onları mənimsəyərək, qaçıb gizlənmişdir. Onun axtarılması üçün heç bir tədbir görülməmişdir və hazırda harada olduğu məlum deyil. Bu işbazın soyadı Zülfüqarovdur, o, digər məsul işçilərin bəd əməlləri barədə çox şey danışa bilərdi, çünki istintaq onun onlarla sıx

əlaqədə olduğunu müəyyən etmişdir.

Qısa müddət ərzində mövcud olmasına baxmayaraq, müxtəlif şəxslər və müəssisələrlə bağlı müvəqqəti kitabda hər halda, hesabat sənədləri olmayan 6.785 rubl qeyd olunmuşdur.

Bunu da qeyd etmək artıq olmaz ki, icarəyə verilən bağlar və digər kommunal müəssisələr bir müddətdən sonra geri alınmış, onlar üçün qoyulan girovlar geri qaytarılmamış, mənimsənilmiş, müəssisələrin özləri onun öz qohumlarına və yaxud yaxın tanışlarına verilmişdir.

Bütün kassa sənədləri hər addımda, öz günahlarını gizlətməyə çalışan şəxslərin bütün səylərinə baxmayaraq, hər addımda əsassız hesablar, kimə və nə üçün verildiyi məlum olmayan məbləğlərlə doludur.

Həyata keçirilən tikinti işləri heç bir texniki nəzarət tərəfindən yoxlanılmamışdır.

Bu cür cinayət xarakterli səhlənkar təsərrüfatçılıq nəticəsində yerli təsərrüfat və bütün mənzil tikintisi, həm şəhərdə, həm də kəndlərdə bütün abadlıq işləri ölü nöqtədən tərpənməmişdir.

Şübhəli işbazlar bağların, evlərin və digər müəssisələrinin icarəyə verilməsindən varlanmışlar. Və bütün bunlar, komissiya tərəfindən Naxçıvan Respublikasının təhqiq edildiyi anda kommunal təsərrüfat şöbəsinin müdirini çox tərifləyən Naxçıvan Respublikasının həmin başçılarının bilavasitə müşahidəsi altında və razılığı ilə baş vermişdir.

Görünür, insanlar bu təhqiqatın da o vaxta qədər olan bütün yoxlamalar kimi keçəcəyinə ümid edirmişlər.

Onlara elə gəlirmiş ki, öz cinayətlərini o qədər ustalıqla və o qədər dərindən gizlədiblər ki, tərif və müdafiə yolu ilə bir-birlərinin dostcasına arxasında durmaq onlara kifayət edəcək, bu komissiya heç nədən xəbər tutmadan gəldiyi kimi də çıxıb gedəcəkdir.

# VI . NƏTİCƏ VƏ TƏKLİFLƏR

Beləliklə, yuxarıda göstərilənlər Naxçıvan Sovet Sosialist Respublikasının müasir vəziyyətinin mənzərəsini olduğu kimi, bütün çılpaqlığı və səfaləti ilə birlikdə kifayət dərəcə aydın əks etdirir.

Bu səfalət fonunda Naxçıvan Diyarı başçılarının törətdiyi saysız-hesabsız cinayət, zorakılıq, xəzinə oğurluğu, işə səhlənkar münasibət və digər biabırçı hallar parlaq şəkildə üzə çıxır.

Naxçıvan Respublikasının bütün mövcud vəziyyəti barədə Komissiya tərəfindən xarakterik sayılan iki əsas müddəa bunlardan ibarətdir.

Buradan çıxarılacaq nəticələr isə aydındır, öz-özünə məlum olur.

İqtisadiyyatın fəlakətli vəziyyətinə və sovet quruculuğunun tam şəkildə yoxluğuna, əhalinin acından qırılmasına, işıqsız zülmət və cəhalətə bundan sonra bir dəqiqə belə dözmək olmaz və bunların aradan qaldırılması bir sıra iri və kiçik miqyaslı siyasi və iqtisadi tədbirlərin həyata keçirilməsini tələb edir.

Komissiya hazırkı halda təkcə bütün mövcud qüsur və nöqsanları, yoxsulluğu və səfaləti, aparatın nasazlığını və işçi yoxluğunu təsbit etməklə qalmır, eyni zamanda Naxçıvan Respublikasının dirçəldilməsi üçün həm bütün partiya-siyasi, həm də iqtisadi sahələr üzrə bir sıra praktik təkliflər irəli sürür.

Belə bir cəhətlə razılaşmağı zəruri hesab edirik ki, Naxçıvan Respublikasını bu fəlakətli vəziyyətə salan səbəblər təkcə yerli işçilərin cinayətkar əməllərindən, təkcə qanlı tarixi hadisələrin nəticələrindən deyil, həm də Naxçıvan Respublikasının ehtiyaclarına, tələblərinə və mövcud durumuna, AKP MK-nə qədər bizim yüksək mərkəzi qurumlarımız tərəfindən, bu günə qədər müşahidə olunduğu kimi, bir sıra obyektiv səbəblər üzündən kifayət qədər diqqət yetirilməməsindən ibarət olmuşdur.

Əgər bizim mərkəzi orqanlarımızın Naxçıvan Respublikasına münasibəti indi dəyişməsə, onda nəzərdə tutduğumuz bütün tədbirlər və seçilərək bura göndərilən ən yaxşı işçilər lazımi nəticələr vermək iqtidarında olmayacaqlar.

Komissiya bunu da qeyd etməyi zəruri hesab edir ki, Naxçıvan Respublikasının dirçəldilməsi ilə bağlı bütün işlərə, xüsusilə də iqtisadiyyat sahəsində, şəhərlərdən, yerli təsərrüfatdan deyil, bütövlükdə kənd təsərrüfatının və hər bir kəndli təsərrüfatının ayağa qaldırılmasından başlamaq lazımdır, çünki Naxçıvan diyarının yalnız əsas iqtisadi bazasını, yəni kənd təsərrüfatını dirçəltməklə, bu dirçəlişin daimi, möhkəm, süni olmayacağına ümid etmək olar.

Şəhərlər sonradan, kənd təsərrüfatının əmtəəliyi əsasında inkişaf edəcəkdir.

Bütün bunlardan əlavə, belə hesab edirik ki, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı və digər yüksək orqanlar tərəfindən əhalinin sağlamlığına ən ciddi şəkildə diqqət yetirilməzsə, bütün dirçəliş işləri boşa çıxacaqdır, çünki, 100% malyariya xəstəliyinə tutulmuş əhalini müalicə etmədən onun iqtisadiyyatını dirçəltmək olmaz; hələ çox sayda sifilis, vərəm, traxoma və s. kimi digər sosial xəstəliklərə tutulmaları hesaba almırıq.

Komissiya, yuxarıda da deyildiyi kimi, təkcə sovet aparatının deyil, partiya aparatının da qeyri-proletar, əksinqilabçı ünsürlərlə zibilləndiyini aşkar etmiş və bu səbəbdən Naxçıvan sovet aparatının bu cür ünsürlərdən təmizlənməsi üçün bilavasitə tədbirlər görmüşdür.

Partiya aparatına gəldikdə isə, Komissiya onunla bağlı aşağıdakı təklifləri irəli sürmüşdür:

**1. Naxçıvan Diyarının bütün partiya təşkilatı buraxılsın və yeddi yoldaşdan ibarət müvəqqəti təşkilat bürosu təyin edilsin:**

1. Sultanov
2. Şahbazov

3. Xasayev
4. Petrosyan
5. Babayev
6. Ohanov
7. Quliyev

**2. AKP MK-dən xahiş edilsin ki, Naxçıvan Diyarında işə rəhbərlik üçün əlavə məsul işçilər göndərsin.**

**3. MK-nin müvafiq şöbələrinə tapşırılsın ki, partiyanın, komsomol təşkilatlarının və qadınlar arasında işin təhqiqi zamanı əldə edilən materiallar əsasında Naxçıvan Diyarı Təşkilat Bürosuna müvafiq tapşırıqlar versin.**

**4. Naxçıvan Diyar Komitəsinin katibi vəzifəsindən azad edilsin və onun yerinə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının Salyan Şöbəsinin katibi göndərilsin.**

Naxçıvan Diyarında sovet, həmkarlar ittifaqları, kooperativ və təsərrüfat işlərinin sürətlə bərpa edilməsinə yönəlik aşağıda verilən konkret təkliflər üç qrupa bölünür: birinci qrup – partiya-siyasi məzmuna, ikinci qrup – aparatın özünün işi və strukturuna aiddir və nəhayət, üçüncü qrup – buraya iqtisadi xarakterli iri miqyaslı təkliflər daxil edilmişdir.

Komissiyanın irəli sürdüyü bütün təkliflərin bir qismi Zaqafqaziya Diyar Komitəsi, digər qismi AKP MK tərəfindən təsdiq edilmiş və ayrı-ayrı komissarlıqlara aid olan və müvafiq sahə üzrə razılaşdırması tələb olunan təkliflər qrupu isə hər bir komissarlıq tərəfindən ayrı-ayrılıqda təsdiqlənmişdir.

Təkliflərin bu qrupu xalq komissarlıqlarına göndərilmiş və onlardan alınan bəzi etirazlar, əlavələr, dəyişikliklər buraya daxil edilmişdir.

Hazırkı məruzədə bu təkliflər hər bir iş sahəsi və yaxud hər bir müəssisə üzrə ayrı-ayrılıqda qruplaşdırılmış şəkildə verilir.

## APARATIN STRUKTURU VƏ AŞAĞI APARAT ÜZRƏ

1. Naxçıvan Respublikası Xalq Komissarlar Sovetinin sədri və Naxçıvan Respublikası MİK-nin sədri vəzifələrinin

eyni bir şəxsə həvalə olunması tamamilə yolverilməz hesab edilsin və Naxçıvan Diyar Komitəsinə təklif olunsun ki, kəndlilər arasından namizəd irəli sürməklə təcili surətdə Naxçıvan MİK-nin sədrini yenidən seçsin.

2. Xalq Daxili İşlər Komissarlığının indiki strukturu aşağıdakı şəkildə yaradılmaqla dəyişdirilsin:

A) üç masalı təşkilat şöbəsi: təşkilat-təlimat, məlumat-statistika və VVAQ masaları.

B) üç şöbəli inzibati milis şöbəsi: inzibati, milis və xarici vətəndaşların qeydiyyatı şöbələri.

C) üç alt şöbəli yerli təsərrüfat şöbəsi: torpaq, daşınmaz əmlakın istismarı və tikinti alt şöbələri.

Ç) Mühasibat şöbəsi; burada diqqət yerli təsərrüfat hesabdarlığına və bütün digər şöbələrə yönəldilməlidir.

3. Sosial təminat şöbəsi XDİK-na verilsin.

4. XDİK-na bir vəzifə kimi tapşırılsın ki, sistemli şəkildə təhqiq və təlimatlandırma üçün işçilərini qəza və rayonlara, sonuncuların işçilərini isə kənd sovetlərinə təhkim etsin və hər bir təhqiqat müvafiq aktla qeydə alınsın; təhkim olunanlar gördükləri işlər barədə hesabat verməlidirlər.

5. XDİK-na bir vəzifə kimi tapşırılsın ki, vaxtlı-vaxtında yazışmaların icrasına, məruzələrin, protokolların surətlərinin və s.-nin təqdim olunmasına, ona göstərilən formada ciddi nəzarət etsin. XDİK tərəfindən qəzalara, qəzalar tərəfindən dairə icraiyyə komitələrinə, onlar tərəfindən isə kənd sovetlərinə, habelə qəzalar, rayon kənd sovetləri tərəfindən əmək haqqı barədə təmizlənmiş, tələbnamə cədvəllərinin vaxtında təqdim edilməsinə nəzarət olunsun.

6. XDİK-na, rayon icraiyyə komitələrini və kənd sovetlərini lazımi dəftərxana ləvazimatları ilə təchiz, kargüzarlıqla məşğul olan katibləri "Sovet quruculuğu" jurnalının 2-ci №-də dərc edilən forma ilə qabaqcadan tanış etmək təklif olunsun.

7. XDİK-na təcili qaydada sovet quruculuğu sahəsində işçi hazırlamağa başlamaq təklif olunsun.

8. XDİK-na milislər arasında qeydə alınan anormallıqları dərhal aradan qaldırmaq və onlara təlim keçilməsinə başlamaq təklif olunsun.

Komissiyanın yuxarıda sadalanan bütün təklifləri, heç şübhəsiz, yararlı olmuş və hal-hazırda iş prosesində edilən bəzi xırda dəyişikliklər istisna edilməklə yerinə yetirilir.

İş prosesində hətta bəzi əlavə tədbirlərə ehtiyac duyulduğu üzə çıxmışdır. Həm də bu, təkcə sovet aparatı sahəsində deyil, işin bütün digər sahələrinə aiddir. Bu əlavə və dəyişikliklərin sadalanması və işlərin yerinə yetirilməsi praktikasının özü hazırkı məruzənin vəzifəsinə daxil deyil, belə ki, bütün bunlar barədə Naxçıvan Diyarının dirçəldilməsi işlərinə və bütün tədbirlərin həyata keçirilməsinə həsr olunan xüsusi məruzədə danışılacaqdır.

## XALQ ƏDLİYYƏ KOMİSSARLIĞI ÜZRƏ

1. Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığına Naxçıvan SSR-in ədliyyə orqanlarını daha detallı şəkildə təhqiq etmək təklif olunsun.
2. Əhaliyə tam xidmət göstərmək məqsədilə xalq hakimləri otaqlarının sayı artırılsın.

## FƏHLƏ-KƏNDLİ MÜFƏTTİŞLİYİ ÜZRƏ

1. Fəhlə-Kəndli Müfəttişliyinin Naxçıvan Diyarı üzrə Müvəkkilliyinin dəftərxanasını təşkil etmək lazımdır, bunun üçün bir müfəttiş-mühasib, katib, makinaçı və kuryerə malik olmaq lazımdır.
2. Müvəkkillik avadanlıqla təmin olunmalı, bütün dəftərxana ləvazimatları ilə təchiz edilməlidir.
3. Azərbaycan SSR FKM Xalq Komissarlığına təklif olunsun ki, FKM orqanları tərəfindən Naxçıvan Diyarında heç bir nəzarətin olmamasına ciddi diqqət yetirsin.
4. FKM-nin Naxçıvan Diyarı üzrə Müfəttişliyi təcili

surətdə bütün zəruri materiallar, təlimatlar və göstərişlərlə təchiz edilsin; ondan yaxın dövr üçün iş planı tələb olunsun.

5. Yoldaş Cəmil Quliyev bu sahədə işləməyə göndərilsin.

## XALQ MAARİF KOMİSSARLIĞI ÜZRƏ

1. Mövcud məktəblər məktəbyaşlı uşaqların ehtiyaclarını təmin etmədiyi üçün (19.000 uşaqdan 5. 200-ü təhsil alır) yay tətili dövründə əhalisi sıx məntəqələrdə yeni məktəb binaları tikilsin. Azərbaycan SSR Xalq Maarif Komissarlığının 10 məktəbin tikintisi ilə bağlı proqramı 1925/26-cı illərdə yerinə yetirilsin.

2. Mövcud məktəblərdə qismən əsaslı təmir işləri görülsün, bu zaman keçid qruplarının və məktəbə yeni gələnlərin sayının 4. 000 uşaq artacağı nəzərə alınsın.

3. Köhnə məktəbləri, həmçinin yeni açılanları minimal miqdarda məktəb mebeli və inventarı ilə təmin etmək üçün Azərbaycan SSR XKS-nin hesabına müvafiq məbləğin buraxılması lazımdır.

4. Naxçıvan Seminariyası genişləndirilsin, onun nəzdində 50 nəfərlik pansion açılsın.

5. Qadın Müəllimlər Seminariyası əsas fənlər üzrə bir neçə müəllimə ilə təmin edilsin, bunun üçün Azərbaycan SSR XMK-na Qadın Seminariyasının pedaqoji personalının artırılması üçün vəd edilən 5 müəllimənin göndərilməsi təklif olunsun.

6. Aşağı səviyyəli pedaqoji personalın təkmilləşdirilməsi üçün Naxçıvanda yay tətili dövründə qısamüddətli pedaqoji kurslar açılsın.

7. Savadsızlığın ləğvi məntəqələrinin şəbəkəsini genişləndirmək üçün dövlət büdcəsindən lazımi məbləğ buraxılsın.

8. Komissiya 1913-cü ildə Naxçıvan Respublikasının bütün ərazisində 4 yüksək tipli və 37 ibtidai məktəb olduğunu nəzərə alaraq, belə hesab edir ki, məktəb şəbəkəsinin genişləndirilməsinə başlamadan, mövcud məktəblərin həm otaq,

məktəb mebeli, dərs vəsaitləri, həm də pedaqoji personal baxımından öz adlarını doğruldacaq və üstlərinə düşən vəzifələri yetirə biləcək ölçüdə avadanlıqlarla təmin olunması üçün lazım olan bütün tədbir görülməlidir.

## XALQ SƏHİYYƏ KOMİSSARLIĞI ÜZRƏ

1. Naxçıvan Diyarında geniş zəhmətkeş əhali təbəqələrinə tibbi yardım göstərmək üçün feldşer və müalicə məntəqələri şəbəkəsini genişləndirmək lazımdır.

2. Zöhrəvi xəstəliyə tutulanlara yardım göstərmək üçün mövcud ambulatoriyaların nəzdində yoluxucu xəstəlik şöbələri açmaq lazımdır.

3. Vərəm xəstəliyinə tutulanlara yardım göstərmək üçün Ordubadda uşaq sanatoriyası açmaq lazımdır.

4. Şərur və Naxçıvan qəzalarında yay və payız mövsümlərində malyariya əleyhinə səyyar dəstələr təşkil etmək lazımdır.

5. Azərbaycan SSR XSK-na, Naxçıvan Diyarına türk tibb işçiləri göndərməklə Naxçıvan Respublikasının Xalq Səhiyyə Komissarlığını zəruri tibbi personalla təmin etmək təklif olunsun.

6. Azərbaycan SSR XSK-na mövcud malyariya stansiyaları şəbəkəsini genişləndirmək təklif olunsun.

7. Xəstəxanalarda mamalıq-ginekologiya şöbələri açmaq və Naxçıvan Şəhər Xəstəxanasının nəzdindəki doğum evini genişləndirmək lazımdır.

8. Əmək haqqı məbləği çox az olduğuna tibbi personalın Naxçıvan Diyarına işləməyə getməkdən imtina etdiyini nəzərə alaraq, Azərbaycan SSR XSK-na ixtisaslı tibb işçilərinə ödənilən əmək haqqı məbləğini imkan daxilində artırmaq təklif olunsun.

9. Komissiya 1913-cü ildə bütün Naxçıvan qəzasında bir qəza həkimi və hər sahədə bir həkim, hər həkimin yanında bir mamaça olduğunu nəzərə alaraq, hazırda bu yardımın

həcmini və həkimlərin sayını heç olmasa, 1913-cü ildəki normaya çatdırılmasını təklif edir.

## XALQ ƏMƏK KOMİSSARLIĞI ÜZRƏ

1. Xalq Əmək Komissarlığı Müvəkkilliyinə təklif olunsun ki, təcili surətdə işsizləri uçota almağa başlasın.
2. Həmçinin o özü əmək haqqı üzrə qalan borcların ödənilməsi haqda Fəhlə-Kəndli Müfəttişliyinin qərarlarının yerinə yetirilməsinə nəzarət etsin.
3. Xalq Əmək Komissarlığına təklif olunsun ki, həm öz orqanlarında, həm də məhkəmə orqanlarında münaqişələrin sürətlə həll edilməsi üçün tədbirlər görsün.
4. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığına və "AKSO"-ya təklif olunsun ki, Naxçıvan Respublikasında ictimai işlərin təşkilinə 20. 000 rubl ayrılması və göndərilməsini sürətləndirsin.

## SOSİAL TƏMİNAT ÜZRƏ

1. Kommunal Təsərrüfat İdarəsinə təklif olunsun ki, qadın və kişi şöbələri olan əllilər evi üçün dərhal bina ayırsın.
2. Naxçıvan Respublikası üzrə bütün əllilərin uçota alınmasına başlamaq lazımdır.
3. Azərbaycan SSR Xalq Sosial Təminat Komissarlığına Naxçıvan Sosial Təminat İdarəsinin işinə rəhbərlik və onu sistematik olaraq lazımi təlimatlarla təchiz etmək təklif olunsun.
4. Daha çox ehtiyacı olan qaçqınlara, evsiz uşaqlara, əlillərə və s.-yə, yoldaş Rıkov tərəfindən buraxılan vəsait hesabına dərhal 3.000 rubl paylansın.
5. Naxçıvan Respublikasının Sosial Təminat İdarəsinin vəsaitlərini Azərbaycan SSR Xalq Sosial Təminat Komissarlığı hesabına gücləndirmək lazımdır.
6. Ordubadda 100 və Şərurda 200 nəfərlik uşaq evlərinin təşkil edilməsi təklif olunsun.

## QAÇQIN MƏSƏLƏSİ ÜZRƏ

Qaçqın məsələsinin nizamlanması üzrə qaçqınlara kömək məqsədilə aşağıdakı tədbirləri görmək lazımdır:

1. Naxçıvan Diyarında qaçqın məsələsinin qaçqınların sayı, onların qayıtdıqları vaxt və hətta harada olduqları barədə məlumatların yoxluğu səbəbindən ən xaotik vəziyyətdə olduğunu təsbit edərək, təcili surətdə onların dəqiq uçota alınmasına başlanılması çox zəruri hesab olunsun.

2. Hələ də qaçqın vəziyyətində olanların əvvəlki yaşayış yerlərinə qayıtmağa can atdıqlarını, eyni zamanda istifadə üçün yararlı torpaqların mövcud əhaliyə kifayət etmədiyini nəzərə alaraq, 24-cü ilin özü də daxil olmaqla, həmin ilə qədər qayıdanlar torpaq sahəsi ilə təmin olunsun, qalan qaçqınlara isə Naxçıvana gəlmək qadağan edilsin.

Qaçqınların torpaqla təmin edilməsi qaydası Naxçıvan Diyarının Xalq Komissarları Sovetinə həvalə olunsun.

3. Naxçıvan XKS-nə təklif olunsun ki, ilk növbədə yerli sakinlərin torpaqla təmin olunmasını zəruri hesab etsin.

4. Naxçıvan XKS-nə təklif olunsun ki, kənd təsərrüfatı bankı, kooperativlər, tikinti materialları anbarı açılarkən, ilk növbədə qaçqın əhaliyə yardım göstərilsin, çünki o, oturaq əhalidir.

5. Uşaq evlərinə qəbul zamanı qaçqın uşaqlarına üstünlük verilsin.

6. Qaçqın əhalinin dolanmaq üçün ünsürar vasitələrə belə malik olmadığı nəzərə alınaraq, hər bir qaçqın kəndinə pulsuz bel buraxılması zəruri hesab edilsin, bunun üçün Azərbaycan SSR XKS-nin hesabına Tiflisdə 5000 bel alınması zəruri sayılsın.

7. Keçən il Azərbaycan XKS tərəfindən işlək heyvan almaq üçün buraxılan 15. 000 rubl puldan indiyə qədər xərclənməmiş qalan məbləğ təcili surətdə təyinatına görə, yəni işlək heyvan alınmasına sərf olunsun və alınan heyvanlar qaçqın kəndlərinə verilsin.

## XALQ TORPAQ KOMİSSARLIĞI ÜZRƏ

1. Xalq Torpaq Komissarlığına suvarma sistemini bərpa etmək təklif olunsun.

2. Zərbəçi qaydada yer quruluşu işlərini həyata keçirmək lazımdır.

3. Daha iki aqronom məntəqəsi açmaq lazımdır.

4. 1913-cü ildə Ordubad, Culfa, Bulqan, Baş Noraşen sahələrində, həmçinin Naxçıvan qəzasının birinci və ikinci sahələrində və Şərurda baytar həkimlərinin, cəmi 8 baytar həkiminin olduğuna əsaslanaraq, indi də baytar məntəqələri şəbəkəsini, heç omasa, hər bir sahədə bir həkimə çatdırmaq lazımdır. Mövcud olan bir aqronom məntəqəsinə əlavə olaraq, Azərbaycan SSR hesabına daha iki məntəqə yaradılsın.

5 Azərbaycan XKS-nə kənd təsərrüfatı alətləri anbarı açmaq təklif olunsun.

## BÜDCƏ ÜZRƏ

1. Naxçıvan XKS-nə məcburi qaydada həm gəlirlər, həm də xərclər üzrə rüblük büdcə planlarının tərtib edilməsi tapşırılsın, Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyi İdarəsinə bu planları vaxtında və Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin 25.1.-25 tarixli 574 №-li sərəncamına uyğun olaraq işlənib hazırlanması təklif olunsun.

2. Naxçıvan Xalq Daxili İşlər Komissarlığına natural fondların öz uçotları ilə yanaşı, onların mədaxil və məxaric üzrə, habelə hesabdarlıq və hesabatlılıq üzrə təlimatlara uyğun olaraq mərkəzi kassa vasitəsilə hesabatlarını hazırlamaq təklif olunsun.

3. Azərbaycan SRR XKS-nə, Yerli Maliyyələr Haqqında Müvəqqəti Əsasnamənin 134-cü maddəsinə uyğun olaraq ehtiyat fondunun daha ehtiyatla xərclənməsinin zəruriliyi, fonddan həyata keçirilən xərclərin müvafiq smeta kreditlərinə köçürülməsi və avans və borc verilən məbləğlərin dayandırılması

yolu ilə onların bir hissəsinin bərpa edilməsi barədə göstəriş verilsin.

4. Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyi İdarəsinə Zaqafqaziya Xalq Maliyyə Komissarlığı vasitəsilə ehtiyat fondun bölüşdürülməsi qaydalarının və Yerli Maliyyələr Haqqında Müvəqqəti Əsasnamənin 134-cü maddəsinə edilən qeydin 5-ci bəndinə uyğun olaraq fond üzrə hesabat formasının işlənib hazırlanması barədə məsələ qaldırmaq təklif olunsun.

5. Naxçıvan XKS-nə həm özü, həm də xalq komissarlıqları tərəfindən smetadan kənar qaydada alınan hər cür məbləğin məcburi şəkildə Xalq Maliyyə Komissarlığının kassasına köçürülməsi və belə fondların xərclənməsini də bu kassa vasitəsi ilə, həm də birbaş təyinatı üzrə həyata keçirilməsi barədə göstəriş verilsin.

## VERGİ MƏSƏLƏSİ ÜZRƏ

1. Azərbaycan SSR-in Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinə təklif olunsun:

A) Vergi işini lazımi səviyyəyə qaldırmaq məqsədilə, Naxçıvan SSR-in vergi aparatını uzun müddətə və nümunəvi vergi işlərini həyata keçirməklə təlimatlandırmaq üçün vergi şöbəsinin təcrübəli təlimatçısını Naxçıvan Diyarına ezam etsin.

B) Nəzarət qaydasında şəxsi sənaye patentlərini seçmiş olan şəxslərdən bərabərləşdirici rüsum alınmasının düzgün olmadığı qeyd edilsin.

C) Zaqafqaziya Xalq Maliyyə Komissarlığı qarşısında anbarların və yerli vergilərin idarə edilməsinin yerli maliyyə alt şöbələrindən alınıb vergi alt şöbələrinə verilməsi barədə məsələ qaldırılsın.

Ç) Zaqafqaziya Xalq Maliyyə Komissarlığından Naxçıvan Respublikası şəhərlərinin ticarət-sənaye müəssisələrindən patent rüsumu tutulması ilə bağlı dördüncü zonadan çıxarılıb beşinci zonaya aid edilməsi xahiş olunsun.

D) Diyarın ərazi genişliyi və ucqarlarda vergi nəzarətinin yoxluğu nəzərə alınaraq, maliyyə müfəttişinin səfərlərinə ayrılan kreditlər artırılsın.

2. Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin Naxçıvan SSR-dəki Müvəkkilinə təklif olunsun ki, ən qısa müddətdə vahid kənd təsərrüfatı vergisinə dair bütün şikayətlərin yoxlanılmasını başa çatdırsın, vergi borcu olan şəxslərin əmlak vəziyyətini aydınlaşdıraraq, imkanlıları üzə çıxarıb onların vergi borclarını tutulmasını təmin etsin, imkansız borclular haqqında isə bütün materialları həmin borcların silinməsinə baxılmaq üçün Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinə təqdim etsin.

3. Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin Müvəkkilinə dövlət və yerli vergilər üzrə qalan borc qalıqlarının tezliklə aradan qaldırılması üçün tədbir görmək, Xalq Daxili İşlər Komissarlığına isə vergi aparatına ən fəal surətdə yardım göstərilməsi barədə qəza və sahə icraiyyə komitələrinə, kənd sovetlərinə və milisə vəzifə borcu kimi tapşırmaq təklif olunsun.

4. Respublika prokuroruna təklif olunsun ki, vahid kənd təsərrüfatı vergisinin tutulması ilə əlaqədar azadlıqdan məhrum etmə halları və digər özbaşına tədbirlər, habelə Şərur qəzasında qeyri-qanuni rüsumlar haqqında ən ciddi şəkildə təhqiqat aparsın.

5. Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin Naxçıvan SSR-dəki Müvəkkilinə təklif olunsun ki, yerli vergilər üzrə işi gücləndirsin və yerli vergi və rüsumların düzgün tutulmasına daim nəzarət etsin, Naxçıvan Diyarı üzrə yerli vergi qoyulması ilə əlaqədar 1924/25-ci illərin ikinci yarısı üçün yeni plan tərtib etsin.

6. Naxçıvan Diyarının şəhər və digər yaşayış məntəqələrindəki böyük **dağıntıları** nəzərə alaraq, onların bərpa olunmasına kömək etmək məqsədilə bütün şəhər və şəhərdənkənar tikililərin, habelə az qiymətli ticarət-sənaye binalarının yerli

tikinti vergisindən 5 il müddətinə azad edilməsi, yalnız fabrik-zavod və iri sənaye binalarından tutulan tikinti vergilərinin saxlanılması barədə Azərbaycan XKS qarşısında məsələ qaldırılsın.

7. Xalq Daxili İşlər Komissarlığı nəzdindəki Kommunal Təsərrüfat Baş İdarəsinə təklif olunsun ki, icarəyə verdiyi heyvan üçün yararlı həyətlərlə əlaqədar bağladığı müqavilələri, bazara çıxarılan heyvanlara görə tutulan rüsumların əsasları dəyişdiyinə görə təcili yenidən nəzərdən keçirsin; Naxçıvan XKS-nə isə təklif olunsun ki, ləğv edilmiş, amma indi yüksəldilmiş normalarda tutulan bütün rüsumları ləğv etsin. Həmin ərazinin ikinci dərəcəli ticarət müəssisələrinə qoyulan sənaye patentinin qiymətinin iki faizindən yuxarı olmayan rüsum həcmi müəyyən etsin.

8. Naxçıvan XKS-nə isə təklif olunsun ki, Gənzə kəndindəki poçt kontorunun saxlanılmasını, əhalinin bu mükəlləfiyyətdən azad edilmək barədə xahişini nəzərə alaraq, yerli vəsaitlər hesabına götürsün, cari ildə onun saxlanması üçün əlavə smeta tərtib etsin və onu Zaqafqaziya Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinə təqdim etsin.

9. Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın 170.000 rubl həcmində kənd təsərrüfatı vergisinin silinməsi barədə xahişi müvafiq ali orqanlar qarşısında qaldırılsın.

## NAXÇIVAN SSR XKS-İN MADDİ-MATERİAL HİSSƏSİ ÜZRƏ

1. 1921-ci ildən 1925-ci ilə qədər olan dövr ərzində Naxçıvan Diyarı üçün buraxılmış materialların miqdarını dəqiq müəyyənləşdirmək üçün Azərbaycan SSR-in XKS və MİK-də mövcud olan bütün məlumatları və sənədləri bir yerə toplamaq, əldə edilən materiallar əsasında Naxçıvan XKS-nin bütün təsərrüfat-material sənədlərini ən detallı şəkildə təftiş etmək lazımdır, çünki materialların miqdarını buraxıldıqları yerdə, yəni Bakıda müəyyən etmədən 1921 və 1922-ci illər,

həmçinin 1923-cü ilin bir hissəsi üçün mədaxil və məxarici müəyyənləşdirmək mümkün deyildir.

2. Naxçıvan Diyarının Ali Məhkəməsindən XKS-nin Maliyyə-təsərrüfat şöbəsinin keçmiş müdiri, hazırda islah-əmək koloniyasının rəisi Əsgərovun material məsrəfi ilə bağlı bütün əməllərini üzə çıxarmaq üçün onun və eyni zamanda bununla əlaqədar digər şəxslərin məhkəmə işlərinə yenidən baxılmasını tələb etmək.

## KOOPERASİYA ÜZRƏ

1. Diyarın kooperativlərinə 3 min rubldan 8 min rubl həcminədək (mal üçün) ayrılan kreditin geniş zəhmətkeş kəndli kütlələrini kooperasiya orbitinə cəlb etmək üçün tamamilə kifayət etmədiyini nəzərə alaraq, ən əlverişli kreditləşmə yolu ilə kooperasiyanın vəsaitlərinin artırılması.

2. Diyarda əsas mal sahiblərinin – trestlərin, sindikatların və s. şöbələrinin açılması.

3. Diyarda əsas bankların, hərbi bankların, Kənd Təsərrüfatı Bankının və s. şöbələrinin açılması.

4. Trestlər və sindikatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi. Hal-hazırda kooperativlər seçilmiş malların dəyəri məbləğində yalnız 45 gün müddətinə kreditləşmədən istifadə edir. Bu müddətin yarısı malların çatdırılmasına sərf olunur. Qalan 2-3 həftə ərzində uzaqda yerləşən kooperativ malı tədavülə buraxmağa macal tapmır, krediti vaxtında qaytarmaq məcburiyyəti isə kooperativi ağır vəziyyətə salır; buna görə də Diyarda şöbələrin, anbarların açılması mümkün olmadığı halda, bir istisna kimi, Naxçıvan kooperativlərinə verilən kreditlərin müddətini artırmaq, yəni 2 aydan 3 aya qədər uzatmaq lazımdır.

5. Bank kreditlərini artırmaqla yanaşı, Dövlət Bankı şöbəsində hazırda tətbiq edilən kredit faizlərini yenidən nəzərdən keçirmək və onları Dövlət Bankının Tiflis şöbəsinin faizləri ilə eyniləşdirmək lazımdır.

## DUZ SƏNAYESİ ÜZRƏ

1. Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasına təklif olunsun ki, müvafiq mədən mütəxəssislərinin ezam edilməsinə son dərəcə ciddi diqqət yetirsin.

2. Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasına təklif olunsun ki, fəhlələr üçün kazarma tikintisi planını mümkün qədər tezliklə yerinə yetirsin və bununla da həm fəhlələrə, həm də inzibati-texniki tərkibə daim öz iş yerlərində olmaq imkanı yaratsın.

3. Naxçıvanın mərkəzi partiya və həmkarlar təşkilatlarına təklif olunsun ki, təcili olaraq partiya və siyasi maarif işini maksimum həddə qədər artırsınlar. Bu məqsədlə sənaye özəklərinə daha möhkəm, təcrübəli partiya işçiləri ezam olunsun.

4. Naxçıvan Duz İdarəsi binasının Dadaşovun dövründə təmiri və Məmmədbəyov tərəfindən 400 pud barıt alınması, habelə bilərəkdən yararsız barıtı qəbul edən komissiya ilə bağlı cinayət işləri günahkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması məqsədilə Bakı dairə prokurorluğuna verilsin.

5. Komissiya Naxçıvan Diyarındakı bütün duz sənayesinin Naxçıvan SSR-in XKS-nə verilməsi barədə Zaqafqaziya Xalq Maliyə Komissarlığı qarşısında məsələ qaldırılmasını zəruri hesab edir.

## YERLİ TƏSƏRRÜFAT SAHƏSİNDƏ MƏNZİL MƏSƏLƏSİ ÜZRƏ

1. Bələdiyyələşdirilmiş lazımsız tikililərin geri qaytarılması məqsədi ilə bələdiyyələşdirilmiş tikililərin siyahısı, xüsusilə də Culfada, təcili qaydada yenidən nəzərdən keçirilsin və keçmiş sahiblərinin mövcudluğu halında müəssisə yerləşdirilməmiş binalar bərpa edilmək üçün onların özlərinə qaytarılsın.

2. Tikililərdən həm yaşayış sahəsi, həm də müəssisə məkanı kimi istifadəyə görə sabit haqq ödənilməsi, 10 212

kvadrat arşın mənzil sahəsi norması, 10 rubla qədər maaş alan fəhlə və qulluqçular üçün hər kvadrat arşına görə 2 qəpiyə qədər minimum haqq müəyyən edilsin. Həmçinin bütün müəssisələrin dəftərxanaları tərəfindən hər bir əməkdaş üçün 7 kvadrat arşın olmaqla tutulan sahələr üçün sabit haqq müəyyən edilsin.

3. Müəssisələrin mümkün qədər məhdud sayda binalarda toplamaqla onların ən sıx şəkildə yerləşdirilməsi həyata keçirilsin.

4. Həm bələdiyyələşdirilmiş, həm də şəxsi binaların dəqiq uçotu aparılsın və təhqiq olunsun.

5. Mənzil tikintisinin inkişafı sahəsində, xüsusilə də Naxçıvan şəhərində və Culfada ən qəti tədbirlər görülsün, bina tikənlərə ən böyük güzəştlər (vergilərdən, torpaq rentasından bir neçə illiyinə azad olunma) tətbiq edilsin. Bununla yanaşı, bina tikənlərin tikinti materialları ilə təchizatının təşkili, onlara belə bir kreditin verilməsi üçün tikinti kooperativinin yaradılması ilə bağlı tədbirlər görülsün.

## ŞƏHƏRLƏRDƏ TORPAQ MƏSƏLƏSİ ÜZRƏ

6. Əhalinin şəhər torpaqları ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi ilə bağlı ən qəti tədbirlər görülsün. Bununla yanaşı, torpaq rentası həyata keçirmək üçün son dərəcə zəruri bir iş kimi təcili qaydada şəhər mülklərindəki torpaq sahələri uçota alınsın.

7. Xalq Torpaq Komissarlığı şəhər torpaqlarının mərzlənməsini təcili olaraq qəti şəkildə başa çatdırsın.

## TİKİNTİ SAHƏSİ ÜZRƏ

8. Ticarət otaqları üçün belə bir ödəniş haqqı kateqoriyalar üzrə deyil, yerləşdiyi yerin zonası üzrə müəyyən edilsin.

9. Həm planlaşdırma, həm də bütün texniki tələblərin (araşdırmaların aparılması, layihələrin, texniki smetaların tərtibi və s.) yerinə yetirilməsi baxımından tikinti işlərinə dair qaydalar tənzimlənilsin. Texniki nəzarət üzrə, həm şəhərdə,

həm də qəzalarda tikinti işlərinin yerinə yetirilməsi üzrə sabit qaydalar müəyyən edilsin, habelə rəhbərlik və qəza icraiyyə komitələrinə texniki məsləhətlər verilməsi qaydaları təşkil olunsun.

10. Elektrik enerjisi ilə təchiz edilmək üçün iqtisadi əhəmiyyətinə və digər əlamətlərinə görə ən vacib yaşayış məntəqələri, xüsusilə də Ordubadda və Culfada, detallı şəkildə öyrənilsin. Belə bir araşdırma və təhqiqat su təchizatı ilə bağlı da aparılsın.

11. Həm bərpa işləri, həm də inzibati və sanitariya-maarifləndirici tədbirlər vasitəsilə şəhər və digər yaşayış məntəqələrində ümumi abadlaşdırma işləri gücləndirilsin.

12. XDİK-nın yerli təsərrüfat şöbəsinin Azərbaycan SSR XDİK-nın Kommunal Təsərrüfat Baş İdarəsi ilə əlaqələri gücləndirilsin.

13. Qəza icraiyyə komitələri və kommunal təsərrüfat idarələrinin yerli təsərrüfata rəhbərlik üzrə müvəkkilləri ilə həm yazılı, həm də canlı əlaqə vasitəsilə normal qarşılıqlı münasibətləri qurulsun.

14. Yerli təsərrüfat əməkdaşlarının tərkibi keyfiyyətcə gücləndirilsin.

15. Kargüzarlıq işlərinin aparılmasında aşkar edilən nöqsanlar təcili qaydada aradan qaldırılsın.

## HƏMKARLAR İŞİ SAHƏSİNDƏ

1. Həmkarlar İttifaqları Bürosu İdarəsinə təklif olunsun ki, Azərbaycan şöbələrinin Naxçıvan şöbələrində və aşağı səviyyəli həmkarlar təşkilatı özəklərində təcili qaydada yenidən seçkilər keçirməyə başlasın, bacarıqsız yoldaşları daha bacarıqlı və həmkarlar işi ilə yaxından tanış olan yoldaşlarla əvəz etsin.

2. Azərbaycan şöbələrinə təklif olunsun ki, Naxçıvan şöbələri, xüsusilə də tikinti fəhlələri ittifaqı ilə sıx əlaqə yaratsın, təlimat vermək məqsədilə tez-tez onları ziyarət etsinlər.

3. Azərbaycan şöbələrinə təklif olunsun ki, öz Naxçıvan şöbələri, xüsusilə də mədənçilər ittifaqı ilə türk dilində əlaqə qursunlar.

4. Həmkarlar İttifaqları Bürosu İdarəsinə təklif olunsun ki, Ordubad katibliyinin məsul katibini daha etibarlı və uyğun yoldaşla əvəz etsin, Şərur katibliyinin katibini isə bu vəzifəyə layiq olmadığına görə dəyişdirsin.

5. Culfa katibliyinin mərkəzə yaxın yerdə olduğunu və yalnız Culfaya xidmət etdiyini diqqətə alaraq, Həmkarlar İttifaqları Bürosu İdarəsinə bu katibliyi ləğv etmək və onun xidmət etdiyi ərazini Naxçıvan katibliyinə, yəni müvafiq Naxçıvan şöbələrinə birləşdirmək təklif olunsun.

6. Həmkarlar İttifaqları Bürosu İdarəsi sədrinin, digər vəzifələri də icra etdiyi üçün işinin həddən artıq olduğunu və öz gücünü bütünlüklə həmkarlar işinə həsr etmək imkanına malik olmadığını nəzərə alaraq, komissiya onun həmkarlar işindən azad olunmasını zəruri sayır və AHİŞ-dən Naxçıvan Həmkarlar İttifaqları Bürosu İdarəsinə yerlərlə sıx əlaqə qurmaq və onları təlimatlandırmaq üçün daha bir təlimatçı saxlamağa icazə verilməsini xahiş edir.

7. Həmkarlar İttifaqları Bürosu İdarəsinə müqavilələr və öhdəliklər bağlanarkən sahib kimi çıxış etmək təklif olunsun.

8. Azərbaycan şöbələrinə təklif olunsun ki, muzdurlarla inşaatçıların (???) könüllü müqavilələrinə riayət etsinlər, bağlanmış kollektiv müqavilələrin surətlərini rəhbərliyin və fəhlələrin tanış olması üçün vaxtında Həmkarlar İttifaqları Bürosu İdarəsinə və Naxçıvan şöbələrinə göndərsinlər.

9. Duz mədənlərindəki mənzil böhranını nəzərə alaraq, Naxçıvan Duz İdarəsinə duz mədənlərində yaşayış sahələrinin yaxşılaşdırılması və genişləndirilməsi məsələsinin həllini sürətləndirmək təklif olunsun.

10. Həmkarlar İttifaqları Bürosu İdarəsinə təklif olunsun ki, fəhlələr arasında mədəni-maarif işinin səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirsin, mədəniyyət fondunu

şöbələrdə saxlamayıb, yerlərdə mədəniyyət işinin müstəqil aparılması üçün onu ittifaqlararası katibliklərin sərəncamına versin.

11. Naxçıvanda kifayət qədər həmkarlar işçisi olmadığını nəzərə alaraq, Həmkarlar İttifaqları Bürosu İdarəsinə təklif olunsun ki, təkcə dram dərnəyi ilə kifayətlənməyərək, həmkarlar dərnəkləri və siyasi dərnəklər də təşkil etsin və bu dərnəklərə fəal həmkarlar işçiləri cəlb olunsun.

12. Həmkarlar İttifaqları Bürosu İdarəsinə təklif olunsun ki, muzdurlar arasında mədəni səviyyəni yüksəltsin və onlar üçün savadsızlığın ləğvi üzrə kurslar açsın.

13. Culfa gömrüyünə təklif olunsun ki, Könüllü Donanma üçün tutulan faiz məbləğini fəhlələr arasında mədəni işin səviyyəsini yüksəltmək və işsizlərə maddi yardım göstərmək üçün Həmkarlar İttifaqları Bürosu İdarəsinin sərəncamına versin.

14. Həmkarlar İttifaqları Bürosu İdarəsinə təklif olunsun ki, həmkarlar işinin bütün sahələri üzrə dəqiq statistika aparsın.

15. İttifaqlara təklif olunsun ki, yalnız Naxçıvan SSR-də kollektiv müqavilələr bağlasınlar.

16. Həmkarlar bürosunun diqqəti həmkarlarla bağlı məsul vəzifə və işlərə fəhlələr arasından namizəd irəli sürülməsinə yönəldilsin.

## YUXARIDA SADALANAN QRUPLARIN HEÇ BİRİNƏ DAXİL OLMAYAN TƏKLİFLƏR

1. Naxçıvan Diyarında Şəkər trestinin, Toxuculuq sindikatının və digər ticarət-sənaye müəssisələrinin şöbələrinin açılması.

2. Zaqafqaziya Pambıq Komitəsinin diyar üzrə gəlirindən real tutulmaların sonuncunun xeyrinə ayrılması.

3. Hərbi şəhərciyin bərpa edilməsi və onun Naxçıvan SSR-in XKS-nə verilməsi.

4. Naxçıvan stansiyasındakı deponun və dəmiryolu emalatxanalarının bərpa edilməsi və yaxud onların Naxçıvan Respublikasının sərəncamına verilməsi.

5. Naxçıvan stansiyasında istifadəsiz qalan dəmiryolu tikililərinin Naxçıvan kommunal təsərrüfatına verilməsi.

6. Əlağa-Culfa dəmiryolu tikintisinin, bu yolun Culfa stansiyası tərəfdən də qarşı istiqamətdə çəkilməsinə başlamaqla sürətləndirilməsi haqqında.

7. Naxçıvan, Şərur, Ordubad şəhərlərində cəmi 500 kimsəsiz uşaq üçün uşaq evlərinin açılmasının zəruriliyi haqqında.

8. Naxçıvan əhalisinin vahid kənd təsərrüfatı vergisi üzrə borclarının silinməsi haqqında.

9. Naxçıvan Diyarında Kənd Təsərrüfatı Bankının təşkil edilməsinin zəruriliyi haqqında.

10. Naxçıvan Diyarında kənd təsərrüfatı kooperasiyasının yaradılmasının zəruriliyi haqqında.

11. Ordubad qəzasında meyvənin çox olduğu nəzərə alınaraq, orada konserv zavodunun təşkil olunması haqqında.

12. Respublikanın texniki işçilər ilə təchiz olunmasının zəruriliyi haqqında.

13. Azərbaycan SSR-in bütün xalq komissarlıqlarının, onların Naxçıvan Diyarındakı filiallarının işinə güclü nəzarət etməsinin zəruriliyi haqqında.

14. Baramaaçma və ipək toxuma sənayesinin bərpa edilməsinin zəruriliyi haqqında.

15. Naxçıvan Diyarında kənd təsərrüfatı maşınları və alətləri anbarının açılmasının zəruriliyi haqqında.

16. Naxçıvan Diyarındakı qurğuşun mədəninin bərpa edilməsi haqqında.

## XALQ KOMİSSARLIQLARI TƏRƏFİNDƏN EDİLƏN ƏLAVƏLƏR VƏ DƏYİŞİKLƏR

Xalq komissarlıqlarının əksəriyyəti komissiyanın təklifləri ilə razılaşmış, onlara heç bir də dəyişiklik və əlavələr

etməmişlər.

Bəzi komissarlıqlar isə bu ruhda maraqlı cavablar veriblər ki, sizin təklifləriniz gözəldir, amma onları yerinə yetirmək çox çətindir, çünki bizim, hətta hansısa bir təlimatçını Naxçıvana göndərmək üçün vəsaitimiz yoxdur.

Bəziləri isə xırda dəyişikliklər və əlavələr etmişlər, məsələn Xalq Maliyyə Komissarlığı Müvəkkilliyi poçt kontorlarının yerli vəsait hesabına saxlanmasına və bütün smetadan kənar məbləğlərin onun kassasına verilməsinin zəruriliyi barədə təklifə etiraz edərək şərh yazmışdır ki, belə məbləğlər mərkəzi kassaya depozitə verilməlidir. Vahid kənd təsərrüfatı vergisinin silinməsi haqqındakı məsələyə isə bütün borcluların üç qrupa bölünməsinin zəruriliyi barədə əhəmiyyətli düzəliş etmişdir.

Xalq Maarif Komissarlığı qeyd edir ki, məktəb binalarının çatışmazlığı bütün qəzalarda hiss olunur, ancaq buna baxmayaraq o, hər halda Naxçıvan Diyarında 10 məktəb binasının tikilməsini zəruri hesab edir, bunun üçün isə xüsusi vəsait lazımdır.

5 müəllimənin ezam olunması təklifi ilə əlaqədar Xalq Maarif Komissarlığı yalnız iki müəllimənin göndərilməsi ilə razılaşdığını bildirir. Müəllim personalının təkmilləşdirilməsi ilə əlaqədar yay kurslarının açılması təklifi ilə bağlı isə Xalq Maarif Komissarlığı onların açılmasının mümkün olmadığını bildirmiş, ancaq Naxçıvan müəllimlərini Gəncə, Qusar və digər kurslarda yerləşdirəcəyinə söz vermişdir.

Fəhlə-Kəndli Müfəttişliyi Xalq Komissarlığı bütün bəndlərlə razılaşaraq, dəftərxana XKS ilə ümumi olsun deyə, bir müvəkkil və  bir müfəttiş vəzifələri ilə kifayətlənməyi təklif etmişdir.

Azərbaycanın xalq komissarlıqlarından gələn bütün etiraz və əlavələr məhz bunlardan ibarətdir.

# VIII. ƏLAVƏLƏR

## VƏRƏQƏLƏR

**Birinci vərəqə**

***“Naxçıvan Respublikasının bütün fəhlə, kəndli və vətəndaşlarına***

ƏZİZ YOLDAŞLAR!

Sovet hökuməti və Partiya hazırda kəndə maksimum diqqət yetirir.

Kənd təsərrüfatının yüksəldilməsi, kooperasiyanın təşkili, kənd təsərrüfatı üzrə kredit cəmiyyətləri, qarşılıqlı yardım komitələri vasitəsilə yoxsul və ortabab kəndli kütləsinə maddi yardım göstərilməsi, partiya təşkilatlarının sağlamlaşdırılması və yaxşılaşdırılması – Sovet hökuməti və Partiyanın əsas vəzifəsi bunlardır.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi, Azərbaycan Xalq Komissarları Soveti, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Naxçıvan Diyarının vəziyyətini öyrənmək və təhqiq etmək üçün həmin diyara Azərbaycan Xalq Komissarları Soveti sədrinin müavini yoldaş BAĞIROV, Zaqafqaziya Fövqəladə Komissiyasının sədr müavini yoldaş KVANTALİANİ, Azərbaycan Kommunist Partiyası Mərkəzi Nəzarət Komissiyasının məsul katibi yoldaş QORBOÇENKO, Azərbaycan Fəhlə-Kəndli Müfəttişliyi xalq komissarının müavini yoldaş DÖVLƏTOV və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi yoldaş QARA - YEVDƏN ibarət komissiya göndərmişdir.

Bu iş yalnız yerli fəhlələr, kəndlilər və fərdi vətəndaşlar komissiyanın köməyinə gəldikləri təqdirdə uğurlu olacaqdır.

Həm yazılı, həm də şifahi ərizə və şikayətlər Naxçıvan stansiyasında dayanmış 12 №-li vaqonda günün istənilən vaxtında qəbul olunur.

Zaqafqaziya dəmiryolu, Naxçıvan stansiyası, 12 №-li vaqon, 3 aprel 1925-ci il.

KOMİSSİYA”

**İkinci vərəqə**

NAXÇIVAN RESPUBLİKASININ
TƏHQİQİ ÜZRƏ XÜSUSİ KOMİSSİYADAN

***Yoldaş Rıkova,***
***Naxçıvan Respublikasının təhqiqi üzrə Xüsusi Komissiyaya və onun texniki alt komissiyalarına ərizə verən bütün vətəndaşlara***

Yoldaş Rıkova 500 ərizə verilib, bundan əlavə komissiyaya da 2000-ə yaxın ərizə daxil olub və hər bir ərizəçiyə ayrıca məktubla cavab vermək mümkün deyil, həm də ərizələrin əksəriyyəti eyni xarakter daşıyır.

Buna görə də komissiya verilən ərizə, şikayət və xahişlərin hər qrupu üzrə ayrıca çıxardığı, həm prinsipial, həm də praktik qərar və qətnamələrini hamılıqla ictimaiyyətin diqqətinə çatdırmağı qərara almışdır.

Diyarın ümumi vəziyyətinə toxunaraq, Komissiya bir neçə söz deməyi lazım bilir: əziz yoldaşlar, məlum olduğu kimi, kapitalist və burjua quruluşu dağıdılmış şəhər və kəndlər, məhv edilmiş kənd təsərrüfatı, tənəzzülə uğramış şəhər sənayesi və yerindən laxladılmış nəqliyyat şəklində bizə həddən ağır bir miras qoyub getmişdir. Yüzlərlə şəhər və minlərlə kənd-kəsək məhv edilmişdir. On minlərlə fəhlə və kəndli evsiz-eşiksiz qalmışdır. Fəhlə-kəndli hökuməti mövcud olduğu ilk günlərdən onun qarşısında fəhlə və kəndlilərin iqtisadi gücünü bərpa etmək vəzifəsi durmuşdur. Ancaq zəhmətkeşlərin düşmənləri üsyana qalxmış proletarların hakimiyyətini quduzlaşmış bir kinlə boğmağa çalışaraq, daxili müharibə törətmiş və dinc şəhərləri dağıtmışdır. Biz dinc quruculuğumuzu təmin edən yola bu yaxınlarda qədəm qoymuşuq. Tamamilə aydındır ki, səfalət və yoxsulluğa məruz qalan bizlər, bu qısa müddət ərzində öz təsərrüfat gücümüzü bərpa etmək yolunda bütün niyyət və məramlarımızı sovet diyarı üçün kifayət ölçüdə həyata keçirə bilməzdik. Biz öz səylərimizlə həm kənd təsərrüfatını, həm də şəhər sənayesini yüksək səviyyəyə qaldırmalıyıq.

Sovet hakimiyyəti hal-hazırda öz xüsusi diqqətini kəndlilərə, xüsusilə də yoxsullara tərəf yönəltmişdir. Kəndlilərin həyat və məişətinin yaxşılaşdırılması və kənd təsərrüfatının dirçəldilməsi üçün bir sıra tədbirlər qəbul olunmuşdur.

Daha ağır vəziyyətdə olan Naxçıvan Diyarına xüsusi diqqət yetirilir. Sizin diyarda daha böyük dağıntılar baş vermiş, təsərrüfatlar daha böyük tənəzzülə və bununla əlaqədar olaraq da əhali daha kəskin yoxsullaşmaya uğramışdır. Təsərrüfatları bərpa etmək böyük xərc və vaxt tələb edir. Fəhlə-kəndli hökumətinin vəsaitlərinin çox az olmasına baxmayaraq, o, Naxçıvan Diyarı üçün mümkün olan nə varsa hamısını edir və gələcəkdə də bu istiqamətdə maksimum enerji və vəsait sərf edəcəkdir.

Diyar əhalisi tərəfindən verilən bütün ərizələr öz məzmununa görə bir neçə qrupa bölünür:

I

Öz təsərrüfatlarının bərpa edilməsi ilə bağlı fərdi yardım üçün müraciət edən vətəndaşlar belə bir yardımı kənd təsərrüfatı bankı və kənd təsərrüfatı kooperasiyası vasitəsilə alacaqlar.

Bir sıra vətəndaşların onlara fərdi qaydada maddi yardım göstərilməsi ilə bağlı xahişlərini təmin etmək tamamilə qeyri-mümkündür, belə ki bu cür sistemsiz kömək bizim təsərrüfatların bərpası sahəsindəki ictimai işimizi sarsıdar, çünki bizim vəsaitlərimiz son dərəcə azdır. Buna görə də əmək qabiliyyəti olmayanlar, əlillər, dul qadınlar, yetim uşaqlar sosial təminat orqanlarında qeydiyyata alınmalıdırlar; komissiya tərəfindən həmin orqanlara göstəriş verilmiş və bu ehtiyaclar üçün nəzərdə tutulan vəsaitlər artırılmışdır.

Müalicə üçün yardım xahiş edən vətəndaşların nəzərinə çatdırılır ki, komissiya Naxçıvan Respublikasının səhiyyə orqanlarının gücləndirilməsi haqda qərar çıxarmış, bunun üçün mərkəz qarşısında müalicə məntəqələrinin genişləndirilməsi barədə məsələ qaldırılmışdır.

Yuxarıda da göstərildiyi kimi, uşaqlar və yetimlər üçün əlavə olaraq 200 nəfərlik uşaq evləri açılır.

Məvaciblərin artırılması məsələsi ilə əlaqədar olaraq,

Naxçıvan Diyarının Gəncə və Dağlıq Qarabağ şəhərlərinə bərabər tutulması məqsədilə Naxçıvan SSR-dəki mövcud əmək haqları və tariflər komissiya tərəfindən detallı öyrənilmişdir.

II

Əmlakların – yəni bağların, evlərin, dükanların, dəyirmanların və s.-nin geri qaytarılması ilə bağlı xahişlərə H. Sultanov, Axundov və Səmədzadə yoldaşlardan ibarət komissiya tərəfindən yerində baxılacaqdır; onlara bu ərizələri yoxlamaq, detallı şəkildə təhqiq etmək və fəhlə-kəndli hakimiyyətinin qanunları əsasında həll edərək, hər bir ərizəçiyə bu barədə yazılı şəkildə məlumat vermək tapşırılmışdır.

III

Üçüncü kateqoriyadan olan ərizələr kənd camaatlarının və vətəndaş qruplarının məktəblərin, xəstəxanaların, qiraət komalarının, klubların açılması, partiyaya qəbul, komsomol özəklərinin təşkili, təlimatçıların göndərilməsi, kənd təsərrüfatı bankının, kənd təsərrüfatı kooperasiyasının şöbələrinin açılması, kooperativlərin qurulması, suvarma, torpaq bölgüsü, kəhrizlərin təmizlənməsi, bataqlıqların qurudulması, kənd təsərrüfatı vergisinin azaldılması, kənd təsərrüfatı inventarı, tikinti materialları sarıdan köməklik göstərilməsi və s. haqında müraciətlərindən ibarət olub kollektiv xarakter daşıyır.

Məktəblərin, xəstəxanaların, qiraət komalarının və digər mədəni-maarif müəssisələrinin açılmasına dair ərizələrlə bağlı komissiya bildirir ki, bu müəssisələrin açılması üçün sovet hakimiyyəti tərəfindən tədbirlər görülür, hər bir Rayon İcraiyyə Komitəsinin yerləşdiyi ərazidə bu il mərkəz hesabına qiraət komaları açılmalıdır. Əhalinin ucuz qiymətə lazımi kəndli ədəbiyyatı ilə təchiz edilməsi üçün tədbir görüləcəkdir. Ehtiyacı olan əhaliyə pulsuz yardım göstərmək üçün müalicə məntəqələrinin şəbəkəsi genişləndiriləcəkdir.

Yaşayış və təsərrüfat tikililərinin bərpasını sürətləndirmək və ucuz tikinti materialları təqdim etmək üçün iri kəndlərdə taxta və digər tikinti materialları anbarlarının açılması qərara alınmışdır.

Kənd təsərrüfatı vergisinin azaldılması ilə bağlı komissiya tərəfindən cari ildə kəndlilərin ödəyəcəyi kənd təsərrüfatı vergisinin yüngülləşdirilməsi üçün tədbirlər görülmüşdür.

Kəhrizlərin təmizlənməsi, kanalların çəkilməsi, yolların, körpülərin təmir olunması məsələsi ilə bağlı komissiya bildirir ki, bu sahədə müvafiq işlərə artıq başlanmışdır, onları bu il başa çatdırmaq üçün həmin işlər daha da gücləndiriləcəkdir.

Azərbaycan Pambıq İdarəsinə olan borcun silinməsinə dair xahişlə bağlı komissiya bildirir ki, bu məsələ xüsusi texniki komissiya tərəfindən araşdırılır, onu aydınlaşdırdıqdan sonra tənzimlənməsi üçün tədbir görüləcəkdir.

Torpaq bölgüsünün yoxluğu və onun düzgün aparılmamasına dair şikayətlərlə əlaqədar komissiya bildirir ki, AKP MK-nin qərarı ilə bu işlər zərbəçi hesab edilmişdir və xüsusi yer quruluşu komissiyaları tərəfindən təcili qaydada həyata keçiriləcəkdir; bu komissiyalara kəndlilərin öz ərizələrində göstərdikləri bütün torpaq anlaşılmazlıqlarını nəzərdən keçirmək və aradan qaldırmaq tapşırılmışdır.

Partiyaya qəbul haqqındakı xahişlərə cavab olaraq fəhlə və kəndlilərin nəzərinə çatdırılır ki, hal-hazırda kommunist partiyası partiya təşkilatlarının sağlamlaşdırılması və təmizlənməsi üçün tədbirlər görür, bu iş başa çatdıqdan sonra muzdur, kəndli və fəhlələr ümumi əsaslarla partiya sıralarına qəbul ediləcəklər.

IV

Məhbusların vaxtından əvvəl azad edilməsi barədə bütün xahişlər, düzgün olmayan həbslər barədə bütün şikayətlər xüsusi təyin edilmiş komissiya tərəfindən nəzərdən keçirilmiş, yoxlanılmışdır. Öz arzusu ilə ərizə və yaxud şikayət vermək istəyən bütün məhbuslar dinlənilmişdir və komissiya bütün bu işləri detallı şəkildə nəzərdən keçirmişdir. Düzgün olmayan həbslər və yaxud başqa ədalətsizlik və qanunsuzluqlar aşkar edilərsə, o zaman bununla əlaqədar bütün günahkarlar dərhal məhkəməyə sövq ediləcək və qanuni şəkildə cəzalandırılacaqlar.

V

Kustar sənətkarların sənət vergisinin azaldılması və yaxud ləğv edilməsi barədə ərizə və xahişləri ilə əlaqədar onların nəzərinə çatdırılır ki, komissiya tərəfindən kustar istehsalın nəzərdən keçirilməsi və kustar sənətkarlara yardım göstərilməsi üçün həm birbaş, həm də dolayısı ilə bir sıra tədbirlər görülmüşdür.

VI

Bütün mümkün qanunsuz hərəkətlər və ya cinayətlər, zorakılıq, şantaj, vergilərin düzgün tutulmaması halları ilə bağlı bütün şikayət və məlumatlar komissiya tərəfindən bilavasitə nəzərdən keçirilmişdir və onların bir qismi yoldaş Sultanovun sədrlik etdiyi komissiyaya veriləcəkdir, bəziləri ilə bağlı isə bilavasitə komissiya tərəfindən araşdırma, yoxlama aparılmış və müvafiq tədbirlər görülmüşdür, həmçinin qanunsuzluğa və ədalətsizliyə yol verən bütün şəxslər məsuliyyətə cəlb olunmuşlar, onlara qarşı qəbul edilən tədbirlər barədə əlavə olaraq ətraflı məlumat veriləcəkdir.

VII

Ərizə və xahişləri yuxarıda sadalanan kateqoriya və qrupların heç birinə uyğun gəlməyən bütün vətəndaşlara, əgər onların ərizələrində konkret məlumat və faktlar varsa, ərizədə göstərilən ünvanlar və yaxud onların müraciət etməli olduqları müvafiq yerli aparat vasitəsilə yazılı cavab veriləcəkdir.

VIII

Hazırkı elan türk, erməni və rus dillərində min beş yüz nüsxədə çap olunmuşdur. Hamının məlumatlandırılması üçün Naxçıvan Diyarının bütün, ən ucqar kəndlərinə belə göndərilmişdir.

IX

Hazırkı elan təhvil aldıqlarını imzalamaqla və oxuma, yapışdırma yolu ilə dərhal əhalinin nəzərinə çatdırılmasına və kənd sovetlərinin qovluqlarında saxlanılmasına şəxsən məsuliyyət daşımaqla bütün kənd sovetləri sədrlərinə göndərilmişdir.

KOMİSSİYA.

*(РГАСПИ, ф. 85, о. 25, д. 623, л.л. 167-170)*

# P R O T O K O L L A R

## Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının **1 №-li PROTOKOLU**

*Aleksandrapol – İrəvan yolunda vaqonda 30/3-25-ci il*

İştirak etdilər: M.Bağırov, Ə.Qarayev, S.Qorboçenko, İ.Dövlətov və E. Kvantaliani yoldaşlar
Katiblər: Petrunin və Soxatski yoldaşlar

| Dinlənildi | Qərara alındı |
|---|---|
| Yoldaş Bağırov məruzə etdi:<br>1. Naxçıvan Diyarında işlərin gedişatı barədə mövcud sənədli məlumatlar – yoldaş Rıkovun adına verilən anonim ərizə haqqında. Yoldaş Rıkovun praktik qənaətləri, AKP MK Rəyasət Heyətinin AKP MK Plenumunun 17. 03. cari il tarixli qərarı ilə təsdiq edilən qərarı, komissiyanın Naxçıvan Respublikasına köməyin həcmi və xarakterinin müəyyən edilməsi ilə bağlı iclasının 1 №-li protokolu və yoldaş Sultanovun Naxçıvan Diyarının vəziyyəti barədə etdiyi birinci məruzə. | 1. Komissiyanın rezidensiyası vaqonda yerləşsin, bütün iclaslar, müşavirələr və komissiyanın vəzifələri ilə bağlı bütün texniki işlər burada keçirilsin. Oraya çatan kimi işə başlamazdan əvvəl Naxçıvan XKS-nin sədri Həmid Sultanovun və Naxçıvan Diyar Komitəsinin katibi Həşimovun iştirakı ilə iclas keçirilsin, həmin iclasda onların, Komissiyanın gəldiyi ana qədər Diyarda işlərin vəziyyəti barədə məruzələri dinlənilsin, bu zaman komissiya tərəfindən öz iş planı və sərəncamında olan bütün materiallar və bu və ya digər məsələ haqda öz rəyi barədə heç nə xatırladılmasın.<br>Üç dildə: türk, erməni və rus dillərində vərəqə nəşr etmək yolu ilə komissiyanın gəlişi barədə əhaliyə xəbər verilsin, həmin |

| | |
|---|---|
| | vərəqələrdə əhali şifahi və yazılı şəkildə komissiyaya ərizə və şikayət verməyə dəvət olunsun. Əhalidən ərizə və şikayətləri qəbul etmək, məzmunlarının xarakterinə görə onları təsnif və sonra işlənmiş formada komissiyaya məruzə etmək üçün Petrunin, Səmədzadə və Soxatskidən ibarət üçlük təyin edilsin. Artıq yerlərdə işləməyə başlamış texniki alt komissiyaların məruzələri dinlənilsin və bundan sonra onlara sonrakı işləri barədə göstərişlər verilsin. Yoldaş Yermolova artıq mövcud olan işlərin istintaq hissəsini aparmaq tapşırılsın. Yerli əhalinin fikrini bilmək, onun həyat və məişətini, habelə sənaye müəssisələrinin harada yerləşdiklərini öyrənmək üçün Naxçıvan Diyarının ayrı-ayrı yaşayış məntəqələrinə səfər edilsin. Müxtəlif millətlərin nümayəndələri məskunlaşmış məntəqələri ziyarət etmək yolu ilə milli məsələ təhqiq olunsun. |
| 2. Əldə olan məlumatlar əsasında ilkin iş planının tərtib olunmasının zəruriliyi və Naxçıvan Diyarının həyatının ayrı-ayrı sahələrinin təhqiqi və öyrənilməsini yüngülləşdirmək üçün həmin işlərin komissiya üzvləri arasında bölüşdürülməsi haqqında. | 2. Komissiya üzvləri arasında iş bölgüsü iş prosesində yerlərdə, bu və ya digər vəzifəni bu və ya digər yoldaşa tapşırmaqla aparılsın. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının

**2 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 31/3-25-ci il*

İştirak etdilər: M.Bağırov, Ə.Qarayev,
S.Qorboçenko, İsay Dövlətov,
E.Kvantaliani,
Naxçıvan Diyar Komitəsinin katibi yoldaş Həşimov və Naxçıvan SSR XKS-nin sədri yoldaş H. Sultanov.

Katiblər: Petrunin və Soxatski

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Yoldaş Həmid Sultanovun Naxçıvan Diyarında vəziyyət haqqında məlumat xarakterli məruzəsi.<br>2. Yoldaş Həşimovun Naxçıvan Diyarında partiya təşkilatının vəziyyəti haqqında məruzəsi (Məruzələr hazırkı protokola əlavələrdə verilir) | Nəzərə alınsın. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
31 mart 1925-ci il tarixli 2 №-li Protokoluna
Ə l a v ə

**Naxçıvan Diyarının Xalq Komissarları Sovetinin sədri yoldaş Həmid Sultanovun Naxçıvan Diyarındakı vəziyyət haqqında məruzəsinin stenoqrafik yazısı**

Diyarda sovet hakimiyyəti zəifdir, əhalinin sovet hakimiyyəti barədə heç bir anlayışı yoxdur. Həm mərkəzdə, həm

də aşağı səviyyələrdə yerli işçilər zəifdir. Yer quruluşu işləri aparılmır, aqronomik yardım, baytar yardımı yoxdur. Kooperasiya işi ümumən, kənd təsərrüfatı krediti isə xüsusilə zəifdir. Suvarma kanalları, kəhriz şəbəkəsi başlı-başına, baxımsız qalmışdır. Kəskin torpaq çatışmazlığı da buradan doğur. Qaçqın məsələsi xüsusilə kəskin vəziyyət almışdır, 10. 000 nəfərə yaxın qaçqın var, onlar hər cəhətdən son dərəcə yoxsul vəziyyətdədirlər, torpaq sahəsi ilə təmin olunmamışlar. Demək olar ki, tamamilə evsizlik müşahidə olunur. Buna görə də Naxçıvanda, Culfada və digər yerlərdə dağıdılmış binaları bərpa etmək lazımdır. Bir çox xəstəliklər geniş yayılmışdır, onların arasında traxoma, sifilis, dəri xəstəlikləri və malyariya xüsusilə seçilir, belə bir vəziyyətdə həkim yardımı son dərəcə zəifdir və hamam yoxdur.

Yerli hökumətin vəzifələri arasında ən mühümü abadlıqdır, artıq bu sahədə hərtərəfli işə başlanmış və sonrakı işlər: kərpic və əhəng zavodlarının, hamamların, yeni elektrik stansiyalarının, barama toxumu stansiyalarının tikintisi, yolların döşənməsi, körpülərin və səkilərin təmiri üçün smetalar təqdim edilmişdir.

Xalq təhsili məsələsinə keçərkən, həm məktəblərin sayı, müəllim heyəti, həm də məktəb avadanlığı və vəsaiti baxımından tam tənəzzül və çatışmazlıq hökm sürdüyünü qeyd etmək lazımdır. Azərbaycan SSR Xalq Maarif Komissarlığı bir məktəb belə tikməmişdir.

Ayrı-ayrı yerli işçilərin xarakteristikasından danışarkən demək lazımdır ki, Xalq Daxili İşlər Komissarı Babayev zəifdir, dözümsüzdür, qətiyyətli rəhbər olmağa qadir deyil. Axundov qüsursuz vicdanlı adamdır, o yerli kəndlidir, çox tərbiyəlidir, ancaq danışqandır, təmkinli deyil, öz şəxsi haqq- hesablarını çürüdür. 14 yerli komitəsi olan Həmkarlar Bürosu mövcuddur. Muzdurların, demək olar ki, hamısı savadsızdır, məktəbə getsələr də, bunun heç bir nəticəsi yoxdur, partiyaçılar da, xüsusilə də çöl işləri ilə əlaqədar, elə o vəziyyətdədirlər.

**Mərkəzi aparat.** MİK, XKS və onun şöbələri mövcuddur. MİK 48 üzvdən ibarətdir, onların arasından Xalq Komissarları Sovetinin sədri seçilir. MİK-nin Rəyasət Heyəti 5 nəfərdir, MİK-nin sədri həm də XKS-nin sədridir. Bu, Mərkəzin sərəncamı ilə olub. Daha sonra daxili işlər, əkinçilik, səhiyyə, xalq maarifi, ədliyyə üzrə xalq komissarları, xalq əmək komissarlığının müvəkkili gəlir. Aparatlar son dərəcə yığcamdır, qəza miqyasına yaxındır. Naxçıvan, Ordubad və Şərur qəzalarında 12 Dairə İcraiyyə Komitəsi və 86 kənd soveti mövcuddur. Aşağı səviyyəli aparatda ikinci yoxlama aparılmamışdır.

Yaxşı kənd sovetləri ilə yanaşı pisləri də var, bəzi hallarda onlar qaçaqmalçıların yardımçıları kimi çıxış edirlər, sonuncular barədə Sərhəd Mühafizəsi İdarəsində məlumatlar vardır. Partiya üzvləri arasında nə qədər bəy və xan olduğunu deyə bilməyəcəyəm. Görünür ki, var. Məsələn, Sovxozun müdiri Vəzirov Nikolayın pristavı olub. Məlumatlara görə o, siyasi baxımdan heç nəyə dəyməz və rüşvətxordur. Vəzirov kimiləri çoxdur. Yekəbaşlar, qanmazlar da mövcuddur. Məsələn, aqronom pul xərcləyib, bunu əsaslandıran heç bir sənədi olmadığına görə onu tutub həbsxanaya salıblar. Ümumiyyətlə, aşağı aparat zəifdir. Onun başına kimi qoyaq, bilmirik. Sovet aparatının sağlam və təmiz olması naminə aşağı təbəqədən fəhlələri cəlb etmək istəyirik – bu, nadir hadisədir. Şəhər və kənd əhalisinin sayı haqqında danışarkən, deməliyəm ki, bu barədə dəqiq məlumat yoxdur, çünki statistik məlumatlar olmayıb, indi yoxdur. Kobud hesablamalara görə Naxçıvan Diyarında bir versiyaya görə 120.000, digər versiyaya görə isə 140.000 əhali var.

Mədəni işlərin həyata keçirilməsi üçün vəsait, işçi lazımdır. Bir neçə klub mövcuddur, onlar öz məqsədlərinə nə qədər uyğun fəaliyyət göstərirlər, bilmirəm, ancaq ocaqlar var.

Yenə də məsul işçilərin üstünə qayıdaraq, deyim ki, XKS-nin keçmiş sədri Əsəd Axundov bir insan kimi təmiz və

vicdanlı adamdır, maddi xeyir naminə nəyəsə qarışdığına görə ondan şübhələnmək olmaz, onun keçmişi təmizdir, o, yerli kəndlidir. Ancaq rəhbər kimi yaramır, çünki danışqandır, öz şəxsi haqq-hesablarını çürütməyə meyillidir.

Hazırkı xalq torpaq komissarı Mahmudbəyov keçmişdə xırda bəy olub, orta təhsil müəssisəsini və seminariyanı bitirib – müəllimdir. Qeyri-rəsmi məlumatlara görə qolçomaqları müdafiə edir. 1920-ci ildən partiyanın üzvüdür. Sviridovla Vəlibəyov buradakı üsyan zamanı onu sovet hakimiyyətinin tərəfdarı kimi tanıyırlar.

Xalq daxili işlər komissarı – Babayev zəif işçidir, siyasi baxımdan yetişməmişdir, işə rəhbərlik etməyə qadir deyil.

Şahtaxtinskinin qohumlarından biri Xalq Torpaq Komissarlığında çalışır.

Kooperativ aparatı çox zəifdir. Kəndlərdə 16 kooperativ var, hamısı çox zəifdir. Şərur rayonunda bir kooperativ vardı, ancaq onu qarət ediblər, deyilənlərə görə bu, simulyasiyadır. İndi bu iş təhqiq edilir.

Xalq Səhiyyə Komissarlığı üzrə. Ordubadda və bir də burada Naxçıvanda xəstəxana var. Xalq Səhiyyə Komissarlığının başında dayanan Qədimov çox çalışqandır, bu sahədə nə iş görülübsə, hamısı onun enerjisi sayəsində olub. Sonra həkim Morqulis var. Qadın həkim yoxdur.

**Milli məsələ.** Sürtüşmələr müşahidə olunmur. Bazarçaydan və Borisovkadan olan qaçqınlar – molokanlar var, onlar sovet hakimiyyətindən razıdırlar. Onlar 1921-ci ildə Kubana getmişdilər, torpaqları ermənilər arasında bölüşdürülmüşdü. Sonra qayıtdılar, ancaq ermənilər onları yanlarına buraxmadılar. İndi onlar 200 nəfər olmaqla şəhərə yayılıblar. Fəhlə kimi işləyirlər. Onlar Bazarçaya qayıtmaq istədikləri barədə ərizələrinin nəticəsini soruşurlar. Dekretə əsasən biz 1922-ci ilə qədər qayıdan qaçqınlara torpaqlarını qaytarmışıq, 1923 və 1924-cü illərdə qayıdan qaçqınlar torpaqla təmin edilməyib, buna görə də narazıdırlar, onların sayı 10. 000-ə, ermənilərin sayı isə 6000-ə yaxındır.

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
31 mart 1925-ci il tarixli 2 №-li Protokoluna
Ə l a v ə

## Naxçıvan Diyar Partiya Komissarları Sovetinin katibi yoldaş Həşimovun Naxçıvan partiya təşkilatının vəziyyəti haqqında məruzəsinin stenoqrafik yazısı

Mən yoldaş Sultanovun heç bir müddəasına etiraz etmirəm və öz tərəfimdən əlavə edirəm ki, partiya aparatı zəifdir, partiya işçiləri cavan və az hazırlıqlıdırlar, etibarlı işçilər yoxdur. Partiya təşkilatının ümumi sayı 750 nəfərdir, onlardan 200 nəfərə yaxını üzv, qalanları isə namizəddir. Cəmi 59 özək var. Təlimatçılar 3 nəfərdir, onlardan biri Xalq Komissarları Sovetinin hesabına saxlanılır. Qadınlar, demək olar ki, yoxdur. Ümumiyyətlə, kəndlər üzrə iş aparılmayıb. İşçilər təhkim olunub, amma bununla məqsədə nail olunmayıb. Təşkilatın zəifliyinin səbəblərindən biri savadsızlıqdır, savadlılar cəmi 25% təşkil edir. Özəklərin və özək bürolarının katibləri savadsızdırlar. 14 özəyin katibi savadsızdır. Partiya aparatında bütün şöbələr mövcuddur. 1922-ci ilə qədər qadınlar arasında ümumiyyətlə iş aparılmayıb, 1922-ci ildə qadın şöbəsinin başında kişi dayanırdı, 1922-ci ildən 1924-cü ilə qədər o vəzifəyə qadın qoyuldu, ancaq o, savadsız olduğu üçün heç bir fayda gətirmədi. 1924-cü ildən etibarən rayonlarda müəyyən canlanma başlamışdır. Həm yerlərdə, həm də rayonlar üzrə işçilərin yoxluğunu nəzərə alıb, MK-nin vədinə ümid edərək, sovet partiya məktəbi açdıq, lakin sonradan MK vəsait ayırmaqdan imtina etdi və üç ildən sonra biz bu məktəbi bağlamalı olduq. Sonra sovet partiya məktəbini yerli büdcə hesabına yenidən açdıq. Bizim üç təlimatçımız var, nisbətən güclü işçilər Tiflis Universitetindən gələnlərdir, ancaq bu, kifayət deyil, sovet partiya məktəbini rəsmiləşdirmək, komitəni işçilərlə gücləndirmək lazımdır.

Komsomolun sayı 1000 nəfər üzv və namizədə yaxındır. Təşkilat 1921-ci ildən mövcuddur, ştatların son dövrdəki ixtisarı

ilə əlaqədar onların aparatı zəifdir. Savadlılıq baxımından komsomol partiyadan yüksəkdə dayanır, onlar daha enerjilidirlər və onların işi partiyanınkından daha məhsuldardır. Komsomol özəklərinin sayı 60-dır. Qızlar arasında iş aparılır. Qadın özəkləri mövcuddur, qarışıq özəklər də var. Onlar daha yaxşı təşkilatlanıblar.

**Həmkarlar işi.** Həmkarlar 4.700 nəfərdən çox adamı birləşdirir, muzdurlar da oraya daxildir.

Məhkəmə aparatı barədə suala cavab verərkən yoldaş Həşimov deyir: xalq ədliyyə komissarı Qurbanov 1920-ci ildən partiyanın üzvüdür, böyük karyerist, hövsələsizdir, mənim fikrimcə, tutduğu vəzifəyə yaramır. Ancaq hər halda məhkəmə orqanlarına inam var.

**Sovet aparatı haqqında.** Yenidən təşkildən sonra bizdə təxminən 260 kəndə 86 kənd soveti, 12 Dairə İcraiyyə Komitəsi düşür. Əhalinin hakimiyyətə etimadı ümumən yaxşıdır, ancaq ayrı-ayrı şəxslərə yox. Xalq daxili işlər komissarı və xalq torpaq komissarına münasibət yaxşı deyil. Əsədə isə münasibət yaxşı olub və mən belə fikirləşirəm ki, o yaxşı adam olmalıdır, güman edirəm ki, Bakıdan gələn komissiya da bununla razılaşacaqdır.

Partiyaya münasibət yaxşıdır.

**Siyasi vəziyyət.** Banditizm mövcud deyil, gizli təşkilatlar haqqında da hələ ki, heç nə eşidilməyib. Həm iri, həm də rayon miqyaslı işçilər arasında məmnunedici işçilər yoxdur. Aktiv 30-35 nəfərdir. Gəlmələr, demək olar ki, yoxdur. 5-6%-i ermənilər, qalanları isə türkdür.

Vergi haqqında mənə verilən sualla əlaqədar deyim ki, təxminən 70% vergi yığılıb. Vergi məsələsi əhaliyə pis təsir edir, çünki o, müflis vəziyyətdədir. Yoxsullara qolçomaqlardan daha çox vergi qoyulub. Bunun aradan qaldırılması üçün tədbir görürük.

Siyasi Büroya gəlincə isə, onun varlığı əhali tərəfindən hiss edilmir və görülmür.

Dəmiryolu administrasiyasında və onun yol boyu bütün

mühafizəsində türk yoxdur. Bütün tərkib ermənilərdən ibarətdir, onlardan şikayət halları olub. Dəmiryolunda kəndlilər sıxışdırılmır.

**<u>Sərhədlər haqqında.</u>** İranla 190 verst, Türkiyə ilə 10 verst sərhəd mövcuddur. Sərhəd mühafizəsi 1500 nəfərdən ibarətdir.

Partiya haqqında məlumatlara qayıdaraq, deməliyəm ki, burda partiyada yerli bəy, xan, mülkədar yoxdur, kəndlərdə var, ancaq onlar adi kəndlidən heç nə ilə seçilmirlər. Görkəmli bəylər yoxdur, ittifaqlarda isə var.

Kooperativ dükanların sayı 16-dır. Naxittifaq var.

II Nikolay dövründə 12 məktəb vardı, indi onlar məhv edilmişdir. İndi 90-a yaxın məktəb, biri qadın və ikisi kişi olmaqla üç seminariya və savadsızlığın ləğvi üzrə 45 məktəb mövcuddur.

Partiyanın milli tərkibi: 11-15 % ermənilərdən, qalanları isə türklərdən ibarətdir.

Kəndli komitələri təşkilatlanma mərhələsindədir.

Yoldaş Bağırovun Bakı və yerlərlə əlaqə barədə sualına cavab verir: teleqramlar elə həmin gün və yaxud həmin saat alınır. Poçt Bakıdan üç günə gəlir, "Bakinski raboçi" və türkcə "Kommmunist" qəzetləri 4-5, "Pravda" isə 7-8 günə alınır.

Naxçıvan şəhərindən rayonlara göndərilən sərəncamları orada 2-3 günə alırlar. Kəndlərə isə uzaqlıq dərəcəsindən asılı olaraq, 3-15 gündən sonra çatır. Kənddə baş verən hadisələrdən rayon ikinci günü xəbərdar olur.

Yoldaş Bağırov sual verir: kənddə baş verən hadisələrdən Naxçıvanda 4-5 gün sonra xəbər tutduqları hallar olubmu?

Həşimov cavab verir: kənddə baş verən hadisədən 4-5 gün sonra xəbər tutulması halını xatırlamıram. Rayonlarla teleqraf əlaqəsi yoxdur.

Müxtəlif təşkilatların yazıldığı qəzetlərdən savayı, bilavasitə əhali özü 300 qəzetə yazılır. Bununla belə, "Bakinski raboçi" və türkcə "Kommmunist" qəzetləri az yayıma malikdir, burada "Zarya Vostoka" və "Yeni fikir" qəzetləri daha çox yayılmışdır.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**3 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 31 mart 1925-ci il*

İştirak etdilər: yoldaş M.Bağırov, Ə.Qarayev, E.Kvantaliani, S.Qorboçenko, İ.Dövlətov və texniki alt komissiyanın üzvləri Ponomaryov, Milov, Verjibitski, Kərimov, Troxaçov və Beze yoldaşlar

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Yoldaş Ponomaryovun Xalq Torpaq Komissarlığının vəziyyəti haqqında məruzəsi. | 1. Yoldaş Ponomaryova sənayeni, duz təsərrüfatını, Xalq Torpaq və Ədliyyə Komissarlıqlarını ətraflı təhqiq etmək, öyrənmək və bu sahələr üzrə xülasə vermək təklif olunsun. |
| 2. Yoldaş Verjibitskinin yerli təsərrüfatın vəziyyəti haqqında məruzəsi. | 2.Yoldaş Verjibitskiyə həmin sahədə işi davam etdirmək, Naxçıvan SSR-in bütün ərazisi üzrə dağıntıların miqdarı barədə məlumat toplamaq təklif olunsun. |
| 3. Yoldaş Bezenin büdcənin vəziyyəti haqqında məruzəsi. | 3. Yoldaş Beze smeta məbləğlərinin xərclənməsinə və mövcud olan istənilən smetadan kənar gəlir və xərc - lərə xüsusi diqqət yetirsin. |
| 4. Yoldaş Troxaçovun vergi aparatı və kooperasiya haqqında məruzəsi. | 4. Yoldaş Troxaçov kooperasi - yanın və kənd təsərrüfatı kreditinin vəziyyətinə xüsusi diqqət yetirsin. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**4 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 3/4-1925-ci il*

İştirak etdilər: yoldaş M.Bağırov, Ə.Qarayev, E.Kvantaliani, S.Qorboçenko, İ.Dövlətov və texniki alt komissiyaların üzvləri Milov və Kərimov yoldaşlar
Katiblər: Petrunin və Soxatski

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Yoldaş Milovun Naxçıvan SSR Xalq Komissarları Soveti və xalq komissarlıqlarının material-maliyyə hissəsi, Duz İdarəsi və Sərhəd Mühafizə Xidmətinin, siyasi büronun əməkdaşları və dəmiryolu qulluqçularının əhali ilə qarşılıqlı münasibəti haqqında məruzəsi. | 1. Məruzə qənaətbəxş, görülən iş kifayət hesab edilməsin, yoldaş Milova bundan sonrakı işində Komissiyanın göstərişlərini əldə rəhbər tutması təklif olunsun. |
| 2. Yoldaş Kərimovun həmkarlar işi, kəndli komitələri, sosial təminat və Xalq Əmək Komissarlığı haqqında məruzəsi. | 2. Məruzə nəzərə alınsın və yoldaş Kərimova qaçqın məsələsini, kəndli komitələrini, ictimai işləri və Sosial Təminat Şöbəsinin xərclərini detallı şəkildə təhqiq etmək təklif olunsun. |
| 3. Yoldaş Petruninin daxil olan ərizə və şikayətlər haqqında, onların məzmun xarakterinə görə qruplar üzrə təsnifatı ilə birlikdə məruzəsi.<br>/Hesabat bu protokola edilən əlavədədir./ | 3. Məzmun baxımından eynicinsli xahiş və ərizə qruplarının hamısına cavablar hazırlansın və bu cavablar əhaliyə çatdırılmaq üçün türk, erməni və rus dillərində kifayət nüsxədə nəşr edilsin və diyarın bütün ən ucqar məntəqələrinə göndərilsin. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
3/4-25-ci il tarixli 4 №-li Protokoluna
Ə l a v ə

**STENOQRAFİK YAZI**
**Yoldaş Milov: Naxçıvan SSR Xalq Komissarları Soveti və xalq komissarlıqlarının material-maliyyə hissəsi, Duz idarəsi və Sərhəd Mühafizə Xidmətinin, siyasi büronun əməkdaşları və dəmiryolu qulluqçularının əhali ilə qarşılıqlı münasibətləri haqqında**

1. Arxiv odunlarla bir yerə tökülüb qalıb. Qaydaya salınması üçün göstəriş verilib. İnventarlar siyahıya alınmayıb. Yazılı məruzəmdə daha ətraflı məlumat verəcəyəm.

2. Duz idarəsi haqqında. Cinayət var. Məsələn, Duz İdarəsinin yerləşdiyi binanın təmiri ilə bağlı. Təmirə 14.000 rubl xərclənib, ancaq əsaslı deyil, ortabab təmir aparılıb. Smeta şəxsi qaydada tərtib edilib. Təmir qeyri-kafi şəkildə yerinə yetirilsə də, aktla qəbul olunub. Komissiya tərəfindən müəyyən edilib ki, həmin yerdə yeni binanın tikilməsi 16.200 rubla başa gələrdi. 14 000 rublun necə xərclənməsinə dair əsaslandırıcı sənədlər yoxdur. Bu vəsait Dadaşovun direktor olduğu və mühəndis Berdiyevin təmirə rəhbərlik etdiyi dövrdə buraxılıb.

Sonra barıt barədə. Pudu 24 rubla 400 pud barıt əldə edilib. Komissiya sentyabrın 30-da onu partlayış üçün yararlı kimi qəbul edib. Partladıcı fəhlələrin başqa bir komissiyası elə həmin gün barıtın partlayıcı gücünü artırmaq üçün ona ingilis barıtı qarışdırılmasını zəruri hesab sayıb. İki həftədən sonra pirotexniki komissiya barıtı yararsız hesab edib. Hazırda 308 pud belə barıt var. Barıt direktor Dadaşovun vaxtında alınıb. Bu barıt bir gürcü tərəfindən kustar üsulla hazırlanıb. XKS-nin və xalq komissarlıqlarının material-maliyyə hissəsi ilə əlaqədar aşkar edilib ki, İrana buraxılmağa görə adambaşına 10 rubl qızıl pul tutulub. Bu pulları siyasi büro alıb, qəbzləri var və XKS-nə verib. Onların

hara xərcləndiyini yoldaş Beze müəyyən edəcəkdir. 1923-cü ildə materiallar əməkdaşlara cədvəl üzrə paylanıb. İndi anbarda şüşədən başqa heç nə yoxdur.

Komissiya üzvlərinin suallarına cavab verərkən yoldaş Milov deyir: Duz İdarəsinin qulluqçuları arasında pristav var, direktorun özü, görünür, kələkbaz oğlandır, səhv buraxmaz, hər cəhətdən cilalanmış adamdır.

Qəza şəhər və kəndlərində çox yaxşı bağlar var, tikililər isə bəyənilmədi.

Şayiələrə görə xalq daxili işlər komissarı Babayevin hələ 1923-cü ildən Şahtaxtıda varlı ailəsi var. Bu məlumat dəqiq yoxlanılmayıb. Sərhəd mühafizəsinin yerli əhali ilə qarşılıqlı münasibətləri barədə danışarkən, deyə bilərəm ki, belə bir şey müəyyən edilməyib. Münaqişə halları yalnız Ordubadda baş verib, belə bir hadisə olub, sərhədçilər sərxoş halda partiya işçisinin arvadının üstünü axtarıblar. Sərhəd mühafizəsi ilə, onun özəkləri ilə partiya özəkləri arasında heç bir əlaqə yoxdur. Üstündə qaçaqmalı olduğu şübhəsi ilə hamilə qadının saxlandığı hal olub. Dəmiryolu hadisələrində və mühafizə ilə əhalinin qarşılıqlı münasibəti yaxşıdır.

Komissiya üzvləri yoldaş Milovun məruzəsini qeyri-kafi və natamam olduğunu qəbul edərək, ona həvalə edilən sahələr üzrə məruzə üçün geniş material toplamağı təklif etdilər.

**Kərimov:** Həmkarlar işi barədə. Bütün Naxçıvan diyarında həmkarlar özəklərinin bir-biri ilə heç bir əlaqəsi yoxdur, təlimatlandırma çox zəifdir. Mədəni iş tamamilə aparılmır. Heç bir uçot yoxdur: ittifaqlar nə qədər üzvləri olduğunu, işsizlərin sayını bilmir, hətta öz müvəkkillərini belə tanımırlar. İnşaatçılar, meşə və torpaq işçiləri ittifaqı xüsusilə zəifdir, inşaatçılar öz özəklərini tanımırlar. Demək olar ki, bütün ittifaqlar sorğu vərəqəsini necə cavablandırmağı bilmir. Naxçıvan Diyarında cəmi 5000 həmkarlar ittifaqı üzvü var. 13 ittifaqın şöbəsi mövcuddur, Xalq Əmək Komissarlığı müvəkkilliyində olan şöbə yalnız xırda münaqişələri araşdırmaq və müqavilə bağlamaqla məşğuldur.

Fəhlələr irəli çəkilir, amma uğursuz şəkildə. AHİŞ-in

müvəkkili keçmiş teleqrafçı, şayiələrə görə 1919-cu ildə teleqraf xəttini qıran, guya müsavatçı Həmid Mahmudovdur. İndi o partiya üzvüdür və 4 vəzifə tutur: AHİŞ-in müvəkkili olmaqdan savayı, redaksiyaya, uşaq evinə müdirlik edir, həm də Ali Məhkəmənin üzvüdür. Həmkarlar Bürosu İdarəsinə Ordubadda keçmiş müəllim, şayiələrə görə müsavatçı zabit İmam Xəlilov rəhbərlik edir.

Kəndli komitələri yeni təşkilatlanır və onların heç bir vəsaiti yoxdur. Sosial təminat mövcud deyil.

Komissiya məruzəçilərə qaçqın məsələsinə, habelə kəndli komitələri, ictimai işlər və sosial təminatın xərcləri məsələsinə xüsusi diqqət yetirməyi və onları ətraflı öyrənməyi təklif edir.

**Petrunin:** Bu günə qədər verilən ərizələrin sayı 1000-ə yaxındır, buraya yoldaş Rıkovun adına verilənlər də daxildir. Bütün ərizələr məzmunlarının xarakterinə görə aşağıdakı kateqoriyalara bölünür:

1. Kənd təsərrüfatı, paltar, müalicə, himayə, məvacibin artırılması, məktəbə göndərmə və s. kimi məsələlərdə köməklik göstərilməsi barədə müxtəlif xarakterli fərdi xahişlər.

2. Düzgün olmadan alınan əmlakların və yaxud ərizəçilərin qaçqın düşdükləri zaman müxtəlif şəxslər tərəfindən zəbt edilən əmlaklarının – evlərin, bağların, bostanların geri qaytarılması haqqında müraciətlər. Çoxları özlərinin kasıblaşmış və çoxsaylı ailələrinin yeganə dolanışıq mənbəyi olduğuna istinad edərək bu əmlakların geri qaytarılmasını istəyir. Bəzi hallarda yerli hakimiyyət orqanlarından, onların bu məsələlərlə bağlı xahişləri cavabsız qoyduqlarından şikayət edilir. 1923 və 24-cü illərdə əmlakların milliləşdirilməsi halları olmuşdur.

3. Sıxışdırmalar və qeyri-qanuni fəaliyyətlərlə bağlı şikayətlər. Bir halda kənd soveti sədri tərəfindən sıxışdırmadan, ərizəçiyə qarşı düzgün icarə haqqı müəyyən edilmədiyindən, cəmi bir dükanı olduğu halda iki dükan üçün icarə haqqı alındığından, XDİK-nın qadın əməkdaşına 146 rubl əlavə haqqın qəsdən ödənilmədiyindən, sistematik şəkildə məvacibin gec verilməsindən, fəhlə müxbir olmaq şübhəsinə görə işdən azad olunmaqdan və s.-dən şikayət edilir

4. Kollektiv müraciətlər. Onlarda öz əvvəlki kəndlərinə qayıtmağı xahiş edən qaçqınların ağır vəziyyətindən, evlərinin, torpaq sahələrinin digər gəlmələr tərəfindən zəbt olunmasından şikayətçi olan insanlara kənd təsərrüfatı köməyi göstərilməsindən bəhs edilir. Məhsul qıtlığı, heyvanların qırılması, kənd təsərrüfatı vergisini ödəmək üçün heyvanını satmaq məcburiyyətində qalınması, kəndlərin dağılması, kənd təsərrüfatı inventarlarının yoxluğu, su məsələsində yaranmış ağır vəziyyət, məktəblərin, kitabxanaların, qiraət komalarının yoxluğu, qəzetlərin, tibbi və baytar yardımının yoxluğu və s. barədə şikayətlər bu sahələrdə kömək göstərilməsi xahişi ilə yekunlaşır.

5. Həbs olunanların və məhbusların azad edilməsi haqqında müraciətlər. Bu xahişlər, əsasən məhkumların ailəni dolandıran və ailədə yeganə işləyə bilən adam olması ilə əsaslandırılır, onların azad edilməsi xahiş olunur və bəzi hallarda günahsız mühakimə olunmaqdan şikayət edilir.

6. Vergi haqqında. Şəhər və gəlir vergilərinin ağırlığından şikayət olunur. Son dərəcə ağır dağıntılara məruz qaldığı halda Naxçıvan şəhərinin, qoyulan vergi məbləğinin həcmi məsələsində heç bir dağıntıya və fəlakətə məruz qalmayan şəhərlərə bərabər tutulmasının ədalətsiz olduğu göstərilir. Kustar sənətkarların, papaqçıların, çəkməçilərin, dərzilərin, dəmirçilərin və s., onlardan tutulan vergilərin əmək haqlarından çox olması və bunun onların öz işlərinin davam etdirməyə imkan vermədiyini göstərən ərizələri diqqəti daha çox cəlb edir.

7. Partiyaya qəbul, komsomoldan partiyaya keçmə, yerli əhalinin İranda qalan əmlakını (heyvanlarını) gətirmək üçün oraya buraxılma, həmkarlar ittifaqına üzvlüyə qəbul, türk qadınlarının öz iradələrinin əksinə olaraq valideynləri tərəfindən ərə verildikləri insanlardan boşanmaq barədə xalq məhkəməsinin qərarlarını heçə sayan mollaların təsiri ilə bağlı şikayəti, oxumaq, digər kurslara və müxtəlif şəhərlərdəki məktəblərə köçürülmək, elmi işi başa vurmaq imkanının verilməsi ilə əlaqədar müxtəlif xarakterli ərizələr.

Və nəhayət başqa bir qrup.

8. Bu ərizələr partiya-siyasi xarakterlidir: fərdi və ya bütöv cəmiyyət şəklində partiyaya qəbul, partiya rütbəsinin bərpası, partiyanın, onun üzvü olan ayrı-ayrı antikommunist ünsürlər tərəfindən nüfuzdan salınması, sovet aparatında bəylərin, xanların, ağaların, müsavatçıların olması, torpaq bölgüsü, su buraxılması, mənzil böhranı zəminində milli sürtüşmələr və s. haqqındadır.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının

**5 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 4 aprel 1925-ci il*

İştirak etdilər: yoldaş M.Bağırov, Ə.Qarayev, E.Kvantaliani, S.Qorboçenko, İ.Dövlətov və texniki alt komissiyanın üzvü yoldaş Petrosyan.

| Dinlənildi | Qərara alındı |
|---|---|
| Naxçıvan SSR-də partiya təşkilatının vəziyyəti haqqında. (Yoldaş Petrosyanın məruzəsi) | Yoldaş Petrosyana aşağıdakıları aydınlaşdırmaq təklif olunsun:<br><br>1. Partiyaçılardan məhz kimə pullu toy təşkil edilib.<br>2. Milli azlıqların təqib olunmasının başlıca təşəbbüskarı kimdir?<br>3. Yoldaş PETROSYANA bütün ərizələr arasından ermənilər tərəfindən həm kollektiv, həm də fərdi şəkildə verilən ərizələri seçmək və yalnız onları öyrəndikdən sonra öz məruzəsini hazırlamaq təklif olunsun. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**6 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 4 aprel 1925-ci il*

İştirak etdilər: yoldaş M.Bağırov, Ə.Qarayev, E.Kvantaliani, S.Qorboçenko, İ.Dövlətov

D i n l ə n i l d i:

**1. F. MAHMUDBƏYOV HAQQINDA**

Naxçıvan Diyarının xalq torpaq komissarı. 1920-ci ildən partiyanın üzvü, Vedibasarda doğulmuşdur. Müsavat hökuməti dövründə Vedibasarda qubernator olarkən özbaşına bir kəndlini güllələmişdir. 1920-ci ildə qırmızılar gələndə partiyaya daxil olmuş, öz mənşəyini gizlətmişdir.

1920–21-ci illərdə vəzifə cinayətinə görə işdən azad edilmişdir.

1924-cü ildə AKP Mərkəzi Nəzarət Komissiyasında ittiham olunmuşdur. Yoxsul kəndlilər hamılıqla onun əməllərinə qarşı üsyan edir. Qolçomaqları himayə edir, yoxsullarla kobud davranır.

Q ə r a r a  a l ı n d ı:

F. Mahmudbəyov öz mənşəyini gizlədən qubernator və mülkədar olduğuna və bir sıra cinayətlərinə görə partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**2. QAFAR BABAYEV HAQQINDA**

Naxçıvan Respublikasının xalq daxili işlər komissarı. 1897-ci ildə doğulub. 21-ci il fevralın 1-dən partiyanın üzvüdür. Özünün dəri zavodu, ev anbarı və s. olan məşhur Ordubad zənginінin oğludur. Keçmiş müsavat zabitidir. 1920-ci ildə əksinqilabda iştirak şübhəsi ilə xüsusi şöbə tərəfindən həbs edilmişdir. Respublika hərbi komissarı olarkən adı rüşvətxorluqda hallanıb. Bu yaxınlarda 11 000 rubl dövlət pulunu "itirib" (bu isə çox şübhəlidir). Xalq daxili işlər komissarı ikən qohumbazlıqla, Əli Səlimov kimi şübhəli şəxsləri dəstəkləməklə məşğul olub,

Nehrəm kəndində ümumi yığıncaqda kəndliləri tapança ilə təhdid edib. Onun barəsində həm yoldaş Rıkova, həm də komissiyaya saysız-hesabsız şikayət daxil olub.

Q ə r a r a  a l ı n d ı:

Partiya sıralarına soxulan və qohumbazlıq, vəzifədən sui-istifadə ilə məşğul olan yad və cinayətkar ünsür kimi partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**3. MAHMUD ŞİRƏLİZADƏ HAQQINDA**

1886-cı ildə anadan olub, 1920-ci ilin iyulundan partiyanın üzvüdür, ziyalıdır. İrəvan polis idarəsinin keçmiş qulluqçusudur. Şübhəli şəxsdir, keçmiş bəydir. Uşaqbazlıqla məşğul olub. Bir sıra şahid ifadələri var ki, xalq maarif komissarı olarkən qız seminariyasının 14 yaşlı şagirdi ilə evlənmək niyyətinə düşüb, bu məqsədlə seminariyanın müəlliməsini yanına çağırıb.

Q ə r a r a  a l ı n d ı:

Partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**4. HƏMİD MAHMUDOV HAQQINDA**

1898-ci ildə anadan olub. Ziyalıdır. 1921-ci il fevralın 1-dən partiyanın üzvüdür. Hazırda Həmkarlar Bürosu İdarəsinin sədridir. Keçmişdə müsavat partiyasının fəal üzvü, Naxçıvanda Kalbalı xanın katibi olub. Uşaqbazlıqla məşğul olur. Həmkarlar Bürosu İdarəsinin başında dayanaraq fəhlələrlə kobud rəftar edir. Şübhəli şəxslərlə əlaqə saxlayır. Öz anketində müsavat partiyasında və Kalbalı xanın yanında işlədiyini gizlədib.

Q ə r a r a  a l ı n d ı:

Yad ünsür kimi partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**5. ƏLƏKBƏR QURBANOV HAQQINDA**

1895-ci ildə anadan olub. Anketində özünü fəhlə kimi göstərir, əslində isə keçmiş qorodovoydur. 1920-ci il mayın 6-dan partiyanın üzvüdür. Polisdə işlədiyini gizlədir. 9-cu sahənin keçmiş pristavı Firidun bəy Qurbanın ifadəsinə görə onun

yanında qorodovoy işləyib. Qurbanov xalq ədliyyə komissarı olarkən oğlan uşağını zorlayıb və vəzifədən sui-istifadə edib. Kommunal Təsərrüfat İdarəsinin Torpaq şöbəsindən 4 desyatin şəhər torpağı alıb, orada özgə əməyindən istifadə edib.

Q ə r a r a a l ı n d ı:

Törətdiyi cinayətlərə görə partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**6. HACI DADAŞOV HAQQINDA**

1897-ci ildə anadan olub. Məşhur Ordubad zənginin in oğludur. Ziyalıdır. Öz mövqeyindən istifadə edərək milliləşdirmə zamanı Ordubadda ən yaxşı və ən böyük mülkünü əlində saxlamışdır. İki böyük bağı var (bütün bunları öz atasının adı altında gizlədib). Qohumbazlıqla məşğul olur, qolçomaqları dəstəkləyir.

Q ə r a r a a l ı n d ı:

Öz xidməti vəzifəsindən istifadə edərək kommunist partiyasına daxil olan və onu nüfuzdan salan yad ünsür kimi kommunist partiyasından xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**7. HƏSƏNQULU QAZIYEV HAQQINDA**

1896-cı ildə anadan olub. Meşşan oğludur. Qulluqçudur. Uşaqbazlıqda ittiham olunur. Xalq komissarı olarkən Qazıyev hamamda bir oğlan uşağını özü ilə hamama apararaq, onu zorlayıb. Rüşvətxorluqda və dövlət pulunu mənimsəməkdə ittiham olunur.

Q ə r a r a a l ı n d ı:

Cinayətkar ünsür kimi partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**8. FƏRZƏLİ BAĞIROV HAQQINDA**

1896-cı ildə anadan olub. Kəndli oğludur. 1917-ci ilə qədər dairə məhkəməsinin dəftərxanasında işləyib. Bir sıra vəzifə cinayətlərində və rüşvətxorluqda ittiham olunur.

Q ə r a r a a l ı n d ı:

Cinayətkar, yad ünsür kimi partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**9. MƏŞƏDİ ABDULLA QASIMOV HAQQINDA**

1891-ci ildə anadan olub. Meşşandır. 1920-ci il iyulun 20-dən partiyanın üzvüdür. Rüşvətxorluqda, dövlət pulunu mənimsəməkdə, torpaq məsələsinin həllində qolçomaqların xeyrinə vəzifə səlahiyyətlərini aşmaqda, qohumbazlıqda ittiham olunur. Onun barəsində yoldaş Rıkova və Komissiyaya verilən hədsiz sayda həm yazılı, həm də şifahi material mövcuddur.

Q ə r a r a a l ı n d ı:

Cinayətkar, yad ünsür kimi partiyadan xaric edilsin və məhkəməyə verilsin.

D i n l ə n i l d i:

**10. MOLLA VAHAB HƏSƏNZADƏ HAQQINDA**

1890-cı ildə anadan olub. Mənşə etibarı ilə, özü yazdığına görə, müəllimdir, ancaq əslində keçmiş molladır. Bunu Ordubad və Naxçıvan sakinləri təsdiq edir. Öz mənşəyini gizlətdiyinə və öz vəzifəsinə səhlənkar yanaşdığına görə onun haqqında çoxlu ərizə verilib.

Q ə r a r a a l ı n d ı:

Xalq maarif komissarı vəzifəsindən azad edilsin və Bakıya MK-nin sərəncamına göndərilsin.

D i n l ə n i l d i:

**11. MİRƏLİ SEYİDOV HAQQINDA**

1897-ci ildə anadan olub. Keçmiş uryadnikdir. 1920-ci ildən partiyanın üzvüdür. Dövlət pulunu mənimsəmiş, iki yerdən maaş almışdır. Kəndliləri döymüş, yoxsullara qarşı münasibətdə özünü ağa kimi aparmışdır. Qolçomaqları himayə etmiş, ən yaxşı torpaq sahələrini onlara vermişdir.

Q ə r a r a a l ı n d ı:

Yad və kommunist partiyasına soxulan ünsür kimi partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**12. MAZARİN KƏNGƏRLİNSKİ HAQQINDA**

Zadəgan ailəsindən çıxıb. 1891-ci ildə anadan olub. 1920-ci il iyulun 20-dən partiyanın üzvüdür. Keçmişdə İrəvanda polis məmuru olub. Çox şübhəli şəxsdir. Onun köməyi ilə Kəngərlinski ailəsindən 20 nəfər sovet müəssisələrində işə düzəlib. Qolçomaqları himayə edir.

Q ə r a r a a l ı n d ı:

Yad ünsür kimi partiyadan xaric edilsin və həbs olunsun.

D i n l ə n i l d i:

**13. HƏSƏNAĞA SƏFİYEV HAQQINDA**

Naxçıvanın mühüm işlər üzrə xalq müstəntiqi. İri bəydir. Mülkədardır. Müsavat hökuməti dövründə Şərur qəzasında qəza rəisi olub.

Q ə r a r a a l ı n d ı:

İşdən azad edilsin və etap qaydasında sürgün olunsun.

D i n l ə n i l d i:

**14. ŞİRZAD ƏLİVEV HAQQINDA**

Kommunal Təsərrüfat İdarəsinin müdiri. Keçmiş jandarmdır. Keçmişdə Müsavat partiyasının üzvü olub. Sui-istifadə və rüşvətxorluğa görə həbs olunub. İri bəy, xan, əksinqilabçı və şübhəli şəxslərin ətrafında dolaşır, onlarla əlaqəsi var. Etibarsızdır.

Q ə r a r a a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**15. M. MÜNŞİYEV HAQQINDA**

Naxçıvan SSR-in xalq maarif komissarının müavini. Keçmişdə Abbasqulu bəy dəstəsində zabit olub. 1920 – 21-ci illərdə bir sıra sui-istifadələrə görə Şərurda inqilab komitəsi sədrinin müavini vəzifəsindən azad edilib.

Q ə r a r a a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**16. ƏBDÜLƏZİM BƏY KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 57 yaşındadır. Hazırda Naxçıvan Respublikasında Xalq Maliyyə Komissarlığı Müvəkkilliyi idarəsinin böyük katibidir. 1917-ci ilə qədər 6 il müəllim, kənd təsərrüfatı üzrə qeydiyyatçı, kargüzar və il yarım katib işləmişdir. İri zadəgandır. Müsavat hökuməti dövründə Milli Şuranın üzvü olub. Qırmızıların hücumu zamanı İrana qaçıb. 1917-ci ildən 1920-ci ilə qədər müsavatçı general-qubernatorun dəftərxanasında texniki katib kimi çalışıb.

Q ə r a r a a l ı n d ı:

İşdən azad olunsun və sovet və təsərrüfat müəssisəsində hər hansı bir vəzifə tutmaq hüququndan məhrum edilsin.

D i n l ə n i l d i:

**17. MÜZƏFFƏR AĞA KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 44 yaşı var. Hazırda Tumbul rayon icraiyyə komitəsində hesabdardır. Fevral inqilabına qədər Ordubadda 7 il uryadnik kimi xidmət edib. İri mülkədardır. Müsavat hökuməti dövründə Makulu Sərdarın batalyon komandiri olub. Onunla sıx əlaqə saxlayaraq, ona silah göndərib. 1920-ci ildən sonra sovet müəssisələrində işləyib: Xalq Maarif Komissarlığında ərzaq vergisi anbarının müdiri olub. Vəzifədən sui-istifadəyə görə Naxçıvan dairə məhkəməsi tərəfindən 5 il həbs cəzasına məhkum edilib.

Q ə r a r a a l ı n d ı:

Həbs edilsin və Naxçıvan Diyarı hüdudlarından kənara sürgün olunsun.

D i n l ə n i l d i:

**18. BƏYLƏR AĞA KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 45-ə yaxın yaşı var. İkinci Nikolay vaxtında Naxçıvan şəhər dumasının üzvü, şəhər başçısı olub. Müsavat hökuməti dövründə Naxçıvan şəhər dumasının maliyyə şöbəsinə rəhbərlik edib. İri mülkədardır. Hazırda dairə məhkəməsinin üzvüdür.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və Naxçıvan Diyarı hüdudlarından kənara sürgün olunsun.

D i n l ə n i l d i:

**19. Məmməd AĞA KƏNGƏRLİNSKİ HAQQINDA**

İkinci Nikolay və Müsavat hökuməti dövründə jandarm olub. Hazırda aksiz idarəsində nəzarətçi işləyir. İri mülkədardır.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**20. QASIM AĞA KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 35 yaşı var. İkinci Nikolay dövründə uryadnik, Müsavat hökuməti zamanında pristav olub. İri mülkədardır. Hazırda Kommunal Təsərrüfat İdarəsinin Torpaq şöbəsinin müdiridir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**21. HƏMİD AĞA KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 28 yaşı var. 1917-ci ildən 1920-ci ilə qədər şəhər özünüidarəsində xidmət edib. 1924-cü ildə Culfa gömrüyündə vəzifəsindən sui-istifadəyə görə Naxçıvan dairə məhkəməsi tərəfindən şərti cəzaya məhkum olunub. Mülkədardır. Hazırda Xalq Maarif Komissarlığında mühasibdir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**22. FƏRƏC AĞA KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 37 yaşı var. Keçmişdə iri mülkədar olub. Fevral inqilabına qədər uryadnik işləyib. Müsavat hökumətində ingilis casusu olub və Kərbəlayi Əli xan Naxçıvanlının partizan dəstəsində qərargah rəisi kimi xidmət edib. Qırmızıların hücumu zamanı İrana qaçıb. Hazırda Naxçıvan rayonu xalq məhkəməsində katibdir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**23. İBRAHİM AĞA PAŞA KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 25 yaşı var. İkinci Nikolay hökuməti dövründə prokuror olub. İri mülkədardır. Qırmızıların hücumu zamanı Kərbəlayi xanla qaçıb. Hazırda heç yerdə xidmət etmir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**24. SULTAN AĞA KƏNGƏRLİNSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. İri mülkədardır. Hazırda kənd təsərrüfatı bankının təlimatçısıdır.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**25. HAŞIM AĞA HACILAROV HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. İkinci Nikolay dövründə Vedibasar rayonunda pristav olub. Hazırda həmkarlarda muzdurlar ittifaqı şöbəsinin məsul katibidir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**26. ABBASQULU TAHİROV HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 44 yaşı var. Fevral inqilabına qədər Naxçıvan qəzasının birinci sahəsində 6 il polis pristavı kimi xidmət edib. Fevral inqilabından sonra Naxçıvan qəzasının komissarı seçilib və 6 ay bu vəzifədə çalışıb. Oktyabr inqilabından sonra Ordubad şəhərində inqilab komitəsinin sədri və Ordubad qəzasının qəza komissarı seçilib. Sonra XKS Kollegiyasının üzvü təyin olunub, bundan sonra isə bir neçə müəssisədə xidmət edib. 1922-ci ildən bu vaxta qədər Naxçıvan Xüsusi İdarəsində işlər müdiri vəzifəsində işləyir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**27. FƏRZƏLİ SƏFİYEV HAQQINDA**

Şərur sakinidir. 40 yaşı var. İri mülkədardır. Müsavat hökuməti dövründə Şərurda pristav olub. Hazırda aksiz idarəsinin müdiri işləyir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**28. YUNUS NAXÇIVANSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 38 yaşı var. Fevral inqilabına qədər dörd il yarım mirab (su paylayıcısı) və üç ay daxili polis məmuru kimi xidmət edib.

Sonra tutduğu vəzifəyə uyğun olmadığına işdən çıxarılıb. Fevral inqilabından sonra sahə komissarı seçilib, türklər gələndə vəzifəsindən azad edilib. Oktyabr inqilabından sonra müxtəlif sovet müəssisələrində kargüzar, şəhər milisinin rəisi və s. vəzifələrdə xidmət edib. Hazırda Naxçıvan SSR Xalq Maliyyə Komissarlığı İdarəsi nəzdində Dövlət Vergisi İdarəsinin nəzarətçisidir. Oktyabr inqilabına qədər bir xan kimi öz malikanəsində başqalarının əməyini istismar edib.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**29. MURAD XAN NAXÇIVANSKİ HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. İkinci Nikolay dövründə Nijqorod polkunda məşhur süvari polkovnik-leytenantı olub. Müsavat hökuməti zamanı süvari dəstənin atlı əsgəri kimi xidmət edib. Hazırda şəhər milisinin rəisidir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**30. MÖVSÜMƏLİ BƏY BƏNƏNYARSKİ HAQQINDA**

Naxçıvan qəzasının Bənənyar kəndinin vətəndaşıdır. İri mülkədardır. Keçmişdə KƏRBƏLAYİ XANIN dəstə komandiri olub. Müsavat hökuməti dövründə şəhər dumasında məsul vəzifədə çalışıb. Hazırda Naxçıvanda kənd təsərrüfatı bankının sədridir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**31. ƏMİR ƏLİ BƏNƏNYARSKİ HAQQINDA**

Naxçıvan qəzasının Bənənyar kəndinin vətəndaşıdır. 40 yaşı var. Keçmişdə Kərbəlayi xanın dəstə komandiri olub. İri mülkədardır. Hazırda kənddə qolçomaqdır.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**32. QƏNBƏRƏLİ BƏNƏNYARSKİ HAQQINDA**

Naxçıvan qəzasının Bənənyar kəndinin vətəndaşıdır. Hüquqşünas, vəkildir. Keçmişdə mülkədar və Müsavat partiyasının üzvü olub. Hazırda hüquq müdafiəçiləri cəmiyyətinin üzvüdür.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**33. MEYBALI BƏNƏNYARSKİ HAQQINDA**

Bənənyar kəndinin vətəndaşıdır. İri mülkədardır. Keçmişdə Kərbəlayi xanın dəstə rəisi olub. Dəmir yolu stansiyalarının talançısı və milli toqquşmaların təşəbbüskarı olub. Hazırda möhtəkirlik edir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**34. HEYDƏR AĞA BƏNƏNYARSKİ HAQQINDA**

Bənənyar kəndinin vətəndaşıdır. 40-a yaxın yaşı var. Sabiq qəza rəisidir. Kərbəlayi xanın dəstə komandiri olub. İri mülkədardır.

Hazırda Dövlət Pambıq İdarəsində müvəkkil vəzifəsində işləyir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**35. TEYMUR SOFİYEV HAQQINDA**

Şərur qəzasının Baş Noraşen kəndinin vətəndaşıdır, 58 yaşı var. 1917-ci ilə qədər Şərur qəzası polis idarəsinin katibi işləyib. İri mülkədar kimi muzdur əməyindən istifadə, kəndliləri istismar edib. 1917-ci ildən 1921-ci ilə qədər qaçqınlıqda olub. 1921-ci ildən indiyədək sovet müəssisələrində texniki əməkdaş kimi xidmət edir. Hazırda Şərur İcraiyyə Komitəsinin katibidir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**36. CABBAR AĞA KƏLƏNTƏROV HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. Ədliyyə idarəsinin sabiq məmurudur. Naxçıvanda Müsavat partiyasının məsul katibi olub. Hazırda Xalq Əmək Komissarlığının məsul katibidir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**37. RƏHİM BƏY KAZIMBƏYOV HAQQINDA**

Şərur sakinidir. 35 yaşındadır. Keçmiş iri mülkədardır. Qırmızıların gəlişi zamanı türklərlə Türkiyəyə qaçıb. Hazırda aksiz idarəsində işləyir.

Q ə r a r a  a l ı n d ı:

Sürgün olunsun.

D i n l ə n i l d i:

**38. MİRZƏ ABBAS RAMAZANOV HAQQINDA**

Ordubad şəhərinin vətəndaşıdır. 56 yaşı var. 1917-ci ilə qədər möhtəkirliklə məşğul olub. 17-ci ildən 20-ci ilə kimi heç bir işlə məşğul olmayıb. 1920-ci ildən indiyə kimi qəza icraiyyə komitəsində xidmət edir. Hazırda Ordubad İcraiyyə Komitəsinin katibidir.

Q ə r a r a  a l ı n d ı:

Sovet hakimiyyətinə yad ünsür kimi işdən çıxarılsın.

D i n l ə n i l d i:

**39. RƏŞİD MAKİNSKİ HAQQINDA**

İrəvan şəhərinin vətəndaşıdır. 54 yaşı var. Fevral inqilabına qədər Sürməli qəza rəisinin köməkçisi olub. 1917-ci ildən 1923-cü ilə qədər qaçqın kimi İranda olub. 1923-cü ildən bu günə kimi sovet müəssisələrində xidmət edir. Hazırda Naxçıvan SSR Xalq Maliyyə Komissarlığı Müvəkkilliyinin dövlət gəliri şöbəsinin müdiridir.

Q ə r a r a  a l ı n d ı:

İşdən çıxarılsın və sovet müəssisələrində hər hansı bir vəzifə tutmaq hüququndan məhrum edilsin.

D i n l ə n i l d i:

**40. ƏLİ SƏLİMOV HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 26 yaşındadır. Fevral inqilabına qədər təhsil alıb. Fevral inqilabından sonra Naxçıvan qəzası şəhər özünüidarəsində mirzə işləyib. Vətəndaş müharibəsi dövründə əsgər kimi Kərbəlayı xanın partizan dəstəsinə səfərbərliyə alınıb və sonra savadlı olduğu üçün Kərbəlayı xanın adyutantı təyin edilib. 1920-ci ildən müxtəlif sovet müəssisələrində xidmət edir, seçkili həmkarlar təşkilatlarında məsul və qeyri-məsul vəzifələrdə olub. Hazırda Naxçıvan SSR XDİK-nın ictimai təşkilat şöbəsinin müdiridir.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**41. BALABƏY ƏLİBƏYOV HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 70 yaşı var. 1917-ci ilə qədər 9 il Qars polis idarəsində tərcüməçi kimi xidmət edib, 8 il Qarsda polis zabiti olub. 1911-ci ildə istefaya çıxıb. 1917-ci ilə qədər pensiya alıb. 1917-ci ildən 1920-ci ilə qədər Urmiyada (İranda) polismeyster olub. 1920-ci ildən indiyə kimi sovet müəssisələrində xidmət edir. Hazırda Xalq Maliyyə Komissarlığının maliyyə agentidir.

Q ə r a r a  a l ı n d ı:

İşdən çıxarılsın.

D i n l ə n i l d i:

**42. ZİRİN QANSOVİÇ FRİTS HAQQINDA**

Baltikyanı diyarın vətəndaşıdır. 37 yaşı var. Atası kəndlidir (kənd müəllimidir). Oktyabr inqilabına qədər 8-ci atıcı polkun kəşfiyyat komandasının rəisi olub. 1917-ci ildən 1921-ci ilə qədər Qırmızı Orduda: 6-cı Moskva diviziyası təchizatının siyasi işçisi, Şərq cəbhəsinin 8-ci ordu təchizatının siyasi komissarı, 28-ci diviziyanın təchizat rəisi, nizami hərbi hissə komandiri vəzifələrini daşımışdır. 1932-ci[1] ildə ordudan tərxis olunduqdan sonra Cəbrayıl qəzasında qəza aqronomu vəzifəsini tutmuşdur. 1922-ci ildən indiyə kimi Naxçıvan SSR xalq torpaq komissarının müavinidir. Bu vəzifədə böyük sui-istifadəyə yol vermişdir, hazırda bu iş prokuror nəzarətinin icrasındadır.

Q ə r a r a  a l ı n d ı:

Həbs edilsin və prokurorluğa göndərilsin.

D i n l ə n i l d i:

**43. AZRİK HAQVERDİYEV HAQQINDA**

Naxçıvan qəzasının Təzəkənd kəndinin sakinidir. 30 yaşı var. 17-ci ilə qədər Türküstan polkunda katib kimi xidmət edib. Sonra şəhərlər ittifaqında və Təbriz dəmir yolunda mühasib işləyib. 17-ci ildən 20-ci ilə qədər erməni dəmir yollarında mühasib olub. 1920-ci ildən indiyə kimi Azərbaycan SSR-in sovet müəssisələrində çalışır. Sovet müəssisələrində işlədiyi zaman adı sabotajda hallanıb. Hazırda Xalq Torpaq Komissarlığının mühasibidir.

Q ə r a r a  a l ı n d ı:

Administrasiyanın mülahizəsinə buraxılsın.

**44. CABBAR VƏZİROV HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 36 yaşı var. 17-ci ilə qədər Naxçıvan şəhərində polis məmuru və polis pristavı olub. 1917–20-ci illərdə o dövrkü yerli hakimiyyətdə müxtəlif inzibati vəzifələrdə çalışıb. 20-ci ildən indiyə kimi sovet müəssisələrində

1. *Orijinalda belədir. Yəqin ki, söhbət 1921-ci ildən gedir (Redaktorun qeydi).*

işləyir. Hazırda yoldaş Bünyadzadə adına sovxozun müdiridir.

Q ə r a r a a l ı n d ı:

Həbs edilsin və sürgün olunsun.

D i n l ə n i l d i:

**45. SUMBAT İSAYEVİÇ BAXŞIYEV HAQQINDA**

Naxçıvan qəzasının Təzəkənd kəndinin vətəndaşıdır. 17-ci ilə qədər birinci erməni batalyonunda katib kimi xidmət edib. 17–18-ci illərdə Qazançı kəndində yaşayıb. 1918-ci ildən 1920-ci ilə qədər Zəngəzur qəzasının müxtəlif rayonlarında qaçqın olub. 1922-ci ildən indiyə kimi Naxçıvan Diyarının sovet müəssisələrində xidmət edir. Hazırda Ermənistan Ticarət İdarəsinin Naxçıvan şöbəsində hesabdar işləyir. Adı sabotajda hallanıb.

Q ə r a r a a l ı n d ı:

Ermənistan Ticarət İdarəsi administrasiyasının mülahizəsinə buraxılsın.

D i n l ə n i l d i:

**46. İSMAYIL ƏHMƏD SULTANOV HAQQINDA**

Naxçıvan şəhərinin vətəndaşıdır. 36 yaşı var. 1917-ci ilə qədər Rusiyanın Makudakı konsulluğunun agenti olub. Bundan əvvəl müxtəlif dövlət idarələrində çalışıb və Kutaisidə məhəllə nəzarətçisi olub. 1917-ci ildən – 1920-ci ilədək Astarada sovet sərhəd agenti kimi xidmət edib. 1920-ci ildən indiyə kimi müxtəlif sovet müəssisələrində işləyib. Hazırda Naxçıvan Statistika İdarəsində birinci dərəcəli statistikdir.

Q ə r a r a a l ı n d ı:

İşdən çıxarılsın.

D i n l ə n i l d i:

**47. KƏRİMBƏYOV HAQQINDA**

Salyan sakinidir. 33 yaşı var. Əvvəllər şəxsi su çıxardan stansiyası olub. Sovet hakimiyyəti dövründə su stansiyası milliləşdirildikdən sonra və inqilabın əvvəllərində sovet müəssisələrində xidmət edib. NEP zamanı öz əsas işinə möhtəkirliyə qayıdıb. Sonuncu ildə iflasa uğrayıb, yenidən işləməyə başlayıb. Hazırda Noraşen rayonunda pambıq zavoduna rəhbərlik edir.

Buraya gəldiyi ilk gündən eyş-işrət məclisləri qurur, bu məclislərdə özünü nə sovet, nə də təsərrüfat işçisi kimi deyil, sovet hakimiyyəti ilə heç bir əlaqəsi olmayan əsl möhtəkir kimi göstərmişdir.

Q ə r a r a  a l ı n d ı:

İşdən çıxarılsın və hər hansı bir vəzifə tutmaq hüququndan məhrum edilsin.

D i n l ə n i l d i:

**48. HACI BAĞIROV HAQQINDA**

Noraşen rayonundakı pambıq zavodunda qəbuledicidir. Keçmişdə polis olub, kəndlilərlə kobud rəftar edir. Antisovet tipdir.

Q ə r a r a  a l ı n d ı:

İşdən çıxarılsın və Naxçıvan Diyarında hər hansı bir vəzifə tutmaq hüququndan məhrum edilsin.

D i n l ə n i l d i:

**49. QASIMBƏYOV HAQQINDA**

Yaycı rayon icraiyyə komitəsinin sədridir. Heç bir nüfuzu yoxdur. Yerli şəraitlə tanış deyil. Kəndlilərlə kobud davranır, qolçomaqları himayə edir.

Q ə r a r a  a l ı n d ı:

İşdən çıxarılsın.

D i n l ə n i l d i:

**50. SƏMƏDOV HAQQINDA**

Naxçıvan pambıqtəmizləmə zavodunun müdiridir. Salyan sakinidir. Naxçıvanda şəxsi su çıxardan stansiyası vardı. Bütün vaxtlar möhtəkirliklə məşğul olub, antisovet tipdir. Onunla fəhlələr arasında həmişə anlaşılmazlıqlar baş verir, kollektiv müqavilələri yerinə yetirmir, bununla da fəhlələri qıcıqlandırır.

Q ə r a r a  a l ı n d ı:

Naxçıvan Diyarında işdən çıxarılsın və möhtəkir tip kimi Sovet Azərbaycanında hər hansı bir vəzifə tutmaq hüququndan məhrum edilsin.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**7 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 5 aprel 1925-ci il*

İştirak etdilər: Ə.Qarayev, M.Bağırov,
E.Kvantaliani, S.Qorboçenko və İ. Dövlətov

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Xüsusi Komissiyanın cari ilin 4 aprel tarixli 6 №-li qərarına əsasən həbs olunanların Bakıdan göndəriləcək işçilər gələnə qədər müvəqqəti əvəz olunmaları haqqında | §1. Həbs olunan xalq daxili işlər komissarı Babayev daimi olaraq xalq daxili işlər komissarı kimi yoldaş Səmədzadə ilə əvəz edilsin.<br>§ 2. Həbs olunan xalq torpaq komissarı F. Mahmudbəyov müvəqqəti olaraq yoldaş Məmmədovla əvəz edilsin.<br>§3. Həbs olunan Həmkarlar Bürosunun sədri Mahmudov müvəqqəti olaraq yoldaş Kərimovla əvəz edilsin.<br>§4. Həbs olunan Xalq Maliyyə Komissarlığı müvəkkili Dadaşov müvəqqəti olaraq texniki alt komissiyanın üzvü yoldaş Beze ilə əvəz edilsin.<br>§5. Həbs olunan xalq ədliyyə komissarı Qurbanov müvəqqəti olaraq yoldaş Tahirovla əvəz edilsin.<br>§6. Həbs olunan “Naxittifaq” sədri Kəngərlinski müvəqqəti olaraq yoldaş Ponomaryovla əvəz edilsin. |

| Dinlənildi | Qərara alındı |
|---|---|
| | §7. Həbs olunan Dairə Məhkəməsinin sədri Mirəlizadə müvəqqəti olaraq yoldaş Cahangirovla əvəz edilsin.<br>§8. Həbs olunan Şərur Qəza İcraiyyə Komitəsinin sədri Qasımov müvəqqəti olaraq yoldaş Piriverdiyevlə əvəz edilsin.<br>§9. Həbs olunan Kənd Təsərrüfatı Bankının sədri Bənənyarski müvəqqəti olaraq Troxaçovla əvəz edilsin. |
| 2. Həbslərin həyata keçirilməsi qaydası haqqında | §1. Həbslərin həyata keçirilməsinə rəhbərlik yoldaş Səmədzadəyə həvalə olunsun. Əlövsət Məmmədov, Cahangirov, N. Volkov, Tanrıverdiyev, Qasımov və M. Əliyev yoldaşlar kömək üçün ona verilsin.<br>§2. Həbslərə bu gün aprelin 5-də saat 22-də başlanılsın və aprelin 6-da səhər tezdən başa çatdırılsın.<br>§3. Bu məqsədlə siyasi mühafizə dəstəsindən konvoy ayrılsın. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**8 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 5 aprel 1925-ci il*

İştirak etdilər: Ə.Qarayev, M.Bağırov, E.Kvantaliani, S.Qorboçenko və İ. Dövlətov.
Katib: yoldaş Petrunin.
İclas saat 22-də açılmış, saat 24.30 dəqiqədə bağlanmışdır.

D i n l ə n i l d i:

1. Yoldaş Yermolovun komissiya tərəfindən ayrılan Yermolov, Səmədzadə və Məmmədovdan ibarət üçlüyün Naxçıvan şəhərindəki dustaqxanaların təhqiqinin nəticələri barədə məruzəsi.

İSLAH EVLƏRİ və SƏRHƏD DƏSTƏSİ. Məhbuslar arasında mədəni-maarif işinin tamamilə yoxluğu, dustaqxanalarda administrasiya tərəfindən elmi və siyasi xarakterli kitabların məhbusların əlindən alınması haqqında (təhqiqat aktında qeydə alınmamışdır) (5/4 tarixli hazırkı protokola edilən ƏLAVƏDƏKİ akta bax).

2. Zaqafqaziya Fövqəladə Komissiyası Sərhəd Mühafizə Hissəsi əməliyyat-kəşfiyyat bölməsinin müfəttişi yoldaş Yermolovun Zaqafqaziya Fövqəladə Komissiyası İqtisadi Şöbəsinin müvəkkili yoldaş Volkovla birlikdə Naxçıvan Siyasi Bürosunda apardığı yoxlamanın nəticələri haqqında məruzəsi. (onların hazırkı protokolun əlavəsindəki cari il 3/4 tarixli aktına bax).

3. Zaqafqaziya Fövqəladə Komissiyası Sərhəd Mühafizə Hissəsi əməliyyat-kəşfiyyat bölməsinin müfəttişi yoldaş Pyotr Yermolovun 4-lərin işi üzrə rəyi (Rəy hazırkı protokola əlavədədir).

Q ə r a r a  a l ı n d ı:

1. Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığının diqqəti Naxçıvan şəhərindəki dustaqxanalarda saxlanılan məhbuslar arasında mədəni-maarif işləri üzrə tədbirlər görülməsinə, dustaqların cəlb olunması üçün emalatxana və artellərin təşkilinə yönəldilsin.

İslah evlərində az əhəmiyyətli cinayətlərə görə saxlanılan məhbuslar arasından öz cəzasının çoxunu çəkmiş olan, ancaq hələ bir neçə ayı qalan ən yoxsul kəndlilər həbsdən azad edilsin.

Yoldaş Qorboçenko qeyri-leqal surətdə sərhədi keçməyə görə həbs edilən məhbusların işləri ilə tanış olsun.

Kvantaliani və Qorboçenko yoldaşlara həm islah evindəki, həm də sərhəd dəstəsində saxlanılan bütün dustaqların işləri ilə tanış olmaq tapşırılsın.

Yoldaş Yermolova yoldaş Volkovla birlikdə sərhəd dəstəsində işgəncələrlə bağlı təcili istintaq aparmaq, günahkarları həbs etmək və onları bu il aprelin 6-da yola salınacaq dustaq vaqonu ilə Azərbaycan Fövqəladə Komissiyasının sərəncamına göndərmək tapşırılsın, istintaqı yoldaş Yermolov aparsın, Tiflisdən işçilər gələnə qədər onları bir yerə toplasın, o vaxtadək yoldaş Milov kömək üçün ona verilsin.

Sərhəd Dəstəsinə təklif olunsun ki, həbs edilənləri iki gündən artıq saxlamasın, onların müəyyən edilən müddət bitənədək islah evinə təhvil verilməsini məcburi qayda hesab etsin.

2. Yoldaş Axundov həddən artıq yükləndiyinə görə Naxçıvan Diyarının Siyasi Bürosunun rəisi vəzifəsindən azad edilsin, həmin vəzifə, eyni zamanda Naxçıvan SSR Xalq Daxili İşlər Komissarı vəzifəsini icra etməklə yoldaş Səmədzadəyə həvalə olunsun.

Yoldaş Axundova Naxçıvan SSR-də Mərkəzi Nəzarət Komissiyası və Fəhlə-Kəndli Müfəttişliyinin müvəkkili vəzifələri həvalə edilsin, ona bu sahələrdə işi lazımi səviyyəyə yüksəltmək tapşırılsın.

Azərbaycan Fövqəladə Komissiyasına Naxçıvana işçilər göndərmək təklif olunsun.

Yoldaş Səmədzadəyə və Milova təhqiq aktlarını öyrənmək və nöqsanların aradan qaldırılması, işin gücləndirilməsi və yaxşılaşdırılması üçün tədbirlər görmək tapşırılsın.

3. Zaqafqaziya Fövqəladə Komissiyası Sərhəd Mühafizə Hissəsi əməliyyat-kəşfiyyat bölməsi müfəttişinin dörd nəfərin: **1. Bağırov Hacı Mehdi İmam Əli oğlunun, 2. Məmmədəliyev Kərbəlayı Qasım Hacı Əli oğlunun, 3. Əliyev İsmayıl Kərbəlayı Əli oğlunun, 4. Əliyev Pəliş Kərbəlayı Əli oğlunun ən yüksək cəzaya – GÜLLƏLƏNMƏ** cəzasına məhkum edilməsi haqqında qərarı təsdiq edilsin.

Lazımi imzalarla təsdiq edilmişdir

**Tam məxfi**

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
5/4-25-ci il tarixli 8 №-li Protokoluna
Ə l a v ə

**AKT**

1925-ci il, 3 aprel günü. Biz, Zaqafqaziya Fövqəladə Komissiyası Sərhəd Mühafizə Hissəsi əməliyyat-kəşfiyyat bölməsinin müfəttişi Pyotr Yermolov və Zaqafqaziya Fövqəladə Komissiyası İqtisadi Şöbəsinin müvəkkili yoldaş P. Volkov Naxçıvan Siyasi Bürosunu yoxlayarkən aşağıdakıları aşkar etdik:

Siyasi Büronun rəis, bir müvəkkil, bir müvəkkil köməkçisi və makinaçı ilə birlikdə bir katibdən ibarət olan aşkar işçi tərkibi zəifdir.

Siyasi Büro rəisi yoldaş Axundov zəif çekist olduğu üçün ixtiyarında olan əməkdaşlara düzgün göstəriş verə və onları təlimatlandıra bilmir. Bundan əlavə, o, Naxçıvan SSR Fəhlə-Kəndli Müfəttişliyinin müvəkkili vəzifəsini tutur, Naxittifaqda müxtəlif komissiyalarda işləyir – Siyasi Büroda orta hesabla gündə iki saatdan çox olmur.

Siyasi partiyalar üzrə işləyən müvəkkil Ambarsumov (xəbərçilər şəbəkəsinə rəhbərlik də onun üzərindədir) 1920-ci ildən AK(b)P-nın üzvüdür, 1923-cü ildən heç bir hazırlıq keçməmiş çekistdir, rus dilində savadı zəifdir, erməni və türk dillərində tamamilə savadsızdır (danışa bilir). Şərur qəzası üzrə müvəkkil olduğu dövrdə sərhəddə şuluqluq saldığına görə Naxçıvan Diyar Komitəsi tərəfindən tutduğu vəzifədən uzaqlaşdırılmış və həbs olunmuş, lakin sonra yenidən Siyasi Büroya qəbul edilmişdir.

Müvəkkil köməkçisi yoldaş Morozov bitərəfdir, 1922-ci ilin matından 1923-cü ilin avqustuna qədər Xüsusi şöbədə işləmiş, bundan sonra xəstəliyinə görə işdən azad edilmiş, 1923-cü ilin noyabrından isə yenidən ZFK-na qəbul edilmiş və Naxçıvan Siyasi Bürosuna göndərilmişdir.

Katib Allahverdiyev, – o həm də komendantdır, – bitərəfdir, FK orqanlarında 1924-cü ildən çalışır, 1919-cu ildə Türkiyə ordusu sıralarında olub.

Ordubad qəzasının müvəkkili Yarmizin bitərəfdir, molokandır, yarım savadlıdır, 1923-cü ildən FK orqanlarındadır. Zəif işçidir.

Xəbərçilər şəbəkəsi. 1925-ci ilə dair xəbərçilər kitabı üzrə Naxçıvan şəhərində və onun qəzalarında 71 xəbərçi mövcuddur, onlardan 47-si 1925-ci ilin üç ayı ərzində heç bir məlumat verməyib, sonunculardan 1924-cü ildə cəlb olunan 18 nəfər ümumiyyətlə heç bir məlumat təqdim etməyib, hansısa məlumatları vermiş olan 24 xəbərçidən 18-nin hər biri cari ilin 3 ayı ərzində birdən üçə qədər məlumat verib. Xəbərçi şəbəkəsinin bütün tərkibi içərisində işi az-çox bacaran 13 nəfərə qədərdir. Xəbərçilərin şəxsi işləri nəzərdən keçirilərkən onların üçündə anket olmadığı aşkar edildi.

Siyasi partiyalar üzrə 6 nəfər xəbərçi var, onların hər biri 1925-ci ildə orta hesabla iki məlumat verib.

Ordubad qəzası üzrə. 42 xəbərçi var, onların 31-i son üç ay ərzində heç bir məlumat verməyib. 1923 və 24-cü illərdə cəlb edilən 11 xəbərçi cəlb olunduqları gündən bəri heç bir məlumat verməyib, yalnız 12 xəbərçidən 1925-ci ilin 3 ayı ərzində 36 məlumat daxil olub; orta hesabla onların hər birinə 3 məlumat düşür. Nisbətən iş bacaran sayılan 3-4 xəbərçinin hər biri son 3-4 ay ərzində 3-dən 6-ya qədər məlumat təqdim edib.

Şərur qəzasında xəbərçi şəbəkəsi 1924-cü ildə cəlb edilən 27 xəbərçidən ibarətdir, onlardan 10-u cəlb olunduqları gündən bəri heç bir məlumat verməmişdir. 1925-ci ilin əvvəlindən xəbərçi şəbəkəsinə heç kim rəhbərlik etmir və xəbərçilərdən heç bir məlumat daxil olmamışdır. Bütün qəzaya, 1925-ci ildə cəmi 4 dəyərsiz məlumat verən xəbərçi (rezident) xidmət edir.

Şəbəkəyə tapşırıq verilməsi işi xaotik və təsadüfi xarakter daşıyır. Xəbərçi şəbəkəsinə rəhbərlik edən müvəkkil yoldaş Ambarsumovun təqdim etdiyi 1924-cü il üzrə tapşırıq dəftəri

imzasız, tarixsiz və kimin üçün nəzərdə tutulduğu göstərilməyən 12 tapşırıqdan ibarətdir; onların sonuncusu əsl yumoristika nümunəsidir: “ Bunu alan kimi aşağıdakıları aydınlaşdırmağı təklif edirəm: 20 və ya 15 gün qabaq nə baş verib”, nə məsələdir, bu tapşırıq kim tərəfindən kimə verilib – məlum deyil; belə ki, nə tarix, nə imza, nə də onun kimin üçün nəzərdə tutulduğu göstərilməyib.

Agentura, liter işləri və formulyar işi. 1924-cü ildə başladılan 5 agentura işindən üçü meydana çıxdığı andan olduğu kimi işlənməmiş qalır. Siyasi partiyalar üzrə, hələ 1924-cü ilin martında başlayan liter işləri (cəmisi 4 iş) ötən ilin sentyabrından hərəkətsiz qalmaqdadır. Ümumiyyətlə, Siyasi Büro tərəfindən xidmət edilən müəssislərin liter işləri son dərəcə xaotik vəziyyətdədir: onların bəzilərində rəsmi hissə aparılmamışdır, əksəriyyətində əməkdaşların xarakteristikaları, qaydalar, müəssisələrin nizamnaməsi, onların bağladıqları müqavilələr yoxdur. Qeyd etmək lazımdır ki, Naxçıvan pambıq komitəsi və “Azmentorq” (Azərbaycan Qarışıq mallar ticarəti müəssisəsi) kimi müəssisələrin hətta təsərrüfat həyatı belə işıqlandırılmır.

Siyasi Büroda aparılan işlərin yoxlanışı zamanı mərkəzdən (Azərbaycan FK-dan) gələn memorandum xarakterli informasiyaların yoxluğu dərhal nəzərə çarpır, bu səbəbdən bir çox qiymətli işlər yerindən tərpənmədən yatıb qalır, son nəticədə uğursuzluğa düçar olur.

Buna, Zaqafqaziya FK-nın iqtisadi casusluqla məşğul olan Hacı Həsən adlı bir nəfərlə bağlı 22/TM №-li 2 yanvar 1925 tarixli təliqəsi əsasında aparılan agentura işi misal ola bilər; Siyasi Büro rəisi təliqəni alan kimi bu sahədə müvafiq iş aparmaq əvəzinə, müvəkkil müavini Morozova Hacı Həsənin həbs edilməsi barədə sərəncam verir və yalnız o, istintaq edildikdən və əlbəttə ki, günahını qəbul etmədikdən sonra Siyasi Büro eyni zamanda onun iqtisadi casusluqla məşğul olub-olmadığını aydınlaşdırmaq tapşırığı verir və Zaqafqaziya FK-dan nə etmək lazım gəldiyini soruşur, çünki konsulluq onun azad olunmasını xahiş edir. Nəticədə Hacı Həsən sübut olmadığına görə azad edilir.

İşlərlə bağlı materiallar qeyri-ardıcıl tikilir və onların aparılmasına səhlənkar münasibət dərhal üzə çıxır, belə ki, nəzərdən keçirilən 7-8 işdən ikisinə tamamilə onlara aid olmayan materiallar tikilmişdir. 1924-cü ildə saxta metal pul düzəltməklə məşğul olan zərgər, vətəndaş Məşədi Hüseynlə bağlı açılan "Sikkəçilər" adlı işə 1923-cü ildə verilən, saxta İran pulu düzəltməklə bağlı olan və şahidlərə istinad edilməklə aydın xarakter daşıyan anonim ərizə tikilmişdir; ancaq daha mühüm olanı budur ki, Siyasi Büro 1923-cü ildən heç bir tədbir görməyə çalışmamışdır və bizim onun nə üçün buraya tikilmədiyi barədə sualımıza müvəkkil müavini Morozov cavab verir ki, o bunu bilmir, nə üçün heç bir tədbir görülməyib sualına isə cavab verir ki, görünür, iş əldən-ələ keçdiyi üçün. Xarakterik işlərdən biri də boşanmaya görə rüşvət (qoç) alması ilə bağlı Qarabağlar kəndinin İcraiyyə Komitəsinin sədri vətəndaş Həşimlə əlaqədar açılan işdir. Alınan məlumatlar yoxlanılmadan istintaq aparmaq və lazımi tədbir görülmək üçün XDİK-na bildirilmişdir. XDİK-dan bir cavab alındımı sualına yoldaş Morozov təsdiqləyici cavab verir və türk dilində yazılmış bir kağızı göstərir. Biz onun tərcümə olunmasını xahiş edəndə məlum olur ki, bu doğrudan da XDİK-nın təliqəsidir, ancaq mahiyyət etibarı ilə başqadır, çünki onda deyilir ki, Siyasi Büronun sorğusuna filan nömrəli məktubla cavab verilmişdir. Həmin nömrəli məktub isə işdə yoxdur. Beləliklə, düzgün aparılmayan bu "iş" eləcə yatıb qalacaqdı və Siyasi Büro əməkdaşları bu təliqənin icra olunub-olunmadığını bilməyəcəkdilər. Bu da xarakterikdir ki, bu işə aid sənədlərin arasına 12 yaşlı qız uşağına evlənmiş Şafir Vəli adlı birisi ilə bağlı material tikilmişdir. Bütün yuxarıda qeyd olunan aktlar göstərir ki, Siyasi Büronun "işləri" sistemsiz, rəisin heç bir müşahidəsi və müvəkkil tərəfindən işi müvafiq səviyyəyə qaldırmaq üçün müvafiq yanaşma olmadan aparılır...

1924-cü ildə açılan 61 formulyar işdən 30-a yaxın işdə, onlarda qeyd olunan şəxsləri az və ya çox dərəcədə ifşa edən konkret material yoxdur. Yalnız 6 işdə onlardakı şəxsləri casusluqla

bağlı işdə ifşa edən məlumatlar vardır.

Vahid sistem üzrə 1924-cü ildə uçota alınıb: müsavatçılar – 79 nəfər, menşeviklər – 17 nəfər. 1925-ci ilə aid materiallar indiyə kimi hazırlanmayıb. Siyasi partiyalar üzrə 1925-ci ilə aid işlərdə adı keçən şəxslərin əlifba sırası aparılmır.

Siyasi Büro tərəfindən istintaq işlərinin aparılması qaydalarını aşkar etmək mümkün deyil, belə ki, Siyasi Büronun ixtiyarında yalnız, şəxsiyyətinin araşdırılması üçün milis tərəfindən ona verilən bir dustaq vardır, bu dustaq istintaq orqanının – səlahiyyətləri çərçivəsinə vətəndaşların şəxsiyyətini aydınlaşdırmaq da daxil olan milisin ixtiyarında olmalı idi.

Siyasi Büroda iki dustaqsız istintaq işi var, onlardan biri (Culfa İqtisadi Sənaye Cəmiyyətinin İdarə Heyətinin sədri Sərkis Arutyunovun işi) üzrə istintaq dekabrın 22-dən, yəni üç ay yarımdır ki, yubadılır. İkinci iş də təxminən o qədər müddətdir ki, yubadılır, halbuki bu işi istintaq aparılması üçün Siyasi Büro müvəkkilinin mövcud olduğu qəzaya göndərmək lazım idi.

## NƏTİCƏ

Siyasi Büroda bir nəfər də olsun təcrübəli işçinin-çekistin olmadığı hazırkı vəziyyət və şəraitdə Naxçıvanda mahiyyət etibarı ilə çekist orqanı mövcud deyil. Siyasi Büronun cəmi bir neçə nəfərdən ibarət olan ştatı konspirasiya və işin özünün prinsipləri ilə tamamilə tanış deyil, nəinki qəzalara xidmət etmək üçün, hətta Naxçıvan şəhərində nəsə etməkdə acizdir. Xəbərçilərin çoxu aşkara çıxarıldığı üçün ciddi gizli xəbərçilər də aşkar edilməkdən qorxaraq işləməkdən imtina edirlər. Naxçıvan Diyarında Siyasi Büro yaratmağın yeganə yolu buraya təcrübəli bir rəisin və köhnə çekistlərdən olmaqla iki müvəkkilin göndərilməsidir.

İmzalar: Zaqafqaziya Sərhəd Mühafizə Hissəsi
əməliyyat-kəşfiyyat bölməsinin müfəttişi **Yermolov**
Zaqafqaziya FK İqtisadi Şöbəsinin müvəkkili **Volkov N.**

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**9 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 5 aprel 1925-ci il*

İştirak etdilər: Bağırov, Qarayev, Kvantaliani, Qorboçenko və Dövlətov yoldaşlar

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Zaqafqaziya FK-nın müvəkkili N. VOLKOVUN Azərbaycan Pambıq İdarəsinin Naxçıvan Kontorunun sabiq müvəkkili **MİRTAĞIYEV MİRCABBAR ƏLİ SEYİD OĞLU, BİRİNBAUM, POQOSOV, ŞÜKÜROV, SİTAROV və digərləri, cəmi 14 nəfər** haqqında məhkəmə işi üzrə məruzəsi. | Müvəkkilin rəyi bəyənilsin və aşağıdakılar ƏN YÜKSƏK CƏZAYA – **GÜLLƏLƏNMƏYƏ** məhkum edilsinlər:<br>§1. Naxçıvan Pambıq Kontorunun sabiq müvəkkili MİRTAĞIYEV MİRCABBAR ƏLİ SEYİD OĞLU,<br>§ 2. Naxçıvan Pambıq Kontorunun Noraşendəki zavodunun sabiq müdiri vətəndaş BİRİNBAUM MOİSEY İOSİFOVİÇ,<br>§3. Naxçıvan Pambıq Kontorunun manufaktura anbarının sabiq müdiri POQOSOV YEFREM PAVLOVİÇ və<br>§4. Naxçıvan Pambıq Kontorunun sabiq baş mühasibi ŞÜKÜROV SADIQ MAHMUDOVİÇ.<br>§5. MİRTAĞIYEVİN kuryeri TAHİROV ƏBÜLFƏZ ƏLİ OĞLU birincini qəsdən gizlətdiyinə görə ən ağır cəzaya – GÜLLƏLƏNMƏYƏ məhkum edilsin, ancaq cavanlığı və muzdur ailəsindən çıxdığı nəzərə alınaraq, hökm beş il |

| | |
|---|---|
| | həbslə əvəz edilsin.<br>§6. Naxçıvan Pambıq Kontorunun sabiq mühasibi SİTAROV ARMAİS PAVLOVİÇ və<br>§7. Naxçıvan Pambıq Kontoru manufaktura anbarının sabiq prikazçiki KƏLƏNTƏROV YUSİF beş il həbs cəzasına məhkum edilsinlər.<br>§8. Sabiq səyyar agent XASAY BƏY HƏSƏNBƏYOV,<br>§9. Sabiq hesabdar və Naxçıvan Pambıq Kontoru müvəkkilinin müavini MELKUMOV ABRAM VASİLYEVİÇ və<br>§10. Zaqafqaziya su təsərrüfatı idarəsinin sabiq mühəndisi NİKOLLO NİKOLAY İQNATEVİÇ üç il həbs cəzasına məhkum edilsinlər.<br>§11. KƏLƏNTƏROV MƏMMƏDƏLİ,<br>§12.KƏLƏNTƏROV ZEYNAL,<br>§13. KƏLƏNTƏROV MƏŞƏDİ İBRAHİM iki il həbs cəzasına məhkum edilsinlər.<br>§14. Manufakturaçı tacir MƏMMƏDOV MƏŞƏDİ KAZIM bir il həbs cəzasına məhkum edilsin. Müttəhim manufakturaçı QULİYEV RZANIN 31 yanvar 1921-ci ildən həbsdə saxlanması ona verilən cəza üçün kifayət hesab edilsin və |

| | |
|---|---|
| | sonrakı cəza çəkmədən azad olunsun.<br>HÖKM QƏTİ HESAB EDİLSİN.<br>Bu protokolun surəti Zaqafqaziya FK-nın kollegiyasında təsdiq olunmaq və hökmü icra etmək üçün Zaqafqaziya FK-na göndərilsin. |

Lazımi imzalarla: **Bağırovun, Qarayevin, Kvantalianinin, Qorobçenkonun və Dövlətovun** imzaları ilə təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**10 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 6 aprel 1925-ci il*

İştirak etdilər: komissiya üzləri və bütün texniki alt komissiya, habelə SULTANOV, HƏŞİMOV yoldaşlar.
Katib: yoldaş Soxatski.

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Torpaq məsələsi üzrə XTK, XƏK və FKM-nin təhqiqi haqqında. Məruzəçi yoldaş Ponomaryov.<br>2. Sovet aparatının vəziyyəti haqqında. Məruzəçi yoldaş Tahirov.<br>3. Yerli təsərrüfat haqqında Məruzəçi yoldaş Verjibitski.<br>4. Büdcə haqqında. Məruzəçi yoldaş Bere.<br>5. Maliyyə-vergi aparatı haqqında. Məruzəçi yoldaş Troxaçov. | 1. Məruzə qeyri-kafi hesab olunsun və yoldaş Ponomaryova bu məsələ ilə daha ciddi tanış olmaq təklif edilsin.<br>2, 3 və 4-cü bəndlər üzrə məruzələr nəzərə alınsın. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiyanın iclasının
**11 №-li PROTOKOLU**

*Naxçıvan stansiyası, 6 aprel 1925-ci il*

İştirak etdilər: Bağırov, Qarayev, Kvantaliani, Qorboçenko və Dövlətov yoldaşlar.
Katiblər: Soxatski və Petrunin yoldaşlar.

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Naxçıvan islah evində az əhəmiyyətli işlərə görə həbs cəzası çəkən, yoxsul muzdur ünsürü təbəqəsindən olan, həbs müddətinin az qismi qalan məhbuslar haqqında (Məruzəçilər: Qorboçenko və Kvantaliani yoldaşlar)<br>2. İrandan sərhədi qeyri-leqal yolla keçməyə görə Sərhəd dəstəsindəki məhbuslar haqqında | 1. Tarla işləri mövsümünün başladığını nəzərə alaraq, cəza müddətinin ən azı yarısından çoxunu çəkmiş olan və cəza müddətinin bitməsinə bir aydan doqquz aya qədər vaxt qalan 15 nəfər məhbus azad edilsin. (Azad edilənlərin siyahısı Əlavədə verilir)<br>2. Sərhədi keçənlərin əhalinin ən yoxsul təbəqəsindən olduğunu və sərhədi:<br>A) Öz fiziki əməyi ilə əmək haqqı qazanmaq məqsədilə,<br>B) Sərhədi keçmək üçün tələb olunan formal qaydalara riayət etmək lazım gəldiyini anlamadıqları üçün qeyri-qanuni keçdiklərini nəzərə alaraq, 28 nəfər dustaq azad edilib İrana göndərilsin, 7 nəfərdən isə bəzi məsələləri aydınlaşdırılanadək diyarı tərk etməmək barədə iltizam alınsın.<br>(Siyahı Əlavədə verilir). |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
6/4-25-ci il tarixli 11 №-li Protokoluna
Ə l a v ə

## VAXTINDAN ƏVVƏL AZAD EDİLƏN MƏHBUSLARIN SİYAHISI

| Adı və soyadı | Məhkum edildiyi müddət | 7/3 amnistiya halında nə qədər müddət ixtisar edilmişdir | Nə qədər yatmışdır | Nə qədər qalmışdır | Qeyd |
|---|---|---|---|---|---|
| 1. Həsən Hüseyn oğlu | altı ay | 9 ay | 7 ay 16 gün | Bir ay 14 gün | 21/8-24-cü il tarixindən həbs edilmişdir |
| 2. Mir Ələsgər Seyid Rza oğlu | Bir il altı ay | 9 ay | 7 ay 16 gün | Bir ay 14 gün | 21/8-24-cü il tarixindən həbs edilmişdir |
| 3. Müzəffər Həzrətqulu oğlu | Bir il altı ay | 9 ay | 5 ay 26 gün | 3 ay 4 gün | 10/10-24-cü ildən |
| 4. Həsənəli Salman oğlu | Bir il altı ay | 9 ay | 5 ay 26 gün | 3 ay 4 gün | 10/10-24-cü ildən |
| 5. Allahverdi Məmmədqulu oğlu | Bir il | 6 ay | 3 ay 20 gün | 2 ay 10 gün | 16 dekabr 24-cü ildən |
| 6. Əli Məşədi İsmayıl oğlu | Bir il | 6 ay | 3 ay 1 gün | 2 ay 20 gün | 5 yanvar 24-cü ildən |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7. İbrahim Eyvazəli oğlu | Altı ay | İxtisar edilməyib | 3 ay 7 gün | 2 ay 23 gün | 30 dekabr 24-cü ildən |
| 8. Hüseyn Əli oğlu | 7 ay 23 gün | Yarıbayarı | 2 ay 5 gün | 1 ay 22 gün | 1 sentyabr 25-ci ildən |
| 9. Abbasqulu Rzaqulu oğlu | Altı ay | Yarıbayarı | 2 ay 5 gün | 25 gün | 1 fevral 25-ci ildən |
| 10. Salah Kərbəlayı Məhəmməd. oğlu | Bir il | Yarıbayarı | 7 ay 4 gün | 4 ay 26 gün | 2 oktyabr 24-cü ildən |
| 11. Şəfi İman oğlu | Altı il | 1/3 və 1/2 | 3 ay 20 gün | 2 ay 28 gün | 15 fevral 25-ci ildən |
| 12. Akopyan Akop | İki il | Yarıbayarı | 6 ay 21 gün | 5 ay 9 gün | 15 sentyabr 24-cü ildən |
| 13. Fətulla Hüseyn Əliyev | 3 il 6 ay | Yarıbayarı | 1 il 1 ay 24 gün | 7 ay 6 gün | 12 fevral 24-cü ildən |
| 14. Xaçatur Parsamyan | 8 il | 1/3 və 1/2 | 14 ay 8 gün | 1 ay 22 gün | 28 yanvar 24-cü ildən |
| 15. Məmməd Süleymanov | 10 il | 1/3 və 1/2 | 11 ay | 9 ay | 6 may 24-cü ildən |

Naxçıvan İslah evinin rəis müavini, İşgüzar məhkəmə.
6 aprel 1925-ci ildə azad edilmişlər.

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
6/4-25-ci il tarixli 11 №-li Protokoluna
Ə l a v ə

## NAXÇIVAN SƏRHƏD DƏSTƏSİNDƏ DUSTAQDA OLAN İRAN TƏBƏƏLƏRİNİN SİYAHISI

| Soyadı, adı, atasının adı | Qeyd |
|---|---|
| 1. Heydər Nəsrulla oğlu<br>2. Həbib İbrahim oğlu<br>3. Qurban Həşim oğlu<br>4. Allahverdi Qəmbər oğlu<br>5. Cəbrayıl Cabbar oğlu<br>6. Baba Əli oğlu<br>7. Mirməmməd Seyidağa oğlu<br>8. Həsən Rəsul oğlu<br>9. Maqsud Rəsul oğlu<br>10. Yaqub İbrahim oğlu<br>11. Məmməd Qurban oğlu<br>12. İzzət Həbib oğlu<br>13. Muxtar İbrahim oğlu<br>14. Yəhya İbrahim oğlu<br>15. Həsən Qulu oğlu<br>16. Hüseyn Möhsün oğlu<br>17. Hüseyn Rza oğlu<br>18. İbrahim Səməd oğlu<br>19. Səməd Tağı oğlu<br>20. Baxşəli Məmmədəli oğlu<br>21. Hüseyn Kərim oğlu<br>22. Daniya Feyzulla oğlu<br>23. İsmayıl Nəsrulla oğlu<br>24. Şükür Hacı Əsəd oğlu<br>25. Qulu Məmməd oğlu<br>26. Əsgər Əli oğlu<br>27. Niftəli Əli oğlu | İrana qaytarılmışlar |

| | |
|---|---|
| 28. Məmmədəli Həşim oğlu | İrana qaytarılmışlar |
| 29. Baxşəli Məmmədəli oğlu<br>30. Səməd Kərbəlayı Talo oğlu<br>31. Məmməd Həsən oğlu<br>32. İbrahim Həsən oğlu<br>33. Məcid Məmməd oğlu<br>34. Əli Məmməd oğlu<br>35. Qara Məmməd oğlu | İltizam alınmaqla azad edilmişlər |

Naxçıvan Sərhəd Dəstəsinin rəisi
ap.l. Fayduşenko Adyutant Tyurin

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
**12 №-li PROTOKOLU**

*Tiflisə doğru hərəkət edən 12* №-li *vaqon,*
*8 aprel 1925-ci il*

İştirak etdilər: M.Bağırov, Ə.Qarayev,
S.Qorboçenko, İ.Dövlətov
E.Kvantaliani.
Katiblər: Soxatski və Petrunin yoldaşlar.

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. Ümumiyyətlə Komissiyanın praktik təklifləri haqqında | 1. Bütün praktik təkliflər üç qrupa bölünsün:<br>A) Partiya quruculuğu üzrə təkliflər<br>B) Sovet quruculuğu və Naxçıvan Respublikasının iqtisadi-təsərrüfat həyatı üzrə təkliflər və<br>C) Əvvəlki iki kateqoriyaya uyğun gəlməyən iri miqyaslı təkliflər. |

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 2. Partiya quruculuğu sahəsində təkliflər haqqında. | 2. Yoldaş Ə.QARAYEVƏ tapşırılsın ki, praktik təklifləri və onların motivləşdirilməsini işləyib hazırlasın. |
| 3. Sovet hökuməti və Naxçıvan Respublikasının iqtisadi-təsərrüfat həyatına dair təkliflər haqqında. | 3. Qəbul edilsin. |
| 4. Əvvəlki iki kateqoriyaya uyğun gəlməyən iri miqyaslı təkliflər haqqında. | 4. Qəbul edilsin. |

Lazımi imzalarla təsdiq edilmişdir.

Naxçıvan Diyarının təhqiqi üzrə
Xüsusi Komissiyanın iclasının
**13 №-li PROTOKOLU**

*Tiflis stansiyası , 9 aprel 1925-ci il*

İştirak etdilər: M.Bağırov, Ə.Qarayev,
E.Kvantaliani S.Qorboçenko,
İ.Dövlətov yoldaşlar

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 1. İclasların protokollarının təsdiq edilməsi haqqında. | 1. Protokollar təsdiq edildin. |
| 2. Məhbusların sonrakı təyinatları haqqında. | 2. Bütün məhbuslar haqlarında olan bütün materiallarla birlikdə Azərbaycan FK-na göndərilsin. Eyni zamanda, Azərbaycan FK-na, sürgün edilməli olan bütün bitərəf məhbusların Rusiyanın ən |

| Dinlənildi | Qərara alındı |
|---|---|
| | dərin guşələrinə sürgün edilənlərin siyahısına daxil edilməsi təklif olunsun. Sabiq partiya üzvü olan məhbusların işi ilə əlaqədar Azərbaycan FK-na ən təcili qaydada təhqiqat aparılması təklif olunsun. Naxçıvan XKS-nə yoldaş Sultanovun şəxsində, Naxçıvan Diyar Komitəsinə, Naxçıvan Siyasi Bürosuna, Fəhlə-Kəndli Müfəttişliyi Xalq Komissarlığı müvəkkilinə, Prokuror köməkçisi Əzimzadəyə məhbuslar barədə mövcud olan bütün materialları, həmçinin komissiya Naxçıvanı tərk edəndən sonra daxil olan materialları təcili qaydada Azərbaycan FK-na, onun sədri yoldaş Bağırovun şəxsi ünvanına göndərmək təklif olunsun. Sonrakı həbslər Azərbaycan FK-na həvalə edilsin. |
| 3. Həbs edilməyən, ancaq komissiyanın qərarı ilə işdən çıxarılanlar haqqında. | 3. Naxçıvan XKS-nə və Naxçıvan Diyar Komitəsinə qərarların dərhal həyata keçirilməsinə nəzarət etmək təklif olunsun. |

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 4. Ərizələrin araşdırılması haqqında. | 4. Bakıda ərizələrin detallı şəkildə araşdırılması üçün yoldaş Cəfərovun sədrliyi altında Cəfərov, Soxatski, Petrunin, Poçtaryov, Şahverdiyev və Şəmşəddinski yoldaşlardan ibarət xüsusi komissiya yaradılsın. |
| 5. Naxçıvan Diyarı hüdudlarında olan bütün keçmiş bəylər, xanlar, ağalar, polislər haqqında. | 5. Naxçıvan Diyar Komitəsinə və Naxçıvan XKS-nə, bu mövzu ilə bağlı ittifaq və respublika orqanlarında mövcud olan qərarları ciddi şəkildə əldə rəhbər tutmaq təklif olunsun. |

Lazımi imzalarla təsdiq edilmişdir.

## BAKIDAN VƏ DİGƏR YERLƏRDƏN 1925-Cİ İL APRELİN 7-DƏN MAYIN 2-DƏK NAXÇIVANA GƏLƏN İŞÇİLƏRİN SİYAHISI

| **Xalq komissarlıqlarının adları** Soyadları və adları | Tutduqları vəzifə | Partiya mənsubiyyəti |
|---|---|---|
| 1. Tahirov Mehdi | Xalq Daxili İşlər komissarının müavini | Bitərəf |
| 2. Antadze Aleksey | Milis baş rəisi | Partiyaçı |
| 3. Əliyev Əlabbas | Katib | Partiyaçı |
| 4. Ramazanzadə Əli | Pasport hissəsinin müdiri | Bitərəf |

| | | |
|---|---|---|
| 5. Vrublyovski Anatoli | İnzibati şöbənin müdiri | Bitərəf |
| 6. Halacov Murtuza Əli | Qəza şəhər milisinin rəisi | Bitərəf |
| 7. Əliyev Əhməd | Milis ehtiyatının rəisi | Bitərəf |
| 8. Ohanov Samuil | Yerli təsərrüfat şöbəsinin müdiri | Partiyaçı |
| 9. Rıse Vladimir | Tikinti alt şöbəsinin müdiri | Bitərəf |
| 10. Kitrşbaum İsay | Mənzil alt şöbəsinin müdiri | Bitərəf |
| 11. Mnatsanyan Lyova | Torpaq alt şöbəsinin müdiri | Bitərəf |
| 12. Mkrtıçyan | Briqadir | Bitərəf |
| 13. Slaşşev Pavel | Kommunal təsərrüfat şöbəsinin mühasibi | Bitərəf |
| 14. Yuşko Nikolay | Briqadir | Bitərəf |
| 15. Yusifbəyli Ağa | Ordubad kommunal təsərrüfat şöbəsinin müdiri | Bitərəf |
| 16. Kluçkov | Culfa kommunal təsərrüfat şöbəsinin müdiri | Partiyaçı |
| 17. Əsgərzadə | Şərur İcraiyyə Komitəsinin müdiri | Partiyaçı |
| 18. Tağızadə | Qıvraq Dairə sədri | Partiyaçı |
| 19. Səmədzadə İsgəndər | Əylis Dairə sədri | Partiyaçı |
| 20. Məmmədov Əlövsət | Ordubad Qəza İcraiyyə Komitəsinin sədri | Partiyaçı |
| 21. Cahangirov İsrafil | Tumbul Dairə sədri | Komsomol |
| 22. Vəliyev Məhərrəm | Əbrəqunus Dairə sədri | Bitərəf |

| | | |
|---|---|---|
| 23. Ağacanyan Sergey | Kənd soveti katibi | Partiyaçı |
| 24. Liqarov Teymur | Kənd soveti katibi | Partiyaçı |
| 25. Rzayev İslam | Kənd soveti katibi | Komsomol |
| 26. İbrahimov Paşa | Kənd soveti katibi | Bitərəf |
| 27. Əhmədov Neymət | Kənd soveti katibi | Bitərəf |
| **Xalq Torpaq Komissarlığı** | | |
| 28. Xasayov Məmməd | Xalq Torpaq komissarı | Partiyaçı |
| 29. Hüseynov Həzrətqulu | Dövlət əmlakı şöbəsinin müdiri | Bitərəf |
| 30. Fyodorov Boris | Bünyadzadə adına sovxozun müdiri | Bitərəf |
| 31.Yevstropov İvan | Bitkiləri mühafizə şöbəsinin müdiri | Bitərəf |
| 32. Səfərov Bəhmən | Bitkiləri mühafizə şöbəsinin təlimatçısı | Bitərəf |
| **Xalq Maarif Komissarlığı** | | |
| 33. Musayev Hüseyn | Xalq Maarif komissarı | Partiyaçı |
| 34. Zuyev Konstantin | Texnik | Bitərəf |
| 35. İvanova | Uşaq evinin tərbiyəçisi | Bitərəf |
| 36. Həsənzadə Dəmir | Qiraət komasının müdiri | Komsomol |
| 37. Rzayev İslam | Qiraət komasının müdiri | Komsomol |
| 38. Əsgərov Qasım | Klub müdiri | Komsomol |
| 39. Babayev Rəzzak | Klub müdiri | Komsomol |
| 40. Əsgərov Həmid | Klub müdiri | Komsomol |
| 41. Liqarov Teymur | Qiraət komasının müdiri | Komsomol |
| 42. Butıkov İvan | Musiqi müəllimi | Bitərəf |
| **Xalq Səhiyyə Komissarlığı** | | |
| 43. Qamsaxurbiya İvan | Cəhri Feldşer Məntəqəsinin müdiri | Bitərəf |

| | | |
|---|---|---|
| **Xalq Maliyyə Komissarlığı Müvəkkilliyi** | | |
| 44. Məmmədov M. | Xalq Maliyyə Komissarlığı müvəkkili | “————“ |
| 45. Voskresenski N. A. | Dövlət gəlirləri müfəttişi | “————“ |
| 46. Novoratskaya Z. P. | Dövlət vergisi kontorçusu | “————“ |
| 47. Murtuzayev A.M. | Operator kontorçu | “————“ |
| 48. Qurbanov X. | Kənd bölməsinin müdiri | “————“ |
| 49. Nevediveç | Maliyyə müfəttişi | “————“ |
| 50. Yepifanov V. | Təsərrüfat alt şöbəsinin müdiri | “————“ |
| 51. Axundov N. | Hesablayıcı | “————“ |
| 52. Məmmədov İb. | Hesablayıcı | “————“ |
| 53. Novruzov N. | Hesablayıcı | “————“ |
| 54. Qədimov A. | Hesablayıcı | “————“ |
| 55. Allahverdiyev | Hesablayıcı | “————“ |
| 56. Məmmədov İsm. | Hesablayıcı | “————“ |
| 57. Rəsulov M. | Hesablayıcı | “————“ |
| 58. Babayev | Hesablayıcı | “————“ |
| 59. Mahmudov Q. | Hesablayıcı | “————“ |
| 60. Avstiyan | Hesablayıcı | “————“ |
| 61. Manukyan | Maliyyə müfəttişinin köməkçisi | “————“ |
| **Hərbi komissarlıq** | | |
| 62. Yaponski Filipp | Siyasi hissə üzrə hərbi komissar | Partiyaçı |
| 63. Kuvakov Nikolay | Dəftəxana rəisi | Bitərəf |
| **Xalq Ədliyyə Komissarlığı** | | |
| 64. Babayev Yaqub | Xalq Ədliyyə komissarı | Partiyaçı |
| 65. Yusifov Abbas | Dairə məhkəməsinin sədri | Partiyaçı |

| | | |
|---|---|---|
| **Kənd Təsərrüfatı Bankı** | | |
| 66. Seyidbəyli Zülfüqar | İdarə heyətinin sədri | Partiyaçı |
| 67. Tarakanov | İdarə heyətinin üzvü | “————“ |
| 68. Tağıyev Məmmədtağı | İdarə heyətinin üzvü | “————“ |
| 69. Aqamoviç Mustafa | Mühasib | “————“ |
| 70. Mikaelyan Yakov | Kassir | Bitərəf |
| 71. Babayev Əlövsət | Hesabdar | “————“ |
| 72. Hacıyev M.Q. | Müfəttiş | “————“ |
| **Naxittifaq** | | |
| 73. Quliyev Rzaqulu | İdarə heyətinin sədri | “————“ |
| 74. Məmmədov Sultanəhməd | Müfəttiş | “————“ |
| 75. Əliyev Musirza | Müfəttiş | “————“ |
| 76. Breslov Semyon | Ticarət agenti | “————“ |
| 77. Kabanov Mixail | Təşkilat şöbəsinin müdiri | “————“ |
| 78. Kazımov Zeynal | Culfa kooperativinin sədri | “————“ |
| **Həmkarlar Bürosu** | | |
| 79. Rzayev Hayfa | Yerli komitə ittifaqının məsul katibi | “————“ |
| 80. Muradov Qara | Kommunal təsərrüfat ittifaqının məsul katibi | “————“ |
| 81. Quliyev Məmməd | İnşaatçılar ittifaqının məsul katibi | “————“ |
| 82. Bayramov Abbasqulu | Ordubad sahəsinin məsul katibi | “————“ |
| 83 Əliyev Dadaş | Maarif işçiləri həmkarlar ittifaqının məsul katibi | “————“ |
| 84. Əhmədov Sərdar | Torpaq və meşə işçiləri həmkarlar ittifaqının məsul katibi | “————“ |

| | | |
|---|---|---|
| **Xalq Əmək Komissarlığı Müvəkkilliyi** | | |
| 85. Babazadə Sadıq | Nax SSR XƏK-nın sədri | Bitərəf |
| 86. Xanbabayev Lütfəli | Xalq Əmək Komissarlığı müvəkkili | "———" |
| **Naxçıvan Duz İdarəsi** | | |
| 87. Metelitski Mixail | Statistik | "———" |
| 88. Sinoviski Mixail | Ali Xalq Təsərrüfatı Şurası şöbəsinin mühəndis texniki | "———" |
| **Azərbaycan Pambıq İdarəsi** | | |
| 89. Skaçkov Aleksey | Kantor rəisinin köməkçisi | Partiyaçı |
| 90. Doqdanov Kori | Mühasib | Bitərəf |
| 91. Furman N.S. | Texnik | "———" |
| 92. Bruxman Samuil | Hesabdar | "———" |
| 93. Hacıyev Adil | Hesabdar | "———" |

# ŞƏRİN AĞUŞUNDA QƏDDARLIĞIN VƏ XEYİRXAHLIĞIN BƏRAƏTİ



# SOVET HAKİMİYYƏTİ XÜSUSİ KOMİSSİYANIN HƏRƏKƏTLƏRİNƏ BƏRAƏT QAZANDIRIR TÖVBƏ EDİLMƏYƏCƏK

Azərbaycan Xalq Komissarları Sovetinin sədri **Qəzənfər MUSABƏYOV** Naxçıvan Muxtar Respublikasının dirçəldilməsi işində yol verilən iri həcmli siyasi və dövlət qüsurlarına görə Azərbaycan SSR hökumətinin və şəxsən özünün böyük məsuliyyət daşıdığını dərk edərək, Xüsusi Komissiya öz işini başa çatdırmamışdan qabaq mətbuatda Naxçıvan MSSR-ə yardım göstərilməsi sahəsində təsdiq edilmiş qərarları açıqladı. Bu qərarlar belə bir ümid doğurur ki, nəhayət Naxçıvanın dağıdılmış təsərrüfatının bərpasına başlanacaq və bu qədər ağır acılar çəkmiş naxçıvanlıların yoxsul həyatı tarixə gömüləcəkdir.

## NAXÇIVAN RESPUBLİKASINA KÖMƏK

Yoldaş Musabəyovun sədrliyi ilə Naxçıvan Respublikasına maddi kömək göstərilməsi üzrə komissiyanın iclası keçirilmişdir.

Komissiya, yeri gəlmişkən, aşağıdakı qərarları qəbul etmişdir:

Təcili olaraq Bazarçay kanalının çəkilməsi ilə bağlı kəşfiyyat işlərinə başlanılsın, bunun üçün Azərbaycan Su Təsərrüfatı İdarəsinə bir həftə müddətində Naxçıvan Respublikasına bu işləri qısa müddətə başa çatdırmaq məqsədilə kəşfiyyat qrupu göndərmək tapşırılsın. Kəşfiyyat işləri üzrə bütün xərclər Azərbaycan Su Təsərrüfatı İdarəsinin hesabına ödənilsin.

Xalq Torpaq Komissarlığı tərəfindən Fərhad Arxı kanalının bərpasına ayrılan 15 000 rublun buraxılması təsdiq edilsin və Xalq Torpaq Komissarlığına qalan məbləği ödəmək tapşırılsın. Naxçıvan Respublikasının təhqiqi üzrə Komissiyaya tapşırılsın ki, Fərhad Arxı kanalının bərpası ilə bağlı görülmüş işlərin miqdarını aydınlaşdırsın.

Qalan bütün meliorasiya tədbirləri Ali İqtisadi Şuraya həvalə olunsun və Azərbaycan SSR-in suvarma sisteminin bərpasının beş illik planına daxil edilsin.

Naxçıvanda əsas kapitalı 250 min rubl olan kənd təsərrüfatı

bankının təşkili zəruri sayılsın. Naxçıvan Respublikasında mərkəzi Naxçıvan şəhəri olmaqla kənd təsərrüfatı kooperasiyasının təşkilinə başlanılsın. Kənd təsərrüfatı kooperasiyasının 70 000 rubl həcmində əsas fondu yaradılsın, bunun 50 000 rublu Azərbaycan SSR-in hesabına aid edilsin.

Naxçıvan Respublikasında torpaq bölgüsü işinin zərbəçi qaydada aparılması zəruri hesab edilsin. Azərbaycan SSR Xalq Torpaq Komissarlığına Naxçıvan Respublikasında mövcud olanlardan əlavə iki yeni aqronomiya məntəqəsinin təşkil olunması tapşırılsın.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığı tərəfindən Ordubadda barama toxumu stansiyasının açılmasına icazə verilsin.

Naxçıvan Respublikasında üç baytar məntəqəsinin daimi fəaliyyət göstərməsinin zəruriliyi qəbul edilsin. Bu məntəqələrin saxlanılması ilə bağlı büdcədə nəzərdə tutulduğundan artıq xərclərin ödənilməsi Azərbaycan SSR Xalq Torpaq Komissarlığına həvalə edilsin.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığına Naxçıvan Respublikasının nümayəndələri ilə birlikdə Naxçıvan Respublikasında yüksək mədəni bitkilərin yayılması və cari əkin kampaniyası dövründə onların sahələrinin genişləndirilməsi məsələsini aydınlaşdırmaq və işləyib hazırlamaq tapşırılsın.

Azərbaycan SSR Xalq Torpaq Komissarlığına Naxçıvan Respublikasında kifayət miqdarda maşına malik kənd təsərrüfatı maşınları anbarı açmaq tapşırılsın.

Azərbaycan SSR XKS-dən yoldaş Bünyadzadə adına (keçmiş Şangirey) sovxozun bərpası üçün birdəfəlik 5000 rubl verilməsi xahiş olunsun.

Naxçıvan Respublikasındakı uşaq evlərində saxlanılan uşaqların sayı 200 nəfərə qədər artırılsın. Uşaqların saxlanması tamamilə Azərbaycan MİK nəzdindəki Uşaq komissiyasının hesabına aid edilsin.

Naxçıvan Respublikasının ağır iqtisadi vəziyyəti nəzərə alınaraq, 1925-ci il aprelin 1-dən Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurası tərəfindən Naxçıvan XKS-nə pay ayırmaları əvvəlki şərtlərlə 20 pud duza qədər artırılsın, ancaq bu artım duzun dəyərinin artırılması hesabına olmasın və Zaqafqaziya XKS-dən bu qərarı təsdiq etməsi xahiş olunsun. Ali Xalq Təsərrüfatı Şurasına Naxçıvan XKS ilə ayrılan duz payı üzrə bütün hesablaşmaları 10 000 pud norma hesabı ilə aprelin 1-dək həyata keçirmək tapşırılsın.

Zaqafqaziya Pambıq İdarəsinin Azərbaycan şöbəsinə çatan gəlirin Naxçıvan Respublikasının əkinlərinə düşən qismi pambıqçılığın bərpası üçün bronlaşdırılsın.

Ali Xalq Təsərrüfatı Şurasına Ordubadda konserv zavodu tikilməsinin iqtisadi cəhətdən məqsədəuyğunluğunu araşdırmağa başlamaq tapşırılsın.

Naxçıvan Respublikasında təşkil edilən kənd təsərrüfatı bankı və kənd təsərrüfatı ittifaqına kustar baramaaçma və ipəktoxuma sənayesinin dəstəklənməsi və genişləndirilməsi üçün tədbirlər görmək tapşırılsın.

Ali Xalq Təsərrüfatı Şurasına Naxçıvan Respublikasında qurğuşun yataqlarını təhqiq etmək tapşırılsın.

Azneft idarəsinə Naxçıvan Respublikasının iqtisadi cəhətdən bərpası üçün 100.000 rubl məbləğində zəruri material buraxmaq həvalə olunsun.

SSRİ Ali Xalq Təsərrüfatı Şurasının ZSFSR-dəki müvəkkilindən Şəkər tresti və Toxuculuq sindikatının Naxçıvanda şöbələrinin açılması xahiş edilsin.

*(“Bakinski raboçi”, 2 aprel, 1925-ci il, № 73)*

Azərbaycan SSR Hökumətinin üzvü kimi M. Bağırovun, əlbəttə ki, bu hökumət qərarından xəbəri vardı. Xüsusi Komissiyaya yalnız, onların təcili surətdə həyata keçirilməsi üçün yerində müvafiq tədbirlər işləyib hazırlamaq qalırdı. Qəbul olunmuş qərarlara müəyyən əlavə və dəyişikliklər edilməsi üçün komissiyanın köməyi də tələb oluna bilərdi. Belə olduğu təqdirdə, komissiya iqtisadi sahədə Naxçıvanda özünə yaxşı ad da qoyub gedərdi. Ancaq Bağırovu yalnız hökumətin iradəsinin icraçısı olmaq təmin etmirdi. Ona birincilik çələngi lazım idi. Xüsusi Komissiya öz işini başa çatdırandan sonra M.Bağırov Q.K.Orconikidzeyə məruzəsində məlumat verir ki, Naxçıvan Respublikasında bəylər və xanlar nüfuz sahibidir. Bu əksinqilabçıların bir qismi qırmızı rəngə boyanaraq partiya biletinə yiyələnmişlər. Sabiq müsavatçılar, qolçomaqlar, müxtəlif pristavlar, qorodovoylar Naxçıvanda məskən salmışlar və Respublikada xalq təsərrüfatının dirçəlişinə əngəl törədən qüvvələr mövcuddur.

M.Bağırovun Naxçıvan Respublikasında əksinqilabçıların hakimiyyətdə olması barədə çıxardığı nəticələr Zaqafqaziyanın hakimiyyət orqanlarını vəlvələyə salmışdı. Belə çıxırdı ki, SSRİ-də antisovet qüvvələrin ağalıq etdiyi heç bir bölgə qalmadığını elan

edən V.İ.Lenin tələsmişdi, ancaq dünya inqilabi işinə sadiq olan Azərbaycan Xalq Daxili İşlər komissarı Bağırov Leninin dadına çatmışdı. O, Naxçıvanda proletariatın qatı düşmənlərinin son yuvasını məhv etmişdi. Azərbaycanın sərhəd bölgəsində – yoldaş Rıkovun, dediyi kimi, İran və Türkiyə qarşısında sovet hakimiyyətinin üstünlüklərini nümayiş etdirməli olan Sovet Naxçıvanında sovet hakimiyyətinin qəsb edildiyi bir vaxtda hansı iqtisadi problem yada düşə bilər.

Q. Musabəyovun Naxçıvan Respublikasına yardım tədbirlərinin təsdiq edilməsi ilə bağlı vaxtında verdiyi məlumat, əslində Sovet Azərbaycanının qədim diyarın dirçəldilməsi yoluna qədəm qoyması barədə ürəkaçan məqalələr axını doğurmalı idi. Ancaq belə olmadı. Azərbaycan Xalq Komissarları Sovetinin sədri Musabəyovun, başı çox bəlalar çəkmiş diyara kömək tədbirləri haqqında təntənəli bəyanatı nədənsə kölgədə qaldı. İctimaiyyətin diqqəti Xüsusi Komissiyanın işinin sarsıdıcı nəticələrinə cəlb edildi.

Bağırovun rəhbərlik etdiyi Xüsusi Komissiyanın Naxçıvanda nələri üzə çıxardığını Sovet İttifaqı, xüsusilə də Zaqafqaziya və Azərbaycan vətəndaşlarına çatdırmaq məsuliyyətini birinci olaraq SSRİ-nin baş qəzeti "Pravda" öz üzərinə götürdü və respublika mətbuatını da bu istiqamətə yönləndirdi.

## NAXÇIVAN RESPUBLİKASININ TƏHQİQİNİN NƏTİCƏLƏRİ

### NAXÇIVAN RESPUBLİKASININ SOVET APARATINDA ÇOXLU KEÇMİŞ MƏMUR VƏ BƏY İŞLƏYİRMİŞ. KƏNGƏRLİ BƏYLƏRİNİN QOHUMLARI KOMMUNİST PARTİYASINA SOXULMUŞLAR. AZƏRBAYCANIN NAXÇIVANI TƏHQİQ EDƏN HÖKUMƏT KOMİSSİYASI TƏRƏFİNDƏN BİR SIRA İŞÇİLƏR HƏBS OLUNMUŞDUR.

**Bakı, 8 aprel.** Naxçıvanda olarkən yoldaş Rıkov bu kiçik və ucqar respublikanın ağır vəziyyətinə ciddi diqqət yetirmişdi.

Azərbaycan MİK tərəfindən təyin edilən hökumət komissiyası Naxçıvan Respublikasını detallı şəkildə təhqiq etmiş və bu qərara

gəlmişdir ki, respublikanın kənd təsərrüfatı inventarın primitivliyi, torpaq quruluşu işinin, demək olar ki, tamamilə yoxluğu, suvarma məsələsinin qarmaqarışıqlığı və kənd təsərrüfatı bankının mövcud olmaması səbəbindən çox pis vəziyyətdədir.

Əhalinin sovet hakimiyyət orqanları ilə əlaqəsi pisdir. Kooperativ işi zəifdir.

Naxçıvan fəhlələri mənzil şəraitinin ağır olmasından, kollektiv müqavilələrin tez-tez pozulmasından və administrasiyanın kobud rəftarından şikayət edirlər. Respublikada fəhlə azdır – 700 nəfərdən bir az çoxdur. Respublikanın əhalisinin sayı da olduqca azdır.

Sovet aparatında əhalinin yaxşı tanıdığı çoxlu keçmiş çar məmurları işləyir. Bu da kəndliləri qıcıqlandırır. Yerlərdə bəylər və hətta bir sabiq qubernator hakimiyyət nümayəndələrinə çevrilmişlər. Kəngərli bəylərinin qohumları çoxlu sovet vəzifələri tutmuş və demək olar ki, bütünlüklə kommunist partiyasına daxil olmuşlar.

Təftişin nəticələrinə əsasən, Ordubad mülkədarının oğlu olan, kəndliləri sıxışdıran, 15 min rubl xalq pulunu mənimsəyən xalq daxili işlər komissarı Babayev həbs edilmişdir.

Həmçinin iri bəy, keçmiş qubernator olan, müsavatçıların dövründə qolçomaqları himayə etməsi ilə ad çıxaran xalq torpaq komissarı Mahmudbəyov həbs olunmuşdur.

Bundan əlavə, Ordubad zənginінin oğlu olan xalq maliyyə komissarı Dadaşov, keçmiş qorodovoy, xalq ədliyyə komissarı Qurbanov, iri bəy, "İttifaq"ın ( kooperativlər ittifaqı) sədri Kəngərlinski, müsavatçılar dövründə Milli Şuranın keçmiş üzvü, məhkəmə sədri Şirvanzadə, müsavatçı, Həmkarlar İttifaqı Bürosunun sədri Mahmudov həbs edilmişlər.

Onlardan başqa görkəmli vəzifə tutan 25 bəy həbs olunmuşdur. Onların arasında talançı, keçmiş zabit, erməni qırğınının iştirakçısı olan xalq maarif komissarı Münşiyev və keçmiş jandarm və müsavatçı olan kommunal təsərrüfat idarəsinin müdiri Əliyev xüsusilə seçilir.

Həbslər yerli əhalidə olduqca xoş təəssürat oyatmış, onların sevincinə səbəb olmuşdur.

*("Правда" qəzeti, 9 aprel 1925-ci il, № 81)*

Elə həmin gün, 1925-ci il aprelin 8-də Zaqafqaziya Federasiyasının baş qəzeti – Kommunist Partiyası və Zaqafqaziya SSR-in ruporu "Zarya Vostoka" tələm-tələsik çıxış etdi. Bu təhlükəli situasiyanı izləyən "Bakinski raboçi" qəzeti isə gözləmə mövqeyi tutaraq hələ susurdu.

## NAXÇIVAN DİYARININ TƏHQİQİ

**Bakı, 8 aprel.** Naxçıvan Diyarının təhqiqi üzrə Komissiya aşkar etmişdir ki, Sovet hakimiyyəti əslində bəylərin, ağaların və polislərin əlində əsir olmuşdur. Onlar nəinki müəssisələrə, hətta partiya orqanlarına da soxula bilmişlər. Aprelin altısına keçən gecə komissiyanın sərəncamına əsasən Ordubad mülkədarının oğlu, kəndlilərə zülm edən, 15 min rubl xalq pulunu mənimsəyən xalq daxili işlər komissarı Babayev; iri bəy, torpaqları ələ keçirməkdə qolçomaqlara kömək edən, Zəngibasarın keçmiş müsavatçı qubernatoru olmuş xalq torpaq komissarı Mahmudbəyov; Ordubad zənginin oğlu, öz sui-istifadələri, kəndlilərə qarşı kobud rəftarı və qolçomaqlara himayədarlıq etməsi ilə məşhur olan xalq maliyyə komissarı Dadaşov; keçmiş kobud qorodovoy xalq ədliyyə komissarı Qurbanov; iri bəy olmuş "Naxittifaq"ın sədri Kəngərlinski; müsavatçı Milli Şuranın keçmiş üzvü, intriqaçı-karyerist məhkəmə sədri Şirvanzadə; bir çox sui-istifadələrdə və qolçomaqları himayə etməkdə ittiham edilən Şərur İcraiyyə Komitəsinin sədri Qasımov; müsavatçı Həmkarlar İttifaqı Bürosunun sədri Mahmudov; talançı, keçmiş zabit olan xalq maarif komissarı Münşiyev; Şərurda keçmiş müsavatçı qəza rəisi olmuş ictimai işlər müstəntiqi Sofiyev; müsavat dövründə jandarm olmuş kommunal təsərrüfat idarəsinin müdiri Əliyev; keçmişdə pristav olmuş muzdurlar ittifaqının katibi Hacıağalarov; milisə başçılıq edən Bənənyar ağaları Tahirov Yusif xan və Murad xan Naxçıvanlı; kənd təsərrüfatı bankının müdirindən tutmuş Xalq Maliyyə Komissarlığının maliyyə şöbəsinin müdirinədək müxtəlif vəzifələrdə olan doqquz Kəngərli bəyi həbs edilmişdir. Bu həbslər əhaliyə böyük təsir göstərmişdir.

Komissiya aydınlaşdırmışdır ki, kənd təsərrüfatı olduqca pis vəziyyətdədir. Su məsələsi və torpaq quruşu həll edilməmişdir. Kəndlə əlaqə yoxdur. Hakimiyyət əhalidən uzaq düşmüşdür. İnzibati aparatda hakimiyyəti nüfuzdan salan və kəndliləri qıcıqlandıran çoxlu keçmiş çar məmurları var. Kənddə partiya işi, demək olar ki, aparılmır.

Komissiya yerlərə səfər etmişdir. Duz mədənlərinin fəhlələri pis təchizat, administrasiyanın kobud rəftarı və dözülməz mənzil şəraiti barədə çoxlu şikayət ərizəsi vermişlər. Müxtəlif kəndlərdə kəndlilər tərəfindən 700 ərizə verilmişdir. Ərizələrin əksəriyyəti maddi yardım göstərilməsi barədə xahişlərdən ibarətdir. Komissiya tərəfindən su və torpaq məsələlərində yol verilən sui-istifadə halları araşdırılmışdır.

Məhbus yerlərinə baxış üzrə alt komissiya islah evində və sərhəd

dəstəsində qeyri-normallıqlar aşkar etmişdir. Nəticədə sərhəd mühafizəsinin bir sıra əməkdaşları həbs edilmiş və məhbuslarla kobud rəftara və onları döydüklərinə məhkəməyə verilmişdir. Həbsxanalardan 30 kəndli azad olunmuşdur.

Xalq Komissarları Soveti, Diyar Komitəsi, məktəblər, xəstəxanalar, uşaq evləri, qadın klubları təhqiq edilmişdir.

Nehrəm kəndinin kənd soveti xoş təəssürat oyatmışdır. Komissiya kəndlərdə bərpa işlərinin aparılması və müalicə şəbəkəsinin genişləndirilməsi üçün kənd təsərrüfatı bankına və kooperasiyaya kömək göstərilməsini zəruri hesab edir.

Komissiya, torpaq məsələsinin birinci növbədə həll olunmasını zəruri sayır.

Komissiyanın işi davam edir.

*(«Заря Востока» qəzeti, 9 aprel, 1925-ci il, № 846)*

## NAXÇIVAN DİYARININ TƏHQİQİ
### ƏSAS NƏTİCƏ

Azərbaycanın hökumət komissiyası Naxçıvan Respublikasında işlərin vəziyyətini təhqiq etmişdir. Nəticədə Naxçıvan Diyarındakı, necə deyərlər, "sovet hakimiyyəti"nin bütün rəhbərləri həbs olunmuşdur.

Necə olub ki, sovetizmin qatı düşmənləri sovet bayrağı altında gizlənərək bütöv bir diyarın başına keçə biliblər?

Burada biz, hətta açıq mübarizədə qələbə qazanıldıqdan sonra sovet hakimiyyətinin önündə hansı çətinliklərin durduğunu göstərən parlaq bir nümunə ilə üz-üzəyik. Təkcə düşməni məğlub etmək kifayət deyil, hələ onu əvəz etmək də lazımdır. Onu isə proletariat əvəz edə bilər.

Naxçıvan Diyarı əsrlər boyu əzilən, susdurulan kəndlilərə malik geri qalmış bir ölkədir. Bu kəndlilərin rəhbəri kimi çıxış edə biləcək fəhlələr isə yerlərdə yoxdur. Sovet hakimiyyətinin orada bərqərar olmasının bütün çətinliyi də, sovetizmin qatı düşmənlərinin hakimiyyət aparatına yol tapmasının mümkünlüyü də elə bundadır.

Ancaq Naxçıvan hadisəsi, eyni zamanda bizim federasiyanın başlıca mərkəzlərinin ucqar, geridə qalmış bölgələrlə əlaqəsinin hələ nə qədər zəif olduğunu göstərir. Bizim bu çatışmazlığımız, bizim bu səhvimiz onların aradan qaldırılması ilə bağlı bütün lazımi tədbirlərin görülməsi üçün xüsusi qeyd olunmalıdır.

Düşmənlər Naxçıvan hadisəsi ilə əlaqədar çox sevinmək istəyəcəklər. Ancaq bunun üçün onların əlində o qədər də çox əsas

yoxdur. Məlum olur ki, onlar yalan yolu ilə bizim bir mövqeyimizi öz əllərində saxlayıblar. Bu yalan ifşa olunmuşdur, həmin mövqe düşmənlərimizin əlindən geri alınmışdır və Azərbaycan Respublikası, eləcə də bütün Zaqafqaziya Sovet Federasiyası Naxçıvan zəhmətkeşlərinə öz vətənlərində əsil sovet hakimiyyətini qurmaqda kömək edəcəkdir. Yəni əslində, antisovet ünsürlər burada məğlubiyyətə uğramışlar.

Və daha bir şey. Biz səhv edə bilərik, düşmənlərimiz bizim cəbhənin bu və ya digər sahəsini ələ keçirə bilərlər. Ancaq sovet hakimiyyəti məhz elə buna görə inqilab hakimiyyətidir. Milyonlarla kütlənin hakimiyyəti öz səhvini açıq şəkildə anlamaq və onu qəti surətdə inqilabi yolla aradan qaldırmaq – düşmən hücumunu dəf etmək imkanına malikdir.

Naxçıvan hadisəsinin əsas siyasi nəticəsi:

– Kütlə ilə daha çox, daha sıx əlaqə saxlamaq, sovet orqanlarının partiya işini sistematik şəkildə yoxlamaq, kütlənin səsinə daha diqqətlə, daha həssaslıqla qulaq asmaq lazımdır!

*(«Заря Востока» qəzeti, 10 aprel, 1925-ci il, № 847)*

Razılaşaq ki, “Zarya Vostoka”nın bu redaksiya məqaləsindən nəsə qeyri-sağlam bir lovğalıq iyi gəlir. Dağılmış, səfalətə düçar olmuş bir respublikada, təbii ki, uğurlu bir işdən və normal, hətta ünsürar məişətdən söhbət gedə bilməz – Naxçıvan SSR-də, necə deyərlər, “sovet hakimiyyəti”nin bütün rəhbərləri həbs olunmuşdur. Deməli, Respublikaya anarxiya gətirilmişdir, orada həyat yaxşılaşmaq əvəzinə daha da pisləşəcəkdir.

Gəlin bir anlığa belə bir situasiyanı təsəvvürümüzə gətirək: buraya göndərilən və hətta bu qədim diyarın yoxsulluğuna və geriliyinə gerçəkdən ürəyi yanan bir partiyaçı hakimiyyətdən onu zəngin və çiçəklənən bir diyara çevirmək əmri alandan sonra bu siyasi nəticə ilə silahlanaraq, məharətlə Naxçıvan Muxtar Respublikasında dirçəliş görüntüsü yaratmağa başlayır! O zaman sıravi, sadəlövh və düzünə danışan naxçıvanlı bu barədə yalnız bunu deyəcək: *“Düşmən hücumunu dəf etmək üçün partiya putyovkası ilə Respublikaya daha bir əcaib adam göndəriblər”*. Kaş ki, bir olaydı. Partiyanın çağırışı ilə Naxçıvan Muxtar Respublikasının hüdudlarından kənarda yüzlərlə partiyaçı səfərbər olundu. Partiya bileti olan və olmayan, yerli şəraiti bilməyən,

bəzən isə səriştəsiz olan bu yad adamlar yoxsul və dağıdılmış diyara doluşdu, Respublikanın bərpası üçün lazım olan pul resurslarını ayırmadan onlara burada çiçəklənən bir bölgə yaratmaq tapşırıldı.

Bolşeviklər nə qədər arzulasalar da, belə bir xoşbəxtlik bu qədim diyara nə o vaxt, nə də sonra – mənəviyyatsız dinsizlər hakimiyyətdə ikən qismət olmadı. Maddi cəhətdən yoxsulluğa əlavə olaraq, onlar Naxçıvan diyarına mənəvi yoxsulluq da gətirdilər. Heç bir Bağırov və onun kimiləri naxçıvanlıları anlamadıqları bolşevik prinsipləri ilə yaşamağa, hətta mauzer lüləsi altında belə, məcbur edə bilməzdi. Bu dəyanətli diyar qəm, qəmqüssə içində boğulsa belə, öz qəlbini şeytana satmadı, ona təslim olmadı.

İndi sözü Azərbaycanın birinci şəxslərindən birinə, Naxçıvan Diyarının sovetləşməsində bilavasitə iştirak etmiş olan Əliheydər Qarayevə veririk. Axı, bu diyarın daşnaklar tərəfindən xarabazara çevrildiyi, minlərlə qaçqını qəbul edən bu diyarın bir neçə ildir aclıqdan və xəstəliklərdən qırılma həddində olduğu ona yaxşı məlum idi. Qarayev bilirdi ki, Naxçıvan Diyarı sovetləşəndən sonra Sovet Azərbaycanın rəhbərliyi tərəfindən unudulmuş və bir kənara atılmışdı.

SSRİ Xalq Komissarları Sovetinin sədri Naxçıvanda olarkən bu diyarın yoxsulluq və səfalət içində olduğunu görəndə, ittifaq rəhbərliyi tərəfindən tədbir görüləcəyindən qorxaraq, guya Naxçıvan Respublikasını burada sovet hakimiyyətini ələ keçirmiş olan düşmən ünsürlərdən xilas etmək üçün oraya təcili surətdə xüsusi səlahiyyətlərə malik hökumət komissiyası göndərildi. Bu axmaqlıq bolşeviklər tərəfindən həqiqət kimi qəbul olundu və sovet hakimiyyəti dövründə heç vaxt təkzib edilmədi.

Əslində, Qarayev Naxçıvan Respublikasında baş verən beşillik faciənin əsas günahkarlarından biridir və gəlin baxıb görək, tövbə üçün onun partiya və yaxud sadəcə vətəndaşlıq cəsarəti çatacaqmı? Gəlin, yoldaş Qarayevlə birlikdə söhbət edək.

## NAXÇIVAN DİYARINI KİM İDARƏ EDİRDİ?
### (AKP MK-nin katibi yoldaş Qarayevlə söhbət)

Naxçıvan Diyarı nə üçün belə bir vəziyyətə düşdü? Məlum olduğu kimi, Oktyabr inqilabına qədər Naxçıvan diyarı feodal quruluşunun bütün gözəlliklərini yaşamışdır. Bütün Naxçıvan Diyarı bir neçə iri bəy, xan və ağanın: Şahtaxtinskilərin, Naxçıvan xanlarının, Sofiyev ağalarının, Bənənyar mülkədarlarının, Kəngərli, Kələntərli ağaları və digərlərinin əlində idi. Ölkəni jandarmdan tutmuş qubernatora qədər müxtəlif vəzifələrdə çarizmə qulluq etmiş olan bax bu cənablar idarə edirdilər. Çarizm dövründə də, fevral inqilabından sonra da onlar hakimiyyət başında dayanmışdılar.

Naxçıvan Diyarında millətlərarası qırğın zamanı, bu cənablar müxtəlif bandit dəstələrinin başında dayanaraq, gah türk, gah da erməni kəndlərini tar-mar etmişlər. Korafəhm, geridə qalmış kütlə onların ardınca getmişdir.

Sovetləşmə günlərində biz Naxçıvan Diyarını keçmiş bəy-xan hökumətindən dağıdılmış vəziyyətdə almışdıq. Dəmir yolları, dəmiryol stansiyaları tamamilə dağıdılmış, yandırılmışdı. Naxçıvan Diyarının şəhər və kəndləri xarabalıqlara çevrilmişdi. Kənd təsərrüfatı qəti şəkildə tənəzzülə uğramışdı. On minlərlə əhali öz həyatını müsavat və daşnaq qılıncından xilas etmək üçün yurd-yuvasını tərk edərək Türkiyəyə, Şimali Qafqaza və yaxud Zaqafqaziyanın müxtəlif məntəqələrinə qaçmışdı.

Sovetləşmədən sonra, sanki, vəziyyət yaxşılaşmalı idi. Ancaq obyektiv səbəblər üzündən o dəyişmədi. Sovetləşməyə qədər Naxçıvanın fəhlə və kəndliləri kommunist partiyası haqda heç bir anlayışa malik deyildilər. Naxçıvan Diyarında partiyanın heç bir təşkilatı yox idi. Sovet hakimiyyəti ilə birlikdə kommunist partiyası da buraya gəldi.

Naxçıvan Diyarının fəhlə və kəndlilərinin geriliyindən istifadə edən dünənki ağalar bu gün qırmızı rəngə boyanaraq, burada kommunist partiyası təşkil etməyə və sovet aparatına

rəhbərlik etməyə başlayıblar. Möhkəm və sınaqdan çıxmış partiya təşkilatının yoxluğu sovet quruculuğu işlərinə güclü şəkildə pis təsir etmişdir.

Komissiya hansı işləri yerinə yetirib?

Komissiya müəyyən edib ki, sovetləşmənin elə ilk günlərindəcə dünənki müsavat partiyası sədri və yaxud dünənki pristav, qorodovoy, qubernator bu gün partiyaya yazılıblar. Onlar öz keçmişlərini bu günə qədər gizlətmişlər. İri bəy, mülkədar Kəngərlinski özünü kəndli oğlu kimi qələmə vermişdir. Məşhur zəngin Babayevin oğlu isə fəhlə oğlu kimi və s. və il.

Partiya sıralarında 1921-ci ildə aparılan təmizləmə işi bu cür ünsürləri, necə lazımdır, üzə çıxarıb kənara ata bilməmişdir. Bundan əlavə, mərkəzdəki işçilər də ya kütlüklərindən, ya da ağılsızlıqlarından ətraflarındakı mühiti lazımi səviyyədə öyrənməmişlər. Siyasi cəhətdən səbatsız və qeyri-kommunist ünsürlər, əlbəttə ki, partiya və sovet hökuməti tərəfindən yürüdülən xətti həyata keçirə bilməzdilər. Nəticədə nə baş verdi?

Naxçıvan Diyarındakı sovet müəssisələrində təkcə 20-yə yaxın Kəngərli bəyi çalışır. Onlardakı iri Bənənyar bəylərinin sayı – 6, Sofiyevlərin sayı – 4, qorodovoyların, məhəllə nəzarətçilərinin, jandarmların sayı isə hesabsızdır. Keçmiş pristav hansı yollasa muzdur ittifaqının içinə soxulmuş və onun başına keçmişdir. Sovet gerçəkliyi üçün əfsanəvi bir mənzərə yaranır. Naxçıvan Diyarının bütün bəla və bədbəxtliklərinin kökü bu subyektlərin onu ələ keçirməsindədir. Komissiyanın qarşısında bu təşkilatı təmizləmək, Naxçıvan Diyarını bu ünsürlərdən təmizləmək vəzifəsi dayanırdı.

Hələlik bizim tərəfimizdən 40-a qədər adam həbs edilmiş və sürgün olunmuş, müəssisələrdən 20 nəfər atılmış və təxminən bu sayda adam da təmizlənməlidir.

Komissiya Naxçıvan Diyarında kənd təsərrüfatının, su və torpaq məsələsinin sağlamlaşdırılması üçün gərəkli olan bir sıra qərarlar qəbul etmişdir.

*(«Заря Востока» qəzeti, 10 aprel, 1925-ci il, № 847)*

Ə. Qarayev torpaq məsələsinə toxunduğu üçün onun Naxçıvan xatirələrindən bir sitat gətirmək yerinə düşərdi. AK(b)P-nın katibi partiyaçıya xas səthi bir düşüncə ilə Naxçıvan kəndlisini tələm-tələsik tənbəl adlandırarkən onun daxilən necə zəhmətsevər olduğunu bilirdimi?


Əliheydər Qarayev

*"Mən may ayında Naxçıvanda olarkən, belə bir mənzərənin şahidi oldum. Kəndli öz komasının önündə oturub milçək öldürürdü. Soruşdum ki, niyə tarlaya getmirsən, axı indi may ayıdır, işləmək lazımdır? Kəndli cavab verdi: "Sovet hökuməti yaxşı hökumətdir, qoy o bizə traktor versin". Beləliklə, kəndli gözləyir ki, sovet hökuməti yer qazsın, əkin əksin, özü isə ancaq məhsul yığmağa getsin. O özü işləmək istəmir, tənbəllik edir. Alman kəndlisi isə başqa şeydir. Alman kəndlisi gecə-gündüz, yay, payız, qış demədən öz üzüm bağında işləyir. O daim bu bağın ətrafında dolaşır və böyük gəlir götürür..."*

*(А.Г. Караев. Бакинский пролетариат и Азербайджанская деревня. АЗГИЗ, Баку, 1929, səh. 39. )*

Sadə Naxçıvan kəndlisi bu qədər yüksək vəzifəli, yeri gəlmişkən, heç vaxt torpaqda işləməmiş olan bu partiya rəhbərinə cavab verməyə cürət etmir ki, alman kəndlisinin becərdiyi torpaq onun öz torpağıdır, nə üçün işlədiyini yaxşı bilir, alman kəndlisi öz hakimiyyətinə etibar edir.

Almaniyada da dünya inqilabı baş versəydi, alman kəndlisinin də torpağı əlindən alınıb ümumi mülkiyyətə verilsəydi, alman kəndlisinin də gecə-gündüz "heç kimin olmayan" bir torpaqda işləmək həvəsi dərhal ölərdi.

"Zarya Vostoka"nın elə həmin nömrəsində Naxçıvan Muxtar



Mircəfər Bağırov

Respublikasını təhqiq edən baş müfəttiş M.Bağırovun da mövqeyi dərc olunub. Ona nə üçün diyarın indiyə qədər təhqiq edilmədiyi barədə sual verməsinlər deyə, Bağırov özünə xas bir fəndgirliklə cavab verir ki, *"Naxçıvan Diyarı mərkəzdən uzaq olduğuna görə təhqiq edilməmiş qalmışdır"*. Necə olub ki, təcrübəli çekist Bağırov orada əksinqilabçıların yuva saldıqlarını uzaqdan olsa belə, duya bilməyib. Adamın inanmağı gəlmir.

Bu quldur "təhqiqdən" sonra fəlakət içərisində olan Naxçıvan SSR-də vəziyyət qaydasına düşüb yaxşılaşacaqmı? Oxucu bu barədə özü nəticə çıxaracaq.

## TƏHQİQATIN NƏTİCƏLƏRİ

### (Naxçıvan Diyarının təhqiqi üzrə Komissiyanın sədri yoldaş Bağırovla söhbət)

Naxçıvan Diyarının bu cür detallı şəkildə təhqiq olunmasının başlıca səbəbi yoldaş Rıkovun həmin diyara səfərdən sonra müvafiq təklifi olmuşdur. Digər bir səbəb bundan ibarətdir ki, ötən il AKP MK və Azərbaycan MİK tərəfindən, Naxçıvan Diyarı istisna olunmaqla, bütün qəzalarda maliyyə və təsərrüfat vəziyyəti səthi təhqiq edilmişdir. Naxçıvan Diyarı mərkəzdən uzaq olduğuna görə təhqiq edilməmiş qalmışdır. Bununla əlaqədar olaraq, AKP MK-də qərara alındı ki, AKP MK, AHİŞ, XDİK, Xalq Maliyyə Komissarlığı Müvəkkilliyi, Fəhlə-Kəndli Müfəttişliyi və Azərbaycan Fövqəladə Komissiyası kimi partiya və sovet təşkilatlarının 8 nümayəndəsindən ibarət texniki komissiyadan əlavə, oraya mənim rəhbərliyim altında Qarayev, Dövlətov, Qorobçenko yoldaşlar və Zaqafqaziya XKS-nin nümayəndəsindən, – bunun üçün yoldaş Kvantaliani irəli sürüldü, – ibarət beşlik tərkibində məsul komissiya göndərilsin.

Texniki komissiya öz işinə martın 22-dən başladı. Biz isə oraya

martın 31-də çatdıq, beləliklə, bizim gəlişimizə qədər texniki komissiya artıq bir sıra kənd sovetlərini, rayon icraiyyə komitələrini, Şərur və Ordubad olmaqla iki qəza icraiyyə komitəsini təhqiq etmişdi.

Texniki komissiyanın yerlərə səfərləri ilə kifayətlənməyərək, biz özümüz bir sıra kəndlərdə: Qaraxanbəyli, Yamxana, Buqlan, Nehrəm, Yuxarı və Aşağı Əylis kəndlərində, həmçinin Ordubad qəza partiya və sovet aparatlarında təhqiqat apardıq. Naxçıvan Diyarının fəhlə rayonlarından Lenin adına duz mədənini və Şərur rayonun Yengicə kəndindəki pambıq zavodunu ziyarət etdik.

Göstərilən rayon və yerlərdə şəxsən ziyarət nəticəsində aldığımız təəssüratlardan başqa, ümumi mənzərəni tərtib etmək üçün bizim ixtiyarımızda bir sıra materiallar, yəni yerli sakinlərin 4000-ə yaxın ərizəsi, müxtəlif komissiyaların, üçlüklərin (yəni, məhbus yerlərinin təhqiqi üzrə üçlük, Naxçıvan Siyasi Bürosunun və Naxçıvan sərhəd dəstəsinin təhqiqi üzrə üçlük, yazılı şikayət və şifahi müraciətlərin araşdırılması üzrə üçlük) təhqiq aktları, yoldaş Həmid Sultanovun iki məruzəsi və s. vardı. Beləliklə, bizim əlimizdə olan materiallar kifayət qədər idi.

Bütün bu materialları araşdırma və öyrənmə prosesində komissiya aşağıdakı nəticəyə gəlmişdir.

Azərbaycanın mərkəzindən uzaqda yerləşən Naxçıvan Diyarı sabiq iri mülkədarlardan, xan və bəylərdən, Nikolay və müsavat dövrünün polis və jandarmlarından ibarət olan, partiya və sovet aparatına soxulmuş təsadüfi ünsürlərin əlinə verilmişdir. Azərbaycandan göndərilən tək-tək işçilər, təəssüf ki, onlardan çox da uzağa getməmişlər. Beş il ərzində onlar cinayətkar ünsürü gizlətmək və müdafiə etmək yolu ilə Naxçıvanın sovet və partiya təşkilatlarında hakimiyyəti öz əllərinə keçirmişlər. Onlar bir vaxtlar çiçəklənən və zəngin olan, milli qırğınlar nəticəsində dağıdılan diyarın axırına çıxmış, onu tamamilə yoxsul vəziyyətə salmışlar.

Heç şübhəsiz, Naxçıvan Diyarında sovet hakimiyyəti birinci partiya təşkilatında möhkəmlənməli idi. Bizim təhqiqatımız müəyyən etdi ki, müxtəlif şübhəli şəxslər: Vedibasar rayonun sabiq iri mülkədarı və erməni-müsəlman qırğının fəal təşkilatçısı Mahmudbəyov, keçmiş müsavat zabiti, 1920-ci ildə əksinqilabi fəaliyyətə görə Azərbaycanın xüsusi şöbəsində həbsdə yatan, 11 000 dövlət pulunu mənimsəyən, qatı rüşvətxor Babayev, İrəvan polis idarəsinin sabiq qulluqçusu, fəal uşaqbaz Şirəlizadə, müsavat partiyasının sabiq fəal üzvü, məşhur talançı və erməni qırğının rəhbəri Kalbalı xan Naxçıvanlının yaxın silahdaşı Mahmudov, sabiq uryadnik Seyidov, sabiq qorodovoy Qurbanov və bu kimi sıra ünsürlər nəinki Naxçıvan partiya təşkilatının sıralarına soxulmuş, hətta ona başçılıq etmişlər.

Buradan da, yerində aparılan təhqiqatın təsdiq etdiyi aydın nəticə: diyarda partiya işçilərinin yoxluğu meydana çıxır. Partiya kütləyə məlum olsa da, partiyaya qəbul haqda bizə verilən bir çox ərizələrdən də göründüyü kimi ərizə sahibləri partiyaya şəxsi rifah mənbəyi kimi baxırlar. Necə deyərlər, Naxçıvan “kommunistləri”nin , istisnasız olaraq hamısı asan qazanc əldə etməklə məşğul idilər.

Buna görə də komissiya bu qənaətə gəldi ki, bu kimi və bunlara bənzər şəxsləri partiyadan xaric etməklə kifayətlənmədən, Zaqafqaziya Diyar Komitəsindən və AKP MK-dən Naxçıvan partiya təşkilatının buraxılmasını və onun əvəzinə yeni bir təşkilatın yaradılmasını xahiş etsin. Bundan əlavə, komissiya Zaqafqaziya Diyar Komitəsindən və AKP MK-dən Naxçıvan Diyarının bütün keçmiş məsul işçilərinin son dərəcə ciddi şəkildə məsuliyyətə cəlb olunmasını xahiş edəcəkdir, çünki onlar Naxçıvan Diyarında nələr törədildiyi barədə indiyə kimi nə AKP MK-nə, nə də Azərbaycan XKS-nə heç bir məlumat verməmişlər.

Sovet quruculuğu ilə bağlı nəticələrə keçərkən qeyd etmək lazımdır ki, Naxçıvan Diyarında sovet aparatı strukturunda tamamilə qarmaqarışıqlıq hökm sürürdü. Yəni, MİK-nin sədri eyni zamanda XKS-nin sədri idi.

Bu isə tam savadsızlıq, sovet konstitusiyasının əsaslarından tamamilə xəbərsiz olmaq deməkdir.

Ərazisi 547496 desyatinə bərabər və əhalisi 120 min nəfərə yaxın olan diyar təxminən Göyçay qəzası boydadır. Nədənsə o, üç qəzaya, 12 rayona və 84 kənd sovetinə bölünüb. Kənd sovetləri və rayonların sayı ilə razılaşmaq olar, ancaq etiraf etmək lazımdır ki, qəzalar süni şəkildə onlarla işsizi, keçmiş pristavları bu qəzalarda rəhbər vəzifələrdə oturtmaq üçün yaradılıb.

Sovet hakimiyyətinin Naxçıvan Diyarında mövcud olduğu beş il ərzində Naxçıvanın, necə deyərlər, “mərkəzi” işçilərindən heç biri aşağı səviyyəli sovet aparatını təlimatlandırmaq üçün kənddə olmağı özünə rəva bilməmişdir. Əgər onlar oraya gediblərsə də, çox nadir hallarda gediblər.

Məsələn, Nehrəm kəndi sakinlərinin danışdıqlarından məlum olur ki, məşhur xalq daxili işlər komissarı ildə bir dəfə əlində tapança kəndə gəlirmiş və yaxud Naxçıvan Diyarı xalq Komissarları Sovetinin sədri ova çıxırmış, həm də özü ilə 50-60 atlı götürürmüş. Kəndlilər öz şikayətlərini bildirmək üçün qorxudan nəinki Naxçıvan hökumətinin başçısına yaxın düşə bilmirmiş, hətta ov günləri onlar ovu qorxutmamaq üçün evlərindən bayıra çıxmamalı imişlər.

Naxçıvan Diyarında “sovet” işinin gerçək mənzərəsi belədir.

Komissiyanın bununla əlaqədar olaraq, sovet aparatının yenidən

təşkili və möhkəmləndirilməsi barədə konkret təklifləri vardır.

Naxçıvan Diyarının iqtisadi vəziyyətinə toxunarkən qeyd etmək lazımdır ki, diyar keçmiş Naxçıvan qəzasını və Şərur-Dərələyəz qəzasının yarısını əhatə edir, təkcə Zaqafqaziya deyil, bütün Rusiya üçün böyük iqtisadi və ticari əhəmiyyət daşıyır, çünki Naxçıvan Diyarı İrana tranzit keçid yolu olub, indi elədir.

88 min desyatin şumluq torpağın yalnız 40 mini əkilir, onların da 30 minində dənli bitkilər, 10 minində isə pambıq becərilir.

Bunun səbəbi ondadır ki, suvarma mənbəyi olan 166 kəhrizdən indi yalnız 20-si fəaliyyət göstərir. Komissiya diyarda kənd təsərrüfatının bərpa edilməsi üçün suvarma sisteminin genişləndirilməsini birinci dərəcəli vəzifə hesab edir.

Diyarda mövcud olan 250 kənddən 10-u tamamilə, 50-yə yaxını yarı dağılmış vəziyyətdədir, qalanları da həm canlı, həm də cansız kənd təsərrüfatı inventarının yoxluğu üzündən böhranlı vəziyyətə düşmüşdür. Təcili qaydada Naxçıvan Diyarına kənd təsərrüfatı inventarları sarıdan köməklik göstərmək lazımdır. Ancaq bu kömək Naxçıvanda kənd təsərrüfatı bankının əsas kapitalı 300-400 min rubldan az olmayan, maksimum güzəştlərə malik şöbəsinin açılması ilə həyata keçirilə bilər, çünki müəyyən edilmişdir ki, Naxçıvan Diyarında kredit cəmiyyətləri tərəfindən tutulan 21% istənilən növ sələmçilikdən daha pisdir və onsuz da müflis hala düşmüş kəndliləri daha da müflisləşdirir.

Naxçıvan Diyarının bərpası üçün gərəkli olan sonrakı konkret təkliflərin üzərində dayanmadan, – çünki belə təkliflər olduqca çoxdur, Culfa – Təbriz xətti üzrə dəmiryolu hərəkətinin nizama salınmasının zəruriliyini qeyd etməyi lazım bilirəm. Bizdə olan məlumatlara görə, hazırda Naxçıvan Diyarının ərazisinə daxil olan məntəqələrdən (Culfa, Şahtaxtı və s.) keçməklə 1913-cü ildə o baş-bu başa 24,5 milyon rubl məbləğində mal daşınmışdır.

Bizim təhqiqatımız barədə söhbətə yekun vuraraq deməliyəm ki, indi partiyamızın diqqəti Türkiyə və İranla bilavasitə qonşu olan bu diyara yönəlməlidir, çünki həmin ölkələrin zəhmətkeşlərinin nəzərləri bizə tərəf yönəlmişdir.

Biz diqqətimizi ilk növbədə Naxçıvan Diyarında partiya təşkilatının sağlamlaşdırılması, sovet aparatının, xüsusilə də onun aşağı pilləsinin möhkəmləndirilməsi və kənd təsərrüfatının bərpası üzərində cəmləməliyik.

Bütün bunları yalnız o şərtlə həyata keçirmək mümkündür ki, gərək biz Naxçıvan Diyarına işçilərin sürgün yeri kimi baxmayaq – təəssüf ki, indiyə qədər belə hallar da olub.

Azərbaycanın və Zaqafqaziyanın məsul işçiləri ilə etdiyim söhbətlər məndə belə bir əminlik yaradıb ki, nəzərdə tutduğumuz

bütün tədbirlər həyata keçiriləcəkdir.

Naxçıvanda həbs etdiyimiz bütün məsul işçilər məhkəməyə verilmişlər və Naxçıvan Diyarında mühakimə olunacaqlar, qoy zəhmətkeş kəndlilər sovet hakimiyyətinin, onun sırasına soxulan, öz şəxsi rifahını kəndlilərin bədbəxtliyi üzərində quran bu ünsürləri necə ağır şəkildə cəzalandırdığını öz gözləri ilə görsünlər.

*(«Заря Востока» qəzeti, 10 aprel, 1925-ci il, № 847)*

Xüsusi komissiya hələ Naxçıvandan geri qayıtmamışdı, Azərbaycanın baş qəzeti isə səbirsizliklə öz oxucularına Naxçıvan Respublikasında necə dəhşətli hadisələrin üzə çıxarıldığı barədə söhbət açırdı. Bir yerdə ki, hakimiyyət *“bir neçə Şahtaxtinski, Naxçıvanlı, Sofiyev, Bənənyarski, Kəngərlinski və s. ağa, xan və bəylərinin”* əlində idi, *“türk və erməni kəndlərini dağıdan” “bandit dəstələrinin”* başçıları orada ağalıq edirdi, onda onu Sovet Respublikası adlandırmaq olardımı?

## NAXÇIVAN DİYARININ SAĞLAMLAŞDIRILMASI
## *(Xüsusi müxbirimizdən teleqrafla)*
## Sovet aparatının təmizlənməsi
## AKP MK-NİN KATİBİ QARAYEVLƏ SÖHBƏT

**Naxçıvan Diyarında nə üçün belə bir vəziyyət yaranıb?**

Bir neçə Şahtaxtinski, Naxçıvanlı, Sofiyev, Bənənyarski, Kəngərlinski və s. ağa, xan və bəylərinin əlində olan Naxçıvan Diyarı oktyabra qədər feodalizm dövründə yaşayıb. Oktyabra qədər jandarmdan tutmuş qubernatora qədər müxtəlif vəzifələrdə olan bütün bu xan və bəylər, fevraldan sonra da ölkəni idarə etmişlər. Milli qırğın zamanı onlar bandit dəstələrinin başında dayanıb, geridə qalmış kütləni öz arxalarınca apararaq, türk və erməni kəndlərini dağıtmışlar.

Sovet hakimiyyəti diyarı dağılmış vəziyyətdə almışdı: dəmiryolları, şəhərlər və kəndlər tar-mar edilmiş, uçurulmuş, əkinçilik sıradan çıxmış, on minlərlə əhali qaçqın düşmüşdü. Sovet hakimiyyətinin diyara gəlişi ilə, dünənki hakimlər, rənglərini dəyişərək, “kommunist partiyası” təşkil etmiş və sovet aparatının başına keçmişlər. Kəndlilərin avamlığı, geriliyi və fəhlələrin sayca az olması onların işini asanlaşdırmışdır.

**Komissiya nələri üzə çıxarmışdır?**

Dünənki qorodovoy və qubernatorların sovetləşmənin elə ilk günlərindəcə öz keçmişlərini məharətlə gizlədərək, partiyaya yazıldıqlarını: bəy Kəngərlinski özünü kəndli kimi, mülkədar Babayev fəhlə

oğlu kimi qələmə vermişdir. 1921-ci il təmizlənməsi az iş görmüşdür. Mərkəzin göndərdiyi işçilər ətrafdakı mühiti vaxtında öyrənə bilməmişlər. Nəticədə sovet gerçəkliyində əfsanəvi bir mənzərə alınmışdır. Müəssisələrdə Kəngərlinskilərin sayı – 20, Bənənyarskilərin – 6, qorodovoy və jandarmların sayı isə hüdudsuz olmuşdur. Bütün bəlaların kökü məhz bundadır. Hələlik 40-a yaxın adam həbs edilmiş və sürgün olunmuşdur. Müəssisələrdə iyirmi adam işdən çıxarılmışdır. Bu qədəri də hələ təmizlənməlidir.

## Təhqiqatın yekunları
## YOLDAŞ BAĞIROVLA SÖHBƏT

Naxçıvan Diyarının təhqiq olunmasının başlıca səbəbi yoldaş Rıkovun təklifi olmuşdur. Digər səbəb isə, mərkəzdən uzaq olduğu üçün ötən il Naxçıvan Diyarının tədqiq edilməməsidir. Bununla əlaqədar olaraq AKP MK tərəfindən texniki komissiyadan əlavə, oraya mənim sədrliyim altında yoldaş Qarayev, Dövlətov, Qorobçenko və Zaqafqaziya XKS-dən Kvantalianidən ibarət məsul komissiya göndərilmişdir.

Biz gələnə qədər texniki komissiya bir sıra kənd sovetlərini, rayon icraiyyə komitələrini, iki qəza icraiyyə komitəsini təhqiq etmişdi. Buna baxmayaraq, biz bir sıra kəndləri, qəza, partiya və sovet aparatlarını təhqiq etdik. Fəhlə rayonlarından duz mədənləri və Yengicə kəndindəki pambıq zavodu ziyarət olundu. Aldığımız təəssüratlardan əlavə, bizim ixtiyarımızda sakinlərin 4000 ərizəsi, müxtəlif komissiyaların və üçlüklərin təhqiq aktları, yoldaş Həmid Sultanovun iki məruzəsi vardı.

**Gəlinən nəticələr aşağıdakı kimidir:**

Mərkəzdən uzaqda yerləşən Naxçıvan Diyarı təsadüfən partiya və hakimiyyət orqanlarına soxulmuş ünsürlərin – keçmiş xanların, bəylərin və polislərin əlinə keçmişdir. Mərkəzdən göndərilən işçilər, təəssüf ki, onlardan çox uzağa getməmişlər. Cinayətkarları gizlətmək və müdafiə etməklə onlar çiçəklənən diyarın axırına çıxmış, onu tamamilə yoxsul vəziyyətə salmışlar. Müəyyən edilmişdir ki, partiya aparatı şübhəli şəxslər: milli qırğının təşkilatçısı Mahmudbəyov, müsavat zabiti və rüşvətxor, 1920-ci ildə əksinqilabi fəaliyyətə görə xüsusi şöbədə həbsdə yatmış Babayev, keçmiş polis və uşaqbaz Şirəlizadə, talançı Kalbalı xan Naxçıvanlının silahdaşı və müsavatçı Mahmudov, uryadnik Seyidov, qorodovoy Qurbanov tərəfindən ələ keçirilmişdir. Bu "kommunistlər" partiyaya şəxsi rifah mənbəyi kimi baxaraq, asan qazanc əldə etməklə məşğul olmuşlar.

Komissiya, Zaqafqaziya Diyar Komitəsindən və AKP MK-dən Naxçıvan partiya təşkilatının buraxılmasını və onun əvəzinə yeni bir

təşkilatın yaradılmasını, Naxçıvan Diyarının keçmiş məsul işçilərinin burada bütün törədilənlər barədə mərkəzə məlumat vermədiklərinə görə son dərəcə ciddi şəkildə məsuliyyətə cəlb olunmasını xahiş etmək qərarına gəlmişdir.

Naxçıvan Diyarının sovet quruculuğunda hətta struktur cəhətdən qarmaqarışıqlıq hökm sürürdü: MİK-nin sədri həm də XKS-nin sədri idi. 120 min əhalisi olan 647 desyatinlik ərazi üç qəzaya, 12 rayona və 84 kənd sovetinə bölünmüşdü. Qəzalar süni şəkildə, işsiz qalan keçmiş pristavlara vəzifə vermək üçün yaradılmışdı. Sovet hakimiyyətinin mövcud olduğu beş il ərzində heç bir mərkəzi işçi kənddə olmamışdır.

Oraya gedəndə də məşhur Babayev kimi əli tapançalı və yaxud XKS-nin sədri kimi onlarla atlının müşayiəti altında ova getmiş, kəndlilərdən ovu qorxudub qaçırmamaq üçün evlərindən bayıra çıxmamağı tələb etmişdilər.

Komissiya belə hesab edir ki, bu diyar İrana tranzit keçid yolu kimi təkcə Zaqafqaziya deyil, həm də bütün İttifaq üçün böyük iqtisadi və ticari əhəmiyyətə malikdir.

Kənd təsərrüfatı bərbad vəziyyətdədir: 88 min desyatin şumluq torpağın yalnız 40 mini əkilir, onların da 30 minində dənli bitkilər, 10 minində isə pambıq becərilir. Belə bir tənəzzülün səbəbi ondadır ki, 166 kəhrizdən indi yalnız 20-si fəaliyyət göstərir. Buna görə də birinci növbədə suvarma sistemini genişləndirmək lazımdır. 259 kənddən 10-u tamamilə, 50-yə yaxını yarıdağılmış vəziyyətdədir, qalanlarında isə həm canlı, həm də cansız kənd təsərrüfatı inventarı yoxdur. Təcili qaydada buna ancaq Naxçıvanda əsas kapitalı 300-400 min rubldan az olmayan, maksimum kredit güzəştlərinə malik kənd təsərrüfatı bankı açmaqla köməklik göstərmək olar, çünki dağıntı şəraitində kredit cəmiyyətləri üçün tutulan 21% əsl sələmçilikdir.

Qalan konkret təkliflər arasında Culfa – Təbriz yolunun hərəkətinin nizama salınmasının zəruriliyini qeyd etmək lazımdır. Əldə olan məlumatlara görə, 1913-cü ildə Naxçıvan Diyarından keçməklə 24,5 milyon rubl məbləğində mal daşınmışdır.

Yekun olaraq demək lazımdır ki, partiyanın diqqəti Türkiyə və İranla sərhəddə yerləşən və şərq siyasəti məqsədləri üçün mühüm əhəmiyyət kəsb edən olan bu diyara yönəlməlidir.

Əgər Naxçıvan Diyarı əvvəlki kimi işçilər üçün sürgün yeri olmazsa, bunu həyata keçirmək mümkündür, təəssüf ki, indiyə qədər belə olub.

Naxçıvanda həbs edilən işçilər məhkəməyə verilmişlər və görk üçün Naxçıvan Diyarında mühakimə olunacaqlar.

*(“Bakinski raboçi”, 12 aprel 1925-ci il № 81 )*

Qeyd edək ki, dərc olunmuş söhbətdə M.Bağırov *"bu qədər iri əksinqilab yuvasının ifşaçısı"* kimi təqdim olunur. Sanki, Naxçıvanda qanuni hakimiyyət partiya və sovet işçilərinin əlindən alınıbmış. *"Sabiq iri mülkədarlar, xan və bəylər, Nikolay və müsavat dövrünün polis və jandarmları" "sovet hakimiyyəti orqanlarına soxulmuşlar". "Bu beş ildə onlar Naxçıvanın sovet və partiya təşkilatlarında hakimiyyəti öz əllərinə keçirmişlər",* sonra isə Azərbaycandan tək-tək göndərilən, əksinqilabçılardan çox da uzağa getməyən işçilərlə birlikdə *"bir vaxtlar çiçəklənən və zəngin olan, milli qırğınlar nəticəsində dağıdılan diyarın axırına çıxmış, onu tamamilə yoxsul vəziyyətə salmışlar"*. Bağırov qəsdən yalan danışır, o, 1924-cü ilin fevralında Naxçıvan MSSR-də Naxçıvan Diyarının köklü şəkildə dəyişdirilməsi üzrə komissiyanın üzvü və öz vəzifəsinə görə oradakı vəziyyətdən xəbərdar olduğunu etiraf etmək istəmir.



Mixail Vasilyeviç Frunze

Diyar çar dövründə, xanların dövründə çiçəklənən diyar olmuşdu. Sovetlər onu, əsasən də daşnaklar tərəfindən dağıdılmış vəziyyətdə ələ keçirmişdilər, bolşeviklər isə daşnaklarla həmişə eşqbazlıq etmişlər. Bolşeviklərin dövründə Naxçıvan diyarı dağılmaqda davam edirdi, aclıq başlamış, yoluxucu xəstəliklər güclənmişdi. Buna baxmayaraq, Naxçıvan faciəsinin iştirakçıları Xüsusi Komissiyanın işinin nəticələrini təbliğ etməkdən yorulub usanmırdılar. Növbəti dəfə bu, 1925-ci il aprelin 17-də Bakı şəhərində, Balaxanı rayon partiya konfransının axşam iclasında baş verdi. Azərbaycanda qonaq olan SSRİ Hərbi İnqilab Şurasının sədri yoldaş M.V.Frunze də partiya konfransının bu yekun iclasında iştirak etməyə razılıq vermişdi.

Ağzınacan dolu olan salon Qırmızı Ordu rəhbərini 15 dəqiqə ayaq üstündə hərarətlə salamladı. Yoldaş Frunzenin məruzəsi başa çatdıqdan və SSRİ Hərbi İnqilab Şurasına təbrik qəbul edildikdən sonra konfrans iştirakçılarının bayram əhval-ruhiyyəsi AK(b)P-nın katibi Ə.Qarayevin Naxçıvan MSSR-dəki vəziyyət haqqında qəfil məlumatı ilə korlandı. Onun nə üçün M.V.Frunzenin yanında belə bir məlumatla çıxış etmək qərarına gəldiyi anlaşılmazdır. Bəlkə bu düşünülməmiş, tələm-tələsik aksiyanın həyata keçirilməsində onun dəstəyinə nail olmaq istəyirdi?

## YOLDAŞ QARAYEVİN NAXÇIVAN DİYARI HAQDA MƏLUMATI

Yoldaş Qarayev orada baş verən və nəticədə Naxçıvan təşkilatının buraxılmasına səbəb olan biabırçılıqlar üzərində ətraflı dayanaraq deyir ki, biz orda işə yenidən başlamalıyıq. Xüsusilə də, Balaxanı təşkilatı bu diyar üçün ən azı 60 işçi ayırmaqla böyük kömək göstərməlidir.

Yoldaş Qarayev əmin olduğunu bildirir ki, bizim partiya bu işin öhdəsindən gələcəkdir.

Yoldaş Qarayevin məlumatı nəzərə alınır.

*(“Bakinski raboçi”, 19 aprel 1925-ci il № 87 )*

Azərbaycanın baş partiyaçısı Ə.Qarayev RK(b)P-nın son partiya göstərişini ya unudub, ya da ondan xəbərsizdir – görünür, dağıdıcı Bağırovun yedəyində gedir. Ümumiyyətlə, gənc, yeri gəlmişkən ağır vəziyyətdə olan Naxçıvan MSSR-in yaxın vaxtda yaradılan və hələ bərkiməmiş partiya təşkilatını qovmağa ehtiyac vardımı?

Kominternin Beşinci Ümumdünya Konqresində SSRİ-nin təmsilçisi A.İ.Rıkov öz çıxışında bəyan etmişdi:

*“Mən qürurla deməliyəm ki, yoldaş Lenin tərəfindən əsası qoyulan və təşkil edilən partiya, yoldaş Leninin onilliklər ərzində rəhbərlik etdiyi partiya, mənim fikrimcə, öz vəzifəsinin öhdəsindən gələ bilmişdir. Yoldaş Leninin ölümündən sonrakı bütün dövrü partiya üzvlərinin partiya daxilində sıx birləşməsi və fəhlə sinfinin kommunist partiyası ətrafında sıx birləşməsi dövrü adlandırmaq lazımdır.”*

*(“Правда” qəzeti, 19 iyun 1925-ci il, № 136)*

# PARTİYA HƏYATI

## AKP Mərkəzi Komitəsində Naxçıvan Diyarı Təşkilat bürosu

MK Naxçıvan təşkilatının Təşkilat Bürosunun 7 üzvdən və 2 namizəddən ibarət yeni tərkibini təsdiq etmişdir. Yeni üzvlərin partiyaya cəlb edilməsi üçün üç cəlbetmə komissiyası ayrılmışdır.

*("Bakinski raboçi", 17 may 1925-ci il 108)*

# İŞİ QAYDASINA SALIRIQ
## *(Naxçıvan təşkilatının buraxılması haqqında)*

RKP ZDK-nin və RKP MK-nin qərarı ilə Naxçıvan təşkilatı buraxılmışdır.

Buraxılmaya səbəb, məlum olduğu kimi, təşkilatın bizim partiyamızı yad ünsürlərlə zibilləməsi olmuşdur. Naxçıvan diyarının, əksəriyyəti proletariata və kəndlilərə düşmən olan sosial mühitdən çıxmış olan keçmiş məsul işçilərinin qohumbazlığı sayəsində keçmiş bəy və xanların oğulları, çar və müsavat məmurları, polislər və qolçomaqlar Naxçıvan təşkilatına sızmış, varlanmaq məqsədilə bizim partiyamıza soxulmuşlar.

Fəhlələr, muzdurlar və yoxsul kəndlilər nəinki öz partiyalarından kənarda qalmış, həm də Naxçıvan "kommunistləri" tərəfindən amansızcasına istismar edilmişlər. Onların "işinin" nəticəsi bu olmuşdur ki, Naxçıvan Diyarının fəhlə-kəndli kütləsi bizim partiyamızdan və sovet hakimiyyətindən üz döndərmişdir.

Naxçıvan Diyarında əsil proletar-muzdur partiyasının nüvəsini yaratmaq, həmçinin geniş fəhlə və kəndli kütlələrinin gözündə partiyanın nüfuzunu yüksəltmək üçün Zaqafqaziya Diyar Komitəsi tərəfindən Naxçıvan Diyarında AKP-nın Təşkilat Bürosu yaradılmışdır. Təşkilat Bürosu öz tərkibindən partiyaya yeni üzvlərin cəlb olunması üzrə 3 qəza komissiyası irəli sürmüşdür. Həmçinin AKP MK-nin katibi yoldaş Qarayevin sədrliyi altında mərkəzi cəlbetmə komissiyası yaradılmışdır.

Bütün cəlbetmə komissiyaları mayın 1-dən öz işinə başlamışdır. Naxçıvan təşkilatının keçmiş üzv və üzvlüyə namizədlərində olan bütün partiya vəsiqələri geri alınmışdır. Partiyaya yeni qəbul mayın 5-dən başlamışdır.

Cəlbetmə komissiyaları üçün təlimatlar tərtib edilmişdir. Naxçıvan təşkilatının buraxılması və partiyaya yeni üzvlərin cəlb olunması

haqda Naxçıvan Diyarının əhalisi və zəhmətkeşlərinə müraciətlər hazırlanmışdır.

Partiya və sovet quruculuğu məsələlərini müzakirə etmək üçün Təşkilat Bürosu tərəfindən Bakıdan gəlmiş məsul işçilərin müşavirəsi yaradılmışdır. Təşkilat Bürosu eyni zamanda aşağı pilləli sovet aparatının sağlamlaşdırılmasına başlamışdır. Bir sıra məsul işçilər işdən azad edilərək, Dairə İcraiyyə Komitələrinin işinin sağlamlaşdırılması və gücləndirilməsi üçün qəzalara göndərilmişdir.

Partiyaya cəlbetmə işindən sonra kənd sovetlərinin tərkibinin yenidən nəzərdən keçirilməsi işinə başlanılması qərara alınmışdır, bunun üçün qabaqcadan rayonlar üzrə geniş bitərəf konfransları keçiriləcəkdir.

Mərkəzdən gələn işçiləri Təşkilat Bürosu xalq komissarlıqları və müəssisələrdə yerləşdirir.

**V. Petrosyan**

*("Bakinski raboçi", 17 may 1925-ci il № 108)*

Naxçıvanın sakit, dinc həyatına xaincəsinə müdaxilə edən Bağırov komissiyasının respublikanın bütün rəhbərliyini dəyişməsinin, onun rəhbərlərini kütləvi şəkildə həbs etməsinin, Sovet Azərbaycanın dağıdılmış və ac bölgəsinin bütün fəaliyyətini iflic vəziyyətə salmasının üstündən, artıq demək olar ki, iki ay keçmişdi. Azərbaycan rəhbərlərinin inadla Naxçıvan Diyarı adlandırmaqda davam etdikləri Respublikanı, necə deyərlər "sağlamlaşdırmaq" məqsədilə öz müdhiş metodlarını işə salan Bağırov keçmiş Naxçıvan rəhbərliyini, guya Respublikada təsərrüfatın bərpası və normal həyatın qaydaya salınması ilə bağlı işləri batırmaqda günahlandırmaq üçün öz təbliğat kampaniyasını hələ də davam etdirirdi. Naxçıvan faciəsinin başlıca günahkarlarından biri, partiyaçı və çekist Bağırov indi də baş prokuror, məhkəmə hakimi və eyni zamanda **"qurucu"** rolunu öz üzərinə götürmüşdü. Xalq təsərrüfatının bütün sahələri üzrə Respublikanın inkişaf yolunun sanki, ən böyük bilicisi kimi o, Sovet dövlətinin nümunəvi əyalətinə çevrilməsi üçün Sovet Naxçıvanında nəyi və necə yaratmaq barədə öyüdlər və sərəncamlar verirdi.

## NAXÇIVAN DİYARININ BƏRPASI
## AZƏRBAYCAN SSR XALQ DAXİLİ İŞLƏR KOMİSSARI YOLDAŞ BAĞIROVLA SÖHBƏT

**Kənd təsərrüfatı sahəsində iş. – Sovet vergi aparatının sağlamlaşdırılması. – Naxçıvan Diyarında partiya aparatı. – Ümumi sağlamlaşmanın başlanğıcı. – Səfalət günahkarlarının məhkəməsi barədə**

Azərbaycan SSR xalq daxili işlər komissarı yoldaş Bağırov mayın 20-də Naxçıvan Diyarından qayıtmışdır. O, iki ay bundan əvvəl Zaqafqaziyanın yüksək orqanları tərəfindən bir sıra məsul yoldaşlarla birlikdə, bu diyardakı təsərrüfat-inzibati müəssisə və təşkilatlarının sağlamlaşdırılması işini həyata keçirmək üçün oraya göndərilmişdi. Əməkdaşımızla söhbətində yoldaş Bağırov son vaxtlarda Naxçıvan Diyarında görülən işləri qısaca xarakterizə etmişdir.

– İlk vaxtlar bizim əsas diqqətimiz işə başlamaq üçün əsas, çıxış məqamlarını aydınlaşdırmağa yönəlmişdi. Əlbəttə ki, bütün Naxçıvan Diyarında çıxış nöqtəsi kənd təsərrüfatıdır.

“Zarya Vostoka” qəzetində verilən məqalələrimin birində göstərildiyi kimi, Naxçıvan Diyarında kənd təsərrüfatının taleyi, digər yerlərdən fərqli olaraq, bütünlüklə su məsələsindən asılıdır, bu da diyarın coğrafi və iqlim şəraiti ilə izah olunur, buraya minimal miqdarda atmosfer yağışı düşür və həm də ilin elə bir vaxtında düşür ki, bu nəmlik kənd təsərrüfatına heç bir fayda verə bilmir. Buna görə də Naxçıvanın kənd təsərrüfatı bütünlüklə suvarma suyunun miqdarından asılıdır, onsuz bu diyarda heç nə bitmir.

## KƏND TƏSƏRRÜFATININ BƏRPA OLUNMASI İLƏ BAĞLI İŞLƏR

Bununla əlaqədar olaraq biz, ilk növbədə tamamilə dağılmış olan su sisteminin, cari ilin payız mövsümünə qədər heç olmasa 60-70%-nin bərpa edilməsi üçün bütün tədbirləri gördük. Demək lazımdır ki, yenidən yaradılan Kənd Təsərrüfatı Bankının və kənd təsərrüfatı kooperasiyasının qüvvəsi və vəsaiti hesabına bu iş indiyə kimi artıq 20% yerinə yetirilmişdir. Ümumiyyətlə su məsələsinə gəldikdə isə, bu məsələnin əsaslı şəkildə həll edilməsi üçün hazırda Naxçıvan Diyarında Zaqafqaziya və Azərbaycanın Su təsərrüfatı idarələri tərəfindən güclü iş aparılır.

Sonra yer quruluşu və torpaq bölgüsü işlərinə başlanılmışdır, bu iş Azərbaycan SSR Xalq Torpaq Komissarlığı tərəfindən Naxçıvan Diyarına müvafiq yerölçmə və ölçü kadrları ezam edilməklə xeyli gücləndiriləcəkdir. Bu işin 1925-ci ilin dekabrına başa çatdırılması nəzərdə tutulur.

Naxçıvan Diyarı üçün digər çox ciddi və böyük bir məsələ kəndlilərin işlək heyvanlarla təchiz edilməsidir, belə ki, təxmini hesablamalara görə diyarda tələb olunan 44 min baş işlək heyvan əvəzinə cəmi 6 min baş işlək heyvan vardır. Bizim bütün səylərimizə baxmayaraq, bu məsələ hələ müvafiq həllini tapmamışdır və müvəqqəti kompensasiya kimi, biz Naxçıvan Diyarına 10-15 traktor göndərilməsini qərara almışıq, onlar yerli əkinçilikdə uğurla tətbiq oluna bilər.

Kənd təsərrüfatı krediti və meliorasiya birliklərinə gəldikdə isə, onlar götürülən iş tempi sayəsində, işə gec başlanmasına baxmayaraq, kəndlilərə lazımi kömək göstərməyi bacarmışlar.

Hazırda Naxçıvan Diyarında Naxçıvan Kənd Təsərrüfatı Bankının 12 şöbəsi, 11 meliorasiya cəmiyyəti və 3 artel mövcuddur.

Kənd əhalisinə aqronomik və baytar yardımı göstərilməsi məsələsini verilən direktivlərə uyğun olaraq, tam şəkildə həll etmişik.

Qısa şəkildə, Naxçıvan Diyarına ezam olunan yoldaşlar tərəfindən kənd təsərrüfatı sahəsində hələlik, bax, bu işlər görülmüşdür. Lakin mühüm olanı budur ki, işdə götürülən xətt kənd təsərrüfatının gələcəkdə möhkəmləndirilməsinə zəmanət verir, həm də kəndlilərin özləri obyektiv şəraitin imkan verdiyi dərəcədə indi maksimum təşəbbüskarlıq göstərirlər.

Diyarda yoxsul kəndliləri himayə etmək üçün biz rayon və kəndlərə bilavasitə 20 000 rubla yaxın vəsait və 5000 bel göndərmişik. Pul və bel kəndlilərə bu vəsait hesabına kəndlərdə abadlığı bərpa etmək, mövcud arxları təmizləmək və yenilərini salmaq, şitil əkmək və s. şərti ilə paylanır.

## SOVET APARATI VƏ PARTİYANIN SAĞLAMLAŞDIRILMASI

Aşağı sovet aparatının işinin gücləndirilməsi və dəqiqləşdirilməsi üçün də az iş görülməyib. Bunu demək kifayətdir ki, rayon icraiyyə komitələrinin (sayı 12-dir) sədrləri vəzifəsinə qəza miqyasında çalışmış yoldaşlar ezam olunmuşlar, kənd soveti sədrləri üçün isə əksər hallarda qəza miqyaslı sabiq işçilər ayrılmışdır.

Naxçıvan Diyarının rayon və kəndlərinə sonuncu səfərim ümumən belə bir təsəvvür yaratdı ki, artıq dönüş, vəziyyətin yaxlaşması istiqamətində köklü dəyişiklik başlanmışdır.

Bir neçə kəlmə də partiya orqanlarının sağlamlaşdırılması haqqında. Naxçıvan Diyarı üzrə 750 partiya üzvündən indi yalnız cəmi 150 nəfər qalır. Bu sahədə ətraflı hesabat, güman ki, mətbuatda dərc olunacaqdır, burada isə göstərmək lazımdır ki, həyata keçirilən partiyaya cəlb olunma işi kəndlilər arasında qəti şəkildə təbəqələşmə yaratmışdır. Naxçıvan Diyarındakı bütün qolçomaqlar başabəla kommunistlərin ətəyindən yapışdığı halda, yoxsul təbəqə onların üzərinə hücuma

keçmiş, kommunist partiyası sıralarında qalmağa layiq olmadıqlarını sübuta yetirmişlər.

### DİYARIN DİRÇƏLMƏYƏ BAŞLAMASI

Mən artıq təsdiq olunan, lakin həyata keçirilməsi üçün maddi və texniki qüvvə tələb edən iki məsələyə də toxunmaq istərdim – bunlar Naxçıvan Diyarı üçün böyük əhəmiyyət kəsb edən xalq maarifi və səhiyyə məsələləridir.

Məncə, həyatın bütün sahələrində Naxçıvan Diyarının bərpa edilməsi işinin artıq sağlam təməli qoyulmuşdur və indi başladılan iş tempini gələcək üçün də saxlamaq vacibdir. Ancaq başlıcası budur ki, Naxçıvan Diyarı üçün nəzərdə tutulan bütün vəsaitlər vaxtında buraxılsın və təyinat yerinə vaxtında göndərilsin. Biz Naxçıvan Diyarından 75 adamı götürüb, ordan sürgün etdiksə, onların əvəzinə diyara 140-a yaxın adam göndərmişik və onlar 99 faiz ləyaqətli işçi çıxdılar. Zəiflik və nəzakətsizlik göstərən yeddi yoldaşı işdən çıxarıb geri göndərməli olduq.

### SƏFALƏT GÜNAHKARLARI ÜZƏRİNDƏ MƏHKƏMƏ HAQQINDA

Söhbətin yekununda yoldaş Bağırov bildirdi ki, Naxçıvan Diyarında yaranmış səfalət və acınacaqlı vəziyyətin günahkarları üzərində məhkəmə işi, görünür ki, hələ iki ay uzanacaq. Hazırda aparılan istintaq nəinki kəndlilər tərəfindən əvvəldən bildirilənlərin hamısını təsdiq etmiş, həm də yeni sui-istifadə faktları aşkar etmiş və cinayətlərlə əlaqəsi olan yeni şəxsləri üzə çıxarmışdır. Hələlik bu iş üzrə 150 zərərdidə və şahid dindirilmişdir, hələ 600 nəfər də dindirilməlidir.

*(“Bakinski raboçi”, 31 may 1925-ci il, № 112)*

Bir sözlə, başıbəlalı Naxçıvan Respublikası dincliyi hələ yuxusunda görə biləcəkdi. Bağırov diyardakı səfalət və yoxsulluğa üstəlik sabahı günə inamsızlığı da əlavə etmişdi. Savadsız partiyaçı-dinsizlərin qədim diyarı az anlaşılan və tamamilə xoşagəlməz bolşevizm şəraitinə uyğunlaşdırmaq üçün hələ nələri düşünüb tapacaqlarını heç kimsə bilmirdi və bilə də bilməzdi.

## AZƏRBAYCAN SSR ALİ MƏHKƏMƏSİNİN SƏYYAR SESSİYASI

**NAXÇIVAN, 29 iyul.** Azərbaycan SSR ali məhkəməsinin səyyar sessiyası Azərbaycan Pambıqçılıq İdarəsinin sabiq müvəkkili Mirtağıyevin işini dinləmək üçün buraya gəlmişdir. Məhkəmə işi iyulun 5-də dinlənilmə ilə başlayacaqdır; hal-hazırda hazırlıq işi aparılır.

*(“Bakinski raboçi”, 5 iyul 1925-ci il, № 148)*

## AZƏRBAYCAN ÜZRƏ KEÇMİŞ PAMBIQ İŞÇİLƏRİNİN İŞİ ÜZRƏ HÖKM

**NAXÇIVAN, 15 iyul.** Pambıq işçilərinin məhkəmə prosesi başa çatmışdır.

Ali məhkəmə altı saatlıq iclasdan sonra bütün müttəhimlərin təqsirkar olduqlarını qəbul edərək hökm çıxarmışdır:

**Mircabbar MİRTAĞIYEV, Artyom POQOSOV və Moisey BRİNBAUM ən yüksək cəzaya – güllənməyə,**

Mahmud ŞÜKÜROV – 8 il, Yusif KƏLƏNTƏROV – 3 il, Nikolay NİKOLO – 3 il,

Abram MELUKUMYAN – 4 il, Zeynalabdin KƏLƏNTƏROV, Məşədi İbrahim KƏLƏNTƏROV və Rza QULUBƏYOVUN hər biri – 2 il; Məmmədəli KƏLƏNTƏROV və Məmmədkazım MƏMMƏDOV – 1 il və Əbülfəz TAHİROV – 8 ay həbs cəzasına məhkum edilsinlər.

Bəzi müttəhimlərin cəza müddəti amnistiya üzrə azaldılmışdır. Hökm ağzınacan dolu salonda gecə saat 3-də çıxarılmışdır.

**NAXÇIVAN, 15 iyul**. Pambıq işi üzrə güllələnməyə məhkum edilən MİRTAĞIYEV, POQOSYAN, BRİNBAUM Azərbaycan MİK-nə əfv edilmələri barədə xahiş ərizəsi vermişlər. Hökmün icrası Azərbaycan MİK tərəfindən əfv məsələsinə Rəyasət Heyətində baxılanadək dayandırılmışdır.

*("Bakinski raboçi", 17 iyul 1925-ci il, № 159)*

Bəlkə də öz sadəlövhlüyü üzündən kommunizm ideallarına həqiqətən inanan uzunömürlü bolşevik, xalq komissarı və çekist Bağırov Naxçıvan faciəsi də daxil olmaqla, cinayətkar əməllərinə, əsilzadə nəslindən olan hər kəsə qatı nifrət bəslədiyinə, daim öz ətrafında **"düşmən obrazı"** axtardığına və yüzlərlə fədakar və günahsız insanı qırdığına görə çox sayda proletar mükafatları alacaqdı.

Lakin ünsürar sağlam düşüncə mövqeyindən, Sovet hakimiyyəti dövründə azacıq belə yaşamış olan hər kəsə aydındır ki, "sovet bayrağı altında gizlənən", maskalanmış *"qatı sovetizm düşməni"* Bağırovun Naxçıvanda aşkar etdiyi kəslər deyil, məhz onun özüdür.

Qurana görə **"Hər şey qabaqcadan müəyyən edilib"**, xalq inancına görə isə – **"Allah bilən məsləhətdir"**.

M. Bağırov əzəl-axır ifşa olunacaqdı, ancaq dərhal yox,

yalnız 31 ildən sonra.

Təbiət etibarı ilə öz mənliyindən məhrum olan, bütün dövrlərin və bütün xalqların dahi rəhbərinə büt kimi sitayiş etməyə vərdiş eləyən və ən nəhayət özü xalq düşməni kimi ifşa olunan Mircəfər Bağırov da bağışlanmasını xahiş edəcək, ancaq ədalətli cəza 1956-cı il mayın 7-də yerinə yetiriləcəkdir.

## ÖTƏN ƏSRİN ƏN QƏDDAR ŞƏXSİYYƏTLƏRİNDƏN BİRİ OLAN, MİRCƏFƏR BAĞIROVU MƏHZ BAKIDA, UZUN İLLƏR SOVET AZƏRBAYCANINDA İNSANLARA NƏZARƏTSİZ ŞƏKİLDƏ DİVAN TUTDUĞU, ÖZ ŞEYTANİ CAYNAQLARINI RESPUBLİKADAN KƏNARA DA UZATDIĞI YERDƏ GÜLLƏLƏYƏCƏKLƏR.

## SOVET MƏTBUATI NAXÇIVANIN ƏNƏNƏ VƏ MƏİŞƏTİNİ POZMAĞA XİDMƏT EDİR

Bacarıqlı jurnalist dağıdılmış və qarət olunmuş Naxçıvanı təsvir edir, qaçqınların faciəsinin parlaq mənzərəsini yaradır, lakin bu dəhşətli bəladan xilas olmağın yolunu sadəlövhlükdənmi, yoxsa partiyaçıların təlqini sayəsindəmi *"12 №-li mavi vaqonda"* görür. Ancaq əzabkeş sovet Respublikasına qarşı bolşevik özbaşınalığı və qəddarlığının ilkin mənbəyi olan bu *"mavi vaqon"* qədim Naxçıvan torpağına yaxşı heç bir şey gətirməmişdi və bundan sonra da gətirməyəcəkdi.

### XARABALIQLAR
**(bizim müxbirimizdən)**

Haraya baxırsan yalnız xarabalıq görürsən. Dəmiryolu relslərinin açdığı cığır onların arasından uzun çılpaq ilan kimi qıvrılır... Hər yan xarabalığa dönüb...

Dəlmə-deşik olmuş kəlləyə bənzəyən tənha stansiya binaları, boz, qırıq kərpic qalaqlarını xatırladan kəndlər. Xarabalıqlar...

Sanki qəzəbli və qüvvətli bir adam ölümcül döyüşdə görünməmiş bir əjdahanın nəhəng çənəsini tikə-tikə parçalamış və bu eybəcər parçaları, tarlalara, bir-birinə sığınmış dağların yamaclarına tullamışdır...

Bu, torpağa sancılan, boz dişləri çopurlaşmış daş çənə qalıqları hər yandadır... Xarabalıqlar...

Daşlaşmış nifrət təbəssümü, donub qalmış kədər ifadəsi... İnsan nifrəti, insan kədəri.

Bütün bunları nə vəhşi külək, nə torpağın ağır nəfəsi, nə də ağ saçlı dağın odlu tüpürcəyi törədib. Bu xarabalıqları insan yaradıb.

Onların doğurduğu dəhşət də elə bundadır və bu dəhşət yarıqlarda, xarabalıqların parlayan dəlmə-deşiklərində yaşayan insanları görəndə keçirdiyin dəhşətdən daha dərindir.

Hətta cır-cındır içində olan, boz qalaqlar arasında soxulcan kimi eşələnən məxluqları görəndə belə buna inana bilmirsən. Ancaq həqiqətən belədir.

İnsanlar dəlmə-deşiklərdə, yarıqlarda ilanlarla, əqrəblərlə, boz divarların boz əcinnələri ilə birlikdə yaşamaq üçün öz evlərini xarabalığa çevirmişlər.

Onlar bunu nə üçün edib? Kim onların qəlblərində, təkcə bir-birinə qarşı deyil, həm də hamı üçün gərəkli olan evlərə qarşı qeyri-insani vəhşi nifrət hissi oyadıb?

Bu xarabalıqlar insanın, ümumiyyətlə insanlığın ayıbıdır.



Neçə ki onlar dağ yamaclarında, yaşıl vadilərdə qalır – bu lal-dinməz, qəzəbli müsibət bizim hər birimizi həyəcanlandırmaya, narahat etməyə bilməz!

Keçmişi öz yaddaşımızdan qəti surətdə yalnız o vaxt silib ata bilərik ki, bu xarabalıqlar təhqir olunmuş torpağın üzərindən həmişəlik silinib atılmış olsun. Daşlı, ölü xarabalıqlar canlı xarabalıqlar yaradır. Nifrətlə yaradılan bu xarabalıqlar yoxsulluq doğurur. O isə müdhiş canlı xarabalıq kimi ətrafda dolaşır, bu dəhşətli insan yoxsulluğu yolsuz, izsiz, xilas laqeydliyindən xəbərsiz olan gözləri təlaşa salaraq dolaşır.

O bizi vaqonumuz dayanan kimi, dərhal qarşıladı. Sir-sifətini tük basmış, çürük gözlü, insandan çox heyvana bənzəyən bir qoca, təsvirəgəlməz cır-cında içində olan, bu cır-cındanın cırıqları arasından çirkli, qaşınmaqdan göyərmiş ölgün bədəni görünən bir qoca obrazında qarşıladı...

Bu yoxsulluğun, ölülər yarğanından çıxıb gələn canlı xarabalığın özü idi. Bu xarabalıq xırıldaya-xırıldaya əlini sümükləri çıxmış tüklü sinəsinə döyür, tələb edirdi:

– Çörək verin!

Ona bundan başqa heç nə lazım deyildi: həm canlı, həm də ölü xarabalıqlar yalnız keçmiş və indi ilə yaşayırlar. Onlarda gələcək yoxdur. Ola da bilməz.

Çardaq altındakı çirkli bazarda solğun çıraqlar yananda, dükanların cəftələri cırıldayanda və milislərin fit səsləri ətrafı bürüyəndə burada qaynaşan bir topa görmək olar.

İyrənməyib yaxına gəlsən, bu topanın kir basmış üfunətli qadın paltarında bir neçə ayrı-ayrı qrupa bölündüyünü görərsən. Bunlar qadınlardır. Bunlar xarabalıq paytaxtı Naxçıvanın küçə "gözəlləri"dir.

Eşq kahinələri. Xarabalıqların kirli, çürük məhəbbət iyi verən kahinələri. Canlı meyitlərin dəhşətli eşq kahinələri. Onlardan danışan ağızlar büzülür, sifətlər turşuyur. Onları buradan göndərmək istəyiblər. Ancaq elə bir yer tapılmayıb, çünki onları heç yerdə qəbul etməzlər – insan obrazında olan yatalaq və ya vəbanı qəbul etmədikləri kimi. Onlar təpədən dırnağa iyrənc xəstəlikdir.

Haradan gəliblər? Məlum deyil. Kimdir onlar? Yoxsulluğun qız övladları, boz xarabalıqların eybəcər yetirmələri. Onlara heç yerə və heç nə üçün getmək lazım deyil. Kin və aclıq onları bazar çardağının altına atıb və onlar orada bir topa kirli cır-cında kimi, canlı xarabalıqlar kimi atılıb qalıblar, onlara yalnız bircə şey: toza dönüb yox olmaq qalıb... Onların hamısı, türkü də, ermənisi də sıx bir yumaq kimi bir yerdə, bazar çardağının altında yaşayırlar (əgər bu, yaşamaqdırsa). Müştərilərini də elə orda "qəbul edirlər", zira onların üfunət iyi verən miskin eşqlərinə ehtiyacı olan insanlar var... İnsandırmı onlar?

Çardağın altına getmək, danışmaq istədim. Ancaq getmədim. Ölməkdə olan adamı kim sorğu-suala tutmağa cürət edər? Ölüm qabağı anda o hansı hissələri keçirir? Mən cürət et-

mədim.

Yalnız qaynaşan cır-cında topasının yanından keçdim və papiros qığılcımının bir cırıq çadranın altında işıqlatdığı bir cüt tutqun, qəmli göz və yara-xoraların didib dağıtdığı bir sifət gördüm. Bu, kifayət idi.

Oradan ürəyim ağrıdan sızlaya-sızlaya aralanıb, öz vaqonumuza qayıtdım, bugünkü kimi sabah da üst-başı cır-cındır, ürkək gözlərindən aclıq yağan səfil görkəmli insanlar bu vaqonu dövrəyə alacaqlar.

Onlar hələ canlı xarabalığa çevrilməmiş insanlardır, mavi vaqonun buna imkan verməyəcəyinə ürəkdən inanırlar.

Və 12 №-li mavi vaqon, Alyoşa Myasnikovun vaqonu bu rəşadəti göstərəcəkdir, hərçənd Alyoşa Myasnikovun özü artıq həyatda yoxdur. Çünki gecə yarısından da xeyli ötənə qədər pəncərələrindən sarı işıq kəsilməyən bu vaqonda yazı makinalarının şaqqıltısı altında yenə həmin o vahid və qüdrətli bolşevik düşüncəsi gərgin surətdə yorulmaq bilmədən çalışır.

**MİX. DANİLOV. Araz Naxçıvanı**

*("Заря Востока", 9 aprel 1925-ci il, № 846)*

Ancaq iftiraçı müəllif əsas məsələ barədə susur, heç nə demir. Sakit və dinc Naxçıvanın xarabazara çevrilməsi istisnasız olaraq daşnakların və bolşeviklərin fəaliyyətinin nəticəsidir.

Vicdansız, allahsız Mixail Danilov bununla da kifayətlənmir. İndi o, qazanc naminə özünü "Bakinski raboçi" qəzetinə verib. Jurnalist nəsə kəskin bir şey quraşdırmağa, məsələn, qədim əfsanə və abidələri ələ salmağa, hazırda yaşayan mömin insanların xatirəsini təhqir etməyə tələsir. Bu bədniyyət iftiraçının yazdıqlarını **Əlahəzrət Zamandan** savayı kim təkzib edəcəkdi?

## NAXÇIVAN CİZGİLƏRİ
## NUHUN GƏMİSİ

**"Nax-içevan"** erməni dilindən özünəməxsus bir söz birləşməsi ilə "**Qədim dayanacaq"** kimi tərcümə olunur.

Bu qəribə adın açması qədim Bibliya əfsanəsində gizlənir, həmin əfsanədə deyilir ki, insanların ulu babası Nuh seldən xilas olan bütün bəşəriyyət və on dörd cüt təmiz və qeyri-təmiz heyvanla birlikdə Ararat

(Ağrı) dağından aşağı enərkən ilk düşərgəsini məhz Naxçıvan təpələri yaxınlığında salmışdır.

Bu əfsanə o qədər yaşarıdır ki, yırtıq çuxalı, saqqalı kirlinin biri bilyardxanada mənə çox ciddi şəkildə sübut etməyə çalışırdı ki, gözün iti olsa, guya indinin özündə belə Ararat dağının təpəsində Nuhun gəmisinin qalıqlarını görə bilərsən, vağzaldan bir az aralıda isə, bir vaxtlar Nuhun, oğlu Hamı məmnun etmək üçün ilk insan kimi içib sərxoş olduğu həmin üzümlük olub.



Nuh peyğəmbərin qəbri

Araratın soyuq daz təpəsində Nuhun gəmisinin qabırğasını görmək mənə müyəssər olmadı, eləcə də Naxçıvan eşşəkləri və dəvələrinin gözlərindən onların Nuh heyvanlarının təmiz və yaxud qeyri-təmiz qanadından gəldiklərini oxuya bilmədim...

Ancaq... bu əfsanədə tarixin zəhərli istehzası, iyrənc bir təbəssümü var.

Bu İncil əfsanəsini sərbəst şəkildə davam etdirsək, onda bu qənaətə gələrik ki, Nuhun törəmələrinin bir qismi Naxçıvan təpələrində “çox ciddi bir şəkildə və uzun müddətə” məskən salmışdır.

Və bu törəmələrin möhtərəm əcdadı, ulu baba Nuhun bütün oğullarından yalnız biri – Ham ola bilərdi. Bu, pəncərələri möhkəm barmaqlıqlarla bağlı boz vaqonun Naxçıvandan gətirdiyi “qüdrətli” övladlardan da aydın görünür.

Qoca Araratın çılpaq əmgəyində Nuhun gəmisinin qalıqları indiyədək saxlanmasa da, onlar Naxçıvanda, uzun bir binanın ağardığı meydanda qalıb; o binanın başı üzərində qırmızı bayraq dalğalanır, üstündə isə bu yazı oxunur: “Naxçıvan SSR Xalq Komissarları Soveti”. Məşhur Nuh oğlunun nəcib törəmələri sovet selindən məhz bu binada xilas olublar!

Əgər onların ulu əcdadı təkcə öz sərxoş atasını məsxərəyə qoyurdusa, onun törəmələri bu qırmızı bayraqlı ağ binanın kabinetlərində rahatca əyləşib, bu qumaş parçasının, inqilab günəşinin min bir əzabla bu ölkə üzərində yüksələn al-qırmızı şüasının təmsil etdiyi bütün insanları həyasızcasına lağa qoyurdular.

Bu günəş artqı beş ildir ki, şən qaynar alovla alışıb yanır.

Hardasa, qara neft buruqları meşəsində artıq beş ildir yeni sözlər səslənir, yeni, qanadlı düşüncələr göylərə ucalır, yeni həyat quruculuğunun hay-küyü eşidilir, yeni bəşəriyyət doğulur.

Burada, yoxsul, qanlı əsrlərin dəmir dabanları altında tapdanmış bu ölkədə isə diyarın dirçəldilməsi kimi böyük bir işi keçmiş bəylər, ağalar, qubernatorlar, jandarmlar, pristavlar və hətta qorodvoylar “həyata keçirirdi”.

Hansısa ən murdar ədəbsizdən betər natəmiz insan tör-töküntüsü səfil və ac Naxçıvan əkinçisinin üzülüb armud saplağına dönmüş boğazı hesabına kef çəkirdi.

Bəy Mahmudbəyov xalq torpaq komissarı kreslosunda əyləşib, yumru möhürü əlində oynada-oynada kəndi şəhərə “birləşdirirdi”. Çox iyrənc bir lətifəyə bənzəyir!

Komissiya vaqonunun ətrafında yeddi gün ərzində kənd yoxsullarının, yox, yoxsul yox, hətta lüt insanların ürək dağlayan iniltisi bir an belə susmaq bilmədi: “Dərdimiz var, yoldaşlar!”

Torpaq yox, su yox, heyvan yox, alət yox... Heç nə yoxdur!... Elə kəndlər vardı ki, yağışdan yağışa suyu çalalara yığıb saxlayır və onu, hətta o suda qurbağalar quruldayanda, malyariyalı ağcaqanad süfrəsi qarışqa kimi qaynaşanda belə içirdilər.

Bəs xalq torpaq komissarı nə edirdi? Yoldaş Kapayev Ordubad İcraiyyə Komitəsinin bozumtul, sərsəm baxışlı sədri müavini ilə söhbət edərkən birdən soruşdu:

– Sizdə necə? Torpaq, yəqin ki, qolçomaqların əlindədir, eləmi?

– Hə... – müavinin dili topuq vurdu... – yəni, yox...kommunist özəkləri olmayan yerlərdə...

– Onlar olan yerlərdə torpaq kommunist özəklərin əlindədir. Elədirmi?

Müavin utanıb bürüşərək kəkələdi:

–Hə... düzünü desən... – və əlavə etdi: – Axı nə eləyə bilərsən!

Bu, doğru idi. Kəndlərdəki kommunist özəkləri, demək olar ki, tamamilə qolçomaqlardan ibarət idi. Əgər bütün diyar komitəsi cibində partiya bileti gəzdirən bəylərdən, ağalardan, jandarm və qubernatorlardan ibarət idi isə, onlar kimdən ibarət ola bilərdilər. Partiyaya can atan muzdurlardan isə “məsul yoldaşların” zəmanətini tələb edirdilər. Bu da başqa bir məzəli lətifədir!

Yoxsul öz partiyasına qəbul olunmaq üçün bəylərdən və ağalardan zəmanət almalı idi, onlar isə, əlbəttə ki, bu zəmanəti vermirdilər! Vaqonun ətrafına toplaşmış yoxsullar qəzəbdən dil-dodaqları əsə-əsə bundan danışırdılar.

Xalq topaq komissarı Mahmudbəyov belə şəraitdə yer quruluşu

işini çox gözəl yerinə yetirə bilərdi, həm də Kəngərli bəyləri, kənd təsərrüfatı bankından başlayaraq, həmin komissarlığın bütün pillələrində özlərinə möhkəm yer tutub, bütöv bir ailə şəklində bu nəcib işdə ona kömək edirdilər. Onlar, bax, bu cür işləyirdilər!

Ordubad yaxınlığındakı kəndlərdən birinin kəndliləri noyabr ayında toxum ssudası üçün müraciət edəndə, onlara yalnız fevral ayında ssuda buraxılacağı barədə cavab verməyi rəva görmüşdülər. Başqa bir kəndin kəndliləri suvarma arxı çəkməkdə onlara kömək göstərilməsi xahişi ilə müraciət edəndə, Naxçıvan gəmisinin müvafiq şöbəsində həmin kağız parçasının bir küncünə sadəcə olaraq "İşə tikilsin" yazmışdılar. Vəssalam!.

Bir kəndlinin öz torpaq sahəsinin əlindən alınması ilə bağlı şikayət ərizəsi dəftərxana küncündə beş ay yatıb qalmışdı.

"Hakimiyyət" əhali ilə yalnız vergi və yığım vasitəsi ilə ünsiyyət qurmuşdu. Bu, yeganə əlaqə forması idi və "hakimiyyət" bu sahədə ixtiraçılığın ən yüksək zirvələrini fəth etmişdi.

Qatı jandarm Əliyevin başında dayandığı Kommunal Təsərrüfat İdarəsi küçələrin yuyulması üçün vergi təyin etmişdi. Kimdən gəldi və nə qədər oldu vergi alırdılar. Əvəzində isə qəbz verirdilər. Ancaq vaxt ötüb getsə də, şəhərin küçələri hələ də çala-çuxurla dolu idi, palçıqdan tərpənmək olmur, toz-torpaqdan adam boğulurdu. Bunu görən vergi ödəyiciləri ürkəkcəsinə irəli çıxıb ya küçəyə düzülməli olan daşları, ya da pullarını geri istədilər. Onların hamısına çox sakitcə və çox qısa bir gözəl cavab verildi: "O pullarınızın üstündən həmişəlik xətt çəkin".

– Jandarm Əliyevi burdan rədd eləyin! – dağlarda duz mağara - larında keçirilən iclasda cırıq-yırtıq paltarlı fəhlələr həyəcanla yerdən qışqırırdılar.

"Sovet ədalət məhkəməsinə" müraciət də mənasız bir iş idi. Prokuror, sonra isə xalq ədliyyə komissarı, xoşuna gəlməyən adamları 80 yaşlı qarıları zorlamaqda günahlandıraraq məharətlə sıradan çıxaran qorodovoy Qurbanov idi. Məhkəmənin sədri, onun sadiq köməkçisi isə bariz müsavatçı Şirəlizadə idi. Əlbəttə, onları ikisi də "alırdı", ancaq dağlarda yaşayan, hətta adi beli belə olmayan adamların ədalətə verməyə pulu çatmırdı.

– Qurbanov bizi təngə gətirib! – Vaqonun ətrafında qışqırırdılar, islah evində qışqırırdılar.

"Hakimiyyət" xalqın gözünə nadir hallarda görünürdü. Elə kəndlər vardı ki, orada nəinki xalq komissarlarını, heç öz rayonlarının icraiyyə komitəsi sədrlərini belə üzdən tanımırdılar.

Vağzaldan beş verst aralıda görünən və tamamilə xarabalıqdan ibarət olan kənddə kəndlilər üç il ərzində qırmızı hakimiyyətin heç bir

nümayəndəsini görməmişdilər. Daha uzaqda yerləşən kəndlərdən isə heç danışmağa dəyməz. Çəhrayı rəngli əskidən düzəldilmiş bayraqla qarşılandığımız Ülya-Noraşen kəndində açıq səma altında keçirilən iclasda yoldaş Dövlətov belə bir sual verdi:

– Naxçıvandan kimsə haçansa bura gəlib? Burda iclas keçirib?

– Yoox! – Yeganə cavab bu oldu.

Halbuki bu kənddə otlaq, su üstündə, dana, adyal oğurluğu üstündə dava gedirdi; bu davalar kiminsə, çox güman ki, Noraşen stansiyasında təzəcə işə salınan mühərriki az qala sıradan çıxaranların kinli əli ilə daha da qızışdırılırdı və hətta qanlı münaqişəyə də çevrilə bilərdi.

Yeri gəlmişkən, "hakimiyyət"in bəzən kəndlərə gəldiyi də olurdu. Həm də təntənəli şəkildə. **Ov üçün!**

Və bu zaman hakimiyyət mənsubları və onların mühafizə dəstəsi öz atlarının dırnaqları ilə çala-çuxur yolları toz-dumana bürüməyə başlayan kimi, yolüstü kəndlərin sakinləri dərhal, həm də tapança hədəsi ilə möhkəmləndirilən belə bir əmr alırdılar: "Ovu qorxuzub qaçırmamaq üçün evlərinizdən bayıra çıxmayın!"

Güman ki, bu zaman Rəhim xan Naxçıvanlının qədim sarayında divarların qızılı zərləri yenilənir, solğun pəncərələr göy qurşağı kimi cürbəcür rəngə çalmağa başlayırdı.

"Sovet xanları" sarayın qəmgin şöhrətinə heç bir xələl gətirmədilər. Düz 1925-ci il aprelin 6-na kimi.

Həmin gün onlar, bu "sovet xanları" sonuncu dəfə avtomobillərdə mavi rəngli 12 №-li adlı vaqona gəldilər və oradan top halda, bir-birini itələ-itələyə, ayaqları büdrəyə-büdrəyə, süngü çəpəri arasında birbaş dustaqxanaya doğru yollandılar.

Naxçıvan meydanındakı Nuhun gəmisi həmişəlik boşaldı. "Sovet xanlığı"ndan geriyə yalnız pis xətlə yazılmış kağızlar şəklində "keçmiş illərin salnaməsi" qaldı. Bu kağız yığınını kisəyə dolduranda onun çəkisi təxminən iki pud oldu.

Bu, çox əcaib və qorxunc bir salnamədir!

**MİX. DANİLOV**

*("Bakinski raboçi", 22 aprel 1925-ci il, № 88)*

Müdafiəsiz qalmış İncil əfsanəsini başdan-ayağa lağa qoyan kafiri bir kənara ataq. İnsan cildinə bürünmüş əsl şeytan barədə danışaq.

Sovetləşmiş olsa da, unudulan və yoxsulluğa düçar edilən Naxçıvan beş il Sovet Azərbaycanının hakimiyyət dairələrindən kömək gözləmişdi və Nuhun varislərinin, bolşeviklərin müqəddəs

Naxçıvan Diyarında törətdikləri ağılsızlıqlara heç bir aidiyyəti yoxdur. Bolşevik hakimiyyətinin xarakterik və fərqli əlamətləri çoxdur, onlardan biri də – yalandır.

Bağırovla müxtəlif ampulalarda: çekist, dövlət xadimi və hətta çəyirtkə qırmaq sahəsində mütəxəssis kimi görüşsək də, ancaq Mircəfər Bağırovun təbliğat xarakterli məqalələr yazmağa qadir olduğunu bilmirdik. Bu Naxçıvan düşmənində jurnalist vergisi onun Naxçıvan Respublikasında qalibiyyətlə həyata keçirdiyi və Serqo Orconikidzenin özü tərəfindən hələ başlanılmadan bəyənilən əməliyyatdan sonra baş qaldırmışdır. Bunda çekist Bağırovun zəngin peşəkar fəaliyyəti də böyük rol oynamışdır.

Bağırov həmin o məlun 12 №-li vaqonda gizlicə Naxçıvana gələndə, birdən-birə buradakı sovet hakimiyyətinin sükanı arxasında diyarın sovetləşdiyi ilk günlərdən başlayaraq düz beş il sovet hakimiyyəti və dünya inqilabının qatı düşmənlərinin əyləşdiyini aşkar etmişdi. Belə bir səhvə görə Bağırovu nəinki bu cür yüksək vəzifələrdən uzaqlaşdırmaq, həm də proletar hakimiyyətinin əsil düşməni kimi məhkəməyə vermək lazım idi. Ancaq artıq gec idi. İndi Mircəfər Stalinin özünün yaxın adamı idi və rəhbərin icazəsi olmadan Bağırovun keçəlləşməyə başlayan başından bir tük belə əksik ola bilməzdi. İndi Bağırovun yalnız hüquqları, başqalarının isə yalnız vəzifələri vardı. AKP-nın katibi Qarayev Azərbaycanın faktiki rəhbəri, Bağırov isə yalnızca Xalq Komissarları Soveti sədrinin müavini olsa da, sonuncu Naxçıvana Xüsusi Komissiyanın sədri, Qarayev isə hətta komissiya sədrinin müavini kimi də deyil, sadəcə onun üzvü kimi gəlmişdi.

İndi, səfalətə düçar olmuş Naxçıvan torpağına basqından sonra isə Bağırov öz **bolşevik həqiqətini** sırımaq üçün məqalə dərc etdirir – həm də yenə təhdid- edici, hədələyici başlıq altında. Öyüd-nəsihət ahəngindən istifadə edərək, o israrla kəndlilərə indi necə yaşamaları, yeni hakimiyyət dövründə necə işləmələri, Şərqin və hətta bütün dünyanın əsarətdə olan zəhmətkeşlərinin

azad olunması naminə nə etmələri barədə öz bolşevik tələblərini zorla qəbul etdirməyə çalışır. Naxçıvan Diyarındakı ailələrə çoxlu qəm-qüssə, kədər gətirən partiyaçı Bağırova belə bir sual vermək yaxşı olmazmı:

**“Dinlərini, adət-ənənələrini, tarixi yaddaşlarını, torpaqda işləmək azadlığını əllərindən zorla alan və möhtərəm yerlilərini öz mənşəyinə, nəsil kökünə görə təqib edən sovet hakimiyyəti, ümumiyyətlə, bu kəndlilərə lazım idimi?”**

## ARTIQ SİLKƏLƏNMƏK VAXTIDIR!

Naxçıvan Diyarı öz coğrafi vəziyyətinə görə, təbiətinə, təbii və iqlim şərtlərinə görə ən zəngin guşələrdən biridir; xalq təsərrüfatı düzgün təşkil edildiyi halda, torpağın işlənməsinə səriştəli münasibət göstərildiyi, suvarılan torpaqların kifayət qədər olduğu halda ən parlaq iqtisadi nəticələrə nail olmaq mümkündür və bu zaman diyar təkcə Naxçıvanın deyil, həm də bütün Azərbaycanın ən zəngin taxıl mənbəyinə çevrilə bilər.



Mircəfər Bağırov

İndi bütün sahələrdə – partiya, həmkarlar, sovet, kooperativ sahələrində bütün sistem, bütün iş metodu əsl sovet relsləri üzərinə keçirilir. Böyük ümidlər var və məlumatlar da bunu göstərir ki, diyar bərpa oluna və yaxın müsəlman Şərqinin qapısı önündə həqiqətən də nümunəvi sovet guşəsinə çevrilə bilər. Məhz bununla əlaqədar olaraq, diyarın iqtisadi qüdrətinin və təsərrüfat rifahının yüksəldilməsi ön plana çıxır və qarşıda ən parlaq vəzifə kimi durur.

Demək lazımdır ki, əgər bir sıra obyektiv səbəblər üzündən Azərbaycan və Zaqafqaziya təşkilatları tərəfindən indiyə qədər Naxçıvan Diyarına kifayət qədər diqqət ayrılmırdısa, indi Naxçıvan məsələləri həm Azərbaycanda, həm də Zaqafqaziya orqanlarında birinci dərəcəli məsələ sayılır və onun bərpası ilə bağlı irəli sürülən məsələlər dərhal teleqraf cavab sürətilə öz

müsbət həllini tapır.

Bütövlükdə xalq təsərrüfatının bərpa olunması, ayrı-ayrılıqda hər bir kəndli təsərrüfatının ayağa qaldırılması üçün dövlət tərəfindən köməklik göstərilməsindən, ən yaxşı işçilərin oraya göndərilməsindən və bütün aparatın sağlamlaşdırılmasından savayı daha bir şərt də tələb olunur və bu şərt bütün məsələnin və bərpa işinin məğzini təşkil edir.

Bu, mənim fikrimcə, kəndlilərin, Naxçıvan Diyarı zəhmətkeşlərinin özlərinin öz mədəni və maddi vəziyyətlərinə münasibətidir.

Kəndləri gəzərkən kəndlilərin hər yerdə və hamılıqla sovet hakimiyyətinin bütün tədbirlərinə son dərəcə böyük rəğbətlə yanaşdığını görürsən və "yaşasın" sözü həm yaşlıların, həm də cavanların dilindən düşmür.

Ancaq məsələ bundadır ki, biz təkcə rəğbət hissi ilə, təkcə xoş arzularla nə partiya təşkilatlarımızı, nə sovet aparatını qəti şəkildə sağlamlaşdıra, diyarın xalq təsərrüfatını ayağa qaldıra bilmərik. Bunun üçün həm də bərpa işində Naxçıvan Diyarının zəhmətkeş kütlərinin özünün ən fəal surətdə iştirak etməsi lazımdır. Əgər bu iştirak tam, fəal, daimi olmazsa, əgər Naxçıvan kəndlilərinin ayrı-ayrı kəsimlərində hiss olunan passivlik və müəyyən tənbəllik dozası yenə də özünü büruzə verərsə, onda kommunist özəklərinə yeni üzvlərin cəlb olunması zamanı şübhəli şəxslərin, yoldan ötən fırıldaqçıların bir daha partiya sıralarına soxulmayacağına dair bizə heç kim və heç nə zəmanət bilməz.

Əgər kənd sovetlərinə təkrar seçkilər keçirilərkən əhali yenə laqeydlik göstərib, bu işi fəal surətdə öz əlinə almasa, onun indiyə kimi xilas ola bilmədiyi qolçomaq, keçmiş kətxuda, tacir, bəy, xan və s. kimi natəmizlərin yenə bu sovetlərə soxulmayacağına biz heç cür əmin ola bilmərik. Ən başlıcası isə, diyarın iqtisadi qüdrətinin, öz təsərrüfatlarının bərpası işində kəndlilərin özlərinin kütləvi oyanışı və kütləvi iştirakı olmasa, onda nə ona ayrılan milyonlarla pullar və qatar-qatar tikinti materialları, kənd təsərrüfatı alətləri, nə kənd təsərrüfatı kooperasiyası, nə də bu yaxınlarda 12 şöbəsi açılan kənd təsərrüfatı bankı, nə də öz yer quruluşu dəstələri ilə yeni xalq torpaq komissarı tamamilə heç nə edə bilməyəcəkdir.

Nəyin bahasına olursa olsun, bütün tədbirlərdən istifadə etməklə köhnə rejimdən miras qalan Şərq tənbəlliyini: məscid qabağında boş-bekar oturmağı və yaxud yalnızca "ərizə yazmışam, indi cavab gözləyirəm" demək xətrinə bir parça kağıza yazılan ərizələrlə dövlət orqanlarına kütləvi ziyarətləri həmişəlik aradan qaldırmaq lazımdır. Bütün bunlar elə bir vaxtda baş verir ki, elə

orada, yan tərəfində kənd təsərrüfatı bankının yenicə açılmış şöbəsi var, orada sənə ən güzəştli şərtlərlə pul, kənd təsərrüfatı inventarı buraxır, meliorasiya birlikləri açmağa və kəndli həyatı və məişətini yaxşılaşdırmağa yönəldilən bu cür digər tədbirlər görməyə imkan verirlər. Bütün bu tədbirlərdən iki əlli yapışmaq və hər bir ağlı başında olan kəndlinin edəcəyi kimi öz ağır ehtiyacını, çatışmazlığı və aclığını aradan qaldırmaq əvəzinə; səylərini birləşdirərək dövlətin verdiyi material və vəsaitlə, hər birinin gündə bir neçə dəfə üstündən keçərkən arabalarını və öküzlərinin ayağını qırdıqları körpüləri təmir etmək əvəzinə – yaz mövsümünün qiymətli vaxtını kəhrizlərin təmizlənməsinə sərf etmək əvəzinə, bu işlərin dəyərinin dörddə biri meliorasiya cəmiyyəti tərəfindən buraxılır – boş vaxtlarında öz kənd təsərrüfatı inventarının sınıq-söküyünü düzəltmək əvəzinə, bütün bunların əvəzinə onlar topa-topa günün altında oturub, kənddən gəlib keçən kənd təsərrüfatı bankının təlimatçısına və ya yaxud torpaq bölgüsü dəstəsinin torpaq ölçəninə tamaşa edirlər. Mitinqdə, yaxud bir toplantında bütün bunlar haqqında danışanda, başlarını məsum-məsum tərpətməklə onların doğru olduğunu təsdiqləsələr də, oradan dağılışan kimi yenə köhnə mənzərə başlayır.

Bu günlərdə şəxsən mən Nehrəm kəndində buraya toplaşan 400 kəndli ilə iki saat təmiz söhbət eləməli oldum, dedim ki, indi kəndli üçün güclü, zərbəçi, fasiləsiz işləmək vaxtıdır, əgər bax bu dəqiqələrdə bir alman və yaxud Qərbi Avropa ölkələrinin başqa bir daha mədəni kəndinə getsən, orada bir nəfər də olsun boş adam tapa bilməzsən; ancaq eyni vaxtda Naxçıvan Diyarının hansı bir kəndinə yollansan, sən heç ora çatmağa macal tapmamış dərhal ətrafına 300-400 kəndli yığılacaq.

İndiyə qədər bunu vəsait, kənd təsərrüfatı alətinin yoxluğu səbəbindən işləmək imkanının olmaması ilə izah etmək mümkün idisə, – onlar yalnız bunların köməyi ilə öz tarlalarını, bağlarını becərə, öz körpülərini, yollarını, hasarlarını təmir etməklə məşğul ola bilərdilər, – indi bütün bunlar onları gözləyir, indi biz onları axtarır, hər döngədə qışqıraraq, bütün vicdanlı və zəhmətsevər kəndliləri kənd təsərrüfatı kooperativlərinin özəkləri, kredit banklarının özəkləri ətrafında birləşməyə çağırır, kanalların, kəhrizlərin bərpası, yolların təmiri və s. üçün işçilər axtarırıq.

Belə bir vaxtda kənddə heç bir iş görmədən boş-boşuna oturmaq insanın özü qarşısında, fəhlə-kəndli hakimiyyəti qarşısında, ittifaqın bütün zəhmətkeş kütlələri qarşısında ən böyük cinayətidir.

Əgər Azərbaycan və bütün Zaqafqaziya zəhmətkeşləri özlərinin son qəpik-quruşlarını Naxçıvan kəndliləri ilə bölüşürlərsə, ən

yaxşı işçilərini onlara göndərirsə, onda Naxçıvan Diyarı kəndlilərinin özləri də bütün bunları dərk etməli və Sovet Azərbaycanı və Sovet Zaqafqaziyasının bu qardaş köməyindən layiqli şəkildə yararlanmalıdırlar ki, yaxın illər ərzində öz təsərrüfatlarını bərpa etmək və indi bu və ya başqa şəkildə onlara verilən vəsaitləri geri qaytarmaq imkanına malik olsunlar.

Kəndlilər həmişəlik anlamalıdırlar ki, qardaş sovet respublikaları onlara sadəcə dilənçi payı vermir və sosial təminata götürmürlər; müvəqqəti böyük kömək göstərirlər ki, Naxçıvan Diyarının kəndlisinin özü həmişəlik iqtisadi rifah zəminine qalxa və lazım gələrsə, öz növbəsində digər kəndlilərə kömək edə bilsin.

Əgər Naxçıvan kəndlisi düşünürsə ki, təkcə sözlə inqilaba kömək etmək, sovet hakimiyyətini möhkəmləndirmək və kommunist partiyasının nüfuzunu yüksəltmək, bununla da bütün dünya, xüsusilə də əsarətdə olan Şərq zəhmətkeşlərinin azad edilməsinə kömək etmək olar, onda o çox böyük səhvə yol verir və biz Naxçıvan kəndlisini bundan qəti şəkildə çəkindirməliyik.

Qoy o bilsin və möhkəm yadında saxlasın ki, onun zəhmətkeş kütlələrə, onların azad olmasına, inqilabın və kommunizmin təntənəsinə ən yaxşı köməyi yalnız, dövlətin köməyi ilə suvarma şəbəkəsini genişləndirmək, torpağın düzgün bölüşdürülməsində iştirak etmək, pambıq və dənli bitki əkinlərini genişləndirmək, bağçılığı, ipəkçiliyi bərpa etmək, öz mal-qarasına yaxşı qulluq etmək, öz kanallarını, kəhrizlərini, körpülərini, yollarını, kənd təsərrüfatı inventarlarını təmir etməklə, yəni bütün diyarın, bütün Azərbaycanın, bununla da bütün SSRİ-nin maddi rifahını yaxşılaşdırmaq yolu ilə dövlət miqyasında öz iqtisadi rifahını artırmaq olacaqdır.

Hal-hazırda Naxçıvan kəndlisinin sovet hakimiyyətinə öz rəğbətini nümayiş etdirmək üçün başqa yolu yoxdur və ola da bilməz, zira, başqa bir yol yalnız əlində tüfəng Sovet İttifaqını fədakarlıqla müdafiə etməkdir ki, indi buna lüzum yoxdur.

Beləliklə, diyarın həm siyasi, həm də iqtisadi qüdrətinin bərpası işində öz kəskin sözünü demək, kollektiv enerji və iradəsini göstərmək növbəsi indi Naxçıvan kəndlilərinindir.

Və Naxçıvan kəndliləri üçün əsas şüar bunlar olmalıdır: rədd olsun tənbəllik, rədd olsun öz rifahına qarşı passiv və laqeyd münasibət və yaşasın Bakı proletariatının ən yaxşı işçiləri və Azərbaycan zəhmətkeşləri ilə birgə mehriban kollektiv iş!

**M. BAĞIROV**

*(“Bakinski raboçi”, 14 may 1925-ci il, № 106)*

Qəzəblənmiş M.Bağırov Naxçıvan MSSR kəndlilərini, nə üçün hətta öz rifahları naminə belə çalışmaqdan məhrum edən, onların ictimai fəaliyyətdə, xüsusilə də, Bağırovun dediyi kimi, əsarətdə olan Şərq xalqlarının və bütün dünya xalqlarının azad olunması naminə ictimai fəaliyyətdə iştirak cəhdini tamamilə iflic vəziyyətinə salan belə bir ağır süstlük basdığını heç cür anlaya bilmir. Qəribədir, bizə, müasir insanlara isə bu, demək olar ki, 85 ildən sonra belə, hətta çox yaxşı aydındır.

Düşdükləri ağır vəziyyətə AKP və Azərbaycan Xalq Komissarları Soveti tərəfindən beş il ərzində heç bir diqqət yetirilməyən yoxsul və ac-yalavac Naxçıvan kəndlilərinin sovet hakimiyyətinə inamı itmişdi.

Biz qarşımıza Azərbaycanda sovet hakimiyyətinin köhnəliyi səbəblərini əsaslandırmaq vəzifəsi qoymamışıq – bu ayrıca bir mövzudur, lakin *"Bağırovun Naxçıvan kəndlilərinə təşviqat xarakterli müraciəti"* prizmasından baxarkən, Azərbaycanın baş çekistinin, Bağırov və Qarayev kimi görkəmli partiyaçıların təcəssüm etdirdiyi belə bir proletar partiyasının naxçıvanlılara lazım olub-olmadığı barədə sualına yüksək vəzifəli partiyaçıların tez-tez "avam və cahil" adlandırdıqları Naxçıvan kəndlisinin əvəzinə cavab vermək üçün yalnız mənəviyyat bölməsindən bir misal gətirəcəyik.

AK(b)P-nın katibi Əliheydər Qarayevin XVIII Ümumbakı partiya konfransındakı (1929) çıxışından o qədər də əhəmiyyətli olmayan, ancaq nümunəvi bir misala müraciət edək:

"... kəndin özündə belə bizim gənclərin tərbiyəsi məsələsini qoymaq lazımdır. Bizim Azərbaycan kəndlərində komsomolçu az miqdarda deyil – 33 min nəfərdir, bundan əlavə 40 minə yaxın pionerimiz var. Bu, yoldaşlar, bizdən tərbiyə tələb edən nəhəng bir ordudur. Biz görürük ki, bu kiçik yaşlı uşaqlar-pionerlər bəzən kəndlilərin özlərindən daha fəaldırlar... Kəndə gedəndə, xüsusilə də Naxçıvanda, kəndlilər bir yerə yığışarkən onlardan bir şey soruşanda, dinmirlər, hamısı susur. Pioner isə çıxış eləyək deyir: **"Onlar eşşəkdirlər, heç nə qanmırlar"** və heç kimə güzəştə get-

mədən kənddə nə var hamısını açıb danışırlar. Bundan sonra kəndlilər çıxış edir və bu pionerin, xırda cırtdanın sözlərini sitat gətirməyə başlayaraq deyirlər, – yoldaş Əhməd deyəndə ki, bizim kənd sovetinin sədri rüşvətxorluqla məşğul olur, düz deyir, yoldaş Əhməd düzünü deyir.

*(А.Г. Караев. Бакинский пролетариат и Азербайджанская деревня. АЗГИЗ, Баку, 1929, səh. 54-55)*

Azərbaycanın baş partiyaçısı bolşeviklərin Azərbaycana gətirdikləri "mənəvi dəyərləri" nümayiş etdirir. Partiya köhnə, əsrlərin sınağından çıxmış olan nə varsa hamısını dağıdaraq, onların əvəzinə gənclərin qəlblərindəki mənəvi dəyərləri silib atır və böyüyə hörmət hissindən məhrum etməkdən savayı heç nə təklif etmir.

Yəqin ki, yoldaş Qarayev Azərbaycanda öz milli **"Pavlik Morozovlarını"** necə yetişdirməyin xiffətini çəkir.

## TƏMİZLƏYİRLƏR...
### (Naxçıvan diyarında)

Naxçıvan təşkilatının yoxlanılmasına başlanılıb. Təşkilat buraxılıb. Köhnə üzvlər öz üzvlük kitabçalarından heç cür ayrı düşmək və artıq partiya üzvləri olmadıqları fikri ilə barışmaq istəmir və təkrar partiyaya qəbul haqqında ərizə verirlər. Ancaq... onların bu cəhdi hər dəfə uğursuz olur.

Yenə öz mənşələrini gizlədirlər: keçmiş qorodovoy, məhəllə nəzarətçisi fəhlə olduğunu yazır, keçmiş bəy kəndli olduğunu göstərir, saqqalı mənfəətpərəst isə özünü inqilabçı kimi qələmə verir.

5 may çoxları üçün bəd gündür.

1 №-li şəhər özəyi komissiya tərəfindən yoxlanılır. Sədr komissiyanın əhəmiyyətini izah edir, bütün vətəndaşları və zəhmətkeş insanları yoxlanmalı olan bu və ya digər şəxslərin ifşa edilməsi işinə köməklik göstərməyə çağırır.

Babayev çağırılır.

Sağlam, yoğun səsli, yaxası bağlı bu adam, dərhal görünür ki, keçmişdə ya qoçu, ya da qorodovoy olub. Özünü çox lovğa aparır və verilən suallara, ya ümumiyyətlə cavab vermək istəmir, ya da qeyri-müəyyən cavablar verir. Anketində faytonçu olduğunu yazıb.

– Xahiş edərəm, deyin görək, 1914-cü ilə qədər nə işlə məşğul olmusunuz?

– Muzdlu fəhlə olmuşam.
–1914-dən 1917-ci ilə qədər?
– Yenə elə.
– Bəs 1917-dən 1920-ci ilə qədər?
– Yenə elə.
– Başqa heç bir işlə məşğul olmamısınız?
– Heç bir işlə məşğul olmamışam.
– Nəyiniz var?
– Hə, necə deyim... Heç nəyim yoxdur.
– Qorodovoy olmusunuz?
– Yox... olmamışam.
– Düz deyirsiniz?
– Hə.

Sabiq qorodovoylardan biri 1914-cü ildə Naxçıvan şəhərində birinci polis sahəsində onunla bir yerdə işləyib və o, Babayevə deyir:

– Yalan danışmaq lazım deyil: hamı bilir, mən də bilirəm ki, sən keçmiş qorodovoysan.

– Yoldaşlar inanmayın, bu böhtandır. Mən heç vaxt qorodovoy olmamışam.

Salonda boğuq gülüş səsləri eşidilir.

– Tutaq ki, olmamısınız. Daha nə deyə bilərsiniz? – sədr sual verir.

– O, on beş desyatin pambıq əkib, – bir qoca əlini qaldıraraq deyir.

– Hə, yoldaşlar, o, partiyaçı olmağından, belində mauzer gəzdirməyindən istifadə edərək mənim su payımı zorla əlimdən alıb, öz torpaqlarını suvarıb.

– Onun əlindən bilmirik hara gedək, – bir başqası deyir.

– Yaxşı, yoldaş Babayev, siz bunlara necə baxırsınız?

– Bu da yalandır.

Bir komsomolçu ayağa qalxır:

– Bu, o Babayevdir ki, keçmiş mehmanxananın qapılarını, pəncərələrini, bütün taxta-tuxtalarını çıxarıb özü üçün ev tikib. Bu, o Babayevdir ki, erməni kilsəsini dağıdıb, oradakı kərpicləri, taxtaları aparıb öz evində istifadə eləyib. Bu, o Babayevdir ki, bu yaxınlarda 300 rubl rüşvət alıb.

Və sair və ilaxır.

İştirakçılar bunun doğru olduğunu təsdiq edirlər.

– Siz kommunist partiyasına nə üçün daxil olmuşdunuz?

– Necə yəni, nə üçün: kommunist partiyası mənsiz, mən də kommunist partiyasız yaşaya bilmirik. Kommunist partiyası ol-

masaydı, mən torpaq ala, işə girə və məvacib ala bilməzdim. Kommunist partiyası köməklik göstərir, mən də buna görə ona daxil oldum.

"Kommunist partiyası və sovet hakimiyyətini nüfuzdan salan, partiya üzvü hüququndan və partiya biletindən yararlanaraq öz vəzifəsindən sui-istifadə edən cinayətkar bir ünsür kimi Babayev on beş desyatinə yaxın torpaq sahəsini suvarmaq üçün normadan artıq su götürmüş, kommunal təsərrüfat idarəsinin atlarından istifadə etmiş, dövlət binalarını dağıdaraq özünə ev tikmişdir, rüşvətxor və qoçu kimi həbs edilərək, məhkəməyə verilir", – komissiyanın qərarında deyilir.

Günəşdən yanıb qaralmış sifətlər açılıb parlayır, qadınlar, uşaqlar, komsomolçular komissiyanın qərarını alqışlayırlar. Çəpik səsləri susmaq bilmir və düz on dəqiqə davam edir.

İkincisi çağırılır.

– Sizin adınız, soyadınız və atanızın adı?

– Hüseynov Yusif oğlu.

– Deyin görək, siz Yusif Hacı Yusif oğlu Kəngərlinskini tanıyırsınız?

Dili dolaşır. Sifəti xərçəng kimi qızarır, bir ayağını götürüb, digərini qoyur, dəqiqəbaşı alnının tərini silir. Pərt olub...

– Yox. Tanımıram.

– Bəlkə bu, elə siz özünüzsünüz?

İri mülkədar, qoçu Heydər Ağa Kəngərlinskinin oğlu, qatil, cinayətkar öz soy adını gizlədərək partiyaya Hüseynov soyadı ilə yazılıb.

– Hə, həqiqətən mən Kəngərlinskiyəm, – sakit səs eşidilir.

– Bəs nə üçün soyadınızı dəyişmisiniz?

– Axı necə deyim... mən bu soy adına nifrət edirəm və mənim bəyliklə heç bir əlaqəm yoxdur, mən kommunistəm.

Hər tərəfdən sui-istifadələr barədə, qəza icraiyyə komitəsinin sədri olarkən onun kənddə törətdiyi zorakılıqlar barədə suallar yağdırılır.

Vəziyyət çox ümidsizdir...

– Necə bilirsiniz, siz kommunist partiyası sıralarında qalıb kommunist adını daşıya bilərsinizmi? –sədr soruşur.

– Bəli, mən qalmaq istərdim, ancaq görürəm ki, bu yolverilməzdir.

– Vətəndaş Kəngərlinski, siz böyük zorakılıqlar törətmisiniz, öz soyadınızı Hüseynov soyadına dəyişmisiniz. Biz indi sizin partiya kitabçanızı əlinizdən alırıq, Gələcəkdə də Kəngərlinski olaraq qalın.

O, azad nəfəs aldı.

–Allaha çox şükür, mən indi gedə bilərəm.

Növbəti şəxs çağırılır.

– İnqilaba qədər nə işləmisiniz?

– Mən başmaqçı olmuşam.

– Bəs kommunist partiyasına necə düşmüsünüz?

– Çox sadə. Milli qırğın zamanı İrana qaçmışdım. Geri qayıdanda gördüm ki, dükanım yerində yoxdur. İflas olmuşdum. Partiyaya yazılmasaydım, necə torpaq ala bilərdim?

– Torpaq ala bildinizmi?

– Hə, aldım.

– Onu öz əməyinizlə əkib becərirsiniz?

– Yox, öz əməyimlə yox. Başqalarının kəli, öküzü ilə.

– Buna görə nəsə ödəyirsiniz?

– Necə deyim. Yox, ödəmirəm. Mənə yaxşılıq eləyirlər.

Üçüncü şəxs – Bibi-Heybət "fəhləsi" Axundov çağırılır.

– 17-ci ilə qədər nə olmusunuz?

– "BORN"-da vedrəçi işləmişəm.

– Bəs 18-ci ilə qədər?

–Yenə elə.

– Bəs 18-dən 19-a qədər?

– Yenə fəhlə...

– Siz qorodovoy olmamısınız? – sədr onun sözünü kəsir.

– Hə, necə deyim... Hə, hə... Unutmuşam... 27 gün olmuşam.

– Polisə haçan qəbul edilmisiniz?

– Deyəsən yay idi.

– Bəs siz məhəllə nəzarətçisi olmamısınız ki?

– Hə, hə, belə də, necə deyərlər, məhəllə nəzarətçisi kimi bir şey... – səsi kəsilir, bənizi ağarır, yoldaş vedrəçi xain etirafını dilinə gətirməyə çalışır.

Camaatı gülmək tutur. Hamı qulaqlarını şəkləyib, nəzərlərini səhnəyə dikir.

– İndi nə ilə məşğulsunuz?

– Mən respublika prokuroru olmuşam, indi isə Baş Siyasi-Maarif Şöbəsinin müdiriyəm.

Salonda qəhqəhə qopur.

– Siz cəmi 27 gün məhəllə nəzarətçisi olmusunuz. Ancaq bizdə olan sənədlərdə deyilir ki, siz 1919-cu il mayın 7-də Bibi-Heybətdə qorodovoy kimi polisə işə girmisiniz. Sonra da məhəllə nəzarətçisi vəzifəsinə keçirilmisiniz və Azərbaycan sovetləşənə qədər bu vəzifədə qalmısınız. Niyə yalan danışırsnız?

– Hə, hə, deyəsən belə olub...

– Bu doğrudurmu?

– Demək olar ki, doğrudur. – Dərhal da əlavə edir:– Mən 1918-ci ildən hümmətçi olmuşam.

– Belə. Əgər siz partiya üzvü idinizsə, polisə işə girmək üçün kim sizə zəmanət verib?

– Bayıl – Bibi-Heybət rayonundan Məşədi Hüseynov və Məmmədov yoldaşlar.

– Yaxşı! İndi sizə Məşədi Hüseynovla Məmmədovun ifadələrini oxuyacağıq.

İfadələr oxunmağa başlanır, orda deyilir ki, onlar ona heç bir tapşırıq verməmişlər və o, ümumiyyətlə partiyanın üzvü olmayıb.

Camaatı maraq bürüyüb, hamı diqqətlə qulaq asır, hər kəs ən xırda detalı belə eşitmək və sovet praktikasında bu qeyri-adi fəhləni dinləmək istəyir.

– Vətəndaş Axundov kommunist partiyasının tərkibindən xaric edilir. Milis rəisinə tapşırılır ki, onun tapançasını təhvil götürüb, Naxçıvanı tərk etməmək barədə dilindən iltizam alsın və həbs etsin, – sədrin kəlmə-kəlmə vurğulayaraq dediyi sözlər auditoriyanın gur alqışları və ara verməyən “Yaşasın kommunist partiyası!” sədaları arasından eşidilir.

Çoxları burnunu yerə dikib, bəziləri verdikləri ərizənin cavabını gözləmədən aradan çıxıb. Çoxları isə artıq ərizə verməkdən çəkinir.

Sovet hakimiyyəti öz düşmənlərinə bax belə divan tutur.

Özəklərin yoxlanılması Naxçıvan Diyarında çalışan işçilərin bütün cinayətkarlığını, səhlənkarlığını, qeyri-kommunist əməllərini daha güclü şəkildə açıb göstərir. Özəklərin təmizlənməsi bu ünsürlər tərəfindən törədilən biabırçılıqları daha parlaq şəkildə açır və təsvir edir.

Təmizlənmə işinin həyata keçirilməsinə seçki komissiyaları, kasıblar, muzdurlar, bitərəf fəhlələr, komsomolçular və yeniyetmə pionerlər böyük kömək göstərirlər.

Demək lazımdır ki, komsomol kənddə və şəhərdə artıq fəal çıxış edir: işçilərin bütün cinayətkar əməllərini ifşa edir, onların keçmişlərini açıb göstərirlər. Ancaq burada qadınların rolu barədə də susmaq olmaz.

Qadınlar daha fəaldırlar. Sabiq bir partiyaçının, Naxçıvan Diyarı komsomol komitəsi katibinin arvadı öz ərinə qarşı fəal çıxış etdi və komissiyadan onu əxlaqsızlığına görə cəzalandırmağı xahiş etdi.

Təmizləmə işi gücləndirilmiş templə aparılır. Və tam ümid var ki, təşkilatdakı 750 üzvdən maksimum 150-si qalacaqdır. Şüurlu

fəhlə ünsürü və kəndin muzdur kəsimi keçmiş partiyaçılar arasından ən yaxşılarını, sədaqətli hissəni seçib ayıracaq və onu kommunist partiyasına verəcəkdir. Naxçıvan təşkilatı bu sağlam ünsürlə bərkiyəcək və Naxçıvan Diyarında kənd təsərrüfatının bərpası, aşağı sovet aparatının sağlamlaşdırılması və sovet hakimiyyətinin möhkəmləndirilməsi sahəsində çox nəhəng vəzifələri biz yeni, ən yaxşı, kommunizmə sədaqətli ünsürlə yaxın günlərdə yerinə yetirməyi bacaracağıq.

**K.**

*("Bakinski raboçi", 17 may 1925-ci il, № 108)*

Növbəti oçerk – sovet hakimiyyətinin Naxçıvanda əkdiyi bolşevik allahlı yeni sovet məişətinin cücərtiləri haqqındadır.

## KƏNDLİ MƏİŞƏTİ

***(Naxçıvan Diyarı, Dəstə kəndi)***

İsti bir gün idi. Ordubaddan gəldiyimiz nahamar yol bitdi və biz Dəstə kəndinə gəlib çatdıq, yaxınlıqdakı kiçik bir bulaq şaqraq səslə sıx tut bağına axırdı.

Daxmanın önündə iri ağacın kölgəsi altında qara çadraya bürünmüş cavan bir türk qadını əyləşmişdi, bir az aralıda isə, çardağın altında onun atası ilə, atası qədər qoca olan əri oturmuşdu. Tünd çay içirdilər.

Tezliklə dar küçələr məni meydana, kənd sovetinə gətirib çıxardı: mitinq münasibətilə qocalar, cavanlar burda əyləşmişdilər. Hətta burada, Naxçıvan Diyarının yoldan-irizdən uzaq bir guşəsində belə Azərbaycanda Sovet hakimiyyətinin beş illiyi şərəfinə bir yerə toplaşmağa ərinməmişdilər. Sədr fərasətli və cavan bir adamdır. Sonda su kəmərinin çəkilməsi barədə danışdılar. Su olmasa, bütün əkinlər yanacaq, bulaq suyu isə yalnız içməyə və bostan suvarmağa çatır. Araz çayında suvurma stansiyasının tikilməsi üçün mərkəzə məktub göndərməyi qərara aldılar. Sonra kəndlilər İsmayıldan şikayətlənməyə başladılar, bu adam çar dövründə oğru olub, üstəlik sonra da Gəncə qəzasında quldurluq edib. İndi isə sakitcə partiyaya soxulur.

İsmayıl qolçomaqların bütün torpaqlarını əllərindən alıb, yaxşısını özünə götürüb, pisini özgələrə verib. Bir düjün muzduru zorla özünə işləməyə məcbur edib, ən yaxşı otlaqları zəbt eləyib. Hər gün də bir arvad dəyişir, heç kim onun bu zorakılığına qarşı çıxa bilmir. Dəstəlilər tarlaları suvarmağa gedərkən istədiyi zorakılıqları eləyir.

Günəş əyilmişdi, qoca bağban isə getməmişdi. Kədərli halda mənə gözəl bir qadın olan Səki Məmməd qızı haqqında danışırdı. Səki Araza qaçıb çoxlu ağlamışdı. İsmayıl onu zorla özünə almaq istəyirdi. Qırmızı Urus əsgərini sevdiyinə və köhnə adət və ənənələrə riayət etmədiyinə görə hamı onu masqaraya qoyur, təhqir eləyirdi. İsmayılın ağ sifət arvadı Xeyransanın Səkini görməyə gözü yox idi, onu hər yerdə izləyir və haqqında elə şeylər uydurub danışırdı ki, axırda Səkini nümayəndələr siyahısından çıxarmış, mandatını əlindən almışdılar.

İsmayıl vəzifəyə keçmişdi, Səki ona təslim olmasa, mandatını ona geri qaytarmaq istəmirdi.

Səki piyada üç gün yol qət edərək Naxçıvana gedib, İsmayıldan şikayət etmişdi (12 №-li vaqona) və bu vaqonun çuqun təkərini öpüb geri qayıtmışdı, burda isə onu İsmayılın təhqirləri gözləyirdi. Səkinin gözəl qəlbə malik olduğunu yalnız bu qoca bilirdi, Araz çayı isə şən halda şaqrayaraq, qırmızı urus əsgərindən eşitdiyi qəmli hadisənin kədərini bilinməz diyarlara aparırdı: o əsgər çoxdan, sanki yuxuda imiş kimi, Qafqaz haqqında eşitmiş, amma qara gözlü, dilini belə anlamadığı Səkiyə bir söz belə kəsmədən ürəkdən vurulmuşdu.

Günəş yaxınlıqdakı dağların arxasında gizləndi. Qoca susdu və əlindəki ağacla onları ayıran yolu göstərib, öz sakit daxmasına yolandı.

*(“Bakinski raboçi”, 18 may 1925-ci il, № 109)*

Burada da anonim müəllif öz kimliyini bildirmək istəmir – deməli xalqın rəyindən çəkinir, deməli, bu yalana görə cəzalanacağından qorxur.

## NAXÇIVANDA SOVETLƏRƏ YENİDƏN SEÇKİLƏR

Naxçıvan Diyarının təhqiqi üzrə Xüsusi Komissiya tərəfindən bir çox kəndlərdə antiproletar ünsürlərin (qolçomaqların, mülkədarların, bəylərin, xanların) sovet aparatının aşağı özəklərini ələ keçirdiyini aşkar etməsi ilə əlaqədar olaraq, hal-hazırda sovetlərə seçkilər üçün fəal hazırlıq gedir.

Mərkəzi və qəza seçki komissiyaları təşkil olunmuşdur. Məsul yoldaşlar arasından kəndlərə təlimatçılar göndərilmişdir. Onlar yenidən seçkilərlə bağlı işlərə bilavasitə rəhbərlik edəcəklər. Yerlər rus, erməni və türk dillərində lazımi ədəbiyyatla (kənd sovetləri haqqında əsasnamələrlə, seçkilərə dair təlimatlarla, siyahı və protokol

blankları və s.) ilə təchiz edilmişdir.

Kənd sovetlərinə cari dəftərxana işlərini aparmaq üçün lazımi kitablar, həmçinin vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyata alınması üzrə kitabçalar, ailə vəziyyəti üzrə kitabçalar və siyahı blankları göndərilmişdir.

Təcili qaydada kənd sovetləri üçün lazım olan mebel ( skamya, kətil, stol, lövhə, bayraq və s.) hazırlanır. Onlar kənd sovetlərinə elə bir vaxtda çatdırılacaq ki, bu sovetlər təkcə daxilən deyil, həm də zahirən yeniləşmiş olacaqlar.

Hər bir dairə icraiyyə komitəsinin sərəncamına kənd soveti və dairə icraiyyə komitələrinin təmiri üçün 1000 rubl buraxılmışdır. İndiyə qədər bu müəssisələrin çoxu at tövlələrində və xarabalıqlarda yerləşirdi.

Qarşıdakı yenidən seçkilər aşağı sovet aparatının əsil kəndli özəklərini formalaşdırmalıdır.

**V. S.**

*("Bakinski raboçi", 20 may 1925-ci il, № 111)*

Naxçıvan məişətinə qəsd edən, sifarişlə yazan digər bir cızma-qaraçı, sanki çoxəsrlik ənənələrə malik həyat şərtlərini birinci dəfə görən mağara adamı kimi, əsrlərin sınağından çıxan, nəsildən-nəslə ötürülən nə varsa, hamısını ləkələməyə çalışır.

## KÖHNƏ MƏİŞƏTİN ƏSARƏTİ ALTINDA
## (NAXÇIVAN)

Türk qadınlarının çoxəsrlik əsirlik əsarətinin şahidləri olan daş xarabalıqlar indi də köhnə məişətin hələ tam ləğv olunmamış qalıqlarını özündə qoruyub saxlayır. Naxçıvan qadınlarının bütün həyatı dörd divar arasında keçir.

Şəhərin küçələri səssiz-səmirsiz gil-daş hasarlar arasında uzanıb gedir. Bəzi yerlərdə bu hasarlarda qapılar-darvazalar açılıb. İçəri girirsən – bağdır, onun da dərinliyində daxma yerləşir. Türk qadının ömrü burada keçir. Bütün günü evdən çıxmadan burada adi qayğılarla məşğul olur. Bir gün o birindən heç nə ilə fərqlənmir: dünən necə idisə, bu gün də elədir, sabah da o cür olacaq.

Şəhərin küçələrində çox nadir hallarda türk qadını görə bilərsən – o da hökmən çadraya bürünmüş şəkildə. Türk qadının hər hansı bir ictimai işdə iştirakı barədə danışmaq belə mümkün deyil. Köhnə adətlər onların həyatında elə dərindən kök salıb ki, hətta qadın şöbəsində çalışan partiyaçı qadınların belə əl-qolu soyuyur.


Naxçıvan xanlığı dövründə qadın

Qadın şöbəsinə özək təşkil etmək min bir əziyyətə başa gəlmişdir. Onu da Naxçıvanın hər yerindən cəmi 12 türk qadını ziyarət edir. Naxçıvan qadınları heç bir əyləncə üzü görmürlər. Əksəriyyəti savadsızdır. Bir kitabın daxmaya gedib çıxması onun Mara gedib düşməsi qədər çətin bir işdir. Naxçıvan qadınlarının, necə deyərlər, ürəklərini boşaltdıqları yeganə yer hamamdır... Onlar buraya toplaşıb danışırlar – susmaq bilmədən danışırlar. Hər biri dərd-sərini öz rəfiqəsi ilə bölüşür, öz acı kölə taleyindən şikayətlənir. Onlar çox şeylərdən imtina edərək, qabaqcadan şirin peçenye və bu cür şeylər alıb hamam icarədarına göndərir və oraya yığışanda özləri üçün bir növ məclis təşkil edirlər.

Başqa bir vəhşi adət xüsusilə diqqət çəkir. Doğuş ərəfəsində qadın bu barədə özünün bütün qohumları və yaxınlarına xəbər verir. Unudulub dəvət olunmayan kəs bunu özü üçün böyük təhqir hesab edir. Xalalar, bacılar, qonşular, qohumlar yığışır. Və mərasim başlayır. Onların hamısı çadraya bürünmüş halda, başmaqlarını qapıda çıxararaq, sıra ilə doğmaqda olan qadının otağına girirlər.

Bir-birinin ardınca sıra ilə döşəməyə sərilmiş xalçanın üstündə əyləşirlər. Burada mamaça yoxdur. Qadınlardan yaşlısı xəstəyə yaxınlaşır, onun üzərinə iki arşınlıq təzə kolenkor sərərək, onu cırıb parçalara bölür (bu, doğan qadının rahatlığı üçün edilir).

Uşaq doğulandan sonra, körpəni bir-bir qadınların hamısına göstərirlər, bu zaman zorla ayaq üstdə duran anası körpəsinə kiminsə gözü dəyməsin deyə onunla birlikdə sıranı dolanmalı olur. Sonra qoca bir qarı əlində süpürgə içəri girir və bərkdən divarlara, pəncərələrə, qapıya döyəcləməyə başlayır və bununla da "çin-şeytanı" qovmuş olur.

Qadın şöbəsinin əli altında bax bu cür işlər baş verir və o, hələ ki, mövhumat və dini fanatizmlə dolu olan köhnə məişət dayaqlarını dərhal yıxmağa qadir deyil.

**Q.**

*("Bakinski raboçi", 7 iyul 1925-ci il, № 150)*

Proletar dövlətinin parlaq həyatının *"köhnə məişətə"* müdaxiləsi barədə bu kifayət qədər miskin oçerki oxuyarkən dərhal belə bir sual meydana çıxır: əgər bu jurnalist yazdıqlarının doğruluğuna inanırsa, – tutaq ki, belədir, – onda özünü nə üçün gizlədir?

Bu işıqlı dünyada azmı əcaib adam var? Qəsdən yalan yazmaqla da olsa, axı çörək qazanmaq lazımdır.

Bu müəllif ona görə gizlənir ki, insanların gözünün içinə baxmaqdan qorxur. Bu cızma-qaraçını yalan yazdığına və xalqın adət-ənənəsinə sataşdığına görə döyməsələr də, hökmən onun küt baxışlarının içinə tüpürəcəkdilər. Naxçıvanlılar isə bunu çox yaxşı bacarırlar, axı onlar cəsarətli və həm də həqiqəti sevən adamlardır.

Yeri gəlmişkən, özünü rus dilindəki **"Q"** hərfi ilə eyniləşdirən müəllif adının beş hərfdən ibarət bir sözdən olduğunu düşünməyə əsas verir, həmin sözü isə Rusiyada ta qədimdən çox pis, hamının uzaq qaçmalı olduğu adama qarşı işlədirlər. Ola bilsin Naxçıvanda da belə edirlər.

## Yer quruluşu komissiyasının işindən
## KEÇMİŞ BƏYLƏR NAXÇIVAN DİYARINDA

Keçmiş mülkədarlar, ümumiyyətlə, çox çevik, fəndgir, hər şeyə dərhal uyğunlaşan adamlardır. Ən çətin şəraitlərdə belə, onlar məharətlə özlərinə isti və rahat yuva qura bilirlər. Budur, İttifaq MİK-nin və Xalq Komissarları Sovetinin cari il may ayının 20-də keçmiş mülkədarların torpaqlarının əllərindən alınması barədə verdiyi dekretə baxmayaraq, Naxçıvan Diyarında bəzi bəylər indiyə kimi kef çəkirlər.

Elə düşünməyin ki, bu bir zarafatdır. Yox, bu, əsil çılpaq həqiqətdir. Ərəzin rayonunda, Biləv cəmiyyətində, Gilyançay xutorunda keçmiş Kəngərli bəylərinin varislərindən olan 4 ailə sakit-xürrəm mülkədar kimi yaşayır. İnqilab onların yanından lütfkarlıqla keçib və onlar indi də çarizm dövründəki kimi çox gözəl yaşayırlar: bütün xutor, onun 3000 desyatinə qədər torpağı onların mülkiyyətindədir, bu torpağın yararlı hissəsinin 4 desyatini bağdır, 4 desyatinində ot

çalınır, 51 desyatini əkin sahəsidir, 1000 desyatinə yaxını otlaqdır, qalanı isə yararsız torpaqlardır, ancaq elə bu da onlara bəsdir.

Kəngərlilərdən biri, Əlimurad bəy hətta öz rayonunda hərbi uçot masasının müdiridir. Gördüyünüz kimi, vəziyyəti heç də pis deyil: xutoru da var, xidməti vəzifəsi də.

Xutorda fəhlə hüququnda İran təbəəsi olan 5 ailə və qonşu kəndlərdən də 5 ailə, cəmi 30 nəfər yaşayır.

Bu "cənnət" guşəsi tamamilə təsadüfən aşkar edilib. Yer quruluşu komissiyası rayona gəlib işə başlayarkən bəylərin xutoru ilə rastlaşıb.

Ancaq bəylər bu torpağı əldən vermək istəmirlər. Əksinə, onlar hətta torpaqölçənə ərizə veriblər ki, xutorda yaşayan bəzi ailələri, kəndliləri oradan çıxarsınlar; səbəbini də onunla izah edirlər ki, bu adamlar quldurdurlar və onlarla birlikdə yaşamaq mümkün deyil. Görünür, bəylər daha böyük genişlik içərisində yaşamaq fikrinə düşüblər.

*("Bakinski raboçi", 13 avqust 1925-ci il, № 182)*



# NAXÇIVAN UYDURMASI VƏ GƏLƏCƏYƏ AYIQ BAXIŞ

Naxçıvan gerçəkliyini, qədim diyarın ağır vəziyyətinin əsil səbəblərini göstərmədən gözdən salmağa çalışan təşkil olunmuş bədxah məqalələr selində, eyni zamanda 12 №-li mavi vaqondakı, necə deyərlər, *"xilaskarın"* şərəfinə şirin mədhiyyələr də oxunurdu. Naxçıvan MSSR-in bərpasına cinayətkar münasibət bəslədiyinə görə Azərbaycan SSR mərkəzi hakimiyyətinin ədalətli şəkildə tənqidinə Azərbaycan mətbuatında heç cür yol verilmirdi. Mətbuatda Naxçıvan Respublikasının dirçəldilməsi mövzusuna toxunulanda da, gördüyümüz kimi, günah istisnasız olaraq Naxçıvan SSR hakimiyyətinin ayağına yazılır, guya naxçıvanlıların özlərinin öz ərazilərini abadlaşdırmaq və baxımsız qalmış kənd təsərrüfatını inkişaf etdirmək arzusunda olmadıqları vurğulanırdı. Sovetləşmədən sonra Naxçıvan MSSR-in həyatı və inkişafı haqqında, həm *"basqına"* qədər, həm də ondan sonra Azərbaycan mətbuatında, ümumiyyətlə nadir hallarda məlumat verildiyi üçün Azərbaycanın mərkəzi hakimiyyətinin mətbuat vasitəsilə Naxçıvan Respublikasındakı işlərin gedişi barədə təhrif olunmuş təsəvvür əldə etməsi çətin deyildi.

Bununla belə, Zaqafqaziyanın baş qəzeti "Zarya Vostoka"da, sonra isə "Bakinski raboçi"də Naxçıvan MSSR-in təhqiqindən sonra, çox nadir hallarda da olsa, başıbəlalı Naxçıvan reallığına toxunan, onun ağır vəziyyətinin aradan qaldırılması ilə bağlı ağlabatan fikirlər irəli sürən qərəzsiz çıxışlar da verilirdi.

Zaqafqaziya III Sovetlər Qurultayının nümayəndəsi, həmin dövrdə Naxçıvan Diyarında sərhədçi, sonralar isə Fəhlə-Kəndli Qırmızı Ordusunun iri sərkərdələrindən biri olmuş **A.V.XRULYOV** da Naxçıvan Respublikasındakı vəziyyəti qısa şəkildə dəyərləndirməyə çalışmışdır. O, Respublikanın təsərrüfat və siyasi həyatının təhqiqində iştirak etmiş və faktiki olaraq, *"basqının"* çoxsaylı iştirakçıları ara -

sında Azərbaycan mərkəzi hakimiyyətinin məsuliyyət daşıdığına işarə vurmağa cəsarət edən yeganə insan olmuşdur.

Bəlkə də, Xrulyov öz mövqeyini daha kəskin və müfəssəl formada bildirmişdir, ancaq Azərbaycanın hakimiyyət orqanlarını tənqid qadağan edilmiş mövzu idi və biz də burada mətbuatda dərc olunanı veririk.

"Mən partiya üzvü olan bir hərbçi kimi, arzu edərdim ki, bir daha "Naxçıvan çevrilişləri" təşkil etməmək üçün mərkəz yerli ehtiyaclara daha çox diqqət yetirsin, avam və yoxsullaşmış kəndliyə daha çox diqqət ayırsın."

*("Заря Востока", 14 aprel 1925-ci il, № 850)*

---

**XRLUYOV ANDREY VASİLYEVİÇ** (1892 – 1962). Sovet hərbi və dövlət xadimi, 1-ci Süvari Ordusunun tərkibindəki 11-ci Qafqaz Diviziyasının siyasi şöbə rəisi, 1940-ci ilin avqustundan – Fəhlə-Kəndli Qırmızı Ordusunun baş intendantı, ordu generalı (1943), Böyük Vətən Müharibəsi dövründə xalq müdafiə komissarının müavini, 1946-cı ilin martından – Fəhlə-Kəndli Qırmızı Ordusunun Arxa Cəbhə rəisi – SSRİ Silahlı Qoşunlar nazirinin müavini. Sonralar avtomobil nəqliyyatı və yollar nazirinin müavini, 1956-cı ildən isə SSRİ tikinti nazirinin müavini işləmişdir.

---

Oxucuya Azərbaycan SSR Dövlət Plan Komitəsinin sədri, müstəqil şəxsiyyət və iqtisadiyyat sahəsində iri mütəxəssis olan Hacınski ilə söhbəti təqdim edirik. Təhsilli və vicdanlı bir adam kimi, o, bütün bəlalarda Naxçıvan rəhbərliyi və xalqını günahlandıran, öz ittihamlarına təhqiramiz yarlıqlar yapışdıran partiyaçıların yedəyində getməmişdir. Hacınski işgüzarcasına, emosiyaya qapılmadan və savadlı şəkildə Naxçıvan MSSR-in ağır vəziyyətini nəzərdən keçirmiş və Respublikanın dirçəldilməsinə dair birinci növbədə həyata keçirilməli olan tədbirləri qeyd etmişdir.

Yeri gəlmişkən, yoldaş Hacınski ilə söhbətdən bunu da görmək çətin deyil ki, hələ yoxlamadan əvvəl Naxçıvan MSSR-də ağıllı təkliflər irəli sürülmüş və Respublikanı bərpası ilə bağlı

işlərə başlanılmışdır, lakin həmin təkliflər Azərbaycan hökuməti tərəfindən dəstəklənməmişdir. Və biz, M. Bağırovun Naxçıvan MSSR üzrə komissiyasının heç bir sənədində Respublikaya qarşı bu məsuliyyətsiz münasibətə dair heç bir izah tapa bilmirik.

## NAXÇIVAN DİYARININ EHTİYACLARI
### (Yoldaş Hacınski ilə söhbətdən)

Bizim əməkdaşımız Naxçıvan Diyarından yenicə qayıtmış yoldaş Hacınski ilə söhbət etmişdir, o, kənd təsərrüfatı bankının açılışı ilə əlaqədar oraya getmişdi.

Yoldaş Hacınski Naxçıvan Diyarında olmasından yararlanaraq, diyarın iqtisadi vəziyyəti ilə də tanış olmuşdur.

Yoldaş Hacınski aşağıdakıları bildirmişdir:

## KƏND TƏSƏRRÜFATININ KREDİTLƏŞMƏSİ

– Naxçıvan Diyarı üçün müstəqil kənd təsərrüfatı bankının açılmasına Zaqafqaziya kənd təsərrüfatı bankının idarə heyəti və şurası tərəfindən hələ cari ilin yanvarında qərar verilmişdi. Onda iştirak etmək üçün digər təşkilatların da razılığını almaq lazım idi. Danışıqlar aprelin əvvəlində başa çatdı, aprelin 18-də isə bank faktiki olaraq açıldı.

Hələlik əsas kapital 200 000 rubl məbləğində qəbul olunub, bu məbləğ tamamilə müəssisələr tərəfindən ödənilib. Yaxın gələcəkdə bu əsas kapital, ən azı iki dəfə artırılacaqdır.

Kənd təsərrüfatının kreditləşməsi bu vaxta qədər üç kredit cəmiyyəti və onların Naxçıvandakı rayon ittifaqı tərəfindən həyata keçirilirdi. Həm kreditin miqdarını, həm də onun sahələr üzrə bölgüsünü azacıq da olsa kifayət hesab etmək olmaz.

Kredit cəmiyyətləri dəmiryolu boyu, başlıca olaraq, pambıqçılıq rayonunda, yəni kəndlilərin Zaqafqaziya Pambıq İdarəsi tərəfindən yaxşı kreditləşdiyi yerlərdə təşkil edilmişdi. Naxçıvan Diyarının qalan hissəsi isə, onun ucqarları – heyvandarlıq, dənli və meyvə bitkilərinin əkildiyi rayonlar isə hər kəsin qayğısından kənarda qalmışdı. Buna görə də yeni təşkil edilən Naxçıvan kənd təsərrüfatı bankı dərhal kredit cəmiyyətlərinin sayını 12-yə yüksəltməyi və onları bütün rayonlar üzrə bərabər yerləşdirməyi qərara aldı.

## SUVARMA VƏ YER QURULUŞU

– Bəzi rayonları, başlıca olaraq da, Şərur qəzasını gəzə bildim və bəzi şeylər barədə öz təəssüratlarımı bölüşmək istəyirəm. Xalq Komissarları Sovetinin sədri yoldaş Sultanovu, demək olar ki, bütün

kəndlərin sakinləri ən birinci suvarma və yer quruluşu məsələsinə dair xahişlə qarşıladılar.

Doğrudur, yoldaş Sultanovun gərgin səyləri sayəsində Şərurun cənub-qərb hissəsini qidalandıran iki baxımsız qalmış arx qaydaya salınmışdır və yaxın günlərdə onlara su buraxılacaq. Kəhrizlərin bərpa edilməsini öz üzərinə götürən və ixtiyarında heç də az pul olmayan “Köybirliyi” çox pis işləyib, demək olar ki, heç nə eləməyib. Çoxdan aldıqları 40 000 rubl Naxçıvanda yatıb qalır.

Suvarma məsələsi qəzanın yerdə qalan, az torpaqlı çılpaq səhradan ibarət olan daha böyük hissəsində daha kəskin formada hiss edilir. Yadımdadır, pambıqçıların 1924-cü ilin əvvəlində Bakıda keçirilən qurultayında naxçıvanlılar qızğınlıqla Bazraçaydan bu rayona suvarma kanalı çəkilməsi barədə layihə irəli sürmüşdülər. Bu yeni suvarılan torpaqlar verə və diyarın ehtiyaclarını xeyli azalda bilərdi.

Kim bu işi yerinə yetirərsə, özünə Naxçıvanda heykəl qoymuş olar. Yer quruluşu aparılmamışdır, bu da davam edən qaçqın axını şəraitində böyük qarmaqarışıqlıq yaradır.

## TİKİNTİ MATERİALLARINA EHTİYAC

– Elə şeylər var ki, kəndlilər bu barədə şikayət etməsələr də, onlar özü acı şəkildə dərhal gözə soxulur. Bunlar buradakı ağla sığmayan dağıntılardır. Ümumi yoxsulluq və ucuz tikinti materiallarının yoxluğu (heç bahalısı da yoxdur) əhalini son dərəcə ağır vəziyyətdə qoyur. Əlbəttə, bu sahədə illərlə işləmək lazım gələcəkdir, ancaq buna indidən başlamaq lazımdır. Heç olmasa, ağac materialları ilə güzəştli təchiz işinə. Axı buradakı nadir ağacları onsuz da kəsirlər.

## MALYARİYA

**–** Bütün Zaqafqaziyanın bəlası – malyariya orada kəskin şəkildə tüğyan edir. Belə bir faktı qeyd etməliyəm: bu rayondakı yeganə malyariya stansiyasının müdiri bizə ziyarət diaqramını göstərdi, belə ki, əhalinin ... faizi malyariyaya tutulub.[1] Yenicə doğulan körpələrin qan təhqiqi onların da bu xəstəliyə tutulduqlarını, yəni bunun artıq irsi xəstəlik olduğunu göstərir. Eyni zamanda, elə onun təsvir etdiyinə görə malyariyaya qarşı mübarizə həddən artıq böyük xərc tələb edir.

Nrpararaksin (məqalədə belə gedib – qeyd R. İ.) zolağının drenajlanması və eyni zamanda çəltik əkininin qadağan olunması buna son qoyacaqdır. Sonuncu tədbir iqtisadi xarakterlidir. Əlbəttə, təkcə qadağalarla ötüşə bilməzsən. Çəltiyi pambıqla əvəz edərək, onu tədricən sıxışdırıb aradan çıxarmaq olar.

1. *Orijinalda bu cür getmişdir (Redaktorun qeydi).*

Kəndlilər qismən buna gedirlər, ancaq çəltik əkməkdən tamamən imtina edə bilmirlər, çünki ondan gübrə vasitəsi kimi də istifadə edirlər. Qoy bu barədə aqronomlar rəy versinlər, ancaq düşünürəm ki, süni yolla gübrə almaq o qədər də çətin vəzifə deyil.

### İŞLƏK HEYVANA EHTİYAC

– Görünür ki, işlək heyvana ehtiyac böyükdür, ancaq mənim olduğum rayonda yox. Xalq Komissarı Soveti tərəfindən təcili işlək heyvanları satın almaq üçün İrana adamlar göndərilib. Yeni Naxçıvan kənd təsərrüfatı bankı da öz kapitalının böyük hissəsini işlək heyvan almaq üçün ayırıb.

## KƏND TƏSƏRRÜFATI ALƏTLƏRİ

– Maşın təchizatı barədə danışmağa ehtiyac yoxdur. Traktorlaşdırma üçün əlverişli şərait var və onu yaxın illərdə geniş tətbiq etmək lazımdır. Ancaq indi diyar kəskin çatışmazlığı hiss edilən xırda inventarlarla kütləvi şəkildə təchiz olunmalıdır.

## İPƏKÇİLİK

– Təəssüf ki, ipəkçilik rayonuna (Ordubada) getmək mənə nəsib olmadı. Bu il orada 2500 qutu barama toxumu paylanıb və 800 puda yaxın xam barama alınacağı gözlənilir. Bir vaxtlar Ordubad rayonu həm keyfiyyətinə, həm də barama qurdunun yetişdirilməsinə görə ən yaxşı rayon hesab olunurdu. Orada mövcud olan ipəkaçma zavodları indi işləmir. Onlardan birini, ən yaxşısını işə salmaq çox yaxşı olardı.

## ŞƏHƏRLƏR

– Şəhərlərə gəldikdə isə, onlar da dağıntılardan, xarabalıqlardan ibarətdir. Naxçıvana daha çox ziyan dəyib, şəhərin xeyli hissəsi yandırılıb və təmir etmək mümkün deyil. Oradakı xarabalıqları uçurub, yeni plan əsasında tikililəri bərpa etmək lazım gələcəkdir.

Culfa yandırılmayıb, ancaq binaların taxta hissələri parçalanaraq sıradan çıxıb. Onların bərpası xeyli az xərc tələb edir. Culfa canlanır və mənə elə gəlir ki, bir çox binalar bizim təsərrüfat təşkilatlarımız tərəfindən bərpa ediləcəkdir. Bu, ağır olmayacaq və onları zərərə salmayacaqdır.

### ƏVVƏLCƏ KƏND BƏRPA OLUNMALIDIR

– Hər halda mənim fikrim belədir ki, əgər Naxçıvan Diyarına pul buraxılırsa, o, başlıca olaraq, kənd təsərrüfatının bərpasına sərf edilməlidir.

Kommunal tikintidə sanitariya sahəsində ən zəruri şeylərlə ki-

fayətlənmək və yaşayış sahəsini artırmaq lazımdır. Zahiri abadlıq, bəzək-düzək barədə sonra danışarıq.

Kənd təsərrüfatında suvarma (Bazarçay kanalı), yer quruluşu, malyariyaya qarşı mübarizə və kəndin canlı və cansız inventarla təmin edilməsinin gücləndirilməsi məsələləri birinci planda dayanır.

Həmçinin kənd təsərrüfatı məhsullarının emalının – pendir istehsalı, barama qurutma və barama açma işlərinin başlanğıcı qoyulmalıdır. Mən burada pambıqçılığa toxunmuram, çünki o, indi yaxşı əllərdədir. Noraşendə yeni pambıqtəmizləmə zavodunun tikintisi, demək olar ki, başa çatdırılmışdır.

**DUZ MƏDƏNLƏRİ**

Naxçıvan Diyarının sənayesini indi duz mədənləri təmsil edir. Onlar çox güclüdür. Hazırda burada 80-ə yaxın fəhlə çalışır, ancaq istəsələr elə bir çətinlik çəkmədən fəhlələrin sayını 500-ə, məhsuldarlığı isə ildə 2 500 000 puda qədər artırmaq olar.

Ancaq bəla bunda deyil. Duzun bir pudunu mədəndən Naxçıvan stansiyasına daşımaq 9 qəpiyə başa gəlir. Ağlasığmaz xərcdir. Bir neçə dəfə dar dəmiryolunun çəkilməsi barədə məsələ qaldırılıb. Bunu həll etmək lazımdır. Kobud hesablamalara görə 4-5 ilə bu yol öz xərcini, təkcə duz daşımaqla çıxaracaqdır, halbuki o həm də rayonun qalan yük dövriyyəsini də canlandıracaqdır.

**QURĞUŞUN YATAQLARI**

Qurğuşun yataqlarında da (keçmiş Şangireydə) olduq. Onlar baxımsız qalıb, ancaq çöküb batmayıblar. Onların bərpası çox xərc tələb etmir. SSRİ-nin qurğuşuna ehtiyacı olduğu üçün onların bərpası və inkişaf etdirilməsi birbaş hesaba alınmışdır. Bu məsələ ilə bağlı Zaqafqaziya Dövlət Plan Komitəsinin öz layihəsi var.

**YENİ QÜVVƏLƏR DİYARIN VƏZİYYƏTİNİ YAXŞILAŞDIRACAQLAR**

İndi, – yoldaş Hacınski söhbətinə yekun vurdu, – oraya çoxlu işgüzar işçilər göndərilib. Onlar Diyarda quruculuq işlərinə elə bir enerji ilə başlayıblar ki, bu adamda xoş təəssürat oyadır və növbəti təsərrüfat ilinin Naxçıvan Diyarı üçün ötən ilkinə bənzəməyəcəyinə böyük əminlik doğurur.

*(“Заря Востока”, 23 aprel 1925-ci il, № 857)*

Xüsusi mülkiyyətin Sovet hakimiyyəti tərəfindən hər yerdə gerçəkləşdirməyə çalışdığı kooperativ təsərrüfatla sağlam rəqabətində, sonuncu geniş xalq kütlələrini, xüsusən də kəndliləri öz

tərəfinə çəkmək üçün hələ çox *“tərləməli”* olacaq. Ümumiyyətlə, xüsusi mülkiyyəti dəfn etmək və onu guya daha cəlbedici ictimai mülkiyyətlə əvəzləmək şansı varmı?

Aşağıda verilən məqalədə kəndə xüsusi və ictimai ticarət barədə düşüncələr öz əksini tapmışdır.

## NAXÇIVAN KƏNDİNİN SİMASI

İliçin vəsiyyətini həyata keçirmək – fəhlə-kəndli blokunu möhkəmləndirmək üçün elə bir vəziyyətə nail olmaq lazımdır ki, kəndlilər, kommunist partiyasının vətəndaş müharibəsini uğurla apardığı kimi təsərrüfat məsələlərini də yaxşı həll edəcəyinə və bütün təsərrüfatı uğurla aparacağına inanmış olsunlar.

Etiraf etmək lazımdır ki, kənd yerində kooperasiya ilə təkbətək mübarizədə xüsusi ticarətçinin üç üstün cəhəti var: kredit, geniş kooperativ dükanları şəbəkəsinin yoxluğu və kooperasiyanın malik olmadığı və əldə edə bilmədiyi malları tapmaq bacarığı.

Kənddə xüsusi ticarət olmadığından, burada kooperativlərin çiçəkləndiyindən danışmaq şüurlu şəkildə gerçəkliyə göz yummaq deməkdir.

Yalnız bəzi yerlərdə kooperasiya bazara təkbaşına hakimdir və düzünü desək, həm də çox pis hakimdir. Kənddəki kooperativ dükanında istənilən mal şəhərdəkindən xeyli bahadır.

“Naxittifaq”da birləşən Naxçıvan kooperasiyası yalnız bu yaxınlarda öz bağışlanmaz qüsurlarından yaxa qurtarmışdır. Onların sırasına aşağıdakıları daxil etmək olar: “Naxittifaq”ın idarə heyəti Naxçıvanda yalnız bir kooperativ dükanına malik idi, bu dükan ondan xeyli aralıda yerləşirdi. Dükana mal istisnasız olaraq idarə heyətinin orderi ilə buraxılır. Bir funt sabun və yaxud bir-iki arşın çit almaq üçün dükana gələn kəndli “Naxittifaq”ın sədrinə ərizə ilə müraciət etməli idi. O da həmin ərizəyə dərkənar qoyub mühasibata verməli, mühasibat da öz növbəsində order yazıb, istehlakçıya təqdim etməli idi.

Əgər istehlakçı idarə heyətinin süründürməçiliyindən qurtulub, saat ikidən sonra əlində order dükana gəlsəydi, istədiyi malı yenə yalnız sabahı gün ala bilərdi, çünki dükan malları yalnız gündüz saat ikiyə qədər buraxırdı. Kənd təsərrüfatı məhsullarının tədarükü sahəsində də, demək olar ki, eyni mənzərəni görmək olar.

“Naxittifaq” tədarükün əvvəlində ilkin kooperativlərə pudu 1 rubl 80 qəpiyə meyvə qurusu, başlıca olaraq qoz ləpəsi tədarük etmək barədə sərəncam vermişdir, ancaq elə həmin dövrdə xüsusi ticarətçi elə həmin qoz ləpəsini pudu 2 rubla almışdır.

“Naxittifaq” yalnız məhsulun 70%-i xüsusi ticarətçilər tərəfindən

alınandan sonra ayıldı.

Culfadakı kooperasiya işçiləri bununla öyünürdülər ki, işlədikləri bir il ərzində istehlak cəmiyyətinin əsas kapitalı az qala iki dəfə artmışdır. Ancaq il ərzində mal bahalı əlavələrlə satılmış, kooperasiya kəndlilərə doğru bir addım belə yaxınlaşmamışdır.

Kooperativləşən əhalinin fəallığına çox az diqqət yetirilir, bu səbəbdən kooperasiya öz əsas xassəsini itirir. Bu, bəzən onunla izah olunur ki, kooperasiyanın özü kəndlilərin nəinki kooperativ işləri ilə maraqlanmaq, hətta kooperativ dükanına baxmaq həvəsini belə öldürür.

– Bu da nə təftişdir?

Kənddə digər mühüm məsələ bu günə qədər yer quruluşu məsələsinin həll edilməmiş qalmasıdır.

Kəndlilər hər an yer quruluşu işlərinin həyata keçiriləcəyini gözləyirlər.

Bəzi rayonlarda muzdur faizinin böyük olması bununla izah olunur ki, onlara hələ torpaq verilməmişdir. Kənddə nə danışdıqlarına bir saniyə belə qulaq asan hər kəs deyər ki, indi burda, kənddə əsas məsələ yer quruluşudur. Yer quruluşu işləri həyata keçirilmədən kənd təsərrüfatının ayağa qaldırılması barədə düşünmək belə olmaz.

Yer quruluşu işlərindən danışarkən torpaqdan istifadə formalarına da toxunmaq lazımdır.

Biz, kəndlini təsərrüfat baxımından son dərəcə geri qalmaqda və bu sahədə mövcud olan hər cür yenilik və ixtiralardan kənar qaçmaqda günahlandırmağa vərdiş etmişik. Bu, heç şübhəsiz, yanlış baxışdır.

Kəndlilər arasında aqronomik biliklərə güclü həvəs müşahidə olunur, lakin bəla bundadır ki, bu sahəyə aid kitablar kəndə heç cür yol tapmır.

Oçerklərimin birində kənddə rast gəlinən kitablar üzərində dayanmışdım. Bu: *“Fr. Engels. Klassik idealizmdən dialektik materializmə doğru”* kitabı idi və K. Marksın Feyerbax haqqında 11 tezisi də ona əlavə olunmuşdu. Qalan bütün kitab və kitabçalar da təxminən bu qəbildən idi və öz bakirə təzəlikləri ilə parıldaya-parıldaya rəflərdə atılıb qalmışdı.

Aqronom isə kənddə çox nadir qonaqdır, bəzi ucqar guşələr isə belə qonağı, ümumiyyətlə görməyiblər.

Bu gün birdən-birə iki yüz aqronom hazırlayıb, onları kəndlərə dağıda bilməyəcəyimizlə razılaşaraq, biz hər halda, heç olmasa kəndi kifayət miqdarda təsərrüfat ədəbiyyatı ilə təmin etmək yolu ilə aqronomik biliklərin kəndli kütlələri arasında yayılmasına çalışmalıyıq.

**NİK. STOR.**

*(“Заря Востока”, 23 aprel 1925-ci il, № 857)*

## NAXÇIVAN DİYARINDA MÜALİCƏ-SANİTAR İŞİ

Azərbaycan SSR xalq səhiyyə komissarının müavini doktor Kazımov, yüksək təşkilatların tapşırığı ilə Naxçıvan Respublikasında olmuş və orada müalicə-sanitar işinin təşkilini təhqiq etmişdir.

Əməkdaşımızla söhbətində d-r Kazımov öz səfərinin nəticələrindən danışmışdır:

– Malyariya Naxçıvan Diyarının əsas bəlasıdır. Belə ki, **bütün Şərur rayonu** başdan-ayağa bataqlıqdan ibarətdir, bunun bir qismi təbii, bir qismi isə süni (çəltik tarlaları) bataqlıqlardır. Baş Noraşendə olan malyariya stansiyasına ayda 1 mindən 8 minədək malyariya xəstəsi baş vurur, ancaq bu da rayonun tələbatını ödəmir. Rayonda 600 məktəbli var – onların hamısı malyariya xəstəsidir. Ümumiyyətlə, Şərur rayonu bir çox xəstəliklərin bolluğu və tibbi yardımın tamam yoxluğu ilə xarakterizə edilir.

27 min əhalisi olan **Ordubad rayonunda** 12 çarpayılıq kiçik, əlbəttə ki, primitiv tipli, heç bir rahatlığı olmayan bir xəstəxana var, o da həkimin usanmadan göstərdiyi qayğılar sayəsində öz vəzifəsinin öhdəsindən bir təhər gələ bilir. Ordubadda həm də, o qədər də yaxşı təəssürat oyatmayan bir ambulatoriya var. Şəhərin özü antisanitariya içərisindədir və sanki zibilliyi xatırladır. Mən hətta mədəniyyət ocağında – müəllimlər seminariyasında adamı heyrətə gətirən antisanitariya faktlarının şahidi oldum. Malyariya baxımından Ordubad rayonunda vəziyyət nisbətən pis deyil, ancaq burada da əhali arasında bu xəstəliyə tutulma 15%-ə bərabərdir.

**Culfada** feldşer məntəqəsi var, ancaq onu həkim məntəqəsinə çevirmək lazımdır, çünki Culfadan Naxçıvana 42 verstlik bir yol var.

Diyarın baş şəhəri **Naxçıvanda,** necə deyərlər, 50 çarpayılıq "xəstəxana", ambulatoriya və malyariya məntəqəsi var. Sonuncu ikisi üç xırda otaqdan ibarət bir binada yerləşir. Qəbul otağı yoxdur. Xəstələr, – onlar isə xeyli çoxdur, – həyətdə növbə gözləyirlər. Şəhər çirkab içərisindədir. Hər yanda ünsürar sanitariya vərdişlərinin yoxluğu insanı heyrətə gətirir.

Seminariyalarda vəziyyət Ordubaddakı kimidir. Uşaq evində uşaqlar mənim gözümün önündə əlləri çirkli halda sıyıq yeyirdilər.

Naxçıvan malyariyadan çox əziyyət çəkir. Burada xəstələnmə 75%-dir. Buna yaxınlıqdakı göl səbəb olur, onu qurutmaq o qədər də böyük zəhmət tələb etmir, lakin onda əhali susuz qalacaqdır. Bir neçə duz mədənindən yalnız birində ambulatoriya var, o da iyrənc vəziyyətdədir.

Naxçıvan SSR Xalq Səhiyyə Komissarlığında keçirilən birləşmiş iclasda minimal tələblər əsasında **müalicə-sanitariya işinin yenidən təşkilinə dair layihə** hazırlandı. Həmin layihəyə görə cari təsərrüfat ilinin sonunadək diyarda 158 çarpayılıq 3 xəstəxana, üstəlik Naxçıvanda

poliklinika, sanitariya və malyariya əleyhinə dəstələr, həm ümumvətəndaş, həmdə məktəb və s. sanitariya nəzarəti institutu yaratmaq lazımdır. Binaların tikilməsi, avadanlıqla təchiz, xidmət personalının əmək haqqı da daxil olmaqla bütün bunların həyata keçirilməsi üçün 210 min rubl həcmində vəsait buraxılması tələb olunur.

Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının Kollegiyası bu smetanı işləyib, təsdiq üçün Dövlət Plan Komitəsinə və Azərbaycan SSR Xalq Komissarları Sovetinə verəcəkdir.

*(“Bakinski raboçi”, 17 may 1925-ci il, № 108)*

## NAXÇIVAN DİYARINDA SU TİKİNTİSİ

Zaqafqaziya Su Tikintisi İdarəsinin Azərbaycan SSR-dəki müvəkkilinin müavini mühəndis Kondratyev əməkdaşımıza bildirmişdir ki, Zaqafqaziya Xalq Komissarları Soveti su məsələsində Naxçıvan SSR-ə **xüsusi diqqət** yetirilməsi barədə qərar qəbul etmişdir. Bununla əlaqədar olaraq, bu günlərdə Zaqafqaziya Su Təsərrüfatı İdarəsində keçirilən müşavirədə aşağıdakılar qərara alınmışdır:

1) Təcili olaraq kəhrizlərin vəziyyəti, onların təmiri və bərpası üzrə işlərin durumu aydınlaşdırılsın. Bu işlər “Köybirliyi” tərəfindən kəhriz sahiblərinə buraxılan ssuda hesabına aparıldığı üçün “Köybirliyi”nin nə qədər vəsait buraxa biləcəyinin aydınlaşdırılması qərara alınmışdır. Bu vəsaitlər çatışmadığı halda əlavə vəsait buraxmaqla “Köybirliyi”ni möhkəmləndirmək təklifi ilə Azərbaycan Kənd Təsərrüfatı Bankına müraciət edilsin.

2) Azərbaycan Su Təsərrüfatı İdarəsinə Naxçıvan Respublikasında kəhrizlərin təmiri və bərpası işlərini müşahidə altında saxlamaq təklif olunmuşdur.

Daha sonra qərara alınmışdır ki, Arpaçaydan götürülən su ilə 2000 desyatin torpağı suvarmalı olan yeni Fərhat arxı kanalının çəkilməsi ilə bağlı artıq aparılan işlər gücləndirilsin.

3) Zaqafqaziya Su Təsərrüfatı İdarəsi tərəfindən Naxçıvan Diyarına ayrılan kreditlər hesabına Xanlıqlar arxı kanalının əsaslı təmiri, təmizlənməsi və qaydaya salınması ilə bağlı işlər təcili surətdə başa çatdırılsın.

4) Kanalların cari təmiri və təmizlənməsi sahəsində başladılan işlər sürətlə davam etdirilsin və xüsusən də bəzi suvarma sistemlərindəki və su anbarlarındakı tunellər **su istifadəçilərinin meliorasiya cəmiyyətlərini təşkil etmək** və onların əməyini və vəsaitlərini cəlb etməklə təmir edilsin. Süni qurğuların quraşdırılması və texniki nəzarətlə bağlı xərclər Zaqafqaziya Su Təsərrüfatı İdarəsi tərəfindən Naxçıvan Diyarına ayrılan kreditlər hesabına ödənilsin.

Yuxarıda sadalanan işlərlə yanaşı Azərbaycan Su Təsərrüfatı İdarəsinin qüvvəsi ilə bir sıra araşdırmalar aparılması qərara alınmışdır:

1) Su anbarı tikmək üçün Naxçıvançay çayında və onun qollarında yer seçilməsinin araşdırılması.

2) Mövcud su anbarlarının yenidən qurulması və su ehtiyatlarının artırılması üçün onların vəziyyətinin və həcminin müəyyən edilməsi.

3) Arpaçay çayında su anbarı tikmək və yaxud Bazarçay çayının suyunu Arpaçay çayına axıdaraq onun suyundan istifadə həcmini artırmaq yolu ilə Böyük Düz çölünün suvarılması, Böyük Düzün sahilyanı (Araz çayının) hissəsinin suvarılması üçün isə Araz çayında suçıxarma stansiyasının tikilməsi məsələsinin araşdırılması. Yaxın günlərdə mühəndis Kaplanov Naxçıvan SSR-ə gedəcəkdir, ona mühəndis hidrotexnik Şeqlovla birlikdə yuxarıda sadalanan araşdırmaları aparmaq tapşırılıb.

*(“Bakinski raboçi”, 17 may 1925-ci il, № 108)*

## DUZ ÇIXARILAN YERDƏ

Araba yolu 12-ci verstdə sıra ilə düzülmüş təpələrin yanından keçib, duz parçalarından tikilmiş üç bir mərtəbəli evin önünə çıxır.

Bir neçə furqon və kəl arabası mədən dəhlizindən çıxıb üstündə “İliç adına duz mədəni” lövhəsi olan binanın yanından keçib gedir. Bizi gülərüzlə bir neçə fəhlə qarşıladı və biz onlarla birlikdə duz mədəninə baxmağa getdik. Üstündə lövhə olan binadan sonra dərhal eni bir sajın, hündürlüyü iki sajın olan mədən dəhlizi başlayır. Hər tərəfi elektrik xətləri və lampalarla dolu olan duz mağarası qarşımızda idi. Sonra bir neçə dəhliz daha dərinə, duz laylarının parlaq göründüyü yerlərə uzanıb gedir. Əsas dəhliz bizi belini bükərək, oturub kağız borucuqları barıtla dolduran və həmin borucuqlara uzun fitil qoyan qoca alışdırıcının yanına gətirdi. Fitil alışanda fəhlələr başqa bir duz sütununun arxasında gizlənirlər və bir neçə dəqiqədən sonra partladılan duz layı parçalanıb dağılır. Geri qayıdan fəhlələr yerə tökülən bu duz parçalarını yaxınlaşan arabalara yığırlar.

Bütün bunlara tamaşa etmək və on illərlə burada işləyən, ağaları Cambulatov üçün duz parçaları qırmış olan fəhlələrlə ürəkdən söhbət etmək çox maraqlıdır, o duz parçaları daha sonra qızıla çevrilib ağanın cibinə yığılırdı.

Yeraltı mağara o qədər də qorxulu deyil, ancaq adam havanın ağırlığından az qalır boğulsun.

Duz tozu adamın dodaqlarına çökərək, sənə dərhal duz səltənətində olduğunu hiss etdirir. Üzərində daşlaşmış balıq izləri olan duz şistləri sübut edir ki, haçansa burada dəniz dalğaları şahə qalxırmış.

**CAHANGİROV**

*(“Bakinski raboçi”, 27 may 1925-ci il, № 117)*

Xalqda deyildiyi kimi, dar günün ömrü az olar. SSRİ hökumətinin talehsiz Naxçıvan torpağına diqqət yetirməsi Azərbaycan hakimiyyətini Naxçıvan MSSR-ə münasibətini, nəhayət ki, yenidən nəzərdən keçirməyə məcbur etdi.

Və budur, dağıdılmış Respublikada görülən yaradıcı işlər barədə ilk xəbərlərdən biri.

## ƏBİLOV ADINA PAMBIQTƏMİZLƏMƏ ZAVODUNUN AÇILIŞI

NAXÇIVAN, 5 İYUL. İyulun 5-də Şərur rayonunda Noraşendə kommunist partiyasının, Naxçıvan Diyar hökumətinin nümayəndələri, çoxsaylı fəhlə və ətraf kəndlərdən gəlmiş pambıqçı kəndlilərin iştirakı ilə pambıqtəmizləmə zavodunun təntənəli açılışı oldu. Təntənə zavodun işə salınması ilə başladı. Zavodun istehsal həcmi gündə 3500 puda bərabərdir. Zavodun nəzdində elektrik stansiyası var və o həm də Noraşen dəmiryolu stansiyasına xidmət edəcək. Burada fəhlə evi də tikilir. **Zavoda İbrahim Əbilovun adı verilmişdir**.

*("Bakinski raboçi", 7 iyul 1925-ci il, № 150)*

---

**İbrahim Məhərrəm oğlu Əbilov (1881 – 1923)**, Ordubadda doğulmuşdur, Balaxanı qəzasında fəhlə işləmiş, iri sovet təsərrüfatçısı kimi tanınmış, həmçinin özünü mədəniyyət sahəsində təşkilatçı kimi göstərmiş, rejissorluqda sınamışdır. Ömrünün son günlərində diplomatik xidmətdə olmuşdur. 1923-cü il, fevralın 23-də Türkiyənin İzmir şəhərində, əməliyyat masasında vəfat etmişdir.

---

## NAXÇIVAN SSR-İN DUZ MƏDƏNLƏRİ

Naxçıvanın duz mədənlərində duz yerin altından kustar üsulla çıxarılır, burada hasilat işi həm də bütün il boyu aparılır.

Azərbaycan Ali Xalq Təsərrüfatı Şurası Rəyasət Heyətinin tapşırığı ilə mədən idarəsi artıq cari əməliyyat ili ərzində istehsalın mexanikləşdirilməsinə, pnevmatik qazmaya başlamalıdır. Artıq Lenin mədəninin markşeyder planı tam şəkildə hazırlanmışdır.

İndi Lenin mədənlərində güclü elektrik stansiyası üçün binanın tikintisinə başlanılmışdır. Stansiya mədənlərin və fəhlə qəsəbəsinin işıqlandırılması, duz parçalarını üyütmək üçün mədənin dibindən mexaniki surətdə üzə çıxarılması, asma kanat yolu və kompressor

şöbəsi üçün enerji verəcəkdir.

Yaxın günlərdə perforatorlu pnevmatik kompressorlar və stansiyanın quraşdırılması üçün enerji bankına müraciət ediləcəkdir.

Lenin adına duz mədənlərinin yaxınlığında fəhlə evinin – tək adamlar üçün 40 nəfərlik yataqxananın tikintisinə başlanmışdır. Bundan əlavə, ailəli fəhlələr üçün hər birində 4 mənzil olan 4 bina tikilməsi də nəzərdə tutulur.

Smeta və layihələr Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasının Rəyasət Heyəti tərəfindən təsdiq edilib. İndi əsas məsələ vəsaitdir, o da tapılacaq.

Cari əməliyyat ilinin duz hasilatı üzrə istehsal proqramı, 1640 min pud duz parçası artıq, demək olar ki, yerinə yetirilib. Arabaçı və furqonçu kəndlilərin tarla işlərinə getməsi nəticəsində duzun mədənlərdən anbarlara daşınmasında gecikmələr yaranır. Bu boşluğu doldurmaq üçün Ali Xalq Təsərrüfatı Şurasının Rəyasət Heyəti tərəfindən duz mədənlərinə "Fordzona" sistemli beş traktor göndərilir. Beləliklə, iki aylıq dövrdə (avqust və sentyabr) proqramda nəzərdə tutulduğundan artıq duz hasil ediləcəkdir.

İndi Azərbaycan Duz Tresti duzqıran maşında süfrə duzu, balıq doğrayan maşınlar üçün duz, gön-dəri zavodları üçün duz, balıq qaxacı və kimyəvi istehsal üçün duz hazırlayacaqdır.

*("Bakinski raboçi", 13 avqust 1925-ci il, № 182)*

Fürsətdən istifadə edərək, oxucuya bildirirəm ki, Naxçıvanın duz mədənlərinin ta qədimdən başlayaraq tarixi və inkişafı haqqında ilk dəfə hələ 1855-ci ildə "Qafqaz" qəzeti ətraflı və parlaq şəkildə yazmışdır. "Qafqaz" qəzeti özünün mart ayında çıxan üç nömrəsində Naxçıvanın bu xəzinəsinə üç iri oçerk həsr etmişdir. Ümid edək ki, Sovet hakimiyyəti, nəhayət ki, bu unikal sahəni dirçəldəcək və ona İmperator Rusiyasının *"Qafqaz xalqlarını əsarətdə saxlamasından"* daha az əhəmiyyət verməyəcəkdir.

**NAXÇIVAN MUXTAR
SOVET SOSİALİST RESPUBLİKASINA
YAXŞI YOL,
ONUN ZƏHMƏTSEVƏR XALQINA
UĞURLAR VƏ XOŞ GÜZƏRAN
ARZULAYIRIQ**

## İKİ YUBİLEY

Bütün Zaqafqaziyada təbiətin xoş rayihələr saçdığı bir dövrdə, 1925-ci ilin aprel ayında Sovet Azərbaycanı respublikada sovet hakimiyyətinin mövcud olduğu bütün illər ərzində ən parlaq bayram libasına bürünmüşdü. Sovetlərin proletar hakimiyyətinin müzəffər yürüşünün misli görünməmiş siyasi zəfəri və bolşeviklər partiyasının təntənəsi baş vermişdi.

AKP-nın Mərkəzi və Bakı komitələrinin, Azərbaycan MİK-nin və Bakı Sovetinin orqanı olan "Bakinski raboçi" qəzeti əvvəlcə Azərbaycan Kommunist Partiyasının beş illik yubileyini elan etdi.

**"Bu gün Azərbaycan Kommunist Partiyası öz mövcudluğunun beş illiyini qeyd edir.**

**Azərbaycan zəhmətkeşlərinin başında duran AKP Leninin, bütün Şərqin əsarətdən əziyyət çəkən xalqları üçün nümunə olmağa xidmət edəcək böyük işini davam etdirir.**

**Beş il ərzində AKP elə sarsılmaz təmələ çevrilməyi bacarmışdır ki, həmin təməl üzərində Bakı fəhlələri ilə Azərbaycan kəndlilərinin ittifaqı doğulur, böyüyür və möhkəmlənir.**

**Yaşasın kommunizmin Şərqdə mətin keşikçisi olan Azərbaycan Kommunist Partiyası!"**

Çoxsaylı təbriklər (yoldaş Rıkov, Kamenev və Kalinindən, RKP-nın Zaqafqaziya Diyar Komitəsi və Gürcüstan KP MK-dən, Ermənistan KP MK-dən, Çiçerindən, Petrovskidən, Kuybışevdən və bir çox başqalarından gələnlər) arasında ən görkəmli yerdə RKP MK-nin katibi İ. Stalinin təbriki dərc olunmuşdu.

**"Köhnə bakılıdan Azərbaycan Kommunist Partiyasına alovlu təbriklər. Ona Azərbaycanın fəhlələri ilə kəndlilərinin qardaşlıq ittifaqının təşkili işində tam uğur arzulayıram. Şübhə etmirəm ki, Azərbaycan Kommunist Partiyası Azərbaycan Respublikasını əsarətdə olan Şərq xalqları üçün nü-**

**munəvi bir ölkəyə və onların imperializm zülmündən azad olunmasında bayraqdara çevirməyi bacaracaqdır.**

**Bakı proletariatı və Azərbaycan Kommunist Partiyası həmişə yaşayacaq və qalib gələcəkdir!**

**İ. STALİN"**

1925-ci il aprelin 28-də Sovet Azərbaycanında başqa bir bayram – bolşeviklərin Azərbaycanda hakimiyyətə gəlməsinin beşillik yubileyi qeyd olundu. "Bakinski raboçi" qəzeti yenə bayram tərtibatında nəşr olunmuşdu. Demək olar ki, bütün birinci səhifə şüarlarla dolmuşdu.

***"SOVET AZƏRBAYCANININ ŞANLI BEŞİLLİYİ"***

***"Azərbaycanda sovet hakimiyyətinin beş yaşı var"***



***"Sovet Azərbaycanı Şərq xalqlarının gözü önündə böyüyür və möhkəmlənir".***

***"Bakı fəhlələri, Azərbaycan kəndliləri və zəhmətkeşləri, bir-biriniz ilə sıx ittifaqda, bütün sovetlər ölkəsinin zəhmətkeşləri ilə birlikdə LENİNİN vəsiyyətlərini yerinə yetirərək, Azərbaycan Respublikasından bütün Şərq üçün nümunəvi sovet dövləti yaratmağa davam edin!"***

Elə həmin sütunda Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri MUSABƏYOVUN baş məqaləsi: **"Durmadan inkişafın beş ili",** onun yanında isə Zaqafqaziya Federasiyası Xalq Komissarları Sovetinin sədri Oraxelaşvilinin **"Birinci beşillik**" məqaləsi verilmişdi.

Xüsusi çərçivəyə salınmış belə bir elan mətni vardı: "Bakı soveti Plenumunun Azərbaycan MİK, XKS, AKP MK və BK, AHİŞ, ALKGİ MK və BK-nin plenumları, Qırmızı Ordu və Donanmanın nümayəndələri ilə birlikdə iclası".

Qəzetdə **"Sovet Azərbaycanı beş ildə"** rubrikası altında yubileyə həsr olunmuş geniş bir material bloku verilmişdi. **"Xatirələr"** mövzusuna görkəmli yer ayrılmışdı. Onların arasında sovet zirehli qatarlarının komandiri, M. Q. Yefremovun xatirəsi vardı: onun komandanlıq etdiyi qatarların birincisi 1920-ci il aprelin 27-də öz toplarının lüləsini AXC parlamentinə tuşlayaraq, hakimiyyəti sovetlərə könüllü şəkildə vermədiyi təqdirdə onu atəş açmaqla hədələmişdi.

"Bakinski raboçi" qəzetinin dörd səhifəsi bütünlüklə Sovet Azərbaycanın yubileyinə həsr olunmuş, sonrakı günlərdə də yubiley yazıları davam etmişdi.

Respublikada bolşevik hakimiyyətinin misli görünməmiş qələbəsi hiss olunur, bu qələbə vasitəsi ilə dünya inqilabının Yaxın Şərqə magistral yolunun təməli qoyulur. Azərbaycan hələ Rusiyada sovet hakimiyyətinin ilk çağlarında Kreml tərəfindən bu hakimiyyəti yaymaq (əlbəttə ki, Qırmızı Ordunun köməyi ilə) və nəhayət bütün Şərqin alçaldılmış və yoxsul xalqlarını kapitalizmin zülmdən azad etmək üçün əsas əməliyyat meydanı və magistral kimi seçilmişdir.

*("Bakinski raboçi", 28 aprel 1925-ci il)*

Gurultulu yubiley tədbirlərinin üstündən üç ay keçmişdi və Azərbaycan hakimiyyəti sovet qoşunlarının azadlıqsevər Naxçıvana müdaxiləsinin və orada bolşevik hakimiyyəti qurulmasının beş illik yubileyini elan etmişdi.

Bunu da dəqiqləşdirək ki, əslində 1920-ci il iyulun 20-də sovet hakimiyyəti yalnız Naxçıvan şəhərində qurulmuşdu, sentyabrın 18-də Qırmızı Ordu hissələri daşnakları Ordubaddan qovub çıxarmış, qəza özü isə oktyabr ayında daşnaklardan təmizlənmiş və yalnız 1920-ci ilin dekabrında, Ermənistanda daşnak hakimiyyəti silahı yolla devriləndə Şahtaxtı qəzası daşnaklardan azad edilmiş və beləliklə, bütün Naxçıvan Diyarı sovetlərin hakimiyyəti altına keçmişdi.

Min bir əziyyət çəkmiş Naxçıvan sovetləşdiyi ilk gündən Sovet Azərbaycanı ilə birləşməyə can atırdı və başqa cür də ola bilməzdi. Lakin Naxçıvan regionunun sovetləşməsindən dörd

ay sonra Sovet Azərbaycanı Naxçıvanı elə bir ağlasığmaz sürpriz qarşısında qoydu ki, bunu sağlam düşüncə baxımından, yəqin heç bizim müasirlərimiz də izah edə bilməzlər.

Xatırladaq ki, 1920-ci il dekabrın 1-də Azərbaycan MİK-də Nəriman Nərimanov öz məruzəsində, sonra isə xüsusi bir bəyanatda Naxçıvan Respublikasının Sovet Ermənistanın tərkibinə verildiyini bütün dünyaya bəyan etmişdi. Daşnakların Naxçıvan diyarında qanlı yolla əldə etməyə macal tapmadıqları nə vardısa, Sovet hakimiyyəti onların hamısını qansız şəkildə Sovet Ermənistanına verirdi. Ancaq, xoşbəxtlikdən bu, baş tutmadı.

Mustafa Kamal Türkiyəsi Azərbaycanın bu kobud səhvini düzəltdi və Naxçıvanın Ermənistana birləşdirilməsinə imkan vermədi. 1924-cü ilin fevralında Azərbaycan, nəhayət ki, Naxçıvan Sovet Sosialist Respublikasını tanıdı. Və indi o, öz müdafiəsi altında olan Sovet Naxçıvanın yubileyini qeyd edirdi.

Naxçıvan Respublikasının yubileyinə cəmi iki material həsr olunub və onlara "Bakinski raboçi" qəzetinin bir səhifəsində kiçik bir yer ayrılıb. Qeyd edək ki, Naxçıvan Respublikası köhnə vaxtda olduğu kimi yenə də Naxçıvan diyarı adlanır. Yəni, Azərbaycan tam hüquqlu respublika, Naxçıvan isə onun kiçik bir sərhəd zonası, diyarıdır.

Bağırovun "bəy-xan" Naxçıvanı üzərinə məşhur basqınının üstündən heç dörd ay da keçməmişdi. Azərbaycan hakimiyyəti hələ də M. Bağırovun Xüsusi Komissiyasının törətdiyi azğınlıqların təəssüratı altında idi, üstəlik komissiyanın işinin yekunları Q. K. Orconikidze tərəfindən qeyd-şərtsiz bəyənilmişdi.

Azərbaycan MİK-nin üzüyola sədr müavini Şahbazi, Naxçıvan haqda bildiklərinin hamısını Bağırovun materiallarından əxz etdiyi üçün bu diyardakı işlərin vəziyyəti və onun düşdüyü ağır durumun səbəbləri barədə Bağırovun məntiqsiz şərhlərini dəstəkləyərək, "Bakinski raboçi" qəzetinin oxucularına yeni heç bir şey deyə bilmirdi.

## NAXÇIVAN DİYARINDA SOVET HAKİMİYYƏTİNİN BEŞ İLİ (Azərbaycan MİK-nin sədr müavini yoldaş Şahbazi ilə söhbət)

Naxçıvan Diyarının sovetləşməsinin bu gün tamam olan beş illiyi ilə əlaqədar Azərbaycan MİK-nin sədr müavini əməkdaşımızla söhbətində aşağıdakıları demişdir:

– Naxçıvan Sovet Sosialist Respublikası kapitalizm və vətəndaş müharibəsi dövründə böyük dağıntılara məruz qalmış bir diyardır. Daşnak-müsavat hökmdarları burada toqquşmuş, türk və erməni kəndliləri arasında milli antaqonizmi daha dərinləşdirmək kimi cinayətkar siyasətlərini burada aparmışlar. Bunun sayəsində imperialist qırğın zamanı bir çox bəlalara düçar olan diyar, daşnak Ermənistanı və müsavat Azərbaycanı tərəfindən himayə edilən milli ədavət üzündən daha böyük müsibətlərə məruz qalmışdır. Bütün bunların da nəticəsində diyarın kəndliləri müflisləşmiş, şəhər və kəndləri dağıdılmışdır.

Sovet hakimiyyəti diyarı bu vəziyyətdə almışdır. Bununla yanaşı burada mövcud olan kifayət qədər güclü bəy-xan ünsürü diyar sovetləşəndən sonra tez bir zamanda qırmızı rəngə bürünərək, köməksiz, geridə qalmış və avam kəndli kütləsini yeni şəraitdə istismar etməyə davam etmişdir. Böyük torpaq sahələrinə malik olan bu tüfeylilər öz var-dövlətlərini qoruyub saxlamağa çalışmışlar.

Naxçıvan Diyarında Sovet hakimiyyətinin qarşısında kəndli təsərrüfatının bərpası və nə çar dövründə, nə də xan-bəy ağalığı dövründə geniş xalq kütlələrinin maariflənməsi üçün heç bir tədbir görülməyən bu diyarda mədəni-maarif işinin genişləndirilməsi sahəsində nəhəng vəzifələr dururdu. Digər tərəfdən, kənddə təbəqələşməni həyata keçirmək, burada hələ də qalmış olan və sovetləşmədən sonra yaxşı imkana və məsul vəzifələrə yiyələnməyə cəhd edən “qırmızılaşmış” xan və bəylərin bütün daxili məzmununu açıb göstərmək lazım idi.

Bir tərəfdən azad olmuş fəhlə və kəndlilərin təcrübəsizliyi, digər tərəfdən isə diyara başçılıq edən qeyri-sovet xadimlərinin zəifliyi üzündən bəy-xan ünsürünün qalıqları ilə mübarizə son vaxtlara qədər heç bir əhəmiyyətli nəticə verməmişdi. Bundan əlavə, xan-bəy qrupu, Kəngərlinskilər və digərləri tərəfindən himayə edilən bəzi sovet xadimləri öz fəaliyyətləri ilə yalnız sovet hakimiyyətini geniş xalq kütlələrinin gözündə nüfuzdan salırdılar.

Ancaq Naxçıvan Diyarının artıq bir dəfə azad olmuş fəhlə və kəndliləri fəhlə-kəndli hakimiyyəti şəraitində xan-bəy ünsürünün ağalığına artıq dözə bilmirdilər və Naxçıvan Sovet diyarının bədənindəki çiban artıq deşilməli idi.

Cari ildə də məhz bu baş verdi, 4 ildən artıqdır Naxçıvan Respublikasında törədilən bütün biabırçılıqların acınacaqlı mənzərəsi Sovet hakimiyyətinin və Azərbaycan Kommunist Partiyasının diqqətini

cəlb etdi. Diyarın təhqiqi üçün Qarayev və Bağırov yoldaşların rəhbərliyi altında ezam edilən səlahiyyətli komissiya yerli sovet və partiya aparatlarının bütün qüsur və nöqsanlarını üzə çıxardı. Diyarın sağlamlaşdırılmasına da məhz bundan sonra başlanıldı.

İndi Azərbaycan özünün ən yaxşı işçilərini bu diyarın bərpası üçün ayırmışdır, diyarda baş verən biabırçılıqların bütün günahkarları isə dərhal təcrid olunmuş və həbs edilmişlər.

Naxçıvan Respublikasının tarixində yeni epoxa başlanmışdır və bütün Zaqafqaziyanın mənəvi və maddi dəstəyi ilə indi burada sürətlə yeni həyat qaynamaqdadır. Hal-hazırda biz Naxçıvan SSR-də yeni sovetlər qurultayının çağırılması ərəfəsindəyik, o, cari ilin avqust ayında keçirilməlidir. Bu qurultay, çox güman ki, görülən işlərə yekun vuracaq və diyarın idarə olunması üçün özünün ən yaxşı işçilərini təklif edəcəkdir. Biz güman edirik ki, diyarın sağlaşdırılması işi davam edəcək və haçansa dağıdılmış olan bu diyar mədəni baxımdan Azərbaycanda güclü və çiçəklənən bir diyara çevriləcəkdir.

Bilirik ki, Naxçıvan Diyarının işçiləri bu sahədə çox iş görməlidirlər, ancaq kəndli kütləsi ilə sıx birləşərək və Sovet İttifaqı respublikalarının köməyinə arxalanaraq, onlar öz işlərinin uğurla yerinə yetirəcəklər. Yalnız kəndli kütlələrini təşəbbüskarlığa sövq etmək və öz dağılmış dövlətlərinin bərpası yolunda səmimi və intensiv şəkildə işləməyi bacaran fəal işçi kadrları yetişdirmək lazımdır.

Naxçıvan Diyarının sovetləşməsinin 5 illiyinin bayram edildiyi bu gündə onun bütün işçilərinə uğurlar və qarşılarına qoyulan tarixi vəzifələri başa çatdırmağı arzulayırıq.

*(“Bakinski raboçi”, 28 iyul 1925-ci il, № 168)*

## NAXÇIVAN DİYARINA SALAM

Azərbaycan MİK tərəfindən Naxçıvan SSR-in MİK-nə və Xalq Komissarları Sovetinə aşağıdakı təbrik teleqramı göndərilmişdir:

Naxçıvan Diyarının sovetləşməsinin beş illiyinin təntənəsi günündə Azərbaycanın fəhlə və kəndliləri Azərbaycan MİK-nin şəxsində Naxçıvan zəhmətkeşlərini salamlayır və böyük sevinc hissi ilə onların azadlıq günü bayramına qoşulur və onlara öz dağılmış diyarlarının mədəni və təsərrüfat qüdrətini inadla bərpa etməyi arzulayır. Qoy Diyar zəhmətkeşlərinin azadlıq yaddaşı onları həmişə öz mənəvi və maddi güclərini daha da möhkəmləndirməyə səsləsin.

Yaşasın Naxçıvan Respublikasının fəhlə və kəndliləri!

**AZƏRBAYCAN MİK-NİN RƏYASƏT HEYƏTİ**

*(“Bakinski raboçi”, 28 iyul 1925-ci il, № 168)*



**Привет Нахкраю!**

АзЦИК'ом послана следующая приветственная телеграмма ЦИК'у и Совнаркому НахССР:

«В день торжества пятилетия советизации Нахичеванского края, азербайджанские рабочие и крестьяне в лице АзЦИК'а шлют привет и с особой радостью присоединяются к празднованию нахичеванскими трудящимися дня своего освобождения и выражают пожелание, чтобы они настойчиво восстанавливали культурную и хозяйственную мощь разоренного края. Пусть память об освобождении трудящихся края всегда будет служить им призывом к еще большему укреплению его духовных и материальных сил. Да здравствуют рабочие и крестьяне Нахичеванской республики!».

ПРЕЗИДИУМ АзЦИК'а.

Qədim və zəngin tarixə malik, müstəqillik və qəhrəmanlıq bayrağını həmişə uca tutan bir ölkənin – Naxçıvan MSSR-in yubileyinin Azərbaycan mətbuatı tərəfindən qəsdən təmtəraqsız qeyd olunduğunu hiss etmək o qədər çətin deyil. Azərbaycan KP MK-nin və Xalq Komissarları Sovetinin göstərişi belə idi.

Sovet hakimiyyətinin beş illiyi münasibətilə verilən təbrik, Sovet Azərbaycanının 1925-ci il aprelin 28-də özünə rəva gördüyü təntənə, təmtəraq, zurna-balaban gurultusunun hətta cüzi bir işartısından belə məhrumdur.

*"Naxçıvan Diyarına salam"* müraciəti qəzetin elə yerində dərc olunub ki, başqa materialların fonunda o qədər də seçilmir. Əgər Azərbaycan MİK-nin sədr müavini Şahbazi ilə söhbət olmasaydı, bu müraciət gözdən yayına da bilərdi.

Təbrik, adətən belə hallarda qəbul olunduğu kimi, birinci səhifədə deyil, üçüncü, ştatdankənar səhifədə dərc olunub. Mühüm məmurlar yəqin ki, belə güman ediblər: *"Nə olsun, hansısa Naxçıvan diyarıdır da, o ki, lap bu yaxınlarda bəy-xan ağalığından qurtulub..."*

*"Naxçıvan Diyarına salam"* başlığının özündə belə Naxçıvan Respublikasına, onun başıbəlalı xalqına qarşı nəsə gizli bir hörmətsizlik sezilir. Əgər Azərbaycan MİK Rəyasət Heyətinin adından *"Naxçıvan Diyarının komsomolçularına salam", "Naxçıvan Diyarının kooperatorlarına salam", "Naxçıvan Diyarında çəyirtkəyə qarşı mübarizə iştirakçılarına salam"* tipli müraciətlər dərc edilsəydi, onlara əhəmiyyət verməmək də olardı. Yeri gəlmişkən, Azərbaycan MİK-nin təbrikində köhnə **"Naxçıvan Diyarı"** anlayışının nə üçün işləndiyinə diqqət yetirək. Bəlkə

Respublika, 1920-ci il dekabrın 1-də xalqın razılığı alınmadan Sovet Ermənistanına birləşdirilmək istənildiyi kimi, yenə gizlin şəkildə Naxçıvan Diyarı adlandırılıb.

Azərbaycan MİK Rəyasət Heyəti, yəqin ki, Azərbaycanın sovetləşməsinin beş illiyi münasibətilə keçirilən uzun yubiley təntənələrindən sonra o qədər yorulub ki, yaddaşını itirib. Çünki, rəsmi **"Naxçıvan Diyarı"** anlayışı artıq il yarım idi ki, ləğv olunmuşdu.

Sovet Azərbaycanının hakimiyyət orqanları artıq bu fikrə həmişəlik vərdiş etməli idilər:

**1924-CÜ İL FEVRALIN 4-DƏ<br>AZƏRBAYCAN MİK NAXÇIVAN MUXTAR<br>SOVET SOSİALİST RESPUBLİKASININ<br>AZƏRBAYCANIN PROTEKTORATLIĞINA<br>KEÇDİYİNİ UCA SƏSLƏ<br>BƏYAN ETMİŞDİ!**



# SON SÖZ
# ƏVƏZİ



## NAXÇIVANIN DİRÇƏLİŞ VƏ ÇİÇƏKLƏNMƏ EPOXASI HEYDƏR ƏLİYEVLƏ BAŞLAMIŞDIR

Məlum olduğu kimi, Azərbaycan hökuməti və AKP, M.Bağırovun rəhbərlik etdiyi Xüsusi Komissiyanın fəaliyyətini, partiya dili ilə desək, bütöv və tam şəkildə bəyəndi. İndi nə tələb olunurdu? İndi tələb olunurdu ki, Naxçıvan xalqı da Naxçıvanda törədilən dağıdıcı əməlləri *"bütöv və tam şəkildə"* bəyənsin. Özü də təkcə bu yox. Naxçıvan xalqı Bağırov Xüsusi Komissiyasının basqınından sonra *"Naxçıvan Diyarının xalq təsərrüfatının bərpası işində"* Muxtar Respublikaya göstərilməli olan qardaş köməyinə görə indi Sovet Azərbaycanı qarşısında baş əyməli və ona ürəkdən təşəkkür etməli idi.

Naxçıvanın ikinci dəfə *"xan-bəy əsarətindən azad edilməsindən"* dörd ay sonra Naxçıvan şəhərində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 4-cü Sovetlər Qurultayı toplandı.

### NAXÇIVAN RESPUBLİKASININ 4-CÜ SOVETLƏR QURULTAYI

1925-ci il avqustun 4-də Naxçıvan Sovet Sosialist Respublikasının 4-cü Sovetlər Qurultayı açıldı. Qurultayda 8-i türk qadını olmaqla 112 nümayəndə iştirak edirdi. Qurultay Naxçıvan Respublikasının sovet aparatı yeniləşdirildikdən və gücləndirildikdən sonrakı dövrdə görülən işlərin yekununu müzakirə edəcəkdir.

*("Bakinski raboçi", 7 avqust 1925-ci il, № 177)*

Artıq tərkibinə görə 4-cü Sovetlər Qurultayı həqiqətən proletar qurultayı idi. Uzaq kəndlərdən gələn bəzi nümayəndələr "qurultay" sözünü ömürlərində ilk dəfə idi ki, eşidirdilər və onun işi başa çatanadək sovetlərin nə olduğunu eləcə anlaya bilmədilər.

Əvvəlcə bu cür təcrübəsizlərə əllərini haçan "lehinə", haçan isə "əleyhinə" qaldırmalı olduqlarını pıçıldayacaqlar.

Sonra isə, "cütçü" nümayəndələr dövlət əhəmiyyətli sənədlərə imza atmağı öyrənməli olacaqlar, zira burada imza əvəzinə xaç işarəsi çəkmək olmaz.

Naxçıvan MSSR-də əsil sovet dövrü başlamışdı. Naxçıvanda yeni həyat şərtləri tətbiq olunur və indi burada hamı lenincəsinə yaşamağa can atırdı: *"Hər bir aşbaz qadın belə dövləti idarə etməyi bacarmalıdır"*.

**NAXÇIVAN DİYARI
4-CÜ QURULTAYININ BAĞLANIŞI**

Naxçıvan MSSR 4-cü Sovetlər Qurultayı üç günlük işini başa çatdırmışdır.

50 üzv və 20 namizəddən ibarət yeni MİK seçilmişdir. MİK tərkibinin 30 %-ni bitərəf cütçü kəndlilər təşkil edir. Bu gün yeni seçilmiş MİK-nin ilk sessiyası keçirilmişdir. MİK Rəyasət Heyəti və Xalq Komissarları Soveti seçilmişdir.

MİK Rəyasət Heyətinə bunlar seçilmişlər: sədr **Baba Babayev**, katib **Əliyarov Abbasqulu**, üzvlər: **Şahbazov Əsgər, Sultanov Həmid, Nəzərov Qalust**; namizədlər: **Novruzov Muxtar** və **Kərimov Məmmədtağı**. Rəyasət Heyətinə iki bitərəf cütçü kəndli daxil olmuşdur.

Yeni Xalq Komissarları Sovetinə bunlar seçilmişlər: sədr – **Sultanov Həmid,** xalq maarif komissarı – **Musayev Hüseyn**, xalq torpaq komissarı – **Xasayev Məmməd**, xalq ədliyyə komissarı – **Babayev Yaqub**, xalq daxili işlər komissarı – **Pirverdiyev Əyyub**, xalq daxili ticarət komissarlığı müvəkkili – **Quliyev Rzaqulu**. Məşvərətçi səslə Xalq Komissarları Sovetinə seçilənlər: həmkarlar şurasından – **Kərimov Məmmədtağı**, Xalq Əmək Komissarlığı Müvəkkilliyindən – **Məmmədov Qulamhüseyn**, Xalq Maliyyə Komissarlığı Müvəkkilliyindən – **Məmmədov Maqsud**, hərbi komissar – **Mirzəbəyov Şirəli**, Mərkəzi Statistika İdarəsindən – **Katayan** və sərhəd dəstəsinin rəisi – **Yermolayev**.

*("Bakinski raboçi", 10 avqust 1925-ci il, № 179)*

İndi isə Naxçıvanın yeni Sovet hakimiyyəti, bolşeviklər dövründə qəbul olunduğu kimi, ona Naxçıvanda bolşevik cənnəti yaratmaq etibar edildiyinə görə Bakıya təşəkkürnamə göndərməlidir. "Etibar etdiyinə görə çox sağ ol!" deyə var gücünlə qışqırmasan, səni yenə də əksinqilabçılar sırasına qatacaq və yenə anlaşılmaz sovetlərin yeni qurultayını təyin edəcəklər.

Vəsaitə və qəzet səhifəsində yerə qənaət etmək naminə

qəzetin bir nömrəsində həm Azərbaycan MİK-nə, həm də Azərbaycan Xalq Komissarları Sovetinə təşəkkür etmək olardı. Ancaq Bakıda belə bir ümumiləşdirməni anlamaya da bilərdilər. Birdən qurultay öz təşəkkürünü daha çox ən ali hakimiyyətə – Azərbaycan MİK-nə göndərib, Xalq Komissarları Sovetinə isə yalnız öz minnətdarlığını izhar edibsə? Bakı Naxçıvandan çox uzaqdadır. Orada nə cür desən fikirləşə bilərlər. Axı Bakıda, Naxçıvan Sovet Respublikasına ən azı beş il sabiq pristav və qorodovoylar tərəfindən ayıq-sayıq mühafizə olunan keçmiş xan, bəy və qolçomaqların maneəsiz rəhbərlik etdiyinə inanmışdılar. Yox, ən yaxşısı Azərbaycan SSR-in hakimiyyət orqanlarının hər birinə ayrı-ayrılıqda, həm də ölkənin əsas qəzetinin ayrı-ayrı nömrələrində təşəkkür etmək lazımdır.

## NAXÇIVAN RESPUBLİKASI SOVETLƏR QURULTAYINDAN – AZƏRBAYCAN MİK-NƏ

Gərgin təsərrüfat quruculuğu günlərində toplanan Naxçıvan Respublikasının fövqəladə 4-cü Sovetlər Qurultayı Azərbaycan SSR MİK-nə özünün alovlu qardaş salamını göndərir. Qurultay ümumi xalq təsərrüfatının bərpası yolu ilə gedəcəyinə söz verir. Qurultay Naxçıvan Diyarının xalq təsərrüfatının bərpası işində həm SSRİ, həm də Zaqafqaziya Federasiyasının mərkəzi orqanları, xüsusilə də Sovet Azərbaycanı tərəfindən göstərilən qardaşlıq köməyini xüsusi məmnunluqla qeyd edir.

Yaşasın Sovet hakimiyyəti!

Yaşasın SSRİ MİK!

*("Bakinski raboçi", 12 avqust 1925-ci il, № 181)*

## NAXÇIVAN RESPUBLİKASI SOVETLƏR QURULTAYINDAN – AZƏRBAYCAN XKS-NƏ

Naxçıvan Respublikasının fövqəladə 4-cü Sovetlər Qurultayı gərgin təsərrüfat quruculuğu məqamında Azərbaycan Xalq Komissarları Sovetinə öz alovlu qardaş salamını göndərir. Qurultay ümumi xalq təsərrüfatının bərpası yolu ilə gedəcəyinə söz verir. Qurultay Naxçıvan Diyarının xalq təsərrüfatının bərpası işində həm SSRİ, həm də Zaqafqaziya Federasiyasının mərkəzi orqanları, xüsusilə də Sovet Azərbaycanı tərəfindən göstərilən qardaşlıq köməyini xüsusi məmnunluqla qeyd edir.

Yaşasın Sovet hakimiyyəti!

Yaşasın Sovet hakimiyyətinin ali qərargahı – Qurultayın Rəyasət Heyəti!"

*("Bakinski raboçi", 13 avqust 1925-ci il, № 182)*

Bununla belə, savadsız və yaxud az savadlı olsa da, müdrik Naxçıvan xalqı bolşevik hakimiyyətinin bu biclik və yaltaqlıq oyunlarının hamısını görürdü.

Heç kim olmasa da, Naxçıvan xalqı Muxtar Respublikaya necə *"kömək"* göstərildiyini yaxşı bilirdi. Xalqı aldada bilməzsən, ancaq xalqın adından var gücünlə, boğazın yırtılana qədər *"Yaşasın!"* deyə qışqırmağın lazımdırsa, xalq buna necə etiraz edə bilər? Onsuz da onun rəyini soruşan olmayacaq.

Sovet hakimiyyəti bütün dövrlərdə çürüməkdə olan imperializm ölkələrini haqladığını, onları ötüb keçdiyini bəyan edir,




Kapitalizmin tikişləri sökülür

istisnasız olaraq həmişə xalqın adından və yaxud onun qəti iradəsinə əsasən mübarizə aparır, zəmanət verir, məhkəmə proseslərini və müharibələri elan edir, həbs edir, dustaqxanaya salır və edam edirdi. Sovet hakimiyyəti – xalq hakimiyyəti idi. O, barmağını həmişə xalqın nəbzi üstündə saxlayırdı. Xalqın rəyi olmadan Sovet hakimiyyəti bir addım belə atmırdı. Doğrudan da, xalq buyurursa, hakimiyyət haraya qaça bilər?

Xalq özü isə gün çıxandan gün batana qədər, belini dikəltmədən var gücü ilə çalışır və düşünür*: "Qoy partiyaçılar özlərinə çörək qazanmaq üçün nə qədər istəyirlər çığırsınlar, konkret olaraq kim "Yaşasın", artıq xalq üçün bunun heç bir əhəmiyyəti yoxdur. Partiyaçılar özləri bunu xalqdan yaxşı bilirlər".*

Naxçıvandakı sovet hakimiyyətinin haqqını vermək lazımdır: o, Naxçıvanın adının mətbuatda daha çox hallanmasına çalışırdı. Mətbuatda artıq Naxçıvan Muxtar Respublikasındakı dirçəliş barədə daha çox hay-küy eşidilirdi. Dirçəlişin tempi isə, əlbəttə ki, hələ çox aşağı idi.

Jurnalistlər şişirtməyi xoşlayırlar, ancaq artıq onlar da arzu ediləni gerçəklik kimi təqdim etməkdən usanmışdılar.

Ən başlıca problem – su məsələsi idi. Hələ çar hakimiyyəti dövründə Naxçıvanın su təminatını yaxşılaşdırmaq üçün səy göstərmiş və buna müəyyən qədər nail olmuşdular, hərçənd o dövrdə də su təminatı qənaətbəxş hesab olunmurdu.

İndi, çar dövründən 8 il sonra isə su təminatı inqilabdan əvvəlki səviyyənin üçdə birinə belə çatmırdı. Susuz Naxçıvan üçün bu əsl fəlakət idi, mətbuat da bu barədə yazır, ancaq ona yumşaq şəkildə, partiya və hökuməti tənqid etmədən toxunur.

## KƏHRİZLƏRİN TƏMİRİ

### NAXÇIVAN MSSR-DƏ su məsələsinin tənzimlənməsinə dair

Əvvəlki kimi yenə də su məsələsinə böyük diqqət yetirilir.

Kəhrizlər geniş şəkildə təmir olunur. Mövcud olan 350 kəhrizin əksəriyyəti batmış və təmir tələb edir. Oktyabrın 1-dək 100 kəhrizin təmizlənəcəyi güman edilir. Artıq 34 kəhriz təmizlənmiş və akt əsasında qəbul edilmişdir, 46 kəhrizdə təmizləmə işləri aparılır, qalan kəhrizlərin təmizlənməsinə isə kankanlar boşaldıqca başlanacaqdır.

Xan su anbarı bərpa edilmişdir. Yay quraq keçdiyinə görə bulaqların əksəriyyəti qurumuş və yaxud onların suyu minimum həcmə enmişdir. Naxçıvanda içməli su çatışmır, insanlar iki şəhər bulağının başında uzun növbəyə dayanırlar. Bu su aclığı pambıq məhsuluna da təsir göstərmişdir. Əgər yağış yağmasa, pambıq məhsulunun 15-20 faizi quraqlıqdan məhv olacaqdır.

*("Bakinski raboçi", 2 sentyabr 1925-ci il, № 199)*

Yeni bolşevik rəhbərliyi altında yaşayan, artıq gizlənmiş xan və bəylərin mövcud olmadığı Naxçıvan MSSR-in həyatı barədə dərc olunmuş bir sıra materialları şərhsiz təqdim edirik. Ancaq Naxçıvanın öz keçmiş, çiçəklənən dövrünə qayıtmasına hələ çox var və ümumiyyətlə, bolşeviklər Naxçıvanı bərpa edə biləcəklərmi?

## AZƏRBAYCAN ÜZRƏ

**Tədris ilinin başlaması ərəfəsində.**

**NAXÇIVAN, 2 sentyabr.** Naxçıvan qəzasında iki seminariya və beş məktəb binası gücləndirilmiş qaydada təmir edilir; o, iki həftəyə başa çatdırılacaqdır. Bu günlərdə Şərur qəzasındakı məktəblərin təmirinə başlayacaqlar. Naxçıvanda uşaq evinin təmiri başa çatdırılmışdır.

**Fəhlə yaşayış evlərinin təməli qoyulur.**

**NAXÇIVAN, 2 sentyabr.** Duz mədənlərinin fəhlələri üçün yaşayış evinin təntənəli surətdə təməli qoyulmuşdur. Burada iş qısa müddətə başa çatdırılacaqdır.

**Bandit dəstəsinin ləğv edilməsi.**

**NAXÇIVAN, 3 sentyabr.** Naxçıvan milisi son həftələrdə Nehrəm kəndinin keçmiş peşəkar quldurlarından təşkil olunan 5 nəfərlik bandit dəstəsini ələ keçirmişdir. Dəstə 3 silahlı soyğun törətmişdir.

*(“Bakinski raboçi”, 4 sentyabr 1925-ci il, № 201)*

## NAXÇIVAN DİYARINDA TİKİNTİ UĞURLARI

**Nələr edilib və nələr edilməlidir**

Yoldaş Rıkovun Naxçıvan Diyarını ziyarət etdiyi gündən 4 ay keçmişdir. Əvvəllər bu diyarı tanımayanlar üçün o yenə də kasıb, quraq və dağılmış bir diyar olaraq qalır. Ancaq bu diyarı əvvəllər görənlər yaxın keçmişlə indi arasındakı fərqi hiss etməyə bilməzlər.

Diyar əsrlərin yuxusundan silkinib oyanır, dirçəlir, bərpa olunur, bəzənir.

Bu oyanış, hər şeydən əvvəl, diyarın mərkəzində – Naxçıvanda və şəhərlərdə əks olunub, ancaq kənd də onların arxasına düşüb, onda da irəliləyiş və əsrlərdən qalma köhnə dayaqların qırılması hiss olunur.

Naxçıvan yenidən təşkil olunur və qurulur. Böyük iş görülüb. Bələdiyyələşdirilmiş evlər indi düzgün istismar olunur, müqavilə əsasında icarəyə verilir; həm də mənzil və ticarət sahəsi üçün sabit haqlar müəyyən edilib; xırdavat qutusu və masaüstü ticarətlə məşğul

olanların hamısı uçota alınıb; sallaqxanalar, hamamlar və s. icarəyə verilib.

Torpaq mülkləri uçota alınıb. Müəyyən vergi sistemi təyin edilir. Təmir aparmaq şərti ilə məhsul icarəyə verilir, hal-hazırda təmir başa çatmışdır. Beləliklə, xaos və özbaşınalıq öz yerini qanunçuluğa və təşkilatçılığa verir. Səhlənkarlığın hökm sürdüyü yerlərdə indi uçot və qayda-qanun tətbiq edilir.

Küçələr və meydanlar zir-zibildən təmizlənir, sanitar arabaları üçün vəsait ayrılır; qida məhsullarının hazırlanması ilə məşğul olan şəxslərin tibbi baxışdan keçməsi tətbiq olunur; uşaq məsləhətxanası üçün şəhərin mərkəzində otaq təmir edilir, burada analar sterilizə olunmuş süd ala biləcəklər.

Və nəhayət, şəhər kənarında 150 çarpayılıq xəstəxana bərpa edilir, o, öz avadanlıqlarına görə böyük şəhərlərin klinik xəstəxanalarından geri qalmayacaqdır.

Yeni binalar peyda olur. Komfortlu mehmanxananın tikintisi bitmək üzrədir. Ondan bir az aralıda kənd təsərrüfatı bankı üçün bina tikilir, bir az da aralıda isə elektrik stansiyası tikirlər, o, küçə və evlərə işıq salacaq və elektrik enerjisinə artan tələbatı ödəməyən mövcud stansiyanı əvəz edəcəkdir.

Şəhərdən vağzala yeni şose yolu uzanır. Yazda salınıb, pavilyon tikilib. Kooperativ yeməkxana açılıb.

Şəhər kəndi də unutmur. Gilli zirzəmilərdən işıqlı və rahat otaqlara çıxarılan kənd sovetləri üçün yüzlərlə stol, skamya, kətil və şkaf tədarük edilir.

Yeni tikintilər (hamam, poliklinika, sallaqxana, 500 nəfərlik teatr) planlaşdırılır. Şəhərin zibildən təmizlənməsi və yarasız binaların sökülməsi üzrə ictimai işlər üçün 200 000 rubl vəsait ayrılıb.

Çox işlər görülüb. Dağıdılmış kəndlərə, boş qalmış şəhərlərə, günəşin qovurub yandırdığı tarlalara baxanda, əmin olursan ki, bu, hələ yalnız başlanğıcdır. Bu, haçansa çiçəklənən diyarı bərpa etmək üçün hələ gərgin şəkildə çoxlu əmək və vəsait sərf olunmalıdır.

Qaçqınlar geri qayıdır və ev-eşiklərini yenidən bərpa etməyə başlayırlar, ancaq tikinti materialları tapa bilmirlər. Bir çox illər mövcud olmuş, yüzlərlə desyatin torpağı suvaran kəhrizlər unudulmuş, batmış və onların ətrafındakı tarlalar quraqlıq səbəbindən yanıb külə dönür.

Diyarda olan zəngin yataqlar, duz mədənlərindən savayı, demək olar ki, işlənmir.

Kükürd, qurğuşun və gips hələ də yerin təkində sakitcə yatıb qalır.

*(“Bakinski raboçi”, 7 sentyabr 1925-ci il, № 203)*

A.İ.Rıkovun Naxçıvan Diyarını bolşevik varlığının cənnət-məkanına çevirmək niyyəti özünü doğrultmadı. IV Sovetlər Qurultayından sonra Naxçıvanda Sovet hakimiyyətinin danılmaz üstünlüklərini nümayiş etdirmək, onun məziyyətlərinin Yaxın Şərqin əsarətdə olan xalqlarına cadu təsiri bağışlamasına nail olmaq heç cür alınmadı. Yəni, əsarətdə olan bu xalqlar çiçəklənən Naxçıvana baxıb, bir an belə fikirləşmədən dünya inqilabi ideyası ilə silahlanaraq, istismarçı hakimiyyətləri devirib öz ölkələrində sovet hakimiyyətini elan etmədilər.

Artıq Naxçıvan MSSR büdcəsinin təsdiq olunmasının vaxtı da gəlib çatmışdı, ancaq naxçıvanlıların ümidləri özünü doğrultmadı. Heç bir çiçəklənmədən söz gedə bilməzdi. Qıt Naxçıvan büdcəsi dağıntılardan tezliklə xilas olmağı təmin edə bilməzdi. Deməli, Naxçıvan MSSR-in həyatında dağıntılar hələ gələn il də qalmaqda davam edəcəkdi.

## DİYARIN BÜDCƏSİ

Naxçıvan MİK Naxçıvan Diyarı üzrə 1925 – 26-cı büdcə ili üzrə yerli büdcəni 1 300 000 rubl məbləğində kəsirlə təsdiq etmişdir.

İndiki büdcə dövlət büdcəsindən qırmızı milisin, seminariyaların, ədliyyə orqanlarının, səyyar malyariya dəstələrinin və s.-nin saxlanması üçün verilən nəhəng xərclərlə yüklənmişdir.

Büdcənin 20 faizini xalq maarifinə ayrılan xərclər udur. Sonuncunun iş planında kəndlərdə qiraət komaları şəbəkəsini 15-ə, savadsızlığı ləğv etmə məntəqələrini isə 60-dək genişləndirmək nəzərdə tutulur.

Səhiyyə sahəsində həkim və feldşer məntəqələrinin sayı 130% artırılır. Şərurda və Ordubadda xəstəxana, Naxçıvanda dəri-zöhrəvi, göz, bakterioloji kabinetlər açılmış, təcili yardım təşkil olunmuşdur. Sadalanan məntəqələrdən əlavə, səyyar malyariya dəstələri təşkil olunmuşdur ki, bunlar da Naxçıvan Diyarı kimi malyariyanın geniş yayıldığı bir yer üçün son dərəcə zəruridir.

Diyar dağıdılmış, əhali heydən düşmüşdür. Diyarın bərpası üçün təcili tədbirlər görülməlidir. Ona hər cür köməklik göstərmək və xüsusən də əsas xərcləri dövlət büdcəsinə aid etmək, onun büdcəsini yüngülləşdirmək lazımdır.

*(“Bakinski raboçi”, 9 sentyabr 1925-ci il, № 205)*

Naxçıvan MSSR haqqında çox nadir hallarda rast gəlinən materiallar "Bakinski raboçi" qəzetinin adətən 2-ci , 3-cü və ya daha sonrakı səhifələrində yerləşdirilir. Bu qəzeti səhifələyərkən, onun birinci səhifəsində, həm də qəzetin adının düz altında *"Naxçıvan Diyarının təsərrüfatına kömək"* yazısını görəndə çox təəccüblənirik!

Sovet Naxçıvanının mövcudluğu tarixində Muxtar Respublikaya hələ indiyəcən belə bir xüsusi diqqət göstərilməmişdi. Hətta Naxçıvan MSSR-in sovetləşməsinin beş illik yubileyi ilə bağlı materiallar belə, xatırlayacağımız kimi, 3-cü səhifədə verilmişdi.

Bundan əlavə, birinci səhifədəki məqalə həyəcanlı yazıdır və bir daha sübut edir ki, Naxçıvan üçün tələb olunan dövlət qayğısına hələ çox var. Naxçıvanın sovetləşdiyi gündən beş il ötməsinə baxmayaraq, hələ də onu dağıntılara məruz qoyan daşnak cinayətlərindən bəhs edilir. Halbuki Naxçıvan Respublikasının yaralarını sarımağın vaxtı çoxdan gəlib çatmışdı.

Naxçıvan MSSR üçün ölümcül büdcə və qoyulan vergilərin Naxçıvan Muxtar Respublikasının kəndlilərini necə boğduğu haqda söhbətimizi davam etdirərək, aşağıda verilən məqalənin müəllifinin bir ifadəsinə diqqət yetirək*: "... diyarın... tamamilə dağıdılmış vəziyyətə düşən... kənd təsərrüfatı hələ planlı şəkildə bərpa zolağına daxil olmayıb və hələ də dağılmaqda davam edir".*

## NAXÇIVAN DİYARININ TƏSƏRRÜFATINA KÖMƏK

Naxçıvan Diyarında bu ilin avqust ayında keçirilən fövqəladə diyar qurultayında bir sıra mühüm qərarlar qəbul edilmişdir.

Hazırda vahid kənd təsərrüfatı vergisinin bütün kontingentinin yerli ehtiyaclara verilməsi barədə qərar Naxçıvan Diyarı üçün böyük praktiki əhəmiyyət kəsb edir, belə ki, hazırda Naxçıvan diyarı üzrə 1925-26-cı il üçün təsdiqə təqdim olunan yerli büdcə bir milyon kəsirlə tərtib edilmişdir: onun gəlir hissəsi – 500 min, xərc hissəsi isə 1,5 milyon rubldur.

Belə bir qərar üçün bu əsas götürülmüşdür ki, diyarın bir çox səbəblər: daşnak-müsavat avantürası nəticəsində yaranan görünməmiş

milli ədavət, təbii fəlakətlər üzündən tamamilə dağıdılmış vəziyyətə düşən kənd təsərrüfatı hələ planlı şəkildə bərpa zolağına daxil olmayıb və hələ də dağılmaqda davam edir.

Əgər biz, vahid kənd təsərrüfatı vergisi üzrə uçot işinin yekunlarını götürüb, rəqəmləri müqayisə etsək, onda, demək olar ki, bütün kənd təsərrüfatı bitkilərinin istehsalında xeyli azalma olduğu dərhal nəzərə çarpacaqdır. Məsələn, biçənəklərin sahəsi keçənilkinə nisbətən – 69%, bostan və bağçalar – 39%, üzümlüklər – 52%, meyvə bağları – 77%, pambıq tarlaları – 63% təşkil edir və s. İri buynuzlu heyvanların sayı 25 279 başdan 21 015 başa, xırda buynuzlu heyvanların sayı isə 81 899 başdan 80 000 başa düşmüşdür, eyni zamanda uçot məlumatlarına görə yeyən əhalinin sayı 73 203 nəfərdən 82 049 nəfərə yüksəlmişdir. Doğrudur, sovetlər qurultayında da qeyd edildiyi kimi, ötən ilin uçot məlumatlarında qeyri-dəqiqliklər mövcuddur, amma bu qeyri-dəqiqlik diyarda kənd təsərrüfatının səviyyəsinin aşağı düşməsi barədə yuxarıdakı təsəvvürü təkzib edəcək dərəcədə deyil.

Diyarda su təsərrüfatı elə bir vəziyyətdədir ki, kəndliləri zəruri təsərrüfat möhkəmliyindən məhrum edir. Quraqlığın, zərərvericilərin qorxusundan onlar əkin sahələrini azaldırlar, bu da onların özləri üçün ziyandır. Hətta Xalq Torpaq Komissarlığı da bu üsula əl atır: ötən il Bünyadzadə adına sovxoz 100 desyatin sahədə pambıq əkdiyi halda, bu ilin təsərrüfat planında 50 desyatin nəzərdə tutulub.

Diyardakı dağıntılardan əlavə, kənd təsərrüfatının inkişafına vahid kənd təsərrüfatı vergisi kontingentinin həcmi də mənfi təsir göstərir. Əgər ötən ilki kampaniyanı izləsək, onda bu qənaətə gələrik ki, həmin kampaniya həddən artıq vergi qoyma əlaməti altında keçmişdir.

Kontingentin yalnız 57%-i toplanmış, qalan hissəsi isə, müəyyən aydınlaşdırmalardan sonra ləğv edilmişdir. Bu, əlbəttə ki, inadla vergi ödəmək istəyi və yaxud vergi yığımaq bacarıqsızlığı ilə deyil, hələ də hökm sürməkdə olan səfalət və yoxsulluq məngənəsində sıxılıb qalan Naxçıvan Diyarı kəndlisinin maliyyə imkanının zəifliyi ilə izah olunur.

Əgər yığılan vergi məbləğini (319 712 rubl) yeyən insanların sayına bölsək, onda kəndli əhalisi arasında adambaşına 4 rubl 35 qəpik, təsərrüfat başına isə 14 rubl 50 qəpik düşür.

Federasiyanın digər respublikalarında təsərrüfat başına düşən vergi həcmi ilə müqayisədə dağıntılara, kəndli təsərrüfatının tələblərini heç cür ödəyə bilməyən meliorasiya sisteminə, bu təsərrüfatların inventarsızlığına, lazımi sayda heyvana malik olmadığına və nəhayət,

1924 – 25-ci ildə orta məhsuldarlığın aşağı olmasına baxmayaraq, Naxçıvan Diyarının kəndliləri böyük həcmdə vergi ödəməyə məcbur olmuşlar.

Bütün bunlarla yanaşı, hazırkı kənd təsərrüfat ili də xeyli uğursuz olmuşdur. Respublika ixrac-qiymətləndirmə komissiyasının məlumatlarına görə avqustun 17-dək Naxçıvan Diyarı üzrə 4 876 desyatin əkinin quraqlıqdan və şaxtadan məhv olduğu qeydə alınmışdır.

Bu məlumatda pambıq əkin sahələri nəzərə alınmamışdır. Pambıq susuzluqdan yanır, fəlakətin nəticələri aydınlaşdırılır.

Məhv olmuş dənli bitki sahələrinin əkilən sahələrə nisbətdə həcmi təxminən 12 %-ə bərabərdir. Bu faiz çox yüksəkdir və müflisləşmiş kəndli bunu çox dərindən hiss edir. Bundan əlavə, Şərur qəzasının kəndliləri kürdlərin iyun hücumu zamanı böyük itkiyə məruz qalmışlar, kürdlər onların 500 baş iri buynuzlu heyvanını aparmışlar.

Fövqəladə Diyar qurultayı diyarın kənd təsərrüfatının dağılmış vəziyyətdə olmasını və onun bərpası üçün resurs yoxluğunu nəzərə alaraq 1925 – 26-cı ildə yığılacaq bütün vergi məbləğini büdcənin gəlir hissəsinə daxil etməyi qərara almışdır. Əlbəttə, bu tədbir diyarın bütün yaralarını sağaltmayacaq, ancaq artıq başqa tərəfdən də kömək gəlir – yeni təşkil olunan kənd təsərrüfatı bankı və "Köybirliyi" tədricən öz işini genişləndirməyə başlayır və Naxçıvan Diyarına yavaş-yavaş kənd təsərrüfatı maşınları, işlək heyvanlar, traktorlar... göndərilir. Az vəsaitlə olsa da, geniş cəbhədə iş gedir.

Artıq Naxçıvan Diyarının büdcəsinə baxılmağa başlanılıb, indi bütün vergi kontingentinin Naxçıvan Diyarında qalması məsələsini həll etməyə tələsmək lazımdır.

**MƏMMƏDOV**

*("Bakinski raboçi", 16 sentyabr 1925-ci il, № 211)*

Dərc edilən materiallarda sovet quruculuğundan, Respublikanın hakimiyyət orqanlarının fəaliyyətinin nəticələrindən danışılır, lakin Naxçıvan Muxtar Respublikası xalqının ağır həyatı heç azacıq da olsun yaxşılaşmır.

## AZƏRBAYCAN ÜZRƏ

**NAXÇIVAN, 14 sentyabr.** Naxçıvan SSR müəllimlərinin birinci qurultayı açıldı. Qurultayda 40 kənd və 20 şəhər nümayəndəsi iştirak edir. Onların arasında 10 türk qadını var. Məktəblərin təmiri uğurla aparılır. Tikinti materiallarının çatışmazlığı hiss olunur.

*("Bakinski raboçi", 16 sentyabr 1925-ci il, № 211)*

## QƏZA XRONİKASI NAXÇIVAN

**Kənd sovetlərinin binaları.** 12 dairə icraiyyə komitəsinin binası, kənd sovetləri binalarının 35 %-i əsaslı təmir olunmuşdur

**Kənd sovetlərinin təchizatı.** Dairə icraiyyə komitələri və kənd sovetləri hər cür dəftərxana ləvazimatı və sovet quruculuğuna dair ədəbiyyatla təchiz edilmişdir.

**Milislər üçün kurslar.** Milislərin təlimi üzrə kursların fəaliyyət planı işlənib hazırlanmışdır. Birinci qrup artıq təlimə başlamışdır.

**Cinayət axtarışları şöbəsinin təşkili.** Bu yaxınlarda təşkil edilən cinayət axtarışları şöbəsi uğurla işləyir. Cinayətlərin açılması 90 % təşkil edir.

*("Bakinski raboçi", 18 sentyabr 1925-ci il, № 213)*

## AZƏRBAYCAN ÜZRƏ

**NAXÇIVAN, 21 sentyabr.** Pambıq qozaları açılmışdır. Bu günlərdə birinci yığıma başlanacaqdır. Tarlaların vəziyyəti ümumən ortababdır, bəzi yerlərdə orta səviyyədən aşağıdır.

Kooperasiya satış üçün qoz, yun, barama və ərik qaxı tədarük edir. Bu xammalın əvəzinə kəndli bazarı parça, ağ neft, şəkər və buğda alır. Diyarda şəkər və buğda çatışmazlığı hiss olunur. Bunu aradan qaldırmaq üçün kooperasiya tərəfindən tədbirlər görülmüşdür.

**NAXÇIVAN, 21 sentyabr.** Noraşen stansiyasının yaxınlığında Azərbaycan Pambıq İdarəsi tərəfindən pambıqtəmizləmə zavodu tikilir. Zavod korpusunun tikintisi başa çatmışdır. Digər binalar isə hələ tikilir.

*("Bakinski raboçi", 23 sentyabr 1925-ci il, № 216)*

Naxçıvan MSSR-in bərpasındakı mövcud olan qüsurlardan ehtiyatla, yumşaq şəkildə söz açılan materiallar arasında birdən-birə Respublikada işlərin faktiki vəziyyətini ayıq şəkildə qiymətləndirən bir çıxışa rast gəlirik. Belə bir çıxışın müəllifi yalnız Azərbaycanda böyük nüfuzu malik bir şəxsiyyət ola bilərdi. Sıravi jurnalistə bu qədər kəskin ifadələr işlətməyə icazə verilməz, ümumiyyətlə belə bir material mətbuata buraxılmazdı. "Bakinski raboçi" qəzetində Sovet Azərbaycanında görkəmli şəxsiyyət olan – **İsay İvanoviç DÖVLƏTOV** çıxış edir. Oxucu unutmayıbsa, Dövlətov M. Bağırovun rəhbərlik etdiyi Xüsusi Komissiya beşliyinin üzvü idi (*1 №-li Əlavəyə bax*).

## NAXÇIVAN DİYARINA KÖMƏK LAZIMDIR

Naxçıvan Diyarı millətlərarası ədavət dövrünə qədər çiçəklənən bir diyar hesab olunur və öz meyvələri, pambığı və ipəyi ilə məşhur idi.

Daşnak-müsavat avantürasından sonra isə o, qəbiristanlığa çevrilmişdir. Yalnız xarabalıqlar qalmışdır. Diyar dağıdılmış, əhali tamamilə əldən düşmüşdür. Bütün sənaye, mədəniyyət və tikililər məhv edilmişdir. Kənd təsərrüfatı indiyədək həll olunmamış su məsələsi, işlək heyvanların və kənd təsərrüfatı inventarlarının yoxluğu üzündən tamamilə öz əhəmiyyətini itirmişdir.

Su məsələsinin nizama salınması üçün bütün səylərdən istifadə etmək lazımdır, əks təqdirdə kənd təsərrüfatını ayağa qaldırmaq mümkün olmayacaqdır. Kəndlilər özləri də qurultay və konfranslarda bu məsələni dəfələrlə qaldırmışlar.

Məsələn, "Zubar" dağının zirvəsindən çoxlu su axır və o Mehriçaya və Araza tökülür. 1902-ci ildə bir neçə kanalın çəkilməsi ilə bağlı 60 000 rubl məbləğində smeta tərtib olunmuşdu, həmin kanallar Ordubadın 500 desyatindən çox münbit torpağını suvara bilərdi. Lakin bu layihə başlamış olan anarxiya səbəbindən həyata keçirilmədi. Şərurda da kanalların çəkilməsi işi dayandırılmışdır. Bazarçay barədə söhbətlər də artıq kəsilmişdir.

Burada su məsələsi belə bir xaotik vəziyyətdədir.

Ordubad şəhərində beş (*əslində on* – qeyd R. İ.) baramaaçan zavod var, onların hamısı tamamilə yararsız hala düşüb və əsaslı təmir tələb edir. Onların ikisi beş il müddətinə, əvəzsiz olaraq öz keçmiş sahiblərinə icarəyə verilib. Üç zavod isə ağzı möhürlü qalıb. Zavodları bərpa etmək üçün vəsait yoxdur. Onlar bərpa olunduqları halda tut bağları da inkişaf edəcək, həm də Odubudda işsizliyə son qoyulacaqdır.

Diyara təcili kömək lazımdır, əks təqdirdə o, Zaqafqaziyanın bədənində daim sızlayan yara olaraq qalacaqdır.

**DÖVLƏTOV**

*("Bakinski raboçi", 27 sentyabr 1925-ci il, № 219)*

Bu iri miqyaslı Azərbaycan rəhbərini jurnalist mədhiyyələri fonunda Naxçıvan MSSR-in vəziyyəti barədə doğru və dəqiq mülahizələr söyləməyə və təcili kömək istəməyə nə vadar etmişdi?

Hiss olunur ki, redaksiya tənqidi yumşaltmaq üçün Dövlətovun məqaləsinə əl gəzdirib. Bəlkə də Dövlətov Xüsusi Ko-

missiyanın Naxçıvanda "sovet hakimiyyətini əksinqilabi qüvvələrdən xilas etmək üçün" vaxt itirmək əvəzinə yaradıcı funksiyanı yerinə yetirməli olduğunu indi dərk edib anlamışdı.

Mühüm olan budur ki, Naxçıvan MSSR faciəsi haqda dinc Naxçıvana basqın edən Xüsusi Komissiyanın bir üzvü danışır. Beş ay əvvəl Xüsusi Komissiya iclaslarının 13 protokoluna itaətkarlıqla imza atan İsay Dövlətov, yəqin başa düşürdü ki, Bağırov protokollarının əksəriyyəti qanunsuzluq, şəxsiyyəti təhqir, gücsüz və hakimiyyətsizlərə qarşı küt və zorakı güc nümayişi etalonudur.

1937-ci ildə Bağırovun Xüsusi Komissiya üzrə silahdaşı İ.İ.Dövlətov XDİK-nın zindanına düşəcək və zorakılığın nə olduğunu tam şəkildə öz üzərində hiss edəcəkdi.

Naxçıvan MSSR-ə divan tutaraq, bunu, bütün bəlaların diyarı ələ keçirmiş xan-bəy ünsüründə olduğu və sovet hakimiyyətinin bu qatı düşmənlərini Naxçıvanın idarəçiliyindən götürən kimi Respublikanın guya dərhal çiçəklənəcəyi barədə demaqogiya xarakterli boşboğazlıqla əsaslandırmağa çalışmışdılar.

Xüsusi Komissiyanın göstərişi ilə kimlərisə güllələmiş, kimlərisə həbsə atmış, kimlərisə Respublikanın hüdudlarından kənara sürgün etmişdilər. Bağırovun "basqını"ndan Naxçıvanın 50-yə yaxın ailəsi zərər çəkmişdi. Ancaq Respublikanın acıları Xüsusi Komissiyanın işi bitdikdən sonra da davam edirdi.

Naxçıvanda tələm-tələsik hakimiyyət dəyişikliyinin bu diyara vurduğu ziyan açıq aydındır. Xüsusi Komissiya insanların canına qorxu salmışdı. Elliklə gecə həbsləri orgiyasının təkrarlanmayacağına heç bir inam yox idi. Bir sözlə, dağıdılmış və yarıac Naxçıvanın bəlaları bolşevik varlığının yeni qaydaları ilə daha da çoxalmışdı. Halbuki Kremldə sovet hakimiyyətinin həsəd aparılacaq rifah yüksəkliyinə və onun gözəlliklərinin nümayişinə məhz Naxçıvanda nail olacaqlarına inanırdılar.

V.İ.Leninin Xalq Komissarları Soveti üzrə varisi, sovet

torpağında Naxçıvan əyalətinin mövcudluğunu ilk kəşf edən və onu həyəcan və qəzəb içərisində "sovet biabırçılığı" adlandıran A.İ.Rıkovun səsi bütün "bərabərlər ittifaqı"na yayılmışdı. Bu, Naxçıvanda dərhal bolşevik cənnət guşəsi yaratmağa çağırış idi. Azərbaycan rəhbərlərindən birinin vəsait çatışmazlığı barədə replikasına isə A.İ.Rıkov belə cavab vermişdi: **"... vəsait bütün sovet xəzinəsində də azdır, ancaq bununla yanaşı, Bakı tramvay xəttini ixtisar etmək, pulları bayraq və pioner kostyumlarına sərf etməklə məşğul olmamaq və onları kəndlinin büdcəsini artırmaq üçün istifadə etmək daha doğru olardı".**

A.İ.Rıkovun səsini Sovet Azərbaycanın və Sovetlər ölkəsinin liderləri eşitdilər, lakin bolşevik hakimiyyəti sisteminin özü onu eşitmədi. (Bu sistem yaxın gələcəkdə A.İ.Rıkovu xalq düşməni elan edəcək və o, 1938-ci il martın 15-də güllələnəcəkdi).

1924-cü il yanvarın 21-dən tətbiq olunmağa başlayan yeni SSRİ Konstitusiyasının qəbul edildikdən sonra Naxçıvan Muxtar Sovet Sosialist Respublikası həqiqətən *"bərabərlər ittifaqı"na* daxil oldu və digər ittifaq respublikaları ilə bərabər səviyyədə öz problemlərini dilə gətirmək, hüquqlarını müdafiə etmək, SSRİ hakimiyyətinin ali dövlət orqanlarında eşidilmək və başa düşülmək hüququ qazandı.

## SSRİ MİK-nin ÜÇÜNCÜ QURULTAYININ İKİNCİ SESSİYASI
### 1925-26-CI İLİN DÖVLƏT BÜDCƏSİ
### Moskva, 14 aprel 1925-ci il

Millətlər Sovetinin aprelin 14-də keçirilən axşam iclasında müzakirələr zamanı muxtar respublikaların: Kazan, Moldova, Dağıstan, Abxaz, Başqırd, Naxçıvan, Volqa boyu almanların və eyni zamanda ittifaq respublikalarının: Belarus, Ermənistan və Özbəkistanın nümayəndələri çıxış etdilər.

Millətlər Sovetinin yığıncağı SSRİ MİK-nin sədri yoldaş Musabəyovun sədrliyi altında keçirilir.

*("Bakinski raboçi", 16 aprel 1926-cı il, № 90)*

# YOLDAŞ AXUNDZADƏNİN (NAXÇIVAN RESPUBLİKASI) ÇIXIŞI

Yoldaş Axundzadə türk dilində çıxış edir.

Naxçıvan Respublikasının torpağı azdır. Adambaşına yarım desyatindən də az suvarılan və suvarılmayan torpaq sahəsi düşür, hərçənd bu rayon suvarılan rayondur, zira inqilabdan əvvəl mövcud olan bir sıra kanallar sıradan çıxmışdır. Yeni kanalların, məsələn, Bazarçay, Qanlı göl və başqa bu kimi kanalların çəkilməsi ilə bağlı hələ inqilabdan əvvəl qəbul olunan bir sıra layihələr indi həyata keçirilmir. İndi Millətlər Sovetində bu məsələni həll etmək lazımdır ki, növbəti büdcə ilində Bazarçay və Qanlı göl kanalları smetaya daxil edilsin. Onlar smetaya ona görə daxil edilməlidirlər ki, bizim kəndlilərimiz, bir tərəfdən az torpaq sahələrinə malikdirlər, digər tərəfdən bu rayonlar pambıqçılıq rayonlarıdır. Eyni zamanda Naxçıvan Respublikası İran və Türkiyə ilə sərhəddə yerləşir, buna görə də biz, birincisi, kəndlilərimizə daha yaxşı şərait yaratmalıyıq, ikincisi, Naxçıvanı Yaxın Şərqdə nümunəvi respublikaya çevirməliyik.

Bakı-Culfa yolu Ələğa tərəfdən tikilməyə başlayıb, ancaq bizim kəndlilərimiz torpaqsız, işsiz və ehtiyac içərisində olduqları üçün həmin yolun eyni anda digər tərəfdən, yəni Culfadan da başlanmasını xahiş edirik. Yoldaş **RUDZUTAK** da Zaqafqaziyada olarkən bunu bizə vəd etdi. Ancaq bu vədlər həyata keçirilməmiş qalmışdır. Biz bu vədin yerinə yetirilməsini xahiş edirik.

Bizim ölkəmiz kəndli ölkəsidir və bizdə sənaye yoxdur. Yalnız son illərdə pambıqçılığın inkişafı ilə əlaqədar olaraq yeni pambıqtəmizləmə zavodu tikilmişdir, ancaq biz ümid edirik ki, Bakı – Culfa yolunun çəkilməsi və suvarma məsələsinin zərbəçi qaydada həll olunması ilə Naxçıvan Respublikası əvvəlkindən daha mədəni olacaqdır. İnqilaba qədər bu diyarda mədəniyyətin inkişafının qayğısına qalmamışlar, çünki İranla qonşuluqda mədəni əhaliyə malik olmaq çar hökumətinin xeyrinə deyildi.

Gördüyünüz kimi, mən heç rus dilində də danışa bilmirəm və bu onunla izah olunur ki, inqilaba qədər bizdə məktəb olmayıb; çünki çar hökuməti qorxurdu ki, əgər biz dil bilsək, ağıllı və s. olacaq, çar ərazisində inqilab törədə və yaxud İranı inqilabiləşdirə bilərik, bu da əlbəttə ki, çar hökumətinin xeyrinə deyildi. İndi Naxçıvan Respublikasında mədəniyyətin dirçəldilməsinə diqqət yetirməyin vaxtı gəlib çatmışdır.

*(“Bakinski raboçi”, 18 aprel 1926-cı il, № 91)*

**RUDZUTAK Yan Ernestoviç** – siyasi və dövlət xadimi, latış, kəndli mənşəyindən, bu dövrdə SSRİ xalq nəqliyyat komissarı və XKS sədrinin müavini olmuşdur. 1938-ci il iyulun 29-da casusluqda ittiham edilərək güllələnmişdir. Podmoskovada, Azərbaycanın milli qəhrəmanı briqada komandiri Cəmşid Naxçıvanlının nəşinin uyuduğu "Kommunarka"da dəfn edilmişdir. 1956-cı ildə ona tam şəkildə bəraət verilmişdir.

## NAXÇIVAN SOVETLƏR QURULTAYI

**NAXÇIVAN, 17 aprel.** Naxçıvan Sovetlər qurultayının bütün birinci günü yoldaş **Qarayevin** Azərbaycan hökumətinin fəaliyyəti barədə məruzəsinə həsr olundu. Məruzə iki saat çəkdi və xüsusilə də xalq maarifi, kənd təsərrüfatı və səhiyyə məsələlərində hərarətli müzakirələrə səbəb oldu. Azərbaycan hökumətinin fəaliyyəti bütövlüklə bəyənildi.

Qurultayın axşam iclasında müəllimə **NƏZRİ XANIM** sədrlik edirdi. Mərkəzi sovet və partiya təşkilatlarından və qardaş respublikalardan təbriklər alınmışdır. Axşam iclası başa çatdıqdan sonra Naxçıvan Pedaqoji Texnikumunun 4 illiyi ilə əlaqədar təntənəli gecə keçirildi.

**NAXÇIVAN, 17 aprel.** Qurultayın ikinci günündə yoldaş Sultanovun Naxçıvan hökumətinin fəaliyyəti barədə böyük maraq doğuran 4 saatlıq məruzəsi dinlənildi. Müzakirələrdə 20 natiq iştirak etdi. Qurultayın başlıca diqqəti su, yol tikintisi, maarif və aşağı sovet aparatının işi ilə bağlı məsələlər üzərində cəmləşdi. Məruzə üzrə bir sıra konkret təkliflər irəli sürüldü. Naxçıvana gələn Ermənistan MK-nin katibi Bokunyan və xalq torpaq komissarı Yerzikyan Sovetlər qurultayını təbrik etdilər.

**NAXÇIVAN, 18 aprel.** Səhər iclası **XASAYEVİN** torpaq məsələləri və **MƏMMƏDOVUN** "Köybirliyi" haqda məruzələri ilə açıldı. Qurultay Xalq Torpaq Komissarlığına cari ildə yer quruluşu məsələlərini başa çatdırmağa xüsusi diqqət yetirməyi təklif etdi. "Köybirliyi"nə dair məruzə üzrə ilkin özək şəbəkəsinin gücləndirilməsi və onun maliyyə gücünün artırılması zəruri hesab edildi. Bununla yanaşı, diyarın kənd təsərrüfatının bərpa edilməsi və maşınlaşdırılması sahəsində bir sıra iri nailiyyətlərin əldə edildiyi qeyd olundu. Axşam iclasında **QƏDİMOVUN** səhiyyə orqanlarının işi barədə məruzəsi din-

lənildi. Qurultay Xalq Səhiyyə Komissarlığının rayonlarda müalicə məntəqələrinin genişləndirilməsi və tibbi yardımın ümumən möhkəmləndirilməsi sahəsində uğurlu işini qeyd etdi. Axşam iclası Naxçıvan SSR Konstitusiyasının oxunuşu və qəbul olunması ilə başa çatdı.

Konstitusiyanın mətni 5 bölmədən və 64 maddədən ibarətdir.

Aprelin 19-da səhər iclasında qurultayda dinlənilən bütün məruzələr üzrə qərarlar qəbul olundu. Bu qərarlara dövlət müəssisələrinin bütün iş sahələrinə dair konkret təkliflər daxildir.

Qərarlar qəbul olunduqdan sonra 50 üzvdən və 20 namizəddən ibarət yeni mərkəzi komitə seçildi.

Yenidən seçilən MİK 50% yenilənmişdir. MİK-nin 70 üzv və namizədindən 40-nı yerlərdən olan işçilər, kəndlilər və dəzgah arxasından çıxmış fəhlələr təşkil edir. MİK-nin tərkibində 6 qadın, 3 komsomolçu və milli azlıqların 13 nümayəndəsi var. Ümumazərbaycan Sovetlər qurultayına həlledici səslə 24, məşvərətçi səslə 10 nəfərdən ibarət nümayəndə heyəti seçildi.

Qurultay Diyar Komitəsinin katibi Şahbazovun qurultayın işinə yekun vuran son nitqi ilə bağlandı.

Nümayəndələr qurultaydan Beynəlmiləl oxuyaraq ayrıldılar.

*(“Bakinski raboçi”, 22 aprel 1926-cı il, № 95)*

## NAXÇIVAN MİK-nin SESSİYASI

**Naxçıvan, 20 aprel.** Bu gün axşam yeni seçilən 5-ci çağırış Naxçıvan MİK-nin ilk sessiyası keçirildi. Rəyasət Heyətində**: Babayev, Həmid Sulatnov, Əsgər Şahbazov, Məmməd Xasayev, Abbasqulu Əliyarov, İsa Tanrıverdiyev, Səkinə Rəsizadə və Nikita Buliyan** əyləşmişlər. **Namizədlər: Mehdi Qudirzayev və Məhərrəm Hüseynəli oğludur**. Sessiyaya **Baba Babayev** sədrlik edir.

Naxçıvan diyarının hökuməti aşağıdakı tərkibdə formalaşmışdır: **Xalq Komissarları Sovetinin sədri – Həmid Sultanov, xalq torpaq komissarı Məmməd Xasayev, xalq maarif komissarı – Hüseyn Musayev, xalq səhiyyə komissarı – Baba Qədimov, xalq ədliyyə komissarı – Yaqub Babayev, xalq daxili işlər komissarı, həmçinin siyasi büronun rəisi – Əsəd Rəhmanov, xalq sosial təminat komissarı – Rəcəbov.**

Mərkəzi xalq komissarlıqlarının müvəkkilləri bunlar seçilmişlər. **Xalq Maliyyə Komissarlığının müvəkkili – Maqsud Məmmədov, Fəhlə Kəndli Müfəttişliyi müvəkkili – Məmmədəli Baba Qulamov, Xalq Əmək Komissarlığı müvəkkili – Əziz Əliyev və hərbi komissar İzrabəyov.**

İkinci sessiyanı iki ay sonra Naxçıvanda çağırmaq qərara alındı. Yerli nümayəndələr, sessiya üzvləri elə bu gün öz iş yerlərinə qayıtdılar.

*("Bakinski raboçi", 22 aprel 1926-cı il, № 95)*

Naxçıvanda növbəti Sovetlər Qurultayında iştirak edən AK(b)P MK-nın katibi Ə. Qarayev Naxçıvan MSSR-in çiçəkləndiyini bildirir.

## NAXÇIVAN DİYARINDA
## YOLDAŞ QARAYEV NAXÇIVAN RESPUBLİKASI HAQQINDA

**NAXÇIVAN, 22 aprel.** Yoldaş **Qarayev** ikinci dəfə Naxçıvan Respublikasını ziyarət edərkən, burada aldığı təəssüratları bölüşür.

Son illər, – yoldaş Qarayev deyir, – Respublikada böyük işlər görülmüşdür. Ümumi mənzərə tanınılmaz dərəcədə dəyişmişdir. Maarif və məktəb tikintisi sahəsində nəhəng nailiyyətlər qazanılmışdır. Artıq indi Naxçıvan kəndinin məktəbləri digər qəzaların kəndlərindəki məktəblərdən xeyli yaxşı görünür. Səhiyyə işi çox irəli getmişdir. Respublikada 21 həkim var; bu böyük nailiyyətdir, Azərbaycanın heç də bütün qəzaları belə bir nailiyyətlə öyünə bilməz. Yenicə tikilib başa çatdırılan Naxçıvan Mərkəzi Xəstəxanası bütün Zaqafqaziya üçün nümunədir. Xalq Səhiyyə Komissarlığının yaxın dövr üçün vəzifəsi kənd əhalisi arasında geniş sanitariya-maarifçilik işini gücləndirməkdir.

Böyük əhəmiyyətə malik olan yer quruluşu işlərinə başlanmışdır. Sadəcə bu işlərin cari ildə başa çatdırılmasına nail olmaq lazımdır.

Su resursları xeyli artmışdır. Bir sıra kəhrizlər və su anbarları təmizlənərək bərpa olunmuşdur.

Aşağı sovet aparatı son seçkilərin köməyi ilə xeyli dərəcədə yenilənmiş və öz nüfuzunu möhkəmləndirmişdir. Sovet müəssisələrinin işçilərinin vicdansızlığı və fəaliyyətsizliyi barədə şikayətlər, demək olar ki, kəsilmişdir.

Əhalinin özünün də fəallığı artır, bunu kəndlilərin həm seçkilər prosesində, həm də qurultaylardakı işgüzar çıxışları da göstərir. Naxçıvanın partiya aparatı da möhkəmlənmişdir. Təşkilatlarda cari işlərlə bağlı bütün məsələlərdə tam yekdillik mövcuddur.

Bununla yanaşı, yerli əhalinin açıq-aydın intriqa xarakterli "ərizəbazlığa" meylinin hələ tamamilə aradan qalxmadığını da qeyd etmək lazımdır. Buna qarşı uzun müddətli tərbiyə yolu ilə mübarizə aparılmalıdır.

Böyük nailiyyətlərlə yanaşı, təbii ki, bir sıra qüsurlar da var.

Bunların sırasına sovet-təsərrüfat müəssisələrinin işində ciddi planlaşdırmanın yoxluğunu, istehlak kooperasiyasının fəlakətli vəziyyətdə olmasını, rəhbərlərin zəifliyi və təcrübəsizliyini, həmçinin keçmişin pis maliyyə irsinin nəticəsi kimi, büdcənin 33%-i udan sovet aparatının şişirdilməsini aid etmək olar.

**Sovet-təsərrüfat aparatının 25% ixtisar olunması, kooperativ təşkilatlarının kökündən yenidən qurulması və sağlamlaşdırılması, onların işində təşkilati-plan təməlinin tətbiq edilməsi, kənddə tikinti işinə diqqətin gücləndirilməsi, məişət şərtlərində keçmişin qalıqlarına qarşı mübarizə ən yaxın vəzifələrdir.**

Partiya işi sahəsində qarşıda özəklərin daha da möhkəmləndirilməsi, partiyaçı və komsomolçu kütlələrin tərbiyə olunması, partiya və sovet quruculuğunun əsas məsələlərinin həllinə bütün partiyaçıların geniş şəkildə cəlb olunması vəzifələri dayanır.

*(“Bakinski raboçi”, 26 aprel 1926-cı il, № 98)*

Qeyd edək ki, AK(b)P-nın katibi Qarayev mətbuatda Naxçıvan Respublikası rəhbərliyinin “xan-bəy ünsürü” tərəfindən ələ keçirildiyi və guya Xüsusi Komissiyanın Naxçıvan MSSR-də sovet hakimiyyətini bərpa etdiyi barədə geniş şəkildə bəhs edildiyi bir dövrdə artıq Xüsusi Komissiyanın işi barədə heç nə demir və onun xoşagəlməz nəticələrini xatırlatmır. Digər tərəfdən, Xüsusi Komissiya öz vərəqələrində naxçıvanlıları şikayət ərizələri yazmağa təşviq edirdisə, Qarayev indi “ərizəbazlığa” qarşı mübarizə aparmağa çağırır.

Azərbaycanda sovet hakimiyyətinin altıncı il dönümü münasibətilə təntənəli bayram şeypurlarının gurultusu səngiyəndən üç ay sonra Naxçıvan MSSR-in sovetləşməsinin altı illik yubileyi gəlib çatdı.

Bu bayram münasibətilə Naxçıvan MSSR-in Xalq Komissarları Sovetinin sədri, “xan-bəy” Naxçıvan Respublikasının toxunulmaz qalan yeganə rəhbəri Həmid SULTANOV mətbuatda çıxış etdi. Məlum olduğu kimi, o, Xüsusi Komissiyanın işlədiyi dövrdə tamamilə M. Bağırovun mövqeyində dayanmışdı və görünür, elə bu da onu repressiya olunmaqdan xilas etmişdi.

Bunu da qeyd etmək vacibdir ki, Həmid Sultanovun yubiley çıxışı artıq, Azərbaycan beş illik yubiley münasibətilə

Naxçıvan diyarını təbrik edərkən olduğu kimi “Bakinski raboçi” qəzetinin üçüncü səhifəsində deyil, ikinci səhifəsində verilmişdir. Naxçıvan MSSR hələ də Azərbaycanın əsas qəzetinin birinci səhifəsinə layiq görülmürdü.

## SOVET GUŞƏSİNİN ALTI İLLİYİ

Naxçıvan şəhəri Araz çayı vadisində bir dağın üzərində yerləşir. Rəvayətə görə bu şəhərin üç min ildən çox yaşı var. Naxçıvan Diyarı 6000 kvadrat verst əraziyə, 120 000 nəfər əhaliyə, 22 497 kəndli təsərrüfatına malikdir.

Naxçıvan SSR-in İranla 200 verst, Türkiyə ilə 10 verst, Ermənistanla isə 190 verst sərhədi vardır. Bu cür nisbətən kiçik bir diyar böyük yeraltı zənginliklərə (mis, gümüş, qurğuşun, kükürd kolçedanı, kükürd və s.) malikdir və onların işlədilməsinə ciddi diqqət yetirmək lazımdır, zira duz yataqlarından savayı onların heç biri indi işlənilmir. Bundan əlavə, burada çoxlu müalicəvi əhəmiyyətə malik mineral bulaqlar mövcuddur.

Naxçıvan xanları ölkəni kəndliləri istismar etməklə idarə edirdilər. Onlar onun rifahı və abadlığı üçün qəti şəkildə heç bir iş görmür, yalnız əhalini vicdansızcasına soymaqla məşğul idilər. Kəndlilərdən xanların xeyrinə böyük miqdarda töycülər tutulurdu. Kəndli uşaqları heç vaxt oxumurdular, çünki hakim sinif onları məktəbə yaxın buraxmırdı. Kəndlilər xanlar və onların əlaltıları tərəfindən aldadılır və fanatizm zəhəri ilə zəhərləndirilirdilər.

1917-ci ildə çar hakimiyyəti yıxıldı və sanki zəhmətkeşlərin qara günlərinə son qoyuldu. Ancaq.... Yenə də hər şey əvvəlki kimi idi: xanlar, köhnə qayda-qanun, müsavat-daşnak çəkişmələri, qırğınlar, talanlar, milli zəmində mübarizə. Bütün bunların nəticəsində insanlar bir-birini qırır, gün-güzərandan məhrum olur, evləri dağıdılır, meyvə və üzüm bağları qırılıb məhv edilir, tam yoxsulluq hökm sürür, Naxçıvan diyarının bütün vətəndaşları müflisləşirdi. Daha sonra – diyarın Türkiyə tərəfindən işğalı, türk-daşnak bandit dəstələrinin azğınlığı, ingilislərin ağalığı, müsavat hökuməti tərəfindən milli ədavətin qızışdırılması diyarın qəti şəkildə məhvinə gətirib çıxarır.

Kəndlilər bu vəziyyətdən çıxış yolu axtarırdılar, səbir kasası artıq daşmışdı. Nəhayət, 1920-ci ilin aprelində Azərbaycanda fəhlə və kəndlilərin öz hakimiyyəti quruldu. Daim məhv olmaqdan, səfalətdən, müsavatçılar və daşnaklar tərəfindən qırılmaqdan xilas olmağın mümkünlüyünü görən Naxçıvan kəndliləri gözləri yaşlı halda, onları istismar edən xan hakimiyyətinə qarşı qeyri-bərabər mübarizədə qardaşlıq köməyi göstərmək üçün Azərbaycan inqilab komitəsinə

müraciət etdilər.

1920-ci il iyununu 28-də qırmızı qartallar bütün bu havayı yeyən çaqalları Naxçıvan diyarının hüdudlarından qovub çıxardılar və böyük inqilab bayrağını indiki Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının paytaxtı Naxçıvan şəhərinə sancdılar.

Bu gün bu sovet guşəsinin altı yaşı tamam olur.

Keçmiş çar-xan, müsavat-daşnak Naxçıvanı ilə indiki fəhlə-kəndli Naxçıvanı arasında millətlərarası sülh və mədəni iqtisadi səviyyəsinin yüksəldilməsi sahəsində hansı fərqlər var?

**Milli sülh.** İndi tam səmimiyyətlə təsdiq etmək olar ki, milli antaqonizm kökündən yox olmuşdur. İndi türklərlə ermənilər özlərini respublikanın tamamilə bərabər hüquqlu üzvləri kimi hiss edirlər. Hazırda sovet hakimiyyəti bu vəziyyətlə bütün dünya önündə öyünə bilər. Naxçıvan SSR-in kəndliləri bərabər səviyyədə sovet quruculuğuna cəlb olunmuşlar. Məsul vəzifələrdə heç bir fərq qoyulmadan türklər, ermənilər və s. çalışırlar.

**Xalq təsərrüfatı.** Sovet hakimiyyəti dövründə kənd təsərrüfatı bankı, 12 kredit cəmiyyəti təşkil olunmuş, onların vasitəsilə kəndlilərə öz təsərrüfatlarını ayağa qaldırmaq üçün bir milyon rubldan çox pul buraxılmışdır. Bundan əlavə, onlara kənd təsərrüfatı alətləri, maşınları, habelə bir milyon rubldan çox pul və nəhayət işlək heyvan verilmişdir. Suvarma kanalları, yüzdən çox kəhriz bərpa edilmişdir, suvurma stansiyası tikilir və o, Böyükdüz çölündə səkkiz min desyatin yeni torpaqları suvara biləcəkdir. Bir aydan sonra yeni "Fərhad arxı" suvarma kanalı üzrə işlər başa çatdırılacaqdır. Şose yolları təmir edilmişdir, Naxçıvan SSR-də telefon rabitəsi qurulur. Bundan əlavə kənd təsərrüfatı mexanikləşdirilir, öküz və xış tədricən traktor, kotan, triyer, dırmıx, toxumsəpən və s. ilə əvəz edilir.

**Maarif.** Çar-xan hakimiyyəti dövründə nadir hallar istisna olmaqla kəndli uşaqları demək olar ki, məktəb qapılarını açmırdılar, indi isə Naxçıvan diyarında 81 birinci pillə məktəbi (onlardan 16-sı erməni, 1-i rus məktəbidir), üç müəllimlər texnikumu, onlardan biri qadınlar üçündür (bu texnikumların nəzdində kəndli uşaqları üçün internatlar mövcuddur), bir kənd təsərrüfatı texnikumu, bir sovet partiya məktəbi fəaliyyət göstərir. Bundan əlavə, yaşlı insanlar üçün 120 savadsızlığı ləğv etmə məntəqəsi mövcuddur. Təhsil alan uşaqların ümumi sayı oğlanlı qızlı 8500-8600 şagirdə bərabərdir. Şagird türk qızlarının sayı 1000 nəfərdən çoxdur.

**Səhiyyə.** Çar-xan hakimiyyəti dövründə demək olar ki, səhiyyə mövcud olmamışdır, indi 1925 –1926-cı ildə isə bu sahəyə dövlət büdcəsi üzrə 200 000 rubl, yerli büdcə üzrə 83 min rubl, bunlardan

əlavə də 100 min rubla yaxın vəsait buraxılmışdır.

Beləliklə, Naxçıvan SSR-də fəhlə-kəndli hakimiyyətinin mövcudluğunun altıncı ilində tibbi yardım nisbətən qənaətbəxş təşkil olunmuşdur. Səhiyyə sahəsində müəyyən qüsurlar varsa da, bunlar təmiz yerli xarakter daşıyır və onları, heç şübhəsiz, yaxın gələcəkdə aradan qaldırmaq mümkün olacaqdır.

Ümumiyyətlə biz bütün göstəricilər üzrə bütün dünya qarşısında sübut edə bilərik ki, heç bir müsavat, daşnak və yaxud hər hansı bir şəxsi-mülkiyyətçi hakimiyyət sovet hakimiyyətinin elədiklərini eləyə bilməz.

Yaşasın fəhlə-kəndli hakimiyyəti!

Yaşasın Naxçıvan SSR!

Yaşasın SSRİ-də yaşayan bütün xalqların həmrəyliyi!

**HƏMİD SULTANOV**

*("Bakinski raboçi", 28 iyul 1926-cı il, № 173)*

Kreml xəyalpərəstləri ideyalarının əsiri olan Həmid Sultanov, yəqin ki, Naxçıvanı böyük həvəslə cənnət guşəsi adlandırmaq istəyərdi, ancaq Naxçıvan Xalq Komissarları Sovetinin sədri təqibdən qorxduğu üçün bu siyasi zarafata əl atmağa cürət etmir. Lakin ehtiram hissi ilə qeyd edək ki, Ə. Qarayevdən və Sovet Azərbaycanın digər liderlərindən fərqli olaraq, Həmid Sultanov öz məqaləsində, bircə dəfə də olsa, Naxçıvan Respublikasını dəqiq konstitusion adı ilə – **NAXÇIVAN MUXTAR SOVET SOSİALİST RESPUBLİKASI** adlandırmışdır.

---

**SULTANOV Həmid Həsən oğlu** (1889 – 1938). 1907-ci ildən kommunist partiyasının üzvü, AKP MK-nin üzvü olmuşdur. 1920-ci il aprelin 28-ə keçən gecə Azərbaycan KP MK-nin tapşırığı ilə salonun fit və lağ sədaları altında AXC Parlamentinin tribunasına qalxmış və Hakimiyyətin dərhal sovetlərə verilməsi barədə ultimatumu oxumuşdur. Azərbaycan sovetləşdikdən sonra Azərbaycan İnqilab Komitəsinin üzvü olmuşdur. Azərbaycan SSR-in 3 №-li Qırmızı Bayraq ordeninə layiq görülmüşdür. Xalq daxili işlər komissarı və Gəncə quberniyası üzrə fövqəladə komissar, 1920-ci ilin may ayında xalq üsyanının qəddarcasına yatırılmasının təşkilatçısı, Azərbaycan SSR xalq ticarət komissarı, Naxçıvan SSR Xalq Komissarları Sovetinin sədri (1925-1929), Azərbaycan

MİK-nin katibi, Azərbaycan SSR xalq kommunal təsərrüfat komissarı olmuşdur.

M. Bğaırovun təşəbbüsü ilə 1937-ci il iyunun 10-da Həmid Sultanov xalq komissarı vəzifəsindən azad edilmiş, Azərbaycan MİK Rəyasət Heyətinin tərkibindən çıxarılmış, sonra isə həbs olunmuşdur. 1937-ci il oktyabrın 26-da mətbuatda Azərbaycan SRR-in Şamaxı rayonunda "Həmid Sultanovun rəhbərlik etdiyi əksinqilabçı, qiyamçı, casus-terrorçu, təxribatçı-ziyankar, burjua-millətçi təşkilatın" ifşa olunduğu elan edilmişdir. Bu təşkilat guya Azərbaycanda Sovet hakimiyyətini devirmək və onu SSRİ-dən ayırmaq vəzifəsini qarşısına məqsəd qoymuşdu.

1937-ci il oktyabrın əvvəlində Həmid Sultanov istintaq zamanı əksinqilabçı mərkəzin tərkibinə daxil olan şəxslərin adlarını sadalamışdır: Ruhulla Axundov, Sultan Məcid Əfəndiyev, Qəzənfər Musabəyov, Heydər Vəzirov, Dadaş Bünyadzadə, Həsən Səfərov, Əyyub Xanbudaqov; siyahının sonunda öz adını çəkməyi də unutmamışdır. İttiham hökmünə görə "iyrənc faşist muzduru, mənşə etibarı ilə bəy olan, iri mülkədar Həmid Sultanov zəhmətkeş xalqa nifrət edirdi... əclaf qatillər xalqın düz ürəyinin başını – AK(b)P MK-nin birinci katibi Mircəfər Bağırovu hədəfə almışdılar..." Vəhşi işgəncələr bu əqidəli kommunisti məhkəmədə bunu bildirməyə məcbur etmişdi:

*"Biz öz Vətənimizi satmaq kimi çirkli bir yolu, xoşbəxt və azad Azərbaycan xalqını əsarətə məhkum etmək yolunu seçdik".*

1937-ci il noyabrın 1-də Azərbaycan SSR prokuroru Həmid Sultanovun və digər müttəhimlərin güllələnməsini tələb etmişdir. Həmid Sultanov Məhkəmə Kollegiyasının qərarı ilə 1937-ci il noyabrın əvvəllərində güllələnmişdir.

---

Naxçıvan qəzasının müharibədən əvvəlki iqtisadiyyatı barədə məlumatları xatırlasaq, onda Azərbaycanda sovet hakimiyyəti qurulandan altı il sonra Naxçıvanın hələ də səfalət içində olduğunu görərik və Həmid Sultanovun, keçmiş hakimiyyətləri nə qədər pisləsə də, sovet varlığının gözəllikləri

barədə əminliyi inandırıcı deyil.

İndiyədək Naxçıvanda nəinki yeni kəhrizlər yaradılmamış, əvvəllər fəaliyyətdə olan kəhrizlərin, demək olar ki, 70 %-i bərpa olunmamışdı. İndiki hakimiyyətin Naxçıvan SSR-in yeraltı zənginliklərinə əli hələ çatmamışdı, halbuki çar hakimiyyəti dövründə bu yataqlar işlənirdi. Yalnız təvazökarlıqdan uzaq olan bolşeviklər belə bir əsassız bəyanat verə bilərdilər: *“... heç bir müsavat, daşnak və yaxud hər hansı bir şəxsi-mülkiyyətçi hakimiyyət sovet hakimiyyətinin elədiklərini eləyə bilməz”.*

Naxçıvan Muxtar Respublikası hələ xarabalıqlardan təmizlənməmiş olsa belə, onun mövcud hökumətinin başında dayandığına görə Sovet hakimiyyətinə minnətdar olan Həmid Sultanov, sanki öz xilaskarı, sonra isə qəbir qazıyanı M.Bağırovun yüksək pafoslu monoloqunu davam etdirir.

Azərbaycanın xalq daxili işlər komissarı və XKS sədrinin müavini olan, Naxçıvan MSSR-in bu qədər ağır vəziyyətə düşməsinə görə bilavasitə məsuliyyət daşıyan yoldaş Bağırov özünü qorumaq naminə, itaətkar Şərq yaltağı kimi Xüsusi Komissiyanın Məruzəsində bəyan edirdi ki, *“yoldaş Rıkovun gəlişi... Naxçıvan Respublikasının həyatında yeni epoxanın başlanğıcını qoymuşdur”.* Bu biabırçı siyasi yalanı da M. Bağırovun və Sovet Azərbaycanın o dövrkü rəhbərlərinin öz vicdanlarına buraxaq.

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının dinc həyatına həmin bu yeni ***“epoxa”*** nəinki daxil olmamış, burada onun heç işartısı da sezilməmişdi. Respublikadakı səfalət və Naxçıvanlıların özlərinin yoxsul vəziyyəti 1924-cü il fevralın 9-da Muxtar Respublika rəsmən tanındıqdan sonra da və 1926-cı ilin iyulunda Naxçıvan Respublikasının altı illik yubileyindən sonra da eyni tərzdə davam edirdi. Oxucu özü artıq buna əmin olmuşdur və bizim Sovet Naxçıvanı haqda söhbətimizin vaxt intervalını ən azı on il genişləndirsə belə yenə də buna əmin olacaqdır.

Sovet hakimiyyətinə ucqarda yerləşən Naxçıvan Muxtar Respublikasından sovet quruluşu üçün etalon – bolşevik

varlığının cənnət guşəsi yaratmaq və Naxçıvan xalqının rifahını nümunəvi şəklə salmaq müyəssər olmadı. Naxçıvan MSSR Kreml xəyalpərəstlərinin ümidini doğrultmadı: Yaxın Şərq ölkələrində inqilab alovu beləcə alışıb yanmadı. Ancaq sonu xeyirlə bitməyən şər yoxdur!

Bu gün hətta **naxçıvanlı məktəbli uşaq** belə, qədim və başı bəlalı Naxçıvan torpağında yaradıcı və çiçəklənən demokratik epoxanın haçan başladığına tərəddüdsüz cavab verər.



**Naxçıvan Muxtar Respublikasının yeni epoxası, Azərbaycan Respublikası, Azərbaycan dövlətçiliyinin memarı və xalqın sevimlisi PREZİDENT HEYDƏR ƏLİYEVİN başçılığı altında çoxdan gözlənilən müstəqilliyini elan etdikdən sonra başlamışdır.**

**Bu çoxdan arzu edilən və kompromissiz MÜSTƏQİLLİYİN öz başlanğıcını götürdüyü müqəddəs zəmin qədim Naxçıvan torpağı olmuşdur və bunu heç vaxt unutmaq lazım deyil.**



**Planet həyatının ilk dəfə cücərdiyi Qədim Naxçıvan sərt sınaqlar burulğanından keçmiş, heç vaxt tiranlar önündə diz çökməmiş və öz torpağını müdafiə edərkən ölümü ayaq üstdə qarşılamışdır. Başı çox bəlalar çəkmiş Naxçıvan bütün çətinliklərə dözmüş, öz müstəqilliyini, ənənələrinin və adətlərinin təmizliyini qoruyub saxlamışdır.**





**İndiki Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir. Ondakı çoxşaxəli yaradıcı proseslər mənəviyyatın gur şəkildə çiçəklənməsi ilə birgə gedir.**



**CƏNNƏT GUŞƏSİ –
NAXÇIVAN
MUXTAR
RESPUBLİKASI**



**TƏKCƏ ŞƏRQ
ÖLKƏLƏRİ ÜÇÜN
DEYİL,
HƏM DƏ
BÜTÜN SİVİL
DÜNYA ÜÇÜN
NÜMUNƏDİR.**



Əlavə 1

## XÜSUSİ KOMİSSİYANIN ÜZVLƏRİ HAQDA BİOQRAFİK MƏLUMATLAR: Bağırov, Qorobçenko, Dövlətov, Qarayev

**BAĞIROV Mircəfər Abbasoviç** (5 sentyabr 1896, Bakı, Quba Quberniyası –7 may 1956, Bakı).

Partiya xadimi. Təhsili ibtidaidir. Böyük Oktyabr Sosialist İnqilabına qədər, öz bioqrafik arayışında göstərdiyi kimi, Bağırov kənd müəllimi işləmişdir, ancaq bu faktın təsdiqini arayarkən qarmaqarışıqlıqdan başqa heç nəyə rast gəlmək mümkün deyil. İnqilabi hadisələrin qarmaqarışıq dövründə naməlum bioqrafiyaya malik olan Bağırov inqilabçıların sırasına soxulmağı, özünü alovlu vətənpərvər kimi göstərməyi bacarmışdır. İnqilab tufanları burulğanında, köhnə dövlət maşını dağılıb sıradan çıxarkən, şəxsiyyətin əsil kimliyini yoxlayıb üzə çıxarmaq heç də həmişə mümkün olmurdu. Həmin dövrdə Bağırov kimi avantüristlər özlərinə uğurla karyera qazanırdılar.

1917-ci ilin Fevral inqilabından sonra M.Bağırov bolşeviklərə yaxınlaşmadı, çünki o zaman onların gələcəyi hələ məlum deyildi. Əksinə, Bağırov keçmiş iri mülkədar, çar ordusunun zabiti, Quba qəzasında yüksək vəzifə tutan əksinqilabçı Əlibəy Zizikskinin etibarını qazana bildi və onun himayədarlığı sayəsində milis rəisinin köməkçisi vəzifəsinə düzəldi. Sonra isə M. Bağırov Quba şəhərinin 2-ci hissəsinin müvəqqəti komissarı, 1917-ci il mayın 10-dan isə Quba İcraiyyə Komitəsinin qərarı ilə Quba qəza komissarının köməkçisi vəzifəsini icra edir və bu vəzifəyə təsdiq olunur. Qəza komissarının köməkçisi kimi Bağırov "səyyar dəstələr" (mahiyyət etibarı ilə bandit qrupları) yaradır, bu dəstələr cəbhədən qayıdan əsgərlərdən silahları yığmaqla yanaşı, eyni zamanda əhalini amansızcasına qarət edirdilər. İtaət

etməyənləri və xoşları gəlməyənləri möhkəm döyür, öldürürdülər. Öz simasını tez-tez dəyişməyə vərdiş edən və başqasının etibarını qazanmağı bacaran Bağırov özünün bütün bu cinayətkar əməllərini sonralar inqilabi mübarizə kimi qələmə verəcək və bu çapovulçuluq zəminində özü üçün qəhrəmanlıqlar quraşdıracaq, seçilən "şahidlər" isə M.Bağırovun bu yalançı qəhrəmanlıqlarını təsdiq edəcəkdilər.

M. Bağırov guya 1917-ci ilin martında RSDF(b)P-na daxil olmuşdur, lakin bunun necə baş verdiyi və onun ümumiyyətlə RSDF(b)P-na daxil olub-olmadığı aydınlaşdırılmamışdır. Böyük Oktyabr Sosialist İnqilabından sonra, 1917-ci ilin noyabrından Mircəfər Bağırov Quba inqilab komitəsi sədrinin müavini olmuşdur. 1918 – 1920-ci illərdə orduda siyasi vəzifələrdə xidmət etmiş, 1919-cu ildə Həştərxan üsyanının yatırılmasında iştirak etmişdir. Bağırov 1920-ci ildə Qarabağ vilayətində inqilab komitəsi sədrinin müavini, Azərbaycan inqilab komitəsi Ali Tribunalının komissarı və sədri, 11-ci ordunun Hərbi Tribunalının sədr müavini olmuşdur. 1920-ci ilin fevralında Mircəfər Bağırov Azərbaycan Fövqəladə Komissiyasına başçılıq edir, 1921-ci ildə isə Azərbaycan FK-nın sədri M. Bağırovun təqdimatı ilə L.P.Beriya Azərbaycan FK sədrinin müavini təyin olunur. O vaxt M. Bağırov öz xidməti vəzifəsini risk altında qoyaraq, Beriyanın bioqrafiyasındakı siyasi kompromat barədə informasiyanın yayılmasına yol verməmişdir. Mircəfər Bağırova məlum idi ki, demokratik AXC əks-kəşfiyyat idarəsinin rəisi A. Qoqoberidzenin əmri ilə L.P.Beriya " ayda 800 rubl maaşla Abşeron yarımadası üzrə zahiri müşahidəçi vəzifəsinə təyin edilmişdir". Müsavat əks-kəşfiyyatının muzdlu agenti Lavrenti Beriyanı Mircəfər Bağırov etibarlı silahdaş və perspektivli çekist kimi dəyərləndirərək, **gənc Lavrenti Beriyanı faktiki olaraq ölüm təhlükəsindən xilas etmişdir.**

Gələcək SSRİ xalq daxili işlər komissarı və ÜK(b)P Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Sovetinin Sədr müavini, SSRİ-nin nəhəng cəza sisteminin hakimi-mütləq və

nəzarətsiz şefi L.P.Beriyanın **başgicəlləndirici karyerası** məhz Mircəfər Bağırovun qanadı altında, Azərbaycan FK-da başlamışdır.

Mircəfər Bağırov sonrakı illərdə də L.P.Beriyanın həmin sirri barədə informasiyanın heç yana sızmamasına ciddi nəzarət etmişdir. Məsələn, Bağırovun əxlaqsız əməllərindən təngə gələrək buna qarşı çıxmağa cürət edən "Azərbalıq" cəmiyyəti İdarə Heyətinin sədri Baba Əliyev uydurma böhtançı ittihamlar əsasında güllələnmişdir. Beriyanı ifşa etməklə hədələyən digər şəxslər də aradan götürülmüşdür. Partiya orqanlarının müdaxiləsindən sonra Bağırov, axır ki, Beriyanı Azərbaycan FK-dakı vəzifəsindən uzaqlaşdırmaq məcburiyyətində qalmışdır; həm də bu zaman ona xəbərdarlıq edilmiş və FK orqanlarında işləmək qadağan olunmuşdur. Bununla belə, Bağırov yaxın adamı kimi ona gözəl xarakteristika verərək Gürcüstan FK-da işə götürülməsini tövsiyə etmək məsuliyyətini öz boynuna götürmüşdür. İ.V.Stalinlə tanış olandan sonra Beriyanın mövqeyi möhkəmlənir və o, tədricən öz himayədarını – Bağırovu vəzifə iyerarxiyasında ötüb keçir. Bundan sonra isə artıq Beriya Bağırova hər cür yardım göstərir. Demək olar ki, 15 il ərzində Bağırov "Beriyanın adamı" hesab olunmuşdur.

Heç şübhəsiz Mircəfər Bağırovla Lavrenti Beriya eyni xəmirdən yoğrulmuşdular və onların "dostluğu" qarşılıqlı şəkildə öz keçmişlərini, cinayət əməllərində iştiraklarını gizli saxlamağa, yəni cinayətkar aləmə xas birliyə əsaslanırdı. (Lakin, gələcək M. Bağırovun L.P. Beriyaya qarşı da xainlik edəcəyini göstərəcəkdir).

Bağırov 1922 – 1927-ci illərdə Azərbaycan Baş Siyasi İdarəsinin sədri, sonra xalq daxili işlər komissarı və Azərbaycan XKS-nin sədr müavini olmuşdur. 1924-cü ildə Baş Siyasi İdarə orqanlarında istintaq zamanı zorakılıq tətbiq edildiyinə görə Ə, Qarayevin sədrlik etdiyi AK(b)P MK Katibliyinin 7 may 1927-ci il tarixli qərarı ilə Bağırov Azərbaycan Baş Siyasi İdarəsinin rəhbərliyindən azad edilmişdir. 1928-ci

ildə Bağırov revanş götürməyə çalışaraq, AKP MK-nə və ÜK(b)P MNK-nə ərizə yazmışdır. Aşağıda AK(b)P MK Rəyasət Heyətinin iclas protokolunun mətnini veririk.

"TAMAMİLƏ MƏXFİDİR"

**AK(b)P MK RƏYASƏT HEYƏTİNİN İCLASININ**
**14 №-li PROTOKOLU**
26 mart 1928-ci il

İŞTİRAK ETDİLƏR: MK Rəyasət Heyətinin üzvləri: **Ağamalıoğlu, Ağaverdiyev, R. Axundov, Bünyadzadə, Qarayev, Y. Qasımov, Konuşein, L. Mirzoyan, Musabəyov, O. Əfəndiyev, N. Rizayev, Axundzadə** yoldaşlar.

AK(b)P MNK-dan: **Pleşşakov, Dövlətov,** MK-nin şöbə müdirləri, həmçinin aparıcı qəzetlərin üç redaktoru.

Sədr: **yoldaş Ə. Qarayev**

DİNLƏNİLDİ:

Yoldaş Bağırovun AK(b)P MK-nin, ÜK(b)P ZNK-nın adına ərizəsi (yoldaş Qarayev)

QƏRARA ALINDI:

a) AK(b)P MK-nin Rəyasət Heyəti yoldaş Bağırovun AK(b)P MK-nin, ÜK(b)P ZNK-nın adına ərizəsini həm ahəngi, həm də məzmunu etibarı ilə yolverilməz və Azərbaycan MK-ə qarşı tamamilə əsassız hücum hesab edir.

b) MK-nin Rəyasət Heyəti yoldaş Bağırov tərəfindən həm bütövlükdə Azərbaycan Baş Siyasi İdarəsinin, – bu idarənin işinə bütövlüklə və tam şəkildə AK(b)P MK cavabdehdir, – həm də onun ayrı-ayrı işçilərinin ünvanına söylədiyi ağır ittihamlardan yan keçməyi mümkün hesab etmir.

AK(b)P MK İdarə Heyətinin iclasında qeyd olunur ki, Bağırovun ərizəsi öz mahiyyəti etibarı ilə yoldaş Bağırov tərəfindən son vaxtlar Azərbaycan Baş Siyasi İdarəsinə qarşı aparılan intriqa və çəkişmələrin davamıdır. Buna görə də MK-nin Rəyasət Heyəti yoldaş Bağırovun ərizəsi ilə əlaqədar ÜK(b)P ZNK-nın Rəyasət Heyətində yoldaş Bağırovu qayda-qanuna riayət etməyə və Azərbaycan Baş Siyasi İdarəsi ətrafında çəkişmələrə son qoymağa dəvət olunması barədə məsələ qaldırılmasını zəruri hesab edir.

*(РГАСПИ, ф. 17, оп. 17, д. 24, л. 111)*

1927 – 1929-cu illərdə Zaqafqaziya Federasiyası hakimiyyət orqanlarının himayədarlığı ilə Bağırov özü üçün xarakterik olmayan Zaqafqaziya Su Təsərrüfatı İdarəsinin, sonra isə Zaqafqaziya Kənd İttifaqı İdarə Heyətinin sədri (Tiflis şəhəri) vəzifələrini daşımış, daha sonra ÜK(b)P MK-nin sərəncamına çağrılmışdır.

1929-cu ilin sentyabrında İ.V.Stalinin təşəbbüsü və ÜK(b)P MK Siyasi Bürosunun tövsiyəsi ilə Bağırov Bakıya, Azərbaycan Baş Siyasi İdarəsinin sədri vəzifəsinə qaytarılmış, eyni zamanda ona, bu idarədə 1924-cü ildəki iş üsulu təkrar olunduğu təqdirdə şəxsən məsuliyyət daşıyacağı barədə xəbərdarlıq edilmişdi. Ancaq bu, rəhbərin məlum hiyləgərliyinin bir təzahürü olmaqdan başqa heç bir şey deyildi. İ.V. Stalinin iradəsinə uyğun olaraq Bağırov uzun illər Azərbaycanın cəza orqanlarının, sonra isə respublika rəhbərliyinin sükanı arxasında dayanmalı oldu. 1930-cu ilin yayınadək Azərbaycan Baş Siyasi İdarəsinə rəhbərlik etdi. Elə həmin il, çox güman ki, Bağırovun fitnəkarlığı sayəsində, Azərbaycan partiya təşkilatının rəhbərliyində qeyri-sağlam şərait yarandı və ÜK(b)P MK-nin Siyasi Bürosu iki dəfə (20 iyul və 3 avqust 1930-cu il tarixlərində) "Azərbaycanda partiyadaxili vəziyyət haqqında" məsələni nəzərdən keçirdi.

Qərarda qeyd olunurdu: "Aktivin yuxarı təbəqəsində yayılan dedi-qodular, prinsipsiz qruplaşmalar, bir-birini qarşılıqlı izləmələr təşkilatın sıralarını pozur və partiya-sovet və təsərrüfat-kooperativ orqanlarının müsbət işinə mənfi təsir göstərir". Azərbaycanın partiya rəhbərliyi ciddi sarsıntıya məruz qaldı, Bağırov isə yüngülcə silkələnməklə yaxasını qurtardı. Və yenə də İ. V. Stalinin iradəsi ilə Moskvaya təhsil almağa çağırıldı.

1930 – 32-ci illərdə Bağırov ÜK(b)P MK yanında marksizm-leninizm kurslarının dinləyicisi, sonra isə ÜK(b)P MK-nin məsul təlimatçısı olur.

1932-ci ilin sonunda Bağırov Azərbaycan XKS-nin

sədri təyin edilir, 1933-cü ildən isə Azərbaycan KP MK-nin və Bakı şəhər partiya komitəsinin birinci katibi vəzifəsini tutaraq, 23 il fasiləsiz Sovet Azərbaycanın mütləq hakimi olur. 1934-cü ildə MK üzvlüyünə namizəd, 1939 –1953-cü illərdə isə onun üzvü olur. 1937-ci ildən SSRİ Ali Sovetinin deputatı, Böyük Vətən Müharibəsi dövründə isə Zaqafqaziya cəbhəsinin Hərbi Şurasının üzvü olmuşdur. Bakıda Bağırovu "ağa" adlandırırdılar.

İ.V. Stalinin və L.P. Beriyanın köməyi ilə Azərbaycanda hakimiyyət sükanının arxasına keçən Bağırov Oktyabr inqilabını hazırlayıb həyata keçirən, bu inqilab tərəfindən partiya, sovet, həmkarlar ittifaqları və xalq komissarlıqlarının rəhbərliyinə gətirilən şəxsiyyətləri bir-bir məhv etdi. Bağırovun rəhbərliyi altında təxribatlar törədilir, ittihamlar uydurulur, bir-birinin ardınca qapalı məhkəmə prosesləri keçirilirdi. Əslində tərkibində M. Bağırovun şəxsən özünün də hökmən iştirak etdiyi məşhur "üçlüyün" Xüsusi müşavirələri məhkəmə prosesi adı ilə təqdim olunurdu.

Bağırovun ilk qurbanları Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizənin ən fəal iştirakçıları oldu: Q. Musabəyov, D. Bünyadzadə, H. Sultanov, S. M. Əfəndiyev, M. Pleşşakov, R.Axundov, M. Hüseynov, M. Nikişin, İ. Ulyanov, H. Vəzirov, İ.Dövlətov, U. Rəhmanov, İ. Anaşkin və digər görkəmli kommunistlər. Kütləvi repressiyaların qaynar çağı 1936 – 1938-ci illərdə baş verdi və Böyük Vətən Müharibəsi dövründə və ondan sonra da davam etdi.

İ.V. Stalinin ölümündən sonra 1953-cü il martın 6-da Bağırov, Azərbaycan SSR-də hakimiyyəti öz əlində saxlamaqla, Sov. İKP MK-nin Rəyasət Heyətinə üzvlüyə namizəd seçildi.

Beriyanın həbsindən sonra Bağırov onu satmağa tələsdi. Sov.İKP MK-nin 1953-cü ildə keçirilən İyul Plenumunda çıxış edərkən Bağırov bildirdi ki:

*"Beriya – buqələmundur, o bizim partiyamızın, xalqımızın ən qatı düşmənidir..."*

Ancaq bu alçaqcasına satqınlığı Bağırovu xilas etmədi, elə həmin Plenumda onun özünü L.P. Beriyanın himayədarlığından və öz vəzifəsindən qəsdən sui-istifadə etməkdə ittiham etdilər.

1953-cü il iyulun 7-də Bağırov Sov. İKP Rəyasət Heyəti və MK-nin tərkibindən xaric edildi və Azərbaycan KP MK-nin birinci katibi vəzifəsindən çıxarıldı. 1954-cü ilin oktyabrında Bağırov onun üçün əhəmiyyətsiz bir vəzifəyə – "Kuybışevneft" birliyi rəisinin kadrlar üzrə müavini vəzifəsinə göndərildi.

1954-cü il martın 13-də Bağırov Sov. İKP sıralarından xaric olunaraq həbs edildi.

1956-cı il aprelin 12-dən 26-dək Bakıda, Dzerjinski adına klubda, ədliyyə general-leytenantı A. Çeptsovun sədrliyi altında keçirilən məhkəmə prosesində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası M. Bağırov və onun yoldaşlarının cinayətlərini araşdırdı. Əsas ittihamçı SSRİ-nin baş prokuroru, əvvəllər Nürnberq prosesində SSRİ tərəfindən ittihamçı kimi çıxış edən Rudenko idi. Çoxsaylı cinayətlərə, – onların hamısını bir ifadə ilə ümumiləşdirsək – *"sosialist qanunçuluğunu pozduğuna"* görə M. Bağırov 1956-cı il mayın 7-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən ölüm cəzasına məhkum olundu.

Bağırovun əfv barədə xahişi rədd edildi.

**Mircəfər Abbasoviç Bağırov 1956-cı il mayın 7-də Bakı şəhərində güllələndi. Allahın iradəsi ilə, saysız-hesabsız günahlarına görə haqlı cəzasını aldı.**

---

**QOROBÇENKO STEPAN İVANOVİÇ,** 46 yaşında, rus, 1900-cü ildən ÜK(b)P-nin üzvü, fəhlə-çilingər, ibtidai təhsilli.

1920-ci ildən başlayaraq Sovet Azərbaycanında bir sıra iri miqyaslı dövlət və partiya vəzifələrində – Ali Tribunal sədrinin müavini, xalq ədliyyə komissarının müavini vəzifələrində olmuş, ÜK(b)P-nin Zaqafqaziya

Diyar Komitəsi Nəzarət Komissiyasının və AK(b)P MK-nın rəyasət heyətlərinə üzv seçilmişdir.

Hələ Azərbaycan Ali Tribunalında xidmət etdiyi vaxtlarda Birinci Böyük Rus İnqilabı dövrünün partiyaçılarından olan itaətkar və zirək bolşevik Bağırovun diqqətini cəlb etmişdi. Məlum olduğu kimi Xüsusi Komissiyada birgə uğurlu işdən sonra Bağırov Stepan Qorobçenkonun etibarlı olduğuna inandı və Azərbaycan FQ sədri Sovet Azərbaycanının Baş Siyasi İdarəsini möhkəmlətməyi qərara aldı. M.Bağırovun təqdimatına əsasən elə həmin 1925-ci ildə S.İ.Qorobçenko Azərbaycan Baş Siyasi İdarəsi sədrinin müavini təsdiq edildi və o, eyni zamanda ÜK(b)P-nin Zaqafqaziya Diyar Komitəsi Nəzarət Komissiyasının və AK(b)P MK-nın rəyasət heyətlərində əvvəlki vəzifələrini də özündə saxladı.

İki ildən sonra Azərbaycan Baş Siyasi İdarəsi sədrinin müavini S.İ.Qorobçenkonun nəinki sərxoşun, həm də qatı banditin biri olduğu üzə çıxdı.

## ÜK(b)P-NIN ZAQAFQAZİYA DİYAR NƏZARƏT KOMİSSİYASININ MƏXFİ İSTİNTAQ MATERİALLARINDAN

1927-ci il iyunun 30-dan iyulun 1-ə keçən gecə Azərbaycan Baş Siyasi İdarəsi binasından çıxarkən Azərbaycan BSİ-nin sədr müavini **QOROBÇENKO Stepan İvanoviç** və onun yoldaşı, Azərbaycan BSİ-nin Məxfi-əməliyyat hissəsinin rəisi **MOROZ Yakov (İOSEM) Moiseyeviç** Mərkəzi Fəhlə Kooperativinin pivəxanasına girmiş, orada pivə, ancaq daha çox araq içmişlər.

Pivəxanadan çıxarkən sərxoş çekistlər Bakı fəhlələri olan 3 nəfərlik qrupla rastlaşmışlar. Çekistlərlə fəhlələr arasında baş verən söyüşmə nəticəsində fəhlələrdən biri, Rəhim Sultanov butulka ilə Qorobçenkonun başına zərbə vurmuşdur. Qorobçenko ilə Moroz Sultanovla dostlarını tutub Azərbaycan Baş Siyasi İdarəsinə gətirərək, onları Azərbaycan BSİ işçilərinə hücumda ittiham etmişlər. Saxlanılanlar burada ölümcül şəkildə döyülmüşlər. Elə həmin gecə Qorobçenko FK-dan çıxmadan Sultanovu şəxsən güllələmiş, digər iki fəhləni isə qanunsuz şəkildə iki ay BSİ-də həbsdə saxlayaraq, işgəncə yolu ilə

onları yalan ifadə verməyə məcbur etmişlər.

İstintaq materialları əsasında belə güman etmək olar ki, Sultanovun butulka ilə Qorobçenkonun başına zərbə vurması məcburi, çox güman ki, özünümüdafiə xarakteri daşımışdır.

Azərbaycan Hakimiyyət orqanlarının və M. Bağırovun şəxsində Azərbaycan FK-nın Rəhim Sultanovun düşüncəsiz şəkildə güllələnməsi ilə rüsvayçı bir işi ictimaiyyətdən gizləmək cəhdləri baş tutmamışdır. Çekistlərin Bakı fəhlələrinə divan tutmaları ilə bağlı məhkəmə işi bütün Azərbaycanda geniş yayılmış, hətta Moskvaya gedib çatmışdır.

ÜK(b)P-nın Zaqafqaziya Nəzarət Komissiyası AK(b)P MK-nə Mircəfər Bağırovun rəhbərlik etdiyi Azərbaycan BSİ əməkdaşlarının cinayətkar əməlləri barədə materialları Azərbaycan partiya üzvləri arasında yaymağı bir vəzifə kimi tapşırmışdır.

AKP-nın üzvləri Azərbaycan BSİ əməkdaşlarının cinayətkar əməllərindən yalnız 1929-cu ildə xəbər tutdular.

“MƏXFİ”

## AZƏRBAYCAN K(b)P MK-nın 25 may 1929-cu il tarixli QAPALI MƏLUMAT MƏKTUBUNDAN

AZƏRBAYCAN KP-NIN QAPALI
İCLASLARINDA MÜZAKİRƏ EDİLMƏLİDİR

Əziz yoldaşlar!

1927-ci ilin yayında başda **QOROBÇENKO** və **MOROZ** olmaqla bir qrup çekist küçədə **QOROBÇENKONUN** başına butulka vuran **SULTANOV** soyadlı dinc bir vətəndaşı məhkəməsiz, istintaqsız və MK-nin sanksiyası olmadan güllələmişlər. Tamamilə heç bir günahı olmayan insanları – **SULTANOV QOROBÇENKONUN** başına zərbə vurarkən onun yanında olan yoldaşlarını (biri partiya üzvü, digəri komsomolçu) həbsxanaya salmış və bir neçə ay orada saxlamışlar. Bütün bunlardan sonra, MK-yə gəlib bu cinayət barədə bütün həqiqəti danışmaq əvəzinə, BSİ-nin bu sabiq işçiləri həmin işi partiya orqanlarından gizlətmişlər.

**MOROZ** və **QOROBÇENKO** AK(b)P MK qarşısında güllələnən Sultanovu köhnə quldur, residivist və cinayət axtarışı şöbəsində dəfələrlə qeydiyyata düşən xuliqan kimi təsvir etmiş, həbs olunmağa və güllələnməyə layiq olduğunu bildirmişlər. Öz bənzərsiz, çirkin və murdar əməllərinin izini müvafiq orqanlardan gizlətmək üçün **MOROZ** və **QOROBÇENKO** daha iyrənc, BSİ orqanları üçün yolverilməz bir üsula – güllələnən SULTANOVUN işinə dair saxta dindirmə və istintaq

protokolları tərtib etməyə əl atmışlar. Həm də bu protokolları iki ildən sonra, işin üstünün açıldığı, Zaqafqaziya BSİ-nin bu cinayəti araşdırmağa başladığı onlara məlum olanda tərtib etmişlər.

İnqilabi həssaslığını itirən, proletar ölkəsinin maraqlarını unudan, özlərini cəzasız hiss edən bu insanlar belə bir cinayət törətmişlər...

**AK(b)P MK-nın RƏYASƏT HEYƏTİ**

*(РГАСПИ, ф. 157, оп. 5, д. 125, л. 5-9)*

"MƏXFİ"

## ÜK(B)P ZAQAFQAZIYA DİYAR KOMİTƏSİ VƏ ÜK(B)P ZAQAFQAZİYA DİYAR NƏZARƏT KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN QAPALI MƏKTUBUNDAN

"ÜK(b)P Zaqafqaziya Diyar Komitəsi və ÜK(b)P Zaqafqaziya Diyar Nəzarət Komissiyasının Rəyasət Heyəti son tədbiri, habelə AK(b)P MK-nın Azərbaycan BSİ-nin işi ilə bağlı məktubunu bəyənir. Bununla yanaşı, Zaqafqaziya Diyar Komitəsinin Rəyasət Heyəti qeyd edir ki, AK(b)P MK və MNK-nın rəyasət heyətləri kobud siyasi səhvə yol vermişlər, belə ki, bu iş meydana çıxanda (1927) dərhal onun ətraflı araşdırması və detallı şəkildə öyrənməsi üçün heç bir tədbir görməmiş, Zaqafqaziya BSİ tərəfindən bu barədə məsələ qaldırıldığı anda (1929) isə **MOROZ, QOROBÇENKO** və bu işin digər iştirakçılarını müdafiə etmək kimi açıq-aşkar düzgün olmayan xətt tutmuşlar (AKP MK, MNK VƏ BK rəyasət heyətlərinin birgə iclasının Azərbaycan BSİ və s. bağlı iş üzrə həbs edilənlərin hamısının əfv olunması və tamamilə azad edilməsi xahişi ilə əlaqədar 1929-cu il 23 fevral tarixli qətnaməsi).

Azərbaycan BSİ ilə bağlı iş təkcə partiya təşkilatının xırda bir şəbəkəsinin çürüməsi deyil, bizim sovet aparatının mühüm və məsul orqanında **yaranmış irinli bir yaradır** (məktub müəllifləri tərəfindən seçilmişdir – R.İ.) və bu da heç şübhəsiz, Azərbaycanın partiya rəhbərliyinin, inqilabın bu müdafiə orqanına qeyri-həssas və diqqətsiz münasibət bəslədiyinə dəlalət edir.

AK(b)P MK və MNK-nın Rəyasət Heyətinin yuxarıda göstərilən səhvi, həm də bundan ibarətdir ki, onlar Azərbaycan BSİ rəhbərlərinə həddən artıq etibar etmiş və hətta bu şəxslərə onların özünü belə aldatmağa imkan vermişdir, nəticədə onlar, istintaqın da göstərdiyi kimi, tamamilə çürümüş (saxta sənədlər tərtib edən, alverlə məşğul olan, pul paylayan və s.) bir orqana çevrilən Azərbaycan BSİ-nin sağlamlaşdırılması üçün vaxtında və qəti tədbirlər görə bilməmişlər.

Buna görə də ÜK(b)P Zaqafqaziya Diyar Komitəsi və ÜK(b)P Zaqafqaziya Diyar Nəzarət Komissiyasının Rəyasət Heyəti AK(b)P

MK-ə tövsiyə edir ki, nəzərdə tutduqları tədbirləri həyata keçirmək məqsədilə, özünütənqidi daha genişləndirmək əsasında, Azərbaycan BSİ ilə bağlı işin üzə çıxardığı bu cür dağıdıcı, simasını itirmiş və çürümüş ünsürlərin vaxtında üzə çıxarılması və qarşısının alınmasını təmin edən şəraitin yaranması üçün bütün tədbirləri görsün.

Yuxarıda verilən sənədlər yayılandan sonra Azərbaycan BSİ-nin sədr müavini **S. İ. QOROBÇENKO** törətdiyi cinayətlərə görə bütün vəzifələrdən məhrum edilmiş və ÜK(b)P sıralarından qovulmuşdur, lakin partiya və Sovet hakimiyyəti qarşısında əvvəlki xidmətləri onu həbsxanaya düşməkdən xilas etmişdir.

*(РГАСПИ, ф. 17, оп. 23, д. 25, л. 72)*

ÜK(b)P-də olan quldur S.İ. Qorobçenkonun sonrakı taleyini aydınlaşdırmağa həvəsimiz qalmadığı üçün qoy oxucu bizi bağışlasın. Bu adamdan imrənməyim və iyrənməyim buna əngəl oldu. M. Bağırovun əyyaş və cinayətkar Stepan Qorobçenkonu AKP və Azərbaycan hökumətinin Xüsusi Komissiyasının tərkibinə daxil etməsində təəccüb doğuracaq heç nə yoxdur. Xalqda deyildiyi ki, su axar, çuxurunu tapar.

---

**DÖVLƏTOV İsay İvanoviç (1887 – 1938),** Şuşada doğulub, ermənidir, kustar dərzi oğludur, ibtidai təhsilli olmuşdur, 1904-cü ildən Erməni Sosial-Demokrat partiyasına yaxınlaşmış, 1906-cı ildən AK(b)P-nın üzvü olmuşdur, orduda xidmət etməmişdir. 1907 – 1909-cu illərdə Bakının Bibi-Heybət rayonunda təbliğatçılıq və təşviqatçılıq etmiş, lakin polis tərəfindən təqib olunduğu üçün Bakını tərk etmək məcburiyyətində qalmışdır. 1910-cu ildə yenidən Bakıya qayıdaraq Balaxanı neft mədənlərinin birində kitabxanaçı işləmiş, eyni zamanda partiya fəaliyyətində iştirak etmişdir. Bolşeviklər partiyasının Bakı komitəsinin üzvü seçilmişdir. 1914-cü ildə İ.İ.Dövlətov Bakıda ümumi siyasi tətil keçirilməsi üzrə tətil komitəsinin üzvü olmuşdur. 1914-cü ilin mayında həbs edilmiş və beş ay həbsxanada yatdıqdan sonra Sibirə – Narım Diyarına sürgün edilmişdir; o vaxt SSRİ Xalq

Komissarları Sovetinin gələcək sədri, V. İ. Leninin yaxın silahdaşı A.İ.Rıkov da buraya sürgün olunmuşdu. Onlar bir yerdə Narımda üç il sürgünlük həyatı yaşamışlar.

1917-ci ilin ortalarında İ.İ.Dövlətov Bakıya qayıdaraq Azərbaycanda sovet hakimiyyətinin qurulması uğrunda mübarizəyə qoşulmuşdur. Azərbaycan sovetləşdikdən sonra Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasında işləmişdir. 1920-ci ilin noyabrında Ermənistan İnqilab Komitəsinə üzv təyin olunmuş, həmin ilin dekabrından 1923-cü ilin mayına qədər Sovet Ermənistanının xalq daxili işlər komissarı olmuş, sonra Bakıya Fəhlə-Kəndli Müfəttişliyi xalq komissarının müavini vəzifəsinə göndərilmişdir.

Dövlətov dəfələrlə AK(b)P MK-nə üzv seçilmiş, çox sayda partiya qurultayları və konfranslarının işində iştirak etmişdir.

M. Bağırovun sədrlik etdiyi Xüsusi Komissiyada işləyərkən İ.İ.Dövlətov Azərbaycan Fəhlə-Kəndli Müfəttişliyi xalq komissarının müavini vəzifəsində olmuşdur. Naxçıvan MSSR-in təhqiqindən sonra o, hansısa səhvlərinə görə vəzifəsindən azad edilmiş, ancaq AKP MNK-nın partiya kollegiyasının məsul katibi kimi nomenklatura vəzifəsində saxlanmışdır. ÜK(b)P-nın XV qurultayına (2 – 19 dekabr 1927-ci il) nümayəndə seçilmişdir. 1929-cu ildə Azərbaycan Kommunist Partiyasının IX qurultayında İ.İ.Dövlətov AK(b)P MK-nin tərkibinə seçilir və Azərbaycan SRR MİK-nin sədr müavini təyin olunur.

1929-cu ilin iyulunda, MNK-na partiya yoxlaması gələndə, o, İ.İ.Dövlətovun qatı əyyaş, ətrafında cinayət aləmindən müxtəlif əclafların toplaşdığı şübhəli şəxs olduğunu üzə çıxardı. Lenin məktəbinin partiyaçılarına partiya üzvü adını ləkələməmək üçün ona güzəştə gedirdilər. Keçmiş xidmətlərini nəzərə alaraq, mənəviyyatsız bolşevik Dövlətovu da məhkəmə mühakiməsinə cəlb etmədilər, yalnız partiyadan çıxardılar.

ÜK(b)P MNK-nın 1929-cu il sentyabrın 27-də Yemelyan Yaroslavskinin sədrliyi altında keçirilən partiya kollegiyasında belə bir qətnamə qəbul olundu: *"1907-ci ildən ÜK(b)P-nin üzvü,*

*AK(b)P MKN-nın partiya kollegiyasının sabiq katibi DÖVLƏTOV nəinki pozucu ünsürlərlə mübarizə aparmamış, özü pozulmuş və öz mənzilini əyyaşlıq guşəsinə çevirmişdir. Partiya sıralarından xaric edilsin".*

*(РГАСПИ, ф. 613, оп. 1, д. 90)*

Bolşeviklər qarşısında keçmiş xidmətləri onu xilas etmiş və İ.İ.Dövlətov tezliklə ÜK(b)P sıralarına bərpa olunmuşdur. Onun sonuncu vəzifəsi Azərbaycan Xalq Komissarları Soveti nəzdində Dövlət Arbitrajının baş arbitrajı vəzifəsi olmuşdur.

30-cu illərdə, SSRİ-ni trotskiçi-zinovyevçilərə qarşı mübarizə dalğası bürüyəndə bu dalğa Azərbaycandan da yan keçmədi.

M.Bağırovun keçmiş silahdaşları "xalq düşməni" çıxdılar. Onların arasında İ.İ.Dövlətov da var idi.

1937-ci il iyunun 12-də, Moskvada Tuxaçevski və digər görkəmli sərkərdələr üzərində məhkəmə prosesi davam edərkən, M. Bağırovun Azərbaycan Kommunist Partiyasının XIII qurultayında məruzəsinin mətni dərc olundu. Məruzədə deyilirdi:

*"... Dövlətov Əfəndiyevdən, Qədirlidən və digərlərindən heç nə ilə fərqlənmirdi...*

*İndi müəyyən edilmiş hesab etmək olar ki, millətçi-təmayülçülər darmadağın edilmiş əksinqilabçı Azərbaycan burjuaziyasının arzularını əks etdirərək, trotskiçi-buxarinçi, müsavatçı və digər faşist ünsürlərlə birləşmiş, qəti şəkildə xain, satqın və Azərbaycan xalqının qatı düşməninə çevrilmişlər".*

1937-ci il iyunun 12-də Dövlətov həbs edildi.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası 1938-ci il aprelin 21-də İ.İ.Dövlətovu ən ağır cəzaya məhkum etdi və elə həmin gün də onu güllələdilər.

1955-ci ildə İ.İ.Dövlətova bəraət verilmişdir.

*(Активные борцы за Советскую власть*
*в Азербайджане. Баку, 1957, с.с. 199-200*
*АП РФ, ф. 3, оп. 24, д. 416, л. 9)*

**QARAYEV Əliheydər Ağakərim oğlu** (1896 – 21 aprel 1938-ci il Moskva şəhəri).

Kommunist partiyasının və Sovet dövlətinin görkəmli xadimi. Fevral inqilabından sonra Şamaxı fəhlə və əsgər deputatları sovetinin sədri, Bakı fəhlə konfransının sədri, həmin konfransın "İzvestiya" qəzetinin redaktoru olmuşdur. 1917-ci ilin iyununda Zaqafqaziya kəndli deputatları qurultayında Kəndli Deputatlar İttifaqının Diyar İcraiyyə Komitəsinə üzv seçilmişdir.

1918-ci ilin dekabrından "Hümmət" fraksiyasından Azərbaycan Parlamentinin üzvü, 1919-cu ilin sentyabrından isə RK(b)P-nın üzvü olmuşdur. Petroqradda keçirilən 1-ci Ümumrusiya Sovetlər Qurultayının işində iştirak etmişdir. 1920-ci ilin fevralında AK(b)P-nın 1-ci qurultayında AKP MK-nin üzvü seçilmişdir. 1920-ci il aprelin 27-də Azərbaycan Hərbi İnqilab Komitəsinin tərkibinə daxil olmuş, Bakıda İnqilab Komitəsinin sədri, sonra Azərbaycan SSR-in xalq əmək komissarı, xalq ədliyyə komissarı, hərbi və dəniz işləri üzrə xalq komissarı vəzifələrini yerinə yetirmişdir. 1920-ci il noyabrın 14-dən 1921-ci il mayın 29-a qədər olan dövrdə 11-ci Qırmızı Ordunun Hərbi İnqilab Şurasının üzvü olmuşdur. 1922-ci ildə Gürcüstanda menşevik hökumətinin devrilməsi ilə bağlı hərbi əməliyyatlarda Azərbaycan XKS-nin Xüsusi təyinatlı hərbi hissələrinə komandirlik etmişdir.

1924-cü il fevralın 2-dən 1925-ci il noyabrın 21-dək olan dövrdə SSRİ Hərbi İnqilab Şurasının üzvü, 1923 – 1929-cu illərdə isə AK(b)P MK-nin birinci katibi olmuşdur. 1925-ci ilin mart-aprel aylarında Naxçıvan MSSR-in təhqiqi üzrə Xüsusi Komissiyanın tərkibində işləmişdir.

1929 – 1930-cu illərdə AK(b)P MK-nin ikinci katibi, sonra ÜK(b)P Zaqafqaziya Diyar Komitəsinin ikinci katibi, eyni zamanda 1927-ci ilin dekabrından 1929-cu ilin iyununadək ÜK(b)P MNK-nin üzvü, AK(b)P Gəncə Dairə Komi-

təsinin katibi olmuşdur.

Ə. Qarayev M. Bağırovun 1927-ci ildə Azərbaycan BSİ-nin sədri vəzifəsindən kənarlaşdırılmasında, onun 1928-ci ildə Azərbaycan BSİ-ə qarşı intriqalar törətməkdə ittiham olunmasında, 1929-cu ildə marksizm-leninizm kurslarında təhsil almağa göndərilmək adı altında Azərbaycandan qovulmasında başlıca rol oynamışdır.

Ə. Qarayev 1931 –1932-ci illərdə Moskva şəhərində Qırmızı Professorlar İnstitutunda təhsil almış, 1932 – 1937-ci illər ərzində Kommunist İnternasionalı İcraiyyə Komitəsində çalışmış, eyni zamanda ÜK(b)P MK nəzdində Partiya Kadrları İnstitutunun qiyabi şöbəsində müəllimlik etmişdir. Azərbaycanda hakimi-mütləq olan Bağırovun bu dövrdə əli çox uzun idi. Əvvəl Tiflisdə, sonra isə Moskvada XDİK-da Beriya kimi sadiq havadarı olan Bağırov öz düşmənlərini, hətta respublikadan kənarda olanları belə "axtarıb tapırdı". Onlardan biri də Ə.Qarayev idi. Hələ 1936-cı ildə M.Bağırov o vaxt Qırmızı Professorlar İnstitutunda çalışan Ə.Qarayevin vaxtilə Tiflisin *"Hümmət"* təşkilatına qısa müddətə üzv olduğunu guya gizlətdiyinə və *"Yaxın keçmişdən"* adlı kitabını çap etdirdiyinə görə məsuliyyətə cəlb olunması barədə N.Yejova məktub göndərmişdi.

1937-ci il yanvarın 4-də "Bakinski raboçi" qəzetinin dərc etdiyi "Susa bilməyəcəksiniz!" məqaləsində Ə.Qarayev alçaldıcı təhqirlərə məruz qalır, bolşevik partiyasına qarşı mübarizə aparmaqda, "inqilabı boğmaq istəyənlərlə və ən qatı xalq düşmənləri ilə" əlaqələrini gizlətməkdə ittiham olunur. Məqalə belə bir sualla bitir: *"Öz əksinqilabçı keçmişini gizlədən bu ikiüzlü riyakar Lenin – Stalin partiyasında qala bilərmi?"* Dörd gündən sonra 1937-ci il yanvarın 9-da AK(b)P MK ÜK(b)P MK-nın Təbliğat və təşviqat, Mətbuat və nəşriyyat şöbələrinə, ÜK(b)P MK nəzdində KQTİ-nın (Kütləvi Qiyabi Təlim İnstitutu), Böyük Sovet Ensiklopediyası Baş redaksiyasının direktoru və partiya komitəsi katiblərinin ünvanlarına məktub göndərir və həmin materialları da

onlara əlavə edir. Bu məktubların məzmununda prinsipial olaraq yeni heç nə yoxdur. Onlarda "Yaxın keçmişdən" kitabının müəllifi ilə bağlı ittihamlar təkrar olunur: öz əksinqilabçı menşevik kimliyini gizlətmək, AK(b)P-nın və Zaqafqaziyanın bolşevik təşkilatlarının tarixini saxtalaşdırmaq və menşevikcəsinə təhrif etmək. Lakin əsas diqqət buna yönəldilirdi ki, Ə.Qarayev *"partiyamızın rəhbəri və Zaqafqaziya bolşevik təşkilatlarının banisi yoldaş Stalinin Bakı və Azərbaycan partiya təşkilatlarının yaradılması və onlara rəhbərlik işində böyük rolu barədə tamamilə susur"*. *"Təsadüfi deyil ki,* – məktub müəllifləri xüsusilə qeyd edirlər, – *Qarayev özünün 133 səhifəlik kitabında yoldaş Stalinin adını bir dəfə də olsun xatırlatmır".*

İnstitutun kollektivi və partiya komitəsi Qarayevi müdafiə edə bilirlər. Bundan əlavə, 1937-ci il fevralın 3-də ÜK(b)P MK nəzdindəki Partiya Nəzarəti Komitəsi Ə.Qarayevə qarşı irəli sürülən ittihamları nəzərdən keçirərək qərara alır: *"Hesab edilsin ki, Yoldaş Qarayevi öz keçmişini gizlətməkdə ittiham etmək üçün əsas yoxdur, çünki o, "Hümmət" menşevik təşkilatında (Tiflis) olduğunu öz avtobioqrafiyasında göstərmişdir".*

Bir aydan sonra Əliheydər Qarayev məktubla İ.V.Stalinə müraciət edir: *"Əziz İosif Vissarionoviç! Kömək üçün Sizə müraciət etmək məcburiyyətində qalmışam və dərindən əminəm ki, mənə kömək edəcəksiniz. Az qala iki ildir ki, Bakı mətbuatının səhifələrində fasiləsiz olaraq əsassız şəkildə məni zəhərləyir, mənim üzərimə partiya üzvü üçün çox təhqiramiz olan ağır ittihamlar atırlar: əksinqilabçı, ikiüzlü riyakar, millətçi, alçaq xalq düşməni, müsavatçı... 18 ildir partiya sıralarındayam. Onun 8 ilini Mikoyan, Orconikidze və Kirov yoldaşların bilavasitə rəhbərliyi altında işləmişəm. Bu dövr ərzində partiyanın əsas xəttindən kənara çıxan heç bir meylim olmayıb və indi də yoxdur. Bacardığım, gücüm çatdığı qədər işləmiş, mübarizə aparmışam. Heç vaxt müsavatçı, millətçi olmamışam. Mənim Azərbaycandakı işim sizə yaxşı məlumdur... Bolşevik üçün əsassız böhtandan ağır*

*cəza yoxdur. Sizdən israrla xahiş edirəm ki, məni əsassız ağır hücumlardan qoruyasınız."*

Onun bu məktubuna cavab gəlmədi. Bütün dövrlərdə M. Bağırov öz fəaliyyətində həmişə ardıcıl, SSRİ XDİK-nın (L. P. Beriyanın), Kremlin və şəxsən İ. V. Stalinin havadarlığına əmin olmuşdur. 1937-ci il iyunun 1-də Azərbaycan XDİK-nın xüsusi tələbi ilə Ə.Qarayev və onun arvadı – X.Qarayeva-Şabanova, ÜK(b)P-nin əsas nəzarət orqanının qərarına baxmayaraq, Moskvada "xalq düşməni" kimi həbs olunaraq və etapla Bakıya göndərildilər.

Həbs anında, M. Bağırovun göstərişi ilə Azərbaycan XDİK-da Azərbaycanda sovet hakimiyyətini silahlı yolla devirmək və burjua dövləti qurmaq məqsədini güdən, necə deyərlər, burjua-millətçi, əslində isə uydurma bir təşkilat haqqında bir sıra cinayət işləri qondarıldı.

Ə.Qarayev millətçi menşevik "Hümmət" təşkilatına mənsub olmaqla yanaşı Xanbudaqovun əksinqilabçı millətçi qrupuna, Azərbaycanda əksinqilabi millətçi təşkilata, terrorçu fəaliyyətə və mərkəzi Moskvada yerləşən əksinqilabi sağçı-trotskiçi terrorçu təşkilata mənsub olmaqda günahlandırıldı.

Ə.Qarayevin, ona verilən işgəncələrə baxmayaraq, istintaq zamanı mətin davranışı insanı heyrətə gətirir və onun möhkəm iradəsinə rəğbət hissi doğurur. 1937-ci il dekabrın 4-də Qarayev günahkar olduğunu qəbul etmir, sonra növbəti istintaq zamanı Qarayevin imzaladığı istintaq protokolunda göstərilir ki, o günahkar olduğunu boynuna alır və onunla birlikdə əksinqilabi fəaliyyətdə iştirak edən bir neçə adamın adını çəkir, lakin sabahı gün Qarayev bütün bu ifadələrdən imtina edir və bu barədə iki akt tərtib olunur. 1937-ci il dekabrın 5-də yenidən günahkar olduğunu qəbul edir. Görünür, Qarayevin yenə də öz ifadəsindən imtina edəcəyindən qorxduqları üçün onu bir daha dindirməyə cəlb etmirlər. Lakin digər məhbuslarla üzləşdirmə zamanı Qarayev yenə də günahkar olmadığını

bildirir. Qarayev məhkəmə iclasında da günahkar olduğunu qəbul etmir. O, ilkin istintaq zamanı verdiyi ifadələrindən qəti şəkildə boyun qaçıraraq bildirir ki, ağır həbsxana şəraiti onu üzüb əldən saldığı üçün o bu ifadələri yalandan verib və əleyhinə olan şahid ifadələrini də "böhtan" adlandırıb. Qarayevin bu mərdliyinə, bu cür möhkəm xarakterə malik olduğuna heyran qalmamaq mümkün deyil.

**1938-ci il aprelin 21-də Əliheydər Ağakərim oğlu QARAYEV SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən güllələnməyə məhkum edilir və elə həmin gün də güllələnir.**

SSRİ Baş Prokurorluğu tərəfindən 1955-ci ildə bu işlərin yenidən araşdırılması göstərdi ki, *"bütün bu ittihamlar yalnız...yalan ifadə almaq üçün ağır şəkildə döyülmələrə və işgəncələrə məruz qalan dustaqların ifadələrinə əsaslanmışdır"*. Müəyyən edilmişdir ki, Əliheydər Qarayev günahsız olmuşdur və cinayət tərkibi olmadığına görə onun cinayət işinə xitam verilmişdir.

**SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 7 dekabr 1955-ci il tarixli, 4m-014305 №-li qərarına əsasən Ə. Qarayevə bəraət verilmiş və o, partiyaya bərpa edilmişdir.**

*(Архив ФСБ. НП № 27788-38)*

Əlavə 2

## İNQİLABDAN ƏVVƏLKİ RUSİYADA BƏZİ ÖLÇÜ VAHİDLƏRİ VƏ ONLARIN İNDİKİ ÖLÇÜ VAHİDLƏRİ İLƏ UYĞUNLUĞU

**VERST** = 1,0668 km = 500 sajın. Mərz versti (XX əsrə qədər) = 2,1336 km (yaşayış məntəqələri və mərzlər arasındakı məsafəni müəyyənləşdirmək üçün)

**HEKTAR** – 0, 9153 desyatin.

**DYÜM** (hollandca *duim*, hərfi mənada baş barmaq) –

1) İngilis ölçü sistemində dünyəvi uzunluq vahidi. Bir dyüm = 1/12 fut = 0,0254 m.

2) Metrdən əvvəlki rus uzunluq ölçüsü. Bir dyüm = 1/12 fut = 10 xətt = 10, 54 sm

**PUD** = 40 funt = 16, 38 kiloqram.

**SAJIN =** 2, 1336 m = 3 arşın = 7 fut

**SENTNER** =100 kiloqram = 6,1 pud = 244, 2 fut.

**FUNT** = 0, 40951241 kiloqram =1/40 pud.

**FUT** (ingiliscə – *foot*, hərfi mənada – ayaq pəncəsi)

İngilis ölçü sistemində uzunluq vahidi, *ft* şəklində işarə olunur. Bir fut = 12 dyüm = 0,3048 m.

2) Rus ölçü sistemində uzunluq vahidi. Bir fut = 1/7 sajın = 12 dyüm = 0, 3048 m.

**Rudolf Nikolayeviç**
**İVANOV**

**BASQIN**
**Bolşeviklərin sovet torpağı qədim Naxçıvanda azğınlıqları haqda acı həqiqətlər**

Rus dilindən tərcümə
edilmişdir

Yığılmağa verilmiş 01.08.2013.
Çapa imzalanmış 19.09.2013.
Formatı 60X90 1/16. “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 29,0 ç.v.
Sifariş № 849. Tiraj 1000 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.